ƏNVƏR MƏMMƏDXANLI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"AVRASİYA PRESS"
BAKI-2005

*Bu kitab "**Ənvər Məmmədxanlı.** Hekayələr" (Bakı, Azərnəşr 1956) və "**Ənvər Məmmədxanlı.** Babək" (Bakı, Azərnəşr, 1994) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613-dc 21**
**AZE**

**Məmmədxanlı Ənvər.**
**Seçilmiş əsərləri.** Bakı, "AVRASİYA PRESS", 2005, 416 səh.

Görkəmli ədibimiz Ənvər Məmmədxanlının bu kitabına onun müxtəlif illərdə qələmə aldığı hekayələri və "Babək" romanı daxil edilmişdir.

Hekayələrdə fərqli insan taleləri və hadisələr lirik, yığcam, eyni zamanda sadə bir dillə təqdim edilir. Yazıçının uzun illər boyu üzərində işlədiyi "Babək" romanı isə Azərbaycan xalq qəhrəmanı Babək haqqında yazılmış bədii əsərlər içərisində öz orijinallığı və tarixi həqiqətlərə yaxınlığı ilə seçilir.

**ISBN-9952-421-18-2**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## “NƏSRİN ŞAİRİ”

Görkəmli ədibimiz Ə.Məmmədxanlı o istedadlar nəslinə mənsubdur ki, elə ilk əsərlərindən etibarən öz mövzuları, öz üslubu ilə ədəbi ictimaiyyətin xüsusi marağına səbəb olmuş, özünəməxsus yaradıcılıq yolu keçmişlər. Hələ ilk povesti olan “Bakı gecələri” (1935) Ə.Məmmədxanlıdan artıq yaradıcılıq yönü müəyyənləşmiş bir yazıçı kimi danışmağa imkan verir. Cavan yazıçı Bakını ancaq qəhrəmanların fəaliyyət meydanı, hadisələrin baş verdiyi sadəcə bir fon kimi yox, qədim mədəniyyəti, nadir təbiəti, özünəməxsus kəskin ziddiyyətləri olan, sürətlə dəyişib təkmilləşən, inkişaf edib irəliləyən, yeni üfüqlər fəth edən ictimai münasibətlər şəhəri kimi təqdim edirdi.

Ə.Məmmədxanlı Azərbaycan nəsrində lirikanın görkəmli nümunələrini yaratmışdır. Bu xüsusiyyəti onun əsərlərindən bəhs edənlərin bir çoxu etiraf etmişdir. Maraqlıdır ki, M.Rzaquluzadə vaxtilə “Mikayıl Manafoğlu” imzası ilə çap etdirdiyi “M.Ənvərin yaradıcılıq yolu” (“Revolyusiya və kultura”, №6, 1939) məqaləsində gənc yazıçını bizdə lirik-psixoloji, emosional nəsrin banisi adlandırmış, professor A.Zamanov isə təqribən 45 il sonra ədibə həsr etdiyi məqaləsini (“Kommunist” qəzeti, 1 mart 1983-cü il) “Nəşrin şairi” adlandırmışdır.

Bu keyfiyyətin parlaq təzahürlərindən biri ilə Ə.Məmmədxanlı yaradıcılığının ilk, qüvvətli nümunələrindən olan “Bakı gecələri”ndə qarşılaşırıq. Ədibin əsərlərini, xüsusən, ilk povestini oxuduqda aydın olur ki, Bakının özü də, gecəsi də, gündüzü də onun üçün gözəldir, əzizdir, doğmadır. Bu doğmalıq, bu sahilsiz sevgi təsirli və sirayətedicidir. Bakıda yaşamayan, ömründə bircə dəfə onu görməyən həssas oxucu “Bakı gecələri” əsəri ilə ünsiyyətdə olub, bu şəhərə laqeyd qala bilməz. Realist təhkiyə ilə romantik təsvirin müvəffəqiyyətlə qovuşduğu povest ictimai həyatın tamamilə yeni bir mərhələyə qədəm qoyduğu çox mürəkkəb bir zamanda bəzən kifayət qədər baş çıxarmadıqları hadisələrin burulğanında çırpınan, zümrüd quşu kimi odlara yanan, lakin təzədən canlanan, əvvəlkindən də qüvvətli qanadlar kəsb edərək inkişafın yeni ənginliklərinə qoşan gəncliyin intibahını özünəməxsus bir tərzdə əks etdirir və bu mənada böyük C.Cabbarlının “Sevil”i ilə səsləşirdi. Gerçəkliyin təqdimindəki realist məqamlarla surətlərin könül



çırpıntılarının təsvirindəki romantika bu əsərdə üzvi şəkildə qoşalaşıb müəllif məqsədinə uğurla xidmət edirdi.

Ə.Məmmədxanlının əsərləri ilk baxışda sadə görünən, lakin çoxcəhətli həyat lövhələrini, mürəkkəb insan talelərini əhatə edən kompozisiya qurmağın, ardıcıl bədii təhkiyənin, ümumi qayəyə uğurla xidmət edən təfərrüatları seçib mənalandırmağın, bütün bunları lirik-psixoloji təsvirin məcrasına düzgün yönəltməyin mükəmməl nümunələri ilə zəngindir.

Müasir intellektə, incə, həssas qəlbə, cəmiyyət və insanlar qarşısında vəzifə borcu və məsuliyyət duyğusuna malik olan bütöv səciyyəli qəhrəmanları Ə.Məmmədxanlı sevə-sevə təsvir edir. Onların vasitəsilə öz oxucusunu haqqın, ədalətin, təravətli yaradıcı fikrin, incə duyğuların, yüksək bəşəri ideallarıın təntənəsi uğrunda çarpışmağa, ətalətə, bədxahlığa, eqosentrizmə, vaxtı keçdiyi üçün ələ-ayağa dolaşan münasibətlərə qarşı mübarizəyə sövq edir. Bəzi surətlərin işıqlı ideallar uğrunda mübarizədə həlak olduğunu göstərəndə də ədib bununla ictimai ədalətsizliyə qarşı fəal humanizm mövqeyindən çıxış edir.

Ə.Məmmədxanlı surətləri müstəqim yolla təqdim etməkdən, onlara əndazəsiz xarakteristikalardan ibarət hazır yarlıqlar yapışdırmaqdan uzaqdır. Biz onun öz əsərlərində kimlərinsə yaxşı, mehriban, namuslu, həqiqətpərəst, kimlərin isə əksinə, pis, nanəcib, zalım, yalançı, biqeyrət sözləri ilə təqdim olunduğunu görmürük. Onun nəsrindəki surətlərin “pisi” də, “yaxşısı” da, tərəddüd edəni də, hadisələr labirintində özünü itirəni də, bir qayda olaraq öz işi, əməli, adamlara münasibəti, duyğu və düşüncələri, öz daxili aləmi ilə məhz canlı, həyati, bədii obraz kimi açılıb göstərilir.

Şaxtalı gecədə, çölün düzündə, körpəsi donmasın deyə, bütün olanolmazını öz əynindən çıxarıb tifili bürüyən, daha heç şeyə gümanı gəlməyəndə isə büzüşüb bükülərək bədəninin son hərarəti, qəlbinin axırıncı döyüntüləri ilə körpəsini məhv olmağa qoymayan ana bir bədii obraz olaraq bu üsulla yaradıldığı üçün nəzərimizdə müəzzəm heykəl kimi ucalır. Yaqut (“Bakı gecələri”), İlyas (“Ayrıldılar”), Odunçu oğlu (“Karvan dayandı”), Süreyya (“Qızıl qönçələr”) bizim yaddaşımızda məhz bu vasitə ilə həkk olunur.

40 ildən artıqdır ki, dərslik və xrestomatiyalara (müntəxəbatlara) düşən “Buz heykəl”, eləcə də “Sevinc”, “Ananın ölümü” hekayələri, “Bəxtiyar” kino-novellası, digər hekayə, oçerk və yol qeydləri 1941-45-ci illər

müharibəsi dövrü cahanşümul hadisələrinin Ə.Məmmədxanlı yaradıcılığındakı özünəməxsus mikroinikasıdır.

Müharibə vaxtı bir müddət Təbrizdə xidmət etmiş Ə.Məmmədxanlının yaradıcılığında cənub mövzusu xüsusi məhəbbətlə əks olunmuşdur. "Karvan dayandı", "Qızıl qönçələr" və "Baş xiyabanda" hekayələri məhz o illərin məhsuludursa, "Od içində" dramı həmin illərin təəssüratı və əlavə axtarışlar əsasında, lakin sonralar yazılmış əsərlərdəndir.

"Qızıl qönçələr" Cənubi Azərbaycanda, bütünlükdə İranda xalqın zəhmətkeş təbəqəsinin ağır vəziyyəti haqda bir əsərdir. O gözəl, qeyrətli, pak və mehriban qızın – rütubətli zirzəmidə qızıl əllərilə sahibkar xalçasına əbədiyyət naxışları vuran yetim Süreyyanın gözümüz önündə şam kimi əriyib puç olan ömrünə dərin təəssüf və pərişanlıq duyğuları bu gün də bizi tərk etməmişdir.

Əlbəttə, ədəbiyyat obrazlı sənətdir, lakin obrazlı yazmaq sahəsində yazıçı səriştəsinin dərəcəsi müxtəlif olur. Ə.Məmmədxanlı həmişə obrazlı təfəkkürü, onun yazıda ifadəsi olan obrazlı təhkiyəsilə seçilmişdir.

Ə.Məmmədxanlı təbiət mənzərələri təsvirinin görkəmli ustalarından biridir. Meşə, çay, dəniz, dağlar, dərələr, səma, yağış, qar, külək, qasırğa onun təsvirlərində təravətli biçimlərdə açılır, başlıcası isə qəhrəmanlarının daxili aləmi ilə bu və ya digər dərəcədə səsləşmədə, ayrı-ayrı hallarda isə kəskin kontrast vəziyyətində təqdim olunur. Bəzən Ə.Məmmədxanlının öz təsvir obyektinə böyük, qlobal baxışına heyran qalmamaq olmur: "Səhərmi açılırdı, axşamını düşürdü, güneşmi görünürdü, aymı batırdı, çaylarmı dənizə axırdı, dənizmi qabarıb *çaylara dolurdu, yermi göydə əks edirdi, göylərmi yerdə? Bütün varlıq,* həyat, zaman və bütün nəhayətsiz kainat sanki yenidən yaranır, yenidən səslənir, yeni, füsunkar bir cilvədə onun gözlərində işıqlanırdı" ("Afaq").

Azərbaycan teatr sənəti tarixində parlaq iz qoyub getmiş rejissor, professor Mehdi Məmmədov deyirdi ki, Ə.Məmmədxanlının səhnə əsərləri "Milli dramaturgiyamızın realist ənənələrini yaşadan, müasir həyatın, sənətin mühüm, mürəkkəb problemləri ilə səsləşən sanballı dramlar, böyük çərçivəli dramatik tablolardır".

1945-ci ildə məşhur şah üsulu azadlıq hərəkatını boğduqdan sonra cənubda xalqın başına gələn dəhşətli faciələri gərgin dramatik səhnələrdə göstərən "Od içində" pyesi eyni zamanda inandırır ki, ictimai



ədalətsizliyə və milli zülmə qarşı mübarizəyə qalxmış xalqın qələbə əzmi qırılan deyil. Əsərin gərgin, dramatik konflikti, canlı xarakterləri, səhnə tələbincə çox təbii səslənən dialoqları, nəhayət, qaldırdığı məsələlərin aktuallığı baxımından belə bir əsərə Azərbaycan teatrının repertuarında ciddi ehtiyac duyulmaqdadır.

"Şirvan gözəli"ndə tamaşaçılar Ə.Məmmədxanlının dramaturji istedadının yeni bir xüsusiyyəti ilə tanış olmuşdular. Onun komik vəziyyətlər yaratmaq, komik konfliktin açılmasında lirik çalara ölçü duyğusu ilə yer vermək, idealın bərqərar olması üçün gülüşdən incə bədii vasitə kimi faydalanmaq bacarığı bu əsərin mahiyyətini müəyyən edir. "Şirvan gözəli" komediyasının Aşqabad, Tula, Ufa, Kazan şəhərlərində tamaşaçılar tərəfindən dərin rəğbət duyğusu ilə qarşılandığına dair o dövrün qəzetlərində xeyli məlumat dərc edilmişdir.

Azərbaycan kinematoqrafiyasının inkişafında Ə.Məmmədxanlının özünəməxsus xidmətləri var. Onun ssenarisi əsasında hazırlanmış "Bəxtiyar" kino-novellasını, Ə.Məmmədxanlı ilə M.Hüseynin ssenarisi üzrə çəkilmiş "Fətəli xan" tammetrajlı bədii filmini mənim yaşıdlarım öz yeniyetməlik illərindən yadda saxlamışdılar. Kino sənətinin imkanlarını və inceliklərini yaxşı bilən Ə.Məmmədxanlı kino-povest, kino-roman və ssenarilərinin birinci növbədə əsl həyati konfliktdən mayalanan dramaturji əsasını təmin edir.

"Leyli və Məcnun", "Xürrəmilərin ağ şahini" Ə.Məmmədxanlının bu janrda yazılmış əsərlərinin ən yaxşılarıdır desək, yanılmarıq. Həmin əsərlərin ekran təcəssümünün keyfiyyəti, bu prosesdə müəllif fikrinin hansı səviyyədə qorunub saxlanması başqa bir yazının mövzusudur. Lakin istər "Leyli və Məcnun", istərsə də "Xürrəmilərin ağ şahini" hər şeydən əvvəl Azərbaycan tarixinin və xalq poetik yaradıcılığının qaynaqları əsasında yaradılmış bitkin bədii əsərlərdir.

Azərbaycan ədəbiyyatının böyük dəryasında Ə.Məmmədxanlının öz adası var. Bu möcüzələr adası ilə görüşmək, orada dalğaların özünəməxsus şırıltısı, quşların özünəməxsus nəğmələri, çiçəklərin özünəməxsus rəngi və rayihəsi ilə tanış olmaq istəyənlər ədibin bu əsərlərini bir daha oxuya bilərlər.

***Bəkir Nəbiyev***

# ƏNVƏR MƏMMƏDXANLININ BABƏK DASTANI

Ənvər Məmmədxanlı ömrünün son iyirmi ilində Babək mövzusu üzərində işləyirdi. Seçdiyi mövzulara həmişə son dərəcə ciddi və tələbkar yanaşan yazıçı tarixi hadisələri, Babəkin şəxsiyyətini, dövrün siyasi, fəlsəfi, dini cərəyanlarını dərindən öyrənir, Azərbaycan, türk, rus dillərində tədqiqatlarla, ərəb, fars və yunan qaynaqlarından tərcümələrlə yaxından tanış olur. IX əsr mühitinə dalır, Babək dünyasına məhrəm olurdu. Bu bələdlik, məhrəmlik sənətkarın yaradıcı təxəyyülünə qida verir, o, epoxanın əyani mənzərəsini, müxtəlif insan talelərini, o zamankı həyatın dəqiq ayrıntılarını, siyasi çarpışmaların, dini axtarışların inandırıcı səhnələrini təsəvvüründə canlandırmağı bacarırdı. Və daxili aləmində gördüklərini, xırda təfərrüatlarınacan bildiklərini və fəhmlə duyduqlarını qələmə alırdı.

Babək dünyasının qiyabi sakini olduğu təqribən iyirmi illik bir müddətdə Ənvər Məmmədxanlı bu mövzuya müxtəlif janrlarda müraciət etmişdi. 70-ci illərin əvvəllərindən araşdırmağa, dərinlərinə dalmağa başladığı Babək temasının ilk bəhrəsi – 1974-cü ilin oktyabr ayında bitirib Kinostudiyamıza təqdim etdiyi "Babək" ssenarisi oldu və həqiqi proza səviyyəsində yazılmış bu ssenari əsasında ikiseriyalı "Babək" filmi çəkildi. 1975-ci ildə bitirdiyi "Xürrəmilərin ağ şahini" adlı 3 hissəli tarixi dramı da Babəkə və onun başçılıq etdiyi hərəkata *həsr olunub. Ənvər Məmmədxanlının ikicildliyinin 2-ci cildində nəşr* edilmiş bu maraqlı pyes təəssüf ki, indiyəcən teatrlarımızın və televiziyamızın diqqətindən yayınmışdır.

Lakin şübhəsiz, Ənvər Məmmədxanlının Babək mövzusunda yaradıcılıq axtarışlarının əsas yönü – onun roman üzərində illər boyu davam edən ağır, üzücü zəhmətiylə bağlıdır.

Nə yazıq ki, əcəl yazıçıya bu romanı tam şəkildə oxucusuna çatdırmaq imkanını vermədi. Ənvər müəllim yaradıcılıq prosesi haqqında heç kəslə, ən yaxın adamlarıyla belə danışmağı sevməzdi, roman üzərində işin nə yerdə olduğu, əsərin bitməsi möhləti haqqında sorğu-suallarımızı da zarafata salıb cavabsız qoyardı. Yazıçının qəfil ölümü, yaradıcılıq irsi haqqında bir vəsiyyət edə bilməməsi romanın taleyini də məchul, müəmmalı bir problemə çevirdi.



Ənvər Məmmədxanlının əksər əlyazmaları ərəb əlifbasıyladır. Uzun illər ərzində yazdığı gündəliklər, mütaliəsiylə əlaqədar qeydlər, düşüncələr, bitirib çap etdirdiyi və yaxud etdirmədiyi əsərlər, tərcümələr, bir vaxtlar Mirzə Fətəli Axundzadə haqqında işlədiyi roman ki, ancaq bir neçə fəsli mətbuatda dərc olunmuşdu – bütün bu çox zəngin, amma səliqə-sahmana salınmamış arxivdən Babək haqqında romanı tapıb çıxarmaq asan iş deyildi. Yazıçının bacısı Həbibə xanım Məmmədxanlının fədakarlığı, inadı və səbri ilə bu böyük vacib iş görüldü – ədəbiyyatımız üçün son dərəcə qiymətli olan bir tarixi roman – "Babək" romanının birinci hissəsi tapıldı.

Bu roman da ərəb əlifbasıyla, xırda xətlə, karandaşla yazılıb. Ömürlərinin sonun qədər ərəb əlifbasıyla yazan o nəsil yazıçılarımızın xətlərinə yaxşı bələd olan və onların mətnlərini makinada yaza bilən yeganə adam – qocaman makinaçımız Sona xanımdır və Sona xanımın "Babək"in üzə çıxması üçün qatlaşdığı ağır zəhmətə görə ona minnətdar olmalıyıq. Makinada çap olunmuş mətndə bəzi oxunmamış sözləri, cümlələri (təəssüf ki, bəziləri hələ də oxunulmamış qaldı), yer və adam adlarını dəqiqləşdirməkdə tədqiqatçı Cəfər Müciri öz yardımını əsirgəmədi.

Yuxarıda deyildiyi kimi, tapılıb çapa hazırlanmış əlyazması romanın birinci hissəsidir və buradakı hadisələr Babəkin yalnız gənclik illərini əhatə edir. Əlyazmasının sonunda birinci hissənin bitirilmə tarixi kimi 1984-cü il göstərilib. 1983-cü ildə "Bakı" qəzetinin 10, 11, 13, 14 və 16 may tarixli nömrələrində dərc olunmuş fəsil də bu birinci *hissəyə aiddir.*

Romanın ikinci hissəsi, ya heç olmasa ayrı-ayrı fəsilləri varmıdır? Bu suala hələ ki, tam dəqiq cavab vermək mümkün deyil, bunun üçün yazıçının arxivində uzun illər araşdırmalar aparmaq lazımdır. Amma bununla bərabər oxuyacağınız "Babək" heç cür yarımçıq ya natamam əsər sayıla bilməz. Əvvəla ona görə ki, elə birinci hissədə qələmə alınmış xarakterlərin dolğunluğu, hadisələrin gərginliyi, fikirlərin dərinliyi, siyasi toqquşmaların və dini, fəlsəfi axtarışların dramatizmi o qədər canlı boyalarla təsvir olunmuş, elə səciyyəvi cizgilərlə rəsm edilmişdir ki, əlimizdəki mətni tam hüquqla bitkin sənət əsəri hesab edə bilərik. Bu bitkinlik başqa bir cəhətlə də bağlıdır. İş ondadır ki, Babəkə həsr olunmuş ədəbi ssenarisini də Ə.Məmmədxanlı bir nəsr əsəri səpkisində və əsl proza səviyyəsində yazmışdır. Yəni ssenari janrına xas

olan spesifik ifadələr bu ədəbi əsərin bir roman kimi qavranılmasına əngəl törətmir. Həmin ssenarini əlimizdə ancaq birinci hissəsi olan "Babək" romanının ikinci hissəsi kimi təqdim etməyimizin bir səbəbi budursa, başqa səbəbi – ssenaridəki hadisələrin – romandakı süjetin davamlı olması, eyni obrazların hər iki əsərdən keçməsidir.

Yəni birinci hissədə – romanın fəsillərində – Babəkin yaşadığı dövrün ümumi ruhuyla, tarixi hadisələrin gedişiylə və bütün bunların fonunda Babəkin gəncliyilə tanış olurduqsa, Babək taleyinin ilk kəskin dönüşlərini izləyirdiksə, Babək xarakterinin formalaşmasında, Babək dünyagörüşünün, əqidəsinin durulmasında hansı həyat təcrübəsinin, hansı müşahidələrin, ağrı-acıların, əzab-əziyyətlərin həlledici rol oynadığından agah olurduqsa – ssenaridə artıq yetişib püxtələşmiş Babəkin, mübariz Babəkin, böyük bir hərəkatın əyilməz sərvəri Babəkin obrazını görürük. Beləliklə, ssenari romanı tamamlayır, süjet təbii bir ardıcıllıqla romandan ssenariyə – birinci hissədən ikinci hissəyə keçir. Şübhəsiz, oxucu bu iki hissə arasındakı müəyyən boşluğu da görəcək – yeni hadisələrin düzümündə bir olduğunu duyacaq. Obrazların inkişafı, tale yollarının müəyyən parçaları – bu iki bitkin hissənin arasında, yazılmamış, ya yazılıb tamamlanmamış, ya da hələ tapılmamış bir yoxluqda qalır.

Amma iki hissə arasındakı bu yoxluq, bu boşluq – iki hissə arasında uyğunsuzluq deyil. Yazıçının içəri dünyasında gördüyü Babək obrazı, onun ətrafı – dostlar və düşmənlər – əsərlərin personajları elə dəqiq, dürüst düşünülüb-duyulub ki, birinci hissədə – roman səhifələrində canlanan fərdlər öz mahiyyətini, səciyyələrini, sifətlərini və xislətlərini ikinci hissədə – ssenaridə də hifz edirlər. Romanda karvan qatarçısı gənc Babək haqsızlığa, ədalətsizliyə, zülmə qarşı nə qədər barışmaz, çılğın, üsyankardısa, ssenaridə əzəmətli bir hərəkata başçılıq edən, möhtəşəm qoşun sərvəri Babək də eyni azadlıq yanğısıyla

təqdim etməyimizin əsas səbəbi budur. İkinci səbəb hər iki əsərin eyni püxtə yazıçı qələminin məhsulu olmasıdırsa, üçüncü səbəb də var: əsərin hər iki hissəsini ümumi bir vəhdətdə birləşdirən böyük bir ideal, müqəddəs bir amal – Azadlıq ideyası və ya Ənvər Məmmədxanlının özünün çox sevdiyi ifadəni işlətsək – "Azadlıq yanğısı". Bu ya digər dərəcədə hamını sıxan mənəvi əsarət dövründə Ənvər Məmmədxanlı bu əsəri azadlıq eşqinə və azadlıq eşqilə yaratmışdı.

– Ey yazıqlar, siz heç vaxt dərk etməyəcəksiniz ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir.

Yazıçının başqa bir ağrılı fikri də bu əsərdə öz əksini tapmışdır. Ənvər Məmmədxanlı yaşamağa məhkum olduğu cəmiyyətin, quruluşun ehkamlarını ömrü boyu qəbul etməmişdi, onlarla barışmamışdı, kənara çəkilərək tərki-dünya, xanənişin bir həyat sürmüşdü – öz içəri aləminə qapılmışdı, susmağı danışmaqdan üstün saymışdı. Amma bu sükut – lallıq deyildi və yazıçı daima – gecə-gündüz dərdini-sərini qarşısındakı ağ vərəqlərə söyləyirdi. İlbəil, aybaay, günbəgün xalqa təlqin olunan şirin vədələrə, yer üzündə gələcək cənnət xülyalarına Ənvər müəllim bir an da olsa inanmamışdı. Və bu inanmazlığını, etirazını son əsərində də ifadə etmişdi. Adil Nuşirəvan əyyamı haqqında nağıllara inanmayan Babəkə müsahibi: "Ya həzrət – deyir – sənin də can atdığın böyük gələcək və yaxud bərabərlik dünyası məgər bir nağıl deyilmi uşaqlar üçün? Və əgər ədalətli keçmiş birinci yalandırsa, ədalətli gələcək də ikinci yalandır".

Bu sözlər də ədalətli gələcək və bərabərlik dünyası haqqında nağılların rəsmi ideologiya olduğu dövrlərdə yazılıb.

Şübhəsiz tarixi məlumatların bolluğu Şərq keçmişinin çoxçeşidli siyasi hadisələrinə, şəxsiyyətlərinə istinadlar, isimlər və coğrafi adlar, müxtəlif fəlsəfi, dini etiqadların şərhi – mətni bir qədər ağırlaşdıran bütün bu cəhətlər oxucudan müəyyən hazırlıq tələb edir. Qarşımızdakı mətnin oxunuşu asan, yüngül, ötəri mütaliə olmayacaq. Dilimizin ecazını ən dərindən duyan və duydura bilən ədiblərimizdən birinin – Ənvər Məmmədxanlının bu əsərlərindəki dili də müəyyən mənada mürəkkəb, qəliz bir təhkiyə üslubuyla bağlıdır. Ağır ləngərli, qollu-budaqlı, uzun, mürəkkəb cümlələr, çoxşaxəli bir cümlənin içində dəfə-dəfə "və" bağlayıcısının və "bu" işarə əvəzliyinin işlənməsi, ayrı-ayrı şəxslərə müraciətlərin "ey Babək" yaxud "ya Vəcna" şəklində olması və ya da eyni bir adama "Ey bacım və ey Cunay", "ya əmir və ey qardaşım"

– deyə xitab olunması və bu kimi başqa ifadə vasitələrindən Orta əsr Şərq nəsrinin üslub xüsusiyyətləri stilizə edilmişdir, mətnin ümumi ruhu, poetikası qədim salnamələri, təzkirələrin, risalələrin təhkiyyə formalarını xatırladır. Romanda fəsillərin adları da Füzuli "Leyli və Məcnun"undakı fəsil başlıqlarını – beytləri yada salır. Ümumən bütün mətn çox naxışlı, sıx ilməli Şərq xalısını andırır və bu mətnin hüsnünü, özəlliyi və gözəlliyini tam dərk etmək üçün oxucudan müəyyən səy tələb olunur. Fəqət bu dərin, qavramanın nəticəsində alınan zövq o qədər lətif, incədir ki, düşüncələrimizdə, duyğularımızda salınacaq və uzun zaman qalacaq iz o qədər dərindir ki, bu səyin, zəhmətin bahası *ödəniləcək, mənəvi qazanc vaxt itkisindən qat-qat üstün olacaqdır.*

Əlbəttə, əcəl möhlət versə idi, Ənvər Məmmədxanlı Babək dastanını özü və ayrı şəkildə tamamlayardı. Amma təqdim etdiyimiz şəkildə də bu əsərin ədəbiyyatımızda öz yerini tutacağına, gələcək araşdırıcıların, ədəbiyyatşünasların və tənqidçilərin diqqətini çəkəcəyinə şübhə yoxdur.

...Dəhşətli edamından qabaq Babək xəlifə Mötəsimə meydan oxuyur:

– Ey kor yapalaq, bütün müstəbidlər kimi sən də səhv edirsən, çünki mənim dastanım elə bir dastandır ki, nə Babəklə başlanmışdır, nə də Babəklə qurtaracaq.

Babəklə başlanmayıb Babəklə qurtarmayacaq əbədi Azadlıq dastanının bir səhifəsini də Ənvər Məmmədxanlı qələmə alıb.

***Anar***



# Hekayələr

## BAKI GECƏLƏRİ

Yadımdan çıxmayıb ki, o ulduzlu avqust gecəsi ki, yuxarıda göy qübbəsi "min bir çiçəkli, min bir yarpaqlı" idi, aşağıda isə bir dağ kəndi çoxdan işıqlarını söndürmüşdü, ertədən yuxuya getmişdi, amma kəndin yuxarı başında, meşə ətəyində, bizim evdə hələ də yeddilik çıraq yanırdı.

Anam heybəmi ayın-oyunla doldururdu, atam doqqaz qabağında, qoşulu öküz arabasının yanında məni gözləyirdi.

Bütün gecəni yol gedəcəkdik, səhər açılanda dəmir yolu stansiyasına çatacaqdıq və hər gün səhər tezdən günbatandan gəlib beş dəqiqə o stansiyada nəfəsini dərən, sonra günçıxana doğru çapan bir sürət qatarı məni həsrətində olduğum uzaqlara, az qala dünyanın o başına, təkcə adı yanımda çəkiləndə ürəyim döyünən böyük və əfsanəvi bir şəhərə aparacaqdı. Və mən orda ömrümdə ilk dəfə dəniz adlanan möcüzəni görəcəkdim, o şəhərin yan-yörəsindəki neft buruqları meşəsində gəzəcəkdim, elə bir meşədə ki, orda minlərlə qara çeşmələr qaynayırdı və gecələr kəndimizin işıqlarından yeddilik çıraqların hamısında o qara çeşmələrin ağ cövhəri yanırdı.

O ağ cövhəri isə bizim tərəflərə, dəmir yolundan uzaq kəndlərə vaxtaşırı günçıxandan gələn dəvə karvanları gətirirdi. O karvanlar ki, caydaq dəvələrin hürgücləri dərisi qapqara tuluqlarla yüklü olurdu, onlar keçdikləri kəndlərə, obalara o şəhərin göndərdiyi işığı paylaya-paylaya baş alıb günbatana doğru gedərdilər.

Kənddə birinci xoruz banı idi, avqust göylərində tez-tez ulduzlar axırdı, ayın solğun ziyasına qərq olmuş kiçik meyvə bağlı həyətimizdə qapqara bir pişik yenə cır alça ağacının gövdəsini cırmaqlayırdı və elə bil bülöv daşına bıçaq çəkib korşalmış caynaqlarını ovxarlayırdı, uzaqlarda isə başı qarlı sıra dağlar ətəyindəki taxılı biçilmiş kövşənlərə yenə od vurulmuşdu ki, torpaq gələnilki əkin üçün gübrələnsin və o vaxt ki, o dağların ətəkləri zolaq-zolaq alovlu olurdu, o yanan kövşənlər hər gecə o dağları çəkib çox yaxına gətirirdi, gündüzlər isə dağlar yenə geri çəkilirdi və geniş bir vadiyə səpələnmiş kəndlər, obalar üstündə nəhəng divarlar kimi bir-birinin dalında göyə ucalırdı.

...Sürət qatarı gurhagurla gələndə kiçik dəmiryol stansiyası zağ-zağ əsmişdi. Yer titrəmişdi, çiyni xurcunlu kənd adamları vaqonlara doğru cummuşdular. Mən həyəcanla atamın çiynindən, atam isə tələsik mənim alnımdan öpmüş və demişdi:

– Di get, yaxşı yol, amma orda papağımızı yerə soxma!

Bütün yolu bircə dəqiqə də olsun vaqon pəncərəsindən qopmamışdım, nə bir tikə çörək yemişdim, nə bir qurtum su içmişdim, ayaq üstündə günü axşam eləmişdim, çünki ilk dəfə idi sürət qatarında ürəyimin susadığı elə bir sürətə qovuşmuşdum ki, bu sürəti qavramaqla sərməst olub bütün dünyanı unutmuşdum.

Uzaqlara baxmışdım, göy əyrisi ağır tərpənişli nəhəng çevrə kimi sağdan sola hərəkətə gəlmişdi, yaxına baxmışdım, relslərin yanından torpaq kükrəmişdi, arxaya axmışdı.

Üfüqlərə kimi uzanan ənginliklər isə ağacsız, kölgəsiz qupquru yanıq çöllər idi ki, o çöllərə səpələnmiş yastı-yapalaq daxmalı kənd və obaların fərəhsiz mənzərəsindən göz yorulurdu, ürək sıxılırdı.

Amma sonra qatar dayanmadan kiçik bir stansiyadan çapıb keçərkən yaxın kəndlərdən birinin arxasından çıxan və sanki o kəndin yastı-yapalaq daxmaları üstündən uçaraq irəli şığıyan böyük bir ceyran sürüsü sürət qatarıyla yarışa başlarkən bu yovşanlı-sirkanlı bomboz düzənlərə elə bir yaraşıq vermişdi ki, vaqonların pəncərələri bir anda adamlarla əhatə olunmuşdu. Mürgü döyən qocalar mürgünün yapışqanlı yuxusunu hörümçək toru kimi üzlərindən silmişdilər və kiçik uşaqların gözlərindən bir dərya işıq aşıb-daşmışdı...

***

Gün batan çağı sürət qatarı Bakı vağzalının üstüörtülü platforması qarşısında dayanmışdı və birinci olaraq vaqondan yerə mən sıçramışdım, heybəmi çiynimə aşırıb vağzal önündəki meydana çıxmışdım, burda atları tumarlı, sürücüləri çox uzun çuxalı saysız-hesabsız qara rəngli faytonlar iki cərgə ilə bir-birinin dalınca düzülüb dayanmışdı və müştəri çağıran o faytonçuların səs-küyü meydanı elə başına götürmüşdü ki, qoca bir faytonçu ikinci dəfə məni səsləyib və demişdi:

– Ada, çöllü balası, ağzını açıb hara baxırsan, otur gedək, yoxsa vağzalın xəzpuşları mafar verməz, heybəni çiynindən, papağını başından elə çarpışdırar ki, sonra ağzın bir saat açılı qalar.

Yarım saat sonra şəhərin günbatanında dağüstü məhəllənin bir küçəsində faytondan düşmüşdüm və üçmərtəbəli böyük bir evin bir əlcə həyətinin ortasında dayanmışdım, əllərimi heybəmin döşümdən asılmış gözü üstə çarpazlamışdım və aşağıdan, elə bil dərin quyu dibindən yuxarıya – şüşəbəndli mərtəbələrə baxa-baxa qalmışdım.



Çünki böyük şəhərin bu evi haqqında bildiyim yalnız o idi ki, bu evin hansı mərtəbəsindəsə mənim şəhərli sonsuz xalamla əri Əlimürsəl kişinin iki otaqdan ibarət mənzilləri var.

Yuxarıda, böyük evin yastı damı üstündə bir oğlan uşağı məhəccər qırağında dayanmışdı və bez köynəyi altından çıxartdığı ağ göyərçinləri bir-birinin dalınca göyə atdıqca, o quşlardan bəziləri havalanırdı, qanad çalıb göyə millənirdi, digərləri bir neçə dəfə qanadını şaqqıldadır, çox tez geri dönür və damın qırağında bir-birinin yanına düzülərək, yanakı baxışlarla aşağıya, həyətdə dayanmış mənə tərəf boylanırdı.

Bu vaxt ikinci mərtəbənin aynabəndindən bir qız da başını çölə çıxartmışdı və eynilə damın qırağına düzülmüş o ağ göyərçinlər kimi yanakı bir baxışla aşağı baxmışdı və başı çal papaqlı, çiyni qırmızı heybəli görkəmim görünür diqqətini çəkmişdi ki, boynunu bir az da irəli uzatmışdı. Kəhrəba boyunbağısı, xurmayı saçları axmışdı, üzüaşağı tökülmüşdü və bənövşəyi gözləri bir an məni tədqiq eləyəndən sonra demişdi:

– Bağışla a... deyəsən nabələd adamsan, niyə məəttəl qalmısan orda, kimi axtarırsan?

– Kənddən gəlmişəm, – demişdim, – amma bilmirəm xalamgil burda hansı mərtəbədə olur.

Şəhərli qız şuxluğa başlamışdı:

– Bu evdə o qədər xala var ki, hansı mərtəbəyə qalxsan, rastına cavanəzən bir xala çıxar, hayıl-mayıl olarsan!

Qıza bir söz deməyə macal tapmamış bu dəfə də birinci mərtəbənin şüşəbəndin arxasından kiminsə çox xırıltılı yoğun səsi gəlmişdi:

– Eşidirsən, arvad, xalasıgilə gəlib oğlan! Daha kənddə yerə bel vuran qalmadı, doldu şəhər ağzınacan motal papaqlarla. – Elə bular, bu cinni Cəfər qoşunu qapıb aldı imarətimin iki mərtəbəsini mənim əlimdən...

Qaşlarım çatılmışdı, əgər birinci səsdən, şəhərli qızın o ilahi səsindən sonra bu ikinci nahamvar səs böyük şəhər təkəbbürünün səsi idisə, mən də dərhal kiçik bir dağ kəndinin təkəbbürü ilə qarşı qoymağa hazır idim ki, yuxarıdan yenə şəhərli qızın gümüş cingiltili səsini eşitmişdim:

– Vaxsey, fikir vermə ona, qoca kişidir, elə qocalıb ki, hələ də milisə polis deyir...

Sonra bilmişdim ki, bu böyük imarət o qocanın şəxsi mülki imiş, amma indi ancaq birinci mərtəbə qocanın əlində qalıb, ikinci mərtəbə

ilə üçüncü milliləşdirilmişdir, daha sonra isə belə bir səhnənin şahidi olmuşdum ki, o milliləşdirilmiş mərtəbələrin aynabəndlərindən qadınlar bir-birilə atışanda, qoca əlində çəlik həyətə çıxmışdı və başını yuxarı qaldırıb bağırmışdı ki, kəsin səsinizi bihəyalar, yoxsa bu saat gedib polis çağırram və bir dəqiqə əvvəl bir-birinə söz atan o qadınlar o saat hırtıldaşıb başların geri çəkmişdilər.

Çaşıb qaldığımı görən şəhərli qızı:

– A... – demişdi, – bəlkə Tutu xalanın bacısı oğlu elə sənsən, dünən dizinə döyürdü ki, Yunis gəlib çıxmadı, uşaqcığaz imtahanlara gecikdi, çıx yuxarı üçüncü mərtəbəyə, qoy yazıq arvad uşaqcığazını görüb sevinsin!

Və qız başını yuxarı qaldırmışdı, dam üçtündə quş uçurdan balaca oğlanı səsləmişdi:

– Səttar, ordan Tutu xalaya de ki, bacısı oğlu gəldi, gözləri aydın!

Sonra yenə aşağı baxmışdı və düz üzümə yönəldilmiş şux bir gülüşlə başını geri çəkmişdi, aynabənd arxasında yox olmuşdu.

Və o dəqiqə elə bil axşamın da titrək işığı sönmüşdü, kiçik həyətə dərin zülmət qaranlıq çökmüşdü.

***

Tutu xala məni qupquru sinəsinə basmışdı, kövrəlmişdi. Hıçqırmışdı və istəmişdi bir ağız məni oxşasın, amma Əlimürsəl kişi aman verməmişdi, məni və atamı məzəmmət eləməyə başlamışdı:

– Dədənə üç dəfə kağız göndərmişəm ki, səni tez yola salsın, hazırlıq kurslarına imtahanlar çoxdan başlanıb, yaxşı ki, kağız-kuğazında əyər-əskik yox idi, qəbul elədilər. Sizə, kənddən gələnlərə güzəştə gedirlər, indi çalış imtahanlarda bizi xəcil eləmə!

– Narahat olmayın, Əlimürsəl dayı, çalışarıq şələmizi sudan çıxardarıq.

– Çıxartsan yaxşıdır, yox əgər şələ-küləni qoltuğuna versələr...

– Allah eləməsin a kişi, ağzını xeyirliyə aç...

– Şər deməsən xeyir gəlməz... Onda aparacam səni mədənə yanımda açarçı işləyəcəksən!

Sonra qoca buruq ustası ayağa qalxıb paltarını dəyişib və mədənə getmişdi - çünki yenə bir həftə gecə növbəsində işləyəcəkdi.

Heybəmdəki ayın-oyunu boşaldan Tutu xala isə anamın qarasına deyinməyə başlamışdı:



– Bıy qıza bax a... Nə olub, nə xəbərdir, Basqal kəlağayısıdır bu? Bu nə bədxərclikdir? – Barama qurdu saxlayırdı bu yay da?

Çay içmişdim, xalamın bitib tükənməyən suallarına cavab vermişdim və içəri qaranlıqla dolanda xalam ayağa qalxmışdı, divardakı elektrik düyməsini çıqqıldatmışdı, otaq tavandan asılmış üçqanadlı çilçırağın ağ işığı ilə dolmuşdu, sonra xalam məni dalınca salıb, mənim üçün hazırladığı ikinci kiçik otağa aparmışdı.

Xalamın ardınca içəri girmişdim və içəri girən kimi o kiçik otağın kiçik pəncərəsi gözləri qarşısında elə əzəmətli bir mənzərə sərmişdi ki, irəli atılmışdım. Pəncərənin hər iki qanadını taybatay açmışdım və elə bil bir işıq dənizi aşıb-daşaraq üstümə gəlmişdi, sonra çəkilmişdi üzüaşağı axmışdı, gözümün şövqünü arxasınca aparmışdı və mən handanhana səsimi çıxarmadan nəfəsimlə demişdim:

– Haradır, ora xalacan, hansı dünyadır ora?

Arxamda dəmir çarpayıdakı yatağımı sahmana salan xalam nəfəsimin səsini eşitmişdi, gəlib yanımda dayanmış və demişdi:

– Hara olacaq. Bakıdır da, qadan alım... Bax ora günçıxan tərəf Qaraşəhərdir, ondan o yana Ağşəhərdir, düz qənşərindəki İçərişəhərdir, bu yan da günbatan tərəf, Bayıl təpələridir....

Gecə milyon işıqların aramsız titrəyişi içində idi və bu titrəyişdən gah o tərəfdə, gah bu tərəfdə ağ şüalar içində mavi qığılcımlar uçuşurdu, sonra gedib uzaqda yan-yana düzülmüş işıq topalarından at nalına oxşar böyük bir qövsü cızırdı və o atəşli qövsün içindəki hamar və bu tutqun bir düzəngahda iki qırmızı nöqtə növbələşərək bir-bir yanıb sönürdü.

Xalam da mənimlə bərabər xeyli baxmışdı o gecəyə, sonra yavaşdan "xudaya" deyib köksünü ötürmüşdü və getmək istəmişdi.

– Dayan xalacan, – demişdim, – bax ora qaldı, demədin o hamar, o işıqsız düzənlik haradır ki, sinəsində qara bir çıraq yanır.

Xalam əlimin göstərdiyi uzağa baxmışdı və demişdi:

– Ora da dəryadır, qadan alım, ertədən yatarsan, sabah gedib o dəryaya baxarsan, o salxım-salxım işıqlar da o dərya qırağındakı, xiyabanın çıraqlarıdır. Ertədən duracaqdım, sabah da gedəcəkdim o dəryaya baxacaqdım? Bir halda əl uzadıb zaman-zaman hələ uşaqlıq illərinin yuxularında çalxanan o mavi sonsuzluğa çatacaqdım – gecənin qurtarıb, səhərin açılacağını gözləməyə səbrim qalmamışdı.

Çal papağımı gözüm üstünə basmışdım, qapıya doğru yönəlmişdim, xalam xəbərdarlıq eləmişdi:

– Çox uzağa getmə, ha, elə burda öz küçəmizdə bir az gəz-dolan, sonra qayıt evə, yıxıl yat, yol yorğunusan, canına qəsd eləmə.

Ürəyin səbirsizliyi idimi, intizarın tükənişi idimi, sirli bir səsin çağırışı idimi, nə idisə, məni elə bir həyəcan içində şəhərin yuxarı başından aşağı başına qovmuşdu ki, elə bil o dəniz bu saat ətəyini əlinə alıb qaçmağa başlayacaqdı və mən onun dalınca yüyürəcəkdim, amma çatmayacaqdım, sonra isə bütün ömrüm uzunu itirilmiş o mavi dənizin sorağıyla diyarbadiyar gəzəcəkdim.

Sonra üzüaşağı endikcə daha çıraqban olan küçələrdə daha çox vurnuxmuşdum. Yolu gah düzünə, gah köndələninə getmişdim, şəhərin axşam qaynarındakı izdiham içində çox sıxcalanmışdım, çox çalxalanmışdım, böyük şəhər içində önümə çıxan kiçik bir şəhərin yuxarı başındakı qala qapılarından içəri girmişdim və burda ilişdiyim sehrin əlindən qurtulmaq üçün çox çırpınmışdım, nəhayət qurtulub dəniz kənarına çıxarkən, sanki daşları faciəli əfsanəsindəki qara bir ehtirasın cəhənnəm dili ilə qarsılmış Qız qalasının uca və qara heykəlinə yalnız bircə an baxa bilmişdim.

Və burada dənizkənarı xiyabanda qaynaşan izdihamı köndələninə yarıb keçəndən sonra, sinəm daş hörgülü bir səddə dirənəndə o səddin çopur və nəmiş daşları üstə yaslanmışdım və ömrümün unudulmaz bir gecəsində ömrümdə ilk dəfə gecə dənizi ilə üz-üzə qalmışdım.

Yaxının suları üstündə titrək işıltılar gəzinirdi, uzağın suları üstündə dağınıq qaraltılar sürünürdü və o qaraltılar arasında o iki qırmızı nöqtə yenə növbələşərək gah alışır, gah sönürdü. Yuxarıda – göy qübbəsində isə üç-dörd gecəlik aypara "Sineyvaz" qovunundan kəsilmiş sarı bir qıça kimi ağ buludlar altında üzürdü.

Qalxmışdım, daş səddin üstündə üzüm dənizə sarı oturmuşdum.

Və gözlərim açıq elə bil bir röya aləminə qərq olmuşdum.

Bu röyada gecə dənizi çadraya bürünmüş bir qadın kimi yaşmağı altından baxan yaşıl gözlərinin cadugər cazibəsilə məni çəkib haraya isə sirli-sehirli bir dünyaya aparmışdı və orda qara bir qapı açılarkən mən o qapı arxasında bənövşə gözlü ağ səadətimi görmüşdüm.

Handan-hana o vaxt oyanmışdım ki, elə bil gəlib arxamda dayanmış bir səssizlik yavaşdan əlini çiynimə qoymuşdu. Dönmüşdüm arxama baxmışdım, dənizkənarı xiyabanda qaynaşan izdiham yox olmuşdu və kimsəsizləşmiş o xiyabanın axşam çağı ağ çiçəkli işıqları indi bir az saralmış və solmuşdu.



Və bu vaxt bu səssizlik içində gecə dənizinin çox uzaqlarda sinəsindən qopan boğuq bir səslə köksünü ötürdüyünü eşitmişdim. Donub yerimdə qalmışdım və gözləmişdim. Çox çəkməmişdi və gecə dənizi elə bil ağrısını canından çıxarmaq istəyən canlı bir varlıq kimi bu dəfə daha dərindən və daha boğuq bir vıyıltı ilə yenidən köksünü ötürmüşdü.

Orda, o dağ kəndində evimizin dalındakı damı yırtıq, bir divarı uçuq o köhnə samanlıqda gecənin hansı aləmindəsə öküzlərdən hansı isə eynilə bu cür, sinəsinin dərinindən qopan boğuq bir səslə köksünü ötürəndə bəzən mən yuxudan oyanardım və uzun-uzadı yerimin içində oyaq qalardım və mənə elə gəlirdi ki, bu təpəl öküzdür, yuxusunda qara-qura görüb o cür köksünü ötürür, yaxud bu, bütün günü ağır boyunduruq altında canına hopmuş o sonsuz yorğunluğun ağrısıdır ki, indi qəlpə-qəlpə canından çıxır.

Və indi elə bil gecə dənizi də bütün günü canına hopan bir yorğunluğun ağrısını canından çıxarmaq üçün iki dəfə köksünü ötürmüşdü və mən bir dənizin canına hopmuş o azman yorğunluğu təsəvvürümə gətirmək istərkən, xəyalımda qurduğum bütün qurğuların sarsıldığını hiss eləmişdim.

Ayağa qalxıb o gecə ilk dəfə üz-üzə gəldiyim və sahilində sehirlənib qaldığım o gecə dənizindən ürəyimə axıb dolmuş nə isə anlaşılmaz bir təlaş hissilə ayrılmışdım.

Küçələr bomboşdu, bu kimsəsiz küçələrin birində dirək başındakı böyük bir elektrik saatının dəyirmi və ağ siferblatında qara əqrəblərin hansı rəqəmlər üstündə dayandıqlarını görərkən, gecənin bu vaxtına kimi nigaran qoyduğum yazıq və qoca bir qadın qarşısında duyduğum xəcalət hissindən başımı aşağı salmışdım. İndi məhz çox tələsdiyim üçün daha tez azmışdım, yolu daha çox uzatmışdım, dəfələrlə bu və ya digər bir dalan, yaxud bir döngənin sonunda ağzım divara dirənmişdi, geri dönmüşdüm.

Sonra gəlib dik yoxuşlu bir küçə başında içəriyə açılmış yaşıl rəngli bir qapı görmüşdüm və o açıq qapıdan çox böyük elektrik lampasıyla işıqlandırılmış kiçik, yaraşıqlı bir həyət görünmüşdü, həyətin üstünü örtən yaşıl talvarın kəhrəba giləli üzüm salxımları altında yerə böyük bir palaz salınmışdı və o palaz üstündə halay vurub oturmuş kişi məclisində iki nəfər bir-birilə meyxana yarışına çıxmışdı. İndi meyxana deyənlərə vagirlik eləyən bir dəstə oğlanın qıyya vuran səsləri göyə ucalmışdı.

Yanında canan olsun gün batanda
Yerin Xırdalan olsun günbatanda!

Abşeron yarımadasının coğrafiyasını hələ mənimsəməmişdim və düşündüm ki, görəsən hara imiş o Xırdalan ki, oranın günbatan çağında yanında cananın görmək həsrətilə sinədəftər olmuşdu bu oğlanlar?

Və elə bu vaxt, gecənin bu aləmində bir dəstə çadralı qadın o həyətin yaşıl rəngli qapısından küçəyə çıxmışdılar, qarşı səkidə məni görərkən tez bərk-bərk çadralarına bürünmüşdülər və üzlərini məndən yana çevirmişdilər.

Lakin o qadınlardan ən arxadakı başından sürüşmüş qara işıltılı liberti çadrasını başına çəkməmişdi və o vaxt mən onu, o məni tanımışdı, hər ikimiz gözlərimizi döyərək bir an bir-birimizə baxa-baxa qalmışdıq və sonra mən qeyri-ixtiyari bir addım irəli ataraq nə isə demək istərkən, qız tez şəhadət barmağını dodaqları üstünə qoymuşdu, səsimi çıxartmağı mənə yasaq eləmişdi. Dinməmişdim, amma qaşlarım çatılmışdı, dinməmişdim, amma şəhərli qızın bir mərtəbə yuxarıdakı qonşusuna qarşı göstərdiyi bu kəm iltifatdan ürəyim sınmışdı, çünki o vaxt hələ bilmirdim ki, gecənin o aləmində bir kişi xeylağının üzünü ondan gizləyən çadralı şəhər qadınlarına yaxınlaşması, bir uşağın qupquru barıta yanar kibrit çöpü uzatması kimi çox təhlükəli bir oyundur və bundan bixəbər olduğum üçün üzümdə nə cür bir ifadə zahir olmuşdusa, qız pıqqıldayıb əlilə ağzını tutmuşdu, sonra başıyla işarə eləmişdi ki, dinmə, danışma, amma dalımızca gəl.

Sonralar mən təsadüf ilə taleyin gizlənpaç oyunu haqqında çox fikirləşəcəkdim, amma o gecə mənim üçün elə bir röyaya çevrilmişdi ki, əgər arxasınca getdiyim o qara çadralı qız birdən-birə ağ bir göyərçinə dönsəydi və uçub gələrək mənim çiynimə qonsaydı, mən artıq buna heyrət etməyəcəkdim.

Qadınlar ayaqlarındakı dabansız nəleyinlərini sürükləyərək, can üzən ağır yerişlərilə yayxana-yayxana uzaqlaşırdılar, görünür toy, yaxud nişan məclisindən qayıdırdılar və başları "əndamı yanmış Gülxar xanımın" qiybətinə elə qarışmışdı ki, nə arxalarınca gələn qızın hərdən bir dönüb geri baxdığından, nə də tənha bir kölgənin o qızı izlədiyindən xəbərləri olmamışdı.

Sonra həyətdə, küçə qapısı dəhlizinin qaranlığında dayanıb gözləmişdim, qadınlar iki dəstəyə bölünüb, ah-ufla sağdakı, soldakı pilləkənlərlə yuxarı mərtəbələrə qalxıb yox olmuşdular və bu vaxt mənim üçün yol açılanda yüyürmüşdüm, ikinci mərtəbənin pilləkən meydançasına çatmışdım ki, birdən elə bil hardansa atılan gözəgörünməz bir kəməndə



ilişib büdrəmişdim, geri çevrilmişdim və aynabəndin açıq qapısı arasında dayanmış onu görmüşdüm – çadrası başından yerə düşmüşdü, yalnız bir ucunu sol əlində tutub saxlamışdı və üzündə elə bir ifadə vardı ki, elə bil nə isə demək istəmişdi, yadından çıxmışdı və indi yaxından üzümə baxdığı halda heç bir şey görməyən gözləri dumanlanmışdı.

Susduğu üçün susmuşdum və bu sükutun məngənəsindən qurtulmaq üçün:

– Dənizə getmişdim – deyə bilmişdim.

– Nə vacib olmuşdu ki, dəniz qaçırdı?

– Elə çağırdı ki, dayana bilmədim.

– Kim?

– Dəniz.

– Nə deyirdi ki?

– İki dəfə köksünü ötürdü.

Birdən elə bil özünə gəlmişdi, gözlərində nə isə bir təlaş kölgəsi zahir olmuşdu.

– Bəlkə qəşş eləmisən orda, dəniz qırağında? Özündən xəbərin olmayıb?

– Gərək mənim ürəyim gedəydi orda, dəniz qırağında?

– Bu yanda Bayıl tərəfdə batmış bir şəhər var, bir kitabda yazılıb ki, Səbayeldir o şəhərin adı, o biri kitabda yazılıb ki, "şəhri yunan" imiş o şəhər... Amma haçan batıb şəhər, haçan su altında qalıb, heç qocalar da bunu bilmirlər... Hərdən gecə yarıdan sonra su altındakı o şəhərdən su pərisinin səsi gəlir, kim o səsi eşidirsə, o saat qəşş eləyir... Əgər qulağına səs gəlibsə, gərək Tutu xala səni Nardarana aparsın!

Heç bir şey başa düşməmişdim və başa düşmədiyim üçün demişdim:

– Yox, mən əvvəlcə Xırdalanı görmək istəyirəm... Günbatan çağında...

Heç bir şey başa düşməmişdi, bir an qaşların düyünləmişdi və demişdi:

– Xırdalanda pir yoxdur, məxluq Nardarandakı pirə gedir.

Və elə bu vaxt arxasındakı qaranlıqdan, otaqlardan kimsə elə çığırmışdı ki, hər ikimiz səksənmişdik:

– Ağəz, Yaqut, harda batdın, gəl gir yanıma, məni yuxu aparsın...

– Vaxsey, məmə, səksəndim ki, görmürsən ki, qapı-bacanı bağlayıram...

Və aynabəndin qapısını mənim üzümə bağlamışdı.

Artıq günçıxan tərəfdə, Qara şəhər üstündə göy əyrisi avazımışdı və şəhərli bir qızın bənövşəyi gözlərilə kiçik bir pəncərənin mənə göstərdiyi əzəmətli bir gecə mənzərəsilə, daha sonra qaranlıqda köksünü ötürən bir dənizin sirli nəfəsi ilə sehrlənmiş bir gecəm, böyük şəhərdəki bu ilk gecəm, bir röya kimi sona çatmışdı.

***

Havalar hələm çox isti idi və bürkülü gecələrdə bizim tərəflərdə, şəhərin yuxarı hissəsində evlərin qara asfaltlı yastı damlarının üstündə açıq havada özlərinə yer salıb yatan adamlarla dolu olurdu.

Və bir dəfə xalam mənə demişdi:

- Gecələr içəridə isti olur sənə, çox çalıq yatırsan, istəyirsən sənə də burda, pəncərə altında, dam üstündə yer salım, sərində yıxıl yat.

O gecə kiçik otağımın pəncərəsi altında bizim evə bitişik qonşu evin damında köhnə kilim üstündə salınmış yatağımda uzanıb çox oyaq qalmışdım və qollarımı başım altında çarpazlayıb göydəki o tanış ulduzlara baxmışdım ki, o ulduzlar bizim dağ kəndinin gecə göylərində daha şəfəqli və daha işıqlı idilər, bir-birinə göz vurardılar, bir-birini çağırardılar, burda isə nədənsə tutqunsifət idilər, elə bil bir-birindən küsüb, bir-birindən üz çevirmişdilər.

İmtahanları vermişdim, Əlimürsəl kişi haqlı çıxmışdı, kənddən gələnləri geri qaytarmamaq üçün müəllimlər məni çox bərkə çəkməmişdilər, digər tərəfdən ali təhsilin gələcək taleyimdə oynayacağı rola tamamilə laqeyd olduğum üçün, məhz bu laqeydliyimə görə çox asanlıqla imtahanların öhdəsindən gəlmişdim, xalam çox sevinmişdi. Əlimürsəl kişi məni təbrik eləmişdi və mən kəndə kağız yola salmışdım ki, imtahanları verib qurtarmışam.

Həmişəki kimi yuxu yenə hansı dəqiqənin hansı məchul saniyəsində ildırım sürətilə şüurumu çalıb apardığından xəbərim olmamışdısa, amma sonra gecənin hansı aləmindəsə o yuxudan hövlnak oyandığımı və dik atılıb yerimdən qalxdığımı hələ də unutmamışam.

Üstümə örtdüyüm nazik iplikli yorğan göydə uçurdu, başım yanında kətil üstündə yığdığım üst pal-paltarımdan təkcə yaxası naxışlı köynəyim gözümə dəymişdi ki, o da dam üstündəki yaxın bacaya sarınıb hələlik salamat qalmışdı, çal papağım haraya isə düşmüşdü və indi bir top kimi diyirlənə-diyirlənə üstümə gəlirdi.



Ayağa qalxarkən küləyin şiddətindən səndələmişdim ki, nəfəsim tıxanmışdı, sinəmdə qalmışdı, amma yenə də özümü irəli atmışdım ki, təkcə o çal papağımdan əlim üzülməsin və gecikmişdim, çünki küləyin növbəti burulğanı cücə üstünə şığıyan çalağan kimi o papağı bir anda caynağına alıb fır-fırladaraq göyə qaldırmışdı, sonra əynəmli bir uçuşla və elə bir sürətlə şəhər üstündən birbaş dənizə doğru aparmışdı ki, arxasınca baxa-baxa qalmışdım.

İndi hər tərəfdə bütün qonşu damlar üstündə də bərk çaxnaşma vardı, adamlar boğuq hənirtilərilə yataqlarını qamarlayıb, əllərinə keçən pal-paltarlarını büküb-bükmələyib damlar üstündən qaçırdılar, küçələrdəki çoxməftilli elektrik dirəkləri zil bir səslə vəhşicəsinə fit çalırdılar, yaxın həyətlərdə gah açılan, gah hara isə çırpılan küçə qapıları şaraq-şaraq şaqqıldayırdı, yuxarı mərtəbələrdən qopan pəncərə şüşələri şarıltı ilə küçələrin daş döşənmiş qaldırımlarına tökülüb qumbara kimi partlayırdı.

Bütün şəhər tüstüləyən nəhəng bir tonqal kimi idi, axşamın ağ işıqları indi qum və toz boğanağı içində, gözünü kül örtən bir ocağın gözləri kimi tutqun qızartılarla göz qırpırdı.

Və getdikcə şiddətlənən qasırğalı külək yaxındakı döngə və dalanlar arasında tələyə düşmüş bir yırtıcı kimi qorxunc ulartılarla başını hara gəldi çırpırdı, qabağına nə çıxırdısa basmarlayırdı, eşələyirdi, qarışdırırdı, dağıdırdı, sonra sovurub göyə qaldırırdı və elə bil bütün şəhəri yerindən qopardıb dənizə atmağa gücü çatmadığı üçün qəzəbindən dəli olub müdhiş hıçqırıqlarla hönkürürdü.

Xalam isə bu vaxt təlaş dolu bir səslə pəncərəmdən elə hey məni çağırırdı.

- Bu nə məhşərdir belə, xalacan? – demişdim və pəncərəyə tərəf getmişdim.

– Dəli xəzridir, bala, elə ki, başladı, Bakının qiyaməti qopur, tez yır-yığış elə gir içəri...

Yır-yığış eləmək üçün bir şey qalmamışdı və mənim o gecə dəli xəzri ilə tanışlığım nəinki həmişə gözüm üstünə basdığım o çal papağımla, eyni zamanda papaqla birdəfəlik vidalaşdığım bir tarixçəyə çevrilib qaldı.

Səhər tezdən gecə növbəsindən qayıtmış Əlimürsəl kişi papaq əhvalatından xəbər tutarkən, çal bığları altından qımışmışdı və demişdi:

– Dur ayağa, gedək sənə bir furajka alaq, tax başuva, sonra ali məktəbi qurtaranda özün bilərsən ya fetr şlyapalı olarsan, yaxud çiyni saçlılar tayfasına qoşularsan, başaçıq, döşaçıq gəzməyi özünə adət eliyərsən.

Getmişdik, parusin bir furajka almışdıq, evə qayıdanda yazıq xalam yəqin xəyalında çal papaqla parusin furajkanı müqayisə eləyib yaşaran gözlərini silmişdi, amma "mübarəkdir" – demişdi. Yaqut isə şaqqanaq çəkmişdi, axmışdı, özündən getmişdi:

– Vaxsey Tutu xala, – demişdi, – bu parusin şapka nədir ilin bu vaxtında. Elə ki, bir çin yağışa düşdü, əskiyə dönəcək başında.

Xalam dönmüşdü məzəmmətlə Əlimürsəl kişiyə baxmışdı, yəni niyə qızırqalanmısan, tifilə iraqbətli bir papaq ala bilməzdin?

Əlimürsəl kişi də çiyinlərini çəkmişdi, yəni neynəyim, özü seçdi, özü bəyəndi.

Sonra mən bütün günü zaman-zaman aşağı mərtəbədən Yaqutun gümüşü cingiltilərlə çağlayan gülüşlərini eşitmişdim.

Və günlər keçdikcə Yaqut bənövşəyi gözlərilə, sədəf dişlərinin düzümü ilə, sınıq məxməri qaşları ilə, tez-tez saçından ayrılıb sol gözü üstünə düşən xurmayı tellərilə gözlərim qarşısına elə sehrli bir pərdə çəkməyə başlamışdı ki, gözlərimi qapayırdım bu pərdə yox olmurdu, gözlərimi açırdım, dünya bu pərdə arxasında görünməz olurdu, başımı götürüb hara isə getmək istəyirdim, amma hələ qafil idim, bilmirdim ki, sevgi kəməndinə düşmüş bir ürək üçün bu kəmənddən qurtuluş yolu yoxdur.

Kiçik otağımın dam üstünə açılan pəncərəsi yanında qoyulmuş yazı stolu arxasında oturub bir saatdan çox idi ki, iki məchullu bir cəbr məsələsinin həlli ilə əlbəyaxa olmuşdum. Yazıb pozduğum və şagird dəftərindən qopartdığım vərəqlər stol üstündə qalaqlanmışdı və o vaxt ikinci dəftərdən də bir vərəq qapqara qaralmışdı, nəhayət işıq üzü görünmüşdü, kənək tənliyin kor düyünü açılmışdı və dərhal fikrim qəfəsinin qapısı açılmış bir quş kimi uçmuşdu, harayasa getmişdi, ürəyim isə bir boşluq içində asılıb qalmışdı.

İçəri qaranlıqla dolmuşdu, amma ayağa qalxıb işığı yandırmaq üçün yerimdən tərpənməmişdim, çənəmi qollarım üstünə qoymuşdum, axşam şəhərinin topa-topa alışan işıqlarına baxmışdım, hardasa veyillənən fikrimi hardansa geri qaytarmaq istəmişdim və bu vaxt birdən onu pəncərəm altındakı dam üstündə görmüşdüm.



Bəlkə çoxdan üzünü görmədiyimin, səsini eşitmədiyimin xəyalı idi bu? Yox, özü idi, ağ quşum, ağ səadətim idi.

Ayağı altındakı tasdan götürdüyü kətan ağlarını, nazbalış və yastıq üzlərini, qırmızı naxışlı əl-üz dəsmallarını damın bacalarına sarınmış dirəklər arasındakı iplərə sıxaclarla bənd eləyirdi və o, iki cərgəli ağlar arasında qalaraq asfalt cığırla uzaqlaşıb gedirdi.

Dənizdən həzin bir külək əsirdi, şəhərdə alışan işıqların sayı anbaan çoxalırdı, o isə əyilirdi, qalxırdı, hərdən dizlərini qucaqlayırdı, küləyin qabardıb yuxarı qaldırdığı donunun ətəyini aşağı salırdı, sonra yorğun halda bir an donurdu, hərəkətsiz qalırdı və bu vaxt doğulduğu şəhərin çıraqban axşamı elə bil dönüb yalnız ona baxırdı və qız şəhərin o qızıl işıqları önündə sirli bir rəqsə başlayırdı. Ağ bir xəyal kimi sərdiyi ağlar arasında batıb-çıxırdı, dönüb əllərini iplər üstündə gəzdirə-gəzdirə yaxınlaşır və hərdən yanakı və ani bir baxışla qaranlıq pəncərəmə baxarkən, qaşları çatılırdı. Küləyin üzünə dağıtdığı saçlarını sol əlinin əsəbi hərəkətilə yuxarı atıb və işıqlanmayan pəncərəmin qaranlığından vəhmələnmiş kimi geri dönüb uzaqlaşmışdı. Mən də ayağa qalxıb əlimi elektrik düyməsinə uzatmışdım – birdən elə bil bütün şəhər səksənmişdi, boğuq və heybətli bir nərilti şəhər üstündən göyə ucalmışdı, hava çalxalanmışdı, pəncərə şüşələr cingildəmişdi və damın o biri başında qızın sinəsindən qopan kəsik bir çığırtıdan ürəyim qopmuşdu və bütün bunlar bir saniyənin başlanğıcından o saniyənin sonuna qədər sürən bir zaman müddətində bir-birini izləmişdi.

Özümü pəncərədən dam üstünə atmışdım, qızın dalınca yüyürmüşdüm və indi onun da geri dönüb qaça-qaça üstümə gəldiyini görmüşdüm, sonra o vaxt ki, bir-birimizə çatmışdıq, qorxmuş, rəngi qaçmış ağ səadətimi ilk dəfə bağrıma basmışdım.

Nə olmuşdu, nə baş vermişdi, göydən yerə yanar kometa düşmüşdü, yoxsa hardasa qayalar uçub dənizə tökülmüşdü, hələ heç bir şey başa düşməyərək yalnız qollarım arasında titrəyəni sakit eləmək istəmişdim:

– Qorxma, – demişdim, – qorxma, nə idisə oldu, qurtardı.

– Qurtardı nədir, – demişdi, – ora bax, Bayıl tərəfə... Gör nə boyda alov göyə qalxıb...

Başımı çevirib baxmışdım və heç vaxt görmədiyim dəhşətli bir mənzərə qarşısında donub qalmışdım, günbatanda Bayıl təpələri arxasından fışqıran nəhəng bir alov sütunu qara-qırmızı dili ilə az qala göydəki

buludları yalayırdı, gah burum-burum burulan qapqara tüstü layları içində boğulurdu, gah qaynayırdı, daşırdı, tüstü layları üstündən aşdı və yenidən göyə sıçradıqca nəriltisindən qulaq batırdı. Qız isə sinəmə sığınıb dayanmışdı və yanakı bir baxışla hərdən alovu qaralan, tüstüsü qızaran o məşum məşələ baxırdı və məni başa salırdı ki:

– Orda dənizdə bir yer var – Şıxlar kəndinin o biri böyründə... gecələr qayıq ilə ordan keçənlər kibrit yandırıb dənizə atanda suyun üzü o saat od tutub yanır... İndi yəqin orda dəniz partlayıb, su yarılıb, bu əjdaha da başını ordan, yerin altından, dənizin dibindən çölə çıxardıb...

Gecə doğrudan da qorxunc bir nağıla oxşayırdı və qız qorxmuş bir uşaq kimi xəyalında dənizi partladırdısa, suyun altından, dənizin dibindən bu odlu əjdahanı çölə çıxardırdısa, bəlkə də haqlı idi.

İndi artıq hər tərəfdə bütün evlərin küçə balkonları və yastı damlarının üstü izdihamla dolmuşdu, topa-topa dayanmış o adamların arxasındakı qara çadralı qadınlar başlarını yuxarı qaldırıb əllərini göyə uzatmışdılar.

Bu zaman iki partlayışını qırmızı alovlu yenə bir-birini izləmişdi və başını göyə dirəmiş o heybətli əjdaha hər tərəfi, aşağıda çox uzaqlara kimi dəniz sularını, yuxarıda göy tağbəndinə kimi ulduzlu fəzanı, yuvalarına qayıdan bir cüt ağ göyərçini də titrək parıltılı qızartdaq bir rəngə boyamışdı.

Handan-hana xalamın pəncərədən gələn səsini güclə eşitmişdim.

– Yunis, hardasan?

Yaqut diksinmişdi, qollarım arasından sıyrılmaq istəmişdi, amma qollarımın çəmbərini qıra bilməmişdi və mən başını sinəm üstə qoymuş ağ səadətimin ürəyimi döyündürən həyəcanından dəyişilmiş bir səslə xalama cavab vermişdim:

– Burdayam xalacan, – sən bilən bu nədir belə?

– Bibiheybətdir, ora, yəqin buruq fantan vuranda daş-daşa dəyib, od çıxıb, nöyüt alışıb... Kişi də hələ ordadır... səsinə nə olub, vallah o çit şapkada timov olacaqsan axırda sən...

Gecə qara vaqiəli bir yuxuya oxşayırdı, amma xalam qorxub gözü dörd olmuş bir qız uşağı deyildi, qocaman bir buruq ustasının həyat yoldaşı idi və baş verən qorxunc hadisəni görünür o daha düzgün fəhm eləmişdi.

– Əlimürsəl dayıdan nigaran qalma, xala, – demişdim, – gedərəm bir xəbər gətirrəm!



Bu dəfə qollarım arasındakı sağ əlilə sinəmi çəngələmişdi və hiddətli bir pıçıltı ilə demişdi:

– Hara gedəcəksən? Bu saat ora yəqin qoşun gedir ki, avara adamları yaxına buraxmasın, uşaq-muşaq əl-ayağa dolaşmasın... burax məni, xalan bura baxır.

Xalam bizə tərəf baxmırdı, baxsaydı belə bu ağlar arasındakı mənim ağ göyərçinimi gözü seçə bilməzdi, amma elə bu vaxt xalamın yanında peyda olan Yaqutun anasının çığırtılı səsi qulağımızda cingildəmişdi:

– Ağəz, Yaqut hardasan, yığışdır ağları düş aşağı, gecə göydən hiss yağar, pal-paltar zay olub gedər.

– Bu saat, anacan – demişdi və döşümdən məni elə bir şiddətlə geri itələmişdi ki, qollarındakı qüvvətə heyrət eləmişdim.

Sonra pəncərədən yenə anasının səsi gəlmişdi:

– Səsinə nə olub, ağəz, yoxsa qorxmusan?

– Həri səksəndim, məmə, lap ürəyim qopdu bayaq...

– Yaxçı, yığış gəl evə, ağanənəyə deyərəm, çildağa aparar səni...

Və xalam ilə qızın anası pəncərədən çəkilib getmişdilər.

Abşerona məxsus xalq təbabəti növləri haqqında təsəvvürüm yoxdu, ona görə elə bilmişdim ki, Çildağ, yaxud Cehildağ yer adıdır və qızı nənəsi haraya isə aparacağından təşvişə düşərək yavaşdan demişdim:

– Nə üçün ağanənən səni Çildağa aparmalıdır nə işin var sənin o kənddə, yaxud o dağda?

Pıqqıldamışdı, amma tez əlilə ağzını tutmuşdu və demişdi:

– Tək məni yox, səni də aparmaq lazımdır.

– Məni niyə?

– Əsirdin bayaq... Çildağ ocağında əsməcəli adamların əndamına elə qəşəngcə dağ çəkirlər ki, sabahı gün əsməcəsindən əsər-əlamət belə qalmır.

Aha, demişdim öz-özümə, ağ səadətimin yaxşıca cırmaqlayan caynaqları da varmış!

Sonra kömək eləmişdim, iplərdən asılmış ağları yığışdırmışdı və getmişdi, mən isə dam üstündə tək qalmışdım, göy üzü indi tutqun mis rəngində idi: dan yerindəki ulduzlar zərrin duman içində əriyib yox olmuşdu, günbatan tərəfdəkilər də elə bil pərən-pərən düşüb seyrəlmişdi. O aramsız və heybətli nəriltinin səsi hələ də eşidilməkdəydi.

Çit şapkamı başıma keçirib küçəyə çıxanda xalama demişdim ki, gəlib-gedəndən bir xəbər bilib qayıdıram və burdan, şəhərin yuxarı məhəlləsindən birbaşa Bayıl təpələri arxasına gedən araba yolu ilə baş alıb getmişdim...

Bir saat yol gedəndən sonra gəlib Bayıl təpələrinin günbatan tərəfindəki yamaclarını izdihamla dolu görmüşdüm. Bu izdiham içində çoxlu oğlan uşaqları vardı, sal daşların üstündə əyləşib dizlərini qucaqlamış qocalar vardı, körpələri qucaqlarında yatmış çadralı-çadrasız gənc qadınlar da gəlmişdilər. Onlar bu gecə vaxtı bura, bu dəhşətli mənzərəyə yaxından tamaşaya gəlmişdilər, bəlkə hər birinin orda, o odlu əjdaha ilə əlbəyaxa çarpışan bir yaxını, bir əzizi üçün duyduğu nigaranlıq hissi çəkib bura gətirmişdi.

İzdiham içindən keçmişdim, yamac ilə üzüaşağı enmişdim, burda, dəniz ilə dağ ətəyi arasındakı sahədə salınmış yeni neft mədəninin buruqları arasıyla uzanan yola düşmüşdüm ki, qoluna qırmızı şilədən sarğı bağlamış bir oğlan qabağımı kəsmişdi.

– Dayan, a yoldaş, hara belə?

Başımla yanan buruğa tərəf işarə eləmişdim:

– Ora, dayım ordadır, evdə nigarandılar.

– Qayıt geri və evdəkiləri sakit elə ki, insan tələfatı yoxdur.

– Yox, kişinin özünü görmək istəyirəm.

– *Kimdir axı o kişi və nəçidir?*

– Buruq ustasıdır, adı Əlimürsəldir, əsli Əmirhacıyanlıdır.

Əlimürsəl kişinin adı o saat öz təsirini göstərmişdi, çünki qocaman buruq ustası Abşeronda qazdığı on dərin neft quyuları ilə məşhur idi və iri, çalbığlı şəkilləri tez-tez qəzetlərin birinci səhifələrində çap olunurdu.

Oğlan məni dalınca salıb bir az irəli apardı, yolun yarısında telefon aparatı olan otaqda başqa yoldaşla görüşüb nəsə danışmışdı.

Burada o cəhənnəm məşəlinə hələ bir neçə yüz metr qaldığı halda dənizin yanğına yaxın suları elə bil qaynayırdı, hardansa havaya ağ buxar layları qalxırdı və qızmar hava dalğası adamın üz-gözünü qarsır, ciyərlərini pörşələyirdi və aramsız heybətli nəriltidən adamlar hamısı lal olmuşdular, ağızların açırdılar, amma səsləri eşidilmirdi, buna görə idi ki, ikinci oğlan nə demişdisə mənə bağıra-bağıra demişdi:

– Otur orda, bayırda, qapı ağzında, qabaqda ancaq qoşun hissəsi var, yanğınsöndürənlərin maşınları var, qıraq adamları ora buraxmağa



icazə yoxdur, otur orda gözlə, xəbər göndərərik ustaya, əgər macalı varsa özü gələr bura...

İkiadamlıq kiçik skamya üstündə çox oturub qalmışdım və üzümə vuran cəhənnəm istisindən, bir dəqiqədə qan-tərə batmışdım, otaqda oturub telefon zənginin keşiyini çəkən oğlan da iki-üç dəfə çölə çıxmışdı, yaylığı ilə alnının tərini silmişdi, bir yanğına tərəf baxmışdı başın bulamışdı, bir mənə baxmışdı qaşların çatmışdı, sonra yenə içəri getmişdi. Çox gözləmişdim, Əlimürsəl kişi gəlib çıxmamışdı, ayağa qalxıb qayıdıb getmək istəmişdim, amma tərəddüd içində qalmışdım, gah dönüb geri baxmışdım, gah otağa boylanmışdım ki, bəlkə o sarı rəngli telefon zəng vuracaq və bu vaxt içəridəki oğlan ayağa sıçramışdı, otaqdan çıxıb demişdi:

– Soruşmaq eyib olmasın, hara belə?

– Kişi gəlib çıxmadı, qayıtmaq istəyirəm.

Diqqətlə başdan ayağa məni gözdən keçirmişdi və demişdi:

– Fərağat otur yerində, otur görək dayın gəlib çıxanda heç tanıyacaqmı səni?

– Bu nə sözdür? Başa düşmədim.

– Canım əgər o vulkandırsa...

– Vulkan nədir ada, – deyə oğlan sözümü kəsmişdi, – qazılan buruq fantan vuranda qaz alışdı, dayın Əlimürsəl kişi, əgər o kişi doğrudan da dayın isə haqlı imiş, dünəndən narahat idi, qazılmış suxuru ovcunda qoxuladıqca deyirdi ki, torpaq çox qazlıdır və nə lazımdırsa bütün ehtiyat tədbirləri görmüşdü, amma yenə də qəza baş verdi. *Saçı-saqqalı ağarmış qocaman buruq ustalarının belənçik azman* yanğın gördükləri yadlarına gəlmir, qərəz otur yerində, xəbər göndərmişik o tərəfə, cavab gələr nə yaxşı, gəlmə nə yaxşı...

Və oğlan yenə içəri keçmişdi – təhkim edildiyi telefon aparatı yanında kiçik stol dalında oturmuşdu.

Əlimürsəl kişinin qazılmış suxurdan ovcuna götürüb qoxuladığını gözlərim qarşısına gətirəndə xatırlamışdım ki, orda bizim o dağ kəndindəki qoca Diyar kişi də əyilib ayağı altından bir ovuc torpaq götürüb ovxarlayardı, qoxulayardı və o torpağın nəyə qadir olduğunu – hansı əkin üçün daha əlverişli və sərfəli olduğunu həmişə səhvsiz təyin eləyərdi.

Və xəyalımın yenə kəndimizə doğru bu növbəti uçuşunda başım üstündə Əlimürsəl kişinin səsini eşitmişdim:

– Deyəcəksən ki, xalan göndərib səni gecənin bu aləmində bura?

– Yox evdən çıxanda xalama ancaq onu dedim ki, gəlib-gedəndən bir xəbər bilib qayıdıram.

– Elə isə nə vacib olmuşdu ki, oturub burda pörşələnirsən?

– Əgər bilsəydim ki, ilişib bu budka yanında əsir olub qalacam...

– Qulaq as, çöllü balası, bu otuz ildə mən o yazıq arvadı gecələr bu qədər nigaran qoymamışam ki, sən şəhərə gələli bu otuz gündə...

– Bu saat Əlimürsəl dayı yüyürəppə qayıdıram şəhərə!

– Oğlan, yüyürəppə qayıdacaq şəhərə, gəl min görək.

[illegible]

bir araba dayanmışdı yolda və Əlimürsəl kişi ilə o qazalağa minmişdik, sonra yolda Əlimürsəl kişi gözlərini hara isə məchul bir nöqtəyə zillə-

[illegible]

mişdi və öz-özünə təkrar eləmişdi:

Sonrakı günlər Qaraşəhər üfüqlərində günəş ucalarkən şəhər üstündəki göylərin mis qızartıları solurdu, günəş şüalarıyla yuyulurdu, amma günbatandakı göy əyrisində bir-birinin üstünə qalaqlanan tüstü layları nəhəng bir çətir kimi hər gün bir az daha artıq qabarır və getdikcə daha geniş fəzaları qara ətəkləri altına alırdı.

Əlimürsəl kişi günlərlə evə gəlmirdi, amma gələn zaman bizə dediyi yalnız bundan ibarət olurdu ki:

– Zorba əjdahadır, xamuta gəlmir.

Və tam bir ay o əjdaha heç bir boyunduruq altına girməmişdi, başına keçirilən dağ ağırlığındakı polad qapaqları hər dəfə göyə vızıldatmışdı, bir an susmayan fasiləsiz nəriltisi ilə böyük bir şəhərin yuxusunu qaçırmışdı, qırmızı xallı his püskürən cəhənnəm nəfəsilə şəhərin günbatandakı üfüqlərinə qara bir pərdə çəkmişdi.

O gecələr mən də ürəyimdəki yalqızlıqdan qurtulmaq üçün sonları günbatandakı qırmızı üfüqlərə dirənən küçələrdə dolaşıb dururdum, evə qayıdarkən uzun-uzadı pəncərəm qarşısında dayanırdım və o qara asfaltlı dam üstü ki, hər dəfə mənim ağ səadətim orda görünəndə, o dam üstü gözümdə ən gözəl bir laləzarə çevrilərdi, indi bir aydan çoxdu ki, gecə və gündüz bomboşdu, hətta bir aydı ki, Səttarın ağ göyərçinləri də gəlib o dam qırağına qonmurdu və tam bir aydı ki, Bakının gecələri qırmızı idisə, mənim yuxularım qara-qura ilə dolu idi.

***

O axşam birdən, ansızın olaraq şəhər üzərinə elə bir səssizlik çökmüşdü ki, elə bil bütün şəhər bu dəfə də bu nagahani səssizlikdən səksənmişdi, hər halda bu səssizlik məni elə o dəqiqə pəncərəmdən dam üstünə atmışdı və o qıpqırmızı üfüqlərin indi qızartısı sönmüşdü, əjdaha yerə sərilmişdi, ağzından çıxan dili qapqara qaralmışdı, amma quyruğu hələ ölməmişdi və ölməmiş o quyruğuyla o vaxta kimi yeri eşib göyə sovurmuşdu ki, nəhayət göydə bu axşamın bu birinci ulduzu alışmışdı və ölü gözləri bu ulduzu görərkən, bütün canı bədənindən çıxmışdı.

Sonra o axşam bütün ulduzlar göydə tərtəmiz ağ bir işıqla parıldamışdı, uzaqdan dənizkənarı xiyabandan musiqi səsi gəlmişdi və bu axşam qazalaqdan düşüb yuxarı qalxan Əlimürsəl kişi yalnız bircə kəlmə:

– Tamam, – demişdi və yıxılmışdı ölü kimi yatmışdı.

Bir mərtəbə aşağıda isə mənim ağ səadətim də aynabəndlərinin bütün pəncərələrini açmışdı və o açıq pəncərələrin birindən başını çölə çıxarmışdı, balaca Səttarın uçurduğu ağ göyərçinlərə baxmışdı, sonra yavaşdan nə isə oxumağa başlamışdı. Həzin nəğməsini sözlərini ayırd eləyə bilməmişdim, amma səs çəkmişdi məni uşaqlıq illərindəki unudulmuş bir günə aparmışdı, o günə ki, mən ayaqyalın, başıaçıq yazın ağ yağışı altında dayanmışdım və amansız bir intizar içində bu saat, bu dəqiqə nə isə olacağını gözləmişdim, amma nə qədər gözləmişdimsə heç bir şey olmamışdı və heç bir möcüzə baş verməmişdi.

Amma indi, bir saat sonra otağım qaranlıq ilə dolanda və mən ayağa qalxıb işığı yandırmaq istəyəndə möcüzə baş vermişdi. Onu, ağ səadətimi qara asfaltlı dam üstündə görmüşdüm.

Hər dəfə pal-paltar sərmək üçün dam üstünə çıxarkən başıaçıq olardı, xurmayı saçları çiyninə dağılardı, yerişinin naxışı, əllərinin uçuşu, sərdiyi ağ arxasında yox oluşu sirli bir rəqsə çevrilirdi. İndi isə elə bil hara isə getmək istəyirdi, tələsik mavi yelənli ağ kəlağayısını başına atıb, yolda çaş-baş qalmışdı, nə edəcəyini bilməmişdi, nə geri dönmüşdü, nə irəli getmişdi və özünə yer tapa bilmədiyi üçün uçmaq istəyən bir quş kimi damın qırağından aşağı boylanmışdı, qayıtmışdı, geri dönmüşdü, pal-paltar asdığı qoşa iplərə ilişib dayanmışdı, başını qaldırıb göydəki ulduzlara baxmışdı, elə bil gecəykən bir səhrada yol azmışdı və indi səmti təyin eləmək üçün o ulduzlar içində qütb ulduzunu axtarırdı və hər tərəf elə qaranlıq idi ki, nə yaxında, nə uzaqda bir işıq ucu, bir işartı görə bilmirdi. Bu vaxt şəhərin bir-birinin dalınca alışan topa-topa işıqları bütün ağ şüaları ilə ona doğru uçurdu və iki addımlığındakı pəncərə arxasında döyünən bir ürək elə bil guppultu ilə bağlı bir qapını döyürdü.

Sonra birdən elə bil nə isə eşitmişdi, üzü bəri dönmüşdü, qaranlıq pəncərəmə tərəf baxmışdı, dalından atlı qovurmuş kimi qaça-qaça gəlmişdi, qaranəfəs bir halda özünü pəncərəmə yetirmişdi və girdaba baxırmış kimi gözlərini yumaraq ağ göyərçin əllərini otağımdakı qaranlıq içinə uzatmışdı və demişdi:

– Hardasan, tez ol, tut əlimdən kömək elə!

Özümü irəli atmışdım, qollarından tutub havaya qaldırmışdım və onu gətirib kiçik mizin üstünə qoymuşdum ki, işığı yandırım.

– Yandırma, – demişdi, – elə burda qaranlıqda bir hovur oturmaq istəyirəm...



Sonra nə demişdisə sözləri kiçik otağımın qaranlığında qəfəsə düşmüş quşlar kimi çırpınmışdı, bir kor kimi onu axtara-axtara qalmışdım, çünki dilimiz bir-birini anlamayan iki yabançının dili idi ki, bu saat dünya dillərindən yetmiş ikisini bilən bir dilmanc belə bizi bir-birimizə tərcümə eləyə bilməzdi.

...Hələ çox kiçik imiş və bir payız axşamı anası ona layla çalırmış, amma o yatırmış, çünki atasının yolunu gözləyirmiş və aqronom atası o axşam Şağan bağlarından at üstündə Şüvəlana qayıdırmış, cibində iki dənə darçını xallı, narıncı rəngli şamama varmış, balaca qızı üçün gətirirmiş, amma yolu yarı eləməmiş qaranlıqdan, meynələr arasından açılan bir namərd gülləsilə at üstündən yerə sərilmişdi, at ürküb qaçmamışdı, ölümcül yaralanmış sahibinin başı üstündə dayanmışdı və bütün gecəni kişnəmişdi.

Böyük əmisi şəhərdə faytonçu imiş və yenə faytonçudur, Şüvəlanda başsız qalan anası ilə onu şəhərə köçürmüşdü və himayəsi altına almışdı.

Bu gün axşamacan düyü hövsəyib, kişmiş arıtlamışdı, çünki böyük əmisi xəbər göndərib ki, sabah axşam arvadı Gülxanımla onlara qonaq gələcəkdir.

Birdən başı elə ağrımışdı ki, ufuldamağa başlamışdı, anası gözün ağartmışdı ki, vaxt tapdı gic başın ağrımağa, – yaxçi, kəlağayını başına sal, çıx dam üstündə bir az hava al.

Burda dam üstündə ürəyindən qəribə bir arzu keçmişdi, əgər Tutu xalanın qızı olsaymış, çıxacaqmış hər axşam bu dam üstünə və hər dəfəsində xalaoğlunun, yəni mənim pəncərəmə xırdaca, fındıq boyda bir daş atacaqmış...

"Bəxtəvər başına sizin o dağ kəndinin qızlarının ki, heç vaxt başlarına nə qara, nə ağ çadra salmayıblar, Tutu xala bir dəfə danışırdı ki, cavanlıqda bir dəstə qız idik, tumanımızı dizə qədər çırmayıb ayağımızı bulaq altından axan suya sallamışdıq, saqqız çeynəyirdik və at üstündə gəlib yanımızdan keçən, özlərini bizə göstərən oğlanlara söz atırdıq..."

Və məhz bütün bu dərədən-təpədən dediklərilə içərimdə baş qaldıran təlaş hissi ürəyimi elə bir məngənə arasına almışdı ki:

– Yox! – demişdim.

– Nə yox, – demişdi, – istəməzdin ki, sən mənim xalam oğlu olasan, mən də sənin xalan qızı?

– Çünki sən mənim anamın ahugözlü gəlini olacaqsan!

O zəngli saat ki, Əlimürsəl kişi kooperativ mağazadan alıb mənə bağışlamışdı və o saat ki, hər səhər qara-qışqırıq salıb məni ağır yuxularımın dərinindən dartıb çıxardırdı, indi də aralığa çökən bu səssizlik və qaranlıq içində o saatın ürəyi dəlicəsinə bir çaqqıltı ilə döyünməyə başlamışdı.

Və handan-hana qaranlıqdan ağ səadətimin titrək və dəyişilmiş səsi gəlmişdi:

– Ah, sən hələ uşaqsan, gözüm ışığı...

– Uşağam, yaxud qocayam, fərqi yoxdur, – demişdim, – əgər uşaq olsaydım belə yalnız səni sevəcəkdim və qoca olsaydım, dalınca sürünüb özümü rüsvay edəcəkdim.

Axşamüstü üfüq xəttində mis tava böyüklüyündə və o tava qırmızılığında olan ay indi kiçilmişdi, ağarmışdı və çox yuxarıda körfəzin gümüşü cığırlı suları üstündə dayanmışdı. Kiçik pəncərədən içəri düşən ay işığında indi o payızın ağ gülü kimi zərif, solğun və bir az da üşümüş kimi idi.

Başını qaldırmışdı və demişdi:

– Tutu xalanı kinoya apar, Yunis can, özün görürsən ki, Əlimürsəl dayının başını qaşımağa macalı yoxdur, deyirlər şəhərdə "Forum" kino teatrında əntiqə bir kino gedir, kim baxırsa, gözündə yaş durmur, sən əvvəlcə gedərsən üç bilet alarsan, sonra qapıda dayanıb gözləyərsən, Tutu xala da çadrasın başına salar, düşər aşağı anamdan icazə alar, başıma çadra salıb məni özüylə aparar, orda üçümüz yan-yana oturub o kinoya baxarıq, mən ağlaram, ürəyimi boşaldaram, amma sən dinməzsən, guya heç bizi tanımırsan.

Bu vaxt dam üstündən elə bil ayaq səsləri gəlmişdi və kim isə pəncərə dalından keçib getmişdi.

Bu böyük dünyada bu bir tikə qara asfaltlı ərazi ki, bizim xəlvətgahımız idi, bu gecə vaxtı bu kim ola bilərdi?

Qalxıb pəncərənin önünə keçmişdim, o da dalımca gəlmişdi, arxadan kürəyimə qısılmışdı və nəfəsini udmuşdu.

Və biz dam üstündə balaca Səttarı görmüşdük.

Ay işığı ilə işıqlanmış dam üstündə pəncərədən kənardakı baca yanında dayanmışdı, başını yuxarı qaldırıb göydəki ulduzlara baxırdı və o ulduzlar içində Yaqutu çağırırdı:

– Gülbacı, düş aşağı, anan çağırır.



***

O gün dərsdən sonra tələbə komitəsinin hazırlıq kurslarında növbəti iclas olmuşdu, axşamüstü evə gec qayıtmışdım və o axşam həyət qapısından üçüncü mərtəbəyə qalxanacan, böyük bir evin bütün mərtəbələri, o mərtəbələrin bütün aynabəndləri və o aynabəndlərin bütün pəncərələri, hətta balaca Səttarın üçüncü mərtəbənin damı üstündəki quşxanasında quruldayan ağ göyərçinləri də car çəkmişdilər ki, dünən gecə Yaqutun əmisi qardaşı qızını böyük oğluna istəmişdir, Yaqutun əmisi arvadı Gülxanım qızın barmağına nişan üzüyü keçirmişdir...

Sonra da... sonrasına qulaq asa bilməmişdim, çünki ansızın beynimdə əsməyə başlayan xəzrinin ulayışından başqa heç bir şey eşitməmişdim.

Sonrakı axşamların birində xalam mənim otağıma gəlmişdi, işığı özü yandırmışdı və demişdi:

– Elə bildim evdə yoxsan, niyə qaranlıqda oturmusan?

– Gözləyirəm ki, həyətdəki o səs-küy kəsilsin, sonra işığı yandırıb işə başlayım...

– Elədir, axır günlər həyətimiz dönüb zənənə hamamına, çünki sabah qızı köçürürlər, deyirlər otuz fayton dolusu adam gəlib qızı aparacaq.

– Hansı qızı, xalacan?

– Guya bilmirsən, hansı qız olacaq, o bədbəxti...

Otaqda mənə hava çatmamışdı, qalxmışdım pəncərəni açmaq istəmişdim, pəncərə açıq imiş, pəncərə ağzında oturmuşdum, xalama qulaq asmışdım, xalam demişdi:

– Qonşuların hamısını toya çağırıblar, heç bilmirəm neyniyim, gedim yoxsa getməyim?

– Niyə getmirsən ki, kənddə qoca Diyar kişi deyərdi ki, əgər arvadlar eşitsələr ki, göydə toy var, nərdivan söykəyib göyə çıxarlar – indi ki, xoşbəxt olub, gedərsən sən də xoşbəxt ol, deyərsən!

– Əgər görsəydin ki, necə ağlayır, kiriyərdin, belə söz deməzdin, nə olsun adaxlısı öz əmisi oğludur, qıza zülm elədi anası, zornan verdi...

– Sirr-xudadır bu xalacan, – qara qarğa yanında göyərçin balası...

– Qulaq as, Yunis, istəyirsən bilet alım...

– Kinoya?

– Kino nədir ədə, qatara bilet alım, get beş-on gün kənddə gəzdolan, qoy dədən sənin üçün quzu kəssin, anan səhərlər sənə qaymaq yedirtsin, görürəm dərslərin çox ağırdır, ayaq üstündə lap üzülmüsən.

– Dünən özüm bu ayın toqaüdünü almışam, xalacan, aparar məni kəndə çıxardar, hələ xırım-xırdası da bir il orda cibimdə qalar.

– Bir il nədir ədə, peşman olduq sənə bir söz dedik, bir il kənddə qalıb neynəyəcəksən?

– Ovçuluğa başlayacağam, yaxud qəza mərkəzində kurs qurtaracam, qayıdıb kolxoz atlarına baxan feldşer olacam.

Və xalam birinci dəfə idi ki, özündən çıxmışdı:

– Yox, – demişdi, – bircə onu görmiyəcəksən, özbaşına deyilsən, burda oxuyacaqsan – burda ali məktəbi qurtaracaqsan, sonra Qara şəhərdəki o böyük zavodlardan birində müdir olacaqsan!

Sonra yazıq arvad bilməmişdi ki, daha nə desin və ayağa qalxıb gedəndə nə elədiyinin fərqinə varmadan, divardakı elektrik düyməsini burmuşdu və işıq sönmüşdü.

Və çox qəribədir ki, son zamanlar hər gecə səhəri diri gözlü açdığım halda, indi bir az dincəlmək istəyərək pal-paltarlı dəmir çarpayım üstündə uzanan kimi, elə o dəqiqə məni yuxu aparmışdı.

...Sonra gecənin hansı aləmindəsə birdən oyanmışdım, qalxıb işığı yandırmaq, saata baxmaq və bir az yazıb-pozmaq istəmişdim, amma gözlərimi açarkən yarısı ay işığı ilə dolmuş otağımda çarpayımın baş ucunda ağ bir xəyalın oturduğunu görmüşdüm, bir xəyal ki, əynində qara donu vardı, sol əlini yuxarı qaldırıb biləyini dodaqlarına sıxmışdı və qırpımsız baxışlarını yuxarıdan aşağıya üzümə zilləmişdi:

Bax, *bircə bu qalmışdı, ağ səadətim məni tərk eləmişdi, amma* xəyalına qara bir libas geyindirib, mənə gecəyarı qonaq göndərmişdi.

*Çox gözəl, indi, bu xəyal dil açıb mənə bir söz də desə,* lap bəxtəvər olardıq, daha bu dünyada heç bir dərdimiz olmazdı və o xəyal doğrudan da dil açmışdı, dodaqlarını bir anlığa sol biləyindən qopartmışdı və demişdi:

– Bir tikə təmiz ağ olsaydı...

Qalxmışdım, oturmuşdum və korsayağı əlimi saçlarına çəkmişdim, üzünə çəkmişdim, sonra başımı dizləri üstə qoymuşdum və demişdim:

– Nə deyirsən de, təəccüb eləmiyəcəyəm, təki səsini eşidim.

Başım üstündən yenə çox sakit və çox yorğun səsi gəlmişdi:

– Qan kəsilmir, bircə tikə təmiz ağ tapıb gətirsəydin...

Dəli kimi ayağa sıçramışdım:

– Nə qan? Nə ağ?



– Pəncərədən içəri girəndə şüşə idi, nə idisə biləyimi kəsdi... sənə nə olub, niyə pal-paltarlı yıxılıb yatmışdın?

– Bu saat, bu saat... yod lazımdır, Tutu xalada yod var.

– Oyatma arvadı, gör burda dolabçada təmiz bir yaylıq varmı?

– Oyatmaram, yod və tənzif hardadı, bilirəm...

Qonşu otağa yüyürmüşdüm, taxçadan yod və tənzif götürmüşdüm və mənə elə gəlmişdi ki, xalam taxt üstündəki yatağında tərpənmişdi, amma səsini çıxarmamışdı.

Qayıtmışdım, işığı yandırmaq istəmişdim, qoymamışdı.

– Yandırma, – demişdi, – ay işığı bəsdir.

Yaralanmış biləyinə yod tökmüşdüm, ufuldamışdı, sonra tənziflə biləyini sarımağa başlayanda demişdi:

– Bir saatdır, burda oturmuşam... ay işığında üzünə baxmışam, ağlamışam... Al bu yaylığı, qoy göz yaşlarım səndə yadigar qalsın.

– *Dünən biraylıq toqaüdümü almışam,* – *demişdim,* – *axırıncı dəfə* yalvarıram, dur bu saat elə burdan vağzala, ya Tiflis, ya da Moskva qatarına... sonrasın vaqonda danışarıq...

– Uşaqlıq eləmə, Yunis can.

– Tanrım, – əsil uşaq sənsən və bir yaş da məndən kiçiksən...

– Mən qızam, – demişdi, – və qız kimi həmişə öz yaşımdan böyüyəm, mən qızam və kim ki, anadan qız doğulub, sonra boynu zəncirli kəniz olub...

– Əgər bizim o dağ kəndinin çadrasız qızlarından olsaydın belə sözlərdənsə, mənə deyərdin ki...

Və bir an içində gözləri elə bir hiddətlə parıldamışdı ki, sözüm ağzımda yarımçıq qalmışdı və yenə bir an içində alışan əzəli qadın qısqanclığı elə bil üzümə od püskürtmüşdü:

– Nə deyərdim ki? Ə, igid deyilsən? Götür qaç məni, dayna... Sonra cijimə əsməşal alarsan, tasası yatar, ulduzu barışar səninlə?

– Sakit ol, – demişdim, – səndən sonra mən də baş götürüb gedəcəyəm bu şəhərdən...

– Yox, – demişdi və sağ əlimi qamarlamışdı, – mən özüm deyəcəyəm ona ki, başqası var ürəyimdə – qoy elə birinci axşam qovsun məni öz evindən... Amma ata-ana evinə qaytarılan bir qıza bilirsən, nə cür baxırlar? Görüm onda məxluqun gözündə rüsvay olmuş bir qıza yaxın düşəcəksənmi?

– Bir dəfə yox, yüz dəfə məxluğun gözündə rüsvay olsan, mən yenə səndən, tərtəmiz ağ göyərçinimdən üz çevirmərəm.

Kövrəlmişdi, ağlamışdı, sonra demişdi:

– Ömrümün axırına kimi bu sözün mənə bəsdir... İndi çıxart beş qəpik pul ver mənə.

Heç bir şey başa düşməmişdim, gözlərimi döymüşdüm.

Beş qəpiyin də yoxdur, cibində?

Niyə yoxdur, dedim ki, bir aylıq təqaüdümü almışam, amma başa düşmürəm...

– Mən də bayaq dedim ki, ay işığında üzünə baxıb ağlamışam, budur bu yaylığı tey göz yaşımla islatmışam, al qoy göz yaşım səndə yadigar qalsın, amma yaylıq bağışlamaq həmişəlik ayrılığa bais olur, çıxart beş qəpik ver, belə çıxsın ki, mən bu yaylığı sənə bağışlamamışam, sən pul verib bu yaylığı məndən almısan.

Dinməmişdim, qəhər məni boğmuşdu, özü əlini cibimə salmışdı və cibimdən beş qəpiklik mis bir pul tapıb çıxarmışdı.

Ayrılırdı məndən, əmisi qarşısında duyduğu minnətdarlıq hissinə özünü qurban verirdi və məni ölümdən acı bir ayrılığa məhkum edirdi, amma eyni zamanda məndən beş qəpik almışdı ki, mənə yadigar verdiyi əl boyda bir yaylıq bizi bir-birimizdən ayırmasın!

Və mən hələ bilmirdim ki, o gecə mən ilk dəfə olaraq qadın məntiqi deyilən bir müəmma ilə üz-üzə gəlmişəm.

Getmişdi, yastığımı qaldırmışdım ki, əziz yadigarını yastığım altında gizlədim, həmişə başımın altında olsun, amma yastıq əlimdə qalmışdı və o həsrət, uzaqdakı dağlar qoynundakı bir kəndin həsrəti ki, şəhərə gəldiyim gündən başımı qoyub yatdığım bu yastıq altında idi, indi elə bil birdən ayağa sıçrayıb ürəyimə sarılmışdı...

Oturmuşdum, tələsik kiçik bir məktub yazıb qoymuşdum ki, sabah Əlimürsəl dayı xalama oxusun və hələ hava işıqlanmamış elə o gecə vağzala gəlmişdim.

Və bu dəfə bu qayıdış yolunda vaqon pəncərəsinə yaxın düşməmişdim, baxmaq, tamaşa eləmək üçün fasiləsiz olaraq bir-biri ardınca gözlərim önündən çapan səhnələrin hərcmərcliyi kifayət eləmişdi və o vaxt ki, kiçik stansiyada vaqondan yerə düşmüşdüm, o stansiyadan bizim tərəflərə yük daşıyan şələsaqqal bir malakan – qoca bir kişi idi – qüvvətli yekə atlar qoşulmuş furqonunda mənə yer vermişdi.



Və qoca malakan bütün yolu bir dəfə də olsun ruscaya keçməyərək, bizim kəndlərin yaraşıqlı şivəsində başına gələnlərdən, yadına düşənlərdən danışmışdı, mən qulaq asmışdım.

...Kəndə axşam çağı çatmışdım və kəsik nidalı həzin səsləri üçün qəribsədiyim isaq-musaq quşlarının hər gecə bir-birini çağıran o əbədi çağırışlarına qulaq asmaq üçün, çöldə, evin artırmasında yatmışdım, amma içəridə qaranlıq otaqda atamla anamın söhbətlərini eşitməli olmuşdum.

– Soxdu papağımızı yerə, – deyirdi atam, – oxuya bilmədi, suyu süzülə-süzülə qayıtdı gəldi üstümüzə... papağın da oğlanın guya külək qapıb aparıb!.. Bişmiş toyuğun gülməyi gələr.

– Elə demə, a kişi, yuxusunda qara-qura görüb, ürəyi yuxadır, gəlib ki, bizə baş çəksin, yaxşı da eliyib.

– Deməli hər dəfə yuxusunda qara-qura görəndə, yol ağardacaq, bizi də bir dərya xərcə salacaq?

– Yaxşı oxuduğu üçün aylıq alır uşaq, vaqonun da, furqonun da pulun öz cibindən verib, nə xalasına, nə Əlimürsəl kişiyə bu vaxtacan bir dəfə də olsun ağız açmayıb.

– Nə deyir axı, qayıdacaq, yoxsa qal olub qalacaq burda?

– Dedi çox yorulmuşam, ana, sonra bu barədə danışarıq.

– Yorulub oğlan! Daş daşıyıb orda, yoxsa Ənzəlidən gələn İran gəmilərindən kişmiş, düyü tayları boşaldıb?

– Dərsləri çox çətindir, uşaq gecə yatmır, başın sındırır.

– Yaxşı, sabah durdu ayağa, avara-avara gəzəcək kəndin içində?

– Umbay gəlmişdi, ova gedəcəklər.

– Nə ovuna?

– Qaban ovuna.

Qaban əti salacaqsan qazana?

– Ətimi tökmə, a kişi.

– Gedirdi cüyür ovuna gedəydi ki, axşam bir şaqqa ət gətirəydi evə.

– Yox and vermişəm ki, qabağına cüyür çıxsa atmasın.

– Niyə ki,

– Cüyürün ahı tutar uşağı.

– Qabanın canı yoxdur, yoxsa qabana güllə dəyəndə şadlığından şitlik eləyir və yainki qan əvəzinə damarından su axır?

Və anam çığırmışdı:

– Niyə çaş-baş salırsan məni, öz dərdim özümə bəs deyil, gərək indi qamışlıqda xortuldayan çöl donuzunun da dərdin mən çəkəm?

Anamı bu cür cin atına mindirəndən sonra, atam həmişə həssiyirdi və indi də səsi xırpadan kəsilmişdi.

Hava işıqlananda Umbay gəlmişdi və mən doqqazın ağzında Umbayı qarşılamışdım, yaşıdım idi Umbay, uşaqlıq yoldaşım idi və indi mənə xoş olsun deyə gətirdiyi iki tüfəngdən təklüləni özü götürmüşdü, dayısının üçhalqa nişanlı, Zauer markalı, qoşalüləsini, "sabahın xeyir"dən sonra mənim çiynimə keçirmişdi.

O biri yoldaşlar Sarı qaya altında bizi gözləyirdilər, ordan aşağı enəcəkdik, içində kiçik nohurlar olan qalın qamışlıqda ova başlayacaqdıq.

Amma kənddən çıxıb bostanlar arasındakı cığıra təzəcə ayaq basmışdıq ki, anac bir dovşanın ombasını yuxarı ata-ata qabağımıza düşüb qaçdığını görmüşdük.

– At, demişdi Umbay.

– Jakanla dovşana?

– Jakanlar patrondaşdadır, at, yoxla tüfəngini, gör aşağı səpələyir, yoxsa yuxarı vurur.

O vaxt ki, atmışdım, şöhrətli tüfəng qırmaları nə aşağı səpələmişdi, nə yuxarı vurmuşdu – və dovşan qulaqbatıran, tükləri ürpərdən bir çığırtı ilə azı bir metr dikinə göyə sıçrayıb, sonra daş kimi yerə düşmüşdü.

Birinci dəfə deyildi ki, ovda idim, ara-sıra kənddən ova gedənlərə qoşulub, cürbəcür heyvan və quş ovunda olmuşdum, amma bu vaxta kimi vurulan heç bir heyvanın və quşun canının ağrısından bu dərəcədə dəhşətli bir səslə çığırdığını və özünü bu ucalığa qədər göyə atdığını görməmişdim. Elə bil qulaqlarım batmışdı, boğazım qurumuşdu, özümə nifrətdən ürəyim bulanmışdı, Umbay isə razı qalmışdı və demişdi:

– İnşallah ovumuz uğurlu olacaq, tüfəngi bura ver, get götür.

Qollarım sustalmışdı, tüfəng əlimdən yerə düşmüşdü, Umbay tez əyilmişdi, ovçu üçün qızıldan qiymətli olan tüfəngi yerdən götürmüşdü, dikəlib narazı bir halda üzümə baxmışdı, pencəyinin qolu ilə tüfəngin lülələrini silmişdi və demişdi:

– Nə olub sənə?

– Necə ki?

– Rəngin-urufun qaçıb.

– Qayıdıram kəndə.



– Boşla görək, amma doğrusu heç mən özüm də vurulan dovşanın nə belə çığırdığını eşitmişdim, nə bu qədər bir adam boyu göyə sıçradığını görmüşdüm, get gətir görək qırma irtməyin söküb, yoxsa ürəyin?

Başımı bulamışdım, geri dönmüşdüm.

Umbay əlin atıb qolumdan tutmuşdu.

– Nə ədabazlıq eləyirsən, ə?

– Burax, – demişdim və qolumu əlindən qopartmışdım.

Umbayın qonur qırğı gözləri soyuq bir işıltı ilə işıldamışdı:

– Bura bax, – demişdi, – onsuz da kənddə xəbər gəzirdi ki, xəzpuş vağzalda papağını qaçırdanda yüyürmüsən dalınca, amma pıçağın ucun göstərən kimi zəhrin yarılıb, qalmısan dalınca baxa-baxa... Halbuki o papaq tək sənin papağın deyildi və əgər əsli varsa bu sözün, elə fərz elə kəndimizin papağın yerə soxmusan!

Geri dönmüşdüm, Umbayı vurmuşdum və sağ əlimlə vurduğum o sillədən Umbayın sol üzündə o saat qıpqırmızı bir ləkə əmələ gəlmişdi.

Və o saat öz üzüm xəcalətdən qızarmışdı, başım sinəmə əyilmişdi, dayanıb gözləmişdim, sükut çox uzanmışdı, Umbaydan səs çıxmamışdı, başımı qaldırmışdım və Umbayın qonur qırğı gözlərini döyərək heyrətlə mənə baxdığını görmüşdüm.

– Hələ çox gözləyəcəyəm? – demişdim, – əlini pişik yeyib, niyə vurmursan məni?

Umbay köksünü ötürmüşdü və çox sakit bir səslə demişdi:

– Səni ora tamaşaya aparmırdıq ki, fikrin dağılsın, dedik bir az kömək eliyərsən bizə, orda o qamışlıqda qaban çox ürəyib-artıb, bildir vurduğumuz cöngə boyda qabanlar qanımızın arasına girdi, ət hazırlığı planı doldu... niyə vurmuram bunu? Sözə bir bax!

– Umbay, bağışla məni! Çox xahiş eliyirəm, bağışla!

– Umbay, diksinmişdi, elə bil bayaq yox, indi üzünə bir sillə vurmuşdum.

– Bağışla nədi ə, xahiş eləyirəm nədi? Nə eliyiblər orda şəhərdə sənə? Bundansa dübarə bir sillə də vuraydın sağ üzümə.

Və üz çevirmişdi məndən, dönüb getmişdi, amma sonra birdən dayanmışdı, başını geri çevirmişdi:

– Bura bax, – demişdi, – Oruc kişi bu axşam araba qoşub dəmir yoluna gedir, get danış onunla səni də aparsın! Qayıt şəhərə! Orda adam çoxdur, orda tək qalsan da, tək qaldığını heç kim görməz, burda tək

qalsan, kəndi narahat eliyərsən. O sözü də İbiş gəzdirirdi kənddə, vurduq ağzına ki, başından böyük qələt eləməsin...

Axşam da atam xəbər tutanda ki, gedirəm, elə bil bir az sevindi, bir az təlaşa düşdü:

– Nə olmuşdu, od almağa gəlmişdin? Düzünü de, qovublar ordan səni oxuduğun yerdən?

– Canım, heç kəs məni heç bir yerdən qovmayıb, – demişdim, – amma indi özüm qovmaq istəyirəm özümü hər yerdən.

– Elə isə qulaq as, gör nə deyirəm – gör ha, nə isə demək istəyirdim yadımdan çıxdı... Qərəz, xərcliyin varmı?

– Var.

– Təqaüdün qurtaranda kimdən borc alırsan, Əlimürsəl kişidən, yoxsa xalandan? Əlimürsəl kişi iki dəfə özü təklif eləyib almamısan, lazım gəlsə, bəlkə xalandan...

– Sən məndən də heç vaxt bir qara qəpik istəməmisən, həmişə anandan... Yaxşı, bir dəfə də məndən!

Qoltuq cibindən çıxardığı saralmış bir qəzet parçasına bükülü bir neçə iri qırmızı otuzluqlar içində kiçik göy bir üçlüyü tapanacan, barmaqlarındakı titrəyiş gözümdən qaçmamışdı.

– Lazım deyil, – demişdim, – çox sağ ol, almayacağam.

Baxmışdı üzümə, dinməmişdi, bu vaxt anam gəlmişdi, başındakı cunasının ucuna düyünlənmiş əzinik bir onluğu çıxardıb mənə uzatmışdı:

– Bildirki barama pulundan qalmışdı, – demişdi, – bilirəm azdır, bala, amma olanım budur (atamı göstərmişdi), hər dəfə bu istəyəndə üzümü bozartmışdım, verməmişdim.

– Az niyə olur, anacan, bu pula "Təbriz" mehmanxanası ilə üzbəüz "Novbahar" restoranında bir ay hər gün fisincanplov yemək olar.

– Ye bala, qızırqalanma, halal xoşun olsun!

Sonra mən Oruc kişigilə yönəlmişdim və arxada atamın anama dediyindən yalnız bunu eşitmişdim:

– Fikir verdin ona?

– Nəyinə? – demişdi anam.

Heybəsiz gəldi, heybəsiz getdi, çamadanla gəlsəydi deyərdim ki, şəhərli olub, amma çamadanı da yoxdu, deməli hələ nə şəhərlidir, nə də kəndli...

Anamın nə dediyini eşitməmişdim, ancaq ah çəkdiyini eşitmişdim.



***

Səttarın göyərçinləri yumurtlamışdılar, kürt düşmüşdülər, bala çıxartmışdılar, bala göyərçinlər pərvaz olmuşdular, yuxarıdan bizim evin damı üstündəki quşxanadan aşağıya – mənim pəncərəm önündəki damın üstünə tökülmüşdülər, gah dam üstündə dar-dar eləyərək gəzmişdilər, gah dam qırağından aşağıya, küçəyə boylanmışdılar, sonra döşlərin qabardıb uçmuşdular və getdikcə şəhərüstü göylərin ya çox dərinindən, yaxud şəhəri çevrələyən üfüqlərin çox uzaqlarından geri dönmüşdülər, qara asfaltlı o dam qırağında ağ şəridli bir cərgəyə düzülmüşdülər.

Xalam mənə axşam çayı gətirmişdi, stəkanı stol üstünə qoymuşdu və bir an yubandığını görüb demişdim:

– Otur, xalacan, o qoltuğundakı nədir?

– Qəzetlərdir bala, kişi təzə qazdığı buruğu vədəsindən dörd gün qabaq qurtarıb, şəhərin üç qəzetində şəkli çıxıb, bax, sonra aparıb sandığa qoyacam, o biri qəzetlərin üstünə.

– Fotonun altındakı yazını oxuyum sənə, xala?

– Hecələyə-hecələyə özüm oxumağa başlamışam bala, sabah kooperativə gedəcəm, kişiyə papiros alacam, deyirəm sənə də qara mahutdan bir şapqa alım, qabaqdan qış gəlir axı.

– Sağ ol, xalacan, gələndə anam cibimə xərclik qoymuşdu, gedib özümə qulaqlı papaq alacağam, çöldə-bayırda hələ bu çit şapka ilə keçinə bilərdim, amma evdə bundan sonra gərək qulaqlı papaqda oturam, çünki o arvad ki, hər dəfə aşağı mərtəbədə o cür çığırır, Səttarın göyərçinləri damın üstündə səksənib göyə uçur, mənim də başım bir yana dursun, dişimin ağrısı tutur o saat...

– Görüm onun üzün mürdəşir yusun, elə bil ürəyi daşdır arvadın, hər dəfə fağır qız ər evindən qaçıb bunun üstünə gələndə elə bil arvadın başına daş düşür, alır əlinə süpürgəni düşür qızın üstünə ki, çıx get öz xarabana, öz əmoğlundur, zəhər də olsa yalayacaqsan.

– Ta indi ki, anası üz göstərmir, nə vacib olubmuş, niyə gəlir axı?

– Danışsam əmoğlu ərindən nələr çəkir, ürəyin qana dönər, bala, yaxşısı budur, danışmayım...

Və xalamın hələ danışmaq istəmədiyindən gözləri yaşarmışdı və qalxıb öz otağına getmişdi.

O axşam Abşeronun ən gözəl axşamlarından biri idi, uzaqda payız dənizi gömgöy bir süfrə kimi açılmışdı, dəniz içinə doğru uzanan iskələ

körpüsünün sağında və solunda içi ağzınacan Cərco qovunu ilə dolu olan ağ yelkənli türkmən barkasları bir-birinin yanına düzülmüşdü. Qız qalasının qara istivanosi üstündə qanad çalan iki ağ göyərçin çiçək üstünə qonmaq istəyən, amma qona bilməyən kəpənəkləri andırırdı, sabah cümə idi, istirahət günü idi, adamlar dəstə-dəstə şəhərin dağüstü məhəlləsindən üzüaşağı, dəniz qırağına axırdı. Orda dəniz sahilində nəfəsli hərbi orkestrin çaldığı adı şairanə valsın sədaları gah səmtini tez-tez dəyişdirən xəfif və sərsəri bir küləyin qanadına ilişərək gəlirdi. Bizim tərəflərə çatırdı, gah şəhərin axşam uğultusuna qarışaraq eşidilməz olurdu, bu uğultu içində isə küçələrdə aşıb-daşan izdihamın honirtisi, hardasa yaxındakı yastı bir dam üstündə dopu çalıb rəqs eləyən kiçik qızların gülüşləri, aşağıda sağ tərəfdəki "Təzəpir" məscidinin minarəsindən ucalan axşam əzanının səsi, daha aşağıda sol tərəfdə "*qızılı kilsə*" *adlanan* Aleksandr *kilsəsinin zəng* qülləsindən *qopan* boğuq çan zanqıltıları vardı...

Əlimürsəl kişi hələ mədəndən gəlib çıxmamışdı, xalam mətbəxdə qutab üçün yoğurduğu kiçik kündələri oxlov altına salıb cığara kimi nazik və həndəsi çevrə kimi yuvarlaq yuxalar yayırdı, eyni zamanda başıaşağı mənim dalımca deyinirdi, amma elə bil mən yanında dayanmışdım və nə deyirdisə üzümə deyirdi:

– Yoxsa elə bilirsən, təkcə mən görürəm, mən içimi yeyirəm, mən deyirəm, yox kişi də görür, kişi də deyir ki, nə olub a ona ki, adamın üzünə baxır, elə bil görmür, söz deyirsən elə bil eşitmir.

Çünki ürəyimin gecə və gündüz eşitdiyi səssiz bir fəryad vardı, ona görə başqa heç bir şey eşitmirdim, gözlərimin qarşısını kəsmiş qara bir divar vardı, ona görə başqa heç bir şey görmürdüm.

Əgər çiyinlərində saz qürbət ellərə gedən haqq aşıqları nağılların dediyinə görə ilk dəfə yuxularında gördükləri əbədi sevgilinin sorağı ilə dəmir çarıq geyib dünyanın o başına yola düşürdülərsə, mənə beş-on pillə aşağı düşüb şüşələrinin çoxu qırılmış bir aynabəndin rəngi getmiş qapısını açmaq kifayət idi ki, onu, ağ səadətimi görüm...

Lakin indi o başqasının qadını idi və qadına qarşı bütün digər dinlərdən daha artıq amansız olan bir dinin yasağı ilə mənə naməhrəm idi və indi əgər biz hətta kimsəsiz bir səhrada iki yol azmış kimi bir-birimizə rast gəlsəydik, o gərək dərhal çadrasını qara bir qalxan kimi üzünə qaldıraydı, mən isə o səhrada ayağım altındakı cücəyə, başım üstündəki günəşə baxa bildiyim halda yalnız onun, ağ səadətimin üzünü görməməli idim.



Təkcə bu ani fikirdən elə bil divarlar yerindən qopub üstümə gəlmişdi, ayağa sıçramışdım və elə bu vaxt balaca Səttarı yenə pəncərəm altındakı o dam üstündə görmüşdüm.

Əgər balaca Səttar o gecə də bu dam üstündə haman baca yanında dayanıb başını yuxarı qaldırmışdısa və ulduzlara baxaraq o ulduzlar içindən "Gülbacısını" çağırırdısa, indi də ayaqyalın və başıaçıq haman baca yanında dayanmışdı, amma başını aşağı salmışdı və sağ ayağının barmaqlarıyla damın qara asfaltı üstündə nə isə yazıb-pozaraq, elə bil nə isə müşkül bir məsələni həll etməyə çalışırdı.

Nə olmuşdu kiçik dostuma? Dənizdə gəmiləri qərq olmuşdumu? Yoxsa axşamüstü uçurduğu göyərçinlərdən hansı isə azmışdı və hələ geri dönməmişdi?

Çağırmışdım, başıaşağı, bir ayaq-bir ayaq yaxına gəlmişdi.

Səttarın atası üç il əvvəl Pirşağı balıq vətəgəsində işlədiyi vaxt dənizdə batmışdı, uşaq anasının öhdəsində qalmışdı və anası indi üç nömrəli iki qırmızı vaqonlu tramvayda konduktor işləyirdi, Səttar isə məktəbdən qayıdan kimi bütün günü və axşamı anası evə gələnəcən göyərçinlərinin təlimi ilə başını qarışdırırdı və mən bu müddətdə anasından icazə alaraq Səttarı iki dəfə kinoya aparmışdım, yanaşı oturub "Tarzan" filminə baxmışdıq, bu o vaxt idi ki, kino hələ lal idi və şəhərin yeniyetmələrini dəli-divanə eləyən o lal Tarzanın əvəzinə bütün kinoteatrların salonlarında bir ağızdan qıyya vuran o yeniyetmələrin bağırtılarından qulaq tutulurdu.

– Nə olub sənə, Səttar, nə üçün belə bikefsən?

Səttar başını qaldırmadan birnəfəsə demişdi:

– Dedi mənə ki, get mənə bir qutu kibrit gətir, bizimki qurtarıb, getdim gətirdim, qucaqladı məni ki, sabah axşam, bax sabah axşam ha, bunu da ona verərsən...

– Kim dedi, Səttar, kimə ver dedi, Səttar, nəyi ver dedi, Səttar?

– Gülbacı dedi... amma sabah cümədir, sabah anan məni Kürdəxanıya daydaygilə aparacaq... budur cibimdədir...

Aman verməmişdim, Səttarı qamarlamışdım, Səttar müqavimət göstərməmişdi və mən əlimi Səttarın dizi yamaqlı şalvarının cibinə salıb, ordan dördqat bükülmüş bir dəftər vərəqi çıxartmışdım və şagird dəftərindən qopardılmış o vərəqin sol tərəfində bir ağ gül çəkilmişdi, amma elə bil bir uşaq əli çəkmişdi o ağ gülü, sağ tərəfində boz bir bülbül çəkilmişdi, amma elə bil bir uşaq əli çəkmişdi o boz bülbülü və

ağ gül ilə boz bülbül arasındakı ağ boşluqda iri, yumru uşaq xətti ilə yazılmışdı ki:

Gəlmişdin görəsən məni,
Dormişdin hörəsən məni.
Əlində açar olmadı
Bir açıb görəsən məni.

Və daha aşağıda bir vəsiyyət ki, məhz uşaq xətti ilə yazıldığı üçün daha dəhşətli idi: "bunu mənim qəbrimin baş daşına yazdırarsan!"

Ürəyimin döyüntüsündən qulağım batdığı üçün, handan-hana Səttarın səsini eşitmişdim.

– Dadaş, sənnənəm, qorxuram mən...

– Nədən qorxursan? – demişdim və öz xırıltılı səsim ürəyimdəki qorxunu daha artıq büruzə vermişdi.

– Kağızı mənə verəndə, məməsi o biri otaqdan əlində süpürgə çığıra-çığıra gəldi: hələ də burdasan, canıyanmış, çıxıb getmiyəcəksən öz xarabana... Üsreyin süpürgə ilə döyürdü, amma Gülbacı dinmirdi, səsin çıxarmırdı.

Əlbəttə dinməyəcək, Səttar, heç vaxt səsin çıxarmayacaq, heç kəsi köməyə çağırmayacaq, nə deyirdin, Səttar, üsreyin yəni nə vaxt, haçan, ah srağa gün – və indi ki, sən srağa gün gördüyündən sarsılmısan və mən də avqustun o sonuncu çaharşənbə günündən dəlilik sərhədinə ayaq basmışam, onda elə birdəfəlik iradəsi əleyhinə gedərək...

Və mənim ürəyimdə başladığım sayıqlamanı Səttar tamamlamışdı:

– Eşitmirsən, Dadaş, götürək qaçaq, indi ki, orda öz əmisi oğlu, burda da əndamı yanmış öz anası bu qədər zülm eləyir öz qızına.

Səttarın gözlərinə baxaraq gözlərimi döymüşdüm, hər ikimiz dənizdə batarkən, saman çöpünə əl uzadanlar kimiydik.

– Hara, Səttar, – demişdim, – hara? Tiflisə, yoxsa Moskvaya?

– Yox, – demişdi Səttar, – dəniz qırağında körpüyə bağlanmış lodkalardan birini açarıq, Pirallahıdan bu yanda balaca bir ada var, bir dəfə atam ora qaşqaldaq ovuna getmişdi, məni də aparmışdı, kimsə orda qənbərdən bir daxma tikib, amma içində heç kim olmur, Gülbacı o daxmanı süpürüb səliqəyə salar, biz də balıq tutarıq, qaşqaldaq ovlarıq, heç kəsin, Dadaş, nə milisin, nə şeytanın da ağlına gəlməz ki, biz oradayıq...



Amma hər ikimiz gecikmişdik, Səttarın o adsız kiçik adası hardasa yenə boş və kimsəsiz qalacaqdı, məni Tiflis qatarında milis axtarmayacaqdı, çünki elə bu vaxt həyətin o biri tərəfindən üçüncü mərtəbədən biryaşar qulun kimi çığıran kiçik bir qızın səsindən damarlarımızda qan donmuşdu və hər ikimiz özümüzü dam üstündən daş pilləkənin yuxarı meydançasına atmışdıq.

Gözləri hədəqəsindən çıxmış bir qızcığaz üçüncü mərtəbənin qarşı tərəfdəki aynabəndindən aşağı baxırdı, balaca əllərilə başına döyürdü və hıçqırırdı:

– Vaxsey, məmə, xala yandı...

Və bizim tərəfdəki daş pilləkənin ikinci mərtəbə meydançasından üzüaşağı qaçan canlı bir məşəl vardı ki, o idi, Səttarın Gülbacısı idi, mənim ağ səadətim idi və indi o qara çadrası əvəzinə qara tüstülü qırmızı dilli bir alova bürünərək qovulduğu ana evindən baş götürüb gedirdi.

Hər ikimiz özümüzü arxasınca atmışdıq, Səttarın fəryadını eşidib büdrəmişdi, bir an başını geri qanırmışdı, bizi yaxında görüb əlini arxaya çırpmışdı ki, yaxın gəlməyin və yenə pilləkənlə üzüaşağı qaçmışdı.

Pilləkənin axırıncı pilləsində özümüzü ona yetirmişdik, əlimi atıb qolundan tutub saxlamışdım, çırpınmışdı, məni geri itələmişdi, qolunu əlimdən qopartmaq istəmişdi, bacarmamışdı.

Və sonra aramızda başlanan və cəmi bir-iki dəqiqə çəkən o mübarizə, dəhşətli bir mübarizə idi.

Mən onu alovdan xilas eləmək üçün əynindəki paltarları didib tökürdüm, o isə məni döşümdən geri itələyirdi ki, burax məni, sən də alışacaqsan və əlimdən çıxmaq üçün çapalayırdı və eyni zamanda tez-tez iki əlilə üzünü tuturdu ki, alov üzünü yandırıb xarab eləməsin.

Tanrım! Özü-özünü müdhiş bir ölümün ağuşuna atmışdı və indi bir qadının əzəli və əbədi sövqi-təbiisi ilə yalnız üzünün hayında idi ki, üzü salamat qalsın!

Artıq bütün evin qadınları və qızları bütün mərtəbələrdən çığıra-çığıra üzüaşağı tökülmüşdülər və görünür sabah istirahət günü olduğu üçün bu axşam bu evdə məndən başqa başı papaqlı varmışsa, o da haman dəlisov qocaymış ki, o qoca bayquş da naməhrəm bir qadına yaxın düşməyi kişiliyinə rəva görməmişdi.

Bu vaxt mən artıq geri çəkilmişdim, Səttar yüyürüb hardansa bir vedrə su gətirmişdi və özünü mənə yetirən xalam tüstüləyən köynəyimi siyirib başımdan çıxarmışdı.

Yaqutun anası isə gəlmişdi, pilləkənin axırıncı pilləsində oturmuşdu, əvvəlcə saçlarını yolub ulamışdı, sonra xalama üz tutub çığırmışdı ki, axı sənin o üstünə od ələnmişinin, o ağ günü qara gəlmişinin, dili ağzında kabab olmuşun, nə dərdinə qalmışdı ki, xalxın naməhrəm arvadını pəmçələyirdi, məgər bilmir ki, Ağagül xəbər tutanda üzəcək onun boğazın cücə boğazı kimi?

*Xalam da geri dönüb ona cavab qaytarmışdı ki:*

– Az, az qarğışın öz başını yesin, uşaq əl-ayağın yandırıb, uşaq pörşələnib ki, fağır qız tələf olmasın, hanı sənin vicdanın ki, ona bəddua eləyirsən, yox əgər o uşağın başından bir tük əskik olsa, mən bu arvadlığımla sənin o Ağagülünü öz əlimlə boğaram, qoymaram heç Əlimürsəl bu işə əl bulaşdırsın!

Həyətin qadınları Yaqutun əynində nə qalmışdısa didib tökmüşdülər, paltarlarının tüstüləyən tikə-paralarını söndürmüşdülər və mən pilləkənlə yuxarı qalxarkən bir anlığa başımı geri çevirmişdim və yarıçılpaq qızı qadınların qolları üstə görmüşdüm, üzünə birinci mərtəbənin aynabəndindən işıq düşmüşdü, alovla qarsılmış üzü qaralmışdı, bənövşəyi gözləri qapanmışdı.

Bir az sonra xalam da yuxarı qalxmışdı və huşunu itirmiş Yaqutu təcili yardım maşını gəlib aparmışdı.

Əllərimin dərisi qabarcıqlanmışdı, soyulmuşdu, xalam hər iki əlimi qatıqla suvayıb tənziflə bağlamışdı və qabağına salıb həkimə aparmaq istəmişdi, amma mən getməmişdim.

Və o gecə mən təkcə ancaq əllərimin göynərtisindən səhərəcən yata bilməmişdimsə və bir yerdə otura bilməmişdimsə, indi ac bir qurd *kimi bütün vücudunu gəmirən o dözülməz ağrılara zərif bir varlıq davam* gətirə biləcəkdimi?

Kor ola bilərdi? Olsun – mənim idi. Şikəst ola bilərdi? Olsun – mənim idi. İflic olub bütün ömrü boyu yatağından qalxa bilməzdi? Olsun – yenə mənim idi.

***

Xəstəxanada yatırdı, günaşırı balaca Səttarla xəstəxananın koridorlarında tibb bacılarının əl-ayağına dolaşırdıq və ağızlarından kəlbətinlə bir-iki söz qopardırdıq. Birinci günlər huşsuz yatırmış, bir həftə sonra gözlərini açmışdır və saçlarına dən düşmüş baş həkim xəstəni quşxana kimi kiçik bir otağa keçirmişdir və müalicədə şəxsən özü iştirak eləməyə başlamışdır.



Sonra növbəti bir gəlişdə baş həkim bizi beş dəqiqəliyə içəri buraxmışdı, Yaqutun üzü ağ tənziflə örtülmüşdü və həzin bir səslə bizə nə isə demişdi, amma biz heç bir şey başa düşməmişdik.

Daha sonralar mən nə vaxt gəlmişdimsə, hər dəfə suallarımla baş həkimi təngə gətirmişdim və nəhayət o həkim də bir dəfə məndən soruşmuşdu:

– Bağışlayın, Yaqut xanım sizin nəyinizdir?

– Mənim?

– Həri, sizin!

– Bir mərtəbə aşağıdakı qonşumuzdur.

– Aha, çox gözəl... Bir mərtəbə aşağıdakı qonşunuz imiş!

Və həkim qalın qaşlarını əvvəlcə yuxarı qaldırmışdı, sonra aşağı salmışdı.

Sözlərin altı vardı, sözlərin üstü vardı və baş həkimin "aha, çox gözəl" – sözlərinin altı mənim üçün qaranlıq qalmışdı və o gündən ürəyimdə baş həkimə qarşı heç də gözəl olmayan bir hiss baş qaldırmağa başlamışdı.

Baş həkim isə həftələrlə pərvanə kimi xəstənin başına dolanmışdı, Yaqutun bənövşəyi gözləri açılmışdı, getdikcə səsi durulmuşdu, amma hər dəfə mən onu görməyə gələndə, o bir dəfə də olsun ağ tənzif rübəndini üzündən qaldırmamışdı və üzünü mənə göstərməmişdi.

Özü isə növbəti ziyarətlərin birində mənim əllərimə baxmaq istəmişdi və ağ əlini, üstündə azacıq yanıq yeri qalmış sağ əlimin üstünə qoymuşdu, sonra geri çəkmişdi.

Və mən yenə xahiş eləmişdim:

– Qaldır bu tənzifi, – demişdim, – qoy mən də bircə dəfə gözlərinə baxım.

– Yox, – demişdi, – hələ üzüm adam arasına çıxarılası deyil... O gülöyşə narları bazardan almışdın?

– Yox, bizim qəza mərkəzindən, kiçik bir şəhərdən mənə pay göndərmişdilər.

– Kim?

– Dayımın o kiçik şəhərdə gözəl bir nar bağı var.

– Yaxşı narlardı... Öləydim qalaydım orda... o nar bağlarında...

Bu vaxt baş həkim içəri gəlmişdi və Yaqut demişdi:

– Tutu xala niyə məni görməyə gəlmir? Gələn səfər onu da gətir, könlümə düşüb, görmək istəyirəm onu...

Nədənsə bu vaxt başımı çevirmişdim və baş həkimə baxmışdım, pəncərə qarşısında dayanmışdı, mən ona baxanda, o da qolundakı qızıl saatına baxmışdı və yenə əvvəlcə qalın qaşlarını yuxarı qaldırmışdı, sonra aşağı salmışdı.

Bir həftə sonra xalam öz bişirdiyi şorqoğalı ilə mənim aldığım bir bağlama Göyçay narı, bir bağlama Ağdaş heyvasıyla gəlmişdi Yaqutu görmüşdü və evə gələndə mənə demişdi ki:

– Səni soruşurdu, deyirdi ki, başı nə yaman qarışıqdır ki, bir həftədir məni görməyə gəlmir.

– Xalacan başım şişib qazana dönüb, çünki "Buxar qazanlarından" imtahan verirəm, məndə vaxt hanı?

– Ürəyi sınıqdır bala, anasında hikkəyə bax ki, bir dəfə də olsun qıza baş çəkməyib, amma xəbər göndərib ki, ordan çıxanda birbaş öz xarabasına getsin... Deyirlər ərin də silistçi danışdırır, bilmək istəyirlər ki, kim qızın canın boğazına yığıb ki, axırda fağır öz şirin canına qəsd eləyib.

– Özü necə... Bir şey deyirmi o barədə?

– Əlində bir qəzet vardı, mənə də göstərdi, dedi bir bura bax, Tutu xala, qadınlar Əli Bayramov klubunda bir yerə yığılıb çadralarını yandırıblar, amma məndə ağla bax ki, çadramı yandırmaq əvəzinə özümə od vurdum.

– Xalacan, oranın baş həkimi gəlib sənin də başının üstünü kəsdirdimi?

– Gəlmişdi, Yaqut tanış elədi, deyirlər çox yaxşı həkimdir.

– Sən bilən, o qoca həkimin neçə yaşı olar?

Xalam heyrətlə üzümə baxmışdı:

– Hansı qoca həkimin?

– Onun, o çox yaxşı həkimin?

– Qoca niyə olur ki, o? Əlbəttə sənin kimi nocavan deyil, amma o yaş kişi üçün ən yaxşı yaşdır.

– Hansı yaş kişi üçün yaxşı yaşdır, xalacan? Əlli beş?

– Əlli beş nədir, ədə, fağırın otuz beş-otuz altı yaşı ancaq olar. Qızın yanından çıxanda arvad həkimlərdən biri dedi ki, o baş doktor xəstəni Leninqrada aparacaq, dedi ki, orda elə həkimlər var ki, arvad xeylağının üzündəki yanıq yerlərini tərtəmiz eləyirlər, heç xaşxaş boyda bir nöqtə də qalmır.

– Eləysə tamam, xalacan, qurtardı.



– Nə tamam, nə qurtardı?

– Bağlandı bizim kitabımız, arasına əlfəçin qoyduq, yaxud rusca desək pesenka naşa speta.

– Dilinə qurban olum sənin, gör nə tez urusiyaca danışmağı öyrənmisən.

– Mən indi fransızca da sayıqlaya bilərəm, xala və sən gərək təəccüb eləmiyəsən.

Xalam başını aşağı salmışdı və yalnız qadınlara məxsus olan sirli bir təbəssümlə gülümsəmişdi.

***

Çox həftələr, aylar keçmişdi və xalam Yaqutun uzaq Leninqradda

– Sən təəccüb eləyirsən, xalacan?

– Bəs sən eləmirsən, bala?

– Mən ancaq ona təəccüb eləyirəm ki, bir hekayə yerdə başlanmışdı, bir nağıl kimi göydə qurtardı.

– Biləydim nə demək istəyirsən, ay oğul, nə barədə danışırsan?

– Bakı gecələrinin hekayəsi barədə danışıram xala, bir də o nağıldan danışıram ki, bir ağ quş vardı, əvvəl qaranlıq bir qəfəsdə çox çırpınırdı, sonra Zümrüd quşu kimi odda yanıb yenidən dirildi və qanad çalıb ağ ulduzlara doğru uçdu...

Və bu vaxt açıq pəncərədən içəriyə bir gurultu dolmuşdu, şəhərin gecə göylərində nərildəyən bir təyyarə elə bil gəlmişdi, düz pəncərəm altındakı o bir əlcə asfaltlı, yastı dam üstündə dövrə vurmağa başlamışdı və hər ikimiz açıq pəncərədən başımızı çıxardıb göyə baxmışdıq.

Aşağıdan dənizdəki gəmilərdən fışqıran iki ağ işıq zolağı qılınc kimi fəzanı yarıb göydə çarpazlaşmışdı və təyyarəni qayçısı ağzına alanda, o təyyarə, çıraq işığına ilişmiş pərvanə kimi çırpınmışdı, bir an işıq kəməndindən qurtulmuşdu, görünməz olmuşdu, sonra buludlar altında gah alışan, gah sönən uçar bir ulduza çevrilmişdi.

Və handan-hana mən demişdim:

– Kim bilir, xalacan, bəlkə bu uçar ulduz elə odur...

– Yaqut? Allah sən saxla, qıza bax a, – demişdi xalam, – gecənin bu vaxtında göyün yeddi qatında... nağıl nədi, bala bu ki, möcüzədir...

Və sonra yazıq xalam birdən diksinmişdi, çünki balaca Səttar dam üstündəki qaranlıqdan çıxıb bizə doğru gəlmişdi – xalama salam verəndən sonra əlindəki mavi rəngli bir zərfi mənə uzatmışdı:

Məktubu açmışdım və uşaq xəttinə oxşar o tanış xətti görərkən yenə əllərim titrəmişdi.

Xalam isə düşmüşdü balaca Səttarın üstünə ki, balam, bu qonşu damının üstünü niyə karvan yoluna döndərmisiniz, bəgəm mənim evimin qapısı-bacası yoxdurmu, bəgəm o qapı üstündə elektrik zənginin qıpqırmızı düyməsi yoxdurmu? Sonra xalam çıxıb getmək istərkən mən demişdim:

– Dayan, xalacan. Axı məktub almışıq.

– Kimdəndir ki? – demişdi xalam.

– O təyyarəçi qızdan... Sənə çoxlu salam göndərir, məni də təyyarəsində uçmağa çağırır.

Xalam diqqətlə üzümə baxmışdı, baxışlarından nə isə bir kölgə keçmişdi, elə bil nəyi isə özü üçün aydınlaşdırmaq istəmişdi, amma aydınlaşdıra bilməmişdi, eyni zamanda mən özüm də kənardan özümə baxmışdım və heç bir şey başa düşməyərək, yalnız onu demişdim ki:

– Bir dəqiqə dayan, Səttar, bu saat cavab yazıram.

– Məndən də ona salam yaz – demişdi xalam və mətbəxə getmişdi, Səttar isə dam üstündə dayanıb gözləmişdi.

Stol arxasında oturmuşdum, məktubuna cavab yazmışdım. Məni göyə qaldırmaq istədiyi üçün minnətdarlığımı bildirmişdim, amma hər gün institutdakı mühazirələrdən sonra vağzal yanındakı "Saldat bazarı" adlanan tozlu-torpaqlı meydana gedib orda kirayə ilə verilən velosipedlərdə məşq elədiyimi bəhanə gətirmişdim və təyyarədə uçmağa macal tapmayacağım üçün üzr istəmişdim.

Səttar məktubu almışdı və elə bil içində nə yazıldığını oxumuş kimi diqqətlə üzümə baxmışdı, köksünü ötürmüşdü və dönüb getmişdi.

Sonra elə haman gecənin hansı aləmindəsə, saatların diksinərək dayandıqları o sirli zamansızlıq anlarının birində yuxu ilə oyanıqlıq arasındakı o titrək sərhəddə birdən qulağıma səs gəlmişdi, pəncərə arxasından yağışın şırıltısı içindən, o qara asfaltlı yastı dam üstündən ağ səadətimin məni çağırdığını eşitmişdim, amma hələ tamamilə oyanmamış mənə yəqin olmuşdu ki, bu bir aldanışdır, orda yağış altında o dam üstünə heç kəs yoxdur, amma buna baxmayaraq əgər mavi rəngli axşam çağırışından boyun qaçırmışdımsa, indi mövcud olmayan gecə çağırışında ayağa qalxmışdım, pəncərəmi açmışdım, əvvəl dam üstünə, sonra işıqları yağışda yuyulan şəhər gecəsinə baxaraq uzun-uzadı pəncərəm önündə dayanmışdım, ta o vaxta qədər ki, yağış ara vermişdi, göydə buludlar parçalanmışdı, ay buludlar arxasından çıxmışdı, təzəcə asfalt salınmış damın üstü qara mərmər kimi parıldamışdı. Mən bu dəfə kənardan özümə baxanda gülümsəmişdim, sonra pəncərəni qapamışdım və başımı yenə o yastıq üstünə qoyub yatmışdım ki, uzaqda qalan dumanlı dağların həsrəti yenə o yastığım altında idi.

Və daha sonralar çox şey olmuşdu, çox hadisələr baş vermişdi, günlərlə yarma aşı yemişdim, yarısı su olmuşdu, divar qəzeti üçün çəkdiyim şəkildə yazın əvvəlində Ağsu qovaqlarının başında hacıleyləklər yuva tikmişdi, ömür çayı isə gah daşmışdı, gah lal axmışdı və o ilk sevgi çoxdan görülmüş bir röyaya çevrilmişdi, amma ürək o röyada mənə görsənən o ağ səadəti heç vaxt unuda bilməmişdi.

*Bakı, 1935*

## AYRILDILAR

Yarı yoldan geri qayıtdılar. Qalın meşələrlə örtülü Qaraquş dağlarının başına qalxdıqları dik cığırla indi üzüaşağı enirdilər. Hər ikisi susmuşdu. Yalnız ayaqları altında sınan quru çör-çöplərin çatırtısı, cığır qırağından qopub aşağı diyirlənən xırdaca daşların cığıltısı eşidilirdi.

Adilə diqqətlə ayaqları altına baxırdı, ehtiyatla addımlayırdı, ipək donunu kol-kosdan qoruyurdu. İlyas isə qızın qolundan tutmuşdu ki, çınqıllı və çox əynəmli enişdə sürüşməsin və o vaxt ki, özü sürüşürdü, sol əlini atıb cığır qırağındakı ağacların yerə əyilmiş budaqlarından yapışırdı və sağ əli ilə sürüşüb gedən qızı geri dartırdı, ayaq üstündə saxlayırdı.

Bir dəfə elə oldu ki, bir-birinə sarılıb ayaq üstündən duruş gətirdilər və bu dəfə elə ki, üzləri bir-birinə çox yaxın oldu, gözləri qaranlıq gətirdi, nəfəsləri qısıldı və tezləşdi, o saat elə bil görünməz bir əl arxadan dartdı hər ikisini bir-birindən ayırdı.

Sonra yalnız əlləri bir-birindən üzülmək istəmədi və əlləri bir-birinin əlində gəldilər, Beşbulaq dərəsinin kənarına çıxdılar.

Buradan aşağıya, dərə dibinə enən dolama araba yolu sağdakı yastı təpələr arasından çıxırdı, güney tala kövşənləri içərisindən keçirdi, sonra Beşbulaq dərəsi dibindən yuxarı dırmaşırdı və yoxuş başında təpə üstündə yerləşən kiçik bir dağ kəndinə qalxırdı.

Adilə başıyla sol tərəfə işarə elədi, fıstıq ağacları altındakı üstü çox hamar böyük bir daşı göstərdi. İlyas cəld irəli keçdi, pencəyini çıxardıb daşın üstünə sərdi. Adilə daş üstündə oturdu, əllərini saçlarına çəkdi. İlyas arxadan əyildi, qızın saçları arasında ilişib qalmış xırdaca, quru yarpaq qırıntılarını təmizlədi. Adilə başını qaldırıb aşağıdan yuxarı İlyasa baxıb gülümsədi:

– Oturaq, – dedi, – bir az burda... Bu gün çox yuxarı qalxdıq!

– Amma yol hələ yarı olmamışdı, geri qayıtdıq...

– Uzaqdan baxanda o dağ başı mənə çox yaxın göründü, yaxşı ki, tez başa düşdüm ki, nə qədər gec deyil qayıtmaq lazımdır.

– Əgər bircə dəfə qalxsaydın o ucalığa, ordan gördüyünü heç vaxt unutmazdın!

– Qocaman və yalqız bir ağac? Və başına o qədər ildırım düşüb ki, qara bir skelet kimi qalıb?



– Elədir, ağac skeletidir və hər səhər, hər axşam çox qocalmış bir cüt qartal o ağacın qara budaqlarına qonub, qüssəli gözlərilə çox uzaqlara baxırlar...

– Bizi görəndə üstümüzə şığımazdılar?

Qartallar təyyarələri görəndə dəli olurlar və təyyarələr üstünə cumub məhv olurlar.

– Əyləş yanımda, bir hovur dincini al... Mən hər dəfə bu daş üstündə oturanda, burdan o uzaqlara baxanda, bütün o dağlar və dərələr elə bil nəhəng bir dekorasiyadır mənim üçün...

Ayaqları altında – dərə dibində qaynayan bir bulağın suyu dəmir lülədən içi yonulmuş uzunsov daş içərisinə tökülürdü, oradan da daşaraq dərədə şırıldayan kiçik bir çayın sularına qovuşurdu. Qarşıda yoxuş başındakı dağ kəndinin əyri-üyrü küçələrində, qaratikan kolundan vurulmuş qara çəpərlər arasında kənd uşaqları oynaşırdı və kənddən o tərəfdə, meşəli düzənlər qaralırdı, sonra torpağın birdən kükrəyib yuxarı qalxdığı yerdə, bu mənzərəni bir-birinin ardınca qat-qat nəhəng divarlar kimi göyə yüksələn sıra dağlar tamamlayırdı.

– Adilə yenə başını qaldırdı, İlyasa baxdı:

– Niyə oturmursan?

– Gəzək, bu gün çox gəzək, bir az dincini al, baş alıb gedək.

– Yox, əyləş burda söhbət eliyək. Bu axı, bizim sirr daşımızdır.

– Qoy bu gün istirahət eləsin. İki aydır, biz danışırıq, o qulaq asır...

Adilənin üzündən bir kölgə keçdi, əlilə daşı oxşadı:

– Eşitdin, sirr daşı, səbir daşı? Sənə ürəyi yanan varmış burda...

İlyas arxadan əyildi, üzünü qızın saçlarına toxundurdu:

– Səni gördüyüm o gün... – dedi, – bu daş, bu torpaq, o su, – hamısı dil açdı... və nağıl başlandı...

Adilə əllərini qaldırdı, arxasında dayanmış İlyasın boynu ardında daraqladı, bir an gözlərini yumdu, gülümsər bir yuxuya getdi, sonra sanki ayıldı, qollarını açdı və dedi:

– Nahara bir saat qalıb, otur, bu gün səndən çox şey soruşacağam. Çünki mamamın, papamın sənə yeni sualları var.

– Məgər iki aydan bəri hər gün verdiyim cavablar, atanı və ananı qane salmadımı?

– Qəti qərara gəlmək üçün, onlar sənin haqqında çox şey bilməlidirlər.

– Özüm haqqında danışa-danışa mən axırda sayıqlaya bilərəm.

– O balaca kəndin böyük gələcəyindən danışanda da mən darıxıram.
– Doğulduğum kənddir. Gərək bu zəif damarımı mənə bağışlayasan.
– Bağışlayıram, bu şərtlə ki, öz gələcəyindən, bizim gələcəyimizdən danışasan.
– O barədə bir dəfə danışdım, sən qulaq asmadın.
– Çünki gətirib axırda taleyimizi o kənd ilə bağladın. Mən isə şəhər qızıyam, işıqlı şəhər gecələrinin vurğunuyam, işıqsız kənd gecələrini sevə bilmirəm.
– Uzaq bir çay üstündə böyük elektrostansiya tikiləcək. Onda bu kənd gecələri də işıqlı olacaq və darıxma, bir həftədən sonra şəhərdə olacayıq.
– Burada sənə rast gəlməsəydim, darıxacaqdım. Bura da mamam gətirdi bizi, dedi bu yay kəndə gedək, həm ziyarət olsun, həm ticarət.
– O nə deməkdir?
– Yayı kəndə gedəndə atam kənddəki xəstələri müalicə eləyir, buradan qayıdanda mama şəhərdə təzə mənzilimizə təzə mebel alacaq.
İlyas dərənin o tayına baxdı. Orda artıq günəşin şüaları ağacların yarpaqlarında sarı bir alovla yanırdı. Və yoxuş başında, dikdir üstündə bir atlı dayanmışdı. Atlı başını dik tutaraq, uzaq dağlara sarı baxırdı, at isə qabaq ayağını qaldırıb səbirsizliklə torpağı döyəcləyirdi. Adilə aşağı əyildi, boz daş altından yaşıl fəvvarə kimi fışqıran bir çəngə ot içindən birini qırdı. Sonra başını qaldırdı və soruşdu:
– Mamam deyirdi ki, institutu qurtaranda o şəhərdə mənzil ala biləcəkmi? Papam da dedi ki, indidən çalışsa beş il sonra institutu qurtaranda ona növbə çatar.
– Nə üçün onlar elə güman eləyir ki, institutu qurtaranda mən şəhərdə qalacağam?
– Bəs hara gedəcəksən?
– Burdakı uşaqlara da dərs deyən lazımdır.
– Lazımdır, amma... axı mən şəhərdə, sən burda...
– Burdakı xəstələri də müalicə eliyən əllər lazımdır.
– Medinstitutu qurtaranda məni bura həkim göndərsələr, mamam özün öldürər.
– Özümü öldürrəm deyənlər özün öldürmürlər.
– Şəhərdə beşotaqlı mənzilimiz var, mamam deyir, üç otağın yatırı – mebeli, xalıları, ağ royalı sənin cehizindir.
– Gələcəyin sevinci sənin cehizin olmalıdır.



– Elədir, amma şəhərdəki rahatlıq yaxşı döşənmiş geniş mənzillərə bağlıdır.
– Bəzən həddindən artıq rahatlıq ürəyi narahat edir.
– Hər halda kənddən şəhərə gedənlər bir də geriyə, o torpaq daxmalara qayıtmır. Sənin şəhərdəki qohumların...
– Mənim şəhərdə bir nəfər qohumum var.
– Bir nəfər olsun, geri qayıdıb?
– Yox.
– Nə üçün?
– Taleyi şəhərə bağlanıb.
– Kimdir o? Sən onun haqqında mənə danışmamısan.
– Dayımdır və hələlik təkcə onun haqqında danışmağa macal tapmamışam.
– Mamam deyir, onun "Kommunist" küçəsində gözəl kvartirası var, deyir bir ər-bir arvad yaşayırlar, nə əcəb bacısı oğlu şəhərdə onların yanında qalmır?
– Tələbə yataqxanasında yaşamaq mənim üçün daha xoşdur.
– Papam da deyirdi ki, o məsul vəzifədə işləyir.
– Maman və papan mənə aid nə varsa məndən yaxşı bilirlər.
– Nə olar, mən onların yeganə övladıyam, papam deyir ki, adamları yoxlamaq lazımdır.
– Elədir, amma komsomola girəndə məni bu qədər yoxlamamışdılar.
– Bunu ona özün deyərsən, – çünki bu axşam bizdə qonaqsan. Papam dedi ki, çağır onu axşam bizə gəlsin, özü danışacaq səninlə.
– Yaxşı olar, birdəfəlik nə lazımdırsa qoy özləri soruşsun!
– Amma yenə elə suallar ortaya çıxacaq ki, onlar mənim vasitəmlə səndən soruşacaqlar. Hara baxırsan?
– Göyə, buludlar altındakı o iki qara nöqtəyə.
Adilə də başını geri atdı, göyə baxdı.
Göyün dərinliyində ağ buludlar altında süzən iki dağ qartalı aşağıdan iki qara nöqtə kimi görünürdü.
– Kiş, kiş, qırılmışlar! – deyə Adilə əyildi, yerdən fındıq boyda bir daş götürdü və göyə, qartallara doğru tolazlamaq istədi.
İlyas qızın biləyindən tutdu:
– Atma, qorxub qaçdılar.
Adilə başını çevirib altdan yuxarı İlyasın gözlərinə baxdı. İlyasın gözlərində fərəhli işıqlar oynayırdı, Adilə də gülümsədi:

– Mən axmaqlıq eləyəndə elə bil sən dirilirsən.

– Sən öz hərəkətlərində və öz sözlərində gözəlsən!

– Bu zaman qarşıdakı yoxuş başında dayanmış at kişnədi. İlyas diksinən kimi oldu. Dönüb ona baxan Adilə soruşdu:

– Niyə elə hey o atlıya baxırsan?

– O at da, o atlı da kimi isə gözləyirlər. Amma kimin atıdır, atlı kimdir – burdan, tanıya bilmirəm.

– Nəyinə lazımdır? Nə üçün maraqlanırsan?

– Heç...

– Onda qulaq as, nahara yarım saat qalıb, mamam deyirdi ki, nə üçün o səni həmişə gündüzlər gəzməyə aparır, nə üçün aylı gecələr dalınca gəlmir?

– Nə aylı, nə aysız gecələrdə mənim anam məni gəzməyə buraxmır.

– Hələ də ana uşağısan, yoxsa kişi?

– Bir az ondanam, bir az bundan.

– Gecələr anan səni evdə saxlayıb neyniyir ki?

– Başımı dizi üstə qoyub gah layla çalır mənə, gah nağıl deyir.

– Sən onun sonbeşiyisən?

– Yox məndən kiçik bacılarım, məndən böyük qardaşım var. Demişdim sənə yadından çıxıb.

– Onda nə üçün anan səni belə əzizləyir?

– O biri uşaqları yanındadırlar, kolxozda işləyirlər. Şəhərdə oxuyan tək mənəm. Deyir axırıncı dəfədir, səni görürəm, ya mən öləcəyəm, ya sən bir də bu kəndə qayıtmayacaqsan.

– Bilmirəm, bəlkə xəstədir, bizim analar xəstə olanda demirlər.

– Yox xəstə deyil, səhər mən ona rast gəldim.

İlyas cəld başın çevirdi Adiləyə baxdı:

– Harda? Nə cür onu tanıdın?

– Bura səninlə görüşə gəlirdim. Sizin evin yanından keçəndə, arxadan bir səs məni çağırdı: a qızım, bir dayan! Dönüb geri baxdım. Doqqazdan çıxan bir arvad mənə doğru gəlirdi. Yaxınlaşdı, hər iki əlini çiyinlərimə qoydu: qoy bir az sənə baxım, qızım, – dedi. Dərhal hiss elədim ki, sənin anandır. Çaşdım, qızardım, özümü itirdim, – deməyə söz tapmadım.

– Bəs o?

– Bir az üzümə baxandan sonra dedi ki, get, qızım, səni yoldan elədim.

Yenə bir an hər ikisi susdu.



Bu vaxt yoxuş başındakı o at yenə kişnədi və bu dəfə kişnərtisində elə ehtiraslı bir çağırış vardı ki, İlyasın gözləri yol çəkdi:

– Elə bir Tərlandır, o da belə səs salardı bu dağlara...

– Tərlan? – deyə Adilə maraqlandı. – Kimdir ki, o? Tanıdın burdan ora, o atlını?

İlyas qızın sualını başa düşmədi, döndü qıza baxa-baxa qaldı və indi gözlərində elə bir dalğınlıq və uzaqlıq vardı ki, Adilə nə isə bir cür oldu və sonra başını aşağı salıb sualını təkrar edərkən, qızın səsində artıq əsəbi bir titrəyiş vardı:

– Kimdir axı o Tərlan dediyin?

– Almagözlü, qız birçəkli, iti yerişli bir qaçağan idi. Və o gün... əlim ondan üzüldüyü o gün mənim də ilk gəncliyim qurtardı.

– Sənin atın idi, atan bağışlamışdı?

– Yox, dədəm bizə, öz uşaqlarına heç bir şey bağışlamazdı. Amma dəridən-qabıqdan çıxardı ki, axşam uşaqları ac yatmasın. O öləndə mənim altı yaşım olardı. Ondan sonra bizi dayım saxladı. Tərlan da dayımın atı idi, – amma mənim ucbatımdan o möcüzə məhv oldu.

– Möcüzə? – deyə Adilə başını qaldırdı:

– Mənim gözümlə onu görsəydin, sən də başqa söz tapa bilməzdin.

– Elə isə danış o möcüzədən – qoy ürəyimə qısqanclıq odu düşsün...

İlyas heyrətlə Adiləyə baxdı:

– Qısqanclıq odu?

– Üzündəki ifadəni görsən – məni başa düşərsən. Əyləş, başımı qaldırıb sənə baxmaqdan boynum əyri bitdi.

İlyas qızın ayaqları yanında, keçənilki quru xəzəl üstündə oturdu, daşa söykəndi. Sonra danışmağa başlarkən, Adilə indi onun üzünü görmür, yalnız bir az dağınıq, sıx qara saçlarına baxırdı və bir dəfə ehtiyatla əlini onun saçlarına toxundurdu, lakin deyəsən İlyas bunu hiss eləmədi, elə bil indi o öz-özüylə danışırdı:

– ...Üç il sonra dayım Rusiyadan, vətəndaş müharibəsindən qayıdan payız, mənim artıq 13 yaşım tamam olmuşdu. Sentyabrın axırlarında dumanlı bir axşam, kənddə çıraqlar yanan vaxt, bax, orda – kəndin üstündəki o balaca təpədə kişnəyən bir atın səsi məni diksindirdi. Ürəyim döyündü, həyəcan içində bir an gözlədim. At bir də kişnədi. Artıq şübhəm qalmamışdı. İçəriyə, çırağı yandıran anamın yanına yüyürdüm.

– Dayım gəlir, ana, – dedim. – Dayım gəlir.

Anam diksindi, içini çəkdi, elə bildi ki, dayım artıq həyətdədir, özünü çölə, torpaq səkiyə atdı, mən də dalınca qaçdım.

– Bu saat gəlir ana, bu saat gələcək.

Anam gözlərini döydü:

– Kim xəbər gətirdi axı, – dedi. - Həyətdə heç kəs yoxdur.

– Tərlanın səsini tanıdım ana, təpə üstündə kişnəyən o at Tərlandı.

Anam çox məyus oldu, tək bir qardaşının həsrətindən yaş dolmuş gözlərilə mənə baxdı, köksünü ötürdü:

– Allah sənə insaf versin bala...

– Yox gəlir ana, gəlir... Bu saat yüyürürəm qabağına.

Mən səhv eləmədiyimə o qədər əmin idim ki, anam yenidən həyəcanlandı:

– Allah ağzından eşitsin bala, ağzından eşitsin. Onda tez yügür, Arəstə bacıdan, əgər varsa, bir çimdik çay al gətir, evdə quru çay yoxdur.

Çəpərin yatıq yerindən adlayıb qonşumuz Arəstə xalagilə keçdim, sonra ovcumda sıxdığım bir qaşıq quru çayla çəpər üstündən atılıb öz həyətimizə keçəndə gördüm ki, dayım Tərlanın belində doqqazdan içəri girdi.

Evdəkilər hamısı qışqırışaraq həyətə töküldü. Dayım torpaq səki qabağında Tərlanın üstündən sıçrayıb yerə düşdü, qollarını geniş açaraq əvvəlcə bizi, çolma-çocuğu, xırım-xırdanı – hamımızı bir dəfəyə qucaqlayıb bağrına basdı, sonra təmkinlə anamı qucaqlarkən, mənə sarı dönüb dedi:

– Tərlanı gəzdir, təri soyusun!

Cəld ovcumdakı quru çayı bacımın ovcuna boşaltdım, sonra Tərlanın cilovundan tutdum, armud ağacları arasıyla çox uzağa getdim. Elə ki, həyətin aşağısına gəlib gözdən yayındım, o saat döndüm Tərlanın boynuna sarıldım, "Tərlanım, kəhərim, qara gözlüm, sərv boylum" – və nə bilim daha nələr deyirdim və öpürdüm atın üz-gözündən, doymurdum. Tərlan isə qollarım arasından boynunu geri burub evə tərəf boylanırdı, – mənim nəvazişimə zərrə qədər əhəmiyyət vermirdi. Bu etinasızlıq əlbəttə ki, məni bir az məyus edirdi, amma yenə də ona tamaşa eləməkdən gözlərim doymurdu. Çünki yaraşıqlı başı, dik, balaca qulaqları, alovlu qara gözləri, quru, möhkəm ayaqları, gen sinəsi, girdə sağrısı, məğrur görkəmi ilə Tərlan yenə bir möcüzə kimi qarşımda dayanmışdı.

Hər dəfə dayım onu çapıb kənddən gedəndə Tərlan həmişə o təpə üstündən geri boylanıb kişnərdi – yəni gedirəm, salamat qalın! Və hər



dəfə səfərdən qayıdan zaman yenə o təpə üstündə başını dik tutub kişnərdi – yəni gəlirəm, salamımı alın!

Üç il əvvəl isə o dördnala çaparaq dayımla bərabər uzaqlara, təhlükəli bir səfərə gedərkən, – mən təkbaşıma o təpə üstündə oturub qalmışdım və atın ayaqları altından qalxan tozun ağ buludu təzədən yollara yatana qədər, gözümü qırpmadan onun dalısınca baxmışdım...

İndi Tərlan yenə qayıtmışdı, uzaq və təhlükəli bir səfərdən geri dönmüşdü, döyüş çöllərindən, od-alov içindən keçib gəlmişdi, amma bu qədər ki, mənə qarşı etinasız idi, ürəyimi qarsan ehtiras da bir o qədər daha artıq od tutub alovlanırdı.

Çox sonra Tərlanı gavalı ağacına bağlayıb evə qayıtdıqda, hələ qapı ağzında ikən içəridə çay içən dayımın son sözlərini eşitdim:

– Tərlan olmasaydı, mən axırıncı döyüşdən salamat çıxmayacaqdım.

Və elə o gecə Tərlanı yuxuda gördüm. Gördüm ki, Tərlanın belində qızğın döyüş gedən böyük bir çöldəyəm. Qırmızılarla ağlar üzərinə hücuma keçirəm. Tərlan ox kimi irəli şığıyır, bir göz qırpımında bizim dəstələri arxada qoyur, qəfildən qopan bir boğanaq kimi düşmən səfləri içində yeri eşib göyə sovurur... Biz qarşımıza keçən nə varsa yıxırıq, dağıdırıq, düşmən atlılarını çalağandan hürkmüş kimi pərən-pərən salırıq. Lakin bir an sonra düşmən bizi bir üzük qaşı kimi mühasirəyə alır, qılınc zərbəsindən gözlərim qaralır, üzü üstə Tərlanın boynuna yıxılıram, durna boynunu qucaqlayıram, Tərlan kişnəyib şahə qalxır, sonra irəli atılıb düşmən əhatəsini yararaq məni götürüb qaçır. Arxadan bizi təqib edənlər qıy vururlar, yüzlərlə at ayaqlarının tappıltısından yer titrəyir... Bu zaman Tərlanın ayaqları yerdən üzülür, Tərlan artıq qaçmır, bəlkə qanad açıb uçur, qarşıdakı meşəli təpələr dəhşətli bir sürətlə üstümüzə gəlir, nəhayət Tərlan uca bir təpə üstünə sıçrayıb kişnəyir, mənim isə qollarım sustalır, ağırlaşmış başım hara isə axır, vücudumu sürükləyib dalınca aparır, qaya başından qopan bir daş kimi yerə gəlirəm, qara ağzın açıb məni udan bir uçurumun dərinliyinə gedirəm, sonra torpağa sərilib gözümü açarkən, özümü anamın ayaqları altında görürəm...

Bu zaman yuxudan ayıldım. Tərlan həyətdə yanıqlı-yanıqlı kişnəyirdi. Ayağa sıçrayıb həyətə yüyürdüm, Tərlan səkilli sol biləyini qaldırıb dırnağıyla yeri döyəcləyir, sonra başını dik tutub təlaş dolu qara gözlərini qaranlığa zilləyir, ağır bir fısıltı ilə dərindən köksünü ötürürdü. Elə bil Tərlan qüssələnmişdi. Kim bilir, bəlkə o da yuxusunda

iştirak etdiyi qızğın döyüşləri görüb oyanmışdı, bəlkə də bu səssiz kənd gecəsində qəribsəyib döyüşə apardığı və döyüşdən gətirdiyini çağırırdı ki, arxada qalan o döyüş illərində ondan ayrı qaldığı nə bir günü olmuşdu, nə bir gecəsi...

– Nə istəyirdin axı sən? İstəyirdin ki, dayın o atı sənə bağışlasın? – dedi Adilə və əyildi ayaqları altında oturmuş İlyasın üzünə baxdı.

– Yox, mən bunu ağlıma belə gətirə bilməzdim. Mən ancaq onu istəyirdim ki, bircə dəfə, mən də Tərlanın belində çapıb kənddən gedəydim, o təpə üstünə qalxarkən altımda Tərlanın kişnədiyini eşidəydim, sonra yel kimi təpələrdən, sel kimi dərələrdən aşaydım, hər gecə məni çağıran uzaqlara, sirli üfüqlərin arxasında açılan ənginliklərə qovuşaydım. Amma bu arzuma mən yalnız yuxularımda qovuşurdum.

– Yazıq uşaq! Nə üçün dayın o atı sənə vermirdi? – deyə Adilə hiss edilmədən yenə əlini İlyasın saçlarına çəkdi.

– Mən onun gözündə hələ uşaq idim, at minmək sənətində naşı idim... Tərlan kimi qızğın məzaclı bir köhləni mənə, yaxud məni Tərlana etibar edə bilməzdi. Anamın da ürəyinə dammışdı ki, əyər mən Tərlanı minsəm, nə isə bir xata baş verəcək... Nəhayət doğrudan da xata baş verdi. Tərlan mənim hikkəmə, dəli inadıma qurban getdi və o vaxt ki, əlim arzuma çatmışdı, xəbərim olmadı ki, həsrətini çəkdiyimi öz əlimlə məhv edəcəm...

– Axı sən ona nə eliyə bilərdin? Bir halda ki, o atın məzacı sənin özün üçün qorxulu idi.

– Bəlkə də... amma o məni yox, mən onu şikəst elədim, sonra... biz onu güllələdik.

Adilə diksindi, gözlərini geniş açdı.

– Nəhayət bir gün Tərlanı minməyə müvəffəq oldum, – dedi İlyas və sönmüş papirosunu ayağı altına atdı. – Dayım kəndə gələndən bir həftə sonra, uzaq qonşumuz malakan kəndinə qonaq gedərkən, məni də özüylə bərabər aparmaq istədi. Onu cəbhə dostu Vasili qonaq çağırmışdı. Malakan kəndi elə o vaxt da günbatanda, Həftəran dərəsinin o biri tərəfindəki dağlar üstə salınmış böyük və abad bir şenlik idi.

Səhər Tərlanı yəhərləyərkən dayım gözlərimdə nə gördüsə, dedi ki, sən də get mənim adımdan Muxtar kişinin atını istə, deyinən axşama qayıdacayıq.

Dərhal Muxtar kişigilə yüyürdüm – indi o kolxoz sədridir – Muxtar kişi dayımdan heç bir şeyi əsirgəməzdi, ona görə atı özü yəhərlədi, sonra cilovu üstümə atdı.



Dayımla bərabər, yanaşı at sürərək, kənddən çıxanda ürəyim dağa dönmüşdü. Amma gözüm yenə Tərlanda idi. Elə ki, atlarımız sıçrayıb təpə üstünə qalxdılar, Tərlan dərhal başın geri çevirib kişnədi: yəni salamat qalın, gedirəm. Enişi rahat yerişlə endik. Dayım isə hərdənbir gözünün ucuyla mənim at üstündə nə cür oturduğuma nəzər yetirirdi. Həftəran dərəsi ilə uzanıb gedən şose yoluna düşəndə, Tərlan artıq özünü didib dağıtmağa başladı. O tez-tez fınxırıb cilovunu gəmirir, alovlu qara gözlərini süzərək, mənim altımdakı ata baxır, cinlənib acıqlanırdı ki, biz onun ayağına çidar olub, tutub onu saxlayırıq. Axırda dayım Tərlanın hövsələdən çıxdığını görüb, mənə tərəf döndü:

– Əgər yolu tanısaydın, mən bunun başını bir az buraxardım.

Yol göz qabağında idi, tanımağa ehtiyac yox idi. Başımla dayıma razılıq işarəsi verdim. Və yalnız onu gördüm ki, dayım üzəngini azacıq Tərlanın böyrünə sıxmışdı ki, Tərlan yerindən qopdu, nə qopdu. Elə bil qəfildən üzümə vuran şiddətli küləkdən nəfəsim tutuldu. Ağzımı açıb Tərlanın dalınca baxa-baxa qaldım. O möcüzənin dalınca çapmaq gülünc olardı, altımdakı at da bunu hiss eləmişdi və qərarından getmirdi. Sonra mən Tərlanı dağ başına, malakan kəndinə qalxan dolaylarda yuxarı uçan gördüm, elə bil o qabaq ayaqlarıyla göyləri eşirdi...

Birdən sinəmdə zəhərli bir ağrı hiss elədim. Mən artıq Tərlanı dayıma qısqanırdım...

Nəhayət mən malakan kəndinə çatıb Vasilinin həyətinə girəndə, dayımı və ev sahibini iki nəfər topa saqqallı qoca malakanla bərabər tut ağacı altındakı stol başında oturmuş gördüm. Süfrədəki iki araq şüşəsini boşaltmışdılar. Mənə də iki stəkan pivə verdilər, içdim. Mən pivə içərkən Vasili dayımla bərabər bir dəfə ağlara əsir düşüb, üç gün sonra güllələnməyə aparılarkən, necə qaçdıqlarından danışırdı. Mən bu əhvalatı birinci dəfə eşitdiyim üçün, dayımın üzünə baxdım, – dayım bilinməz bir nöqtəyə baxırdı, gözləri yol çəkirdi.

Axşama yaxın geri qayıtmağa hazırlaşarkən dayım dedi:

– Apar Tərlanı göldə sula, yola düşək, – sonra əlavə elədi, – öz atını min, Tərlanı yedəyində apar.

Mən Muxtar kişinin atını minib Tərlanı yedəyimə aldım, lakin cilovu nə qədər çəkdimsə, Tərlan dirəndi, dalımca gəlmədi.

Vasili gülüb dedi:

– Tərlan sənin yabının dalınca getməz, düş yerə ikisini də yedəyinə al.

Yerə atılıb hər iki atın cilovunu əlimə alıb dalımca çəkdim, amma Tərlan o saat qulaqların yapırdıb Muxtar kişinin atını elə qapdı ki, yazıq at qulun kimi çığırdı və cilovu əlimdən qopardıb həyətin o biri başına qaçdı.

Bu dəfə Vasili bərkdən qəhqəhə çəkib güldü:

– Eybi yoxdur, – dedi, – sən Tərlanı apar, bu saat bizim uşaq gələr, o da sənin atını aparar.

İndi təkcə Tərlanın cilovundan çəkəndə, o əvvəlcə dayıma tərəf baxdı, sonra arxamca gəldi, həyətdən çıxıb kənd içilə üzüaşağı yönəldik. Tərlanın dalımca nə cür gəldiyini bilmirəm, lakin mən başımı aşağı salıb gedirdim. Elə bilirdim ki, kənd uşaqları atı minməyib yedəyimdə apardığım üçün, məni elə salıb hoydu-hoyduya götürəcəklər. Nəhayət kənddən çıxıb, enişlə üzüaşağı endik, böyük və süni gölün kənarına gəldik. Məndən başqa bir neçə oğlan uşağı da göl qırağında atlarını sulayırdılar.

Tərlan dodaqlarını mavi göl suyuna uzatdı, mən yavaşdan şirin-şirin ona fit çalmağa başladım. Sonra o sudan doyub başını qaldıranda, dizə qədər çırmanıb özüm suya girdim, Tərlanın səkilli biləklərini, durna boynunu, məxmər sağrısını yudum, barmaqlarımla yalını darayıb tumarladım, axırda ərk ilə kəkilindən tutub dartdım. Belə hallarda o həmişə qulaqların yapırdıb dayımla zarafata başlar, məhəbbətlə, şəfqətlə dayımın qolundan qapardı. Lakin indi mənim zarafatıma o əsla etina eləmir, titrəyən barmaqlarımın nəvazişinə məhəl belə qoymur, yalnız məğrur başını uca tutub, hara isə boylanır, nə məni qapır, nə də üzümə baxırdı...

Tərlanın mənə qarşı bu etinasızlığı birdən mənə elə yer elədi ki, hirs başıma vurdu, nəfəsim sinəmdə qısıldı. Dərhal cilovundan tutub kəskin bir hərəkətlə dalımca çəkdim, yol qırağındakı dikdir yanına çatarkən, qəfildən geri dönüb cilovun başından geriyə – üstünə atdım və bir göz qırpımında dikdir üstündən sıçradım, çılpaq belinə qalxdım.

Yalnız yuxularımda qovuşduğum o an gəlib çatdı. Tərlan isə məndən gözləmədiyi bu hərəkətdən diksinərək dal ayaqları üstə şahə qalxdı, qəsdimə durub, məni elə o dəqiqə üstündən yerə atmaq istədi. Amma mən ayaqlarımı onun qabarıb yatan böyürlərinə elə sıxmışdım ki, qırsaqqız kimi ona yapışmışdım. Və bir neçə dəqiqə o dəlicəsinə dal ayaqları üstə dövrə vurub fırlandı, vüqarı coşğun məzacı mənim cəsarətimi mənə bağışlamaq istəmirdi. Mən isə qət eləmişdim – ya ona verən Allah, ya mənə...



Nəhayət Tərlan qabaq ayaqları üstə yerə gəldi, hirsindən geniş açılmış burun pərələri elə bil od saçırdı. Bu vaxt mən artıq fürsəti əldən verməyərək, cilovun ucların qulaclayıb var gücümlə onun sağrısına, acı ağrısı ürəyə sancılan bir qırmanc zərbəsi çəkdim. Elə bil Tərlanın ayaqları altında bomba partladı. O altımda dik atılaraq göyə sıçradı, sonra ildırım kimi irəli şığıyarkən, bir an mənə elə gəldi ki, at altımdan çıxdı, mən isə asılıb havada qaldım. Ömründə mahmızların xəfif təmasından savayı heç bir kobud zərbə görməmiş Tərlanın vüqarı, heysiyyatı, varlığı birinci dəfə idi ki, bu cür təhqir olunurdu. Və indi onun içindəki qəzəb elə od tutmuşdu ki, əgər qanad açıb uçmağa başlamışdısa, bu qanadları alovlanmış bir quş uçuşu idi...

Bütün sonrakı hadisələrin nə cür cərəyan etdiyini, bir qığılcımdan tutuşan alovun bizi necə ağzına aldığını ardıcıl olaraq təsvir eləmək mənim üçün çox çətin olardı.

Yalnız onu xatırlayıram ki, mən Tərlanın başını kəndin şimalına doğru – dik yoxuşlara çevirmişdim və biz yoldan çıxıb qaratikan kolluqları ilə örtülü təpeciklər üzərindən atılıb keçərkən, ayaqlarımı darayan, dərimi sıyıran, iynə kimi ətimə sancılan kol-kosun zəhərli ağrısını mən hələ hiss eləmirdim.

Tərlan gah kol topaları üzərindən sıçrayır, gah qabağımıza çıxan şilgirliyi döşüylə yarıb keçir, üzümə vuran küləyin vıyıltısı elə bil dayımın boğuq səsini qulağıma çırpırdı ki, saxla, saxla od aparmış, görmürsən, öldürür özünü...

Amma mən Tərlanı saxlaya bilmirdim, var gücümlə cilovu nə qədər çəkirdimsə, onu toxdada bilmirdim, əksinə özüm onun çılpaq belindən sürüşüb dik saxladığı boynuna dırmaşmışdım. İndi Tərlanın bütün bədəni buğlanıb qaynayırdı, qanamış cəhənglərindən qaynar qırmızı köpük daşdayırdı. Və mən, onun qanamış cəhənglərini görəndən sonra daha cilovu çəkmədim. Fərqi yoxdu, hamısı əbəsdi və mən dəhşətə gəldim, hiss elədim ki, qollarımda Tərlanı saxlayacaq o güc, o qüdrət yox imiş...

Gözlərinə qan sağılmış Tərlan isə getdikcə daha artıq qızıb alovlanırdı, bir göz qırpımında enişlərdən üzüaşağı uçurdu, sonra bir anda çapıb yoxuşlar başına qalxırdı, altımda od kimi yanırdı, ilan kimi qıvrılırdı, ağ köpük və buğ içində quduz bir hirslə qaynayırdı və elə bil qəsdən ölümə, fəlakətə doğru qaçırdı ki, mən dəhşətə gəlib özümü yerə atım, xəcil olub üzümü toza-torpağa sürtüm!

Yox, yalnız bunu görməyəcəkdi, kifayətdir ki, qollarımın öhdəsindən gələ bilmədiyini mənə göstərmişdi və indi üzümdən axan tər xəcalət təri idi, amma ürəyimə meydan oxuyub, məni gözüqıpıq eləmək istəyirdisə, – bu onun xam xəyalı idi.

Amma içərisilə şose yolu uzanan Həftəran dərəsi üstündən asılmış bir sıldırım kənarına yetişəndə, mən bir sövq-təbii ilə cəld Tərlanın cilovunun sol qavısını boşaldıb, sağ qavısı var gücümlə yana dartdım.

Tərlanın boynu şaqqıldadı və yanakı bir sıçrayışla dönüb sıldırım qırağıyla çaparaq enişə doğru getdi. Beləliklə ilk fəlakət sovuşdu və qara ağzını açmış uçurum ağzıaçıq halda arxada qaldı.

İndi Tərlan dolama dağ yolu ilə üzüaşağı, Həftəran dərəsinə doğru çapırdı. Mən isə ümidimi aşağıdakı yola bağlamışdım, – düşünürdüm ki, orda o uzun və düz yolda artıq nəfəsi qaralan Tərlanı bəlkə saxlaya bildim. Birdən növbəti dolamaların birində yol ortasında atları açılıb buraxılmış çəlləkli bir araba gördüm. Malakan kəndinin içməli suyu, dərə dibindəki gur bulaqdan bu çəlləkli arabalarla yuxarıya daşınırdı.

Sinəmdən qopan "Tərlan" fəryadı ağzımdan çıxmamış, at altımda sim kimi gərilib, nəhəng bir sıçrayışla özünü yuxarıdan aşağıya, – araba üstündən o tərəfə atdı. Sonra Tərlanın ayaqları təzədən yerə dəyərkən, mən artıq hər şeyi unudaraq sonsuz bir minnətdarlıq hissilə atın boynuna sarıldım. Tərlanım, amandır, dəlilik elədiyin bəsdir, – dedim. Tərlanım yetər, dayan birce dəqiqə nəfəsini dər – və üzümü onun tərdən qaralmış boynuna sıxaraq, oxşadım, onu, əzizlədim və ovundurmaq istədim.

Amma kimə deyirsən, Tərlanın hirsi soyumaq bilmirdi. Və indi mən dəhşət içində idim. Bu cür davam edərsə, Tərlanın ürəyi partlaya biləcəyini düşündükcə, alnımı soyuq tər basırdı.

Buna görə artıq son dolamadan enib şose yoluna düşərkən, Tərlanı saxlamaq üçün axırıncı tədbirə əl atdım, qəfildən başını dərədəki bulağın ayağından axan suların bataqlıq əmələ gətirdiyi qamışlığa tərəf çevirdim. Zənnim məni aldatmamışdı. Qamışlıqda o artıq dizə qədər palçığa batdığından – bataqlıq çox tez onun öhdəsindən gəldi – hər addımda daha bərk tutdu ayaqlarından daha bərk buxovladı və sordu, sümürdü bütün gücün-qüvvətin əlindən aldı və bir-iki ümidsiz sıçrayışdan sonra büküldü qabaq ayaqları, dizləri üstə yerə gəldi.

Sonra cəld ayağa sıçrayıb tövşüyə-tövşüyə dayandı. İndi onun böyürlərini düşünərək, dərindən rahat nəfəs aldım. Lakin elə bu an qolum qüvvətli bir təkanla aşağı dartıldı. Cilov əlimdən çıxdı. Hələ qan-tər içində olan Tərlan başını aşağı salıb, dəhşətli bir ürək yanğısıyla bataqlıq suyunu içirdi. Mən atın belində quruyub qaldım. Sonra dəli kimi Tərlanın böyürlərini təpikləməyə, boynunu yumruqlamağa başladım. Lakin Tərlan sanki heç bir şey hiss eləmir, başını qaldırmır, buz kimi soyuq bulaq suyunu ara vermədən köpüklü dodaqları arasından içəriyə sorurdu. Vaxt itirməyərək özümü bataqlıq içərisinə atdım, Tərlanın yalından yapışıb başın sudan qopartmaq istədim, gücüm çatmadı. Üz-gözünü yumruqladım, suyu bulandırdım, o başını qaldırıb bircə dəfə, tək bircə dəfə mənə baxdı, – sonra kənara sıçradı, yenə su içməyə başladı. Dizə qədər palçığa batıb güclə hərəkət etdiyim üçün, Tərlanın cilovundan dartıb bataqlıqdan çıxarmağa imkan yox idi. Bu qayda ilə uzun zaman palçığa batıb-çıxaraq, mən onun dalınca getdim, o da hər dəfə kənara sıçrayaraq, böyürləri qabarıb şişənə qədər su içdi.

Artıq bütün səylərim əbəs idi, iş işdən keçmişdi.

İlyas nəfəsini dərib bir an susdu. Adilə əyilib yaxından onun üzünə baxdı:

– Su içəndə ona nə oldu ki?

Bu dəfə İlyasın səsi sanki quyu dibindən gəldi:

– Xəstələndi, ayaqları tutuldu.

– Bəs dayın?

– Onlar, – Vasili və dayım at üstündə çapıb gələrək, məni aşağıda, köhnə su dəyirmanının yanında tapdılar. Dəyirman yanındakı kötər üstündə oturub başımı aşağı salmışdım. Tərlan isə məndən bir-iki addım kənarda, başını qovaq ağacına söykəyib dayanmışdı.

– Nə dedi, dayın sənə?

– Heç nə. Nə mən danışdım, nə dayım, nə Vasili. Nə baş vermişdisə hamısı göz qabağında idi. Dayım Vasilinin atından yerə düşüb Tərlanı yedəyinə aldı, piyada yola düzəldi. Vasili isə Muxtar kişinin atından yerə düşdü, məni qaldırıb haman at üstə qoydu, mən isə fərqinə varmadım, xəcalət çəkmədim ki, məni balaca bir uşaq kimi qaldırıb at üstünə qoyurlar. Vasili dəyirmanın yanında dayanıb bizim dalımızca baxırdı.

Muxtar kişinin atı isə tanış yol ilə dayımın dalınca məni öz kəndimizə doğru aparırdı.

dayımı belinə alıb uçmaq istəmirdi. Mən isə Muxtar kişinin atı üstündə elə bil yuxu içində yol gedirdim, Tərlanın yorğun kölgəsinə çatmaq istəyirdim, lakin çata bilmirdim.

Gecə kəndə yetişəndə burulub Muxtar kişigilə getdim. Qoca atın cilovunu məndən alıb soruşdu: nə cür keçdi səfəriniz, Vasili sizi nəyə qonaq elədi?

Dodaqlarım əsdi, cavab verə bilmədim. Nə o gecə, nə sonrakı günlər evə qayıtmadım. Yoldaşım Muradgildə gecələyirdim, gündüzlər də kənd içində dayıma rast gəlməməyə çalışırdım ki, gözlərim gözlərinə sataşmasın! Dayım hələ də cəbhədən gətirdiyi köhnə boz şinelində gəzirdi, özünə təzə paltar almağa imkanı yoxdu, halbuki Tərlanı satsaydı tam bir dövlət əldə edərdi, Tərlanın əvəzinə ona qəza mərkəzində həyəti bağçalı, dördgözlü bir ev təklif edən belə vardı.

– Sonra, sonra? – deyə Adilə həyəcanla səsləndi.

– Sonra hərdən bir anamla görüşəndə ondan eşidirdim ki, dayım bütün günü kirimişcə gəzir, yalnız məşhur atçı qoca Cəlil ata baş çəkməyə gələndə onunla uzun-uzadı danışıb məsləhətləşir.

Beləliklə Tərlanın başına gələn əhvalat bir ildırım sürətilə bütün mahala yayıldı, nəinki bizim tərəflərdə, qonşu mahallarda belə Xasayoğlunun atından danışmayan, Tərlanın sorağın eşitməyən az-az adam tapılardı. Qoca Cəlil kişi isə Tərlanın dərdinə əlac eliyə bilmədi, Tərlanın qolları açılmadı, Tərlan artıq qanadı sınmış bir quş idi.

Nəhayət bir axşam dayım Muradgilin çəpəri dalından məni səslədi. Ürəyim döyünə-döyünə yüyürüb küçəyə çıxdım. Dayım Tərlanı yedəyində tutub dayanmışdı, dayımın gözlərinə baxa bilməyib Tərlanın gözlərinə baxdım. Harda idi o alovlu gözlər? Elə bil sönmüş bir ocağın yerində kül qalmışdı. Birdən Tərlanın arxasından tösmərək bir kişi çıxıb baş barmağını yuxarı qaldırmış halda açıq əlini dayıma uzatdı:

– Ver əlini Xasayoğlu, ver əlini qurtaraq – dedi.

Mən arabaçı Nüsrət kişini tanıdım, həftə bazarında ayaq üstü alver edirdi və indi arabaçının Tərlana baxan gözləri parıldayırdı. Dayım arabaçının havada qalmış açıq əlini kənar edərək, mənə dedi:

– Nüsrət kişi deyir ki, Tərlanın bundan sonra onun arabasına qoşulmaqdan başqa bu dünyada bir işi qalmayıb. Sən nə deyirsən?

Başımı qaldırıb diqqətlə dayımın gözlərinə baxdım. Sonra arabaçıya tərəf dönərək:



– Yox, – dedim – yox, Tərlanı öz əlimlə boğaram, – amma qoymaram sən onu arabana qoşub söyəsən, döyəsən, belini yağır eliyəsən!

Arabacı civinlərini çəkdi, dayıma baxdı. Dayım yavaşdan ona "get" dedi, sonra, mənə tərəf döndü:

– Biz də gedək, – dedi, – Tərlanı bir az gəzdirək, bu gün çox darıxır, elə hey kişnəyir.

Sonra o cilovu atın üstünə atdı və geri döndü. Dərhal Tərlan da geri dönüb, bir az axsayaraq, ağır addımlarla dayımın dalınca getdi. Daha ağır addımlarla Tərlanın arxasınca da mən yönəldim.

Kənddən çıxdıq. Araba yolundan sola burulub cığırla yoxuşa qalxdıq, Beşbulaq dərəsinin üstündəki o sıldırıma doğru gedirdik.

Dayım qabaqda başıaşağı addımlayır, Tərlan da başı aşağı onun dalınca dikdirə qalxırdı, başımı qaldırıb daş kimi ürəyimdən asılmış bir qüssə içində ətrafa boylanan yalnız mən idim.

Nəhayət biz dərin bir yarğanın kənarında dayandıq. Göyün üzü parçalanıb sıxlaşan qara buludlarla örtülür, külək kəndə gedən araba yolundan toz qaldırır, cığır qırağındakı otlar yerə sərilib bir-birinə qısılır, xırdaca dillərində bir-birinə nə isə pıçıldaşırdılar.

Dayım dayandı. Tərlan dayandı, mən də dayandım.

Sonra dayım atın cilovundan yapışıb onu yarğan kənarilə bir az irəli apardı. Mən heyrət və təlaş içərisində dayımın hərəkətlərini təqib edirdim. Üfüqdə iki dəfə dalbadal ildırım çaxdı, sonra axşam göyləri başımız üstündə partladı.

Tərlan diksinərək başını qaldırdı, yarğandan o taya – hara isə baxdı, yalları küləkdə qarışıb qabardı və bir an mənə elə gəldi ki, o yenə əvvəlki Tərlandır – qara buludlu üfüqlər önündə o qədər məğrur dayanmışdı ki...

Çiynimdə bir əl hiss edərək, diksinib yana çevrildim – dayım lülosindən tutduğu naqanın dəstəyini mənə tərəf uzatmışdı:

– Qurtar, – dedi – bu gün spekulyant arabaçı gəldi, sabah da kəsib dərisini soymaq, istəyən dabbaq gələcək...

Qurumuş dodaqlarımı yaladım, heç bir söz deyə bilmədim.

– Yoxsa əlin gəlmir? – dedi dayım və qəribə bir təbəssümlə gülümsəyib, naqanı özü qaldırmaq istədi. Lakin mən aman vermədim, qamarladım naqanı dayımın əlindən aldım və elə bu vaxt Tərlan kişnədi – sınıq səslərlə dolu bir hayqırışla, yanıqlı-yanıqlı, uzun-uzadı kişnədi. Sonra boynunu qanırıb – sanki dayımla vidalaşmaq istəyirmiş kimi ona baxdı. İrəli atıldım və az qala qızdırmalı bir bayqınlıq içində

Tərlanın alnındakı qaşqanı yaxından nişan alıb, tətiyi çəkdim. Tərlan elə bil göyə sıçradı, sonra dal ayaqları üstü çökərək uçuruma aşdı. Naqanı aşağı salıb, yarğanın kənarına gəldim.

Uçurumun dibi böyürtkən kollarıyla örtülmüşdü. Mən ancaq əzilmiş kol-kosları, sınıq şax-budaqları gördüm, Tərlanı görə bilmədim. Geri döndüm.

Dayım görünmürdü. İrəli baxdım. Kəndə doğru uzanan araba yolu ilə bir qaraltı baş alıb gedirdi.

Yaxındakı kolların paxırlı yarpaqlarında bir-iki iri yağış damlası tappıldadı. Sonra qopan tufan içində ağır addımlarla çöl ilə kəndə qayıtdım. Kəndə yetişəndə, tufan daha artıq bir şiddətlə davam edir, kənd küçələrindən üzü aşağı enişlərə doğru sel gedirdi...

İlyas susdu.

Bir an Adilədən səs çıxmadı, sonra saatına baxdı, ayağa qalxdı:

– Sən hekayəni qurtardın, – dedi, – vaxt da gəlib çatdı.

– Gedək, nahara gecikirsən, – deyə İlyas da ayağa qalxdı.

Cığırdan araba yoluna düşüb, üzü aşağı Beşbulaq dərəsinə enməyə başladılar. Dərəni kəsib keçərək, sonra üzü yuxarı yoxuşa çıxanda Adilə göyə baxdı:

– Göy üzü tutulub, yəqin yağacaq.

İlyas da başını qaldırdı:

– Payız buludlarıdır, – dedi, – tezliklə buranın şırtaşırtı başlanacaq.

– O vaxt biz şəhərdə olacayıq. İndi yağmasın, əynimdə nə varsa zay olacaq!

– Eybi yoxdur, paltarın çoxdur.

– Sənə çox görünür, şəhərdə elə qızlar var ki, üç şifoner ancaq yay paltarları var.

– Bir yay ərzində o qədər paltarı ona-buna göstərmək üçün, gərək vaxtı ondan-bundan borc alasan!

– Qadın gündə yüz dəfə paltar dəyişməyə də vaxt tapa bilər.

İlyas dinmədi.

İndi hər ikisi susmuş bir halda, yoxuş ilə üzü yuxarı qalxırdılar.

Birdən yuxarıdan çoxlu at ayaqlarının qarışıq tappıltısı eşidildi. Bir dəstə atlı bayaqdan bəri yoxuş başında dayanmış tək atlını aralığa aldı. İlyasla Adilə yoxuş başında atlılar ilə üz-üzə gəldilər və atlılar içindən qaraşın bir oğlan İlyasa salam verib, salam alanda:

– Hara belə, Murad? – dedi İlyas və ayaq saxladı.



– Topçu meşələrinə. Qolçomaq Hətəmin quldur dəstəsi bu gecə Göytəpə yaylağına basqın eləyib, kolxoz heyvanlarını sürüb meşəyə aparıblar. Milis işçiləri aşağıda bizi gözləyirlər.

– Yoldaş, qəbul eləsəydiniz, mən də sizinlə gedərdim – dedi İlyas.

Murad bir an İlyasın gözlərinə baxıb:

– Gəl, – dedi, – Muxtar kişini geri qaytararıq.

Sonra o ortaboylu, dolğun cüssəli, çal bığlı kolxoz sədri Muxtar kişiyə tərəf döndü:

– Muxtar dayı, – dedi, – bəlkə orda yubandıq, kolxozda işlərin tökülüb qalar, qayıtsan yaxşıdır, İlyas sənin atınla gedər.

Atlılardan yalnız iki nəfərinin – Murad ilə Muxtar kişinin çiyinlərində beşaçılan vardı. Muxtar kişi alnını ovuclayıb bir an fikrə gedərkən, İlyas Adiləyə tərəf döndü:

– Hələlik Adilə, – dedi, – burdan o yana Muxtar dayı ilə gedərsən.

Adilə geniş açılmış gözlərilə İlyasa baxdı:

– Bəs papam? Papam axı bu axşam səni qonaq çağırıb.

– Deyərsən ki, üzr istədi gələ bilmədi, – İlyas bir an susdu, sonra əlavə elədi, – əgər dayım barədə soruşsa, de ki, o da artıq məsul vəzifədə işləmir. O gün şəhərdən məktub almışdım. Bir neçə gün bundan qabaq həbs olunub – nə üçün hələ məlum deyil. Əlvida!

Ortalığa dərin bir sükut çökdü. Muxtar kişi ilə Muraddan başqa bütün atlılar dönüb bir-birinin üzünə baxdılar. İlyas isə yaxın gedib Muxtar kişinin atdan düşməsini gözlədi. Üzü tutulmuş Muxtar kişi İlyası yanında görüb duruxdu. Bu zaman Murad birdən kəskin bir hərəkətlə öz tüfəngini çiynindən çıxarıb İlyasa uzatdı, eyni zamanda çəpəki Muxtar kişiyə tərəf baxıb dedi:

– Bəri ver tüfəngini Muxtar dayı və məndən də təhvil alarsan.

Muxtar kişinin üzü daha da tutuldu, yana çevrilib Muradın üzünə qabardı:

– Özündən çıxma, Murad! – dedi. – Hələlik biz də kişiyik.

Və Muxtar kişi tüfəngini çiynindən çıxarıb İlyasın üstünə atdı...

– İlyas tüfəngi havada tutdu. Sonra Muxtar kişi aşırılıb atdan düşdü. İlyas cilovu əlinə alıb atın üstünə qalxdı.

Mahmızlanan atlar irəli atıldı, atlılar təpə üstündən üzü aşağı araba yoluna tərəf baş aldılar.

Kənddən çıxandan sonra atını qabaqda İlyas ilə yanaşı sürən Murad soruşdu:

– O qız yaylağa gələnlərdən deyilmi?
– Elədir, doktorun qızıdır.
– Kənddə danışıq gedir ki, bir-birinizə könül vermisiniz!
– Nə isə vardı ayrıldıq.
– Bəlkə tələsmisiniz?
– Yox, elə rast gələn gündən bir-birimizdən ayrılmağa başlamışdıq.
[illegible]

– Heç vaxt! Bilirdim ki, ayrılacayıq, amma sevirdim.
– İndi də?
– İndi daha çox!

Murad cəld dönüb İlyasa baxdı, nə isə demək istədi, lakin İlyasın üzündə nə gördüsə susdu.

***

Adilə başı aşağı Muxtar kişilə bərabər kənd küçəsilə gedirdi. Hər ikisi fikirli idi. Birdən Adilə başını qaldırdı.

– Muxtar dayı, – dedi, – siz onun dayısı, Xasayoğlunu tanıyırdınız?

Muxtar kişi suala o saat cavab vermədi, beş-on addım gedəndən sonra hiss edilmədən köksünü ötürdü və dedi:

– Tanıyırdım, Dəmir yolundan bəriyə, bizim tərəfə ayrılan şose yolunu o çəkdirmişdi... Qəza mərkəzində məsul vəzifədə işləyəndə...

– Tərlan da yadınızdadır, Muxtar dayı?

– Tərlan kimdir? – deyə Muxtar kişi Adiləyə baxıb, gözlərini döydü.

– Heç... Soruşmaq istəyirəm ki, sizin atınızı ki, o minib getdi, o yaxşı atdır?

– Yox, elə bir şey deyil, qızım, qabaqlarda mənim yaxşı bir köhlənim vardı.

– Bəs indi elə atlar yoxdur? Var, amma çox az.

– Niyə ki? Necə olublar o köhlən atlar?

– Köhlən atları köhnə kişilər minib o dünyaya getdilər – dedi, Muxtar kişinin gözləri bir an yol çəkdi, sonra birdən Adiləyə tərəf döndü. – Dayan, bayaq nə dedin? Tərlan da yadımdadırmı? Yadıma düşdü

Muxtar kişi gözaltı başı aşağı gedən Adiləyə baxdı, sonra çal bığları altında qımışaraq dedi:

– Bilirsən qızım, Tərlanlar çapıb-çapıb öz dövrünü qurtardılar. Qulaq as! Eşidirsən təpənin dalından gələn o gur səsi? Təzə aldığımız traktordur, güney talada xam torpağı sökür. İndi dövran o maşınındır. Kənd batırdı, o maşın əlimizdən tutub, bizi yerdən qaldırdı.

Adilə həyətdən keçib səkiyə qalxanda, anası Fatı qarıdan almaq istədiyi bir cüt fərə üstündə çənə döyür, nənəsi tabaqda düyü arıdır, atası stol arxasında oturub zoğal mürəbbəsi ilə çay içir, eyni zamanda arvadı ilə Fatı qarı arasında gedən deyişməyə qulaq asıb gülümsəyirdi.

Adilə nə sənə, nə mənə birdən anasının üstünə qışqırdı:

– Mama, incitmə qoca arvaddı, ya al, ya yola sal!

Anası səksənib heyrətlə qızına baxdı, sonra soruşdu:

– Nə oldu, çağırdın onu axşam gəlsin bizə?

– Çağırdım, amma gəlməyəcək.

Atası stəkanı ağzından geri qaytardı:

– Niyə ki? Demədin, mənim ona sözüm var?

– Dedim.

– Sözü nə oldu?

– Dedi ki, dayım artıq şəhərdə məsul vəzifədə işləmir. Papan soruşsa, dedi, belə deyərsən.

– Bu nə axmaq sözdür? Nə bilirdi ki, mən ondan nə barədə soruşacağam?

– Axmaq deyil, bildi ki, sən ondan bu barədə soruşacaqsan.

– *Tutalım soruşacaqdım – çox da fors eləməsin.*

– Fors eləmədi – dedi ki, dayım üç gün bundan qabaq həbs olunub. Nə üçün – hələ məlum deyil.

Anası diksinib ayağa qalxdı, ərinə nə isə demək istəyirdi ki, birdən dönüb Fatı qarının üstünə çəmkirdi:

– Get arvad, nə qulaq asırsan? Lazım olmadı çolpaların.

Fatı qarı köksünü ötürüb ayağa qalxdı, çolpalarını qoltuğuna vurub yola düzəldi. Anası Adiləyə tərəf döndü:

– Elə isə Adya...

Adilə anasının sözünü kəsdi:

– Qorxma mama, görüşməyəcəyik, özü məndən ayrıldı.

Adilə içəri keçdi. Ər ilə arvad, bir-birinin üzünə baxdılar. Arvad gözləyirdi ki, əri başlasın, çünki bütün məsələlərin müzakirə və həllində

birinci söz ərinin, axırıncı söz onun idi. Ər isə ixtisasının vərdişi üzrə müəyyən fikir söyləmək məsuliyyətindən yaxa qurtarmaq üçün, dumanlı müqəddimələrə başlayaraq, gözlərdi ki, arvadı fikrini çılpaq və qəti surətdə ortaya atsın. Bir an davam edən sükutdan sonra bu dəfə arvadın öz növbəsini gözləməyə səbri çatmadı:

– Əvvəldən mənim ürəyimə dammışdı ki, o bizim tayımız deyil, – dedi və birinci özü sözə başladı.

İçəridə yarıqaranlıq otaqda qurdalanan Adilə özünü pəncərəyə atdı:

– Bu günə qədər belə demirdin, mama, bu günə qədər istəyirdin ki, aylı gecələrdə də o məni gəzməyə aparsın!

Atası öskürdü:

– Yanlış da bir naxışdır, Adya. Məsələyə hərtərəfli yanaşanda, əmələ gələn situasiyada hər halda zərər çəkən sən deyilsən. Sən mənim ağıllı qızımsan, nə demək istədiyimi gərək başa düşəsən.

– Başa düşürəm, papa, başa düşürəm. Elədir mən sənin ağıllı qızınam. O məni bax ora, o dağ başına, o tək ağac yanına apara bilmədi. Getmədim, yarı yoldan geri qayıtdım. Anam cəld cavab verdi:

– Yaxşı elədin, yad bir oğlanla sənin orda, o dağ başında nə işin vardı?

Adilə bir an boğuldu, sonra dedi:

– Bu saat, bu dəqiqə yığışın gedək. Qurtarın ziyarətinizi, qurtarın ticarətinizi. Bu saat, bu dəqiqə yığışın gedək!

– Adya, sən dəli olmusan, Adya – deyə anası kəkələdi.

– Siz qalın, gecə özüm piyada yola düşəcəyəm!

Adilə pəncərədən çəkildi, anası içəriyə, onun yanına keçdi. Adilə çamadanını yığışdırırdı, anası nə isə demək istədi, lakin birdən duruxdu, hiss elədi ki, artıq axırıncı söz onun deyil, geri döndü, səkiyə çıxıb ərinə yaxınlaşdı:

– Çarə yoxdur, adam çapdır rayon mərkəzinə – qoy iki fayton gəlsin!

Gecəykən kənddən rayon mərkəzinə atlı getdi.

Səhər tezdən kəndə iki fayton gəldi, çamadanları, bağlamaları bir faytona yığdılar, Adilə də keçib həman faytonda oturdu. Arxada gələn faytonda isə atası ilə anası əyləşmişdilər.

Kənddən çıxanda dərələrdən qalxan duman dağ başına dolanır, hardansa gələn qırıq-qırıq səslərin nə dedikləri, nə istədikləri anlaşılmır və fayton atlarının ayaq tappıltıları elə bil yer altından gəlirdi.

Bir saat sonra artıq enişləri enərək, yoxuşları qalxaraq nəhayət Həftəran dərəsi ilə uzanan şose yoluna düşərkən, qabaqlarına çıxan bir



cüt kəl qoşulmuş bir arabaya rast gəldilər. Arabanın arxasınca da bir atlı addım-addım atını sürürdü.

Qabaqda gedən faytonçu araba yanından keçərkən, atların cilovunu yana burub bir az yoldan çıxdı, sonra dönüb atlıya baxaraq soruşdu:

– Nə olub, ay yoldaş? Deyəsən bədbəxtlik üz verib?

Atlı başını qaldırdı, lakin faytonçuya yox, Adiləyə baxdı. Adilə dərhal onu tanıdı, – atlı Murad idi. Adilə onun gözlərində nə gördüsə, diksinib ayağa sıçradı – dönüb arabaya tərəf baxdı və birdən faytonçuya çığırdı:

– Saxla!

Qızın fəryadından faytonçular və arxada gələn atası ilə anası diksindilər. Adilə fayton dayanmamış özünü yerə atıb arxaya yüyürdü, bu zaman Murad da xırıltılı bir səslə arabaçını səslədi:

– Saxla, Teymur dayı.

Araba da dayandı.

Adilə arxadakı faytonun yanından yüyürüb keçərkən anası həyəcanla qışqırdı:

– Nə olub, hara gedirsən?

Adilə ayağı büdrəmiş kimi bir an dayandı, faytondan boylanan atası ilə anasına baxdı və boğuq bir pıçıltı ilə dedi:

– Yaxın gəlməyin! Qoyun vidalaşım!

Sonra yüyürüb arabanın yanına gəldi. Arxadan arabanın banına qalxdı, arabanın içində dizin-dizin sürünərək, üstünə qara örtük salınmış cənazənin baş tərəfinə keçdi. Bir an cənazənin başı yanında oturduğu yerdə hərəkətsiz qaldı. Sonra əyilib nimdaş qara örtüyün ucunu qaldırdı.

İlyasın başı küləş üstünə qoyulmuşdu. Saçlarına quru ot və saman çör-çöpləri ilişmişdi. Adilə əyilib titrəyən barmaqlarıyla bir-bir hamısını təmizlədi, alnına tökülmüş saçlarını əlilə arxaya daradı. Sonra birdənbirə elə amansız bir yorğunluq hiss edib taqətdən düşdü ki, başını geri atıb arabanın cağına söykədi. Gözləri uzaqlara dikildi.

Uzaqda Qaraquş dağlarının başı hələ səhər dumanı içində idi. Tək ağac görünmürdü. Ağ buludlar altında qara qartallar süzmürdü. Və birdən qız müvazinətini itirib cənazənin üstünə sərildi, iki əlilə İlyasın başını qucaqladı, yanağını onun üzünə sıxdı və boğularaq pıçıldadı:

– Əgər yuxarı qalxsaydım, yarı yoldan geri qayıtmasaydım... Orda, o dağ başından nə istəyirdin mənə göstərəsən? Cavab ver, nə istəyirdin ordan, o dağ başından mənə göstərəsən?

– İlyasdan səs çıxmadı... Birinci dəfə idi ki, o mənim sualıma cavab vermirdi, – dedi Adilə və dərindən nəfəsini dərib hekayəsini bitirdi.

Həkim məntəqəsi yerləşən iki gözdən ibarət komanın içərisi artıq yarıqaranlıq idi. Ağ örtüklü taxt üstündə oturub, səsini çıxarmadan, sual vermədən, bir saatdan bəri Adiləni dinləyən orta yaşlı, ağ saçlı Xasayoğlu başını aşağı salıb susmuşdu. Elə bil o yuxuya getmişdi, yaxud qulaq asdığı hekayəsinin ardını gözləyərək, yerindən qımıldanmırdı.

Adilə bir cür oldu, ayağa qalxıb kiçik pəncərənin önünə keçdi. Yalnız bu zaman Xasayoğlu artıq hekayənin bitmiş olduğunu anladı, başını qaldırıb pəncərə qabağında dayanmış ağ xalatlı gənc qadına baxdı. Pəncərədən Adilənin çiyni üstündən sıra dağlara tərəf açılan mənzərə bu axşam xüsusilə möhtəşəm idi.

Adilə bu gün xəstələrinin qəbulundan sonra iş gününü qurtarıb xalatını soyunmaq istəyirdi ki, Xasayoğlu onun yanına, kənd həkim məntəqəsinə gəldi. Adilənin ürəyi döyündü. O dərhal bu adamı tanıdı. Əvvəldən ürəyinə damımışdı ki, bu adam onun yanına gələcəkdir. Xasayoğlunun bəraət qazanıb həbsdən azad edildikdən sonra iki həftəliyə doğma kəndlərinə istirahətə gəldiyini xəbər alan gündən Adilənin ürəyində nə isə bir təlaş vardı. İstəyirdi ki, bu görüş baş tutmasın, eyni zamanda istəyirdi ki, bu görüş baş tutsun.

İndi Xasayoğlunun xahişi ilə, beş il əvvəl həyatında dönüş yaratmış o unudulmaz iki günün hekayəsini danışıb qurtardıqda, Adilə birdən ürəyində nə isə bir yüngüllük hiss elədi və dalğın bir halda pəncərədən hara isə baxaraq yavaşdan dedi:

– Mənim də həyatım o gündən, o yolda, o arabada ona verdiyim cavabsız qalan o son sualımdan, o son fəryadımdan sonra çox dəyişdi...

Xasayoğlu yavaşdan nəfəsini dərib ayağa qalxdı:

– Çox sağ olun ki, qızım, xahişimi yerinə yetirdiniz, – dedi. – Qara bir iftiraya qarşı mübarizə apardığım bu beş ildə, mən onun da haqqında tez-tez düşünürdüm. Hələ ilk gəncliyindən o xəyalpərvər idi, bəzən həddindən artıq öz qüvvəsinə inanırdı, bəzən məyus olub özü öz gözündə məhv olurdu. Nəhayət hələ çox gənc ikən o uğursuz hadisə baş verəndə, təəssüf ki, mən də ona qarşı münasibətimdə səhvə yol verdim...

– Bəlkə də elə idi, bəlkə də onda nə isə romantik bir cırpınış vardı, məgər bu nöqsandırmı?

– Bu suala qəti cavab vermək mənim üçün çətindir. Hər halda verir – uçursan, yaxud elə bir tilsimə salır ki, qanadı sınmış bir quş kimi çırpınırsan.

– Bilmirəm, bilmirəm, – dedi Adilə və birdən həyəcanlandı. – Amma mən hələ də düşünürəm ki, əgər onunla bərabər ora, o dağ başına qalxsaydım... Yox, artıq bu barədə düşünməyəcəyəm, tezliklə, bu yaxın günlərdə macal tapıb ora, o tək ağac yanına qalxacağam.

Xasayoğlu pəncərəyə yaxın gəldi. Adilə ilə yanaşı dayandı, dağlara sarı baxdı və dedi:

– Elədir, ordan o şiş təpədən o tərəfə, böyük Şirvan düzünə baxanda, adam uçmaq istəyir... Tək başınıza ora qalxmaq istəyirsiniz?

– Yox, yoldaşımla... Ərimlə bərabər.

– Yəqin ki, ərinizin də bu hekayədən xəbəri var.

– Var, – dedi Adilə və hiss edilmədən köksünü ötürdü və bilir ki, biz öz keçmişimizdən ürəyimizi qoparda-qoparda ayrılırıq.

*Bakı, 1937*

## BUZ HEYKƏL

Qırx birinci ilin qışı. Şaxtalı bir gecə. Elə bil canlı-cansız ətrafda nə varsa donub buz bağlamışdır. Hava zəhərli ilan kimi çalır, daş çatlayır, ağac çıqqıldayır, torpaq çatırdayır, nəfəs tıxanır, tikan kimi boğazda qalır.

Və indi ağappaq bir zülmət içində, günçıxana tərəf ucsuz-bucaqsız qarlı çöllərilə tənha bir kölgə hərəkət edir.

O gənc bir anadır, körpəsini bağrına basmışdır, yurdunu tapdayan yırtıcı düşmən əlindən baş götürüb qaçmışdır, namusunu qara əllərdən xilas eləmişdir, özünü və ciyərparəsini bu rəhmsiz gecənin ağuşuna atmışdır.

Və indi ağappaq bir zülmət içində, gün çıxana tərəf üz tutub Böyük torpağa doğru gedir.

Qarşıda sahilləri meşəli böyük bir çay var, cəbhə xətləri o çay yaxasından keçir və zaman-zaman ordan gələn top gurultuları gecələr dağlardakı qar uçqunlarının çoxmərtəbəli nəriltiləri kimi şaxtalı gecəni titrədib lərzəyə salır.

Və ana tələsir, hava işıqlanmamış o özünü cəbhə xəttinə yetirməlidir, körpəsini çayın o tayına – azad torpağa keçirməlidir, sinəsi üstündəki uşaq həyatını yenidən ocaq istisi, gündüz işığı, günəş ziyası ilə isindirməlidir

Ana nəfəsini dərmədən gedir, yıxılır, qar içində batıb qalır, çırpınır, qar içindən ayağa qalxır, amma nə qədər yol gedirsə elə bil zaman da bu gecə donub hərəkət eləmir, saniyələr yerində sayır, irəli getmir və qarlı çöllərin sonsuzluğunda bir qarış tükəniş əlaməti görünmür.

Ana taqətdən düşür, şaxta zəhərlə suvarılmış qılınc kimi kəsir və anaya elə gəlir ki, bu qılınc indi onun qucağındakı körpənin həyatına qəsd edir və ananın alacalanmış gözləri daldalanmaq üçün bir bucaq, pənah gətirmək üçün bir sığınacaq axtarır.

Bir az irəlidə qoşa bitmiş bir cüt ağcaqayın ağacı iki ağ sütun kimi göyə ucalmışdır, ana o ağaclara doğru gedir, qucağındakı körpəsiylə o ağaclara söykənib dayanır, indi ayaq üstə dayanmaq üçün, nəyə isə istinad etmək üçün bu sonsuz qarlı çöllərdə bu bir cüt çılpaq ağcaqayın ağacından savayı ana üçün digər bir istinadgah yoxdur...

Şaxta isə buzlu bir alov kimi ananın üz-gözünü qarsır və ana, ürəyində qıvrılan bir qorxunun ağladığını, şivən qopardığını eşidir – körpə donur, körpə donacaq, qolları arasındakı kövrək bir nəfəs sönəcək, sinəsi üstünə buz bağlamış bir dünyanın ağırlığı çökəcək...



Lakin ana ürəyində ağlayan qorxuya üsyan eləyir – qoy dünya donub buzlağa dönsün, həyat yer üstündən qaçıb yer altına köçsün, yenə də ana ürəyinin hərarəti sönməyəcək və rəhmsizliyi ilə bədheybət olan heç bir kor qüvvə kiçik bir həyat fidanını ananın sinəsindən qoparda bilməz!

Və ana kəskin bir hərəkətlə əynindən yun jaketini çıxardır və bərk-bərk körpəsini büküb bürgələyir, amma şaxta qızmar bir dəmir kimi ananın üz-gözünü dağladıqca, iliklərinə işləyən soyuqdan vücudu tir-tir əsib titrədikcə, anaya yenə elə gəlir ki, bu donan, bu titrəyən körpəsidir və ana bu dəfə başından qalın şalını da qopardır və yenə körpəsini büküb-bürmələyir, özü isə yalın əyni ilə şaxta qarşısında müdafiəsiz qalır.

İndi o hiss edir ki, donur, şaxtanın buzlu kəməndindən qurtuluşa gümanı yoxdur və istinadı yalnız budur ki, söykəndiyi bu bir cüt ağcaqayın ağacı onu tutub ayaq üstündə saxlamışdır və ana yenə bir əlilə əynindən nə isə qopardır və bir əlilə əynindən nə qopardırsa hamısını bir-bir körpəsinin üstünə qalaqlayır və titrəyən son nəfəsini, eşidilməyən son sözünü də körpəsinin üstünə örtür – qorxma tifilim, qorxma ufacığım, son nəfəsimin istisi də sənindir...

Sonra ana susur, beynində batqın bir uğultu qopur, qulaqları dibində sınıq cingiltili mis simlər bir-birinin ardınca qırılır, ananın göz qapaqları kilidlənir, nəfəsi çilik-çilik olub ayaqları altına tökülür və ana şaxtanın buz zəncirilə qoşa ağcaqayın ağaclarına bitişib hərəkətsiz qalır. Və indi göydə ulduzları cingildədən amansız bir qış gecəsi anaya başqa bir don biçir, başqa bir örtü geyindirir və şaxtanın buz barmaqları dayanmadan ana üçün büllur naxışları ağ ulduzlu yeni bir libas toxuyur...

***

Ovxarlanmış bir qılınc tiyəsi kimi kəskin işığıyla göz qamaşdıran şaxtalı bir səhər açılmışdır.

Və iki ağ sütun kimi göyə ucalan qoşa ağcaqayın ağacları qarşısında çiyinləri ağxalatlı üç nəfər dayanmışdır.

Onlar gecə kəşfiyyatından qayıdan üç nəfər gənc döyüşçüdür, indi hər üçü başlarını açıb, yerlərindən qımıldanmadan, gördükləri bir mənzərə qarşısında donub qalıblar və onlar bütün ömürləri boyu qarşısında dayandıqları bu mənzərəni unutmayacaqlar...

Bu donmuş gənc bir qadının buzdan tökülmüş buz heykəlidir.

Və onlar, üç nəfər gənc döyüşçü müqəddəs bir mehrab qarşısında dayanmış kimi nəfəslərini udublar. Nə vaxtdan bəri gəlib burda dayanıb durduqlarını unudublar və daş kimi ürəklərindən asılan hissin ifadəsi söz xaricində qaldığı üçün, susublar!

Nəhayət onlardan biri yerindən tərpənir, nə isə bilinməz bir qüvvə çəkib onu irəli aparır, yaxınlaşır, donmuş qadının buz heykəli qarşısında dayanır və bir an tərəddüddən sonra hansı bir sövqi-təbii hissin və daha artıq dəlicəsinə bir ümidin təlqini ilə ananın qolları arasındakı üstü buz bağlamış düyünçəni yoxlayır, həyəcandan titrəyən barmaqları ilə qarı çırpır, dırnaqları ilə buz təbəqəsini qəlpə-qəlpə qopardır və ürək döyüntüsilə buz altındakı örtükləri çözür, açır, dağıdır və birdən... Ordan, düyünçənin dərinindən kiçik bir varlığın baxışları gözlərinə zillənirkən, bütün gözlədiklərinə və gözləmədiklərinə rəğmən bu ansızın körpə baxışından səksənir, döşündən itələnmiş kimi bir addım geri sıçrayır və sonra dönür təlaş içində ona baxan yoldaşlarına, susub durmuş bu sonsuz qarlı çöllərin səssizliyinə və donmuş, buz bağlamış bütün bu dünyaya üz tutub qıy vurur:

– Körpə sağdır, uşaqlar eşidin, körpə sağdır və qoy bütün dünya eşitsin, körpə sağdır!..

Və o vaxt ki, hər üçü baş-başa verib ana qucağındakı körpənin üstünə əyilir, baxırlar, gözlərinə inanmırlar, baxırlar, boğazlarında düyünlənən qəhərdən heç biri heç bir söz deyə bilmir, səhər işığından gözləri qamaşan körpə isə donmuş ana qucağından heyrətlə onlara baxır və gülümsəyir – dəfələrlə od-alov içindən keçmiş üç gənc döyüşçünün gözlərində yaş durmur və hər üçü əllərinin tərsilə gözlərini silirlər.

Sonra başlarını qaldırırlar, yenidən ananın buz heykəlinə baxırlar və yerə kimi səcdə edərək, son dəfə ananın buz heykəli qarşısında baş əyirlər.

Vaxtdır – geri dönməlidirlər və hər üçü bir-biri arxasınca sıraya düzülüb geri dönürlər – və körpəni növbə ilə bir-birindən alıb sinələri üstə aparırlar və hər dəfə körpə kimin qucağında gedirsə, digər ikisindən biri öndə, biri arxada körpənin keşiyində mövqe tutub addımlayır.

Və indi gənc ananın buz heykəli artıq onlar üçün tuncdan tökülmüş əbədi bir heykəldir ki, ana ürəyinin ölməz şücaəti təcəssüm etdirən ən möhtəşəm bir abidə kimi həmişə onların xəyalında həkk olub qalacaqdır...

*Bakı, 1944*



# ANANIN ÖLÜMÜ

Ana çoxdan ölüm yatağında idi və bu son günlər gözlərini aça bilmirdi, dili söz tutmurdu, huşu özündə deyildi.

Şam çoxdan ərimişdi, çoxdan tükənmişdi və o bir tikə titrək alov ki, ilişmişdi dibində, ərinti üstündə, qalmışdı, indi o da bir ilğım kimi yayxanırdı, üzülürdü, göz qırpırdı, amma sönmürdü.

Və neçə gün, neçə gecə idi ki, bu can çəkişməsi davam edirdi.

Axşamlar kəndin *gah yuxarı başındakı*, gah *aşağı başındakı* evlərdən və səhərlər ananın çəpər arxası yaxın qonşularından yaşlı kənd qadınları macal tapıb bir yerə yığılırdılar və gəlirdilər ananın yatağı yanında kilim üstündə bardaş qurub otururdular və növbə çəkirdilər ki, ana canını təslim eliyəndə gözlərini qapamaq üçün yanında bir simsarı, bir kimsəsi olsun!

O gün nəbzini tuta bilməmişdilər – yaxındakı dəmir yol stansiyasına adam göndərmişdilər və orda süpürgəçi vəzifəsində işləyən qoca bir mollanı tapıb gətirmişdilər ki, "yasin" oxusun!

Və qoca ilişmişdi üç gün kənddə qalmışdı, gah gecə yarısı, gah axşamüstü və gah səhər üzü yasin oxumuşdu.

Amma hər dəfə içəridəkilər ananın döyüntüsü eşidilməyən ürəyinin artıq dayandığını yəqin eləyəndə və başlanan o sirli səssizlikdən qulaqlar cingildəyəndə elə bil ananın ürəyi yenidən dirilirdi və döyüntüsünün eşidilməz səsilə o uğursuz səssizliyi ananın başı üstündən geri qovurdu.

Bu vaxt qadınlar "Allah sən saxla" nidasıyla bir-birinin üzünə baxırdılar və ana ürəyinin bu inadkarlığına mat qalırdılar ki, ananın ölüm əzabını bu qədər uzadırdı.

Sonra bəzən ananın qupquru nazik dodaqları tərpənən kimi olurdu, amma səsi çıxmırdı və belə dəqiqələrdə ananın çəpər arxası ən yaxın qonşusu Məsmə qarı ananın üstünə əyilirdi və dodaqlarının tərpənişindən ananın nə dediyini oxuyurdu:

– Deyir, ey rəbbim, nə olardı möcüzə göstərəydin – göydə bir quş oxuyaydı ki, Murad sağdır... – deyir, xudaya nə olardı bu saat bir uşaq qaçıb gələydi, xoş xəbər gətirəydi ki, dava qurtardı...

Ananın oğlu müharibənin birinci günündən cəbhədə idi və bu oğuldan, bu yeganə övladdan başqa ananın heç kəsi yoxdu və indi bu oğul o qədər uzaqda idi ki, düşmən arxası bir meşədən göndərdiyi üçkünc məktublar həftələrlə yol gəlib, sonra kəndə çatırdı.

Və bu il qış qurtaranda, məktub gəlməyəndə ana bir səhər yatağından qalxa bilmədi...

O vaxtdan həftələr keçmişdi və indi o labüd və qaçınılmaz son gəlib çatmışdı və artıq heç bir dava-dərman ananı həyata qaytara bilməzdi, buna görə idi ki, kəndin dünya görmüş qarıları ananın neçə gün, neçə gecədən bəri uzanan bu can çəkişmə əzablarını yüngülləşdirmək üçün nə isə bir çarə, bir əlac tapmaq istəyirdilər, amma nə idi o çarə və nə idi o əlac – tapa bilmirdilər.

Məsmə qarı isə tez-tez mürgüləyirdi və tez-tez diksinib oyanırdı və oyanan kimi başlayırdı:

– Hə, onu deyirdim axı, öyrəli dili söz tutanda birdən dikəldi, yerindən qalxdı, əlimi qamarladı, sinəsinə basdı, Məsmə nənə dedi, ölüm haqdır, amma mən ona görə bu qədər əzab çəkirəm, ona görə sizə də bu qədər zülm eliyirəm ki, xoşbəxt ölmək istəyirəm... O günə, Məsmə nənə, dedi, o günə oğlumun əli əlimə dəyən günə, mən bu ürəyimi qurban demişəm...

Qadınlar kövrəldilər, qara kağız alanların dərdi təzədən qövr eləyirdi, yollarını gözlədiklərinin nigarançılığı yenidən daş olub ürəklərindən asılırdı, amma özlərini boğurdular, xısın-xısın ağlayırdılar ki, səslərini ana eşitməsin, sonra əllərinin tərsilə gözlərini silirdilər və heyrətlə bir-birinin üzünə baxırdılar: xoşbəxt ölüm? Məgər vardımı, bu dünyada belə bir ölüm?

Ana üçün vardı...

Vardı ki, sinəsi ölmüşdü, əlləri-ayaqları ölmüşdü, gözləri, dili, dodaqları ölmüşdü, ciyərləri, saçları ölmüşdü, təkcə ürəyi ölməmişdi, o ürəyi ki, həmişə yalnız oğlu üçün döyünmüşdü və indi yenə o ürək ananın bircə dəfə oğlunu görüb xoşbəxt ölməsi üçün bu qədər inad edirdi, təslim olmurdu, son zərbəsini vurmurdu və bununla da ananın can çəkişmə əzabını bu qədər uzadırdı.

Oğul! Hələ iki yaşı tamam olmamış atasından yetim qalmışdı və o vaxt ana hələ çox gözəl və çox gənc idi, amma neçə dəfə qapısına elçi gəlmişdisə, hər dəfə qapısı ağzından geri qaytarmışdı, gənc vücudunun, şəfqət istəyən ürəyinin, çiçəkli və təravətli qadınlığının bütün istək və diləklərini boğmuşdu.

Və oğul böyütmüşdü.

Elə mərd bir oğul ki, igid yaşına dolanda bütün kənd ananın adına oğlunun da adını qoşmuşdu və böyük-kiçik, xüsusilə balaca uşaqlar



hər dəfə anaya "Murad dayının anası xala" deyəndə, ananın gülüşü, ana üçün ən xoşbəxt bir gülüş olmuşdu.

Sonra ana oğlunu şəhərə göndərmişdi, məhrumiyyətlərə qatlaşmışdı, ayrılığa dözmüşdü, səbr eləmişdi, qoy oğlum şəhərdə böyük elm oxusun, demişdi.

Aylar keçmişdi, illər dolanmışdı, oğul şəhərdə böyük elm oxumuşdu, təhsilini bitirmişdi, kəndə gəlmişdi və ilk sözü bu olmuşdu:

– Yır-yığış elə ana, şəhərə aparıram səni, orda böyük bir fabrikdə işə başlamışam...

Və ana nə deyəcəyini bilməmişdi, oğlunun üzünə baxa-baxa qalmışdı, dədə-baba ocağından, torpağı altında ürəyinin parasını dəfn etdiyi bu yerlərdən ayrılıb getmək istəməmişdi, amma oğul fəraqına dözməyə də artıq ürəyində taqəti qalmamışdı.

Və elə o gün şəhərdən gələn müharibə xəbəri bütün kəndi vəlvələyə salmışdı.

Oğul bir dəqiqə yubanmadan dəmir yol stansiyasına getmişdi, ordan şəhərə zəng eləmişdi – sonra axşam üstü qayıdıb gəlmişdi ki:

Şəhər söhbəti sonraya qaldı ana, səbr elə yolumu gözlə və heç vaxt məndən naümid olma...

Və yenə ana nə deyəcəyini bilməmişdi, amma o ifadə ki, gözlərində zahir olmuşdu, – oğul gözlərini qaçırtmışdı və elə o axşam şəhərə qayıtmışdı...

...İndi bu axşam yenə ölüm ilə ananın ürəyi arasında elə amansız və növbəti bir döyüş başlanmışdı ki, içəridəki qadınlar ananın üzünə baxa bilməmişdilər, başlarını aşağı salmışdılar. Bu vaxt Məsmə qarı da gəlib çıxmışdı, amma qarı bu dəfə balaca qız nəvəsinin əlindən tutub içəri girmişdi və qızcığaz elə qapı ağzında geniş açılmış gözlərilə yatağında huşsuz yatan anaya baxanda və bərk-bərk nənəsinin böyrünə qısılanda, qarı yavaşdan onu irəli itələmişdi və qızcığaz yaxın getmişdi, ananın başı üstündə dayanmışdı, amma ananın üzünə baxmağa qorxmuşdu, gözlərini yummuşdu və birnəfəsə nənəsi ona nə əzbərlətmişdisə, təkrar eləmişdi:

– Xalacan... gözün aydın – dava qurtardı... Xalacan, dədəm, Murad dayı, Şirin bacının qardaşı Bədəl... hamısı ismarış göndərib ki, qırmızı vaqona minib kəndə gəlirlər...

Sonra qızcığaz geri dönüb nənəsinin üstünə qaçmış və bu dəfə də Məsmə qarı qızcığazı içəridən çölə qovmuşdu ki, çıx, orda artırmada məni gözlə.

Və içəridə kim vardısa, hamısının canından buz kimi soyuq bir gizilti keçmişdi, amma hamı sidq ürəkdən inanmışdı ki, yalnız bu bir tikə məsum qız uşağının tərtəmiz, cingiltili səsi gedib can çəkən ananın huşuna çatacaq və ana oğlunun davadan sağ-salamat qayıtdığını eşidib, nəhayət son dəfə rahat nəfəs alacaq, canını təslim eləyəcək və neçə gündən bəri çəkdiyi bütün bu əzaba son qoyulacaq.

Buna görə indi içəridəkilər hamısı başını qaldırmışdı, gözlərini anaya zilləmişdi və bu vaxt günlərdən bəri yatağında daş kimi hərəkətsiz düşüb qalmış ana yerindən tərpənən kimi olmuşdu, başını hara isə çevirmək istəmişdi, amma gücü çatmamışdı, gözlərini açmaq istəmişdi, aça bilməmişdi və Məsmə qarı tez yaxın gedib ananın üstünə əyilmişdi və yenə ananın dodaqlarının tərpənişindən nə dediyini oxumağa başlamışdı:

Deyir, gəldiyin yollara anan qurban oğul... deyir, gözümü aça bilmirəm, üzünü görə bilmirəm oğul... deyir, əlini ver, əlin əlimə toxunsun oğul...

Və bu vaxt ananın əli sürüşüb taxt üstündən yerə düşmüşdü, bir-birinə qısılıb oturmuş qadınlar qorxub içlərini çəkmişdilər, hətta Məsmə qarı diksinmişdi və bir addım geri çəkilmişdi və hamı ananın taxtdan yerə düşmüş əlinə baxa-baxa qalmışdı.

Çünki ananın yerə düşmüş və açıq qalmış əli tərpənmirdi, amma elə bil nəyi isə gözləyirdi, tərpənmirdi, amma elə bil nəyi isə axtarırdı, tərpənmirdi, amma elə bil fəryad edib kimi isə çağırırdı.

Və Məsmə qarı davam gətirməmişdi, hövlnak ayağa qalxmışdı, özünü açıq qapıdan artırmaya salmışdı, getmişdi orda kəllə divardakı taxçanı eşib-eşələmişdi və axırda ordan yupyumru, hamar və qaramtıl bir daş tapıb çıxartmışdı.

Və bu daşı Məsmə qarı dəfələrlə gəlib anadan alıb aparmışdı və bu yupyumru hamar, qara daşla dəfələrlə böyük bir təşt içində abqora üçün qora əzmişdi...

Sonra Məsmə qarı artırmadan qayıdıb içəri gəlmişdi. Anaya yaxın getmişdi, yerə əyilmişdi və əlindəki bu qara daşı əlləri titrəyə-titrəyə ananın yerə düşmüş və açıq qalmış ovcuna qoymuşdu.

Və o dəqiqə ananın ovcundan rişələr keçmişdi, hərəkətsiz vücudu güclə sezilən bir titrəyişlə sarsılmışdı və əvvəlcə bir müddət bükülməyən barmaqları nəhayət bükülmüşdü, ovcundakı qara daşı bərk-bərk sıxmışdı... və sonra hansı bir möcüzə iləsə ananın yerə düşmüş



əli yuxarı qalxmışdı, sinəsi bərabərinə gəlmişdi və orda ovcundakı qara daşla bir yerdə taqqıltı ilə qupquru sinəsi üstünə düşmüşdü.

Və o şam ki, çoxdan ərimişdi, çoxdan tükənmişdi, amma bir tikə alovu ilişmişdi dibində, ərinti üstündə qalmışdı, indi nəhayət o da sönmüşdü – ananın inadkar ürəyi son dəfə çırpınmışdı və son zərbəsini vurmuşdu.

Sonra o uğursuz və sirli səssizlikdən içəridəkilərin qulaqları cingildəyəndə, Məsmə qarı dərindən köksünü ötürmüşdü və hər iki əlini göyə qaldırmışdı:

Ey bu vaxtın sahibi, – demişdi, – axır ki, o əzabdan qurtuldu, sən də əyər adilsən, günahından keç, sən də əgər rəhmdilsən, bu aciz bəndənə, həmişə dərgahında boynunu bükənə rəhm elə!

*Bakı, 1944*

## AY İŞIĞINDA

*Dönəydim qaval-daşa, qalaydım*
*Qobuda...*

***Aşıq Bilal (Şirvanlı)***

Aşıq Valeh o qədər qocalmışdı ki, neçə-neçə yüz illər karvanını yola salmış, budaqlarının bir çoxu qurumuş, bəziləri qaralıb kösəyə dönmüş və başına tarixdən əvvəlki ildırımlar düşmüş qocaman bir çinara oxşarı vardı.

O qocaman çinara ki, iki kənd arasındakı torpaq yolun qırağında tək-tənha dayanmışdı, başını göylərə qaldırmışdı, bir neçə igid qucağına sığmayan gövdəsi iki yerə bölünmüşdü, qüdrətli və uca budaqlarından çoxu quruyub çılpaq qalmışdı, amma hər payız saralan yarpaqlarını yerə yağdıran və yazda yenidən yaşıl-zümrüd yarpaqlara bürünən digər budaqlarıyla elə bil özünü əbədiyyət qarşısında sərgiyə qoymuşdu.

Aşıq Valehin nəinki özü, hətta oğlanları və qızları o qədər qocalmışdılar ki, dizlərində hey qalmamışdı və kəndin aşağı başında səpələnmiş ev-eşiklərindən kəndin yuxarı başında tək-tənha yaşayan dədələrini görməyə gəlmək üçün üzü yuxarı yoxuşa qalxmaq, artıq çoxdandı ki, onların nəzərində uca bir dağ başına dırmaşmaq kimi əlçatmaz bir arzuya çevrilmişdi.

Amma aşıq Valehin yavaş-yavaş saçlarına dən düşən on kiçik nəvələrindən ikisi günaşırı növbə ilə kəndin aşağı başından yuxarı başına at çapırdılar, babalarını görməyə gəlirdilər və hər dəfə qoca at ayaqlarının səsini eşidəndə, qənşəri bağçalı, güllü torpaq artırmaya çıxırdı, sağ əlini alnına sipər eləyirdi və deyirdi:

– Ə, Nağdalısan, yoxsa Mehralı?

Nağdalı, yaxud Mehralı çal bığları altında qımışardı və deyərdi:

– Nadalıyam, ay baba!

Və yaxud:

– Mehralıyam, ay baba!

Və qoca Nağdalının, yaxud Mehralının hıqqanaraq atdan yerə düşmələrini rəva görməzdi:

– Atdan düşmə, a bala, Allaha şükür bir paracıq əppəyim, bir kasacıq südüm var və gözəllər hələ mənə xələt verirlər, istəsəm igidlər də at göndərərlər...



Və qoca aşığa xələt verən o gözəllərdən axırıncısı qonşuluğundakı gənc bir gəlin idi ki, hər səhər bir kasa qaynar süd və bir dənə isti təndir çörəyilə çəpəri basıb bəri tərəfə keçərdi və hər dəfə Nərgiz gözlərinin xumar baxışlarını da bir an qocaya ehsan eləyib gedərdi.

Üstəlik o gəlini çox qısqanc idi, qoymurdu, nəvələrindən heç kəs qocaya bir cürdək ayran belə gətirsin!

Aşıq Valeh isə son dəfə o gəlinin toyunda çalıb-çağırmışdı.

O toyda ki, yaxın-uzaq, bütün kəndlər qocanın o toyda çalıb-çağıracağından xəbər tutmuşdu və axşam məxluq hər tərəfdən axışıb o toya gəlmişdi, gəlinin toyu el bayramına çevrilmişdi və el bayramına çevrilən o toyda hamı qoca aşığın son dəfə çalıb-çağırdığını bildiyi üçün, qoca cürə sazını çaldıqca boğuq və sınıq səslə oxuduqca kişili-qadınlı hamı o toyda doyunca ah çəkmişdi və çəkdikləri ahlardan ləzzət almışdı və heç kəsin gözündə yaş durmamışdı, hamı səssiz-səssiz ağlamışdı.

Nağdalı, yaxud Mehralı isə artıq babalarının qayğıkeşliyinə vərdiş eləmişdilər, ona görə at üstündən düşməzdilər, çünki at belinə sıçramaq vaxtları çoxdan keçmişdi və indi hər dəfə at üstünə qalxanda üzəngini tutmaq üçün hər ikisinin bığıburma oğlanları vardı...

Beləliklə bir hovur at üstündə babalarının hüzurunda dayanardılar, qocadan rüsxət almamış getməzdilər və qoca deyərdi:

– Ə, bizim uşaqlar necədilər?

Və Nağdalı, yaxud Mehralı həmişə dədələri üçün babalarından üzr istərdilər:

– Əllərini öpürlər, ay baba, dizlərinin heyi kəsilib, ancaq həyətdə-bacada eşələnirlər, bir az da bostanda qurdalanırlar, sonra şil-küt olub bütün günü mürgü döyürlər...

Qoca aşığın ata ürəyi bir az kövrələrdi:

Qınama o tifilləri, ay bala, – deyərdi, – qocalığın üzü qara olsun... deginən xiffət eləməsinlər, olar gələ bilmir, mən gəlləm... Keçən həftə gəlməmişdimmi?

– Nə vaxt gəlmək istəsən xəbər elə, ay baba, at gətirrik, üzəngini tutarıq, bir az kənd içində gəzib-dolanarsan, tifillərinə də baş çəkərsən...

Qoca həsrətlə Nağdalının yaxud Mehralının altındakı ürgəyə baxardı, yavaşdan köksünü ötürərdi, sonra, birdən deyərdi:

– Ə, harda ot çalırsınız bu yaz?

– Aydın qırında, ay baba və nə qədər ki, gün şaxıyıb yonca yanmayıb...

Qoca nəvəsinin sözünü kəsərdi:

– Ta onda nə durub üzümə baxırsan, xoş-beş elədik, bəsdir, get işində ol, çünki bu dünyada hər şeydən birinci işdir...

Və Nağdalı, yaxud Mehralı atlarını çapıb gedərkən hər dəfə babalarının qarasına başlarını bulayardılar, çünki hər dəfə babaları qarşısında duyduqları heyrət və sevinci başqa cür ifadə edə bilmirdilər.

Qocanın nəvələri çapıb gedərdilər və o ağ duman ki, hər gün qocanın gözləri qarşısına bir az daha yaxın gəlirdi, çapıb gedənləri çox tez-tez gözündən itirərdi, sonra isə qocanın gözləri uzun-uzadı yol çəkərdi.

Nə yaxşı ki, nə qocalmış oğullarından, nə saçlarına dən düşmüş nəvələrindən heç biri qoca kimi ömrünü, gününü bu söz yanğısına qurban verməmişdi. O yanğı ki, hər dəfə söz ilə musiqini bir-birindən ayrılmaz iki əkiz bacı kimi dünyaya gətirmişdi və qəlpə-qəlpə ürəkdən qopan hər sözü cürə sazının sədasıyla gümüşləndirmişdi, səsinin uçarıyla pərvazlandırmışdı, sonra ağ bir quş kimi qaranlığı yaran bu noğmələr getmişdi eli-obanı gəzmişdi, ürəklərdə işıqlı iz salmışdı və naxışlanmışdı, xalq yaddaşında həkk olunmuşdu.

Amma indi ki, artıq kitab qapanmışdı, çağlayan çeşmə tükənmişdi və ömrün bu son uc yolunda qışları ocaq başında mürgüləmək, yayları ağac kölgəsində sərinləmək zamanı çoxdan gəlib çatmışdı, səbəb nə idi ki, yenə nə isə deyilməmiş bir sözün, nə isə bəstələnməmiş bir saz havasının həyulası gecələr onu dara çəkməyə başlamışdı?

Məgər ki, vaxtilə ustadının ölüm yatağında dedikləri bir fal imiş? Sən xoşbəxtsən demişdi o vaxt, o inci sözlər qovvası, öz gənc şagirdinə, xoşbəxtsən ki, doğulanda bəxtin sənə belə bir tanrı vergisi ehsan eləmişdir, amma onu da bil ki, bu xoşbəxtlik sənə həmişə zülm eliyəcək, hətta qocalanda qocalığına da rəhmi gəlməyəcək və sağın ki, heç vaxt naşükür olmayasan!

İndi çoxdandı ki, uzaq yollardan gələn bir səs qocanı çağırırdı və hər gecə qoca aşığın yuxuları divardan asılıb qalmış sazının həzin sızıltıları ilə dolu olurdu.

Çünki qoca bütün ömrü boyu nə qədər saz havaları bəstələmişdisə, çiyində sazı, əlində qamçısı at belində çapıb toylara, el şənliklərinə getdiyi aran yollarında bəstələmişdi, sözlərini də o yollarda üzünə vuran küləklərin nəfəsi ona pıçıldamışdı.

İndi isə qocanı uçurdan qanadlar əlindən getmişdi, əgər ata minsəydi, gərək üzəngisini tutan olaydı, əgər üzəngisini tutan, onu at üstünə qaldıran olsaydı və o, üstünə mindiyi atın başın buraxsaydı, onda üzünə



vuran küləklər onu at üstündən yerə ata bilərdi, yox əgər atın başın buraxmasaydı, özünü bir yabının belinə yüklənmiş bir yük tayına çevirsəydi, onda yollardan ilham bacın almaq əvəzinə, o yolların ancaq tozu-torpağı içində sürünəcəkdi.

Amma qoca getməli idi, hara gedəcəkdi və gedəcəyi yollardan geri dönəcəkdimi – bu və ya bundan daha qaramat bir fikir artıq onun ayaqlarını cidarlaya bilməzdi, çünki getməsəydi ürəyini əsarət altına almış bir səksəkədən xilas ola bilməyəcəkdi, o çeşmə ki, gözü tutulmuşdu, amma dibində nə isə qaynayırdı, son dəfə çağlayıb ürəyini suvarmayacaqdı...

Və günlərin bir günündə hələ üfüqləri qızarmamış, quşları oyanmamış, bir yaz səhərinin alaqaranlığında qoca ayağa qalxmışdı, köynək içindəki cürə sazını divardakı mıxdan çıxardıb çiyninə keçirmişdi, bucaqdakı qırmızı-qara naxışlı zoğal dəyənəyini əlinə almışdı və kənd hələ oyanmamış yola düzəlmişdi.

Hara getdiyini yolun ixtiyarına vermişdi, amma o tərəfə ki, yönəlmişdi, əgər yorulub yolda qalmasaydı, çıraqlar yananda yol özü onu birinci mənzilə, qonşu kəndə çatdıracaqdı.

O kəndə ki, hələ çox gənc ikən ordakı bir toyda taleyi qısa ömürlü səadətini ona göstərmişdi və o toydan sonra səsinin əks-sədası çox uzaqlara gedib çıxmışdı.

O gündən nəfəsini dərməmişdi, başında bir adı pünhanın sevdası diyarbadiyar çox gəzmişdi və bir ildən sonra geri dönəndə, o kəndin yüzillik palıdlarının qaramat kölgələri altındakı bir qəbiristanlıqda o adı pünhanın yalnız qəbrini öpmək ona qismət olmuşdu...

***

Sübhün şehi hopmuş yaz yollarında hələ toz yoxdu və bu yolların hər iki tərəfinə haşiyə çəkən yaşıl otlar, sarı çiçəklər, qırmızı lalələr də yayın qızmar nəfəsindən hələ qovrulub yanmamışdı.

Və indi qoca aşıq bu yaz yolunun ağını əlinə alıb gedirdi, həmişə bu yollarda at çapmışdı və tələsmişdi, bu dəfə piyada gedirdi və tələsmirdi.

O vaxt ki, kənd uzaqda qalmışdı, sinəsində bir zümzümə başlanmışdı və gah dərinə batan, gah üzə çıxan bu zümzümə elə bil toxunmaqda olan bir xalçanın çox davamsız iplikləri idi ki, tez-tez qırılırdı və yaxud boş düyünlü ilmələri idi ki, çox tez çözülürdü.

Eyni zamanda qocanın önündə yolun tən ortasıyla, bir çobanaldadan quşu dazımağa başlamışdı.

Quş qocanı çox yaxına buraxırdı, qoca gəlib quşun iki-üç addımlığına çatanda bu vaxt quş uzanamasına yolun üstü ilə uçurdu və yenə yaxında yolun tən ortasına qonurdu.

Quş bu qəribə oyunundan yorulmurdu, uzağa uçub gözdən itmirdi, yana uçub yolu tərk etmirdi və getdikcə arxasınca gələni daha artıq yaxınlığı ilə aldadır, amma quyruğunu heç vaxt ələ vermirdi.

İndi qocanı arxasınca salıb aparan o gizli nəğmə də qocanın sinəsində səslənən zümzümələr içində tez-tez çox yaxına gəlirdi, sonra birdən eynilə o quş kimi uçub gendə dayanırdı, heç cürə yaxınlıq vermirdi.

Gün əyiləndə qoca gəlmişdi yol qırağındakı gövdəsi iki yerə bölünmüş o tənha çinara söykənib dayanmışdı, sonra bir hovur nəfəsini dərmək üçün çinar altında oturmuşdu və başını qaldırıb ağacın göyə sancılmış qupquru budaqlarıyla yaşıl yarpaqlı və hələ də çox qüdrətli olan şaxələrinə baxmışdı.

Bu çinar yanından o çox çapıb keçmişdi, gah yuxarıya, gah aşağıya çox uzaqlara getmişdi, amma atından düşdüyü bu ağacın böyük kölgəsində bir hovur dincəldiyi olmamışdı.

İndi isə elə bil uzun ömür yolunun sonunda iki qoca bir-birinə rast gəlmişdi və bir-birinə çox oxşarlıqlarını görüb bir-birinə tamaşa eləməyə davam gətirməmişdilər.

Qoca tez ayağa qalxmışdı, yola düşmüşdü, çinar yerindən tərpənməmişdi, köksünü ötürmüşdü və əgər köksünü ötürmüşdü və əgər köksünü ötürmüşdüsə, bunu yalnız özü eşitmişdi...

***

Çıraqlar yananda qoca gəlmişdi o kəndə çatmışdı və yolunun üstündəki birinci mənzildə dayanmışdı, burda hansı qapını döysəydi, üzünə açılacaqdı və üzünə açılan bütün qapılarda heyrət və sevinclə qarşılanacaqdı.

Amma qoca kəndin yuxarı başına – aşıq Cəlalın qapısına doğru yönəldi və aşıq Cəlal qoca ustadını qarşısında görərkən, bir an gözlərinə inanmadı.

Sonra aşıq Cəlal qocayla ikiəlli görüşdü və əyilib üç dəfə qocanın əlindən öpdü, cürə sazını çiynindən aldı divardan asdı, dəyənəyini qapı



ağzında küncə söykədi, yuxarı başda həsir üstünə döşəkçə atdı, qocanın qolundan tutdu apardı o döşəkçə üstündə oturdu, süfrə açdı, çay və süd gətirdi. Ən axırda bardaş qurub əyləşmiş qocanın qarşısında dizləri üstündə oturdu. Şagird ustadı qarşısında ayaqlarını qatlayıb dizləri üstə oturmalı idi.

Qoca hazırlıqlı gəlmişdi, bəlkə hansı kənddənsə qocanı toya çağırmışdılar və indi qoca, aşıq Cəlalı da yanına alıb o toya aparsaydı, bu gənc aşıq üçün bayram olardı. Amma belə bir möcüzə mümkün idimi? Bir səs ki, qartal kimi göylərdə qanad çalırdı, indi sınıq qanadları ilə yerdə sürünməyi özünə rəva görə bilərdimi?

Heç bir qonaqdan hardan gəldiyi və hara getdiyi soruşulmazdı, aşıq Cəlal isə üstəlik ustadı qarşısında idi və dizləri üstə lal oturmalı idi.

Yol yorğunu qoca isə hələ yatmaq istəməmişdi, şagirdinin bəstələdiyi yeni saz havalarına qulaq asmaq istəmişdi.

Aşıq Cəlal qalxıb sədəfli cürəsini köynəkdən çıxarıb qayıtdı, yenə dizi üstə oturdu, sazını yavaşdan dilə gətirdi və səsinin yarısıyla pəsdən oxudu.

Qoca gözlərini qapadı, çal və pırpız qaşları göz qapaqları üstünə kölgə saldı, dondu, hərəkətsiz qaldı, aşıq Cəlala elə gəldi ki, yorğun qocanı huş apardı və qocaya qarşı duyduğu rəhm hissindən səsi titrədi.

Amma aşıq Cəlal səsini daha aşağı salıb susanda, qoca gözlərini açdı və əyilib süfrə üstündən şagirdinin alnından öpdü.

– Müsibət çaldın, müsibət oxudun, – dedi qoca, – qoy tanrım sənə qıymasın ki, bu dünya mənim ocağımı söndürəndə, o ocaqdan qopan bir çırtdaq sənin ocağında qalsın...

Yaz gecəsinin dəli-divanə elədiyi pərvanələr və cücülər açıq pəncərədən özlərini içəri salmışdılar, çırağın şüşəsinə çırpılmışdılar və indi çırağın dövrəsi özlərini atəşə qurban verən bu cücələrin və pərvanələrin rəngarəng cəsədlərilə örtülmüşdü.

Yaz və yay gecələrində bu çıraqlar bu cür, hər biri kiçik bir qurbangaha çevrilirdi.

Qoca isə yanıb çırağın dibinə tökülmüş o pərvanələrə çox baxmışdı, çox susmuşdu və nəhayət birinci xoruz banında çırağı söndürüb yanaşı salınmış yataqlarında uzanmışdılar.

Ay pəncərədən qocanın yorğanı üstünə işıq salmışdı, hardasa isaqmusaq quşları bir-birini çağırırdı, içəridə isə yerinə girən kimi dərin yuxuya getmiş aşıq Cəlalın aramla nəfəs aldığı eşidilirdi.

Səsi çıxmayan, nəfəs aldığı eşidilməyən yalnız qoca idi, yata bilmirdi və o yorğunluq ki, canına hopmuşdu və indi sızıltılı bir mahnı oxuyurdu – bunu yalnız qoca özü eşidirdi.

Yol gələrkən, çobanaldadan quşu kimi qabağına qona-qona gələn o gizli mahnının zümzüməsi burda kənddə qırılmışdı və indi içərisindəki sızıltıda qoca birdən yenə nəyin isə yaxınlığını hiss eləmişdi.

Artıq sazını köynəkdən çıxarmalı idi, sarı quş sinəsinə qonmalı idi və əgər bu quş o gizli nəğmədən bir səs tuta bilsəydi, sözlər də qaranlıqdan çıraq işığına uçan o pərvanələr kimi, hardansa qopub gələcəkdilər və hər dəfə olduğu kimi ilk yaradılışı andıran bu hərcmərclik içindən sıyrılan o gizli nəğmə çox uzaqlardan uçub gələn durna qatarı kimi çox yorğun olacaqdı, amma üçbucaqlı uçuşunun gözəlliyilə göz oxşayacaqdı.

Aşıq Cəlal yatmışdı, qoca isə artıq ayağa qalxmışdı, sazını divardan əlinə almışdı, amma sazı köynəkdən çıxarmamışdı, çünki nə qədər yavaşdan çalsaydı, yatanı şirin yuxusundan oyadacaqdı, düzdür, aşıq Cəlal oyandığını bildirməyəcəkdi, amma düşünəcəkdi ki, ey gidi dünya, nəhayət mənim ustadım da xəriflədimi?

Yox, ona xəlvət lazımdı, canlı qulağından uzaq, tənha bir guşə lazımdı.

Və qoca qoltuğunda saz yenə yola düşdü.

Aşıq Cəlalın həyətindən çıxdı, kimsəsiz bir küçədən keçib kəndi iki yerə bölən armudlu dərə qırağında dayandı, bir an ətrafına baxındı.

Dərəyə enən cığır başında titrək yarpaqlı qoşa qovaq ağacları qaralırdı və qoca o ağaclara doğru yönəldi.

Gəldi o ağaclar altında köbər üstündə, üzü dərəyə sarı oturdu.

Dərə ağzınacan ay işığı ilə dolmuşdu, qarşıdakı Şögkəli yamacda isə işıldaquşlar uçuşurdu.

Axşam çıraqlar yananda gəlib kəndə yetişəndə qocaya elə gəlmişdi ki, yol onu aldatdı, cavanlığında ondan əsirgəmədiyini bu dəfə qoca vaxtında ondan əsirgədi.

Amma indi birdən hiss elədi ki, ürəyi elə dolub ki, sinəsinə basdığı saz bu saat ağlayacaq sinəsi üstə...

...Sonra qoca gözlərini qapadı, elə bil yuxuya getdi və bu yuxu içində sinəsi üstündəki sazın səsini eşitdi.

Elə bil hardansa əfsanəvi sarı bir quş uçub gəlmişdi və saz indi o sarı quşun sirli nəğməsini oxuyurdu.



Qoca gözlərini açıb o quşu ürkütmək istəmirdi və simləri darayan barmaqları indi elə bil odlu közlər üstündə oynayırdı...

Salatın əl-ayaq yığışılandan sonra kənd adəti üzrə çırağı çox tez söndürmüşdü. Yorğanı başına çəkmişdi, amma saatlar keçmişdi hələ də gözlərini yummamışdı.

Qız böyük bir intizar içində yaz gecəsinə qulaq verirdi.

Və yaz gecəsi də gəlib həsrətli bir aşıq kimi qızın pəncərəsi altında dayanmışdı və o cür ki, qıza sevgisini elan edirdi, elə bil dağlarda çiçəklər şeir oxuyurdu.

Amma Salatın dağlarda şeir oxuyan çiçəkləri vecinə almırdı, o yaz gecəsini doldurmuş bütün bu ehtiraslı xışırtı və pıçıltılar içindən başqa bir sədanın ucalmasını gözləyirdi.

Yaz gecəsi qızın bu etinasızlığını gördü, pəncərə altında diz çöküb qıza yalvarırdı, göylərin ağ ulduzlarını qıza bağışlayırdı və qızı güllü-çiçəkli ağuşuna çağırırdı.

Amma Salatın daşa dönüb insafa gəlmirdi, bacarsaydı əlinə süpürgə alıb bu kişiyə oxşamaz yaz gecəsini pəncərəsi altından qovardı və qız yatağına od tökülmüş kimi yerində o tərəf-bu tərəfə çevrilirdi.

Artıq gecə keçmişdi, bütün kənd çoxdan dərin yuxuya getmişdi, xoruzlar oyanıb bir ağız banlamışdılar, sonra yenə gözlərin yummuşdular. Bəs nə üçün o səs gəlmirdi, nə üçün gecənin bu saatlarında Salatını çağıran o gümüş cingiltili sədalardan xəbər-ətər yoxdu?

Yoxsa bəxti Salatından üz çevirmişdi?

Qız kəskin bir hərəkətlə yerində döndü, pəncərədən düşən ay işığından küsmüş kimi üzünü evin qaranlıq tərəfinə çevirdi.

Və bu vaxt Salatın birdən səksəndi, yaz gecəsinin bütün bu ehtiraslı xışırtı və pıçıltıları içərisindən nəhayət qız o səsi eşitmişdi və indi gözləri qaranlıq içində par-par parıldayırdı.

Cəld qalxdı, yerində oturdu, ürəyi döyünməyə başlamışdı, gözlədi ki, bir az sakit olsun, sonra pəncərədən aya baxdı, dodaqlarına sirli bir təbəssüm qondu.

İndi o saz uzaqda adı bilinməyən bir gecə quşu kimi oxumağa başlamışdı, Salatını çağırırdı və aşıq Cəlal ahugözlü Salatının həsrətilə o sazı gecənin bu aləmində o cür ağladırdı.

Hər gecə bütün kənd yatandan sonra aşıq Cəlal o dərə üstünə gəlirdi, orda həmişə titrək yarpaqlı qoşa qovaqlar altında oturub sazını dindirirdi və Salatın kəlağayının ucunu ağzına yaşmaq edib, pişik yerişi

kimi səssiz addımlarla gedirdi, qovaqlar altında sevgilisinin arxasında dayanırdı, sonra birdən əyilirdi və sazlı-sözlü aşiqini arxadan qolları arasına alırdı...

Aşıq Cəlal isə həmişə əvvəlcə səksənirdi, sonra başını sağa əyib Salatının sağ əlindən öpürdü, sola əyib sol əlindən öpürdü, axırda başını geri qanırırdı və üzünü Salatına tutub oxuyurdu:

Zənəxdan üzünə, gül buxağına
Sərv qamətinə, boyuna qurban!
Səhər çağı göy çəməndə gəzəndə
Ağ əllərlə gül-çiçəkdən üzəndə
Danışmayıb gözlərini süzəndə
Demək istədiyin sözünə qurban!

Amma bu gecə aşıq Cəlal ahugözlüsünü çox gözlətmişdi, qızın ürəyini səksəkə ilə doldurmuşdu və indi Salatın bir istədi ki, getməsin, qoy səhər açılana kimi oğlanın gözü yorulu qalsın, ərisin şam kimi, fəraq oduna yansın...

Amma elə bu vaxt sazın səsləri elə bir fəryad qopartdı ki, Salatın sıçradı ayağa qalxdı, uzun hörükləri açıldı, kürəyindən aşağı axdı və bu hörüklərin ağırlığı qızın başın geri dartdı, Salatına məğrur bir maral görkəmi verdi.

Və qız birdən həyəcanlandı, tələsdi, çəpər yanına gəldi, ətəyini əlinə alıb alçaq çəpər üstündən çevik bir hərəkətlə dərə kənarına sıçradı, sonra bir qədər aşağı enib yamacdakı tanış cığırla baş alıb yarpaqları titrək qoşa qovaqlara doğru yönəldi.

İndi həmişə bu vaxt başlayan xəfif külək əsirdi. Sübhün yaxın olduğunu xəbər verirdi və qoşa qovaqların yarpaqları ay işığında balıq pulları kimi parıldaşırdı.

Salatın səssiz addımlarını yavaşıtdı, qovaq ağaclarının arxasına keçdi, astadan nəfəsini dərdi və qız bayaq nə üçün ansızın bir həyəcana qapıldığının səbəbini elə bil yalnız indi başa düşdü, aşıq Cəlal bu gecə qızın heç vaxt eşitmədiyi bir hava çalırdı və bu havada Salatını səsləyən o şəfqətli çağırış yoxdu, qız küskün bir halda ağaclara söykəndi və sazın sədası qızın başını yuxarı qaldırdı, üzünü göylərə doğru çevirdi, indi göyün yarısı qapqara buludlu, yarısı ağappaq işıqlı idi – hər dəfə aşıq Cəlal qızı çağıranda sazının səsləri güllü-çiçəkli olurdu, amma indi sazın səsləri sapının yarısı ağ, yarısı qara bir yumaq kimi çözülürdü.



Qız hiss elədi ki, nə isə olmuşdur və elə bil aşıq Cəlal gündüzün günorta vaxtı onu gözdən itirmişdi, sonra getmişdi əlində çıraq gecənin qaranlığında Salatını axtarmağa başlamışdı.

Salatının gözləri dumanlandı və sazın sehirli nəğməsi çəkdi onu bir röya aləminə apardı...

İndi ay yerini xeyli dəyişmişdi və qızın kölgəsi qocanın üstünə düşmüşdü.

Və arabir həzin külək bir az bərkidəndə qızın çiyninə dağılan saçlarının kölgələri gedirdi gah qocanın boynuna dolaşırdı, gah çözülürdü, yerə düşürdü.

Buna görə idi ki indi qoca da özünü bir röya aləmində hiss edirdi və sazının üstündən aşıb qarşısına düşən, tərpənən, titrəyən, gah sağında, gah solunda oynaşan bu kölgələrə baxdıqca ona elə gəlirdi ki, bütün bunlar vaxtilə vəsf etdiyi və indi artıq çoxdan bu dünyadan köçmüş, o xumargözlü gözəllərin xəyallarıdır ki, bu gecə gəlib qocanın başı üstünə əyiliblər, özləri ilə həyatın son sirrini gətiriblər, amma dilləri ölümlə lal olduğu üçün, qocaya o son sirri aça bilmirlər...

Salatın isə bu vaxt birdən elə bir təlaş hissinə qapıldı ki, dönüb özünü aşıq Cəlalın üstünə salmaq istədi, amma qız bir addım irəli atmışdı ki, gördü bu dərədi, gözləri geniş açıldı və donub yerində hərəkətsiz qaldı...

Çünki bir an əvvəl qızın kəskin hərəkəti ilə kölgəsi də yerindən sıçramışdı və bu qocanı elə bil yuxudan oyatmışdı, qoca dönmüşdü, başını geri çevirmişdi, arxasına baxmışdı və bu vaxtda üstünə gələn o xəyal büdrəmişdi, gözləri geniş açılmışdı və donub yerindəcə qalmışdı.

Qoca dönüb arxasına baxarkən gördüyü artıq röya deyildi, amma əvəzində bütün ömrü boyu gördüyü bütün röyalardan daha əcaib idi – çünki ayın gümüşü ziyalarına qərq olmuş, kəlağayısı başından siyrilib boynuna düşmüş, saçları çiyninə dağılmış ahugözlü bir qız gecənin bu aləmində gəlmişdi və başına keçən əsrin qarı yağmış bir qoca qarşısında dayanmışdı.

Və indi qızın geniş açılmış gözlərində elə bir heyrət və qorxu ifadəsi vardı ki, elə bil yerə qonan kimi nədənsə ürkmüş ağ bir göyərçin bu saat qanad açıb göyə uçacaqdı.

Salatın isə bir an donub qalmışdı, dili tutulmuşdu, nitqi batmışdı, sonra isə ixtiyarsız olaraq sinəsindən qopan kəsik çığırtını əlini ağzına çırparaq boğmuşdu və indi qocadan üz çevirib gəldiyi cığırla üzü kəndə

doğru elə qaçırdı ki, elə bil o dəhşət ki, adı qocalıq idi, bir at yəhərləmişdi, o atın üstünə sıçramışdı və indi o at dördnala qızın arxasınca çapırdı.

Qoca böht içində əllərini gözlərinə çəkdi, amma bu aylı gecənin ona göstərdiyi xəyal yox olmadı, çünki hələ də qaçırdı və əlbəttə ki, o qaçan qız bir xəyal deyildi, bəlkə kiminsə yarı-vəfadarı idi, bu yaz gecəsində sevgilisinin görüşünə gəlmişdi, amma gənc sevgilisi əvəzində qarşısında qocalığın qaramat heykəlini görmüşdü. Tanrım, lazımdımı ona bu qədər qocalmaq, bir halda dünya yenə əvvəlki kimi gənc qalacaq və o qız kimi səndən üz çevirib qaçacaq, istərsən arxasınca at çap, çatmayacaqsan və yaxud çatıb ətəyinə əl uzatsan əlinə keçən həmişə bir boşluq olacaq...

Amma bütün bunlara rəğmən ürəkdəki o ümid ki, həmişə bir az dəli idi və sənin son nəfəsində belə möcüzəyə inamından əl çəkmirdi, indi elə bil qocanı da coşğun bir vəcd ilə sehirlədi və qaçıb gedən o xəyalı heç olmasa dönüb bircə an geri baxmağa məcbur eləmək üçün qocanın boğuq və sakit səsini də çəkib sinəsindən çıxartdı.

Qocanın sinəsindən qopan bu boğuq və sınıq fəryad isə gedib arxadan o qıza çatdı və qız büdrəyib dayandı və dönüb bir an geri baxdı.

Və qoca aşıq ağladı.

Amma indi əgər o qızın ağ xəyalı ürkmüş bir maral kimi ay işığında yenə yamac döşündəki cığırla baş alıb gedirdisə, qoca aşıq da sorağı ilə yola çıxdığı, arxasınca düşüb yol gəldiyi o son gizli mahnısına qovuşmuşdu və çoxdan susmuş sazı sarı bir quş kimi sinəsi üstündə oxumağa başlamışdı.

Və qoca bundan sonra yenə bu dünyada qalmaq üçün dönmək istəyirdi, o qaval daşa ki, elə bil o daş dünya yaranandan orda, Qobustan çölündə qayalıqlar içində düşüb qalmışdı və ora düşüb qaldığı gündən daş ürəyində saxladığı bir musiqi ilə əbədiyyət qarşısında dayanmışdı.

*Bakı, 1944*



# KARVAN DAYANDI

Axşamlar günbatan çağı o meşədən mahnı oxuyan bir səs ucalırdı və o meşə ki, çox qalınlıq idi, gündüzün işığı orda tez azalırdı, ağacların dibi qaranlığa batırdı və axşam günəşinin şüaları ilişirdi ağacların başında qalırdı – bu vaxt elə bil meşə özü dil açırdı və oxumağa başlayırdı.

Vaxt olmuşdu ki, o səslə bərabər yaz gəlmişdi, meşədə cır alça çiçək açmışdı bədmüşkün tumurcuqları şişmişdi, novruzgülü qar altından çıxmışdı, qürbət ölkələrdən uçub gəlmiş qaranquş öz doğma yuvasına qayıtmışdı. Sonra yenə vaxt olmuşdu ki, o səslə bərabər payız düşmüşdü, xəzan yarpaqları yerə tökülmüşdü, küləklərin nəfəsi çox soyumuşdu və nəğməçi quş uçmuşdu, qürbət ölkələrə getmişdi.

Və necə ki, o yaz, indi də bu payız yaxındakı kiçik bir kənd hər axşam meşədən gələn o səsə qulaq asmışdı.

Kəndin ağır günlərində, zəmilər quraqlıqdan od tutub yananda, o səs səhrada tək qalanın eşidilməyən fəryadına dönürdü və qırılırdı qanadı çox uzaqlara uça bilmirdi, amma elə ki, çöllər bərəkətli yaşıllıqla örtülürdü, zəmilərdə qaraqılçıq sünbüllər dənli başlarını yerə əyirdi, o səs yenidən qanadlanırdı, kövrək bir ümidlə göyə ucalırdı və həmişə çox uzaqda olan səadət elə bil bir addım insana yaxın gəlirdi.

Amma kimin səsi idi o səs – bunu heç kəs bilmirdi.

Meşə yanındakı kiçik kənddən dəfələrlə o səsə doğru gedənlər olmuşdu, bir-birinə qoşulan qız və oğlanlar çox qalınlıqlara girişmişdilər, o məchul nəğməçini çox axtarmışdılar, amma hər dəfə əlləri ətəklərindən uzun geri qayıtmışdılar.

Buna görə idi ki, kiçik kəndin qızları hər dəfə axşamlar o səsə qulaq asanda, xəyal çəkirdi onları əfsanələr dünyasına aparırdı və röyasında gördüyü bir ahu gözlünün sorağıyla diyarbadiyar gəzən qara sevdalı bir aşıq gəlirdi gözləri qarşısında dayanırdı.

Çimnaz da hər axşam meşədən gələn o səsə qulaq asırdı, amma Çimnaz bir dəfə də olsun kəndin qız və oğlanlarına qoşulub o məchul nəğməçini axtarmaq üçün meşəyə getməmişdi, çünki ona elə gəlirdi ki, o nəğməçi kimdirsə, yalnız onu çağırır və əgər Çimnaz meşəyə getsə mütləq ona rast gələcəkdir və həyatında nə isə bir hadisə baş verəcəkdir və Çimnaz son günlər getdikcə artan bir həyəcan içində hər axşam o səsi dinləyirdi və ürəyini əzən anlaşılmaz bir intizar hissindən ürəyini xilas edə bilmirdi.

İndi bu axşam, günbatan çağı yenə meşədən o səs ucalmışdı və Çimnaz bu vaxt daxmaları qabağında torpaq artırmada üzü meşəyə sarı oturmuşdu, hər iki əlilə dizlərini qucaqlamışdı və çənəsini qolları üstə qoyub hərəkətsiz qalmışdı.

Birdən yaxında, kənd içində çoxlu at ayaqlarının tappıltısı eşidildi, Çimnaz diksindi, başını qaldırdı, kənd içindən keçən yola baxdı.

Kənd yolu ilə keçənlər Əlyar xanın atlıları idi, xan öndə, nökərnaibləri arxasınca ovdan qayıdırdılar, yəhərlərinin qaşları üstə ovladıqları cüyür və ceyran leşləri aşırılmışdı, tərklərinə bağlanmış xurcunların gözləri qızıl quşlarla – ovladıqları turac, qırqovul və sair çöl quşları ilə dolu idi.

Bu vaxt yolda nə oldusa, öndə gələn Əlyar xan cilovu çəkdi, at dayandı, arxadan gələn atların da cilovları çəkildi və bütün dəstə yola tıxanıb hərəkətsiz qaldı.

Bir kənd qızı üçün xan gözünə görünmək həmişə təhlükəli idi və Çimnaz ayağa sıçradı, qaçdı, özünü daxmaya saldı, amma içəridən daxmanın kiçik pəncərəsindən hər dəfə ötüb gedən yad atlılara baxmaq bir kənd qızı üçün həmişə ürəyi həyəcana gətirən bir tamaşa idi və Çimnaz daxmanın kiçik pəncərəsindən baxıb görəndə ki, xan atlıları meşədən gələn o səsə qulaq asırlar, qızın ürəyi anlaşılmaz bir təlaş içində sinəsində döyündü.

Xan isə bu vaxt öz atlılarına tərəf döndü:

– Kimdir bu oxuyan, – dedi, – və harda oxuyur bu adam?

Xanın qoca naibi atını irəli sürdü və ərz elədi:

– Xan sağ olsun, o kimdirsə, çoxdandır hər axşam bu meşədə oxuyur, amma hansı kənddəndir, kimdir və nəçidir – bunu hələ heç kəs bilmir.

Xan iki barmağının uclarıyla bığlarına tumar çəkdi, fikrə getdi və səsə qulaq asdı.

İndi bu payız axşamında o səsdə yenə elə bir həsrət dil açmışdı ki, kənddə böyük-kiçik hamı nəfəsin udub, yalnız o səsə qulaq asırdı.

Handan-hana xan yenə atlılarına tərəf döndü:

– Uşaqlar, – dedi, – mən çox xanəndələrə qulaq asmışam, ancaq belə bir səs eşitdiyim hərgiz yadıma gəlmir... Səs deyil bu, cavahirdir və kimdir o dəli-divanə ki, hər axşam orda meşədə oxuyur, halbuki o bu cavahir səsilə hər dəfə ariflər məclisində ətək-ətək simü-zər qazanardı...



Atlılar başlarını tərpətdilər, xanın dediklərini təsdiq elədilər.

Və xan yenə bir hovur o səsə qulaq asdı, sonra gözlərində nə isə işıldadı və dedi:

– Qulaq asın uşaqlar, bizim bugünkü ov dəstgahımız hələ natamamdır və o vaxt tamam olacaqdır ki, bu gecəki ziyafətdə biz o səsə qulaq asıb zövq alacayıq...

Atlılar bir-birinin üzünə baxdılar. Xanın bu gecəki ziyafətinə mahalın hər tərəfindən kübarlar, əşrəflər təşrif gətirəcəkdilər və Əlyar xan qapısıaçıqlığı və mehmannəvazlığı ilə ad çıxartmışdı və əgər bu gecə xanın məclisində o sirli meşə nəğməçisinin səsi eşidilsəydi, əlbəttə ki, bu hamını heyrətə salacaqdı, amma çifayda ki, bu qeyri-mümkündü və qoca naib xanı bu fikrindən daşındırmaq üçün dedi:

– Xan sağ olsun, dəfələrlə bu kənddən o meşəyə gedən olub, amma kimdir o meşə bülbülü, nə izinə düşüblər, nə üzünü görüblər.

Xan dodaqlarında acı bir təbəssüm qoca naibini süzdü:

– Naib, – dedi – biz adımızı ovçu qoymuşuq və o səsin haradan gəldiyini eşitdiyimiz halda məgər bizə yaraşarmı bu son şikarı əldən buraxaq?

Atlılar yenə heyrətlə bir-birinin üzünə baxdılar və xan biləyindən qamçı asılmış əlini meşəyə tuş tutub dedi:

– Haydı, gün axşam olmamış işə şiru eləyin və dörd bir tərəfdən o qalınlığı mühasirəyə alın, kəsin bənd-bərəni, pusqu qurun və bilin ki, şikar ovlanmamış gözümə görünsəniz – vayınıza oturram!

Xan nə demişdisə Çimnaz eşitmişdi və indi elə bil o səs də gəlmişdi, Çimnazın ayaqlarına qapanmışdı ki, nə üçün fəryadımı eşitmirsən, nə üçün boynunu bükənə rəhm eləmirsən, nə üçün bunca zülm etməyi mənə rəva görürsən?

Və Çimnaza elə gəldi ki, bu son fəryaddır, o bir daha bu səsi eşitməyəcəkdir, çünki o evi başına uçmuş kimdirsə, bu saat başının üstünü alan xatadan xəbəri yoxdur.

Çimnaz daxma içində çırpındı, nə edəcəyini bilmədi, özünü çölə artırmaya atdı, sonra tez geri qayıtdı, cuna yaylığını başına saldı və yaylığın ucunu çəkib üzünə yaşmaq elədi...

Sonra o vaxt ki, Əlyar xanın atlıları meşəyə doğru çapırdı, Çimnaz da kənddən çıxıb kəsə yolla meşəyə doğru qaçırdı...

***

O isə bu gün çox yorulmuşdu və gəlmişdi meşənin qalınlığında tufan yıxmış qocaman bir palıd ağacı üstündə oturmuşdu və başını qaldırmışdı, ağacların çətiri arasından görsənən axşam göylərinə baxmışdı, bu vaxt yenə batan günün işığı ilişib ağacların başında qalmışdı yenə aşağıda ağacların dibi qaranlığa batmışdı, yenə yuxarıda ağ buludlar altında iki qartal bir-birilə oynaşmağa çıxmışdı və o gözlərini qapamışdı, büllur səs dalğa-dalğa meşə üzərində ucalmışdı.

Və nə vaxt ki, o bu cür gözlərini qapayırdı və oxuyurdu – o ahugözlü, yaz olanda yazın tər çiçəklərini, payız olanda payızın xəzəllərini tapdayaraq meşə cığırı ilə ona doğru gəlirdi...

Orda o kiçik kənddə isə o ahugözlünü, qələmqaşlını, gün işığında gördüyü yadına gəlmirdi, çünki hava işıqlanandan qaş qaralana kimi bütün günü burda, meşənin bu qalınlığı içində keçirdi.

Və bütün kənd onu odunçu oğlu kimi tanıyırdı.

Hələ uşaqlıq illərindən başlayaraq o atasıyla bərabər bütün günlərini bu yarıqaranlıq meşədə başa vurmuşdu, gözləri bu dərinlərdəki qalınlıqların sirli kölgələrilə dolmuşdu, sonra artıq əldən düşmüş və çox qocalmış atası meşəni tərk eləmişdi və o bu ağaclar aləmində tək qalmışdı. İndi çoxdandı ki, o hər gün çox tezdən – dan yeri sökülərkən çiynində odunçu baltası ilə təkbaşına bu meşəyə gəlirdi, sonra bir də hava qaralanda dalına atdığı ağır odun şələsi ilə kəndin ucqarındakı daxmalarına qayıdırdı...

Bu axşam isə meşə elə bil onu caduya salmışdı, durub getmək istəmişdi, ayaqları gəlməmişdi, şələsi çoxdan bağlanmışdı, əyilib yerdən qaldırmamışdı, oxumuşdu, nəfəsini tükəndirmişdi, amma ürəyini əzən qüssə səngiməmişdi.

Və bu vaxt çox yaxında bir hənirti eşidən kimi olmuşdu, elə bil kimsə içini çəkmişdi, çağırmaq istəmişdi, amma öz əlilə öz ağzını qapamışdı.

Səksəndi, elə bil sehrli bir yuxudan oyandı, başını çevirdi, səs gələn tərəfə baxdı və gözlərinə inanmadı.

Xəyal idi bu, yoxsa o ahugözlü doğrudan da gəlmişdi, qarşısında dayanmışdı? Xurmayı saçları dağılmışdı, çiyninə tökülmüşdü, cuna yaylığı başından siyrilmişdi, boynuna dolanmışdı, taqəti kəsilmişdi, ardıc ağacına söykənmişdi və geniş açılmış gözlərilə heyrətlə ona baxa-baxa qalmışdı.



Çimnaz isə ağır-ağır nəfəs alırdı, köksü qalxıb enirdi və elə baxırdı ki, elə bil indi o da gözlərinin gördüyünə inana bilmirdi.

Və kim inana bilərdi ki, o keçən yaz və bu payız hər axşam meşədən ucalan səsi ilə bütün kəndi heyran eləyən, ürəkləri gah qüssələndirən, gah sevindirən, kimliyi bilinməyən, gözə görünməyən o əsrarəngiz meşə nəğməçisi kənddə hamının odunçu oğlu kimi tanıdığı arıq vücudlu, solğun bənizli, yanar gözlü bu cavan imiş?

Qız kənddə son dəfə onu nə vaxt gördüyünü yadına salmaq istədi, amma sala bilmədi, yadında qalan yalnız bu idi ki, kənddə ona rast gəldiyi vaxtlar olmuşdu, amma hər dəfə o başını aşağı salmışdı və bir kölgə kimi Çimnazın yanından ötüb keçmişdi və Çimnaz da dönüb onun arxasınca baxmamışdı.

Buna görə idi ki, indi Çimnaz yerindən tərpənmədən mat-mat rəngi qaçmış, gözləri alacalanmış odunçu oğlunun üzünə baxır və nə qədər ümidsizcəsinə sevildiyini görür və ürəyinə nə isə bir şəfqət hissi axıb dolur, eyni zamanda təlaş və qorxu içində, eyni zamanda təlaş və qorxu içində nə edəcəyini, nə edəcəyini bilmirdi. Və nəhayət Çimnaz nə isə demək istədi və dedi:

– Nə üçün həmişə hamıdan gizlin təkbaşına bu meşədə oturub oxuyursan? Kənddə hələ heç kəs bilmir ki, hər axşam meşədən gələn sənin səsindir.

– Bütün günüm, – dedi odunçu oğlu çox yavaşdan burda, bu meşədə keçirdi, həftələrlə, aylarla səni görə bilmirdim... İndi də gözlərimə inanmıram ki, bu sənsən... Birdən yaxında boğuq hənirtilər eşidildi, qırılan ağac budağı şaqqıldadı, tapdanan quru çör-çöplərin xışırtısı, çatırtısı bir-birinə qarışdı.

Çimnaz səksəndi, nə üçün yüyürüb bura gəldiyi elə bil indi yadına düşdü və ovçu qovmuş ahu kimi özünü odunçu oğlunun üstünə atdı:

– Tez ol, qaçaq, – dedi, – Əlyar xanın adamlarıdır, tutacaqlar səni, aparacaqlar səni, elə buna görə qaça-qaça gəlmişdim ki, sənə xəbər verim, amma gör huşum başımdan necə çıxdı.

Və Çimnaz, odunçu oğlunu arxasınca meşənin qalınlığına çəkməyə macal tapmamış, Əlyar xanın adamları başlarının üstünü alıb, qıyya vurdular və hər ikisini qamarladılar.

***

Payız günəşi getmişdi, meşə arxasında yox olmuşdu, batdığı yerdə göy əyrisi al-qırmızı boyanmışdı və bütün yollar axşam kölgələrində qaralmışdı.

Əlyar xan atlılarının önündə kənddən bir ağac yuxarıdakı böyük imarətli malikanəsinə qayıdırdı və qolları arxasına bağlanmış odunçu oğlu xan atlılarının qabağında addımlayırdı. Çimnaz isə huşsuz halda xanın öz atının yəhəri üstünə aşırılmışdı.

***

Gecə xanın böyük imarətində cah-cəlallı bir məclis qurulmuşdu, qonaqlar yemişdilər-içmişdilər, ağırlaşmışdılar. Adət üzrə yemək-içmək sükut içində davam edəndən sonra çay süfrəsi açılanda söhbət başlanırdı və söhbəti birinci olaraq ev sahibi başlamalı idi. Və xan iki barmağının ucuyla bığlarına tumar çəkib birinci olaraq sözə başladı:

– Ağalar, – dedi, – özünüz bilirsiniz ki, mənim hərgiz ovdan əliboş qayıtdığım olmamışdır, amma bugünkü ovum məni xüsusilə bərmurad elədi... Zira aşağı kənd yanındakı meşədə hər axşam ucalan bir səs vardı ki, böyük-kiçik cümlə eşidənləri valeh eləmişdi, fəqət bu vaxta kimi meşəyə gedənlərdən heç biri izinə düşə bilməmişdi. Amma indi bu gecə siz hamınız onun kim olduğunu görəcəksiniz və səsini eşidib feyziyab olacaqsınız, çünki bugünkü ovumuzda biz o meşə bülbülünü ələ keçirmişik və bundan sonra o bülbül mənim məclislərimdə cəh-cəh vuracaq...

Sonra xan əlini əlinə vurdu və içəri gələn iki nəfər xidmətçisinə odunçu oğlunu məclisə gətirmələrini əmr elədi.

Məclisdə tərpəniş və həniri başlandı, xanın kübar qonaqlarından bəziləri meşədən gələn o səs haqqında nə isə eşitmişdilər, digərlərinin məclislərində çox məşhur xanəndələr oxumuşdu və indi meşədən tutulub gətirilən birisinin səsilə xanın öz qonaqlarını heyrətə salacağını çoxları şübhəli və istehzalı baxışlarla qarşıladılar.

Və nədənsə xanın xidmətçiləri xeyli yubanaraq odunçu oğlunu məclisə gətirdilər.

Odunçu oğlu bir an qapı ağzında dayandı, gözləri qarşı divardakı bədənnüma aynaya sataşdı. Ordan o bədənnüma aynadan əyni məxmər arxalıqlı, başı buxara papaqlı, beli gümüş kəmərli birisi ona baxıb gözlərini döyürdü...



Və odunçu oğlu ordakı, aynadakı oxşartıdan üz çevirdi, başını aşağı saldı.

Xanın qaşları azacıq çatıldı, əmr eləmişdi odunçu oğlunu geyindirib-keçindirmişdilər və indi bu geyindirilib keçindirilmiş oğlan içəri girəndə əvvəlcə ona baş əyməli, sonra məclisə salam verməli idi.

Xan dinmədi, başıyla işarə elədi məclisin aşağısında yer göstərdi və xidmətçilər odunçu oğlunu gətirdilər. Məclisin aşağı başındakı döşəkcə üstündə oturtdular.

Məclisin gözü odunçu oğlunda idi və qonaqlardan biri əyildi, yanındakına dedi:

– Deyəsən kordur, bədbəxt, nökərlər qolundan tutub gəzdirirlər.

İkinci qonaq bığları altında qımışdı və xan üzünü odunçu oğluna tutub dedi:

– Odunçu oğlu, bəxtinə gün doğdu sənin! Bundan sonra daha meşədə odun doğramayacaqsan, çünki mənim məclislərimin xanəndəsi olacaqsan və hərçənd bu gün meşədə bizim uşaqlara əl qaldırmısan, amma keçənə güzəşt deyərlər, günahından keçirəm...

Sonra xan tarçıya işarə elədi və uzun birçəkli, saçları yağlı tarçı "Rast" dəstgahına başladı.

Əlyar xan qəlyanının gümüş müştüyünü ağzına aldı və dirsəyini qotazlı mütəkkələrə təkyə elədi.

Tarçı çalırdı, pərdə-pərdə qalxırdı və o məqamda xanəndələr "aman aman..." zümzüməsinə başlayaraq özlərini içəridən səfərbər edərdilər, tarçı yanakı baxışla odunçu oğluna nəzər saldı və meşə nəğməçisinin dodaqlarında xəfif bir tərpəniş belə görmədi.

Tarçı başlamışdı, dayana bilməzdi və indi başlanğıcdan çox uzaqlaşmışdı, amma odunçu oğlundan səs çıxmırdı.

Nəhayət tarçı heyrət ifadə edən gözlərini xana tərəf çevirdi və dəstgahı yenidən başladı.

Xan yavaşdan öskürdü və dedi:

– Odunçu oğlu, müntəzirik!

Odunçu oğlu başını qaldırmadı və sağından, solundan gələn fısıltıları elə bil eşitmədi.

– Başlasana, – deyirdilər ona sağından və solundan, – eşitmirsən, xan səninlədir...

Odunçu oğlu başını qaldırdı, baxışları bir an xanın üzünə dikilib qaldı, xan nə isə demək istədi, amma macal tapmadı, çünki odunçu oğlu döndü və çəpəki bir nəzərlə yenə bədənnüma aynadakı oxşarına baxdı.

Bu vaxt tarçının mizrabı pərdələr üzərində hərəkətsiz qaldı və hövsələdən çıxan xanın səsi bu dəfə daha artıq bir təhdid ilə dolu idi:

– Gədə, ağzına su almısan, nədi, görmürsən ki, bütün məclis sənə müntəzirdir?

Odunçu oğlu baxışlarını aynadan qopartdı və dedi:

– Əmr eləyin ordakı oxusun, – burdakı odunçu oğlunun səsini bu məclis eşitmiyəcək!

Xan döyükdü və tarçıdan soruşdu:

– Nə dedi o?

Tarçı dedi:

– Xan sağ olsun, sayıqlayır bu, aynada özünə baxıb, deyir ki, əmr eləyin qoy ordakı oxusun, çünki deyir, burdakı odunçu oğlunun səsini bu məclis eşitmiyəcək!

Qonaqlardan kimsə özünü saxlaya bilmədi bərkdən güldü və xanın başına elə bil bir dolça su töküldü, şərabın xumarı duman oldu gözlərindən dağıldı və məclisindəki istehzalı gülümsəyişləri görüb od aldı qamışa girdi:

– Yox, oxuyacaqsan odunçu oğlu, – dedi. İndi tarın çaldığı hava döşünə düşmədi, qırmancın çaldığı nəva döşünə düşər, əlləzinəni əzbərdən oxuyarsan! Və elə bu gecə bu məclis gərək sənin səsini eşitsin!

Və xan sözünü qurtarmamış əlini əlinə elə vurdu ki, bir neçə nökər bir-biri dalınca özlərini içəri saldılar və qamarladılar odunçu oğlunu qonaq otağının eyvanına apardılar.

Sonra ordan çılpaq bədənə vurulan qırmanc zərbələrinin vıyıltısı eşidilərkən indi də bütün məclis sükut içində odunçu oğlunun nə vaxt inləyəcəyini, yalvaracağını, aman istəyəcəyini gözləməyə başladı.

Lakin qırmanclar getdikcə daha artıq bir şiddətlə havanı yarır, daha müdhiş bir hava çalır, amma odunçu oğlundan yenə səs çıxmırdı.

İndi qonaqlardan bir çoxu nə isə bir xəcalət hissilə başlarını aşağı salmışdılar və Əlyar xan məclisi belə süst vəziyyətdə görərkən nökərlərini səslədi və nökərlərdən biri qan-tər içində yüyürüb içəri gəldi.

– Nə oldu, – dedi xan, – yumşaldımı, aman istəyirmi?

Nökər başını buladı:

– Yox xan, cınqırını belə çıxarmır, daş kimi düşüb qalıb, bilmək olmur ölüb və yainki hələ nəfəs alır.

Əlyar xan bığlarını çeynədi və bağırdı:

– Sürüyüb salın dama, nə bir loxma çörək, nə bir damcı su!



***

Səhər dan yeri ağaranda, xoruzların üçüncü banında özünə gəldi. Axşamdan üzüstə sərilib qaldığı torpaq üstündən ayağa qalxdı, oturdu. İndi əynində yenə öz yırtıq arxalığı və qamçıların kürəyində açdığı qanlı zolaqlara yapışmış bez köynəyi vardı. Ətrafına boylandı, başını qaldırdı, pəncərəsiz və qaranlıq damın bacasından tənha bir səhər ulduzu ona baxıb göz qırpırdı.

Əli ilə divardan tutub ayağa qalxdı və bir sövqi-təbii ilə ən əvvəl damın qapısına tərəf yönəldi, yoxlamaq lazımdı, əgər qapı çox möhkəm idisə, torpaq döşəməni oymaq olardı... Amma birdən qapı özü açıldı, ağsaqqal bir qoca içəri girdi, gəldi əlini odunçu oğlunun çiyninə qoydu – yavaşdan köksünü ötürdü və dedi:

– Dalımca gəl oğul, mən xanın qoca bağbanıyam, başına gələn qəziyyədən xəbərim var... Axşam nökərlər səni geyindirib-keçindirəndə üröyimdə dedim ki, qəfəsdəki bülbüllər az imiş, biri də yoldaş gəldi. Amma sonra görəndə ki, qırmanc altında da səndən nə səs çıxdı, nə səda, onda bildim ki, sən qəfəsdə oxuyan quşlardan deyilsən... Dalımca gəl, nökər-naib oyanmamış, çıx aradan başını qurtar!

Odunçu oğlu qocanın üzünə baxıb durdu, bu qoca ki onu qaçırdıb öz başını bəlaya salacaqdı, qocaya minnətdarlığını bildirmək üçün nə edəcəyini bilmədi.

– Nə doydaq kimi donub qalmısan, – dedi qoca, – məndən xatircəm ol. Sonrasın mən özüm billəm.

Bir addım atmamış geri döndü:

– O qız xeylağı, ki, burda əsirdir, baba onu da qurtarmaq üçün mənə kömək eləsəydin...

Qoca bağban dinmədi, bir müddət susub durdu, sonra dedi:

– Axşamdan o qızın qabağında qızıl sandıqları açıblar, oğul... Nə deyim, qızdır, əgər zərxaradan arxalıq, əşrəfidən yaxalıq gözün qamaşdırmasa, qaçmaq istəsə, ona da həmiyyət elərəm – hələlik sən qaç başını qurtar!

Odunçu oğlunun üzündən nə isə bir kölgə keçdi və öpdü qocanın əlindən, yola düzəldi...

Kəndə gəlib çıxanda hava artıq işıqlanmışdı və indi o oğlunun nigarançılığı ilə səhəri diri gözlü açan qoca anasının hüzurunda dayanmışdı, başına gələnləri danışıb qurtarmışdı və nə qədər ki, gec deyildi qoca atasıyla vidalaşmalı, kənddən çıxmalı, başını götürüb hara isə getməli idi.

Susub durmuş atası handan-hana başını qaldırdı və dedi:

– Mənim bir ayağım qəbirdədir, oğul, sən mənim fikrimi çəkmə... Amma bilmirəm sən hara gedəcəksən, özgə yerlərdə, qürbət ellərdə nə eliyəcəksən?

Və birdən heç vaxt o barədə düşünmədiyi və heç vaxt elə bir şey ağlına gətirmədiyi amma indicə, bir an içində ürəyində doğulan və bütün varlığına hakim kəsilən və özü üçün gözlənilməz olan elə bir qərara gəldiyini hiss elədi ki, bunu atasına elan edərkən həyəcanlandı, boğazında düyünlənən bir qəhərdən boğuldu və dedi:

Oxuyacağam, ata, gəzəcəyəm eli-obanı oxuyacağam, gedib qürbətə çıxsam orda oxuyacağam, dönüb geri qayıtsam, burda oxuyacağam...

***

Və o gündən odunçu oğlunun sərsəri həyatı başlandı.

İndi o yurdsuz-yuvasız gəzgin bir nəğməçi idi, heç bir yerdə çox bənd olub qalmırdı, çünki daima onu çağıran bir səs vardı ki, yolların çağırışı idi və gəzirdi, dolaşırdı eli-obanı yorulmurdu. Kəndistanda olurdu kənd toylarında oxuyurdu, şəhərstana gəlib çıxırdı, çayxanalarda oxuyurdu və çox az bir zamanda səsinin şöhrəti yurdunun günçıxanından yurdunun günbatanına kimi yayıldı.

İndi nəinki onu hər yerdə səbirsizliklə gözləyirdilər, hətta səsini bir daha eşitmək üçün dalınca at çapıb bu kənddən o kəndə gedənlər və o şəhərdən bu şəhərə gələnlər olurdu.

Sonra aylar dolanmışdı, il keçmişdi və o yenə bir dəfə də olsun ürəyinə xəyanət eləməmişdi, çünki oxuduğu bütün mahnılarını hər dəfə ona ürəyimdəki azadlıq yanğısı oxutdurmuşdu və hər dəfə cahcəlallı məclislərdə bir gecəsinə təklif edilən bir ətək qızıldan üz çevirmişdi, amma təsadüfən gecələdiyi bir kəndli komasında yoxsul bir süfrə başında ona dikilən baxışlar ürəyini tərpətmiş, oxumuş və səhər qalxıb gedərkən heybəsinə qoyulan bir cürdək ayranı minnətdarlıq hissilə qəbul eləmişdi.

Nəhayət onun bəstələdiyi mahnılar dildən-dilə düşərkən və o keçib getdiyi şəhər və kəndlərdə tez-tez mahnılarının başqaları tərəfindən oxunduğunu eşidərkən, hər dəfə ürəyini suvarmağa başlayan xoşbəxtlik hissinə eyni zamanda nə isə bir niskil qarışırdı və elə bil hardansa uzaqlardan gələn bir səs onu geriyə – yurduna-yuvasına, doğma yerlərə çağırır və o ümid ki, ondan əli üzülmüşdü, yenidən ona əl uzadırdı.



Bu gecə isə o müsafir olduğu bir kəndli komasında gözlərini yumarkən, birdən elə bil vücudunun çəkisini itirdi, sinəsində nə isə yeni bir mahnının doğulduğunu hiss elədi yuxusu ərşə çəkildi, bütün gecəni qollarını başı altında çataqlayaraq gözlərini qaranlığa zilləyib qaldı və dodaqlarını tərpətmədən içəri səsilə o mahnının gah ürküb qaçan və gah yenidən qayıdıb gələn məqamlarını ürəyində zümzümə elədi və birdən bu mahnı ilə bərabər o ahugözlünün unudulmuş xəyalı həzin bir səhər nəsimi kimi uçdu, üstünə gəldi, uyumuş o həsrət yenidən oyandı, ürəyini qarsdı və səhərin gözü açılar-açılmaz qalxdı yola düşdü və üz tutdu doğma kəndlərinə doğru getdi...

***

Axşam günbatan çağı gəlmişdi, kəndləri yanındakı o qalın meşəyə çatmışdı.

Və o saat hər tərəfdən gözəgörünməz həyulalar ayağa qalxmışdılar, qaçıb gələrək üstünə tökülmüşdülər, qollarını boynuna dolamışdılar, əlindən tutub arxasınca çəkmişdilər, köhnə tanış cığır ilə onu meşənin qalınlığına aparmışdılar və tufan yıxmış o qocaman palıd ağacının üstündə oturtmuşdular.

Oturmuşdu, bir hovur dincini almışdı və elə bil çox düyünlü o saqqız ağacın bu gün daramışdı, doğramışdı və bir şələ odun çıxardınca çox yorulmuşdu, gün axşam olmuşdu, ağacların dibi qaranlığa batmışdı, günün işığı ilişib ağacların başında qalmışdı, durub getmək istəmişdi, ayaqları gəlməmişdi, şələsi çoxdan bağlanmışdı, əyilib yerdən qaldırmamışdı və yenə ayaqları altında açılan təkliyinin qara quyusundan bir an gözlərinə vahiməli bir yuxu görsənmişdi və o qara vaqiəli yuxuda qara bir əl boğazından tutmuşdu, onu boğmuşdu və ovcu qızıl ilə dolu o biri qara əlini ona doğru uzatmışdı...

Səksənmişdi, oyanmışdı və ona elə gəlmişdi ki, illər var ki, burda oturub qalmışdı və illər var ki, ürəyi fəryad edib o ahugözlünü çağırmışdır və o vaxt ki, gözlərini qapamışdır o ahugözlü bu meşə cığırıyla ona doğru gəlmişdir və ürək üçün yalnız bu röya həqiqət olaraq qalmışdır, başqa nə olub keçibsə hamısı bir qiylü-qal imiş...

Sonra gözləri öz-özündən qapanmışdı və əvvəlki səsi, gəncliyinin səsi yenə meşə üzərində ucalmışdı.

***

Və o vaxt ki, bu axşam çağı meşədən yenə o səs ucalmışdı, bir anda bütün kəndi ayağa qaldırmışdı. Hamı o səsi tanımışdı, daxmaların qapıları, pəncərələri açılmışdı və böyük, kiçik hamı bir-birinə dəymişdi, çoxdan məhrum olduqları və indi yenidən qayıtmış o doğma səsə qulaq asmağa başlamışdılar.

Qoca odunçuya xəbər vermişdilər, xəstəhal qoca yatağından qalxmışdı, eşiyə çıxmışdı, lakin qocanın qulaqları indi çox ağır eşitdiyi üçün neçə ildən bəri həsrətini çəkdiyi oğlunun səsi gəlib təkcə ona yetişməmişdi, qoca ayaqlarını sürümüşdü, o səsə doğru yaxın getmək istəmişdi, lakin az getmişdi, taqətdən düşmüşdü, sonra geri dönmüşdü, adamların üzünə baxmışdı və bütün yaxşılaşmış üzlərdə və işıqlanmış gözlərdə oğlunun səsi nəhayət gəlib ona da çatmışdı...

Sonra onun səsi kənd üstündən aşıb getmiş, yuxarıda Əlyar xanın böyük imarətli malikanəsinə yetişmişdi və bu vaxt çay süfrəsi başında oturmuş Çimnaz ilə Əlyar xan hər ikisi birdən səksənmişdilər, bir-birinin üzünə baxmışdılar və gözlərin döyə-döyə qalmışdılar.

Bir az sonra isə Əlyar xanın malikanəsindən çıxan üç nəfər atlı, yedəklərində yəhərli bir atla meşəyə doğru çapmışdılar və gəlmişdilər odunçu oğlunu yenə haman yerdə, tufan yıxmış o qocaman palıd ağacı yanında tapmışdılar, əyilmişdilər, ehtiramla ona baş əymişdilər və demişdilər:

– Bizi Çimnaz xanım göndərib, Çimnaz xanım səni görmək istəyir və yedəyimizdə sənin üçün at gətirmişik...

Sevinmişdi – Çimnaz sağ idi. Ürəyi döyünmüşdü, – əsir-yesir Çimnaz onu görmək istəyirdi.

Və bu dəfə o xan atlılarının önündə çaparaq Əlyar xanın malikanəsinə gəlmişdi və xan nökərləri onu malikanədə məxsus onun üçün ayrılmış bir otağa aparmışdılar ki, uzun yoldan sonra bir az dincəlsin!

Əlyar xan isə bu vaxt bütün nökərlərini atlara süvar edib dörd bir tərəfə çapdırmışdı, mahalın bütün kübarlarını və əşrəflərini axşam məclisinə dəvət eləmişdi.

Xan o vaxt qurduğu məclisdə xəcil olduğunu hələ də həzm edə bilməmişdi, amma indi, bu gecə o dost və əğyar qarşısında öz təntənəsini nümayiş etdirəcəkdi, həm də bu gecə onun məclisində o zaman heç kəsin tanımadığı odunçu oğlu yox, indi adı dillərdə əzbər olmuş, şöhrəti düzü-dünyanı tutmuş bir el nəğməkarı oxuyacaqdı.



Odunçu oğlu isə məxsus onun üçün ayrılmış otaqda çox oturub qalmışdı və nə vaxt Çimnazın onu çağıracağını çox gözləmişdi, qaranlıq düşmüşdü, gəlmişdilər onun otağında çıraq yandırmışdılar və üçayaqlı alçaq kətil üstündə qabağına bir sini çərəz qoymuşdular.

Sonra qısa fasilələrlə bayırdan at kişnərtilərinin səsi gəlmişdi, dörd bir tərəfdən çapıb gələn qonaqlar yenə malikanənin böyük və aynalı otağında bir-birinin yanına düzülmüş, hərə öz yerini tutmuş və məclis arəstə olmuşdu.

Bu vaxt gəlmişdilər onu aparmışdılar, qarşısında bir-bir çox qapılar açmışdılar, bir-birindən zəngin döşənmiş bir sıra otaqlardan keçirmişdilər və nəhayət o bircə dəfə üzünü görmək həsrətini illərlə ürəyində gəzdirdiyi ilə üz-üzə dayanmışdı.

Və indi onun üz-üzə dayandığı Çimnaz burda bir çox qızlar və qadınlar içində atlas bir döşəkçə üstündə oturmuşdu və elə bil sağında-solunda keşikçi qoyub onunla bu görüşünü mühafizə altına almışdı.

O isə donub qalmışdı qapı ağzında, gözlərinə inanmamışdı.

Çimnaz idimi bu qadın?

Orda o atlas döşəkçə üstündə tavus kimi bəzənmiş bir xanım oturmuşdu, zərli-zibalı əlbəsəsi üstündə daş-qaşlar bərq vururdu, boynundan salxım-salxım qızıl gərdənbəndlər, zəncirlər və sap-sap mirvari boyunbağılar asılmışdı.

İncəbelli, qıvraq tərpənişli, ahugözlü bir qızı dolğun əndamlı, ağır baxışlı, qımıldanıb tərpənməyən bir qadın əvəz eləmişdi, çənəsi altındakı buxağı buğumlarla bir-biri üstünə qatlanmışdı, vaxtilə çiyninə tökülən xurmayı saçları indi almaslı, incili araqçın altına yığılmışdı və baxışlarındakı biganəlik gözlərindəki yanarlığı yox eləmişdi.

O isə nitqi batmış kimi bu qadın qarşısında dayanmışdı.

Çimnaz da susmuşdu, nəfəsini udmuşdu, amma üzündə elə bir ifadə vardı ki, elə bil bu saat ya güləcəkdi, yaxud ağlayacaqdı.

Və Çimnaz xanım gülümsəmişdi – ağzını örtmüş yaşmağı aşağı salmışdı və demişdi:

– Biz hər yerdən sənin sorağını alırdıq və gözləyirdik ki, şeytanın qıçın sındırıb bir bizim tərəflərə də gələrsən. Xan keçmiş əhvalatı çoxdan unutmuşdur. Bu axşam o məxsus sənin üçün məclis qurmuşdur. Bütün mahaldan çox hörmətli şəxslər bizə qonaq gəlmişdir. Amma o şəxslər içində bizim üçün ən əziz qonaq sənsən. Xan da, mən də sənə ziqiymət xələtlər hazırlamışıq. Mən özüm bu otaqda oturub bütün gecəni sənə qulaq asacam.

O Çimnaz ki, bircə dəfə onun üzünü görmək həsrəti onu qovmuşdu bura gətirmişdi, burda yox idi, burda başqa bir qadın vardı və bu başqa qadın xan hərəmi idi.

Və o dönüb getmək istəmişdi.

Amma bu vaxt yan qapı açılmışdı, xan gülümsəyərək içəri girmişdi, gəlmişdi onun qoluna girmişdi, çəkmişdi onu özüylə bərabər qonaq otağına aparmışdı və yuxarı başda öz yanında ona yer göstərmişdi.

Məclisdə hələ şərbət paylanırdı, onun piyaləsini xan özü doldurmuşdu, sonra dönmüşdü tarçıya işarə eləmişdi və haman tarçı yenə "Rast" dəstgahına başlamışdı.

Yenə hamı susmuşdu, yenə bütün məclisin gözü ona dikilmişdi və xan boğazını arıtlamışdı və demişdi:

– Odunçu oğlu, süfrəyə plov gələnəcən, bu şərbət kimi şirin səsinlə bir balaca desəydin, məclisə ruh verərdin və bizi ziyadəsiylə xoşnud eləyərdin!

Başını qaldırmışdı məclisi süzmüşdü və yenə sükut və intizar içində ona baxan bu məclisdən o tərəfdə – çox uzaqdan, izdihamlı bir şəhər meydanından yığın-yığın insanların da ona baxdıqlarını və gözlədiklərini görmüşdü...

Sonra məclisdən bir hənirti qopduğunu və indi tək xanın yox, bütün məclisin ona nə isə dediyini və hər tərəfdən qabağına atılan ovuc-ovuc qızılların cingiltisini eşitmişdi və nəhayət xan özü belindən qızıl kəmərini açmışdı, onun qabağına atmışdı və demişdi:

– Oxu, – bir ağız oxu, töyləmdəki qara kəhər də sənindir!

Və bu vaxt ordan – o şəhər meydanından ona baxıb duran və nəyi isə gözləyən o gözlərdə elə bil səbirsizlik görmüşdü ki, qeyri-ixtiyari ayağa sıçramışdı və qapıya doğru yönəlmişdi.

...Qan xanın beyninə vurmuşdu, hiddətindən qırılan səsi ilişmişdi

Nəhayət xan nökərlərinə demişdi:

– Gədələr, nə durub baxırsınız, görəndə ki, bir şəxs dəli-divanədir, onun əllərinə və ayaqlarına bənd vururlar, aparın bunu da zəncirləyin və nə qədər ki, ağlı başına gəlməyib qoy qolları zəncirli, ayaqları kündəli qalsın!

Odunçu oğlunu gətirmişdilər, yenə o qara damda həbs eləmişdilər və bu dəfə ayaqlarını və qollarını zəncirləmişdilər ki, əli hər yerdən üzülsün, qaça bilməsin!

Və üç gün üç gecə o qaranlıq məhbəsdə ac və susuz qalmışdı.

Dördüncü gün gecə yarısı Əlyar xan malikanəsində qopan səs-küyə oyanmışdı, nökər-naib, hamı bir-birinə dəymişdi, – malikanə imarətlərindən biri od tutub alovlanmışdı.

Xan hövlnak bir halda yanan imarətinə doğru yönəlmişdi və qabağına çıxan qoca bağbanın üstünə düşüb bağırmışdı:

– Bu nədir qoca? Kimin işidir bu?

Qoca bağban yanan imarətə tərəf baxmışdı və demişdi:

Bu xəbərdarlıqdır, xan... Elin-obanın qəzəbindən həzər elə, odunçu oğlunu incitmə, çünki bu işin axırı daha xətərnak ola bilər.

Xan diqqətlə qocanın gözlərinə baxmışdı, qoca baxışlarını qaçırtmamışdı və xan əlini çırpmışdı:

- Rədd eləyin çıxıb getsin!

***

Elə haman gecə gəlmişdilər, zəncirlərini açmışdılar və qapını taybatay qoyub getmişdilər.

Və o güclə ayağa qalxmışdı, açıq qapıdan çıxmışdı, ayaqlarını sürüyərək bir addım xan malikanəsindən uzaqlaşmışdı.

Lakin çox gedə bilməmişdi, ayaqlarının heyi kəsilmişdi və zülmət bir gecə içində, yol qırağında, alçaq bir təpəcik üstündə təkbaşına oturub qalmışdı.

Göydə tez-tez ulduzlar axmışdı, dağlardan sərin meh əsmişdi və o səhərin açılmasını gözləmişdi. Nə qədər ki, dan yeri ağarmamışdı, bu qaranlıq yolda araba təkərlərinin cırıltısı eşidilməyəcəkdi, at ayaqlarının tappıltısı gəlməyəcəkdi və ins-cins gözə dəyməyəcəkdi. Amma birdən hardansa gələn bir səs eşitmişdi, qulaq vermişdi – zınqırov səsləri idi, hardansa üzübəri dəvə karvanı gəlirdi.

Səbirsizliklə yaxınlaşan karvanı gözləmişdi və o vaxt ki, böyük bir dəvə karvanı gəlmişdi, gecə qaranlığında qarşısından keçməyə başlamışdı, sevinmişdi, ayağa qalxmışdı və sarbanı səsləmişdi:

– Ey sarban, – demişdi, – yollar yorğunuyam, saxla karvanı məni də götür!

Lakin sarban ya onun səsini eşitməmişdi, yaxud eşitmişdi, amma gecənin bu aləmində yol qırağından gələn o səsə etibar eləməmişdi və karvan dayanmamışdı.

O isə gözləmişdi ki, karvan ha indi, ha bu saat dayanacaqdır, amma dəvələr səssiz addımlarla laqeyd və çalxanan kölgələrlə, bir-biri ardınca ötüb getmişdilər, qaranlığa batıb yox olmuşdular və odunçu oğlu alçaq bir təpəciyin üstündə – səssiz və qaranlıq bir gecə içində tək qalmışdı...

Və bu vaxt elə bil bir anda o kiçik təpəcik üstündə, bu böyük qaranlıq içində birdən-birə sinəsi uçmağa hazırlaşan bir quş sinəsi kimi qabarmışdı, hava ilə dolmuşdu və o mahnı ki hələ zindanda ikən qollarındakı zəncirlərin cingiltisi altında bəstələnmişdi, indi nəhayət pərvaz olmuşdu və ürəyindəki təkliyin fəryadı kimi uçmuşdu, göylərə ucalmışdı.

Sonra başını yuxarı qaldırmışdı və səsi sonsuz boşluqlar içində [illegible]

kimsəsiz qalmış bir dünyanın fəryadına çevrilmişdi, getmişdi ulduzlara çatmışdı və ulduzları sarsıtmışdı və o vaxt ki gözlərin aşağı salmışdı gecənin qara divarı ilə üz-üzə qalmışdı, fəryadını qaranlıqda yox olan karvanın arxasınca göndərmişdi və səs getmişdi kəmənd kimi karvanın boynuna sarılmışdı, dəvələr bir-birinə dirənmişdi, zınqırovların səsi batmışdı və qocaman bir karvan yolun ortasında qaranlıq içində

Başını torpaq üstündən qaldırmışdı, quyudan çıxırmış kimi ağır-ağır ayağa qalxmışdı və kiçik təpəcik üstündən yola enmişdi, karvana doğru getmişdi.

Sarbanın yerə yatırtdığı qoşa hürgüclü nər dəvə odunçu oğlunu belinə almışdı, zarımışdı, nərildəmişdi və ayağa qalxmışdı.

Və odunçu oğlu sarbana demişdi:

– İndi çək karvanını, sarban, çək apar məni bu yerdən ki, burda ürək daşa dəydi və əlim burda son ümidimdən üzüldü...

Sarban karvan önündəki nər dəvənin ovsarını çəkmişdi. Karvan yenidən hərəkətə gəlmişdi və qoca demişdi:

– Elə hey diyarbadiyar gəzirsən odunçu oğlu, nə bir yerdə qərar tutursan, nə bir hovur nəfəsini dərirsən...

– Elədir, həmişə yollardayam, sarban – sinəmdən keçən arzular karvanıyla yol gedirəm... və gedəcəyəm son nəfəsimə kimi... Amma gecə çox uzun, çox qaranlıqdır və işıq hələ çox uzaqdadır.

*Təbriz, 1944*

## QIZIL QÖNÇƏLƏR

Gün olmuşdu ki, şəhərin böyük bazarında iş tapılmışdı və qoca Firuz bütün günü başıaşağı işləmişdi, yük daşımışdı, elə günlər də olmuşdu ki, böyük anbarlar yanında oturub qalmışdı, kürəyini divara söykəmişdi və daşıyacağı bir yükün intizarıyla kiminsə onu çağıracağını gözləyirkən, gah mürgüləmiş, gah səksənib oyanmışdı.

Çox qoca idi, boş-bekar oturub qaldığı günlərdə belə sümükləri sızıldayırdı, çünki uzun ömrü boyu daşıdığı yüklər bir-biri üzərinə qalaqlansaydı, yerdən göyə bir dağ ucalardı.

Böyük və zəngin bir şəhərdə yaşamışdı və bu şəhərin nə qədər tikintilərinin daş və kərpici, nə qədər böyük imarətlərin avadanlığı, ağır sandıqları, xalça və xalıları və səqfinə kimi dolu anbarların nə qədər saysız-hesabsız xaralları onun çiynində daşınmışdı və bu yüklərin hər birindən bir qırğı ilişmişdi, yapışmışdı, bir-biri üstünə qalaqlanıb həmişəlik çiyinlərində qalmışdı və hər gün belini bir az daha artıq aşağı əymişdi. Və indi o hər dəfə nəfəs alanda elə bil çiynində bir yük vardı, yuxarı qaldırırdı və hər dəfə nəfəsini dərəndə, elə bil çiynində bir yük vardı, aşağı endirirdi...

Son zamanlar isə qoca hər axşam günbatan çağı, eyni bir saatda, eyni bir vaxtda hara isə tələsirdi və bu vaxt əgər onun boxtı gətirsəydi, təsadüfən bir iş çıxsaydı, arxadan onu səsləyən, çağıran olsaydı belə, etina eləmirdi, geri dönürdü və indi elə bil gücü ancaq kölgəsini arxasınca sürüməyə çatırdı, çünki çoxlu döngələrə burulurdu, çoxlu dalanlardan keçirdi və tozlu küçələrlə çox yol gedirdi.

Və gəlirdi şəhərin ucqarındakı fərş fabriklərindən birinin darvazası qarşısında çoxdan qurumuş bir çinar ağacına söykənib dayanırdı.

Bəlkə bura, şəhər civarına gələnəcən qoca yorulurdu və bir an nəfəsini dərmək üçün burda bu ağaca söykənib dayanırdı ki, bir hovur dincini alsın?

Yox, burdan o yana qocanın ən ağır yolu başlanırdı və qoca hər axşam burdan o yana taleyinin ən ağır yükünü çiyninə alıb aparırdı.

Çox gözləmədi, səs-küy qopdu, fərş fabrikində iş qurtardı və fabrik darvazasından çıxan dəstə-dəstə irili-xırdalı qız və oğlan uşaqları küçəni doldurdu, sonra iki qız uşağı yeddi-səkkiz yaşlarında çox arıq və solğun bənizli, xurmayı saçlı və qonur gözləri çox işıqlı bir qızcığazı qolları üstündə qapı ağzına çıxartdılar.



Qoca yaxın getdi, minnətdarlıq hissilə əlini nəvazişlə hər iki kiçik yaşlı çadralı qızın başına çəkdi, sonra nəvəsini, balaca Süreyyanı qızların qucağından götürüb ehtiyatla arxasına aldı və döndü yola düzəldi.

İndi o bir ayaq-bir ayaq addımlayırdı ağır-ağır nəfəs alırdı, çünki hər dəfə bu quş kimi yüpyüngül qızcığazı dalına alanda elə bil üstünə bir dağ uçulurdu və üstünə uçulan dağ isə taleyinin ona yüklədiyi ömür şələsi idi ki, son nəfəsinə kimi bu şələ həmişə onun çiynində qalacaqdı.

Hər axşam dalına alıb gətirdiyi və səhər yenə dalına alıb fərş fabrikinə apardığı qızcığaz qocanın aman zamanı idi və bu böyük dünyada bu kiçik varlıqdan başqa qocanın heç kəsi yoxdu, qızcığaz isə ayaq açıb yeriməyə başlarkən rütubətli və qaranlıq bir zirzəmidə şikəst olmuşdu, ayaqları tutulmuşdu, daha əvvəl anası hələ onu süddən ayırmamış vəfat eləmişdi, atası – qocanın oğlu isə qazanc dalınca qürbətə getdiyi gündən elə bil daş olub quyuya düşmüşdü və illər keçmişdi ondan bir xəbər gəlməmişdi və beləliklə tabdan düşmüş bir qoca ilə imdadsız bir qız uşağı amansız bir həyat qarşısında tək qalmışdılar.

Qızcığaz qocanın ağır sükutunu hiss elədi, təşvişə düşdü və dedi:

– Baba, bu gün sən çox yorulmusan?

– Yox, gözüm işığı, – dedi qoca, – bu gün heç bir iş görməmişəm.

Qızcığaz başa düşdü, elə isə babasının cibində bu gün də heç bir şey yoxdur və səngəkçi dükanı qarşısından keçərkən qocanı saxladı:

– Dayan baba, səngək alaq, axşama evdə çörəyimiz yoxdur.

Qoca dayandı, səngəkçi şagirdi bir neçə səngək bükdü, gətirib qocaya verdi və balaca Süreyya cəld əsgini andıran yırtıq çadrasının ucuna düyünlədiyi bugünkü muzdunu – iki qranı çıxartdı oğlana verdi.

Qocanı tər basdı, – deməli bu gün də axşam yeyəcəkləri bir tikə çörəyi yenə nəvəsinin kiçik əlləri qazanmışdı hər ikisi üçün...

Axşamlar isə onlar – baba və nəvə, rütubətli bir zirzəmidə, həsir üstünə salınmış və basma rəngi çoxdan solmuş qələmkar bir süfrə başında üz-üzə otururdular və gündəlik ciraləri adətən bir neçə səngək və bir yumru pendirdən ibarət olardı.

Və bu vaxt qoca yıxılıb yatmamışdan əvvəl qızcığazın gözlərinin bir az işıqlanması və dodaqlarına xəfif bir təbəssüm qonması üçün, bu miskin süfrə başında, bu qaranlıq zirzəmidə hər gecə bir-birindən rəngarəng nağıllar və əfsanələrlə nəvəsini əyləndirməyə çalışırdı. Qızcığaz isə nəfəsini udaraq babasına qulaq asar, qoca danışdıqca xəyalı almas

saraylara uçar, əlvan rənglərin aşıb-daşdığı bir dünya onu ağuşuna alar, sonra gözləri qapanarkən yuxuları qızıl röyalara qərq olardı.

Və dəfələrlə bu röyaları ilə oynaqlığı arasındakı bir sərhəddə işıqlı bir otağın açıq qapısından gənc və gözəl bir qadın onu səsləyirdi, o dönüb bu qadına doğru yüyürərdi və bu qadın onun anası idi ki, nə canlı surəti, nə ölümü onun xatirində qalmamışdı və qala bilməzdi.

Sonra hava azacıq işıqlanar-işıqlanmaz qoca nəvəsini şirin yuxudan oyadar, çit çadrasına bürələyib dalına alar, gətirib fərş fabrikinin darvazası ağzında qoyar, özü isə bazara tələsər və hər dəfə rastına düşən ən ağır bir işə girişməyə, yorulmağa, əldən düşməyə, nəfəsini qaraltmağa hazır olardı – təki axşam evə qayıdanda balaca Süreyya üçün cibində bir ovuc kişmiş gətirə bilsin!

***

Bir ildən çox idi ki, balaca Süreyya fərş fabrikində işləyirdi və hər səhər gün çıxmamış fabrik irili-xırdalı yüzlərlə oğlan və qız uşağı ilə dolurdu. Bir-iki ustadan və fabrikin qoca nəqqaşından başqa, şəhər ucqarındakı bu fabrikdə bütün günü işləyən yalnız kiçik yaşlı uşaqlar idi ki, əksəriyyəti qızlardan ibarətdi və onlar iki-iki, üç-üç və daha artıq çoxluğu olan kiçik dəstələrlə böyük dəzgahlar qarşısında əyləşib bütün gün axşamacan çeşidli fərşlər toxuyurdular.

Süreyyanı isə özündən üç-dörd yaş böyük olan iş rəfiqələri hər

Süreyya isə oxumazdı, çünki oxumaq üçün onun nə səsi vardı, nə mahnısı. O bütün günü işıqlı, qonur gözlərini çaldığı ilmələrdən ayırmadan, şəfqətə, sevgiyə susamış ürəyinin həsrətini elə bil barmaqları altından çıxan bütün bu əlvan və zərif naxışlara hörüb rəsm edərdi və buna görə idi ki, fabrikin qoca nəqqaşı da hazırladığı çeşidli çeşnilər içində qızıl qönçəli nəqşləri həmişə balaca Süreyya üçün nəzərdə tutar və o butaları və qönçələri ki, Süreyya toxumağa başlardı, elə bil onların üstünə gün ziyası düşsəydi, o saat hər biri tac yarpaqları açılmış bir qızılgül kimi göz qamaşdıracaqdı.

Lakin balaca Süreyyanın rəfiqələrilə bərabər toxuduğu o xalçalar sonra hər dəfə dəzgahdan götürüləndə qızcığaz kövrələr və baxıb doymadığı o qönçələrini o bir daha heç vaxt görə bilməzdi və beləliklə, o hər dəfə bu gün itirdiyini sabah yenidən yaratmaq üçün fabrik ustalarının qurub hazırladıqları növbəti hana qarşısında oturar və qoca nəqqaşın yeni nəqşəsi ilə yeni qönçələr toxumağa başlardı.

***

Bu il çox həzin olan payızdan sonra şiddətli küləklərlə soyuq bir qış gəldi.

Qoca Firuz isə rütubətli və qaranlıq zirzəmisini qızdırmaq üçün hələ də kürsü qura bilməmişdi, odun və kömür yoxdu, şüşəsi yamaqlı bir çırağı işıldatmaq üçün qoca çox vaxt öz boğazından kəsib bir şüşə neft alırdı və gecələr balaca Süreyyanın yırtıq bir yorğan altında titrədiyini gördükcə səhərə qədər gözünə yuxu getmirdi.

Bu gün o balaca Süreyyanı hələ fərş fabriki açılmamış, hava qaranlıq ikən gətirmişdi fabrikin darvazası ağzında qoymuşdu, özü də hələ dükan-bazar açılmamış gəlmişdi, böyük bazarın qapısı ağzını kəsdirmişdi, çünki bu səhər böyük anbarlardan birinə çoxlu yük daşınacaqdı və qoca bu fürsəti əldən qaçırmayaraq hamıdan tez işə başlamağı qəsd eləmişdi – nə cür olursa-olsun, o bu gün bir şələ odun pulu qazanmalı idi.

Və səhər hava işıqlanan kimi o böyük anbara yük daşınması başlananda, qoca Firuz bu gün hamını heyrətə salan yaşına yaraşmayan elə bir qıvraqlıqla işə girişdi və bir an nəfəsini dərmədən, qan-tərə bataraq özünü elə şəhid eləməyə başladı ki, o biri cavan hamballar qocanın bu işinə mat və məəttəl qaldılar.

Günortaya yaxın o artıq əlliyə qədər ağır tay daşımışdı...

Və indi fikirləşirdi ki, dalındakı bu növbəti tayı da aşağı endirəndən sonra işə bir az ara versə, oturub bir az nəfəsini dərsə, qiyamət qopmaz, amma bu dəfə yarıqaranlıq dik pillələrlə nə qədər aşağı enirdisə, nədənsə hələ də yeraltı anbarın dibi görünmürdü.

...Birdən ona elə gəldi ki, ayaq basdığı növbəti pillənin kərpici ayağı altından yana qaçdı və dərhal gözləri qaranlıq gətirdi, əlini hara isə atmaq istədi, amma bu vaxt elə bil arxadan kimsə onun apardığı tayın üstünə yeni bir tay aşırdı, qoca müvazinətini itirdi, yerində səndələdi, cəld döşündəki kəndiri boşaldıb yükü dalından atmaq istədi, amma macal tapmadı, dizləri ikiqat büküldü və qayadan qopan bir daş kimi üzü aşağıya, yeraltı anbarın qara ağzını açmış boşluğuna yuvarlandı və dik pillələr onu bir-birindən alıb bir-birinə ötürdü, qoca çevrildi, diyirləndi və nəhayət gəldi anbarın qırmızı kərpicli döşəməsi üstünə sərildi, qışqırmağa, haraya çağırmağa nəfəsi qalmadı və üzüqoylu yıxıldığı yerdə döşənib hərəkətsiz qaldı, sonra hələ yuxarıda açılıb düşmüş ağır tay da ilişdiyi axırıncı pillədən qopub bütün ağırlığı ilə qocanın üstünə aşırıldı.

Aşağıda anbarda işləyən kişi qocaya tərəf yüyürdü, dartdılar qocanı yük altından çıxartdılar, amma artıq iş işdən keçmişdi, uzun bir ömür boyu daşıdığı yüklərin axırıncı tayı altında qoca Firuz öz həyatını dəfn eləmişdi.

***

Axşam uşaqlar iş gününü başa vurub, fərş fabrikindən çıxarkən, qar yağırdı və çoxu ayaqyalın olan bu uşaqlar yeri ağartmaqda olan qar üstündə barmaqlı və pəncəli izlər buraxaraq tələsə-tələsə evlərinə sarı dağılırdılar.

Yenə balaca Süreyyanı rəfiqələri qolları üstündə küçəyə çıxartdılar, amma bu dəfə darvaza qarşısında qoca Firuz babanı görməyəndə çox heyrət elədilər.

Süreyya küçənin o biri başına baxdı, gözlərini döydü – birinci dəfə idi ki, fabrikdən çıxarkən babası onu gözləmirdi.

Birinci qız dedi:

– Vay, Firuz baba niyə yoxdur?



İkinci qız dedi:

– Qar yağır, gözləyək, gələr.

Gözlədilər.

Uşaqlar hamısı dağılıb getmişdi, qaranlıq kəsifləşirdi, quşbaşı qar yağırdı və balaca Süreyyanın gözləri təşviş ilə dolu idi.

Birinci qız dedi:

– Süreyya, bəlkə köməkləşib səni birtəhər evinizə aparaq, Firuz baba görəsən nə iş çıxdı ki, yubandı bazarda qaldı...

Süreyya qətiyyətlə başını buladı:

– Yox, – dedi, – babam harda olsa bu saat gəlib çıxacaq, "siz gedin" gecdir, sonra qorxarsınız.

Qızlar qaranlığa baxdıqca doğrudan da qorxurdular və dayanırdılar bir az da gözlədilər, sonra Süreyyanın təkidi ilə bir-birinin əlindən tutub qaranlığa cumdular.

Və balaca Süreyya bu qarlı qış axşamında, küçədə – darvaza ağzında tək başına oturub babasını gözləməyə başladı.

Küçənin nəhayətində tənha bir fanar vardı, o da yandı, amma qoca Firuz yenə gəlib çıxmadı.

Qar isə getdikcə daha artıq bir şiddətlə yağırdı və donuq işıltısı axşam qaranlığında əks edirdi.

Bir saat sonra Süreyyanın yanından iki nəfər keçib getdi, sonra biri geri döndü və təkbaşına divar dibində oturmuş qızın ətəyinə mis bir pul atdı.

Qızcığaz səksəndi, dodaqlarını dişlədi ki, ağlamasın, ürəyi başqa bir qorxu ilə doldu, indi yanından ötən onu dilənçi zənn edəcəkdi və bəzisi dönəcəkdi, ətəyinə qara bir pul atacaqdı.

Onsuz da gecə həyatı olmayan bu şəhər indi bu qış axşamında tamamilə bomboş və kimsəsiz görünürdü.

Xüsusilə burda – şəhərin ucqarı olan bu küçədə qışın bu birinci qarlı axşamında artıq ins-cins gözə dəyməyəcəkdi.

İndi o getdikcə daha artıq qorxur və getdikcə canına hopan soyuqdan daha artıq üşüdüyünü hiss eləyirdi, amma hələlik özünü saxlayırdı səsini çıxarmırdı.

Sonra ona elə gəldi ki, gecə keçib, bütün şəhər yatıb və hələ də gəlib çıxmayan babasına qarşı ürəyində elə bir küskünlük baş qaldırdı ki, kövrəldi və səssizcə ağlamağa başladı.

Yenə nə qədər vaxt keçdi və doğrudan da gecə yarı oldu, amma Firuz yenə gəlib çıxmadı.

Və indi o çağırmağa başladı, əvvəlcə dəfələrlə babasını çağırdı, cavab verən olmadı, sonra Allahı, bəndəni – hamını köməyə çağırdı, amma heç kəs səsini eşitmədi.

Artıq dili söz tutmadı, bu qarlı qaranlıq gecədə burda tək qalacağını anladı və bağlı fabrik darvazasına doğru sürünməyə başladı ki, orda darvaza tağı altında qar tutmayan bir bucağa qısılıb səhərin açılmasını gözləsin...

***

Səhər günəşinin ilk şüaları bütün gecəni yağıb şəhəri qalın və ağ bir təbəqə ilə örtmüş qar üstündə bərq vurarkən, darvaza tağı altında bucağa qısılıb yatmış balaca Süreyya artıq yarıbayğın, yarıhuşsuz bir halda idi.

Çit çadrası başından sürüşüb çiyinlərinə düşmüşdü, boynubükülü qalmışdı, rəngi qaçmış, üzü qış günəşilə işıqlanmışdı.

Birinci dəfə idi ki, onun üzünə səhər doğan günəşin ilk şüası düşürdü və birinci dəfə olacaqdı ki, o oyanarkən qaranlıq zirzəmi əvəzinə ətrafında ağappaq qarla örtülmüş bir dünya və başı üstündə şəfəqlənib yanan bir səhər günəşi görəcəkdi.

Və indi onun şüuru üzünə düşən bu günəş ziyalarının toxuduğu füsunkar bir röya ilə dolu idi.

Uzaq üfüqdə böyük və qıpqırmızı bir günəş doğurdu və o günəşin şüaları hər yerdən, daşdan, divardan keçirdi, ən xəfə bucaqları, ən qaranlıq zirzəmiləri belə öz işığı ilə doldururdu. Balaca Süreyya isə heyran-heyran o günəşə baxıb gülümsəyirdi, çünki indi onun babasıyla bərabər yaşadığı o həmişə rütubətli, o həmişə qaranlıq zirzəmi də ağzına qədər işıqla dolmuşdu, torpaq döşəmə, suvağı tökülmüş divarlar və onun – Süreyyanın toxuduğu qızıl qönçəli fərşlərlə döşənmişdi və bəzənmişdi və Süreyya özü elə bil qanad açmışdı, əlvan boyaların aşıb daşdığı bir dünya içində o yana qaçırdı, bu yana qaçırdı və gəlirdi öz əllərilə toxuduğu fərşlərə baxırdı və heyrət içində gözləri geniş açılırdı: günəş şüaları vurduqca onun toxuduğu qönçələr biri-biri dalınca düymələrini açırdı və hər biri qırmızı fincanlıq bir qızılgülə çevrilirdi, bunu görən Süreyya gah o qönçəyə, gah bu qönçəyə doğru yüyürürdü, amma onlardan heç birini qoparmağa əli gəlmirdi, yalnız barmaqlarının şəfqətli təmasilə o güllərin qıpqırmızı tac yarpaqlarına tumar çəkirdi.



Birdən nə isə oldu, kimsə gəldi, qolundan tutdu və onu çəkib haraya isə aparmaq istədi, Süreyya getmək istəmədi, ayaqlarını yerə dirədi, amma qolundan tutan əl çox qüvvətli idi və onu işıqlı və əlvan dünyadan qopardıb haraya isə soyuq və qaranlıq bir yerə sürüyürdü...

Qız bir an gözlərini açdı.

Qolundan tutub onu yerdən qaldıran fabrikin qoca nəqqaşı idi və səhər işə gəlmiş uşaqlar hamısı halay vurub onun başına toplanmışdılar və hamısı susqun və kirimişcə dayanıb ona baxırdılar.

Amma balaca Süreyyanın işığı sönmüş gözləri artıq ətrafdakılardan heç kəsi tanımadı, baxışları bir nöqtəyə zillənib hərəkətsiz qaldı.

Qoca nəqqaş qızı qucağına aldı, içəri apardı, öz otağında taxt üstünə uzatdı, kimə isə tez manqal gətirməsini tapşırdı, sonra qızın əlini əlinə aldı:

– Necəsən, qızım?

Süreyyadan heç bir səs gəlmədi, kim isə isti çay gətirdi, qız içmədi, manqalı gətirib yanına qoydular, isti qızın üzünə vurdu, gözləri yumuldu, sonra dodaqları tərpənəndə, nə dediyini eşitmək üçün qoca nəqqaş qızın üzərinə əyildi:

– Harda qalmışdın, baba, – deyə qızcığaz sayıqlayırdı, – bir bax necə gün çıxıb... Hamısı mənim toxuduğum fərşlərdi... qönçələr də... gün vurdu açıldılar... bəs sən harda qalmışdın, baba?

Qoca nəqqaş əlini qızın alnına qoydu, Süreyya od tutub yanırdı, qoca uşaqlardan birini çağırdı – həkim dalınca göndərdi, bir saat sonra küçədən fayton atlarının ayaq səsləri gəldi, qoca nəqqaş qapı ağzında həkimi qarşıladı, bərabər içəri girdilər, həkim qızın üstünə əyildi, uzun-uzadı nəbzini yoxladı, sonra başını qaldırdı qoca nəqqaşın üzünə baxdı:

– Gecikmisiniz, – dedi, – artıq gecdir...

Qoca nəqqaş səksəndi, bir addım geri çəkildi, döndü pəncərə qarşısına gəldi, burdan qoca nəqqaşın kiçik iş otağının şüşələri qırıq pəncərəsi arxasından fabrikin içi bu başdan o başa qədər gözləri qarşısında açıldı.

İndi uşaqların hamısı orda ağır bir sükut içində dəzgahların qarşısında oturmuşdular, heç birindən səs çıxmırdı, hamısı başlarını aşağı salıb işləyirdilər və heç kəs dönüb bir-birinin üzünə baxmırdı.

İndi orda balaca Süreyyanın yeri boş qalmışdı və bütün günü boş qalacaqdı, amma sabah orda başqa balaca bir Süreyya oturacaqdı ki, işə başlarkən onun da yırtıq çit çadrası başından sürüşüb çiyninə düşəcəkdi və o hər gün hava hələ işıqlanmamış nə qədər çox qaranlıq bir zirzəmidən çıxıb bura gələcəkdisə, kiçik əlləri burda bir o qədər işıqlı və əlvan naxışlar toxuyacaqdı...

*Təbriz, 1945*



## BAŞ XİYABANDA

Qaramat bir yuxudan oyandım, işığı yandırdım – başım ağrıdan çatlayırdı.

Bu şiddətli baş ağrıları vaxtaşırı gecələrimin ayaqdaşıdır.

Küt və kənək bir ağrı qoşa çəkiclə sağdan və soldan gicgahlarımı döyəcləyirdi, qalxdım üst köynəyimin döş cibindən ağ bir həbin ancaq bir qəlpəsini tapdım ki, onu da udmaq üçün stol üstündəki qrafində su yoxdur.

Bu qürbət şəhərdə hərbi xidmətdə olan bir neçə yoldaşla bərabər əlahiddə bir evdə yaşayırdıq, evdə su lüləsi yoxdu, qonşu evdən aldığımız quyu suyunu qaynadıb içirdik.

Şinelimi çiynimə saldım, ikinci mərtəbədəki otağımdan qaranlıq həyətə düşdüm, çox uca hasarlarla dövrələnmiş həyət ortasında kiçik [illegible]

bütün digər küçələrində isə axşamdan yatırdı və səhər hava azacıq işıqlanan kimi ayağa qalxırdı.

Və nəhayət bu şəhər yalnız baş xiyabandakı bir əczaxanasını bütün gecəni səhərə kimi açıq saxlayırdı ki, indi gecənin bu aləmində mən ora – baş xiyabana, – şəhərin səhərə kimi açıq saxladığı o əczaxanaya doğru gedirdim...

...Və baş xiyaban gecənin bu gec saatlarında həmişəki kimi yenə çıraqban idi, amma başqa vaxt gecə yarıdan sonra da burda dolaşan baxışları çağırışlı bədbəxt kölgələr indi bu şaxtalı gecədə yox olmuşdu və hər axşam burda sızıldayan, ağlayan divar dibləri də artıq susmuşdu və boşalmışdı.

Gündüzlər şəhərin digər məhəllələrində və örtülü bazarında sədəqə üçün uzanan əlləri boş qalan dilənçilərin bir çoxu axşamlar çox tez kimsəsizləşən digər küçələrdən bura, baş xiyabana doğru yönəlirdilər, ayaqyalın, başıaçıq uşaqlar, cındır çit çadralı qadınlar, çiyni mitil yorğanlı qocalar burda divar diblərində düzülüb otururdular və bu divar dibləri xüsusilə soyuq qış gecələri yüz ağızlı fəryadla şəhərin baş xiyabanındakı izdihamından mərhəmət diləyirdi.

İndi isə şaxtalı bir gecənin bu aləmində ki, əl açmaq üçün şəhərin baş xiyabanında ins-cins qalmamışdı, şəhərin dilənçi uşaqlarından kiçik bir oğlanın ilişib burda, baş xiyabanda qalması çox təəccüblü idi.

Və şəhərin sahibsiz, sərsəri, ac itlərindən böyük bir sürü o uşağı mühasirəyə almışdı.

Ayaq saxladım, uşaq sürü içində fırlanırdı, sağa dönürdü, sola dönürdü və əlindəki çörəkdən qopartdığı tikələrdən sürüdəki ac itlərin hərəsinə bir pay düşməsinə cəhd edirdi.

İkinci bir çörəyi isə uşaq sol qolu altında bərk-bərk qoltuğuna sıxmışdı.

Düşünmək olardı ki, kimsəsiz bir uşaq çörəyə möhtac olduğu kimi bir parça qarşılıqlı şəfqətə də möhtacdır və yəqin mehrini özü kimi hər yerdən qovulan, ac qalan, soyuqdan titrəyən bu sərsəri itlərə salmışdır.

Əczaxanaya çatmışdım, içəri girdim.

Gecə aptekçisi rəngimə baxan kimi əhvalımın nə yerdə olduğunu fəhm elədi, tanış idik, vaxtaşırı qocadan nevraljin adlanan başağrısı dərmanı alırdım və üst köynəyimin döş cibində ehtiyat saxlayırdım.

Salamlaşdıq və qoca bu şəhər sakinlərinə xas olan xüsusi bir nəzakətlə iltifat göstərdi.



– Çay süzüm, – dedi, – elə burda bir pay nevraljin atın!

– Təşəkkür eləyirəm, – dedim, – bir stəkan su.

Başımı geri qanırdım ağ nevraljin tozun dilimin üstünə səpdim, suyu başıma çəkdim.

– Əyləşin, – dedi qoca, – bugünkü Tehran ruznamələridir, axşam avtobus gətirdi, baxsanız, başınız bir az qarışsa, ağrı fövrən izalə olub gedər!

Alçaq miz üstündə bir yığın Tehran qəzetləri vardı, və ən üstdəki qəzetin birinci səhifəsində çəkilmiş karikaturada ağ bir qoyun göy çəmənlikdə ot qırpırdı, amma sağında və solunda iki boz qurd şöngüyüb göz-gözə oturmuşdu, sağdakı gözünü soldakına ağartmışdı ki, dinc otur, həddini bil, soldakı da sağdakına meydan oxuyurdu ki, xam xəyala düşmə, boğazında qalar və bələliklə o qoyun çox xoşbəxt idi ki, keşiyində dayanmış iki qurd arasında öz qoyun səadətinə qovuşmuşdu...

Başımı qaldırdım gecə aptekçisinin üzünə baxdım, qocanın işıldayan gözlərində cinlər oynayırdı...

Nevraljin tez təsir eləmişdi, ağrının dişi sınmışdı və indi geri çəkilmişdi, hardasa sonuncu bir nöqtəyə ilişib amanatabənd qalmışdı

Gecə aptekçisi ilə xudahafizləşib yenidən baş xiyabana çıxdım.

Xəfif, amma şaxtalı bir külək şəhərin digər qaranlıq küçələrində və dalanlarında özünü ora-bura çırpıb geri dönmüşdü və indi burda – baş xiyabanda itlərə çörək paylayan o uşağı qabağına salıb hara isə qovurdu.

Uşaq ayaqyalın və başıaçıqdı, gah yorturdu, gah dayanıb arxasınca salıb apardığı itləri səsləyirdi və indi qoltuğundakı ikinci çörək də yox olmuşdu, sürüdəki itlərin sayı isə bir az da çoxalmışdı.

Yenə düşünmək olardı ki, bu səxavətlə ki, uşaq bu gün diləndiyini bu ac itlərə paylamışdı, özünə heç bir şey saxlamamışdı, sabah sədəqə üçün açılan əli boş qalardısa (və belə günləri az olmurdu və az olmayacaqdı) onda bu it sürüsünə mehribanlığı uşağa çox baha tamam ola bilərdi.

Və bu zaman uşaq birdən yox oldu.

İrəlidə üç mərtəbəli binada bir ticarət şirkəti yerləşirdi və uşaq o binanın giriş yolundan içəri girib yox olmuşdu və bütün sürü də uşağın dalınca içəri cummuşdu.

Gəlib o binanın qarşısına çatmışdım ki, arxadan yortub gələn gecikmiş, daha iki it də az qala ayaqlarıma dolaşaraq yanımdan sivişib özlərini dəhlizə salmışdılar.

Bu nə sirr idi?

Bir an tərəddüd elədim, sonra dəhlizə girdim.

İçəri çox kiçik bir elektrik lampasilə işıqlanmışdı və əvvəlcə dəhlizdə nə uşağı gördüm, nə it sürüsünü. Bəlkə yuxarıya, ikinci mərtəbəyə qalxmışdılar? Amma yuxarıda ikinci mərtəbənin koridor qapısı gecələr bağlı olmalı idi və pilləkənin üst meydançasına bu it sürüsü sığışmazdı.

Birdən pilləkən qanadının arxasından gələn bir hənirti diqqətimi cəlb elədi, irəli getdim, pilləkən qanadının arxasına keçdim.

Sürünün bütün itləri burda idi, sıxılmışdılar bir-birinə, biçimsiz bir kütlə halında yerə döşənmişdilər və o uşaq da bu sürünün ortasında yumaq kimi bükülmüşdü, dizlərin qucaqlamışdı, böyrü üstə yıxılıb yatmışdı.

Və sirr bundan ibarətmiş ki, bu, şaxtalı qış gecələrində soyuqdan donmamaq və isti bir bucaq tapıb yatmaq üçün uşaq boğazından kəsərək gündüz diləndiyini bu sürüyə paylayırmış və əlbəttə ki, səhər tezdən şəhər hələ oyanmamış yenə bu sürünü dalınca salıb baş xiyabandan uzaqlaşacaqdı...

Şəhər isə sabah yenə baş xiyabanı davranış və qilü-qalı getdikcə müasirləşən bir izdihamla dolduracaqdı, ağır yerişli sakinlərini baş xiyabanda çevik yerişə təhrik edəcəkdi, dini təəssübkeşlik təzahürünə baş xiyabanda yol verməyəcəkdi, bir yandan baş xiyabandakı əyinləri qaradonlu, başları ağpapaqlı xaçpərəst rahiblər monastırından ucalan çan səslərinə qulaq asacaqdı, bir yandan da ölkənin müqəddəs şəhərinə gedən mömin zəvvarlarını mərsiyə sədaları ilə o, monastır yanındakı döngədən xarici markalı avtobuslarla yola salacaqdı və baş xiyabanda yerləşən bir çox kinoteatrların əlvan afişalarındakı çılpaq qadınlarla, hər iki əlindəki tapançadan atəş açan bədheybət quldurlarla və ağzından od püskürən əjdahalarla tamaşaçı çağıran Qərb filmlərini bütün günü və gecəni nümayiş etdirəcəkdi, musiqili, nəğməli restoranlarını, sarı bülbüllü çayxanalarını müştərilərlə dolduracaqdı və bu şaxtalı gecədə sərsəri itlərlə qucaqlaşıb yatan o kiçik övladına bir gün ağlamağı yalnız bundan ibarət olacaqdı ki, baş xiyabanda dilənən bəzi dilənçilər kimi o uşağa da əl açıb sədəqə aldığı vaxt fransızca "mersi" deyə təşəkkür etməyi öyrədəcəkdi...

*Təbriz, 1945*

## PROLOQ

*Bu başlanğıc axtarışından*
*Salamat qalmış qəlpələrdir.*
*Yaxud başlanğıcda görsənmiş*
*Bir mənzərədir.*
*Haşiyəsi budur ki,*
*"Tarixin səadət səhifələri*
*Boş səhifələrdir"*

...O vaxta kimi istər ayrı-ayrı milli dinlərin və istərsə böyük dünya dinlərinin başlanğıcları tarix səhifəsinin çox dərinində cəroyan etməmiş və hələ də qaranlıq içindən çıxmayıbsa üçüncü və sonuncu dünya dini olan İslam artıq tarixin ön səhnəsində və tarixin gur işığı altında doğulmuş, beləliklə eramızın yeddinci yüz illiyinin ikinci yarısında yer üzündə islam tufanı başlanmışdı.

Rəvayətə görə o gecə ki, islamın banisi Sərvəri-Kainat anadan olmuşdur, o gecə yığın-yığın ərəb tayfalarının yüz illərdən bəri sitayiş etdikləri 360-dan artıq çox çeşidli və çox şəkilli bütləri, sənəmləri və yaxud əldəqayırma tanrıları Məkkə şəhərindəki Kəbə adlanan (çox qədim məbəddir) tirlərindən qopub üzü üstə yerə sərilmiş, məşriqdəki qüdrətli sasanilər İranında adil şah adlanan Nuşirəvanın möhtəşəm ağ sarayı sarsılıb lərzəyə gəlmişdi, onun uca tağlarından bir neçəsi uçub tökülmüşdü və atəşpərəstlərin min illərdən bəri fars iqlimində yanan ulu atəşləri titrək bir şam kimi sönmüşdü. Halbuki o vaxta qədər o əbədi məşəlin bir dəfə də olsun sönməyini heç kəs görməmişdi.

Sonra yenə o gecə məğribin hökmdarları və Bizans hökmdarı vahimə dolu röyalarından qan-tər içində oyanmışdı.

Və nəhayət, o gecə yamanlıq bayraqdarı İblis bütün qoşunlarını başına yığıb fəryad eləmişdi ki, bilin və agah olun ki, bu gecə bizim ən böyük və ən amansız düşmənimiz anadan olmuşdur. İndi zaman ilə məkan əllərini sinələri üstə tutub iki qulam kimi o şəxsin hüzurunda dayanıblar...

Miladi tarix ilə 570-ci ildə atasının ölümündən sonra Məkkədə dünyaya gələn və "Dürr-yetim" adlanan İslam peyğəmbəri qırx yaşında "dini inqilaba" başlayaraq yeni dinin ehkamlarını təbliğ edir ki, ürəyi iman və etiqadının ehtirasıyla yanan vücudu zaman-zaman epilepsiya həmlələri ilə sarsılan bir xəyalpərvər kimi idi və yeni əxlaq carçısı olaraq bütpərəst Məkkə aristokratiyası tərəfindən məruz qaldığı bütün təqiblərə, hədə-qorxulara, acı istehzalara, zəhərli həcvlərə və həyatına sui-qəsd təşəbbüslərinə cavab olaraq elan eləmişdi ki, əgər günəşi sağ ovcuma və qəməri sol ovcuma qoysalar belə mən yenə öz haqq yolumdan dönməyəcəyəm.

Lakin günəş, ay, ulduz kimi kosmik hədiyyələr müqabilində belə haqq yolundan dönməyəcəyini elan edən tanrı elçisi əgər Məkkə şəhərində adsız-sansız bir kimsəsiz idisə, sonra ölümcül təhlükələrdən qurtulmaq üçün doğma şəhərindən didərgin düşüb, gizli olaraq Mədinə şəhərinə hicrət eləyəndə və orda hər gün yeni dinə iman gətirənlərin sayı artıb-çoxalanda, şöhrətli və döşü təpərli ərəb cəngavərləri bir-birinin dalınca əldəqayırma tanrılardan üz çevirib qılınclarını sərvəri-kainatın ixtiyarına verəndə Məkkənin dünənki qurğun peyğəmbəri Mədinədə hərbi səfərlər təşkilatçısı bir hökmdara çevrildi. "Din və hakimiyyət əkizdir" dedi və beləliklə, ilk islam qoşunları dünya tarixinin aynası qarşısında dayandı...

Və o Mədinə ki, qurğun bir peyğəmbərin sığnağı idi, sonralar kafirlərə qalib gəlmiş hökmdar peyğəmbərin qurduğu böyük İslam dövlətinin ilk paytaxtı oldu və Sərvəri-Kainat həyatını orda başa vuraraq, miladi tarixilə 632-ci ildə vəfat edərkən orda dəfn edildi, sonra qəbri yanında dəfn olunmaq şərəfi yalnız birinci xəlifə Əbubəkr ilə ikinci xəlifə Ömərə nəsib oldu. Amma müqəddəs məzar yanındakı üçüncü bir yer isə boş saxlandı: islam qənaətinə görə xaçpərəstliyin banisi və cəfakeşi, çarmıxa çəkilmiş tanrı oğlu İsa ikinci dəfə bu dünyaya gələcəkdi və ikinci dəfə bu dünyadan gedəndə islam peyğəmbərinin qəbri yanında dəfn ediləcəkdi.

Peyğəmbərin vəfatından sonra əmirəlmöminin, yaxud möminlərin əmiri ləqəbli xəlifələr dövrü və İslam ordularının böyük işğalçı hərbi səfərlər dövrü başlandı ki, müəyyən fasilələrlə bir-birini təqib edən iki qüdrətli istila dalğasının zərbəsi ilə İslam qılıncı bir tərəfdə Zərdüşt dinli İranın qocaman sasanilər imperatorluğunu tarımar edib yerə sərdi,



digər tərəfdən xristianlıq dinli Bizans imperatorluğundan bir çox Asiya və Afrika vilayətlərini qopardıb öz hakimiyyəti altına aldı. Lakin bu dəfə kükrəmiş emosiya siyasəti dayanmadı və daha da şiddətlənərək Doğarıda[1] Asiyanın sinəsi İrandan aşıb keçərək Çin sərhədlərinə dirəndi. Batarıda[2] quzey Afrikanı ağzına aldı. Ordan Avropaya sıçradı, İspaniyada qotların krallığını darmadağın elədi və nəhayət, Fransa torpaqlarında ən uca zirvə nöqtəsində tükəndi, dayandırıldı və geri atıldı...

Beləliklə, o torpaqlarda ki, bir zamanlar Midiya çarları, İran şahları, makedoniyalı İskəndərlər və Roma qeysərləri silah gücüylə yığın-yığın pərakəndə xalqları və ölkələri vahid siyasi bir orqanizmdə birləşdirmişdilər və böyük cahan dövlətləri qurmuşdular, sonra içəridən çürümüş, zavala uğramış, çökmüş və məhv olmuşdular, bu dəfə də eyni coğrafi rayonlarda xilafət adlanan nəhəng İslam imperatorluğu tarixin üfüqlərində baş qaldırdı...

...Lakin dünya xalqlarının tarixi müqəddəratında paradoksal hadisələr az deyil və o qüdrətli, möhtəşəm keçmişli İran ki, yalın ayaqlı, əbaları yamaqlı ərəb qoşunları tərəfindən darmadağın edilmişdi və qılınc gücünə, islamı qəbul etməyə məcbur olmuşdu, sonra üçüncü dünya dini islamın istinadgahına döndü. İranlı din sahibi ərəbdən daha artıq mömin müsəlman oldu və qalib gələnlər məğlubiyyətə uğrayanların şagirdinə çevrildi.

Buna görə idi ki, əgər vaxtilə Əməvi xəlifələrindən biri hüzuruna çağırdığı bir iranlıya müsəlman olmağı təklif edib rədd cavabı alanda qəzəblənərək həman iranlının baldırından kəsdirdiyi əti kabab elətdirmişdimsə və ötkəm iranlıya öz ətindən bişirilmiş kabab yedirmişdisə digər bir Əməvi xəlifəsi iranlılar qarşısında duyduğu heyrət hissini ümumiləşdirmişdi və demişdi: "Mən bu iranlılara heyrət edirəm. Bunlar min il hakimiyyət başında oldular, amma bir saat da olsun bizə ehtiyacları olmadı. Biz isə cəmisi yüz ildir hökmranlıq edirik, amma bir saat da olsun bunlarsız keçinə bilməmişik".

Və bu Əməvi xəlifələrinin yüz illik hakimiyyətinə son qoyularkən, İran həlledici rol oynadı. Xorasanlı Əbumüslümün qaradonlu, qaraçalmalı və qara bayraqlı alayları qara bir sel kimi Doğarıdan Batarıya

[1] Şərqdə
[2] Qərbdə

axaraq "dinsiz" Əməvi xəlifələrini Suriyada taxtdan saldılar və peyğəmbərin əmisi Abbasın nəslindən olan "dindar" Abbas xəlifələrini İraqda taxta çıxartdılar.

Beləliklə, Abbasilər xilafəti ərəb xəlifələrilə iranlı vəzirlərin dövlətinə çevrildi, xilafətin paytaxtı İrandan uzaq olan Suriyadan, yaxında, İranla qonşu olan İraqa köçürüldü və Dəclə çayı sahilindəki Bağdad adlı kiçik bir İran kəndinin yerində ucalan yeni bir şəhərin – Bağdadın şöhrəti bütün iqlimlərə yayıldı və əgər min il əvvəl Babil Şərq dünyasının paytaxtı hesab olunurdusa, indi də Bağdad Şərq dünyasını təmsil edən əfsanəvi bir şəhər kimi, öz fanatik cah-cəlalı ilə bütün dünyanı heyrətə saldı...



## BİRİNCİ HİSSƏ

*Bu xəlifə Məmunun Cahan şəhəri*
*Bağdad ilə əlbəyaxa olduğudur.*
*Və öz "Yaşıl inqilabı"nı*
*Öz əlilə boğduğudur.*

### 1

Hicri ilə ikinci yüzilliyin sonları, miladi ilə doqquzuncu yüzilliyin əvvəlləri idi və bura Murğab çayı sahili, qədim Mərv şəhərinin civarı idi. Bu imarət xorasanlı Əbumüslümün keçmiş qəsdi idi ki, Abbasilərin 7-ci xəlifəsi Məmun burda öz iqamətgahında təkbaşına qara atlas döşəkçəli məsnəd üstündə bardaş qurub oturmuşdu, əllərini bir-birinə daraqlayıb qarnının üstə qoymuşdu və yol çəkən sürməli gözləri yuxarı çevrilmiş açıq ovuclarında sanki gələcək taleyinin sirli cizgilərini oxuyurdu...

Nəhayət, bu gecə Mərvdən, taleyinin şəhərindən ayrılır, xilafətin hüdudunu tərk edirdi. Ürəyindəki ən böyük muradı ürəyində qalırdı. Onu taxta çıxartmış Xorasanla birdəfəlik vidalaşırdı. Və ikinci dəfə ona meydan oxuyan cahan şəhəri Bağdadın üstünə gedirdi.

Əgər vaxtilə peyğəmbərin silahdaşları olan dörd mömin xəlifə dövründə xilafətin paytaxtı Mədinə idisə, sonra Əməvi xəlifələri Dəməşqi paytaxta çevirmişdilərsə və daha sonra Bağdad Abbasi xəlifələri üçün paytaxt olmuşdusa, Məmun burda Mərv şəhərində yeddinci Abbasi xəlifəsi kimi peyğəmbərdən miras qalmış müqəddəs əbayə, qılınca və əsayə sahib olmuşdu və burda öz yaşıl inqilabına başlayaraq xilafətin Məşriq hüdudundakı bu şəhəri, hökmdarı olduğu islam dünyasının dördüncü paytaxtına çevirməyi qət eləmişdi.

Rəvayətə görə orta Asiyanın bu qədim şəhərini Məmundan min il əvvəl Makedoniyalı İskəndər bina eləmişdi. Və burdan hərəkət edərək Səmərqənd üstünə getmişdi və daha qədim adı Marakanda olan o şəhəri fəth edərkən dünya tarixinin ən böyük sərkərdəsi nida eləmişdi ki: "Səmərqəndin gözəlliyi haqqında nə eşitdimsə hamısı doğru imiş. İstisnası yalnız budur ki, bu şəhər mənim təsəvvür etdiyimdən daha gözəl imiş!".

İskəndərdən min il sonra isə islam qoşunlarının zərbələri altında sasanilər İranı darmadağın etdi və sasanilərin sonuncu şahı Yəzd-Qord Şəhriyar qaçıb bura, Mərvə gəldi və burda Murğab çayı qırağındakı bir

su dəyirmanında namərd dəyirmançı tərəfindən qarət edildi və öldürüldü.

Çox sonralar (Miladi ilə ikinci əsrin ortalarında) Əbu Müslüm Xorasani də "Zilli" adlı öz nəhəng və qara bayrağını burda qaldırmış və əməvi xəlifələrini devirərək Məmunun ulu babaları Abbasi xəlifə-

lərini taxta çıxartmışdı.

Doqquz il əvvəl xəlifə Harun ər-rəşid böyük qoşun və böyük oğlu Məmunla, bura Xorasana gəlmiş, xəstələnib Tus şəhəri civarında qara məxmərli çadırı altında ölüm yatağına düşmüş, Məmun isə Mərvə gəlmiş və burdan üsyan qaldırmış Səmərqənd valisi üstünə qoşun göndərmiş, lakin Səmərqənd qiyamı hələ yatırılmamış Harun ər-rəşid vəfat eləmiş və Məmun atasını Tus şəhərində dəfn eləmişdi.

Və nəhayət, atalarının ölümündən sonra iki qardaş arasında – Məmun ilə Əmin arasında taxt-tac uğrunda başlanan və dörd il davam edən qanlı savaşlardan sonra Abbasilərin altıncı xəlifəsi Əminin kəsilmiş başı Bağdaddan bura, Mərvə Məmunun hüzuruna göndərilmişdi...

## HEKAYƏ

...Vaxtilə müqəddəs Kəbədə imzalanmış və orda qədim, məbədin qapısından asılmış əhdnaməyə görə Harun ər-rəşid iranlı qızı cariyə[1] Mərcəldən olan böyük oğlu Məmunu ikinci vəliəhd, baş hərəmi və əmisi qızı Zübeydə xatundan olan kiçik oğlu Əmini birinci Vəliəhd təyin eləməyə məcbur olmuşdu. Ona görə məcbur olmuşdu ki, Bağdad sarayında bir-birilə rəqabət edən ərəb əyanlarından ibarət saray ağalarıyla iranlı əyanlardan ibarət saray ağalarının gələcək xəlifə uğrunda apardıqları mübarizədə ərəb firqəsi, iranlı firqəsini üstələmiş və həddindən artıq şişman gövdəli Zübeydə xatun xilafətin birinci xanımı kimi tərəzinin gözünü öz tərəfinə əyərək, oğlu Əmini birinci Vəliəhd təyin elətdirmişdi...

Sonra Harun ər-rəşid burda, Xorasanda Qədim Tus şəhəri civarındakı qara məxmərli çadırın altında can verərkən huşunun özünə gəldiyi saatların birində başına toplaşmış saray ağalarına üz tutaraq demişdi:

Eşidin və bilin ki, özümlə bərabər bura, Xorasana nə gətirmişdimsə hamısı böyük oğlum Məmunundur və o qoşun ki, mənimlə bura gəl-

[1] Kəniz, qulluqçu



mişdir məndən sonra Məmunun ixtiyarında qalacaq ki, böyük oğlum burdan Ceyhun nəhrinin o tayında tez-tez baş verən iğtişaş və qiyamları ram eləsin. Və sonra bura gətirdiyim xəzinə də burda saxlanacaq ki, Məmun qoşuna maaş verə bilsin və bir miqdar da özünün cib xərcliyi olsun. Dübarə eşidin və bilin ki, birinci Vəliəhdim və kiçik oğlum Əminin payın mən orda, Bağdadda qoyub gəlmişəm və ona elə böyük bir pay ayırmışam ki, bura gətirdiyim xəzinənin səkkiz məbləğindən daha artıqdır. Ona görə sərvəri-kainat peyğəmbərimiz məni o biri dünyaya, öz hüzuruna çağırandan sonra siz həmişə Əminin yadına salın ki, o müqəddəs Kəbədə and içib söz verib ki, xəlifə olandan sonra heç vaxt böyük qardaşı Məmunun payına əl uzatmayacaq və Bağdadda oturub xilafətin Məşriqində hökm eləyəcəkdir.

Lakin bu dünyada çox hökmdarların çox vəsiyyətləri, özlərilə bərabər dəfn edilmişdi, Harunəlrəşidin vəsiyyəti isə hələ cənazəsi dəfn edilməmiş unuduldu...

Bağdadda taxta çıxmış xəlifə Əmin dərhal qoşunu Xorasandan geri çağırdı. Dövlət xəzinəsindən Xorasana gətirilən sərvəti geriyə – Bağdada qaytardı və beşikdən körpə oğlunu özünə vəliəhd təyin elədi.

Qoşunsuz və pulsuz-parasız qalmış, üstəlik vəliəhdliyi ləğv edilmiş Məmun taleyinə meydan oxudu və Cümə namazı münasibətilə Mərvin cümə məscidində oxuduğu xütbədə qardaşı xəlifə Əminin adını çəkmədi.

Məscidi doldurmuş izdihamdan boğuq bir uğultu qopdu.

Ənənəyə görə Cümə namazı münasibətilə oxunan xütbədə xəlifənin adını çəkməyən bir vali bununla Bağdada tabe olmadığını bildirər və özünü idarə elədiyi vilayətin müstəqil hökmdarı elan edərdi.

Bu xəbər Bağdada yetişən kimi xilafət qoşunları qara bayraqlar altında Xorasana doğru hərbi yürüşə başladılar. Və xəlifə Əmin qiyam qaldırmış böyük qardaşının qolları bağlı hüzuruna gətirilməsi üçün qoşuna gümüş bir zəncir verib yola saldı.

Məmun isə dayıları hesab olunan xorasanlıları ayağa qaldırdı və üstünə gələn Bağdad qoşunlarını qarşılamaq üçün "Rey"[1] hərbi düşərgə rəisi taygöz Tahir ibn Hüseynin topladığı könüllüləri müharibə meydanına göndərdi.

[1] Vaxtilə indiki Tehran ətrafında olan coğrafi bölgünün adıdır. İndi o bölgüdən həmin yerdə xarabələr və bəzi abidələr qalmaqdadır.

Abbasi xəlifələrin rəsmi dövlət rəngi qara rəng idi Abbasilərin ikinci vəliəhdi kimi bu vaxta qədər qara geyimli olan Məmnun qara çalmasını başından açıb atdı qara cübbəsini əynindən çıxarıb atdı və dedi ki: "Bu qara donlar ki, var cəhənnəm əhlinin libasıdır".

Yaşıl rəng seyidlər üçün müqəddəs rəng idi və Məmun başına yaşıl çalma sarıdı, əyninə yaşıl cübbə geyindi. O, elan elədi ki, "Bu yaşıl donlar ki, var, cənnət əhlinin libasıdır".

Və yaşıl bayraqlı Xorasan qoşunlarının komandanı Tahir ibn Hüseyn qələbə çaldığı hər döyüşdən sonra qədim Mərv şəhərinə, Məmunun hüzuruna kəsilmiş bir baş göndərdi.

Bir-birinin ardınca Məmunun ayaqları altına diyirlənən bütün bu başlar xəlifə Əminin bir-birinin dalınca məğlubiyyətə uğrayan ən məşhur komandanlarının başları idi...

...Nəhayət, Tahir ibn Hüseyn getdi öz qoşunları ilə Bağdad qapılarına qondu və sonra şəhər küçələrindəki qanlı döyüşlər qurtaranda, ordan – Bağdaddan bura, Mərvə Məmunun hüzuruna axırıncı qanlı bir sovqat daha göndərdi ki, bu Məmunun kiçik qardaşı və Abbasilərin altıncı xəlifəsi Əminin kəsilmiş başı idi.

Beləliklə, dörd il davam edən qanlı savaşdan sonra Xorasan seyidlərinin qılıncı Məmunu Abbasilərin yeddinci xəlifəsi kimi taxta çıxartdı və doqquz il vəliəhd Məmunun iqamətgahı olan Mərv indi xəlifə Məmunun paytaxtına çevrildi. Bağdad isə xilafətin Məşriq ucqarındakı bir Əcəm şəhərindən gələn xəlifə fərmanlarına boyun əyməli oldu...

"Tarixi eskizlər" dəftərindən:

(Alman şairi Şiller tarixi məqalələrinin birində qeyd edir ki, "Xəlifə Ömərin elmdən qarət etdiyini Xəlifə Məmun elmə qaytardı". Şiller bu qeydində məşhur İskəndəriyyə kitabxanasının xəlifə Ömərin əmrilə yandırıldığını və xəlifə Məmunun əmrilə yunan filosoflarının ərəb dilinə tərcümə edilməsini nəzərdə tutur.)

Şübhəsiz Xəlifə Məmun ziyalı bir hökmdar idi və xilafətin ən məşhur alimlərini sarayına dəvət eləmişdi və Məmun ehtiraslı şətrəncçi, yaxud şahmat həvəskarı idi. Orta Asiyalı məşhur şahmatçı Rəb-rəbi sarayına gətirdərək tez-tez hüzurunda şahmat yarışları keçirərdi. Və özünün bu oyundakı uğursuzluğunu hökmdarlığının əzəməti ilə qarşılaşdıraraq tarixə belə bir cümlə bəxş eləmişdi ki, çox təəccüblü işdir ki, mən məşriq səmtində hinddən başlamış Məğrib səmtində Əndəlusə kimi, az qala dünyanın yarısına hökm edirəm. Amma eni ilə uzunu bir iki qarışdan ibarət olan bu taxta üstündəki otuz iki daşın öhdəsindən gələ bilmirəm".



Və daha artıq fəlsəfə həvəskarı olan Məmun yenə burda, Mərvdə əqli ümman Rum alimi Aristoteli röyasında görmüşdü və röyada ondan sual eləmişdi ki, "Xeyir və yaxşılıq nədən ibarətdir?". Aristotel cavab vermişdi ki, "Dini əqidə nə deyirsə ondan ibarətdir". Məmun təkrar *sual eləmişdi ki, "Daha nədən ibarətdir?".* Aristotel cavab vermişdi ki, "Kütlə və izdiham üçün nədirsə ondan ibarətdir". Məmun üçüncü dəfə sual eləmişdi ki, "Və daha nədən ibarətdir?". Rum alimi cavab vermişdi ki, "Və daha heç bir şeydən ibarət deyil" və bu röyadan sonra Məmunun əmrilə Aristotelin, Əflatunun və digər qədim yunan filosoflarının əsərləri ərəb dilinə tərcümə olunmağa başlanmışdı.

Və həmin bu illər ərzində xilafəti iki qardaş – Məşriqdə Məmunun xorasanlı vəziri Fəzl ibn Səhl, Məğribdə isə vəzirin kiçik qardaşı

Həsən ibn Səhl idarə edərək, xəlifəni fəlsəfi məşğuliyyətlərindən ayırmamışdılar.

Nəhayət, Xorasanlı şiyə vəzirinin məsləhəti və təkidi ilə Məmun "yaşıl inqilabı"nda son və qəti addımı atmış, şiyələrin səkkizinci imamı Əli ibn Musanı uzaq Mədinədən çağırıb Mərvə gətirmiş və özünə vəliəhd təyin edərək "İmam Rza" fəxri ləqəbilə şərəfləndirmişdi.

Vəliəhd təyin edilmiş İmam Rza isə dərhal xilafətin bütün əyalətlərinə və şəhərlərinə məktublar göndərərək bütün şiyə təbəqələrinə elan eləmişdi ki, Məmundan sonra xəlifəlik taxt-tacı bizimdir, birinci mənimdir, məndən sonra oğlumundur və oğlumdan sonra onun oğlunundu. Ta qiyamətə kimi...

...Lakin imam çox tələsmişdi və elə bu zaman Məmunun "yaşıl inqilabı"nın zirvə dalğası uzaq Bağdadda kükrəyib şahə qalxan "Qara dalğaya" çarparaq geri atıldı.

Hican şəhəri abbasilərin qara bayrağı altında ayağa qalxdı. Mərvin itaətindən çıxdı və "yaşıl inqilabı" rədd elədi, amma Məmunun bundan xəbəri olmadı.

Sonra Bağdad qılınca əl atdı. Məmunun xorasanlı vəzirinin qardaşı İraq valisini qoşunları ilə bərabər qovub şəhərdən çıxartdı. Amma Məmunun bundan xəbəri olmadı.

Və nəhayət, qiyamçı Bağdad uzaq Mərvdə oturmuş Məmunu xəlifəlikdən çıxardığını elan elədi və onun yerinə əmisi İbrahim ibn Həmidi yeni xəlifə kimi Bağdadda taxtda oturtdu və bu bütün xilafətdə

xəbəri olmadı. Ona görə xəbəri olmadı ki, aylardan bəri biri-birini izləyən bu qorxunc hadisələri xorasanlı vəziri Məmundan gizli saxlamışdı. Ümid eləmişdi ki, İraq valisi olan kiçik qardaşı gec-tez Bağdadda asayişi bərpa edəcəkdir və o vaxt o Məmuna deyəcəkdi ki, Dəclə sahillərində bir balaca şuluxluq olmuşdu, cənabınıza ərz etməyə dəyməzdi.

Məmun isə bunlardan o vaxt xəbər tutdu ki, artıq iş işdən keçmişdi və indi o ikinci dəfə Hican şəhəri Bağdadı ram etmək üçün birdəfəlik Mərvə əlvida edərək, bütün sarayı və saray qvardiyası ilə özü Bağdadın üstünə getməyi qət elədi...

## 2

...Qapı yerindən qırmızı çiçəkli çin dibacıncan[1] pərdə asılmışdı və bu pərdə azacıq titrəyib tərpənəndən sonra pərdə arxasından çıxan Məmunun mülazimi[2], sadiq sirdaşı və yediyini-içdiyini onun əlindən aldığı lələsi Sirac içəri gəldi və dedi:

- Səfər hazırlığı tamamdır, ya Əmirəlmöminin, qoşunun pişdarlar[3] dəstəsi hərəkət elədi. Kitabların da altmış dəvəyə yüklənib qurtardı. Və bütün sandıqlar üstünə işarə vurulub, yolda hansı kitabı istəsən, katiblər fərən[4] hüzuruna gətirəcəklər. Çaparlar da yola düşdülər ki, Sərəks, Tus, Rey, Kürgan və Hamadan valiləri istiqbal üçün hazır olsunlar və indi ancaq vəliəhd ilə vəzir yatmayıb, hər ikisi əmrə müntəzirdir.

Məmun başını qaldırmadan dedi:

– Gecə hamilədir və sənin oyaq qalmağın kifayətdir.

– Bəs onlar ya əmirəlmöminin, – dedi Sirac, – o dörd nəfər kafir ki, bu saat zirzəmidə biri gəbərdi, altı nəfəri qaradaşla qumar oynayırlar.

Məmun başını qaldırdı:

– Qumar oynayırlar?

– Əlbəttə ki, nisyə, ya əmirəlmöminin o mələkləri ki, sənin adından onlara vəd eləmişəm, indidən qumara qoyublar öz aralarında...

---

[1] İpəyindən

[2] Nökəri

[3] Əsas hissənin təhlükəsizliyini təmin edən kəşfiyyat dəstəsi.

[4] Dərhal



– Nəqd ya nisyə, – dedi Məmun, – o kəski hər gün həyatı ilə qumar oynayıb, gərək davam elətdirsin bu oyunu axıra qədər... Və apar o manqalı, daha lazım deyil!

Salonun o biri başında qızıl manqal içində yandırılan ud içərini çox qəliz rayihə ilə doldurmuşdu. Sirac getdi manqalı götürdü və çəkildi pərdə arxasında yox oldu...

...Bu gün Məmun yalnız bir nəfəri qəbul eləmişdi, daha doğrusu boynu qızıl çəlipalı[1] qoca Qavril ki, ərəbləşmiş adı Cəbrayıl ibn Bəhşu idi. Özü səhər tezdən qoltuğunda üstü qızıl naxışlı qara mücrüsü ilə yataqdan təzəcə qalxmış Məmunun hüzuruna gəlmişdi və xəlifənin gözlərinə qan sağıldığını görüb çox həyəcanlanmışdı.

Və indiki kimi burda qara atlas döşəkçə üstündə bardaş qurub oturmuş Məmun qocaya demişdi:

– İşində ol ya Cəbrayıl. Sonra bəlkə bir az söhbət elədik.

Qoca təbibin hər günkü ən birinci işi bu olurdu ki, diz çöküb xəlifənin qarşısında oturardı və əlindəki nazik qızıl çubuğun ucunu qara mücrü içindəki göyümtül-qara maddəyə batırıb çıxardaraq Məmunun zil qara gözlərinə sürmə çəkməyə başlayırdı.

Zamanın təbiətinə görə qızıl çubuqla gözə çəkilən sürmə gözün işıltısını və görmə qüvvəsini artırırdı və eyni zamanda gözləri şəbkorluq kimi xəstəliklərdən qoruyub sağlam saxlayırdı.

Məmun isə ehtiraslı mütaliəçi idi. Çox oxuyurdu və gözlərini çox yorurdu.

İcazəsiz olaraq xəlifənin hüzurunda heç kəs birinci sözə başlaya bilməzdi, amma Məmun çoxdan qoca təbibini saray təşrifatının bu yasağından azad elədiyi üçün Cəbrail ibn Bəhşu bir az kənarda bir yarısı rəhlin sağ qanadı, o biri yarısı rəhlin sol qanadı üstünə sərilmiş qalın bir kitaba tərəf baxdı və qayğıkeşliklə dedi:

– Bu gecə yenə çox mütaliə eləmisiz ya əmirəlmöminin və mübarək gözlərinizi çox yormusunuz.

Rəhil üstündə açıq qalmış kitab Aristotelin "Ərğanun" əsəri idi ki, ərəbcə tərcüməsi "Kitab-məntiq" adlandırılmışdı və xəlifə dedi:

– Təşvişə düşmə ya Cəbrayıl, zamani ki, gözlərimiz bizə çox cəza verir sən gəlirsən, çarəsin qılırsan... Amma beynimizi didən, elə fikirlər var ki, gecələr bizə sirli röyalar göstərir və o röyaların heç birini təbir etmək mümkün deyil...

---

[1] Çəlipa – xaç

– Elədir, ya həzrət, – dedi qoca təbib, – beynimiz çox uzaqdakı ulduzlar dünyasına nüfuz etdiyi halda çox yaxında öz içində cərəyan edən hadisələr haqqında bizə heç bir şey deyə bilmir.

– Elə isə Sokratın kəlamı həqiqətdir ki, bizim bildiyimiz bir şey varsa, o da heç bir şeyi bilmədiyimizdir.

– Amma biz çox biləndən sonra, ya əmirəlmöminin, ən uca səviyyədə heç bir şey bilmədiyimizi dərk edərik.

Məmun gülümsündü. Özü kimi baş təbib də fəlsəfə və şətrənc həvəskarı idi və xəlifə başını sola tərəf çevirdi, ancaq miz üstündə şahmat taxtasını əvəz edən qırmızı qumac dərinin ağ və qara xanələrinə düzülmüş şahmat fiqurlarına yanakı bir nəzər saldı, qoca təbib isə dərhal başa düşdü ki, şahmat xəlifəni mücərrədlik buludlarından çəkib aşağı salır, konkret və ehtiraslı bir oyuna dəvət edir və qoca dərhal alçaq mizi irəli çəkdi, xəlifə ilə özü arasında yerləşdirdi və təbiidir ki, nəzakətlə ağ "daşları" və birinci gedişi xəlifənin ixtiyarına verdi.

Məmun sağdan dördüncü ağ piyadəni bir xanə irəli sürdü və dedi:

– Budur göylərdən yerə endi ya Cəbrayıl. Və fikri göydən yerə salan sərsərilikdən və pərakəndəlikdən dartıb yalnız bir nöqtəyə bənd elədin. Amma sabah doqquz ildən bəri iqamətgahım olan bu şəhərdən əbədi olaraq ayrıldığım üçün əlbəttə ki, mən çox təəssüf edirəm.

– İndi ki, sabah köçdür, ya həzrət, bu axırıncı günü şadlıq məclisi qursaydınız əlbəttə ki, fikriniz bir az dağılardı və könlünüz açılardı.

– Haşa, – dedi Məmun, – bu gündən başlayaraq ta ayağımız Bağdad torpağına dəyənə kimi əmirəlmöminin Məmun xəlifə Məmuna eyş-işrət məclislərini yasaq buyurmuşdur və xəlifə Məmun Əmirəlmömin Məmunun yasaqlarını həmişə qəbul eləmişdir.

– Və həqiqətən, – dedi qoca təbib, – Əmirəlmöminin Məmunun hər bir tədbiri çox uzaqgörənliyi ilə həmişə bizi sələmətlik sahillərinə doğru aparmışdır.

Məmun qocanın qırmızı turmac üstündəki növbəti gedişinə baxdı və cavab gedişi ilə eyni zamanda dedi:

– Bağdaddakı oğlundan sənə məktub gəlmişdir Ya Cəbrayıl və əlbət ki, oğlun o şəhərdəki qilü-qal haqqında Ruma dilində sənə bir çox şeyləri nəql eləmişdir.

Qocanın növbəti gedişi üçün uzanmış əli qırmızı tumac üstündə asılıb qaldı. Sonra bir an susub dinmədiyi özünə çox göründü, şahmat taxtasında növbəti gedişi yubatmaq olardı, amma xəlifənin sualına cavabı yubatmağa heç kəs cəsarət edə bilməzdi. Və qoca dedi:



– Ya Əmirəlmöminin oğluma rəhm elə ki, hələ çox cavandır və o, Bağdad küçələrində qaynaşan izdihamın, xüsusilə Bağdad ləşgərinin ağzından çıxan nə varsa hamısını mənə xəbər verdiyi, eşitdiyini təkrar elədiyi üçün böyük günah işlədiyini qanmamışdır. Və mən oğlumun əlimi yandıran o son məktubunu oda atıb yandırdım...

– Bilirəm yandırmısan, – dedi Məmun, – amma nəql küfr deyil və boynundakı bu çəlipaya and iç ki, oğlunun sənə yazdığı ən qəliz ibarələri belə bir-bir rumi dilindən ərəb dilinə tərcümə edərək, mənə söyləməlisən.

– Siz Əmirəlmömininindən sonra ya həzrət, bu çəlipaya and içməyə ehtiyac varmı?

– Amma yenə də and iç, çox sevdiyin o kəlam, rum filosofunun o kəlamı yadından çıxıb ki, sus və yaxud elə bir şey de ki, sükutundan yaxşı olsun?

Xəlifə ikinci dəfə təbibindən and içməsini istəmişdisə bu artıq əmr idi və qoca başını aşağı salıb səsini qısaraq oğlunun yazdıqlarını ərəbcəyə tərcümə elədikcə Bağdad gəlirdi aşağıda Məmunun pəncərəsi altında dayanırdı və qəzəbli hayqırtısı dağlardakı əks səda kimi Məmunun qulaqlarında guruldayırdı.

– ...Bağdadın azğın izdihamı və o izdihama səs verən Bağdad ləşgəri küçələrdə bağırışır ki, xəlifə Məmun bizim boğazımızdan kəsib atəşpərəst oğlu xorasanlı vəzirinin maaşını qaldırdı, ildə min dəfə, üç min dirhəm elədi, halbuki, Abbasilərin tarixində heç bir vəzir xəzinəni bu qədər qarət eləməmişdi!..

Min dəfə üç min – üç milyon eləyirdi, amma o vaxt milyon termini hələ ixtira edilməmişdi və: – Bu doğru sözdür, ya Cəbrayıl, – dedi Məmun, – sonra?

– Sonra yenə azğın Bağdad ləşgəri bağırırmış ki, Məmunun atası Harun ər-rəşid dövründə olduğu kimi xilafəti xorasanlı vəzir Cəfər Bərməki ilə qardaşı Həsən ibn Səhl idarə eləyirlər. Məmunun isə şətrənc oyunundan başı ayılmır və gündə beş dəfə namaz üçün ayağa qalxmır və quran qiraət etməyi unudub. Rum alimlərinin küfr ilə dolu kitablarını mütaliə eləyir və Allahın bizim əynimizə geydirdiyi qara libası bizim əynimizdən çıxardıb, şiyələr kimi yaşıl geyməyi bizə əmr eləyir...

– Bunun da yarısı doğrudur, ya Cəbrayıl, yarısı iftiradır. Ardını söylə.

– Və ardınca Bağdad ləşgəri yenə bağırırmış ki, Məmun xorasanlı vəzirinin fitnəsilə şiyə imamını vəliəhd təyin eləmişdir. Və bir xəlifə

ki, gələcək hakimiyyəti öz nəsli, Abbasilərin əlindən alır və şiyə imamlarına təslim edir, əlbəttə ki, o xəlifənin zatı şübhəlidir və biz o xəlifənin xəyanətini istəmirik.

Qocanın alnını tər basmışdı. Məmunun rəngi qaçmışdı. Lakin Məmun iti zəkasilə Bağdad ləşgərinin bütün bu qafil bağırtıları içərisindən baş qaldıran qorxunu dərhal fəhm elədi. Bağdaddakı qoşun başçılarından bir çoxlarının əllərində Əli şiyələrinin qanı vardı və əgər gələcəkdə hakimiyyət Abbasilərdən şiyə imamlarının əlinə keçərdisə, şiyələr əlbəttə ki, tezliklə amansız düşmənlərindən daha amansızcasına bir qisas alacaqdılar və xəlifə sakit bir səslə dedi:

Daha sonra ya Cəbrayıl?

Daha sonra, ya Əmirəlmöminin, əmr eləyin kəsilsin bu lal olmuş dilim ki, bu qədər küfri təkrar elədi və məni bu qədər sizin qarşınızda xar elədi...

Sakit ol və tamam, – dedi Məmun və növbəti gedişində qırmızı tumac üstündəki ağ vəzirini qara piyadəsinin zərbəsi altına verdi.

Qoca təbib bu ağır və təhlükəli sorğu-sualın qurtardığına və bir şahmat həvəskarı kimi rəqibinin bu müdhiş səhvinə o qədər sevindi ki, qeyri-ixtiyari olaraq dərhal əlini uzatdı ki, qara piyadəsilə xəlifənin ağ vəzirini qətl eləsin. Amma birdən diksindi, barmaqları oda toxunmuş kimi əlini geri çəkdi və başını qaldırıb məzlum bir ifadə ilə Məmunun qara işıltı ilə yanan gözlərinə baxdı.

Qocanın vaxtaşırı xəlifə ilə oynadığı şahmat partiyaları əslində heç vaxt tamamlanmayan bir oyunun hərdənbir və ya digər variantından ibarət olurdu, çünki Məmun şətrənc oynadığı üç nəfərin hər birinə, vəzirinə, vəliəhdinə və saray təbibinə qəsdən uduzmağı yasaq eləmişdi. Özü isə bir qayda olaraq oyunu axıra çatdırmırdı və həmişə partiyanı yarımçıq qoyub ayağa qalxırdı və indi qoca xəlifənin bu müdhiş səhvindən istifadə edərək, şahanə rəqibini məğlubiyyətə uğratmaq istəsəydi bu ehtiyatsızlığı ilə özü daha müdhiş bir səhvə yol vermiş olardı, buna görə idi ki, qoca özünü itirdi, nə edəcəyini bilmədi və dedi:

– Ya Əmirəlmöminin, növbəti gediş üçün mən çox düşünməliyəm və icazənizlə sizdən möhlət istəyirəm.

– Əlbəttə ki, çox düşünməyə və möhlət istəməyə ixtiyarın var, ya Cəbrayıl, – dedi Məmun, – çünki bu möcüzəli oyunda ən kiçik səhvimiz bizə çox baha tamam olur. Necə ki, təbabətdə ən kiçik səhvimiz bizə baha tamam olur və necə ki, siyasətdə ən kiçik səhvimiz bizə baha başa gəlir. Əgər mənim mərhum atam Bərməki vəzirlərin ailəsini



məhv edib, sonra peşman olmuşdusa, məncə birinci səhv kifayətdir ki, atam onları məhv eləmişdi və ikinci səhvə ehtiyac yox idi. Sonra da peşman olduğunu elan elədi...

Qoca diqqət kəsildi. Vaxtilə Harunələşid bir gecədə bir vəzir ailəsini məhv edərkən gənc Məmun bu hadisədən çox pərişan olmuşdu, çünki Harun ər-rəşid vəziri Bərməkinin israr və təkidi ilə Məmunu ikinci vəliəhd təyin eləmişdi, amma indi xəlifə Məmun atasının sonra peşman olmasını da səhv hesab eləyirdisə bu sadəcə xəlifənin əhval-ruhiyyəsindəki bir ziddiyyətdən irəli gəlmirdi, bəlkə sabah Bağdada doğru başlanan uzun və sonu məchul bir yolun əvvəlində xəlifə Məmunun beynində kök salan nə isə başqa bir niyyətin əlaməti idi.

Məmunun isə üzü kölgələnmişdi, baxışları bilinməz bir nöqtəyə zillənmişdi və xəlifə indi tamamilə başqalaşmış bir səslə dedi:

– Hamısı o vaxtdan başlandı. Orda Məğribdə Cəfər Bərməkinin başı kəsiləndən sonra, burda Məşriqdə Xorasanın qaşları çatıldı və atamın sonrakı peşmanlığı baş verdi. O fəlakəti daha artıq aşkarladı. Və indi mənim kimi ya Cəbrayıl, sənin də o tarixi fəlakət qurbanını heç xatırladığın olurmu?

Və xəlifə cavab gözləməyərək ayağa qalxdı, qoca da dərhal ayağa qalxmaq istəyirdi ki, Məmun qoymadı:

Sən otur, ya Cəbrayıl, – dedi və keçdi pəncərə qarşısında dayandı.

Qoca oturduğu yerdə hərəkətsiz qaldı, çox uzun çəkən sükutun ağırlığı altında çiyinləri aşağı əyildi və getdikcə özü öz içində qərq oldu. Pəncərə qarşısındakı Xəlifə uzaqlaşdı dünyanın o başında dayandı. Amma cavabsız qalan sualı qocanın yaxasından yapışdı və qocanı dalınca çəkərək Murğab sahilindəki bir qış səhərindən Fəraq sahilində qalmış çox uzaq bir qış axşamına apardı...

## HEKAYƏ

Abbasilərin beşinci xəlifəsi Harun-ərrəşid öz qafilosi ilə növbəti Məkkə ziyarətindən təzəcə qayıtmışdı, amma Bağdada getməmişdi, Fərat çayı sahilindəki qəsrlərindən birində oturub qalmışdı. Xəlifənin burda üç gün, üç gecə üzü açılmadı, gülmədi, eyş-işrət məclisləri qurmadı, baş təbibinin nəzarəti altında açılan süfrələrdəki əlvan xörəklərə əl uzatmadı və qoca baş təbib dəfələrlə xəlifənin nəbzini yoxlamaq istədi, lakin xəlifə onu rədd elədi.

Bütün qəsr həyəcan və təlaş içində idi. Xəlifə hər gün beş dəfə namazını qılırdı, heç kəsi də hüzuruna çağırmırdı. Səfərləri zamanı özüylə bərabər gəzdirdiyi hərəmxanasına baş çəkmirdi. Hətta xilafətin birinci xanımı Zübeydə xatunla da görüşmürdü.

Nəhayət, dördüncü gün xəlifə öz dairəsindən çıxdı, uşaqlıq yoldaşı canbir-qəlbbir dostu, xilafətin dövlət möhürünü əlinə tapşırdığı və bir dəqiqə ayrılığına dözə bilmədiyi, özündən sonra xilafətdə ikinci şəxs mərtəbəsinə qaldırdığı Xorasanlı vəziri Cəfər Bərməkini hüzuruna çağırdı və yarım saatdan sonra xəlifə ilə vəziri başlarında bir alay süvarı ilə ova getdilər və axşam hava qaralanda ovdan qayıtdılar və qəsrdəki bütün saray adamları gördülər ki, xəlifə ilə Cəfər Bərməki atlarından yerə endilər və bir-birinin əlindən tutaraq ov alayı qarşısına gəlirlər.

Qəsr önündəki fəvvarəli çarhovuzu yanında Xəlifə Cəfər Bərməkini qucaqlayıb sinəsinə basdı və dedi:

Ya Cəfər, canıma və başıma and olsun ki, beləliklə bu axşam məclis qurub zövq etməlisən. Bəlkə mənə də öz məclisimdə zövq olmayacaq.

Sonra xəlifə döndü, qoca təbibinə də iltifat göstərdi:

Ya Cəbrayıl, – dedi, – səni də bu axşam hüzurumdan azad edirəm. Təki Cəfərin məclisində vaxtını xoş keçirəsən!

Hər ikisi xəlifəyə baş əydilər və xəlifənin əmrini yerinə yetirməyə, şadlıq məclisi qurub uzun qış gecəsini xoş keçirməyə getdilər.

Lakin qoca təbibin gözündən qaçmadı ki, xəlifənin öz vəzirinə və yaxud can-ciyərinə göstərdiyi bu axşamkı nəvaziş və mehribanlıqdan nədənsə Cəfər Bərməki bir az özünü itirmişdi və rəngi də bir az qaçmış kimi idi.

Qəsrin vəzir üçün ayrılmış dairəsində dərhal eyş-işrət üçün hazırlıq başlandı. Musiqiçilər, nəğməçilər, rəqqasələr – cariyələr bir-birinə dəydi və Cəfər Bərməki məclislərinin daimi iştirakçısı olan xorasanlı əyanlar qara kaftanlarını çıxardıb kimi ağ, kimi yaşıl geyindi.

...Xəlifəni isə öz dairəsinə qalxan kimi qızlar ağası qarşılamışdı və xəbər vermişdi ki, Zübeydə xatun bir saatdır axıtdığı göz yaşlarıyla şirin canına qəsd edir və cariyələri hələ də Seyidəni ovuda bilməyiblər.

Zübeydə xatun xəlifə Mənsurun nəvəsi və əmisi oğlu xəlifə Harun-ər-rəşidin baş hərəmi idi və Bağdad sarayının ifrat cah-cəlalı içində, xilafətin birinci xanımı kimi bir çox əyləncələri içində xüsusi yer tutan



kiçik və sevimli bir meymunu vardı ki, otuz nəfər səhər-axşam bu meymuna xidmət edərdi, dərzilər hər həftə meymun üçün yeni paltar biçirdi. Başmaqçılar günaşırı meymuna qırmızı və yaşıl papuc tikirdi və meymun zərli-zibalı əlbəsələr geyinirdi. Belindən qılınc asırdı. At minib gəzməyə çıxanda sağında və solunda 30 nəfər qulam at çapırdı...

Və o əyanlar ki, Zübeydə xatun onlara hamilik edərdi, hər dəfə saraya xilafətin xanımının görüşünə gələrkən əyilib o meymunun əlindən öpərdilər.

İndi bu axşam qəfildən fəlakət baş vermiş və cah-cəlala alışqanlığı, yaxud pərəstişə düşgünlüyü bədbəxt meymunu məhv eləmişdi – çünki səhradan, Fərat çayının o tayından bədəvi bir ərəb cəngavəri çapıb gəlmişdi, ovladığı ahunu xəlifəyə sovqat gətirmişdi. Xəlifə hələ ovdan qayıtmadığı üçün Zübeydə xatun Bədəvini hüzuruna çağırtmışdı. Amma qapı ağzında beli qılınclı, əlbəsələri zər-zibalı meymun bədəvi cəngavərin qabağın kəsib qapqara balaca əlini uzatmışdı ki, bədəvi cəngavər əvvəlcə onun əlini öpüb sonra içəri girsin. Və bir anda hər şey qurtarmışdı – məğrur səhra oğlunun qan beyninə vurmuşdu. Bir göz qırpımında qılıncı sıyırmışdı və bədbəxt meymunu tən ortasından iki yerə bölmüşdü. Qəsrdə vəlvələ qopmuşdu. Zübeydə xatun qəşş eləmişdi və bədəvi cəngavəri qapalı bir otağa salmışdı ki, ovdan qayıdan xəlifə hökmünü versin!

...Dustağı ovdan qayıtmış xəlifənin hüzuruna gətirdilər və Bədəvi xəlifənin hüzurunda yeri öpüb ayağa qalxdı və Harun ər-rəşid başını qaldırıb:

– Ey ərəblərin ən vəhşisi, – dedi, – Qəbih hərəkətini doğrultmaq üçün bir sözün varmı?

Səhra oğlu xəlifənin sualına sual ilə cavab verdi:

– Ya əmirəlmöminin, – dedi, – bir dəfə sənin əlini öpmək şərəfinə nail olan bir şəxsin sonra bir meymunun qapqara əlini öpməsini istərdinmi? Səni bilmirəm ya əmirəlmöminin, amma mən heç vaxt belə bir hərəkəti qəbul edə bilməzdim.

Xəlifə təngişmiş halda "kişi" deyib çıxdı və əlini çırparaq bədəvi cəngavəri hüzurundan rədd elədi.

...Bu vaxt vəzirin məclisi isə cəm olmuşdu. Birinci piyalələr dolub-boşalmışdı. Və indi o kor nəğməçi ki, həmişə vəzirin məclislərində hazır olurdu, uzun və nazik barmaqlarıyla əmudun simlərini darayaraq oxumağa başlamışdı. Və Cəfər Bərməkinin məclisində yenə ərəbi boğaz səsini fars dilinin musiqisi əvəz eləmişdi.

Məclisdə qoca təbib də iştirak elədiyi üçün salonu iki yerə bölən sırapərdə sıyrılmamışdı. Və kor nəğməçi susanda vəzirin o pərdə arxasındakı dilrüba cariyələri çəng və tənbur çalaraq rəqs edirdilər. Məclis onların yalnız pərdə üstündə uçuşan qızıl bilərzikli ağ göyərçin əllərinə tamaşa edirdi...

Vaxtilə xəlifənin öz sevimli vəzirinə bağışladığı iki qul isə hər beş dəqiqədən bir süfrəyə yeni-yeni əlvan yeməklər düzür, boşalan piyalələri doldurur və bucaqdakı manqalın atəşi üstünə məxmur[1] atdıqca bütün ətrafı od üstündən qalxan xoş bir rayihə bürüyürdü. Lakin yenə də bu şadlıq məclisində heç kəsin könlü açılmırdı. Bəlağətilə məşhur olan məclis sahibi isə susqun bir halda fikir dəryasına qərq olmuşdu. Kor nəğməçi Vəli Nemətinin[2] – vəzirin ruhu halətini hamıdan artıq hiss edirdi və bir aralıq dedi:

Ya vəzir, ürəyim hiss edir ki, çox məlulsan, aya səbəb nadir ki, əmirəlmöminin səni bunca əziz tutduğu halda bu şadlıq məclisində könlün açılmır?

– Ya Əbu Zəkəriyyə, – dedi Cəfər Bərməki çox yavaşdan, – əmrə tabe olub şadlıq məclisi qurmaq olar. Amma əmr ilə könül şad olmur və nə əqlin, nə məntiqin dəlili ilə pərişanlığa qapılmış ürək ovunmur. Çünki bizi gözləyən fəlakətdən qəlbimiz, ürəyimiz ağlımızdan tez xəbər tutur...

Bu zaman xəlifənin göndərdiyi bir qulam Cəfər Bərməkinin süfrəsinə xəlifənin süfrəsindən gətirilmiş noğul və şəkər qoydu, sonra baş alıb getdi.

Bu xəlifə tərəfindən yenə yalnız öz vəzirinə göstərilən xüsusi bir iltifat idi. Amma qoca təbibin yenə gözündən yayınmadı ki, noğul və şəkər süfrəyə qoyularkən və məclisdən "Allah xəlifənin ömrünü uzun eləsin" nidaları ucalarkən, Cəfər Bərməkinin rəngi bir az daha artıq qaçmışdı. Kor nəğməçi isə yenidən ilhama gəldi və "gözəl zeynəblər" silsiləsindən ərəbcə bir şərqi oxudu, sonra yenə piyalələr Gəncə ulduzunun şərabı ilə dolub boşaldı.

Və bir azdan xəlifənin göndərdiyi ikinci qulam bu dəfə vəzirin süfrəsinə gümüş sinidə Girman xurması gətirdi və birinci qulam kimi baş əyib getdi və bu dəfə qoca təbibin də ürəyində nə isə anlaşılmaz bir təlaş baş qaldırdı...

---

[1] Kökü ətirli ot

[2] Ona çörək verənin



Daha sonra Harunəlrəşidin göndərdiyi üçüncü qulam xəlifənin qış süfrəsi üçün xüsusi qalaylı qablarda saxlanan bir Fərqanə qovunu gətirdi və ikinci qulam kimi baş əyib getdi. Cəfər Bərməkinin süfrəsinə göndərilən bu Fərqanə qovunu doğrudan da şahanə bir nemət idi.

...Xəlifə ilə baş hərəmi Zübeydə xatun xidmətçini, yaxud baş qazini bir yerdə, yan-yana salınmış qoşa səccadələr üzərində gördülər və onlar iki rükət namaz qılıb qurtarmışdılar. İndi hər ikisi dizləri üstə yan-yana oturmuşdular, fikrə getmişdilər və susmuşdular, qarşılarında isə heç bir təam süfrəsi yoxdu, vəzirin süfrəsinə göndərilən paylar xəlifənin tapşırığı ilə xəyalı bir süfrədən göndərilən paylar idi...

Zübeydə xatun xəlifə ərinin azğın eyş-işrət məclislərində əlbəttə ki, iştirak edə bilməzdi və incimirdi. Lakin o ərinin məhrəm, ailəvi məclislərindən də qaçınırdı. Çünki Harun ər-rəşid hərdən süfrə başında oturarkən yanında Cəfər Bərməkini görməsəydi yediyi-içdiyi boğazından keçmirdi. Zübeydə isə Cəfər Bərməkiyə nifrət edərdi. Ərinin vəzirinə qarşı bu hörmətinə, vurğunluğuna bəlkə də dözə bilərdi. Lakin Cəfər Bərməkinin təkidi ilə Harun ər-rəşid böyük oğlu Məmunu da özünə ikinci vəliəhd təyin edəndə, Zübeydənin ürəyində alışıb-yanan kin odu, artıq o gündən qurban istəyirdi, qan istəyirdi. Və indi axşam ağlayışından gözləri qızarmış Zübeydə xatun başını çevirdi, ərinə baxdı və dedi:

– Sənin və mənim babam xəlifə Mənsur görəndə ki, Əbu Müslüm Xorasani dövlət üçün çox təhlükəlidir, tərəddüd eləmədi ki, o şəxsin dövlət qarşısında çox böyük xidmətləri də var...

Harun ər-rəşid sağ əlilə ensiz alnını ovuşduraraq dedi:

– Və üç gündür mən ancaq qoca haqqında düşünürəm, uşaqlıqdan mən ona – Yəhya Bərməkiyə ata demişəm və iyirmi il o qoca mənim vəzirim olub, xilafəti idarə eləyib – əgər onun da qətlinə fərman versəm, məgər Allaha xoş gedərmi?..

– Vacib deyil ki, qocanı da qətl etdirəsən, – dedi Zübeydə. – Qoca indi dişsiz bir ilandır, ömrünün qalanını zindanda qalmalıdır. Amma ilan balaları Cəfər Bərməki və qardaşları salamət qalsalar oğlunun və oğlumun – birinci vəliəhd Əminin başına gələcəkdə bəla açacaqlar və Moracildən, o cariyədən olan böyük oğlun Məmunu taxta çıxardacaqlar.

Harun ər-rəşid üz-gözünü turşutdu, çünki özü də cariyə oğlu idi və Xorasanlı qızı – cariyəsi Moracildən olan böyük oğlu Məmunun xəlifəliyə daha artıq layiq olduğu qənaətində idi.

Qarşıda qapı yerindən asılmış və üstündə qızıl hərflərlə quran ayələri yazılmış pərdə azacıq tərpəndi və o pərdə arxasında kimin dayandığı hər ikisinə məlum idi və hardansa xoruzların ikinci banı başlamışdı. Pərdə arxasındakı müdhiş kölgə pərdəni tərpətməklə xəlifəyə vaxtın gəlib çatdığını xəbər verirdi və Harun ər-rəşid döndü Zübeydə xatuna əmr elədi ki:

– Vaxtdır, sən dur get!

Həmişə cariyələrinin köməyi ilə oturub qalxan Zübeydə xatun çox böyük bir çətinliklə çox ağır gövdəsini yerdən qaldırdı və çəpəki baxışlarını güclə ərinin üzündən qopardaraq hərəm dairəsinə getdi.

...Cəfər Bərməkinin eyş-işrət məclisi isə davam edirdi, bir eyş-işrət məclisi ki, hamı səksəkəli idi və hamı bu şadlıq məclisinin bir an tez sona çatmasını səbirsizliklə gözləyirdi. Lakin məclis sahibindən izinsiz heç kəs ayağa dura bilməzdi. Məclis sahibi isə xəlifənin əmrilə qurduğu bu məclisi öz başına dağıda bilməzdi. Çünki bilirdi ki, xəlifənin qulamlarından yenə kimsə gələcəkdir və yenə qolları üstə onun süfrəsinə pay gətirəcəklər və bununla da xəlifə ona məclisi davam etdirməyi əmr etmiş olacaqdı...

Və indiki məclisə bir an sükut çökəndə bu sükut məclisi elə bir vahimə ilə çulğalayırdı ki, dərhal hər tərəfdən kor nəğməçidən oxumasını xahiş edirdilər və kor nəğməçi də indi Əbu Nəvasın şerinə bəstələnmiş o mahnını oxumağa başlamışdı ki, göydəki ay para gümüş bir orağa çevrilmişdi və bu gümüş oraq göydəki zülmət çiçəkləri, nərgiz gözlü ulduzları biçirdi...

Və bu zaman nəhayət, o gəldi, salamsız-kəlamsız içəri girdi və dinməz-söyləməz qara heykəl kimi qapı ağzında ayaq üstə dayandı. Səssiz içəri girib qapı ağzında duranın kim olduğunu dərhal kor nəğməçi də hiss elədi, səsi sındı, ayağı altına töküldü, başı əyildi, sinəsinə düşdü və məclisə çökən bu məşum səssizlik içində sarı pərdə arxasından gənc bir cariyənin hıçqırtısı eşidildi.

Qapı ağzında dayanmış çalması və kaftanı qapqara, amma ayaqlarındakı yarım boğaz məstləri rum imperatorunun çəkmələri kimi qıpqırmızı olan adam xəlifənin xadimi, yavəri və saray cəlladı Məsrur idi. Məsrur iri vücuduna yaraşmayan qadın səsilə yavaşdan dedi:

– Ya Cəfər, özün başa düşürsən ki, məni kim göndərib və yubandırma məni, qalx ayağa gedək!

Cəfər Bərməki ayağa qalxdı və dedi:



– Ya Məsrur, sənə and verirəm haqq-salamımıza, məni əvvəlcə Əmirəlmöminin hüzuruna apar, çox güman ki, bu saat məstdir – sonra ayılanda peşman olar.

Məsrurun dodaqları qaçdı, sarı və iri dişləri bir an açıqda qaldı.

– Cəfər, – dedi, – Əmirəlmöminin necə məst ola bilər ki, üç gündür nə ağzına bir loğma təam almışdır, nə də əngini meyə bulaşdırmışdır? Məgər ki, onun əmrilə qulamlar mətbəxdən gətirdilər bu payları sənə...

Məsrur qurbanını qəsrin alt qatındakı zirzəmiyə gətirəndə Cəfər Bərməki barmaqlarındakı üç üzüyü bir-bir çıxardıb cəlladına verdi ki, heç olmasa Məsrur özü xəlifənin hüzuruna getsin və xəlifəyə bircə bunu desin ki, Cəfəri gətirmişəm və Cəfər indi zirzəmidədir.

Ovcuna qoyulmuş üzük qaşlarının parıltısı cəlladın gözlərini qamaşdırdı, bu üzüklərin hər biri bir əyalətin xərac vergisindən daha artıq gələn bir varidata bərabərdi və yalnız xəlifənin barmaqlarında bu üzüklərə tay üzüklər vardı və Məsrur başını qoltuğuna alaraq xəlifənin hüzuruna getdi və ərz elədi ki:

– Cəfəri gətirdim ya Əmirəlmöminin, aşağı qatda zirzəmidədir.

Xəlifə heyrətlə cəlladının üzünə baxdı və dedi:

– Mən sənə, – dedi, – Cəfərin başını gətir demişəm, özün yox. Ya Məsrur yoxsa qocalıb xərifləmisən və yainki qulaqların ağır eşidir?

Məsrurun rəngi qaçdı və dönüb gedərkən cəllad bir halda idi ki, tez-tez ayaqları bir-birinə dolaşırdı...

...Məsrur gəlib vəziri aparandan sonra məclis dərhal dağılmışdı və indi içəridə yalnız iki nəfər – qoca təbib ilə kor nəğməçi hələ oturduqları yerdə donub qalmışdılar və kor nəğməçi hiss edirdi ki, indi məclisdə özündən başqa təkcə bir nəfər qalmışdır. Amma heç birinin artıq öz aralarında danışılası sözü qalmamışdı. Kor nəğməçi yenidən əmudu əlinə aldı, yenə simləri barmaqlarıyla daraqladı və şamları əriyib qurtaran boş məclisdə təkcə bir zəngulə vurdu ki, zaman ki, ecəl pəncəsini sinən üstə qoyacaq, o dəm ağlayacaqsan ki, bu dünyada sənə ən yaxın olan bu son həmişə səni aldadırdı ki, hələ çox uzaqdadır...

Sonra kor müğənni çığırıb susanda, xəlifənin qulamlarından dördüncüsü gəldi və qoca təbibi xəlifənin hüzuruna çağırdı...

Xəlifə bardaş qurub qara örtüklü məsnəd üstündə oturmuşdu. Qarşısında gümüş bir teşt vardı və o teştin içində kəsilmiş bir baş vardı və xəlifə dalğın bir halda əlindəki nazik çubuqla Cəfər Bərməkinin kəsilmiş başının qabarıq və uca alnında görünməz cizgilərlə nə isə yazırdı. Sonra pozurdu.

Qoca təbib içəri girib baş əyəndə, xəlifə başını qaldırmadı, qoca döndü, qapı yerindən asılmış ipək pərdə önündə hərəkətsiz qaldı. İzin verilməmiş danışa bilməzdi və danışılası bir sözü də yoxdu və əvəzində xəlifə danışırdı. Məhbubu, gözünün nuru, gözəl çöhrəli, uca alınlı Cəfər Bərməkinin kəsilmiş başı ilə söhbət edirdi:

– Niyə susmusan, ya Cəfər, – deyirdi, – vay olsun sənə ey əcəmlərin ən yaxşısı, necə ki, vay oldu. Mən gizli kəbin kəsdirib sevgili bacım Abbasəni sənə zövcə elədim ki, hər axşam ən məhrəm məclisdə bir sən olasan, bir də bacım – çünki heç birinizin fərağına dözə bilməzdim... Amma sən niyə şiyəlik eşqini ürəyindən çıxartmadın. Libasları ağ, ürəkləri qara şiyələri məclisdən qovmadın...

Xəlifə birdən başını qaldırdı, qaşların çatıb qoca təbibə baxdı və dedi:

– Baxırsan və ağlayırsan ya Cəbrayıl? Və buna ağlayırsan, mənə yox?

Qocanın boğazı qurudu:

– Baxıram, amma ağlamıram, ya Əmirəlmöminin və Allah sizin bir ömrünüzü uzun eləsin.

Elədir, gözlərin qupqurudur. Amma ürəyin ağlayır, çünki öz xəlifələrindən daha səxavətli olan bərməkilər ayda-ildə bir dəfə bərk xəstələri üstə çağırdılar, ya çağırmadılar, fərqi yoxdu, hər il sənə min təzmin[1] dirhəm ehsan edirdilər və indi ki, qoca zindandadır, oğulları o biri dünyada, əlbəttə ki, sənə çox böyük zülm oldu.

– Ya əmirəlmöminin, – dedi qoca, – hər il sizin mənə ehsan elədiyiniz...

– Sus, – dedi xəlifə və qoltuğundan çıxartdığı qara bir məndili teşt üstünə atıb ayağa qalxdı, – və necə ki, mən bilirəm sən də bilirsən ki, bu cibim, bu rəfiqim, bu Cəfərim məndən səxavətli idi və bu açıq alın arxasında işıqdı bir zəka vardı. Amma təəssüf ki, çox ehtiyatsız idi, o dərəcədə ki, şiyələrin qurduğu bir məclisdə məni Xorasanın istiqlalı ilə hədələmişdi. Vali nəfəsini dərməyə macal tapmamış o xəbər gəlib mənə çatmışdı.

Bədbəxt və ehtiyatsız qardaşım! Mən ona o qədər ixtiyar vermişdim ki, məndən soruşmamış qızımı qardaşım oğluna nişanlamışdı və sonra gəlib mənə xəbər verəndə, mən ona güldən ağır bir söz deməmişdim. Amma xəbəri yox idi ki, əgər qızın nişanlandığından xəbər tutmamışdımsa əvəzində can-ciyərimin hər dəfə gecə röyasında nələr sayıqladığından o özü hələ yuxudan oyanmamış – mən xəbər tuturdum...

[1] Bir milyon



Və xəlifə isterik qaqqıltı ilə uğunub özündən gedərkən, hər iki əlilə qarnını təbil kimi döyəclədi, sonra birdən kiridi və dedi:

Üç gündür, hərdənbir ağzıma bir noğul atmaqdan ürəyim bulanır. Ya Cəbrayıl, sərəncam ver süfrə açılsın və tapşır xarisə olsun o süfrədə və saqi bizə bir kuzə xoruz gözü "Soyuq ulduz" gətirsin...

Xarisə qızardılmış qiymədən hazırlanırdı və bütün cah-cəlallı toy məclislərinin süfrəsində birinci və ən vacib bir xörək idi...

## 3

...Məmun pəncərə qarşısından çəkildi, döndü öz yerinə gəldi və dərhal yenə ayağa qalxmaq istəyən qocaya aman vermədi, əlini qocanın çiyninə qoydu, sonra oturdu və dedi:

– Əgər bir şəxs ya Cəbrayıl, birinci səhvini ikinci ilə və ikinci səhvinin üçüncü ilə təshih etməyə başlayırsa, məgər bu haman şəxsin öz evinin altından gətirdiyi torpaqla öz evinin üstünə və yaxud damına suvaq çəkməsinə bənzər bir şey deyilmi?.. Və biz eşitdik ki, dünən axşam bizim vəzirimiz səni də öz hüzuruna çağırmışdı.

Qoca bir an cavabı gecikdirməyib yalnız o barədə düşünməyə macal tapdı ki, vəzirin Bağdad hadisələrini xəlifədən gizli saxlaması əlbəttə ki, bağışlanmaz səhv idi və üç gündü ki, xəlifə vəzirini hüzuruna çağırmırdı, vəzir isə bunu qoşun başçılarının fitnəsilə izah edərək yüksək rütbəli bir çox qoşun başçılarının maaşların çox aşağı salaraq, rütbəlilərindən intiqam almışdı və bu vəzirin ikinci səhvi idi ki, qoşunda özünə qarşı narazılığı artıracaqdı...

– Elədir ya əmirəlmöminin, – dedi qoca, – dünən axşam ibn Səhl məni hüzuruna çağırmışdı və mən cənabınızın əmrilə vəzir ilə vəliəhdin söhbətinə nəzarət elədiyim üçün...

– Və hər ikisi söhbətləri ilə əlbət ki, sənə borcludurlar. Amma çox qəribədir ki, nücum elminə çox dərindən aşina olan bir şəxs ilin bu vaxtında özünə həcəmət qoydurub qan aldırmaq üçün səni öz hüzuruna çağırır.

– Haqlısınız ya əmirəlmöminin və bu barədə mən də vəzirə xəbərdarlıq elədim ki, qışın bu vaxtında ki, günəş hələ balıq bürcündədir qan aldırmaq vücudu xəstəliyə düçar edə bilər, amma cənabınıza məlumdur ki, vəzir özü üçün zil cədvəlindən fal açmışdır və özünü inandırmışdır ki...

– Gələn həftənin səşənbə günü hardasa su ilə od arasında qanı axacaq?

– Elədir ya şövkəti cahan və indi vəzir hesablamışdır ki, sabah yola düşən saray qafiləsi səşənbə günü vəzirin vətəni Sərəxs[1] şəhərinə varid olacaqdır. Həzrəti Əli isə şeirlərinin birində buyurmuşdur ki, şənbə günü ova getmək üçün, yekşənbə tikintiyə başlamaq, düşənbə seyrə və gəzintiyə çıxmaq və səşənbə günü hacəmət qoydurub qan aldırmaq üçün ən uğurlu günlərdir. Vəzir bu sənədi mənə oxuduqdan sonra dedi ki, qışın bu vaxtında özünə hacəmət qoydurub xəstələnsə də, bunun eybi yoxdur, təki o bəla başından sovuşsun və tale ulduzunun təhlükəsi rəf olunsun.

Tale? Rumicə tam insanın başına gələnlərdir. Amma sənin ki, ya Cəbrayıl, – dedi Məmun, – Zic cədvəli ilə açılan fala və yaxud tale zayicəsinə talelə bağlı olan digər işlərə və fallara gərək ki, heç bir etiqadın yoxdur.

– Elədir, ya həzrət, sizin kimi mənim də tale zayicəsinə və insan taleyinin göydəki ulduzların rəsm keçidi ilə təyin edildiyinə etiqadım yoxdur. Amma vəziriniz ulduz falçılığını ulduzlar elmindən ayırmır və özünə fal açdığı gündən su ilə od arasında müəmmasını həll edə bilmədiyi üçün çox pərişan idi. Nəhayət, dünən ona vəhy gəlib ki, od ilə su hamamda olur və əgər səşənbə günü hamamda özünə hacəmət qoydursa, qan aldırsa, qanı əlbəttə ki, od ilə su arasında axacaq və bununla da bir tərəfdən o ufaq ulduzun hökmü yerinə yetəcək və digər tərəfdən həyatını təhdid edən o təhlükə yox olacaq...

*Və Məmun dodaqlarına qonan əyri bir təbəssümlə dedi:*

– Və həqiqətən çox gözəl məşğələdir göydəki ufaq bir ulduzla bu siçan-pişik oyunu... amma ulduz falçılığının qədim İran tarixində çox uğursuz izləri var ya Cəbrayıl – vaxtilə islam qoşunları ilə sasanilər İranının qoşunları Kadesiya meydan müharibəsində üz-üzə gələrkən İran ləşgərinin sərkərdəsi Rüstəm Fərruxzad çox böyük bir ordu başında dayandığı halda, münəccimliyi ilə, gördüyü röyaların pərişanlığı ilə əzmini, iradəsini o dərəcədə iflic eləmişdi ki, nəhayət, özünü, Sasani qoşunlarını və bütün İranı bada verdi...

– Haqlısınız ya həzrət, İranın Kadesiya fəlakətinə Rüstəmin süstlüyü, xurafatpərəstliyi və münəccimliyi bais oldu.

[1] Tacikistan və İran sərhədində şəhərdir



– İndi də bizim vəzirin münəccimliyi bu səfər zamanı bizi bir az xərcə salacaq... – dedi Məmun, – amma onun çarəsi nədir və əlbəttə ki, o gün vəzir bizdən də adına layiq bayram hədiyyəsi alacaq.

Adət və qaidə belə idi ki, hacəmət qoydurub, qan aldıran üçün o gün bayram hesab edilirdi və bütün kürəyi neştərlənən o gün bütün qohum və dostlarından bayram hədiyyələri alırdı. Çünki zəmanənin təbabətinə görə hər il günəş əkizlər bürcünə daxil olanda yazın oğlan çağında, damarlarda qan qaynayanda hacəmət qoydurub qan aldırmaq vücudun bütün qüvvələrini yenidən bərpa edərdi, amma bununla belə xəlifənin son sözlərindən, sürməli gözlərinin ifadəsindən və qışın bu vaxtı vəziri hacəmət qoymağa məcbur olduğundan qoca təbibin ürəyində nə isə anlaşılmaz bir təlaş baş qaldırdı...

Xəlifə isə bu vaxt ayağa qalxmışdı və qocanı hüzurundan azad edərək demişdi:

– Mürəxxəssən ya Cəbrayıl, və qafiləmiz Sərəxsə yetişdiyi gün səhər tezdən bizi ziyarət edəndən sonra bütün günü vəzir ilə məşğul olmaq üçün biz sənə indidən rüxsət veririk...

## 4

Qoca təbibi hüzurundan azad eləyəndən sonra Məmun bütün günü heç kəsi qəbul eləməmişdi və indi gecədən xeyli keçdiyi üçün yalnız lələsi Sirac istədiyi vaxt xəlifənin yanına girib-çıxa bilirdi və nə qədər ki, Əmirəlmöminin yatmamışdı, əlbəttə ki, Sirac da yatmayacaqdı.

Və Sirac indi ikinci dəfə gəldi və dərin fikrə getmiş Məmunu ikinci dəfə başını qaldırmağa məcbur edərək dedi:

– İkinci xoruz banıdır, ya Əmirəlmöminin və o dörd nəfər kafir çiyinlərinə keçə şəlpələr salıb manqalın dövrəsində mürgü döyürlər və Miraxurun ayırdığı dörd yügürək at yəhər altında hazır dayanıb və məncə o kafirlərin səhər açılmamış çıxıb getmələri məsləhətdir.

İstədiyi vaxt içəri girib-çıxan xəlifədən əvvəl özü sözə başlayan və hətta xəlifəyə məsləhət verməkdən çəkinməyən Siracın bu cəsarəti əlbəttə ki, icazəli bir cəsarət idi. Sirac dünən gecə xəlifənin ən məxfi bir tapşırığını yerinə yetirərək Xorasanın karvan yollarında çapavulluğu ilə məşhur olan dörd nəfər quldurbaşıyla dilənçi bir qarının komasında gizli görüşmüş, sövdələşmiş, sonra dördünü də gecəykən gizli olaraq Əbu Müslüm qəsrinə gətirmiş, zirzəmiyə salmış

və qapını bağlatmışdı, çünki quldurların axırıncı şərti bu olmuşdu ki, Siracın onlara vəd etdiyini şəxsən xəlifənin öz ağzından eşidəndən sonra boyunlarına götürdükləri işi yerinə yetirəcəkdilər.

Və indi Məmun nəhayət, ayağa qalxdı və o Məmun ki, bu gün Qarlux türklərinin yabğusunu və Tibet Xaqanının elçisini qəbul etməyə tənəzzül etməmişdi və yaxud macal tapmamışdı. İndi özü Əbü Müslüm qəsrinin qaranlıq zirzəmisinə enməli idi və bu saat orda bir dənəsi qırmızı, altı dənəsi qara daşla qumar oynayan dörd nəfər heybətli quldurbaşıyla görüşməli və Siracın onlara vəd elədiyini şəxsən özü təsdiq etməli idi.

Məmun ayağa qalxarkən, Sirac dərhal xəlifənin çiyninə yunu içəriyə çevrilmiş və *aşılanmış, dərisi zəfəranla boyanmış məşhur Xorasan* kürkünü saldı və Məmun bir an ayaq saxladı, döndü, qeyri-ixtiyari şətrənc taxtası üstündə səhərdən qara piyadanın zərbəsi altında qalmış ağ vəzirinə baxdı. Sirac xəlifənin arxasından boylandı və şətrənc taxtası üstündəki vəziyyəti görərkən, heyrətini bununla ifadə elədi ki, sağ əlinin şəhadət barmağını ikiqat bölüb dişləri arasına qoydu, sonra dedi:

– Yox, kifayət deyil ya Əmirəlmöminin.

– Nə kifayət deyil? – dedi Məmun və lələsinə tərəf döndü.

Sirac qımışdı:

– Qara şahın mat olması üçün ağ vəzirin özünü qurban verməsi kifayət deyil.

– Vəzəriyyat oxuma Sirac. Bu oyun sənin xörəyin deyil.

– Elədir ya Əmirəlmöminin, amma Rəb-rəb oynayanda çox fikir vermişəm ki, o bir-biri dalınca iki, yaxud üç daş qurban verəndən sonra rəqibini mat qoyur – əcələ bir ağacdır, meyvəsi peşmanlıq.

– Sakın, – dedi Məmun, – bizi həmişə şeytan tələsdirir və yalnız səbrimiz bizi salamat sahilə çıxardır.

Sirac zeytun yağıyla yanan gümüş fanusu qapıb qəsrin uzun və qaranlıq dəhlizində xəlifənin önünə keçdi.

...Əbü Müslüm qəsrinin zirzəmisi divardakı dəmir yuvaya keçirilmiş böyük bir məşəlin hisi içində boğulan alovunun qızarındaq və titrək şölələri ilə işıqlanmışdı.

Siracın kafir adlandırdığı dörd nəfər quldurbaşı isə yemişdilər, içmişdilər, qumar oynamışdılar və indi böyük bir manqalın dövrəsində oturub çiyinlərinə saldıqları keçə şəlpələr altında mürgü döyürdülər və Siracın səsi zirzəmidə guruldadı:



– Qalxın ayağa kafirlər, Əmirəlmöminin hüzurundasınız! Dördü də birdən sıçrayıb ayağa qalxdı. Sonra Siracın işarəsilə dərhal yerə döşəndilər, xəlifə qarşısında yeri öpdülər və təkrar ayağa qalxıb bir-biri yanında cərgəyə düzüldülər.

Sirac quldurları bir-bir xəlifəyə təqdim elədi:

– Ya Əmirəlmöminin, – dedi, – bu Qalib əl Əsnəddir, İraq əhlidir, ərəbdir və müsəlmandır. Bu birisi Konstatin rumidir, xaçpərəstdir. Süriyədəndir və milliyəti rumdur. O birisi Fərəc Dəblimçidir. Atəşpərəstdir. Təbəristan əhlidir, bu da Məkik Sovğdaklıdır. Afitab pərəstdir və yaxud Günəşə, ulduza səcdə edən tayfadandır və Ceyhun nəhrinin o tayındandır və həyatın, ruzigarın bunları harda və nə cür bir-birinə rast gətirib və peşələrin zənciri ilə bir-birinə necə bağlanıblar, əlbəttə bu uzun bir hekayədir...

– Kifayətdir, – dedi Məmun və sürməli gözlərinin ilişkən baxışlarını növbə ilə quldurların sir-sifətində gəzdirəndən sonra mətləb üstünə gəldi ki: Sirac sizə nə demişdirsə doğru demişdir və zamani ki, o tapşırığı yerinə yetirdiniz...

Xəlifə bir an dayandı və düşündü ki, hərəsi bir dindən, hərəsi bir millətdən və hərəsi bir dərədən olan bu bədheybətlər yəqin indi onun bir xəlifə kimi başqa bir dil ilə, heç vaxt eşitmədikləri uca sözlərin dili ilə danışacağını gözləyirlər və xəlifə uca üsluba keçərək sözünə davam elədi:

– ...Və zamani ki, o məlum tapşırığı yerinə yetirdiniz, yəni çıxartdınız o şəxsin əynindən həyat libasını və geyindirdiniz o şəxsin əyninə məmat libasın – dərhal quş olub göyə uçarsınız. Balıq olub suya cumarsınız. Çünki qoşun əlbəttə ki, sizi axtarmaq üçün əmr alacaq... Və o vaxt ki, bizim qafilə Rey şəhərinə varid olacaq adı sizə məlum olan yəhudi sərrafın dükanında Sirac qalacağınız millətlərin baratın sizə çatdıracaq!

Və xəlifə çiynindən ağır bir daşı atmış kimi dönüb yer altından yuxarı qalxan pilləkənə doğru yönələrkən Qalib əl-Əsvad yerindən qımıldandı. Nə isə demək istədi, amma Sirac gözün ağartdı. Qalib dayandı... Çünki Sirac əvvəlcədən dörd quldura məlumat vermişdi ki, Əmirəlmöminin hüzurunda izinsiz olaraq heç kəs ağzın açıb bir söz deyə bilməz və danışmağa izin veriləndə də səsi çox yuxarı qaldırmaq və yaxud çox aşağı salmaq, qaşları çatmaq və yaxud gülüb dişləri göstərmək olmaz. Və nəinki onlar, hətta vəzir və vəliəhd belə xəlifənin hüzuruna kor girməli, lal çıxmalıdır.

Bu zaman xəlifə özü birdən geri döndü, əlini uzadıb Siracın qoltuğundakı gümüş dirhəm dolu və ağzı büzməli bir kisə çıxartdı və dedi:

– Hələlik qoy bu sizin üçün bir həftəlik cib xərcliyi olsun!

Və xəlifə gümüş dirhəm dolu kisəni quldurların üstünə atarkən, Qalib əl-Əsvad dərhal bütün təşrifatı unudaraq yerindən qopub irəli atıldı, dizi üstə yerə yıxıldı. Amma o kisəni Əminulla havada qapıb, qoymadı yerə düşsün.

## 5

İndiki kimi və həmişə olduğu kimi o vaxt da tale ulduzu arabaçı bürcünün topa ulduzları içində ən şəfəqlisi və ən qəşəngi, görməlisi idi. Və günlərin bir günündə payız göylərinin bu zərif incisi Məmun imperiyasının qüdrətli veziri Fəzl ibn Səhlin həyatını təhdid etməyə başladı...

Məmun tərəfindən "zolriyasəteyn" yəni "iki sinfin qılınc və qələm sənətinin ustadı" kimi fəxri bir ləqəblə şərəfləndirilmiş vəzir "Elmnücum" adlandırılan ulduzlar elmində geniş bilgisi ilə məşhur idi və "Zicnməmun" adlanan yeni astronomik cədvəlin tərtibində yaxından iştirak edirdi. Lakin 9-cu əsrin astronomiyası hələ mistik astrologiyadan qopa bilməmişdi və münəccim, yaxud ulduzçu simasında eyni zamanda həm astronoma, həm də astroloqa rast gəlmək olurdu.

Buna görə idi ki, vəzir Fəzl ibn Səhl yeni astronomik cədvəlin tərtibində iştirak edərkən astronom idisə, ulduzlar cədvəli ilə fala baxanda və tale zayicəsi tərtib edəndə dərhal astroloqa çevrilirdi.

Vaxtilə Bağdad sarayındakı katiblərdən biri olan Fəzl ibn Səhl vəliəhd Məmun üçün tale zayicəsi tərtib eləmiş və Məmunun iqbalının çox parlaq olacağını xəbər vermişdi, amma özü üçün tale zayicəsi tərtib eləmək istəyəndə hər dəfə mövhumi bir qorxu duyaraq, fikrindən vaz keçmişdi. Lakin eyni zamanda amansız bir maraq hissi və boylanıb gələcəyinə baxmaq arzusu öz şeytani cazibəsilə Fəzlə heç vaxt rahatlıq verməmişdi.

Sonra illər keçmişdi. Məmun xəlifə olmuşdu və yenə illər keçmişdi, Fəzl xəlifə Məmunun vəziri və sağ əli olmuşdu. Və kiçik qardaşıyla bərabər nəhəng bir dövləti idarə eləməyə başlamışdı.

Və indi o bu qədər parlaq bir gələcəyə gəlib çıxandan sonra, bir vaxtlar özü üçün tale zayicəsi tərtib etməyə cəsarəti çatmadığını xatırladıqca o vaxt ki, ağciyərliyinə öz ürəyində gülürdü.



...Nəhayət Bağdad hadisələri baş verdi. Vəzir hadisələri xəlifədən gizlədi, ümid elədi ki, qardaşı orda Bağdad şurişinin öhdəsindən gələcəkdir. Amma kiçik qardaşı böyük qardaşın etimadını doğrultmadı və iş işdən keçəndən sonra Məmun məsələdən xəbər tutdu. Düzdür vəzirinə bir söz demədi, amma vəzir xəlifənin gözündən düşdüyünü hiss elədi və pərişan gecələrinin birində qarşıda onu nələr gözlədiyini bilmək üçün oturdu, ulduzlar cədvəli üzrə özü üçün tale zayicəsi tərtib elədi. Və dəhşətə gəldi – hardasa od ilə su arasında qanı axacaqdı və hadisənin nə vaxt baş verəcəyi ayı, həftəsi və günü ilə xəbər verilirdi. Amma baş verəcək hadisənin yeri, məkanı müşkül bir müəmma idi ki, həllini tələb edirdi...

Belə oldu ki, o gündən arabaçı bürcündəki o dörd ulduzun ən işıqlısı nazik sapdan asılmış bir qılınc kimi vəzirin başı üstündən asılıb qaldı. Və o uğursuz gün yaxınlaşdıqca vəzir gecələr yatmadı. Vəzir düşündüdaşındı və həyatını təhdid edən o kiçik ulduzun amansız şərindən bir xilas yolu, bir nicat axtardı...

Və nəhayət tapdı.

Məmun öz qafiləsi və saray qvardiyasıyla üç gün sonra səşənbə günü Sərəxs şəhərinə varid olacaqdı. Və iki gün orda səyyar bir sarayı andıran qara məxmərli nəhəng çadırı altında istirahət edəcəkdi.

Sərəxs şəhəri isə vəzirin vətəni idi. Orda anadan olmuşdu və o şəhərdə ki, bir çox mülkləri içindəki üç böyük hamamını icarəyə vermişdi və təkcə bu icarədən aldığı məbləğ vəzirin hər ilki mədaxilinə xeyli gəlir əlavə edirdi.

Və indi uzun bir qış gecəsinin sonunda birdən birə ansızın olaraq ildırım kimi başına çaxan çox sadə bir fikirdən vəzir heyrətə gəldi – od ilə suyun qonşuluğu hamamda olurdu. Və hər il günəş əkizlər bürcünə daxil olanda o şəxslər ki, məhz hamamda özlərinə hecəmət qoydururdular, məgər onların qanı od ilə su arasında axmırdımı?

Qurtuluş yolu tapılmışdı və elə o gecə vəzir qət elədi.

Orda, doğma şəhərində və öz hamamlarından birində seşənbə günü özünə hecəmət qoyduracaqdı. Və saray təbibi qoca Cəbrayıl ondan bir miqdar qan alacaqdı, beləliklə onu təqib edən o ufaq tale ulduzunun hökmü yerinə yetiriləcəkdi. Vəzir isə başının üstünü alan fəlakətdən qurtulacaqdı, üstəlik bu münasibətlə nəinki xəlifədən şahanə hədiyyə alacaqdı, hətta maaşlarını azaltdığı qoşun başçıları da ona qiymətli hədiyyələr göndərməyə məcbur olacaqdılar.

Vəzir fürsəti fotə vermədi, dərhal Mərv qapılarından Sərəxs qapılarına çapar göndərdi ki, culfaçılar məhəlləsindəki böyük hamam şeşənbə günü şəhər sakinlərinin üzünə bağlansın və icarədar hamamı vəzir üçün qızdırıb hazır saxlasın.

...Nəhayət o gün gəlib çatdı.

Məmun öz qafiləsi və saray qvardiyası ilə Mərvdən hərəkət edərək gəldi Sərəxs şəhərinə varid oldu. Və şəhər cuvarındakı böyük bir bağda xəlifənin Qara məxmərli nəhəng çadırı ucaldı. Və bu çadırın sağında, vəzirin solunda Vəliəhdin çadırları quruldu, ordu başçılarının çadırları isə dörd bir tərəfdən bu üç çadırı mühasirəyə aldı.

Və günortadan bir az keçmiş Sərəxs şəhərinin ən böyük hamamlarından birində Xəlifə Məmunun vəziri ilə arabaçı bürcünün tale ulduzu arasında faciəli bir oyun başlandı.

İrandakı bir çox digər hamamlar kimi Sərəxs hamamı da yer altında idi. O küçənin səthindən başlayan iyirmi pillənin hamısı aşağıya yer altına gedirdi. Yuxarıda yer üstündə isə hamamın hər tərəfi qır ilə suvanmış dəyirmi günbəzi qara bir göbələk kimi qabarmışdı və indi səhərdən çisəkləyən yağış altında qara mərmər kimi donuq bir parıltı ilə bərq vururdu...

Və bu gün o günbəzin zirvəsinə sancılmış bayraq vaxtilə Məmunun öz vəzirini təltif elədiyi fəxri nizə ucuna keçirilmiş bayraq idi.

Hamamın içi də bu gün gəlin otağı kimi bəzənmişdi. Paltar soyunulan dairəvi otaqda yerə xalılar döşənmişdi. Taxçalardakı gümüş şamdanlarda rəngbərəng şamlar yandırılmışdı. Naxışlı və üçayaqlı alçaq mizlər üstünə güldanlarda gül, gümüş sinilərdə meyvələr və şüşə qablarda şərbət qoyulmuşdu.

İki nəfər xidmətçi qulam hamamın ön otağında vəziri soyundurmağa başladılar, sonra uca boylu vəzir başını əyərək alçaq bir qapıdan içəri keçdi. Və burda onu qarşılayan döşü ağ önlüklü qoca təbib vəzirə xoş gəldin dedi və baş əydi. Hamamın xəzinəsi ilə gülxanı[1] arasında isə böyük taxt yerləşmişdi. Üstünə dəvə yunundan toxunmuş yumşaq parça salınmış və taxtın baş tərəfində böyük bir nazbalış qoyulmuşdu.

Vəzir bu taxt üstündə oturdu və bir müddət hamamın kəllə divarındakı yağlı boya ilə çəkilmiş əfsanəvi ənqa quşuna baxaraq fikrə getdi, divardakı ənqa quşunun üzü qadın sifəti kimidi. Sasani minyatürlərindəki şərq gözəlləri kimi çatma qaşları vardı, amma qarmaqvarı dimdiyi qartal dimdiyini andırırdı və dörd qanadı ilə caynaqlı iki əli fantastik görkəmini tamamlayırdı.

[1] Od yandırılan yer belə adlanır



– Bu dünya belə dünyadır, ya Cəbrayıl, – dedi vəzir, – bu dünyada böyük vəzirlərin aqibəti bu olub ki, gül əkib tikan dəriblər və Aristotel ki, əqli ümman bir vəzir idi nəhayət, bədxahları onu İskəndər Quminin gözündən salmadılarmı? Və Büzürk Mehr ki, hər sözü hikmətli bir vəzir idi. Onu da Nuşiravanın gözündən salmadılar? Və Cəfər Bərməki kimi fazil və comərd bir vəziri nəhayət bədxahları Harunəlrəşidin gözündən salmadılarmı?.. Və indi də mənim bədxahlarım qoşun başçıları nəhayət, mənə qarşı Məmunun ürəyinə xal salmayıblarmı? Amma çox bilən çox yanılar deyiblər ya Cəbrayıl heç vaxt yanılmayan yalnız başımız üstündəki xudadır və ona ağır gedər – əgər xəlifə öz taxt-tacıyla Xorasana, mənə və qardaşıma minnətdar olduğunu bir gün yadından çıxartsa...

Vəzir bir an susdu. Sonra qəhərlənmiş bir səslə nida elədi:

– Xub və bismillah ya təbib, başla və qoy Allah bu işin axırını xeyir eləsin.

– Amin! dedi qoca təbib və sağ əlinin üç barmağının uclarını alnına, sinəsinə və hər iki çiyninə toxunduraraq xaç çəkdi.

Vəzir üzü üstə taxta uzandı, çənəsini nazbalış üstündə çarpazladığı qolları üstünə qoydu və yenə baxışları kəllə divardakı Ənqa quşuna zillənib qaldı. Hamam çox isti qalanmışdı, yağlı boyalı divarlar tərləmişdi. Ənqa quşunun iri girdə gözlərində bərkiyən damlalar ağırlaşanda quşun gözlərindən qopub üzüaşağı yuvarlanırdı. Və indi bu əfsanəvi quş vəzirin fikrini çəkib əfsanəvi Qaf dağlarına apardı, o dağlara ki, yaşıl zümrüd idi və dünyanın qurtaran yerində dik bir divar kimi göyə ucalmışdı və gözə görünməz Ənqa quşu o dağlar qoynunda məskən salmışdı. Burda vəzirin fikri o uca divar əyrisini aşmaq istədi. Lakin o divar arxasında dərhal varlıq qurtardı, heçlik başlandı və bu heçlikdə vəzirin qorxu ilə çulğalanmış fikri ildırım sürətiylə geri döndü və gəldi Quranın "Qaf" surəsinə sığındı. "Qaf" surəsində Qaf dağları yoxdu, amma vəzirin fikri o ayələrə pənah gətirdi ki, orda deyiblərdi ki, səbr elə, qoy nə deyirlər desinlər və yenə deyiblərdi ki, sən günçıxandan əl və gün batmamışdan əl, həmişə öz dualarında rəbbini müqəddəs elə və sonra yenə deyiblərdi ki, sən gecənin qoynunda və səcdələrinin ardınca həmişə rəbbini yad et və rəbbinə şükr elə...

Bu vaxt vəzir piy basmış kürəyini çərtən neştərin ilk təmasından azacıq diksindi. Əlbəttə ki, vəzir birinci dəfə deyildi ki, özünə həcəmət qoydururdu. Amma bu dəfə bu artıq hər il yazın ortalarında təkrarlanan adicə və yüngül bir cərrahiyyə əməliyyatı deyildi. Bəlkə vəzirin düyün düşmüş taleyi ilə ölüm-dirim mübarizəsi idi və indi o neştərin ikinci təmasında artıq diksinməməyi və qoca təbib qarşısında özünü rüsvay etməməyi qət eləmişdi ki, birdən qoca təbibin boğuq bir fəryad ilə taxt yanında yerə sərildiyini eşidərkən yay kimi yerindən sıçradı, arxası üstə çevrildi və başı üstündə dörd yalın qılıncın donuq parıltısını görərkən, qatillərin üzünə baxmağa belə macal tapmayaraq, ani bir sövqi-təbii ilə hər iki əlinin yuxarı çevrilmiş ovuclarını qoşa qalxan kimi dörd qılıncın qarşısına vermişdi ki, Qalib əl Əsvədin elə birinci zərbəsilə başı bədənindən üzülüb taxt üstünə düşdü və taxtın üstündən yerə diyirləndi. Sonra Konstantin Ruminin, Fərəc Dəblimüinin və Məkik Soğdaklının zərbələri yalnız qılınclarını vəzirin qanına bulaşdırmaq xatirinə idi ki, ortaq işdə, dördünün də iştirakı müsavi olsun!..

...İndi qoca təbib vəzirin nəşi yanında taxt üstündə oturmuşdu və elə bil xəstə üstünə gəlmişdi, başını aşağı salaraq, xəstənin oyanmasını gözləyirdi.

Qatillərin içəri girdiklərini qoca görməmişdi. Çünki başı aşağı idi, vəzirin üstə əyilmişdi və qüvvətli bir əl arxadan, boynundan tutub onu kənara atandan sonra nə eləmişdisə elə bil bir başqası tərəfindən idarə edilmişdi. Çünki sarsılmış şüur yaxasını gen çəkmişdi, qıraqda dayanmışdı. Amma əlləri ayaqları və gözləri səliqə ilə öz işlərini yerinə yetirmişdi, əlləri vəzirin başını yerdən götürmüşdü və yenidən taxt üstündəki bədəninə bənd eləmişdi, sonra cənazənin üstünü örtmək üçün gözləri nə isə axtarmışdı və keçmişdi qonşu otaqdan vəzirin zərlizibalı kaftanını gətirmişdi və bu vaxt gözləri vəzirin xidmətçi qulamlarının və hamam icarədarının qolları, ayaqları bağlı, ağızları tıxaclı bir-biri yanında çapaladıqlarını görmüşdü. Bir dəqiqə yubanmışdı və yalnız hamam icarədarının qollarını açmışdı, sonra gəlmişdi kaftanı vəzirin nəşi üstünə atmışdı və indi cənazənin yanında oturub, keşiyində dayanmışdı...

Nəhayət, birinci olaraq Sirac çapıb hamama gəlmişdi.

– Bu nə müsibətdir, ya Cəbrayıl, – demişdi, – neçə nəfər idilər? Dörd? Amma vəzirin qulamlarından biri deyir ki, səkkiz nəfər idilər, o birisi iddia edir ki, doqquz idilər. Hamamçı isə and içir ki, daha



çoxdular... tanrıya şükr olsun ki, kafirlər sənə rəhm eləyiblər və bu qara xəbər əmirəlmöminin qəddini əydi, belini sındırdı, əmirəlmömininin ata belə süvar olmadı və bu saat müqəddəs qədəmlərilə culfaçılar məhəlləsinin çamurunu tapdayaraq bura gəlir...

...Və Məmun gəldi.

Birbaşa cənazəyə yaxınlaşdı, qaftanın ucunu qaldırdı, vəzirin üzünə baxdı, sonra iki əlilə başına döyərək hönkürdü. Xəlifənin arxasınca içəri doluşmuş saray ağaları və qoşun başçıları da ağlamağa başladılar. Lakin xəlifənin hüzurunda səs-küy salmaq olmazdı, ona görə səslərin qısaraq xəlifənin coşğun ağlayışına yalnız züy tutmağa başladılar. Və buna görə idi ki, Məmunun hönkürtüsü və fəryadı hamamın günbəzi altında tağlı tavana çaparaq qüvvətli əks-səda ilə qoca təbibi içindəki viranəlikdən çəkdi özünə qaytardı və indi qocanın da gözləri yaşla dolanda xəlifə döndü, yaxın gəldi və dedi:

- Ağla ya Cəbrayıl, ağla, təqdirin hökmünü təğyir etmək mümkün deyilmiş...

Və heyrətindən qocanın göz yaşları bir anda qurudu, çünki bu dəqiqə Məmunun dəyişilmiş səsi eynilə atası Harun-ərrəşidin o gecəki səsi idi ki, abbasilərin beşinci xəlifəsi o gecə vəzirin kəsilmiş başının üstündə çubuqla nə isə yazıb pozarkən başını qaldırmışdı qaşlarını çatmışdı və qocaya demişdi:

– Ağlayırsan, ya Cəbrayıl? Buna ağlayırsan və yainki mənə?

Amma o vaxt, qocanın gözləri qupquru idi və indi də heyrətindən göz yaşları quruyarkən birinci olaraq onu gördü ki, xəlifənin sürməli gözlərindən axan qara göz yaşları yanaqlarında qara şırımlar açmışdır və qoca tez ağ önlüyü açıb atdı, sonra qoltuğundan çıxardığı ipək bir məndil ilə Məmunun ağlar gözlərini sildi və bu gözlərin öz ağlayışında iştirak etmədiyini və bəbəklərinin dərinində nə isə şeytani bir işıltı rəqs etdiyini görərkən davam gətirmədi, gözlərin qaçırtdı və başını aşağı saldı...

...Məmunun qafiləsi iki gün Sərəxs şəhərində qalacaqdı, amma vəzirinin qətli münasibətilə xəlifə yas məclisi qurub bir həftə Sərəxsdə yubandı və dərhal bir neçə çapar yola salaraq vəzirin qardaşı Həsən ibn Səhlə başsağlığı göndərdi. Həsən ibn Səhl Bağdaddan qovulmuşdu; amma hələ İraqda idi. Başında qoşunu və ixtiyarında dövlət xəzinəsi vardı, əgər böyük qardaşının ölümündən şübhələnsəydi, qorxuya düşərdi, hətta gedər Bağdadda xəlifə olmuş Məmunun əmisi İbrahim ibn

Məhmədiyə sığınardı. Bütün bunları nəzərə alaraq Məmun yas məclisindən Həsən ibn Səhlin iqamətgahına xüsusi nümayəndə göndərib qızına elçi düşdüyünü bildirdi və toyu Bağdadda edəcəyini xəbər verdi ki, beləliklə, öldürülmüş vəzirin qardaşını özünə qayınata rütbəsinə qaldırdı və təbiidir ki, bu da Həsən ibn Səhl üçün çox böyük bir şərəf idi. Sonra vəzir üçün qurulan yasın yeddisi tamam olanda Məmun qoşun başçılarından tələb elədi ki, qatillər tapılmalıdır və qatilləri tutub hüzuruna gətirənlərə on min qızıl dinar vəd elədi və Məmun qafiləsi ilə bərabər Tus şəhərinə doğru hərəkət elədi.

Lakin dərhal Məmunun qafiləsi arxasınca bir şayiə sürünməyə başladı, bu şayiə getdikcə sürətini artırdı və nəhayət getdi xəlifənin qafiləsini haxladı.

Məmunun əmrilə dörd qatil axtarılırdı, hansı xərabədə, yaxud hansı mağarada gizləndikləri və yaxud hara çıxıb getdikləri hələ heç kəsə məlum deyildi, amma dörd quldurun isnad elədiyi və indi ağızdan-ağıza uçan qanadlı bir xəbər Məmunun qafiləsini bütün yol uzunu təqib edirdi ki, "Əmirəlmöminin özü bizə əmr elədi ki, çıxardarsınız o şəxsin əynindən həyat libasını və geyindirərsiniz o şəxsin əyninə məmat libasını".

Qafiləni haxlayan bu şayiə nəhayət gəldi Siracın vasitəsilə xəlifənin çadırına da baş çəkdi və xəlifə gözlərinin iştirak etmədiyi bir təbəssümlə dedi ki, haqqında düz deyiblər ki, tul əl lisan-həlak əl-insan (dilin uzunluğu insan üçün fəlakətdir) və bu şayiə ki, arxamızca sürünür, nə qədər ki, bizdən qabağa getməyib heç bir ziyanı yoxdur.

Qoca təbib isə bu şayiədən xəbər tutanda heyrət etmədi. Çünki, qocanı ən çox heyrətə salan o idi ki, nə fərqi vardı ki, vəzir öz mənəmliyi ilə özü-özünü tələyə salmışdı. Hər halda tale ulduzunun hökmü yerinə yetmişdi, vəzirin qanı od ilə su arasında tökülmüşdü. Sonra bu da qoca üçün aydın idi ki, Məmun xorasanlı şiyə vəzirini buraxdığı səhvlərə görə aradan qaldırmamışdı. Bəlkə yaşıl rəngi qara rəngə qurban verməyə başlamışdı və birinci qurban vəzirinin ölümilə burda, yolun başlanğıcında Bağdadın qəzəb odu üstə bir dolça su endirmişdi, yaxud burdan əlini uzadıb Bağdadda əmisi İbrahim ibn Məhəmmədin taxtını bir az sarsıtmışdı.

Və birdə ki, gec-tez bu hadisə baş verməli idi.

Hökmdarlar taxt-taclarıyla minnətdar olduqları şəxslərin varlığına heç vaxt dözməmişdilər.



Məmunun ulu babası xəlifə Mənsur dözməmişdi. ibn Müslümü hüzurunda doğratmışdı.

Məmunun atası Harun ər-rəşid dözməmişdi vəziri Cəfər Bərməkini qardaşlarilə bərabər məhv eləmişdi.

Və Məmun da dözmədi; dörd quldurun əlilə və yaxud həvəskarı olduğu Şətrənc oyunundakı at gedişilə tale ulduzunun hökmünü həqiqətə çevirdi.

Nə idi bu? Tarix təkrar olunurdumu? Hər halda tarixin sınaqları təkrar olunurdu və bir-biri dalınca üç xəlifənin saray təbibi olan qoca bu təkrarın canlı şahidi olmuşdu. Və nəhayət, Məmunun vəzirinin ölümünü hazırlayan bir labüdlük onu da çəkmişdi, öz axarıyla aparmışdı.

*Bu Qovqun şəhər Xürrəmilərin*
*İldə bir dəfə "Sevgi süfrəsi"*
*Açdıqlarıdır*
*Və yolunu gözlədikləri "Günəşli atlını"*
*Bu gecə son dəfə çağırdıqlarıdır*

## 1

Və o vaxtki o "Günəşli atlı" gələcəkdi, qaranlığı çoxalmış bu dünya yaxşılıq işığı ilə dolacaqdı...

Güneydəki başı qarlı uzaq və böyük dağlar ilə qırmızı torpaqlı, kiçik və yaxın dağlar arasındakı bu şəhər 9-cu yüz illik Təbrizi idi və günəşin Sünbülə[1] bürcünə girdiyi bu günlərdə bütün şəhər göydən yerə od ələyən yay günəşi altında yatırdı. Gecələr dağlar üstündəki göylərdə tez-tez su təkin ulduzlar axır və o solğun ulduzlardan şəhər üstünə xoş bir sərinlik yağırdı. Uzaqlardan gələn yorğun dəvə karvanları hava qaralanda şəhərə çatırdı və ağır yüklərilə bərabər şəhər karvansaralarına bir-birindən həyəcanlı xəbər və şayiələr boşaldırdı. Səhər hava işıqlananda bütün şəhər o xəbər və şayiələri yığışdırmağa başlayırdı.

Abbasilərin 7-ci xəlifəsi Məmun isə Mərv ilə Bağdad arasındakı iki-üç aylıq bir yolu il yarım idi ki, gedib axırını qurtara bilmirdi – amma hər dəfə qafiləsilə qaldığı növbəti mənzildə baş verən hadisələrin əks-sədası ilə bütün xilafəti vəlvələyə salırdı.

---
[1] Yazın son ayı

Keçən ilin qışında Məmunun qüdrətli vəziri Sərəxs şəhəri hamamında qətl edilləndə də Bağdad şəhərində Məmunun vəliəhdi İmam Rza qəfildən vəfat edərkən də Bağdaddakı qoşun başçıları daha artıq rahat nəfəs almışdılar və əksinə ifrat şiyələr imamət göylərinin 8-ci ulduzunun söndüyünü görüb fəryad qopartmışdılar ki, İmam Rza öz əcəli ilə rəhmətə getməmişdir və necə ki, vaxtilə şiyələrin altıncı imamı Cəfər Sadiq xəlifə Məmunun ulu babası xəlifə Mənsurun əmrilə zəhərlənib öldürülmüşdü və daha sonra şiyələrin 7-ci imamı Musa Kazim də Məmunun atası Xəlifə Harunəlrəşidin zindanında 13 il dustaq qalandan sonra zəhərləndirilərək qollarındakı zəncirlərlə bərabər dəfn olunmuşdu, indi də şiyələrin 8-ci imamının süfrəsinə xəlifə Məmunun süfrəsindən zəhərli üzüm göndərilmiş və İmam Rza o zəhərli üzümdən çox yeyəndən sonra şəhid olmuşdur.

İstər şayiə, istər həqiqət olsun hər halda bir-birini təqib edən bütün bu hadisələr Bağdad üstünə gedən Məmunu əvvəlcə xorasanlı vəzirindən, indi də şiyə vəliəhdindən azad eləmişdi və beləliklə, Məmunun yaşıl inqilabından indi əynindəki yaşıl libasdan, yaşıl çalmadan başqa bir şey qalmamışdı.

Dünən axşam isə Həmədandan gələn dəvə karvanının gətirdiyi xəbərlərdə deyilirdi ki, Məmun keçib gəldiyi bütün vilayətlərdə xərac vergisini azaldır və bütün şəhərlərin cümə məscidlərində gecəni səhərə qədər qəndillər yandırılmasını və qapılarının qəriblər, binəsiblər üçün açıq saxlanmasını əmr eləmişdir və özü isə o məscidlərdə oxuduğu xütbələrdən sonra şəhər yoxsullarına külli miqdarda ianə ehsan eləyir və Tus şəhərində atası Harunəlrəşidin qəbri yanında dəfn etdirdiyi vəliəhdi İmam Rza üçün bütün məscidlərdə Quran oxutdurur.

Və yeni şayiələrdə deyilirdi ki, Məmun bir əlilə nə qədər çox ehsan paylayırsa, digər əlilə daha çox varidat toplayır və yolüstü xorasanlı bir zabitin evinə beş dəqiqə qonaq olduğundan sonra mübarək qədəmlərilə Əbu Sahibi şərəfləndirmək üçün məğrur və məşhur İran zabiti öz mülklərindən xəlifəyə 300 kənd bağışlamışdır.

Daha sonra Təbrizin örtülü bazarını çulğayan bir xəbər də bu idi ki, Sərəxs şəhəri hamamında Məmunun qüdrətli vəzirini qətl edən dörd nəfər məşhur quldurbaşı nəhayət, ələ keçmişdir və bu saat Həmədan zindanında dustaqdırlar və Məmun gəlib Həmədana yetişəndə şəhər valisi o dörd nəfərin edamı üçün elə "ziynətli" bir mərasim tərtib edəcəkdir ki, bütün bu şəhər tamaşasına gələcəkdir.



Və əlbəttə ki, o vaxtlar və daha sonralar da istər Doğarıda, istər Batarıda, ən mədəni şəhərlərin meydanlarında ən vəhşi edamlar yeni bir şey deyildi.

Beləliklə, bu gün yenə küçələri, meydanları və bütün şəhəri ağzına almış xəbər və şayiələr nə qədər rəngarəng və həyəcanlı olsa da, səhər tezdən çit çadrasına bürünüb şəhərin örtülü bazarında vurnuxan gənc bir qadın bütün bu eşitdiklərinin hamısına biganə qalmışda, çünki nəhayət, onun özünə elə bir xəbər gəlib çatmışdı ki, Ağca bütün gecəni yatmamışdı və bir gözü gülmüşdüsə, bir gözü ağlamışdı.

Bir qayda olaraq varlı ailələrin ipək çadralı, qanovuz çax-çurlu xanımları yayda şəhərin ən sərin və qışda ən isti yeri olan örtülü bazara çox nadir hallarda ya daş-qaş almağa və yaxud, sadəcə zərgərlər cərgəsində ... sərfiənlərilə görüşüb hal-əhval tutmağa gəlirdilər. Sadə adamların

yozumlarında bazar izdihamının bu və ya digər hadisəyə qarşı münasibəti daha canlı, daha yaraşıqlı və bəlkə də daha düzgün ifadəsini tapırdı.

Dünən Ağca bazardan gətirdiyi xəbərlərə yekun vuraraq qocaya demişdi ki, Xəlifə Məmun hər gün ovuclarını açıb dizləri üstə qoyur, diqqətlə baxır və şeytanın ovuclarına yazdığı gizli yazıları oxuyub bir təlimat alır və buna görə əlbəttə ki, Məmun orda – Bağdadda xəlifə olmuş bəstəkar, xanəndə əmisini taxtdan salacaqdır. Çünki Bağdadda xəlifə olmuş İbrahim ibn Məhəmmədin bir xanəndə kimi səsi nə qədər gözəldirsə, əqli bir o qədər qısadır. Və qoca yalnız bundan sonra qəti qərara gələrək qardaşı Vəcnaya əmr eləmişdi ki, bütün bir karvanla yola çıxsın və Həmədanda Məmunu istiqbal edəcək Azərbaycandakı ərəb qəbilə rəislərin içərisində Əzd qəbiləsi adından xəlifəyə öz ixlası və sədaqətini ərz eləsin və indi neçə gündü ki, Vəcna artıq yol hazırlığına başlamışdı.

Ağca hələ kiçik bir qız ikən ibn Rəvvad onu Dərbənd bazarındakı bir qul tacirindən 300 dirhəm bahasına satın alıb Təbrizə gətirmişdi. Və sonra qız bir az böyüyəndə, yarı qonçə, yarıgül çağına çatanda qoca heç Ağcadan kamını almağa macal tapmadan yorğan-döşəyə düşmüşdü və indi hər gecə ölümlə qucaqlaşıb yatan qocanı hər səhər Ağcanın üzünü görmək, Ağcanın səsini eşitmək həsrəti ölümün qolları arasından çəkib çıxarırdı...

İbn Rəvvadın hərəmxanasında milliyyəti və dini ayrı-ayrı başqa cariyələr və kənizlər az deyildi, amma sonsuz qocanın ürəyindəki ən böyük həsrət məhz Ağcanın onun üçün doğacağı bir oğul, bir vəliəhd həsrəti idi. Buna görə idi ki, xəstə qoca hələlik Ağcanın kafir qalmayıb islamı qəbul eləməsini istəyirdi. Sonra Allah kərim idi. Sonra bəlkə allah rəhmə gələcəkdi və onu bu ölüm yatağından qaldıracaqdı. Lakin qocanın təklifini Ağca dərhal rədd eləmişdi. İslam dünyasında isə cariyələrə, kənizlərə və qullara zorla islamı qəbul elətdirmək ənənəsi yoxdu, çünki vaxtilə Sərvər-kainat peyğəmbərin özünün on iki zövcəsi içərisində axıra qədər öz dininə və etiqadına sadiq qalmış İsəhi[1] və qibti[2] qadınları olmuşdu. Amma Ağcanın islama dəvəti qətiyyətlə rədd eləməsi istər-istəməz qocanı çox pərt eləməmişdi və xəstə yatağından qalxınaraq səsini ucaltmışdı ki, ey vəhşi çöllər qızı, mənim cariyələrin içində xaçpərəst var, dini nədir, tanrısı kimdir heç vəchlə

[1] X a ç p ə r ə s t – xristian

[2] Misirli



qana bilmədim. Çünki nəinki mən, heç kəs sənin qövmin olan nə ağ xəzərlərin, nə qara xəzərlərin əcaib etiqadından baş çıxarda bilmir.

Bu vaxt Ağca sıçrayıb ayağa qalxmışdı, fırfıra kimi qocanın önündə dövrələr vurub fırlanmış, rəngi qaçmışdı, gözləri çıraq kimi yanmışdı və birdən quş nəğməsini andıran cəh-cəhli səsiylə öz tanrısı eşqinə elə ehtiraslı bir alqış oxumuşdu ki, qocanın nazbalışa batmış başı gicəllənmişdi. Axma Ağca hafizcəsinə alqışını davam etdirmişdi ki, başlanğıcda yuxarıda mavi göy, aşağıda qara torpaq vardı. İnsan oğlu bu ikisinin arasında dünyaya gəldi və alqış o ağ ulduzlu, qızmar günəşli, qara buludlu göylərə ki, ildırım çaxanda, buludlar ağlayanda çox heyrətlidir, sonra buludlar dağılanda, üzü işıqlananda, körpə gözləri kimi tərtəmiz və günahsızdır. Və yenə alqış göylərin gözəlliyinə ki, tanrı və insan oğlu hara getsə başı üstündədir və hər şey bu dünyada ötəridir. Ulu tanrı yalnız orda elə-belə bəzənmişdir...

Sonra Ağca birdən kirimişdi, gözünə nə görünmüşdüsə tanımışdı, qapı yanındakı bucağa qısılmışdı və qorxunc bir şey görmüş uşaq kimi iki əlilə üzünü qapamışdı və ağlamışdı. Hərəm dairəsindəki qadınların ağlayışlarına çoxdan vərdiş eləmiş qoca isə Ağcanın qız, bala ağlayışına oxşar ağlayışından riqqətə gəlmişdi və demişdi:

– Ağlama ey Ağca, bir olan Allaha and içirəm ki, əgər o rəhmə gəlib məni bu yataqdan ayağa qaldırsa, səni cariyəlikdən xanımlıq rütbəsinə ucaldacağam. Yox əgər bu yataqdan qalxmaq mənə nəsib olmayacaqsa son nəfəsimdə azadlıq verəcəyim qapı qullarım, kənizlərim və cariyələrin içində birinci sən olacaqsan!

Qocanın andından Ağcanın ürəyi döyünmüşdü; ölərkən qoca ona azadlıq verəcəkdi və Ağca bilirdi ki, hər bir müsəlman ölərkən qullarından və kənizlərindən nə qədər çox azad eləyirdisə bir o qədər çox savab və rəhmət qazanırdı. Buna görə idi ki, o gündən bir-birinə zidd iki hiss Ağcanın ürəyini didməyə başlamışdı. Çünki bir tərəfdən dərin bir minnətdarlıq hissilə qocaya xidmət edirdi ki, bir az cana gəlsin, ayağa dursun, digər tərəfdən səbirsizliklə qocanın ölümünü gözləyirdi ki, azadlığa, səadətə və könül verdiyi bir igid vardı ki, ona qovuşsun... Və əlbəttə ki, əgər qoca cariyəsinin bu gizli sevgisindən xəbər tutmuş olsaydı, Ağca indi çoxdan ağzı möhkəm bağlanmış bir çuval içində – çox dərin bir quyu dibindəki qəbrində yatmış olardı.

Lakin Ağcanın əli könül verdiyi o igiddən çox tez üzülmüşdü və dörd ildən artıq idi ki, Ağca o aslan doğmuşun öldüyündən, qaldığından

xəbər tuta bilməmişdi. Və indi birdən Həmədandan gələn dəvə karvanı ilə Ağcaya xoş bir xəbər gəlib çatmışdı ki, könül verdiyi igid sağdır və bu xəbər gümüş bir dirhəmdən ibarət idi ki, Ağca o dirhəmi bərk-bərk sağ ovcunda saxlayaraq başı alovlu örtülü bazarda vurnuxurdu. Çünki bu dirhəmlə bərabər onun aslan doğmuşu bu şəhərdəki yeganə və ən yaxın dostuna da qara bir təsbeh göndərmişdi ki, Ağca bu əmanəti tezliklə və məhz bu gün sahibinə çatdırmalı idi.

. Ağca bəzzazlar cərgəsində qaynaşan qadınlar arasından çıxmışdı. Papaqçı və dərzilər, xırdavatçılar cərgələrinə hətta qılınc pardaxlayanlar cərgəsinə də göz gəzdirmişdi. Amma heç yerdə axtardığı – oğlanı gözünə dəyməmişdi. Halbuki, o oğlan da qoca ibn Rəvvadın karvanlarında qatarçı idi və sabah o da Vəcnanın karvanıyla yola düşəcəkdi. İndi tək bir ondan başqa demək olar ki, karvan oğlanlarının hamısı bu gün bazarda idi; kimi yol üçün duz və un, kimi çaxmaq daşı və qov, kimi iynə-sap və sair alırdı və bəziləri də qılınc pardaxlayanlar cərgəsində əyri tiyəli qəmələrini əxarladırdılar!

Ağca bir fikirləşdi ki, bazardan çıxsın, üz tutsun Təbrizə, dağa tərəf, çay qırağına getsin. Çünki karvan oğlanlarından çoxları hər dəfə səfərə çıxarkən, orda, Acı çay körpüsü başında oturan falçı qadının yanına gedirdilər və həmişə çox təhlükəli olan karvan yollarında başlarına nə gələcəyi barədə fal açırdılar. Amma sonra birdən yadına düşdü ki, axtardığı o oğlan yola çıxarkən heç vaxt falına baxdırmır, amma hər dəfə xeyir-dua almaq üçün Qaraca dədə kuzəgərlə xudahafizləşməyə gedir.

Və bu vaxt Ağca əlini alnına çırpdı, örtülü bazarın sərinindən çıxdı, şəhərin qızmar günəşli boş küçələrindəki divar dibi kölgələrdə daldalanaraq gəldi Qala darvazasından keçdi və hər tərəfdən şəhəri çevrəyə almış üzüm bağları arasıyla üzüyuxarı çox qədim və nəhəng bir məbədin möhtəşəm xarabazarlığına doğru yönəldi.

Xərabəliyi belə çox qədim olan bu məbəd bir-birinə bitişik bir neçə tikinti tağlarından ibarət idi ki, vaxtilə spiralvarı qatlarla üstündən göyə doğru ucalan qülləsinin yarısı çoxdan uçulub tökülmüşdü, uzun və tağlı dəhlizlərlə bir-birinə bənd edilmiş dördbucaqlı həyətlərindəki rəngarəng dəmir sütunlardan bəziləri köndələninə yerə sərilmişdi və üç ayaqlı dairəvi tunc bir taz içində ulu atəşin yandığı atəşgah indi artıq əsrlərin bir-biri üzərinə qalaqlanmış qaranlığı içində qərq olmuşdu.



Amma bu möhtəşəm xarabazarlığın yarı uçuq-yarı salamat qalmış daş divarlarına çöl tərəfdən qaranquş yuvaları kimi yamanmış bir çox komalar və daxmalar vardı ki, bunlar şəhərin yoxsul peşəkarlarından pinəçilərin, həllacların[1], kuzəgərlərin və digərlərinin ustaxanalarına və yaşayış mənzillərinə çevrilmişdi. Və Ağca uca taxtbəndli tavan altındakı hər bir otağın ortasındakı səkkizguşəli üç pilləli atəş nəhrinə gəldi. Bu miskin daxmalar, ustaxanalar cərgəsi qarşısına çıxdı və gördüyü mənzərə qarşısında heyrət içində dayandı.

Qaraca dəvə kuzəgərin koması qarşısında sındırılıb, qırılıb çilik-çilik olmuş kuzələrdən, cürdəklərdən, küvəclərdən, dolçalardan və sair saxsı qablardan ehramvari bir təpəcik ucalmışdı. Və qoca kuzəgər əyilib-qalxaraq kəhildəyə-kəhildəyə hələ də yerdən yığmaqda olduğu saxsı qırıntılarını o təpəcik üstünə atırdı.

Ağca dayanıb baxırdı, qocanı dindirməyə cəsarət eləmirdi ki, axı hansı dəli-qudurmuş qocanın bu qədər zəhmətini zay eləmişdi və sorağında olduğu oğlan haqqında da qocadan bir söz soruşmamış çıxıb gedə bilmirdi, nəhayət, canını dişinə alaraq çadrasının ucunu soldan-sağa ağzına yaşmaq tutaraq, dedi:

– Görüm baisin əlləri qurusun, balaca dam evi başına uçulsun, üstünə od ələnsin, fəryadı ərşə dirənsin, Qaraca dədə... və üzüm ayaqların altına Qaraca dədə, səhərdən o Bilalabadlı oğlanı axtarıram. Sabah o da Vəcnanın karvanı ilə yola düşür, o karvan ki, Həmədana gedir, Karvan oğlanlarından çoxu bazarda idi. Kimi duz alırdı, kimi un, kimi ipək sap. Amma təkcə o yoxdu o oğlanlar içində dedim bəlkə səndən xeyir-dua almağa gəlib, çünki bilirəm hər dəfə uzaq səfərə çıxanda əlini öpməyə, səninlə xudahafizləşməyə gəlir. Əgər gəlibsə və gedibsə və yainki bir saatdan gələcəksə...

Qaraca dədə heyrətlə başını qaldırmışdı. Sonra dikələrək:

– Toxta ay qadın, dil otu yemisən, nədi? – dedi.

Və bu vaxt Ağca oğlanı gördü, komanın içindəki dulus çarxının arxasından yuxarıya, balaxanaya qalxan ensiz və dik pilləkənlə ağır-ağır üzü aşağı enirdi, alnında ağ sarıq vardı. Başı açıqdı. Gur saçları arxadan boynuna tökülmüşdü. Yay və qış ibn Rəvvadın karvanlarıyla keçib getdiyi, qayıdıb gəldiyi uzun yolların küləkləri, yağışları və günəş ilə yuyulmuş yanıq əsmər bənizi bulud kimi tutulmuşdu. Sıx kirpiklərinin

[1] Pambıq və yun atanların

sərt bir ifadə verdiyi gözlərində nə isə bir yanarlıq vardı və Ağcanı görərkən başın aşağı saldı, dinmədi.

Ağca isə irəli atıldı və ürəyini bir an tez o sehrin məngənəsindən qopardırmış kimi birnəfəsə dedi:

– Gün aydın ay Babək, başını aşağı salma, xəbər verməkr üçün gəlmişəm ki, Tərxan zindandadır.

Qaraca dədə yenə heyrətlə Ağcaya baxdı və sonra pilləkəndə dayanmış Babəkə tərəf döndü və dedi:

– İndiki vacib söhbətiniz var, qalxın yuxarı, xəlvətə çəkilin. Yoxsa İmam Hənibalın qoçaqları qayıdıb görsələr ki, küçədə bir qadınla bir kişi söhbət eləyir, qara it sürüsü kimi düşəcəklər üstünüzə...

Babək döndü yuxarı qalxdı. Ağca da tez özünü içəri saldı. Sonra başından siyirdiyi çadrasını çəngələdi, qoltuğuna vurdu və bir göz qırpımında pilləkənlə yuxarı dırmaşdı.

Məmunun vəliəhdi İmam Rza şəhid olandan sonra imamlıq doqquz yaşındakı oğluna keçmişdi və indi o uşaq hələ bir körpə idi və şiyələrin doqquzuncu imamı kimi irəlidə başına gələcək son fəlakətə doğru hələ çox yol getməliydi.

Sünnüləri əhatə eləyən dörd məzhəbin qurucularından 55 dəfə həccə getdiyi ilə məşhur olan İmam Əzim Əbu Hənifə imam Şəfi ilə və İmam Malik artıq həyatda deyildilər, amma dördüncü məzhəbin banisi olan İmam Əhməd ibn Hənibal hələ sağ idi. Bağdadda oturmuşdu və getdikcə İslam dünyasını daha artıq ağzına alan əxlaq pozğunluğuna qarşı elə amansız mübarizə başlamışdı ki, özündən təəssübkeş olan müridləri vaxtaşırı Bağdadda, xilafətin digər şəhərlərinə hücum çəkərək meyxanələri və şərab satılan dükanları dağıdırdılar, şərab çəlləklərindəki təbrizi və ağ çaxırı küçələrə axıdırdılar, eyş-işrətçi, nəğməçi cariyələri doldururdular içəriyə, musiqi alətlərini sındırırdılar. Küçələrdə bir kişinin bir qadınla danışdığını görəndə dərhal başının üstünü alırdılar ki, əgər bu qadın sənin halalındırsa, bir müsəlmanın küçədə camaatın gözü qarşısında öz arvadıyla söhbət eləməsi çox iyrənc bir hərəkətdir, yox əgər qadın sənə naməhrəmdirsə bu artıq zinakarlığa bərabər bir cinayətdir və ibn Hənibalın müridlərinə görə hətta bayırda-bacada və küçələrdə gülüşmək də əxlaqsızlıq idi, çünki imamların təliminə görə qəhqəhə çəkərək gülmək haram idi. Yalnız gülümsəmək olardı, o vaxt gərək gülümsəyən şəxsin dişləri görünməyəydi və əgər bir məclisdə bir şəxs gülməli bir söz deyib məclisi



güldürsəydi, imam Hənibala görə o şəxs özünü o dərəcədə alçaldırdı ki, bu, Süreyya[1] ulduzundan daha uca bir nöqtədən yerə yıxılmağa bərabərdi...

Təsir əks-təsirə bərabər bir bütün bu ifrat yasaqlara rəğmən məhz 9-cu əsr İslam dünyasının öz xəlifələrinə bərabər ən çox içki içdi, ən çox çalğı çaldığı, ən çox şux mahnılar oxuduğu və ərəb poeziyasında şərabı tərənnüm edən "tərəbat" janrının ən çox çiçəkləndiyi bir dövr idi.

Bu günlər isə İmam Hənibalın müridlərindən qaragüruh bir dəstə Həmədanda və sonra Zəncanda toy məclislərində belə çalınan musiqini və oxunan mahnını susdurandan sonra Təbrizə gəlmiş, şərab satan bir neçə yəhudi dükanını dağıtmış, küçələrdə çadralı qadınlarla danışan kimə rast gəlmişdilərsə döyənəklərini işə salmışdılar və nəhayət, gəlib Qaraca dədə kuzəgərin koması qarşısında cərgə ilə düzülmüş kuzələri, güvəcləri və sairəni qırıb tökməyə başlamışdılar ki, şəhərdə ən çox sənin kuzələrinin müştərisi var. Çünki sən bu kuzələrin bəzilərinə qırmızı, digərlərinə reyhani şərab doldurub dükanın qabağında sərgiyə qoyursan və gözünlə işarə eləyəndə imanlarını şeytana oğurladanlar o kuzələri qapıb aparırlar.

Və bu bir həqiqət idi ki, Qaraca dədənin müştəriləri heç vaxt əskik olmurdu, çünki qocanın əlindən çıxan o kuzələrdə və cürdəklərdə yayın cırcıramasında belə kəhriz suyu sərin və tərtəmiz idi.

İbn Hənibalın müridləri isə kuzələri, cürdəkləri, hətta küvəcləri və dolçaları belə bir-bir qıraraq nəhayət, birindən qırmızı və yaxud ağ şərab dağılacağını gözlərkən, ümidləri boşa çıxdığı və quduzlaşdıqları bir vaxtda Babək gəlib çıxmışdı və qocanın araya girməsinə baxmayaraq müqavimət göstərmiş, müridlərlə əlbəyaxa olmuş və başı yarılmışdı, qaragüruh dəstə isə imamlarının qəhqəhəni yasaq etdiyini unudaraq kişnəyə-kişnəyə uzaqlaşıb getmişdi...

...Komanın aşağı qatı qocanın ustaxanası idi, qoca dulus çarxını burda fırladırdı, ocağını burda yandırırdı. Və tavanı çox alçaq yuxarı qata ancaq yatmaq üçün qalxırdı. İndi Ağca burda yerə salınmış yırtıq həsir üstündə düşüb qalmışdı, Babək isə alçaq taxt üstündə oturmuşdu və hər ikisi susmuşdu. Ağca bir an ovcunu açmış və Tərxanın göndərdiyi dirhəmi Babəkə göstərmişdi. Sonra yenə tez dirhəmi ovucu içində elə bərk-bərk sıxmışdı ki, elə bil, o gümüş dirhəm ağ bir quşa

[1] Qədim nücum elminə görə göyün ən yüksək nöqtəsində olan ulduz

çevrilib əlindən uçacaqdı. Amma Babəkə verdiyi qara təsbeh elə bil Babəkin əlində dərhal ağır bir daşa çevrilmişdi. Qolunu yanına salmışdı. Və indi o baxışları hərəkətsiz bir halda, yerindən qımıldanmadan və Ağcaya bir söz demədən taxt üstündə oturmuşdu. Ağca gözləməlidir ki, o getdiyi yerdən geri qayıtsın, başını qaldırsın, Ağcanı görsün və Ağcaya nə isə bircə kəlmə söz desin.

...Və o indi getdiyi o yerdən qayıdırdı, o yerdən ki, yazda ayransız, qışda yorğansız keçinmiş, ömrünün ən acı tarixi orda qurtarmışdı. O, bu dünyada ürəyinə ən əziz olan adama orda rast gəlmişdi və bu o vaxt idi ki, o yerin dağ kəndlərində o il yenə aclıq başlanmışdı. O isə yeniyetmə bir oğlandı, dağ ətəyindəki bir kənddən başaçıq, ayaqyalın yola düşmüşdü, üzüaşağı hələ bu vaxta qədər görmədiyi şəhərlərə doğru gedirdi. O şəhərlər ki, anasının rəvayətinə görə əkin-biçin nə olduğunu bilməyən o şəhərlərdə həmişə bolluq və ucuzluq idi, amma əkibbiçən kəndistanda vaxtaşırı aclıq illəri olurdu. Məxluq ot otlayırdı. Anası onu o qədər ilin dağlardakı aclığından xilas etmək üçün şəhərlərə doğru qovmuşdu. Özü isə təkbaşına kənddə qalmışdı. Təpə üstündə dayanıb uzun-uzadı tək bir balasının – atası öldürüləndən sonra dünyaya gəlmiş oğlunun arxasınca baxmışdı və qovi sinəsində çarpazlaşmış qollarıyla elə bil ürəyində açılan boşluğu qucaqlayıb sinəsinə sıxmışdı...

Beləliklə, on bir yaşındakı bu yeniyetmə tək başına yurdunun şəhərləri içində o vaxt ən böyük şəhər olan Ərdəbilə doğru yollanmışdı. Səmti göstərən nişan isə Savalan dağının qarlı zirvəsi idi ki, gedib o dağın ətəyindəki şəhərə yetişənə qədər bu nişanələr həmişə gözləri qarşısında olacaqdı və anasının rəvayətinə görə bu dünyadakı şəhərlər içində bazarlarında satılan çörəyin ucuzluğu və ağlığı ilə məşhur olan iki şəhər vardır ki, biri Ərdəbil idisə, digəri çox uzaqda Əlvənd dağının ətəyindəki Həmədan idi.

Lakin o gedib Ərdəbilə çıxa bilməmişdi, çox yorulduğu və çox acdığı o günün günorta çağında taleyi onu Tərxana rast gətirmişdi. Tərxan o vaxt təzəcə igid yaşına dolmuşdu və yol altında şırımladığı bir zəmi qırağında oturub süfrə açmışdı, bir yaylıqdan ibarət olan o süfrə üstündə isə bir baş soğan, bir yumru pendir və bir parça cad əppəyi vardı. Amma yoldan keçən başaçıq, ayaqyalın bir oğlanı görərkən Tərxanın kəsdiyi çörək boğazından getməmişdi, dizi üstə qalxıb onu səsləmişdi ki, ay uşaq, kimsən, hara gedirsən yaxın gəl otur, bir tikə çörək kəs mənimlə, və uşaq o qədər ac idi ki, ikinci dəfə təklifə ehtiyac qalmamışdı.



Tərxan burda türbə dustağının sahibi bir ərəb şeyxi üçün rəncbərlik edirdi və biləndə ki, bu oğlan hara gedir, nə üçün gedir, onu yanında saxlamışdı ki, çubuqçu kimi ona kömək eləsin və o gündən dörd cüt öküz qoşulmuş çox böyük və çox ağır xışın dəstəyindən Tərxan yapışırdı, o isə əlində nar çubuğu irəli keçirdi və ağır tərpənişli öküzləri hohalayırdı...

Sonra Tərxan onu Təbrizə gətirmişdi, özü qırmızı dağ ətəyindəki duz dağının lağımlarından duz çapmağa başlamışdı, amma qaranlıq lağımlarda duz çapmaq, çox ağır bir işdi, bəzən lağımların tağı uçulurdu, adamlar uçqun altında qalırdı və hələ igid yaşına dolmadığı üçün Tərxan qıymadı ki, o da lağımlarda işləsin və qoca bir sarvanın vasitəsilə onu Təbrizin sahibi qoca ibn Rəvvadın dükanlarında qatarçı kimi işə düzəltdi...

Sonra burda – Təbrizdə bu qadınını, bu saat orda qapı ağzında oturub o başını aşağı salmış və sağ ovcundakı gümüş bir dirhəmi bərkbərk sıxaraq donub qalmış bu qadının gözlərindəki girdab çəkdi, Tərxanı öz dərinində qərq elədi. Əgər dənizdə batan saman çöpünə sarılırdısa Tərxan da qoşun dəftərinə muzdlu əsgər yazıldı. Xəlifə Əmin ilə Məmun arasında başlanan müharibəyə getdi. Ümid eləyirdi ki, Xəlifə Əminin səxavətlə muzdlu əsgərlərə vəd etdiyi böyük maaşla varlanacaq və qayıdacaq, bu qadının – Ağcanın bahasını ödəyərək onu cariyəlikdən qurtaracaqdır.

Lakin xəlifə Əmin ilə Məmunun müharibəsi qurtardı, amma Tərxan qayıtmadı... Və o zamandan Babək hər dəfə ibn Rəvvadın karvanlarıyla uzaq və uzun səfərlərə gedib qayıdan zaman bu qadın gəlirdi, gözlərini onun gözlərinə tikirdi ki, bəlkə soraqlaşıb Tərxanın öldüyü və ya qaldığı haqqında bir şey eşitmişdir, o isə hər dəfə başını aşağı salanda bu qadın qara çadrası altında kiçilirdi, yumağa dönürdü, başı vurulmuş quş başı kimi çiyninə düşürdü. Və sürüyürdü ayaqlarını, uzaqlaşıb gedirdi...

Nəhayət, Ağca aralığa çökmüş bu ağır sükuta davam gətirmədi, başını qaldırdı və dedi:

– Niyə dinmirsən ey Babək, niyə mənə xoş bir söz demirsən?

– Şükr elə, – dedi Babək, – və min dəfə şükr olsun ki, Tərxan sağdır.

– Elədir. Sağdır, amma halallaşır səninlə ki, öz zindan cirəsinin bir tikə qara əppəyindən yoğurduğu o qara təsbehi sənə yadigar göndərib və halallaşır mənimlə ki, varı-dövləti bu bir dirhəmi mənə miras qoyub gedib...

Bir dustağın zindandan göndərdiyi bir təsbih və bir dirhəm ilə nə dediyini bəlkə də bu qadının yozduğu kimi yozmaq olardı. Amma o dirhəmi qəbul eləməmişdi.

– Naümid olma ey qadın, – dedi, – zindana atılanların hamısına ölüm düşmür... Və sabah ki, mən Vəcnanın karvanı ilə yola düşürəm, qalacam orda, Həmədanda... lazım gəlsə əyarlara, sasanlara qoşulacağam. "Cavan mərdlər" məclisinə yol tapacağam. Və Tərxanı dardan qurtarmaq üçün bir qaşıq qanım üçün titrəmiyəcəyəm...

– İnanıram ki, məni ovundurmursan, – dedi Ağca, – amma and iç, söz ver ki, qəzavü-qədər öz işini işləsə... İzdihama qoşulub sən də tamaşasına gedəcəksən və irəli qaçıb ön cərgədə dayanacaqsan... Təki yaxası cəllad əlində olanı gözləri son nəfəsində o qərib şəhərdə, o yad izdiham içində ürəyinə əziz olan bir adamın üzünü görsün...

Babək ağır-ağır nəfəs aldı. Nə isə demək istədi, amma Ağca aman vermədi, həm də elə bil qızdırma içində yanırdı, ağı deyirdi, qurtara bilmirdi.

– Gedərəm səninlə, amma mümkün deyil. Aparmazsan və əgər aparsaydın, mümkün deyil, gedə bilməzdim... Amma qoyma orda onun leşini boyaqçı yəhudilər dəfn eləsin; eşitmişəm, xəbərim var, Həmədan valisi hər dəfə orda boynu vurulanları dəfn eləməyi ordakı yəhudilərin boynuna biyar qoyub... söz ver, and iç ki, Tərxanı qara torpağa sən özün təslim eliyəcəksən.

– Bəd fal açma, ey qadın, bu nə bayquşluqdur anlamıram. Bəs deyilmi ki, sənin ucbatından...

Və dərhal boğdu özünü, dayandı. İçində kül altındakı göz kimi bir tünlük vardı ki, bəzən ansızın alışar, özü özüylə əlbəyaxa olurdu və Tərxan da vaxtilə bu barədə ona xəbərdarlıq eləmişdi. Və indi o içində alışanı dərhal söndürərkən elə bil o oddan qopan çırtdaq sıçradı, Ağcanın ürəyinə düşdü və Ağcanın gözləri divara qısnanmış vəhşi bir çöl pişiyinin gözləri kimi alışıb yandı.

– Elədir, mənim ucbatımdan! Və qoy olsun mənim ucbatımdan... Bilirəm dilin gəlmir söz verməyə. Amma gedəcəksən. Bilirəm dilin gəlmir and içməyə, amma gedəcəksən və keçəcəksən, ön cərgədə dayanacaqsan və tamaşa eliyəcəksən və gülümsəyəcəksən aslan doğmuşum səni görəndə... mən də burda bu xınalı dırnaqlarımla yanaqlarımı didməyəcəyəm... Üzümə qara çəkib saçımı yolmayacağam. Daş götürüb dizimi döyməyəcəyəm. Onun qisasını mən özüm alacağam...



– Kimdən? – dedi Babək çox yavaşdan və öz sualına özü cavab tapmaq istədi...

Amma Ağca eşitdi və dedi:

– Özümdən, gözlərimdən. Əvvəlcə kor olmuş bu gözlərimin fitnəsi onun ağlını başından çıxartdı... sonra o vaxt ki, ona qırmızı bir alma göndərdim – o vaxt o gün könül dəftərinə yazıldım. Müharibəyə getdi... Amma bu dörd ildə onun ölümünə inanmayan təkcə mən idim... və sən ki, hər dəfə məni görəndə başını aşağı salırdın, ona görə mənə bir söz tapıb deyə bilmirdin ki, Tərxanın sağ qaldığına inanmırdın...

Haqlı idi bu qadın. O, Tərxanın sağ qaldığına çoxdan ümidini itirmişdi və bu qadından qaçırdı. Hətta örtülü bazardan da ayağını kəsmişdi, çünki bu qadınla ancaq orda üz-üzə gələ bilərdi.

– Sakit ol, – dedi, – dəli dərvişlik eləmə. Amma haqlısan, mən ümidimi üzmüşdüm ki, Tərxan sağdır və o vaxtdan doğma qardaşını itirmiş kimi ürəyim məlul idi, fikrim pərişan...

Çünki çox uzaqlarda on illər yolumu gözləyən anam və kiçik bir qardaşım varsa, Tərxan mənim üçün həmişə böyük qardaş idi.

– Kiçik qardaşın, – deyə Ağca birdən heyrətlə səsləndi, – amma Tərxan mənə demişdi ki, atan öldürüləndən sonra sən anadan olmusan...

Ağcanın başı üstündən hara isə uzağa baxdı və dedi:

– Elədir, atam öldürüləndən sonra mən doğulmuşam... Və on ilə yaxındır ki, kənddən çıxmışam...

Və Ağca qadına məxsus fitri, dayanılmaz bir maraq hissilə və özünün duymadığı bir qəddarlıqla özünü saxlaya bilmədi:

– Və səndən sonra ərsiz anan orda sənə qardaş doğub? – dedi və dediyindən özü diksindi. İstər qəsdən, istər bilmədən yalnız qadın dili bu qədər sərrast zərbə vurmağa qadir idi və Ağcaya bir an elə gəldi ki, ağrıyan gözləri balacalanmış bu oğlan bu saat yerindən qalxıb onu vuracaqdır və Ağca yenə adəti üzrə qorxunc bir şey görmüş uşaq kimi gözlərini yumdu və bu vaxt çox yavaşdan və çox təmkinlə sanki yarımçıq qalmış sözünü tamamlayırmış kimi Babəkin dediklərini eşitdi:

– ...Sonra xəbər tutdum ki, anam o uşağa... kiçik qardaşıma, öldürülmüş atamın adını qoyub... Abdulladır qardaşımın adı.

Və indi Ağca bir qadın sövqi təbiisilə bu sözlərdə xaincəsinə ya özü bilmədən vurduğu zərbəsini əfv edən çox ağrıyan, çox zərif bir ürəyin səsini eşidirkən sarıldı. Yerindən sıçradı, gəldi Babəkin sarıqlı

başını ovucları içərisinə aldı, sonra geri çəkdiyi əllərini sağdan və soldan bərk-bərk öz gicgahlarına sıxaraq hərəkətsiz qaldı və bu hərəkəti ilə qarşısındakının ürəyindəki ağrını öz ürəyinə qəbul elədiyinə inamı o qədər qüvvətli idi ki, yavaş-yavaş axıb ürəyinə sızmağa başlayan bir ağrı hiss edərkən başını qaldırdı və məzlum bir təbəssümlə Babəkin üzünə baxdı...

## 2

O xürrəmilər ki, bu şəhərin sakini idilər və çoxdan yeganə İbadətgahı məscid olan bu şəhərdə sayca çox az idilər, hər il yalnız bir dəfə "sevgi ziyafəti" adlandırdıqları gizli məclislərinə burda, bu qədim atəşgədənin möhtəşəm xarabazarlığı altındakı qaranlıq zirzəmidə toplanırdılar.

Və bu məclisdə örtülü bazarın darvaza tağı altındakı xəfə bir bucaqda papuc yamayan bir pinəçi ilə zərgərlər cərgəsindəki bağdakı tağ altında gümüş çəkici ilə qızıl döyəcləyən bir zərgər bir-birinə bərabərdi. Buna görə idi ki, "Sevgi ziyafəti" məclisində hamı həsir üstündə salınmış dairəvi bir süfrə başında diz çöküb otururdu. Çünki bu dairəvi süfrənin nə yuxarı başı vardı, nə aşağı başı. Və hər biri sağa tərəf dönüb öz qonşusunun çiynindən öpərkən çevrə tamamlanıb qapanırdı – qapanan və tamamlanan bu çevrə isə onlar üçün zamanın hər dəfə özündən başlanıb özündə qurtaran əbədi fikrini təmsil edərdi...

Sonra onlar tam bir sükut içində və sol əllərilə sol dizlərinə istinad edərək və yalnız sağ əllərini süfrəyə uzadıb yeməyə başlayırdılar və nəhayət, əldən-ələ keçən böyük bir piyalədən növbə ilə şərab içərək, yemək mərasimini tamamlayırdılar.

Və bu vaxt məclisdəki sükutə son qoyularkən bir ağızdan həzin bir avazla Şirvinin uca ruhuna xitab edərək oxuduqları nəğmə həm duaları, həm sürudları, həm çağırışları idi ki, uca Şirvinin ruhu, bizi "günəşli atlı" müjdəsilə yad et. Yad et ki, sonra ölərkən cismini anası torpaq öz ağuşuna almışdı və ruhunu atası göylər öz hüzuruna çağırmışdı.

Xristianlaşmış, yaxud müsəlmanlaşmış çox qədim etiqadlar kimi bu da xürrəmiləşmiş qədim etiqad idi ki, Şirvin ruhu mərhələ-mərhələ çevrilişlərə uğrayaraq nəhayət günəşli bir atlı simasında öz oxşarına qovuşacaqdı və Doğarıdan çapıb gələcək bu "günəşli atlı" qaranlığı çoxalmış bu dünyanın xilaskarı olacaqdı, yer üzündəki zülm və yamanlığa son qoyacaqdı...



...İndi burda bu gecə qədim xarabalığın qaranlıq zirzəmisində qurulmuş adi ziyafət olan bu yoxsul "sevgi ziyafəti" süfrəsində yalnız səngək çörəyi, pendir, duz, ayran və bir kuzə ağappaq reyhani şərab vardı. Çünki "sevgi ziyafəti" süfrəsi onlar üçün eyş-işrət süfrəsi deyildi. Bəlkə mənəvi qida məclisi idi və hər il qardaşlıqlarını yenidən bərpa etdikləri yeganə dini mərasimləri də bu idi.

Və bu vaxta qədər onlar bu "sevgi ziyafəti" məclislərində Qaraca dədəni heç vaxt xüsusi bir döşəkçə üstündə oturmağa məcbur edə bilməmişdilər. Amma bu axşamkı məclislərində qoca ilk dəfə idi ki, güzəştə getmişdi. Və indi həsir üstünə sərilmiş bir pələng dərisi üstündə oturmuşdu ki, bu pələng dərisini Boz quş dağlarındakı azad xürrəmilərin elçiləri bu məclisə gətirmişdilər və bu elçilərdən biri – pələng ovçusu – çılpaq oğlu dağlardakı ənənəyə görə ovladığı pələngin quyruğunu qotaz kimi sol qolundan asmışdı.

Vaxtilə islam tufanının ilk dalğaları Boz quş dağlarının ətəyinə qədər gedib çıxmış, uzaq qumlu səhralardan ağnayıb gələn bu sel Azəri dağlarının yamaclarını çox döyəcləmiş, amma yuxarı qurşaqlara qalxa bilməmiş və dağ kəndlərini xürrəmilik etiqadından qopartmaq cəhdləri baş tutmamışdı və indi Qaraca dədə o dağlardan gələn xürrəmilərə üz tutaraq dedi:

– Siz ey şad ürəkli, xürrəmdin qardaşlarımız, bir kəlam var ki, dağlılar həmişə azad olublar və indi siz, dağlarımızın azad xürrəmiləri bizim qovğun şəhər xürrəmilərinin bu gizlin qardaşlıq süfrəsinə xoş gəlmisiniz. Və biz ki, hər il günəş sünbülə bürcündə mənzil tutarkən bu qaranlıq zirzəmidə süfrə açırıq, muradımız budur ki, qoy Şirvinin uca ruhu iqbalımızı işıqlı, ürəyimizi şad eləsin!

Və "Amin" demişdi bütün məclis!

Qaraca dədə davam elədi:

– Nə qəm ki, – bir tikə əppək, bir Kuzə şərab var süfrəmizdə, əvəzində etiqadımız budur ki, insan üçün bu dünyadan qeyri bir dünya yoxdur və hər bir insan ürəyində ki, bir bağça var, o bağça gərək bu dünyanın sevinci ilə abad olsun! Əlbət ki, böyük dinlər üçün bu küfrdir və o dinlərdən heç biri insanın bu dünyadakı sevincini qəbul edə bilmir, amma o böyük dinlərdə yaxşı nə varsa, bizim etiqadımız qəbul eləyir, çünki "öldürmə və qan tökmə" buyruğu bizim üçün də ən müqəddəs buyruqdur və buna görə o böyük dinlərin o yasaqları ki, insan ürəyindəki sevinci boğur və bu dünyada əzab çəkənlərə o biri dünya

təsəllisilə tələ qurur və kimin ki, ruhu ən çox miskindirsə ən çox onu *xoşbəxt hesab eləyir, – biz bütün bu yasaqları və ehkamları qəbul etməmişik*, çünki bütün insanlar üçün elə vacib bir din arzu edirik ki, o dinin bayrağı göydə günəşdir. Və o dinin ədaləti ilə bu dünyanın bütün nemətləri bütün insanlar arasında gərək tən bölünsün!..

Və "amin" dedi bütün məclis!

Qaraca dədə nəfəsini dərdi və bir an fikrə getdi.

Çılpaq oğlu qocanın susub fikrə getdiyini görərkən hiss elədi ki, dağlardakı xürrəmilərin sözünü qocaya yetirmək üçün vaxt gəlib çatmışdır, amma deyəcəyi o fikrilə o qədər həyəcanlandı ki, yardım istəyirmiş kimi dönüb yoldaşlarına baxarkən Boz quş dağlarının xürrəmiləri dərhal onun köməyinə gəldilər və hamısı birdən, bu gizli yeraltı məclisdə qıyya vurub uca səslə haykırdılar:

Üstümüzdən bu qaranlığı yox etməyə
Ər gərək gəlsin, gərək!
Sərvər – gərək gəlsin gərək!
Rəhbərimiz Şirvin gəlsin, gərək!

Və sinələri meydan bu dağ adamlarının nəfəsindən süfrə qırağına sancılmış şamlardan bir neçəsi sönərkən Çılpaq oğlu deyəcəyi sözə yoldaşlarıyla bərabər belə bir girişlə başlayandan sonra, Qaraca dədəyə üz tutub dedi:

– Biz iş ərləriyik, Qaraca dədə, qılınc ərləriyik, amma içimizdə söz əri, söz sahibi baş biləndimiz yoxdur, ona görə, bizə elə bir şəxs lazımdır ki, hər sözü dağlardakı bütün xürrəmilər üçün qanun olsun! Çünki dağların azad xürrəmiləri içində ayrılıq, nifaq və ədavət o yerə çatıb ki, hər dəfə qış qurtarıb yay başlananda qonşu dağlar arasında döyüş olur, qan tökülür... Və sənin ki, sorağın Qaraca dədə, söz sahibi kimi çoxdan dillərdə dastan olub, Boz quş dağlarındakı bütün xürrəmilərin qərarı bu oldu ki, sən gərək dağlara gələsən və orda taxta çıxıb tacdar olasan və Azərşah kimi ordakı bütün azad xürrəmilərə hökm eləyəsən. Taki dağlardakı o ədavət, o nifaqa son qoyulsun...

Çılpaq oğlu dərindən nəfəsini dərdi və ağır bir yükü çiynindən atırmış kimi sağ əlinin tərsi ilə alnının tərini sildi və bu gözlənilməz təklifdən donub qalmış bütün məclisin gözü Qaraca dədəyə tərəf çevrildi. Qaraca dədə isə başını aşağı salıb səssizcə gülürdü və qocanın



gülüşü süd dişləri təzəcə tökülməyə başlamış bir uşaq gülüşünü andırırdı. Sonra qoca başını qaldırdı və dedi:

– Tanrı sizə *insaf versin, dağ xürrəmiləri, məgər içinizdə mənə rəhmi* gələn bir nəfər tapılmadımı?

– Nə barədə Qaraca dədə? – dedi Çılpaq oğlu və qocanın bu sözünə çox heyrət elədi.

– O barədə ki, nəinki Qaraca dədə, – bəlkə ədalət özü sabah çıxıb taxtında otursa və yaxud başına tac qoysa dannakı gün cəlladına əmr eliyəcək ki, hüzurunda boyun vurulsun... Və söz sahibi də mən deyiləm. Mən sözün ancaq başlanğıcıyam, böyük sözü gətirən və böyük işi tamamlayan o şəxs olacaqdır ki, o doğulmuşdur, doğulur və doğulacaqdır...

– Doğulmuşdur, çox yaxşı – deyə Çılpaq oğlu təslim olmaq istəmədi – doğulur yenə yaxşı, yaxud doğulacaq bu da yaxşı... Amma bizim qərarımız öz qüvvəsində qalır, Qaraca dədə və sən dağlarda öz taxtında oturandan sonra ildə bircə gün bizimlə yer şumlamağa çıxacaq və yenə ildə bircə gün bizimlə bərabər biçin biçəcəksən. Və sonra ildə bircə gün bizimlə bərabər xırman döyəcəksən, amma ilin bütün qalan günlərini taxtında oturub bizə əmr eliyəcəksən. Yox əgər bu işdən boyun qaçırsan, onda bizim də başqa çarəmiz qalmayacaq, Qaraca dədə, məgər ki, səni at belində dağlara qaçırtmaqdan savay.

Qaraca dədə bir an gözlərini döyə-döyə qaldı. Babəkin isə qaşları çatıldı və Çılpaq oğluna dedi:

– Dağlarda sizin qərarınız nə olub, özünüz bilərsiniz, burda şəhərdə heç kəs arzusu xilafına Qaraca dədəni narahat eliyə bilməz!

Çılpaq oğlu qonur qırğı gözlərilə Babəki süzdü və dedi:

– Bir ovucsunuz siz bu şəhərdə və biz eşitdik ki, bu gün Qaraca dədənin komasını az qala başına uçurdublar. Və əgər sabah özünü daşqalaq eləsələr – nə gələcək əlinizdən və neyliyəcəksiniz.

Və indi artıq bütün məclis uğuldamağa başladı...

Birinci dəfə idi ki, onların "sevgi ziyafəti"ndə hökm sürən qarşılıqlı nəvaziş yox olurdu, mərasimdəki ahəng pozulurdu. Sözləri çop gəlirdi, ehtiraslar toqquşurdu və əgər bu dağ adamlarındakı əzəli sərbəstlik ruhu, şəhərdəki bu yeraltı qapalı məclisə sığmamışdısa, digər tərəfdən məhz heç kəsə boyun əyməmiş bu dağ adamları Qaraca dədəni özlərinə tacdar eləmək istəyirdilər ki, qolları, sinələri üstə onun hüzurunda dayanıb bütün əmrlərinə tabe olsunlar.

Və indi Qaraca dədə düşünürdü ki, çoxdandır nə isə olmalıdır, amma olmur və hardasa bir qazan qaynayır, daşa bilmir və insan nə qədər çox söz deyirdisə, demək istədiyini deyə bilmir və o üç böyük dünya dini ki, bir-birinə nifrət edən üç bacıdır, ən çox onlar bu dünyaya nifaq və ədavət gətirdi və əgər bir zamanlar atəşpərəst İran ilə bütpərəst Turan çarpışırdısa, sonra xristianlıq dünyası ilə islam dünyası bir-birilə vuruşmağa başlamışdısa, indi müsəlmanlarla döyüşən xristianlar eyni zamanda öz içlərində bir-birinə qan uddurur və xristianlarla döyüşən müsəlmanlar eyni zamanda öz içlərində bir-birinin boğazın üzür və nəhayət burda, dağlardakı bu azad xürrəmilər bir-birilə didişir... və indi əgər o "Günəşli atlı" gəlməyəcəkdisə və çiynini bu yıxılan dünya altına verməyəcəkdisə, başqa hansı bir möcüzə bu dünyanı xilas edəcəkdi?

Bu vaxt "sevgi süfrəsi" başında şiddətlənən mübahisə qocanı dünyanın taleyi haqqındakı şaxəli düşüncələrindən qopardıb yenidən süfrə başına qaytardı.

– Və biz çoxdandır, – deyirdi Çılpaq oğlu, – şəhərdəki alimlərdən kimləri isə öldürənlərin və sonra dağlara qaçanların sorağın almırıq.

– Bu barədə haqlısan, – deyirdi Babək, – amma təəssüf ki, biz də çoxdandır, dağlarımızın təbil vurub, qiyam qaldırdığını eşitmirik.

– Qiyam??? – deyə səsləndi Çılpaq oğlu, – bizim üçün kifayətdir ki, hökumətin əli dağ başında bizə çatmır və hər dəfə əlini uzadıb bizdən xərac istəyəndə və yaxud cizyə[1] istəyəndə biz onun əlinə vurub geri qaytardıq.

– Bu yaxşıdır, – dedi Babək, – amma çox azdır.

– Azdır? Elə bil ki, doqquz il bundan əvvəl Həmədanda batinilər qiyam qaldıranda bizim dağlardan çox igidlər o şəhərin imdadına getdilər, amma sağ-salamat qayıdıb gələnlər beş-on nəfərdən artıq olmadı. Və mən orda Həmədanda şəhid olan bir kişinin oğluyam və bir iş ki, dəfələrlə baş tutmayıb onu unutmaq lazımdır, ikinci dəfə baş tutmadı, üçüncü dəfə, ta qiyamətə kimi...

...Və bu vaxt zirzəminin qatı qaranlığı içində sanki hördən qurcuxub diksinərək və yaxud dayanıb nəfəsini dərərək onlara doğru yaxınlaşan titrək və ufaq bir atəşi bəziləri bir an əvvəl görmüşdülərsə, digərləri də qanrılıb indi görərkən məclisdə hənirti kəsildi, hamı kiridi və gözlədilər o vaxtacan ki, nəhayət o bədbəxt qarı gəldi, gecənin bu aləmində qucağındakı tənəkə bir manqal ilə onların başı üstündə dayandı.

---
[1] Məğlub edilmişlərdən alınan bac şəklində maliyyə



*Qarının qucağındakı kiçik və dəyirmi manqaldan baş qaldıran üzgün* bir alovun qırmızı dili gah bir az uzanırdı, zirzəminin tavanı altından asılmış min illik qatı qaranlığını yalayırdı, gah boynunu qısırdı, manqaldakı xırdaca közlər üstə sərilib yayxanırdı.

Birinci dəfə idi ki, onların gizli məclis qurduqları bu zirzəmiyə yad bir adam gəlib çıxmışdı. Və bu yad adamı nəinki onlar, bütün şəhər tanıyırdı. Amma heç kəs onun bu nəhəng atəşgədənin xarabalığında hansı tağ altında, hansı xəfə bir bucaqda, sıra sütunların hansının böyründə məskən saldığını bilmirdi və yay-qış gah şəhərin meydançalarında, gah örtülü bazarında gəzib-dolaşan bu qarının qucağındakı yırtıqları yamaqlı bu tənəkə manqalda həmişə ufaq bir atəş yanırdı.

Və qarı hər gün örtülü bazarın şatırlar cərgəsində özünə bir tikə çörək dilənirdi, sonra gedirdi şəhərin kömürçülər meydanına və orda doğranmış ərcan və saqqız odunu ilə yüklü ulağlar yanında dayanıb müştəri gözləyirdi. Odunçulara bir tilişkə, bir talaşa və yaxud üç-dörd çör-çöp və ya çır-çırpı üçün əl açaraq zarıyırdı ki:

– Canımı qızdırmaq üçün istəmirəm, bu ufaq atəşə rəhm eləyin, buna ki, ulu bir atəşin qəlpəsidi. Və min ildən bəri qucağımda gəzdirirəm...

Və heç kəs bu atəşgədənin nə vaxt tikildiyini və nə vaxt xarabəyə çevrildiyini bilmədiyi kimi, bu qarının da əvvəllər kim olduğunu, sonra başına nə gəldiyini və nə üçün bu hala düşdüyünü bilmirdi. Qocalar iddia edirdilər ki, gözlərini açıb qarını bu halında bu şəklində görüblər, qadınlar qəfildən qarı ilə üz-üzə gələndə mistik bir vahiməyə qapılırdılar ki, başlarına nə isə gələcəkdir və yayın qızmarında belə qucağında atəş gəzdirən bu qarı rastına çıxanların ürəklərini üşüdürdü...

Məclis susub durdu, heç kəsdən səs çıxmırdı və Qaraca dədə geri qanrılıb başları üstə dayanmış qarıya dedi:

– Qulaq as ey məzlumə. Gecənin bu aləmində hardan gəldiyini, nə üçün gəldiyini və nə istədiyini bilmirik. Amma indi ki, gəlibsən və gəlib bu süfrə üstə çıxmısan, gəl otur və bir tikə çörək kəs bizimlə...

Məclisdəki gənclərdən biri ayağa qalxdı, qarının qolundan tutdu, süfrə başında öz yerində oturtdu. Qarı əsən əllərilə manqalı sinəsindən qopardıb süfrə üstünə qoydu, amma sonra belini dikəltməyə gücü çatmadı və manqal üstündə irəli geri çalxanaraq, səsi quyu dibindən gəlirmiş kimi iniltili bir züm-züməyə başladı:

– Buna rəhm eləyin. Buna sahib durun ki, tükəndi qüvvətim, qolum qırıldı. Buna ki, yubandım, bununla da qurdla qiyamətə qaldım. Buna ki, ölüm gəldi qızımı apardı. Amma bu qucağıma sığındı, salamat qaldı...

– Kim idi ki, qızın, ey bədbəxt qarı?

– Yeri-cadusu idi bu atəşgədənin və o ulu atəş ki, burda yanırdı, bu göylər altında ondan göyçək, ondan Cəmilə bir xatun görməmişdi. Və qızın gözləri yolda idi. Ağ atlı, gümüş oxlu, qızıl kamanlı nişanlısını gözləyirdi. Yeddi məşşatəsi[1] vardı ki, növbə ilə hər gün saçın darayırdılar. Biri Çindən, biri hinddən, biri Turandan, biri Rumdan, biri Yəməndən, biri Əndəlisdən... Min nəfər arvad da ağappaq donlarında burda yanan ulu atəşə səcdə eləyirdi... Yuxarıda atəşgahın hər divarında ömürləri hədə olmuş bir çox hökmüdarın tacı asılmışdı və aşağıda o hökmdarların xatunları qızım üçün həyət süpürüb, qab yuyurdular... Bu vaxt gün batanda o fil gəldi, bir fil ki, Sürxab dağından böyük idi, amma o dəlikdən ki, o fil keçdi, siçan dəliyindən kiçik idi... O fil tapdadı, o söndürdü ulu atəşi, o fil uçurtdu. O viranə qoydu bu sazımanı... O vaxt mən idim ki, ulu atəşin külündən bir köz götürdüm bu manqala atdım və o vaxt qızım idi ki, gecə gördüyü röyaları səhər bir nəfər mürid yoza bilmirdi...

– Ulduzçular da? – deyə kimsə səsləndi.

– Qoca ulduzçu başın götürüb çöllərə qaçmışdı. Demişdi ki, kaş ki, bu ulduz elmini öyrəndiyim gün göydən başıma daş düşəydi – çünki o şəxs ki, susuzundan yanırdı və gəlirdi çay qırağında dayanırdı, balıqlar ona su verəndə qorxurdu, balıqlardan qaçırdı və o inək ki, çox kök idi, dərisinə sığmırdı, amma doğduğu arıq buzovundan süd əmirdi. Və o şəhərin xəstələri ki, ölüm yatağında can verirdilər, amma hər gün yataqlarından qalxıb şəhərin sağlam adamlarına dərman aparırdılar və o möcüz ki, min ildi sinəsi üstündə atəş gəzdirirdi, ürəyi soyuğundan donub buz bağlayırdı...

Və birdən qarı hıçqırdı, amma ağlaya bilmədi və Qaraca dədə döndü qarıya dedi:

– Sakit ol ey məzlumə; ağlamaq üçün səndə göz yaşı hanı?

– Onda buna rəhm eləyin, – dedi qarı, – və buna sahib durun. Əcdadınız ulu atəşə sitayiş eləyirdi. Buna ki, qızı on beş yaşında əlimdən verdim. Amma min ildir qucağımda layla çalıram...

Sonra birdən qarı dikələndə, başını sağa-sola çevirərək məclisdəkilərin üzünə baxanda, gözlərində çaşqın şüurunun müsibəti elə dözülməz bir ifadə aldı ki, heç kəs davam gətirmədi. Kimi gözlərin qaçırdı, kimi başın aşağı saldı... Və o zaman ki, çox uzanan bir sükutun ağırlığı

[1] M ə ş ş a t ə – gəlin və qızları bəzəndirən qadın, bəzəkçi



altında qımıldanmağa və başlarını qaldırmağa başladılar, qarını artıq süfrə başında görmədilər və əgər o tənəkə manqalı içində öləziyən atəş ilə süfrə üstündə görməsəydilər, elə zənn edə bilərdilər ki, qarı qaranlıqdan qaranlığa gedən bir xəyalət imiş ki, bir an gözlərinə görsənmişdi, sonra yox olmuşdu.

Qaraca dədə isə köksünü ötürdü və dedi:

– Elə fərz eləyin ki, bir yuxu idi gördük – oyándıq... Əlbəttə ki, nəinki xərabə qalmış atəşgədələrin və yaxud ocaqların, hətta əriyib qurtaran bu şamların da mənzərəsi çox qüssəlidir. İnsan gərək həmişə ətəyini donunun əlindən qopartsın, amma donundan çiyninə gətirdiyini bir günə gətirsin və qədim şəhərlərin, kəndlərin xarabazarlığı kimi, qədim sözlərin və rəvayətlərin də xarabazarlığı var – və o bədbəxt qarının fili ki, Sürxab dağından böyük imiş, amma kiçik bir dəlikdən çıxıb gəlibmiş, o İsgəndər Rumi idi ki, Məqduniyyə adlı ufaq bir ölkədən xüruc eləmişdi və gəlmişdi Əcəm ölkəsindəki bütün atəşgədələri dağıtmışdı və bütün Məşriqi tapdamışdı. Ondan min il sonra da İslam qoşunları bu işi təkrar elədilər və indi fars iqlimində ancaq kəndlərdə salamat qalan kiçik atəşgədələrdə od yanır – amma biz ki, Azəri xürrəmiləriyik, bizim etiqadımızda nə bütə, nə atəşə nə xaça, nə qibləyə sitayiş yoxdur.

Qoca yenə bir an susdu, qarının tənəkə manqalında göz qırpan ufaq atəşə baxan gözləri yol çəkdi və sonra başını qaldırdı və dedi:

– Və əlbəttə ki, əcdadımız üçün bu od işıq idisə, *bizim* üçün də bu od işıqdır və işıq həqiqət idisə, bizim üçün də həqiqət yaxşılıqdır. Çünki insan ancaq ruhu yaxşıdırsa diridir və ruhi alçaqdırsa diri ikən ölüdür. Bir rəvayətə görə tanrı ilk insan adəmi yaradanda əvvəlcə onun müqəvvasın və yaxud heykəlin palçıqdan yoğurmuşdu və o heykəli uca bir divara söykəmişdi ki, palçığı-çamuru gün altında bir az qurusun. Bu vaxt İblis məsələdən xəbər tutub öz qoşunuyla çapıb gəldi, ilk insanın palçıq heykəlinə xeyli tamaşa elədi. Sonra o heykəlin – bəni adəmin burnundan içəri girdi, beynini araşdırdı və içinin bütün küncbucaqlarını gəzib dolaşdı və nəhayət yenə Adəmin burnundan çölə çıxdı və öz qoşununa dedi ki, qorxmayın, Adəm deyilən bu məxluğun içi bomboşdur. Amma o zaman ki, palçıq heykəl gün altında qurudu və tanrı adəmə ruh verdi, o vaxt dərhal ilk insanın – Adəmin üzü işıqlandı, gözlərində zəka şüası yandı və o gündən insan vücudunun qidası çörək, insan ruhunun qidası işıq oldu...

Vaxt idi, ayağa qalxmalı idilər, şəfəq vaxtı idi, doğan günəşi salamlamalı idilər və Qaraca dədə ilə bərabər bütün məclis ayağa qalxdı.

Yalnız Çılpaq oğlu bir an yubandı, tərpənməyib yerində qaldı və Araz qırağının Tuğay meşələrində pusquda dayandığı gecə şəfəq sökülərkən ovlayacağı o pələngi, o dəhşəti və o gözəlliyi iki addımlığında görərkən, gözlərində alışan o heyranlıq ilə o amansız ovçu həvəsi necə bir-birinə qarışmışdısa, indi də Qaraca dədədən qoparda bilmədiyi baxışlarında eyni qızdırmalı bir yanarlıq vardı.

Babək döndü, Çılpaq oğlunun qocaya zillənmiş baxışlarını tutdu, üzərindən bir kölgə qaçdı, qaşları çatıldı, sonra birdən gülümsündü və dedi:

– Ey Çılpaq oğlu, görürəm Reyhan şərabından çox ağırlaşmısan, tut əlimdən qalx ayağa, hamı ayaq üstədir...

Çılpaq oğlu diksindi, Babəkə tərəf döndü, qonur gözlərində soyuq bir işıltı yandı. Lakin Babək əlini ona doğru uzatmışdı və bir gecə bir süfrə başında çörək kəsmişdilər və indi əgər bir gün hətta bir-biri üstünə qılınc çəkən iki düşmən qoşun içində bir-birilə üz-üzə gəlsəydilər belə, yenə də biri digərinə əl qaldıra bilməzdi, çünki bütün xalqların və bütün zamanların ən pozulmaz qanunu idi və bu Çılpaq oğlu Babəkin əlindən tutub ayağa sıçradı...

*Bu, böyük bir karvanın*
*Həftələrlə yol getdiyidir.*
*Və kiçik bir oğlanın*
*O karvanın təqib etdiyidir.*

## 1

Mərvdən yola düşdüyü gündən bəri bu il yarımda Doğandan Batanya doğru hərəkət edən xəlifə Məmunun qafiləsi özünə tale zayicəsi tərtib etmiş veziri Sərəxs şəhərində, və çərəz kimi üzümü həddindən artıq çox xoşlayan vəliəhd şiyə imamını Tus şəhərində dəfn eləyəndən sonra nəhayət, gəlib Rey şəhərindən keçmişdi. Və vaxtilə qədim Midiyanın cah-cəlallı paytaxtı olan Okbatana yaxud indiki Həmədana yaxınlaşmaqda idi.

Eyni zamanda xilafətin quzey ucqarları hesab olunan Azərbaycanda və Arranda, Ərməniyyədə və Curzanda hər biri bir şəhər sahibi olan



qüdrətli ərəb feodallarının karvanları da bir-birinin ardınca Şamdan, yollar ayrıcı olan Zəncandan keçərək üzü Güneyə doğru Həmədana tərəf gedirdilər ki, orda xəlifə Məmunu istiqbal eləsinlər.

Bütün bu ərəb tayfa və qəbilə rəisləri isə yüz ildən artıq idi ki, islam qılıncının fəth elədiyi o ölkələrin qəsb olunmuş torpaqlarında nəsilbənəsil hökm sürürdülər.

Və bu qism feodallardan biri də Təbrizin sahibi qoca Məhəmməd ibn Rəvvad idi ki, xəstə olduğuna görə bir həftə əvvəl qardaşı Vəcnə ilə Təbrizdən böyük bir dəvə karvanı yola salmışdı və o karvan dünən axşam gəlib Zəncana çatmışdı və bazaryanı böyük karvansarada bir gecə toxdamışdı...

Sonra səhər açılmış, bazar darvazası önündə təbil çalınmış, quşlarla yatan şəhər quşlarla bərabər oyanmış, izdiham axıb bazar meydanını doldurmuş, yüngül çəkiclər altında tox qırmızı misdən sızıltılı cingiltilər ucalmış, ağır çəkiclər altında boz qaramtıl dəmir qəzəblə nəriltiyə başlamış, bazar darvazası önündəki qocaman bir söyüdün budaqları arasına doluşan yarpaq sanı sərçələr yuxarıda məşhəri bir şivən qopartmış, aşağıda haman ağac altına qovulan bir bölük dilənçi uşağın fəğanı bütün səslərə qarışdığı vaxt Təbriz karvanı bazaryanı karvansaradan çıxmışdı və Güneyə doğru üz tutaraq Həmədan yolunda gözdən itmişdi...

...Və bu il ki, xilafətin bir çox əyalətlərində yenə qıtlıq və aclıq ili idi, dağ kəndlərindən axıb şəhərlərə dilənçiliyə gələn oğlan uşaqlarının sayı hər gün bir az daha artırdı. Zəncan isə yollar ayrıcı olduğuna görə, kəndistandan axıb gələn o uşaqların çoxu burda ilişib qaldığı üçün bazar darğaları hər gün olduğu kimi bu gün də bazar ağzındakı qoca söyüd ağacı altında zarıyan bu uşaqları bir müddət bazara buraxmamışdılar və yenə hər gün olduğu kimi bir saat sonra cındırından cin ürkən bu cin yığınağı yekparə bir kütlə halında hərəkətə gələrək bazar darvazasına hücum eləmiş – darğaları kənara atıb içəri doluşmuş və içəridə dərhal pərpətövün toxumu kimi dağım-dağım olaraq bütün bazara səpələnmişdir. İndi bu sürüşkən civə qətrələri ta axşamacan bazarın qaynarında çalxanacaqdılar.

Lakin dilənçi uşaqların bazar darvazasına bugünkü hücumu zamanı yalnız təkcə bir uşaq yerindən tərpənməmiş, söyüd ağacı altında dünya başına dolanmış və bazaryanı karvansaradan çıxan Təbriz karvanının arxasınca baxa-baxa qalmışdı. Çünki uşaq o karvan başındakı azman

arvana[1] üstündə yırğalanan qara çalmalı, qara əbalı, qalın çatma qaşlı, zəhimli baxışlı şəxsi tanımışdı və o vaxt ki, tanımışdı, ürəyini qarsan və yaşına rəhm etməyən amansız bir hissin şiddətindən nəfəsi boğazına tıxanmış, gözləri qaranlıq gətirmişdi.

Və indi o karvan uzaqlaşdıqca uşaq içini yeyirdi, uçunurdu və nə edəcəyini bilmirdi.

Nəhayət, handan-hana ki, özünə gəlmişdi və bəbəklərinin dərinində o qətiyyətin soyuq işığı alışmışdı, yerindən qopub bazara cummuşdu, izdihamın qaynarı içindən ilanvarı ziğzaklarda şütüyərək gəlib qəssablar cərgəsinə çıxmışdı və elə birinci dükan önündəki dəyirmi kötük üstünə atılmış bıçaqlardan birini qaparaq qaçmışdı. Və əlbəttə ki, dərhal arxasınca qulaqlarını gicitkan kimi dalayan nəhlət, söyüş səsi və ayaq tappıltısı eşitmişdi. Və nə qədər təhlükəli bir işə əl atdığını yaxşı bildiyi üçün bir qanadı qorxu, bir qanadı dəhşət ilə uçub aradan çıxmışdı, çünki yaxalansaydı ən yüngül cəzası o olacaqdı ki, elə oğurladığı bıçaqla qulaqlarından biri tən yarısınacan kəsiləcəkdi...

Sonra o qaranəfəs özünü bazar darvazasından çölə atarkən, hər gün burda darvaza tağı altında duzlu suda pörtdədilmiş qarğıdalı satan yeniyetmə bir oğlan heyrətlə arxadan onu səsləmişdi ki:

– Barsis hara? Barsis dayan!

Amma o artıq dayana bilməzdi və dayanmamışdı və birbaşa Zəncan çayı boyu ilə uzanan karvan yoluna doğru qaçmışdı və o vaxt ki, gəlib çay qırağına çıxmışdı, irəlidə uzaqlaşıb gedən karvanı görüb nəfəsini dərmişdi və çırpışdırdığı bıçağı da burda sol böyründən asılmış kiçik torbasına atıb gizləmişdi. Torbası isə bu gün də bomboşdu.

Bir həftə idi ki, Boz quş dağlarından bu şəhərə gəlmişdi və dilənçi uşaqlara qoşulub dilənməyə başlamışdı. Başlamışdı, amma bacarmamışdı. Səhər bazar açılandan axşam bazar bağlanana kimi yalvarmaq, sızıldamaq lazımdı. Yorulmamaq üçün səsini müəyyən ahəngə uydurmalı idi. İnilti və sızıltılardan nəğmələnmiş bir avazla dilənməli idi. Və əli yüz dəfə ətəklərə uzanmalı və yüz dəfə rədd edilməli idi ki, yüz birinci dəfə bəlkə bəxti gətirəydi. Və o vaxt ki, fəqirə pay veriləcəkdi, ovcunda heç olmasa bir fəlis miqdarında qara bir pul görəcəkdi, o vaxt dərhal şatırlar cərgəsinə qaçacaqdı və ətri bütün dünyanın ətirlərindən, dağ başındakı çiçəklərin, dərələrdəki qızıl güllərin ətrindən

[1] A r v a n a – qatırbaşı nər (*erkək dəvə*)



daha cazibəli olan, üzü yumurta sarısıyla suvaqlı, xaş-xaş dənəciklərilə naxışlı o nazik, uzunsov sarı buğda çörəyindən biri nəhayət ömründə ilk dəfə ona da qismət olacaqdı. Axı bu vaxta kimi bütün gününün cirəsi kəsdiyi, öpdüyü, gözü üstə qoyduğu və yüz dəfə tanrıya şükr etdiyi bir tikə qara arpa çörəyindən və yaxud cad əppəyindən başqa bir şey olmamışdı...

Amma məhz birinci gündən susub kənarda dayandığı və yanından ötən bir kimsənin ətəyinə əl uzatmadığı və dodaqlarını bir-birinə kip sıxaraq bir dəfə də olsun zarıyıb sıtqamadığı üçün bu çox qəribə davranış, bazar darvazasının tağı altında qarğıdalı satan və bütün günü "Məkə balıdır, qovrulmuş – yolda gəlmiş yorulmuş" nəğməsi ilə müştəri çağıran on iki yaşlı bir oğlanın Turğayın gözündən yayınmamışdı, axşam bağlananda Turğay ona yan almış, satılmayıb böyük torbasının dibində qalan üç-dörd boyat qarğıdalıdan birini bazar Barsisə uzatmışdı və demişdi:

– Tut! Bağışlamıram, borc verirəm və bil ki, borclu borclunun sağlığını istər.

Beləliklə, sonrakı günlərdə Turğay hər səhər Barsisə bir dənə isti və hər axşam bir dənə boyat qarğıdalı uzadaraq eyni sözləri təkrar eləmişdi:

– Çək dişinə, bağışlamıram, borc verirəm və bil ki, borclu borclunun sağlığını istər.

Və indi Barsis baş alıb o böyük karvan arxasınca gedərkən arxada qalan şəhərdən bir bıçaq çırpışdırdığını və o şəhərdəki bir oğlana on üç qarğıdalının dəyəri miqdarında ağır bir borcun altında qaldığını düşünərkən dərindən köksünü ötürdü...

## 2

Böyük karvan yol boyu uzanıb açılmışdı. Karvan oğlanlarından hər biri özgətan yanında addımlayırdı. Yeganə atlı karvanbaşı idi ki, qasqa

ölkəsi Azərbaycanda yayın oğlan çağı idi. Üç gün əvvəl Boz quş dağlarından gəlib Zəncanda dilənçi uşaqlara qoşulmuş, Barsisin də gözləri bütün qafilə içində o qara çalmalı, qara əbalı, qalın çatmaqaşlı, tosqun adamdan başqa heç kəsi görməmişdi, baxışları yalnız ona zillənib qalmışdı.

Bu adam isə əməvi xəlifələri dövründə Yəməndən köçüb Azərbaycanda məskən salmış Əzd qəbiləsinin rəisi Vəcna ibn Rəvvad idi ki, əcdadlarının qamarladığı torpaqlar Urmiya gölündən Bozzeyn dağlarının ətəklərinə qədər uzanırdı və indi bütün şəhər IX əsrin Təbrizi dövrəsindəki bütün üzüm bağlarıyla bərabər onun mülkü və malikanəsi idi. O vaxt ki, karvan gözdən yox olmuşdu, Barsis də qaranəfəs qaçıb bazardan çıxmışdı və arxasından Turğayın bağırtısını eşitmişdi ki, dayansın. Amma dayana bilməmişdi, cavab verməyə macal tapmamışdı, çünki ayaqyalın, başıaçıq böyük bir karvanı təqib etməyə yüyürərkən, özü burda, bazar içində təqib olunmağa başlamışdı...

Bu günlər o çox vaxt ac qalırdı, susuzluqdan dili ağzında yanırdı, yuxusuzluqdan gözlərinə qan sağılırdı, amma dayanmırdı, geri dönmürdü, çünki ürəyinin hökmünü yerinə yetirməyə, sinəsində yanan qisas odunu söndürməyə gedirdi və çalışırdı ki, karvan adamlarından heç kəs onu görməsin və maraqlanmasın ki, ay uşaq kimsən, nəçisən, nə itirmisən bu yollarda, nə axtarırsan...

Amma hər dəfə arxasında at ayaqlarının tappıltısını eşidərkən diksinirdi, bütün vücudu tir-tir əsirdi, qaçırdı yoldan çıxırdı, dağa-daşa dırmaşırdı, qalın gicitkanlı, qədim qəbiristanlara girirdi, quru budaqlarından yüzlərlə cındır asılmış pir ağacları arxasında gizlənirdi, özünü hara gəldi, çalaya-çuxura, xəndəyə atırdı. Çünki hər dəfə ona elə gəlirdi ki, arxadan onu haqlayan Zəncan bazarındakı qəssabdır, nizə bağlı bazar darğasıyla çapıb onun dalınca gəlir və o bıçağı ki, haman qəssabın dükanından çırpışdırmışdı, indi tutub onun əlindən alacaqlar, özünü at qabağına salacaqlar. Yaxud biləklərini bir-birinə bənd eləyəcəklər, boynuna ip keçirəcəklər və sürüyəcəklər, dallarınca aparacaqlar.

Yox! Təslim olmayacaqdı! Bıçağın dəstəsini dikinə yerə sancacaqdı. Özünü üzüqoylu o bıçağın üstünə atacaqdı, amma nə əlindən bıçaq verəcəkdi, nə bu yoldan geri dönəcəkdi...

Karvan isə gecələr də yol gedirdi və yalnız o vaxt ki, ay batırdı, yollar qaralırdı, Vəcna ibn Rəvvad əmr eləyirdi, karvan dayanırdı. Bu zaman karvan oğlanları dərhal dəvələri yatırdır, yüklərini açıb yerə salır, ən əvvəl heyvanlara navala verir, sonra kəmərlərindən asdıqları



meşin kisəciklərdən çaxmaq daşı və qov çıxardıb od alışdırır, ocaq qalayır, yol torbalarındakı duz qarışdırılmış arpa unundan xəmir yoğurub dəyirmi kündələri ocaqların qızmar külünə basdırır, alaçiy bişmiş bu kündələri ağızlarını pörşələyərək isti-isti yeyir (soyuyanda bu kündələr dişbatmaz, bıçaq kəsməz olurdu) və bir az əvvəl açıb yerə saldıqları, orda-burda taya vurduqları yüklərin yanında yerə sərilib yatırdılar.

Vəcna ibn Rəvvadın qapı xidmətçilərindən iki nəfər qara qul isə, səsləri çıxmayan iki qara kölgə idi ki, karvan dayananda dərhal ağaları üçün çadır qurur, çadır önündə ocaq qalayır və bir göz qırpımında bal qarışdırılmış nişastadan şam yeməyi hazır edir, sonra Vəcna öz çadırında qırmızı naxışlı Arran xalçası üstündə yatmağa gedəndə əbalarına bürünüb çadırın girəcəyi ağzında başlarını yerə qoyub döşədikləri yerdə daş kimi düşüb qalırdılar.

Bu vaxt karvan düşərgəsində səs-səmir kəsilir; bir-biri dalınca sönən ocaqların gözləri qaralır və düşərgədə yalnız dəvələr bütün gecəni çənələrini tərpədərək gövşək vururdu.

Yay gecəsi çox tez qurtarır, adamlar çimirini almağa macal tapmamış gümüş parıltılar içində yatan dan ulduzu altında göy əyrisi avazımağa başlayır, qoca sarvanın kal və xırıltılı səsi karvan oğlanlarını oyadır, hamı sıçrayıb ayağa qalxır, dəvələr yenidən yüklənir və böyük karvan qarşıdan, Həmədan üstündə ucalan Əlvənd dağının qarlı zirvəsindən qopub gələn soyuq küləklərə üz tutaraq son mənzilə doğru hərəkət edirdi.

Və bütün bunlara Barsis gündüzlər çox uzaqdan, axşamlar isə düşərgəyə yaxın gələrək, haradasa bir kol topası dalında, yaxud bir dikdir ardında pusquda dayanıb diqqətlə tamaşa eləyir və gözlərini Vəcnə üçün qurulmuş qara çadırdan çəkmirdi. Ta o vaxta qədər ki, yuxu birdən ixtiyarını əlindən alırdı, başı düşürdü, torpaq üstündə hərəkətsiz qalırdı.

Sonra karvan yola düşəndə səksəkəli yuxusundan oyanırdı və o vaxt ki, karvanın sonundakı arıq-arğız dəvənin boynundan asılmış zınqırovun səsi eşidilməz olurdu, durub gəlirdi, düşərgədəki sönmüş ocaqların yan-yörəsini araşdırırdı, çöplə ocaqların külünü eşələyirdi, əgər bir əppək qırıntısı, yaxud yerə tökülmüş yoğurt və pendir oxantısı tapırdısa, tələsik ağzına atırdı və yenə baş alıb karvanın dalısınca gedirdi.

Dünəndən aysız qaranlıq gecələr başlandığı üçün karvan daha gecələr yol getmirdi. Qaş qaralan kimi dayanırdı və indi karvan oğlanları topa-topa oturduqları ocaqlar başında daha çox yubanır, daha çox

söz-söhbətə qurşanır, yaxud sinədəftər qoca sarvanın nağıl elədiyi rəvayətlərə qulaq asaraq, cərəyan edən hadisə cin düyünü vuranda ağızlarını nırçıldadır, mərd namərd toruna düşəndə nəfəslərini udub içlərinə çəkirdilər.

...Nəhayət bu dumanlı və qaranlıq gecələrin birində kiçik bir oğlanın böyük bir karvanı təqib etdiyindən elə bil hamıdan əvvəl dağın-daşın qurd-quşu xəbər tutdu və bu anlaşılmaz hadisə əvvəl onların içinə vəlvələ saldı. Hardasa yaxında bir çöl donuzu xortuldandı, yuxarıda təpə üstündə bir yalquzaq uladı, aşağıda dərə dibində çaqqallar səs-səsə verib ağlaşdı, kolluqlar arasında tülkülər vaqqıldaşdı və Barsis vahimələndi, karvan düşərgəsinə tərəf süründü, sövqi təbiisi onu yalqızlığın girdabından insanlara tərəf qovdu və o hər dəfə ot içindən, burnu ucundan pırtlayıb dimdik yuxarıya göyə sancılan xırdaca quşların yuxarıya göyə sancılan xırdaca quşların kəsik çığırtılarından səksənərək o qədər irəli gəldi ki, qarağan çırpılarından qalanmış ən qıraqdakı ocağın işığında karvan oğlanlarından bir neçəsinin üzünü çox yaxından gördü və dayandı...

...Yolun uzunluğu hamını bıqdırmışdı, dağı-daşı duman bürümüşdü və bütün dünya bu ala-bula qaranlıqdan o tərəfdə, çox uzaqlarda qaldığı bir gecədə ocaq başında oturmuş karvan oğlanlarından Turac oğlu Rövşən boynunu qanırmışdı, başını geri atmışdı, bir an ulduzlara baxmışdı, sonra gözlərini qapamışdı və o vaxt "ağ üzlüsü, ala gözlüsü" gəlmişdi gözləri qarşısında dayanmışdı, ürəyində aşıb-daşan qüssəsi fəryada çevrilmişdi, göyə ucalmışdı:

Qurbanın olduğum bulağın yolu
Gedəndə boş gedər, gələndə dolu
Tər məmə üstündə bənövşə kolu
Dərsəm öldürərlər, dərməsəm öləm!

Sonra sərsəri xəyalı düşmüşdü mahnısının ardınca getmişdi. Yoxuşlar aşmışdı, dağlar qalxmışdı. Göy əyrisi qat-qat gözləri qarşısında açılmışdı və gəlmişdi doğma el-obanın aşağı ətəyindəki "Ayrılıq çeşməsi"nə çatmışdı. O çeşməyə ki, el-oba qürbətə gedənlərdən o çeşmə başında ayrılardı və qız-gəlin uzaq yola gedənlər arxasınca o çeşmədən su atardı...

Əyilmişdi, o soyuq ulduzlu sudan ovuclamışdı ki, birdən dik atıldı, qamarladı, hər iki əlilə başını tutdu.



Karvanbaşı idi bu, nəhayət ki, qamçısı axtarmışdı qurbanını tapmışdı və ibn Mingə sözləri boğazında qaynadaraq deyirdi:

– Anda olsun bu göylərə və bu gecə orda zahir olan ulduzlara ki, adınız müsəlmandır sizin, ürəyiniz kafirdir. Gecənin bu çağında ki, ağamız orda öz çadırında sübhdən namazını qılır və göydən yerə enən ağ mələklər haqdan mömin bəndələrinə salam gətirir, – amma siz burda ulaşıb qara küfr dolu mahnılar çağırırsınız, qanınız yüz dəfə halaldır sizin, heyf ki, axıdanı yoxdur...

Və karvanbaşı yenə nəğməçi oğlanı vurmaq istəyirdi ki, qoca sarvan dedi:

– Toxta, ya ibn Mingə! Nocavandır, ürəyi qəribsəmişdir... Özüm gedib ağamızdan iltimas elərəm ki, günahından keçsin!

– Otur yerində, qoca! – dedi ibn Mingə. – Çəltik gərək döyülsün ki, düyü olsun və sizin lisanınızda ən fəsih kəlam budur mənim üçün!..

Sonra karvanbaşı dilçiliyə dair mülahizəsini qamçısının yeni zərbəsilə tamamlamaq istəyirdi ki, Babək yerindən tərpəndi, kəskin bir hərəkətlə başın qaldırdı, uzatdı sol qolunu nəğməçi oğlanın çiyninə aşırdı və dedi:

– Toxta deyildi sənə, ya ibn Mingə və bil ki, daha məşhur bir kəlam sizin dilinizdədir! Rəhm et ki, sənə də rəhm etsinlər...

Karvanbaşı duruxdu, aşağıdan yuxarıya dik onun gözünün içinə baxan bu kafir bir dəfə də olsa gözlərini qırpmamışdı və bu qaradinməz ki, karvan oğlanları içində yeganə əyri dinli bir əhl-lənət idi, indi məhz o sərvər-kainatın kəlamını ona, ibn Mingəyə xatırlatmışdı, eyni zamanda bu cürətkar qolunu nəğməçi oğlanın çiyninə aşırmışdı və özünü qəsdən qamçının zərbəsi altına vermişdi ki, bu artıq ibn Mingəyə meydan oxumağa bərabərdi və ibn Mingə bir an çaşdı, sonra sağ əlinin yanına düşdüyünü görərkən içini yedi və ilan kimi fısıldadı:

– Ey sən! Yadından çıxmasın, sırğa olub qoy qulağından asılsın ki, bu islam məmləkətində iki müsəlman bir-birinin boğazını üzsə də, qıraqdan heç bir kafirin bu işə qarışmağa ixtiyarı yoxdur.

Və karvanbaşı döndü, qaranlığa getdi.

Sonra o vaxt ki, sönmüş ocaq başında qoca sarvanla Babəkdən başqa heç kəs qalmamışdı, qoca köksünü ötürdü və dedi:

– Canın canımdan-qanın qanımdandır, ey Babək! Hər dəfə ürəyimin başına od düşür o qara ilan sənə kafir deyəndə... Vaxt çatıb oğul, vədə tamam olub, sən də iman gətir o uca varlığa ki, rəhman odur, rəhmi var, sabir odur, səbri var və kəmal onundur, nöqsan bizimdir...

Babək dinmədi. Üzü elə bil daşa dönmüşdü, bir az əvvəl dalğın və kölgəli olan gözlərində indi nə isə soyuq bir işıltının amansızlığı vardı...

Qoca dizlərini qucaqladı, başını dizləri üstə əydi. Çoxdan hiss edirdi ki, bəzən günlərlə susan bu oğlanın ürəyini nə isə amansız bir qüssə didir və indi yenə o barədə düşündü ki, vay olsun o şəxsə ki, çox tez döyüşə başlayıb özüylə...

### 3

Necə ki, o dumanlı və qaranlıq gecədə, dağın-daşın qurd-quşu kiçik bir oğlanın böyük bir karvanı təqib etdiyini, gündüzlər özünü karvan adamlarına göstərmədiyini, gecələr karvan düşərgəsinə yaxın gedərkən marıqda dayandığını görərkən, bu anlaşılmaz hadisədən təlaşa düşüb haray salmışdı, indi də günlərin bir günündə bütün karvan kiçik bir qaraltı tərəfindən təqib edildiyindən duyuq düşəndə, yenə də birinci növbədə bu hadisənin anlaşılmazlığı karvanda hamını narahat eləməyə başlamışdı...

Karvan uzun yolunu yarı eləyəndə və Həmədan yaylasına az qalanda karvan adamlarından bəzilərinin gündüzlər çox uzaqda, digərlərinin axşam toranında çox yaxından gördükləri o qaraltının məhz bir uşağın, kiçik bir oğlanın qaraltısı olduğu barədə heç kəsdə şəkk və şübhə qalmamışdı və hamını da ən çox heyrətə salan bu olmuşdu, çünki, karvan bələdçisi qoca sarvan bu tərəflərdə heç bir kənd, oba və yaxud yol üstü karvansara olmadığını əvvəlcədən xəbər vermişdi. Buna görəydi ki, kiçik qaraltı barədə başlanan söz-söhbət getdikcə qol-budaq atdı, bir-birinə zidd təxminlərə yol açdı və hətta ertəsi gün yenə çox uzaqda o qaraltı görünəndə (bəzilərinin boynu əyri bitmişdi tez-tez dönüb geri baxmaqdan) karvan oğlanlarından iki nəfər döndü arxaya getdi və o yerdə ki, qaraltı görünmüşdü, gəldilər orda kol-kos toplarının arasını gəzdilər və yenə orda təpəsi uçub ətəyinə tökülmüş bir qayanın dibindəki daş qalaqlarının ara bərəsini axtardılar, amma heç bir ins-cinsə rast gəlmədilər və əlləri ətəklərindən uzun geri döndülər.

Sonra elə haman günün axşamı haman kiçik qaraltı karvan düşərgəsinin çox yaxınlığında görsənib yox olanda ocaq başında başlanan çox həyəcanlı bir müzakirənin yekunu bu oldu ki, cindir o qaraltı, ifritədir və karvanın başında nə isə bir xəta var...



Beləliklə, ən vəhşi xurafatların əsir-yesiri olan bir zəmanədə, bu aysız qaranlıq gecələrdə, ətrafdakı dağların qulaqları cingildədən bu amansız səssizliyi içində, kiçik bir qaraltının doğurduğu vahimə böyük bir karvanı qatı bir duman kimi çulğayıb ağzına aldı.

Digər tərəfdən iki gündü ki, Vəcna ibn Rəvvad özü başqa bir təlaş içində idi və karvan sahibinin bu təlaşı əbəs deyildi. Çünki dünəndən yolun o hissəsi başlanmışdı ki, dik "nənəm vay" yoxuşları karvanı tez-tez dağ aşırımlarına qaldırır, sonra üzüaşağı qovur, darısqal təngələrin dibində heybətli qayalar arasına tıxayırdı. Bütün bu dağ-dərələr yüz illərdən bəri amansız dağ quldurlarının yatağı idi. Düzdür karvan oğlanlarından bir çoxunun qurşaqları altına iti oxarlanmış qəmələr sancılmışdı, digərləri dəstəyi ortadan olan ikiuclu kiçik xəncərlərə sahibdi. Vəcna ibn Rəvvad ilə karvanbaşının da qara əbaları altında tiyələri çuxurlu Yəmən qılıncları vardı. Lakin əvəzində bu yerlərdəki dağ quldurlarının da sapı bilək yoğunluğunda qarğıdan dəmir ucluğu uzun nizələri vardı ki, qollarını həddindən artıq uzun edərdi və sərrast atdıqları kəməndləri vardı ki, hədələyən div olsa belə bir anda qollarını bədəninə pərçim eləyərdi. Və bütün bunlardan daha qorxunc silahları o idi ki, tökdükləri qanın günahını boyunlarından atırdılar: "biz öldürmədik – biz ancaq vurduq – Allah öldürdü". Bu inama görə insana can verən və insanın canın alan yalnız tanrı idi, o tanrı ki, onun iradəsi olmadan bir kəsin başından bir tük belə əskik ola bilməzdi və indiki hal-hekayə belə idi, öldürən nə qədər öldürsəydi, hamısının ölümünü göydəki tanrının ayağına yazacaqdı. Bu isə islamdan qopan çeşidli təriqətlərdən biri olan "Cəbriyyə" təriqətinə məxsus bir təlimin əks sədası idi ki, bu təlimin dibindən və dərinindən bir qəbir zülməti baş qaldırırdı...

...Vəcna ibn Rəvvad ilkindi namazını qılıb çadırından çıxdı. Düşərgədə ocaqlar ertədən söndürülmüşdü, amma karvan oğlanları hələ də külü qızmar ocaqlar başından qalxmamışdılar və orda-burda topa-topa oturduqları yerlərdən hənirtiləri gəlirdi. Vəcna qaranlıqda səssiz addımlarla bu topalardan birinə yaxın getdi. Amma özünü göstərmək istəmədi. Ayaq saxladı, qulaq asdı.

– ...Sapandı hazırlamışam, – deyirdi karvan oğlanlarından biri, – əgər o qaraltı bir də bax, orda, o yulğunluqda gözümə dəysə basacam daşa, çünki cinə, şeytana daş atmaq savabdır, məgər İbrahim Xəlil peyğəmbər özü daş atıb şeytanın bir gözünü çıxarmadımı?

– Qaxıl-çaxıl otur yerində, – dedi ikinci səs, – bəlkə kimsəsiz, yetim bir uşaqdır və o qədər zülm görüb, o qədər döyülüb, söyülüb, qapılardan qovulub ki, indi dağın-daşın qurd-quşundan qorxmur, amma bizə, insana yaxın düşməkdən qorxur.

Vəcna bu səsi də tanıdı – bilalabadlı Babəkin səsi idi, o qaradinməz oğlanın ki, hələ yeniyetmə ikən yayı çiskinli, qışı çovqunlu Bəzzəyn dağları ətəyindən Təbrizə gəlmiş və ibn Rəvvadların ticarət karvanlarında qatırçılığa başlamışdı.

Mərəndli oğlan sakit olmadı:

– Yetim bir uşaqdır deyirsən? Biləydim bir həftədir nə yeyir, nə içir o kimsəsiz uşaq?

– Yol qırağındakı böyürtkən kolları... dağ yamaclarında quzuqulağı, quş əppəyi... və hərdənbir bizim ocaqların yön-yörəsində qalan əppək qırıntıları, yoğurt oxantıları...

Əlbəttə ki, bu ikinci səsin dedikləri daha ağlabatandı. Vəcna özü də karvanı təqib edən o kiçik qaraltı haqqındakı cin-şeytan sözlərinə birinci gündən heç bir əhəmiyyət verməmişdi, lakin indi nədənsə birinci səsin hətərən-pətərəni yox, ikinci səsin o sirli qaraltıya qəhmər çıxması ona xoş gəlmədi və döndü öz çadırında qırmızı naxışlı Arran xalçası üstündə yatmağa getdi...

Bir az sonra, artıq hamı dağılmışdı, hərə öz qatarından açıb yerə tökdüyü yük tayası yanında yatmağa getmişdi. Qoca sarvan da osarını çəkdiyi arvananın böyründə mürgü döyürdü və indi sönmüş bir ocaq başında təkcə bir qaraltı qalmışdı ki, o da Babək idi.

Öz-özünə heyrət edərdi. Əgər getdikcə karvanda təlaş artırdısa, nə isə baş verəcək bir hadisənin ürəyə sızan önduyğusu adamları təşvişə salmışdısa və buna karvanı təqib edən bir uşağın qaraltısı bais olmuşdusa haman qaraltıda sirli və uğursuz heç bir şey görməyən o, indi özü getdikcə ürəyini əzən tutqun bir təlaş hissindən xilas ola bilmirdi. Kim idi o uşaq? Nə üçün qarabaqara böyük bir karvanı təqib edərdi? Nə üçün aclığa, susuzluğa, gecələr dağ yastanlarının soyuğuna, gündüzlər təngələr dibindəki bürkülü boğuntuya, bir söz bu uzun yolun olmazın əzabına dözərək karvanı gözdən itirmək istəmirdi? Eyni zamanda hiss edirdi ki, onu haldan-hala salan bütün bu sualların cavabsız qalması deyil, nə isə başqa bir şeydi ki, bunu özü üçün hər cür izah edə bilmirdi. Uşağa yazığı gəlirdimi? Əlbəttə ki, bu da vardı, amma ürəyindən



asılmış bu ağırlıq başqa bir şeyin, nəsə anlaşılmaz və qeyri-müəyyən bir intizarın həyəcanı ilə dözülməz idi.

Usanmış bir halda ayağa qalxdı və o yeri ki Mərəndli oğlan daşlamaq istəyirdi, üz tutdu o tərəfə getdi. Qaranlıqda ehtiyatla addımlayır və iti yerişli ayaqlarını cidalayırdı. Zəif bir varlığı qorxutmaq üçün yulğunluğa girmədi – yerə tökülmüş yulğun çör-çöplərini tapdayıb şaqqıldadacaqdı və əgər uşaq doğrudan da bu gecə burda gizlənmişdisə, durub qaça bilərdi və qaranlıqda yıxılardı, qol-qabırğasını sındırardı. Dayanıb durdu, sonra oturdu və arxası üstə ot üstündə uzandı. Göylərin titrək işıqlı yaxın və iri ulduzlarına baxdı və artıq nə edəcəyini bilmədi. Ani bir hissə qapılaraq durub bura gəldiyinə peşman oldu. Amma indi ki, gəlmişdi, nə isə etməli idi və əmin idi ki, uşaq hardasa burda çox yaxındadır, nəfəsini qısıb dayanmışdır, bir yanını qaçaq qoyaraq sim kimi gərilmişdi. Yox, uşağı bu cür gərgin vəziyyətdə saxlamaq kifayət idi. İndi gəldiyi kimi durub gedə bilməzdi, səsini çıxarmalı idi, burda pusquda dayanmadığını bildirməli idi. Ya özünə, ya bu gecəyə, ya o uşağa bir söz deməli idi. Düşündü ki, insanın özünün özünə dediyi söz heç vaxt qurtarmır, amma bu oyun ki, başlanmışdır tamamlanmalıdır və gözləri uzaq ulduzlarda, xəyalən uşağa üz tutub dedi:

– Qulaq as oğlan... Bu qədər əzaba ki, sən dözürsən, günlərlə ac-susuz yol gəlirsən, gecələr yalquzaq kimi dağda-daşda tək qalırsan, demək sən o uşaqlardan deyilsən ki, xınalı quzudurlar öz anaları üçün... Yox əgər sən kimsəsiz, yetim bir uşaqsansa, döyülüb-söyülüb bütün qapılardan qovulmusansa... Və indi heç kəsə yaxın düşmək istəmirsənsə... Onda necə ki, bir qurd balası anasından zülm görüb zalim olur...

Dayandı, nəfəsini dərdi və dərhal onu basmarlayan bu qürbət dağlarının amansız səssizliyi çırtma vurulmuş bir mis kimi qulaqlarında cingildədi və başladığı bu oyunu ixtiyarsız olaraq davam etdirdi:

– İndi ki, dedim, qurd balası anasından zülm görüb zalim olur, onda qulaq as, rəvayəti budur... O vaxt ki, qurd balaları böyüyür, ətə-cana gəlir, sırmaşırlar analarına və getdikcə oynaşmaq həvəsləri artır... Belə günlərin bir axşamında ana qurd körpə balalarını dalınca salıb bütün gecəni baş alıb çapır, ta o vaxta qədər ki, küçükləri əldən düşür, nəfəsləri qaralır, yüyürməyə taqətləri qalmır. Bu vaxt ana qurd dayanır, guya rəhmə gəlib ayaq saxlayır, tabdan düşmüş küçüklər isə ayaq üstə dayana bilmir, bir-birinin dalınca yerə sərilir, daş kimi düşüb hərəkətsiz qalırlar və gözlərini yummağa macal tapmamış elə dərin bir yuxuya

gedirlər ki, öldüklərin və ya qaldıqların bilmək olmur... Sonra o vaxt ki, gözlərini açırlar baxıb görürlər ki, çölün-biyabanın ortasında tək qalıblar – nə anaları var başları üstə, nə bir ins-cins var bu vaveyla çölündə... Sonrasını özün fikirləş ki, nə gəlir onların başına; hər gün qorxu və anasızlıq, hər gün aclıq və susuzluq, və siçandan, yaxud kəsəyəndən başqa hələ heç bir canlını tutmağa, aşırmağa gücləri və qüvvətləri yox... Və guya bu minval ilə doğma analarından bu qədər zülm gördüklərinə görə, sonra o qurd balaları böyüdükcə və hər gün ölüb ölümdən qayıtdıqca, rəhm və mərhəmət nədir bilmirlər və nə qədər qan içirlərsə doymurlar.

Dayandı, yenə nəfəsini dərdi və bir an ona elə gəldi ki, nə isə eşitdi və guya lap yaxında uşaq köksün ötürdü. Yalnız bu qədər. Sonra, ağır və inadlı bir sükut! Həsb-hal baş tutmamışdı. Uzatdığı əl havada qalmışdı və yaxud daş qayaya rast gəlmişdi.

## 4

Ertəsi gün axşama doğru növbəti "nənəm vay" yoxuşlarından biri başlananda Vəcna yenə öz arvanasından düşüb pay-piyada karvanın arasınca gedirdi, ağasının ardınca addımlayan karvanbaşı da qaşqa ürgəni yedəyinə almışdı.

Yorğun karvan nəhayət, dik yoxuşu qalxıb dağın yuxarı qurşağındakı sıldırım qayaların ətəyində çapılmış daşlıq və ensiz yola tıxandı. Və burda bir-biri ardınca ağır-ağır addımlayan dəvələr bellərindəki yük taylarıyla qayaların hamar divarlarını silib-süpürməyə başladılar, çünki yolun sağ tərəfilə dərin bir uçurum uzanıb gedirdi və bu uçurumun dibində çalxanan qaynar axınlı dağ çayı təngənin növbəti boğumundan qurtulub çıxdığı üçün yatağında gah sağını gəmirib sola cumurdu gah solunu gəmirib sağa cumurdu və bu qəzəblənmiş suların nəriltisi yuxarıdan keçən karvanları həmişə vahiməyə salırdı və getdikcə daha artıq qısnayıb az qala qayalara yapıb-yapışdırırdı.

Karvan artıq yolun yarısını keçmişdi və indi irəlidə görsənən dağ dirsəkindən sola doğru burulanda daha geniş dolaylar başlanacaqdı.

Bu vaxt karvan önündə gedən qoca sarvan döndü, ovsarını çəkdiyi arvananı toxtatdı, dərhal arxadan gələn dəvələr bir-birinə dirəndi və bir an sonra bütün karvan sərt qayaların dik və hamar divarına həkk olunmuş qabartma naxışlar kimi qımıldanmadan döndü, yerində hərəkətsiz qaldı.



Qoca sarvan isə daşlı yolun ortasına döşəndi, sağ qulağını yerə dirədi, bir müddət daşlı yola qulaq asdı. Sonra təlaş içində ayağa qalxdı və karvan yanıyla geri yortub gəldi, qaranəfəs Vəcnanın hüzurunda dayandı:

– Qənşərdən böyük bir qafilə gəlir, ya Vəcna, – dedi. – Belə məlum ki, atları, qatırları və sair yük heyvanları var və bu taxta ki, dolayların ən darkeş yeridir, burda iki karvan üz-üzə gələndə həmişə qiyamət qopub, fəlakət baş verib, indi onlar bizi sıxışdırsa – biz onları, elə bir müsibət başlanacaq ki, tanrı heç bir bəndəsinə göstərməsin.

Vəcna dedi:

– Təklifin nədir, qoca?

– Nə qədər gec deyil, bu ibn Mingə ürgəni çapıb o qafiləni saxlasın, ta o vaxta qədər ki, karvan dağ dirsəyini aşıb yuxarı taxtada açıqlığa çıxsın.

Vəcna döndü arxasında dayanmış karvanbaşıya ürgəyə minməsini əmr elədi. ibn Mingə dirəndi:

– Ya Vəcna mən cəhənnəm, – dedi bu at heyfdir...

Vəcnanın qaşları çatıldı və karvanbaşı tez əlavə elədi:

– Bu heyvan bir cüt qanad taxmayınca onu karvan böyründən irəli keçirmək mümkün deyil... Gərək əvvəlcə bu heyvan rəqsülnar oynamağı bacaraydı bu uçurum üstə...

Vəcna həqarətlə ibn Mingədən üz çevirdi:

– Çağırın – dedi o bilalabadlı oğlan bura gəlsin.

Çağırdılar, bu dəfə Babək gəlib karvan sahibinin hüzurunda dayandı. Vəcna dedi:

– Atı sən keçirəcəksən karvan önünə, sonra bu şəxs dalınca yortub gələndə yügəni atarsan üstünə...

Sonra Vəcna yenə ibn Mingəyə tərəf döndü:

– Çap gör qarşıdan gələn kimlərdir, başa sal o camaatı ki, bir az toxtasınlar, yubanma, tez cavab gətir mənə!

İbn Mingə udqundu yenə, nə isə demək istədi, Vəcna gözünü ağartdı:

– Tamam! Tut üzəngini oğlan minsin!

İbn Mingə qulaqlarına inanmadı, karvanbaşı olduğu bir karvanda karvançı bir oğlanın üzəngisini tutmaq onun üçün çox ağır və dözülməz bir cəza idi, amma Vəcnanın qəzəbli baxışları altında atın başına dolanıb sağına keçməyə macal tapmamışdı ki, Babək aman vermədi, sıçradı ürgənin üstünə qalxdı və bu adamı onun qarşısında xəcil olmağa qoymadı...

Sonra o, karvanın sağında qalan və uçurum qırağıyla uzanıb gedən daşlıq yolun çox ensiz şəridinə ötəri bir göz gəzdirdi. İndi əgər elə ilk addımda atın gözü qorxsaydı, bircə dəfə dirənib dursaydı, sonra fələk özü gələydi yenə ürgəni irəli qova bilməzdi, yaxud atı yedəyinə alıb dalınca çəkmək istəsəydi, qolu pəhləvan qolu olsaydı belə, yenə də atı yerindən tərpədə bilməyəcəkdi!

Döndərdi atı arxaya sürdü, bir qədər karvandan uzaqlaşdı, sonra birdən kəskin bir hərəkətlə ürgənin başın geri çevirdi və zəhmli bir qiyyə ilə atı irəliyə sıçratdı. Qaşqa ürgə dərhal üstündəkinin qətiyyətini hiss elədi, eyni zamanda bu qətiyyətə qarşı duyduğu etimad duyğusuyla qorxuya-hürküyə düşməyə macal tapmadı. Ən çətin isə qorxulu cığıra sıçrayışdı, sonra məhv olmamaq üçün qanad taxmalı idisə at özü taxacaqdı, yerdən qopub uçmalı idisə, at özü uçacaqdı.

Və cığıra ilk sıçrayış baş tutdu. Karvan oğlanları dörd nala çapıb üstlərinə gələn və sanki hər nəfəsində bir ölüm üstündən sıçrayan qaşqa ürgənin qarşısından qaçıb dəvələrin qarınları altına sindilər və karvanda bir dəqiqəliyə hamı nəfəsini uddu. Yalnız dəvələr qorxulu tamaşaya laqeyd qaldılar və heç biri başını çevirib nə yanlarından boğanaq kimi ötən və hər sıçrayışda dal ayaqlarıyla dibsiz bir uçurumun qıraqlarını sökən ürgəyə, nə də haman uçurum üstündə öz həyatı ilə oynayana gözlərinin ucuyla belə baxmadılar...

Beləliklə, qaşqa ürgə uçurum üstündəki cığırı karvan boyu çapıb qurtardı və minnətdarlıq hissilə boynuna dolanan bir cüt qolun nəvazişinə fərəhli bir kişnərti ilə cavab verdi.

Babək sıçradı, atın üstündən yerə düşdü və karvanbaşı yortub gələndə atı ibn Mingəyə təhvil verdi.

Karvanbaşı cilovu əlinə almışdı və dovdaq kimi donub atın yanında dayanmışdı. Çoxda ki, qaşqa ürgə ildırım qanadlı idi, çox da ki, qara əbası altında tiyəsi çuxurlu Yəmən qılıncı vardı, əgər yaxınlaşan o məchul qafilə bu yerlərin çapovolçu dağ quldurları idisə, hara qoyacaqdı canını və hansı siçan deşiyini satın almağa macal tapacaqdı? Digər tərəfdən ibn Rəvvad qardaşları içərisində ortancıl qardaş olan Vəcnanın nə qədər tündməcaz və amansız olduğuna yaxşı bələd idi, ona görə nəhayət, hıqqanaraq ürəyindəki vahimə ilə bərabər atın üstünə qalxanda, qaşqa ürgə bir meyit təmasından diksinər kimi çimçəşdi və dayandı, uzun-uzadı bütün sidiyini yolun ortasına boşaltdı. Və sidiyin ağ köpüyü aşıb daşanda at özü yüyənini dartdı və yerindən tərpənib yola düşdü...



## 5.

Karvanbaşının gətirəcəyi xəbərin intizarıyla karvan birayaq-birayaq irəlidə görəsənən dağ dirsəyinə doğru hərəkət edirdi, Vəcna isə yenə öz arvanası üstündə çalxanırdı və bir aralıq arvananın ovsarını çəkən qoca sarvanı səslədi:

– Ya ibn Vəhab, – dedi, – mən bilən karvanbaşı çox yubandı. Qoca başını çevirmədən bir az donquldanmağa və bir az ürəyini boşaltmağa fürsət tapdı:

– Əbü cəhl adamları qandırmaq olmur, ya Vəcna, ola bilsin ki, hələ çənə döyür, çünkü bu yollarda elə kəslərə rast gəlirsən ki, altındakı heyvan mətləbi daha tez qanır, nəinki üstündəki bəni-insan. Söz vaxtına çəkər, ötən il elə bu vaxt Əbu Əbdürrəhman, ləqəbi əl-Şərir, Nisbəsi Əlsərəksi ki, əvvəl Bəsrənin, sonra Xorasanın səlahiyyətli valisi idi və öz qafiləsilə Qəzvin təriqilə Zəncana təşrif gətirmişdi...

Və qoca bir an nəfəsini dərdi, çünki, ərəb kübarının ad, ləqəbi, nisbəsi bir-birinə bənd olunmuş elə uzun bir zəncir idi ki, sadalayıb qurtarınca nəfəsi qaralırdı. Lakin Vəcna qoymadı qoca hekayəsini tamamlasın:

– Toxta və yola bax qoca, – dedi. – Kim ola o şəxs ki, azman bir ulaq üstə belə təşəxxüslə çapıb üstümüzə gəlir?

Qarşıdan doğrudan da çox yekə bir uzunqulaq yortaraq karvan üstünə gəlirdi və karvanbaşı ibn Mingə də haman uzunqulağın palanı üstündə xurma arağı içmiş kimi gah sağa ləngər vururdu, gah sola.

Qoca sarvan karvanı saxladı, uzunqulaq gəldi düz Vəcnanın arvanası önündə dayandı; ibn Mingənin qolları arxasında bağlanmışdı və bütün vücudu keçi qılından toxunmuş ciyə ilə çalın-çarpaz uzunqulağın palanına bənd eləmişdi.

Aralığa çökən sükut çox uzun çəkmədi, nə Vəcna dindi, nə karvanbaşı bir söz dedi.

Nəhayət, Vəcna nərildədi:

– Danış, – dedi, – niyə zınqın batıb, dilini ki, bağlamayıblar.

Karvanbaşı zarıdı:

– Əmr elə ya Vəcna, əvvəlcə qollarımı açsınlar və düşürsünlər məni bu heyvanın üstündən.

Vəcna qəzəbindən zəncir çeynədi:

– Bir kəs ki, – dedi, – Əzd qəbiləsinə Mənsub ola, belindəki Yəmən qılıncı, altındakı köhlən at ola və sonra bu halətdə qayıdıb

üstümə gələ, başıma and olsun ki, o şəxs qiyamətə qədər elə bir heyvanın ya üstündə, ya altında qalmağa layiqdir.

Bu zaman irəlidə, yolda qopan uğultu, tappıltı və hənirti qarışıq səslər ibn Mingəyə zillənmiş bütün baxışları çevirib başqa səmtə yönəltdi.

Qarşıdan, dağın dirsəyi arxasından başlayıb gələn böyük bir qafilə düz karvanın üstünə hərəkət edirdi.

Bu, izdihamlı bir küçə idi, piyadaları, süvariləri yüklü qatırları və çoxlu uzunqulaqları vardı. Köç önündə isə bir cərgəyə düzülmüş üç nəfər atlı gəlirdi. Atlara söz yoxdu – cins ərəb atları idi. Lakin üstlərində yəhər əvəzinə keçə şəlpələrdən yırtıq tərlikləri vardı və süvarilər ayaqlarını tapqır və üzəngiləri əvəz edən örkənlərin ilgəkli uclarına keçirmişdilər, əyinlərindəki bədrəng[1] əbaları qara yamaqlarla bəzənmişdi, qılınclarını ərəbsayağı sağ çiyinlərindən aşırdıqları iplərlə sol böyürlərindən asmışdılar. Daha arxada isə hərəsinin palanı üstündə kiçik yaşlı uşaqların və yaxud yüklü uzunqulaqların yanı ilə addımlayan qadın və kişilərin əyinləri bir halda idi ki, başlarına bir çanaq darı tökülsəydi, çox güman bir dənəsi yerə düşməzdi.

Köç önündəki üç atlıdan birinin pırtlaşıq saçı-saqqalı və göy gözləri vardı və gözləri göy olan bu kürənlər ərəblər arasında əzrək adlanırdı.

Sonra o vaxt ki, bu üç atlı gəldi karvan başındakı arvana önündə dayandı birdən köç arxasından başı açıq-ayaq yalın yeniyetmə bir oğlan da çapıb gəldi, altındakı yəhərin gümüş qaşı qara naxışlı və yəhəraltısı bəbir dərili bu at qaşqa ürgə idi və o sayaq ki, ürgə kişnədi, atın qüssə dolu, sürəkli və acı kişnərtisindən arvana üstündəki Vəcnanın başı döndü, rəngi qaçdı, gözləri qaranlıq gətirdi... Əsir edilmiş atı vidalaşırdımı onunla, yoxsa qınayırdı, məzəmmət edirdi onu və yaxud fəryad edib imdad istəyirdi sahibindən? Hamısı vardı bu kişnərtidə və ürgənin üstündəki yeniyetmə oğlan bunu hiss edərək, dəlicəsinə qısqanclıq bolasına tutulmuş gənc bir aşiq kimi, üzüstə döşəndi atın yalmanına, qucaqladı ürgənin durna boynunu, sürtdü üz-gözünü ahu gözlü atın gah bu üzünə, gah o üzünə...

Əzrək isə pırtlaşıq və qızartdaq saqqalını gah didişdirərək, gah qaşıyaraq bir müddət altdan yuxarı Vəcnanın üzünə baxıb durdu, sonra dedi:

[1] Təbii və açıq qəhvəyi rəngli yun ipi və bunlardan toxunmuş paltar-palaz ərəblərdə və farslarda belə adlanır



– Danışaq?

Vəcna yuxarıdan, arvana üstündən təkəbbürlə cavab verdi:

– Əvvəlcə ismini, künyəni[1], tayfanı, qəbiləni, nəsbəni söylə və sonra...

– Toxta, – dedi Əzrək,[2] – soruşdun kiməm, deyirəm – ləqəbim Əzrəkdir. Qəbiləm Rəbiyyə və Xalid ibn Yəzid ki, indi Azərbaycana vali təyin edilib, o özü yola düşməmişdən əvvəl bizi Rəbiyyə qəbiləsindən olan bu camaatı Araz qırağına köçürdür. Kifayətdir?

Vəcna bir an kiridi, eşitmişdi, xəbər gəlib Təbrizə çatmışdı ki, xəlifənin Azərbaycana təyin elədiyi yeni vali Əraqda şəhərbəşəhər gəzib o məmləkətin dustaqxanalarında öz qəbilədaşlarından nə qədər dustağa rast gəlibsə cümləsin azad eləyib başına yığmışdır... Və indi budur, bu rəbiyyə yoluqları ilə bu yol kəsən, karvan basan çapovulçuları bir-birinə qataraq Azərbaycana göndərir. Deməli, Azərbaycandakı Rəbiyyə tayfası Əzd qəbiləsini üstələsin...

Vəcna ağır-ağır başını qaldırdı. Qaramat baxışlarıyla bir daha Əzrəki başdan ayağa süzdü.

– Deyirsən yeni vali sizi Azərbaycana köçürdür? Çox əcəb, əlbəttə ki, ixtiyarı var. Amma hələ mənzilə çatmamış haram mala əl uzatmağa, Əzd qəbiləsinin karvanından at oğurlamağa kim sizə ixtiyar verib?

Əzrək qımışdı və həqarətlə dedi:

– Bir kəs ki, ilxısında yüzlərlə ayqırı və madyanı ola, o kəs bir ürgə üçün bu cür göyərərmi? Və Kəbəyə and olsun, bu oğlan ki, hələ yeniyetmədir, bu ürgəni sənin karvanbaşından alanda bizdən bir nəfər də olsun ona kömək eləməyib, amma o vaxt ki, mübadilə qurtardı və o cənab at əvəzinə uzunqulağı qəbul eləmədi, o vaxt bizim arvad-uşaq o naqabili bu nəcib heyvana süvar edib sənin hüzuruna göndərdi...

Bu vaxt rəbiyyəli oğlan da başın ürgənin boynundan qaldırıb bir nəfəsə dedi:

– Allaha and olsun, heç rəva deyildi ki, elə xain gözlü bir adamın belə ahu gözlü bir qaçağanı olsun?

Vəcna rəbiyyəli yeniyetmənin bu sadədil həyasızlığından boğuldu, bulud kimi qaraldı, amma oğlana baş qoşmağa tənəzzül eləmədi, Əzrəki sancdı:

[1] Ata-ana qəbilə, soy, kök və sairəni əhatə edən ləqəb

[2] Üzü qırmızı, göygöz və tükü sarı adamlar

– Qulaq as, ya Əzrək, – dedi, – əgər yanılmıramsa sən o adamsan ki, bir vaxtlar Əraq məmləkətinin cəmi şəhərlərində sənin qonaq olmadığın bir zindan qalmamışdı və indi...

Əzrək aman vermədi, yenə Vəcnanın sözün kəsdi:

– Elədir, yanılmırsan ya həzrət və o zamanlar hər dəfə mənim adım çəkiləndə karvanları yola çıxan sənin kimi əşrəflər tir-tir əsirdi. Çünki bir şəxsin ki, neməti başından aşır, demək o şəxs müdam özgəsindən qapır və sonra üçüncü bir şəxs yandan çıxıb ondan bir tük qopardırsa, Allaha and olsun ki, burda heç bir günah iş yoxdur... Qərəz, gələk mətləb üstünə! Əgər istəyirsən ki, bizim köç yubansın, burda dayansın və yol sənin karvanın üçün açıq olsun, üstəlik bir dəvə istəyirik səndən, çünki mənzil çox uzaqdadır və qafildəki çolma-çocuq acdır.

Vəcna nə qədər təmkinini əldən verməməyə çalışsa da Rəbiyyə tayfasını təmsil edən bir adamın ona, Əzd qəbiləsinin əşrəfinə meydan oxumasına dözə bilməzdi:

– Üstəlik bir dəvə? Rəbiyyə bac almaq istəyir Əzd qəbiləsindən? Yox, siz o tayfasınız ki, həmişə ac olmusunuz və yenə acsınız. Və quyuya su tökməklə quyu sulu olmaz. Sonra siz yenə o tayfasınız ki, Sərvərikainat peyğəmbərimiz sizin qəbilədən yox, Qureyş qəbiləsindən zühur etdiyi üçün siz yüz ildi ki, bir olan Allahdan da küsübsünüz.

Əzrək bozardı və səsini ucaltdı:

– Çox vəzzariyat oxudun ya Vəcna, amma tamam! Son sözünü de ki, bu çənə döydüyə son qoyaq!

Aralığa çökən səssizlik bir an davam etməmişdi ki, yenə rəbiyyəli yeniyetmənin həyəcandan qırlan səsi bu sükutu pozdu.

– Söz nə olursa olsun, bu at ki, mənimdir, gərək o son söz içində bu at barədə heç bir söz olmasın!

Vəcna bu dəfə Əzrəkin başı üstündən üzünü bütün köç tərəfə tutaraq ucadan dedi:

– Qulaq asın və agah olun, ey Rəbiyyə qəbiləsi, mən bu karvanla Həmədana, Xəlifə Məmunun hüzurunda yer öpməyə gedirəm, ona görə biz bu işi müdara yolu ilə həll eləsək, nə siz ziyana düşərsiniz, nə biz! Razıyam, qoy bir dəvə halal xoşunuz olsun! Amma bu atın ki, sahibi mənəm, gərək siz əvvəlcə o heyvanı mənə qaytarasınız, təki mənim atım burnunun suyu axan bir uşağın altında xəcil olmasın!

Və bu dəfə rəbiyyəli oğlanın sinəsindən qopub boğazında qaynayan boğuq səslərin birinci yarısı heysiyyəti ağır yaralanmış bir yeniyetmənin hıçqırığı idisə, ikinci yarısı artıq ölüb-öldürməyə hazır gənc bir bədəvinin nəriltisi idi. Arxada isə dayanmağa məcbur olmuş köç uğuldayırdı. Qadınların kəsik çığırtıları və ağlaşan körpələrin vağ-vuğu bir-birinə qarışmışdı.



Əzrək döndü sualedici baxışlarıyla rəbiyyəli oğlana baxdı. Əlbəttə ki, atı qaytarıb əvəzində bir dəvə almaq daha sərfəli idi.

Və dərhal Əzrəkin baxışlarının mənasını anlayan rəbiyyəli oğlanın rəngi qaçdı. Udqundu, hulqumu yuxarı sıçradı, diyirləndi çənəsi altından aşağı düşdü, dili qurumuş dodaqlarını yaladı. Sonra ağlını başından çıxarmış qaşqa ürgənin kəkilini cəngələyib bağırdı:

– Ey Əzrək, sənin son sözün nə olacaq öz işindir, amma bütün Əzd qəbiləsi yığışıb üstümə gəlsə, nə qədər ki, tikə-tikə doğranmamışam, heç kəs bu atı mənim əlimdən ala bilməz!

Əzrək gözünü oğlandan çəkdi, başını qaldırdı, Vəcnaya baxdı:

– Oğlan nə dedi, eşitdin! İndi mən deyirəm. Qoy karvanbaşın gəlsin və bacarırsa atı oğlandan geri alsın! Amma görəm ki, sən özün və ya qaraqulların və yaxud karvan oğlanları bu işə qarışır, onda bu yolun ortasında ya sənin əcəlin tamamdır, ya mənim...

– Elə isə qurtardıq, – dedi, – Vəcna, – Qoy kim bu ədavəti əkirsə, xəsarətin də o biçsin!

Sonra o vaxt ki, karvan yola tıxanmış köçün üstünə və köç də yolu tutmuş karvanın üstünə hərəkət elədi və hər iki tərəf yolun qayalar səmtini tutub uçurum səmtini rəqibinə vermək istədi, bu axşam çağında qoca sarvanın xəbər verdiyi o qiyamət başlandı...

...Daha əvvəl yenə bir axşam çağında hava birdən-birə bozarıb bulaşmışdı və hardasa hələ çox uzaqlarda hansı dağın zirvəsindəsə burulub qaynayan bir çovğunun ilk çaparları gəlmişdi, yol üstündəki qılınc qayalar başında fit çalıb vıyıldamışdı.

İndi köç mümkün qədər tez dağın yuxarı qurşağından üzü aşağı dərəyə enməli, daldalanmaq üçün özünə sığınacaq tapmalı idi, karvan isə dağ dirsəyinin anrısına aşaraq gecəni növbəti aşırımın qoşa donqarları arasında keçirməyə məcburdu.

Beləliklə əks istiqamətlərə doğru hərəkət edən bir-birindən inadlı iki axın, bir-birinə çal-keçir olduğundan gah irəlidə, gah geridə tıxantılar və burulqanlar əmələ gətirməyə, getdikcə daha tez-tez toqquşmağa və getdikcə daha gec bir-birindən qopmağa başlarkən, atların kəsik və həyəcanlı kişnərtiləri, dəvələrin ağlayışı andıran nəriltiləri,

uzunqulaqların boğuq hıqqantıları, karvan oğlanlarının bağırtıları, köç qadınlarının çığırtıları, yıxılıb qalanların uğultu və qarğışları bir-birinə qarışırdı ki, ağız deyəni qulaq eşitmədi.

Vaxt olurdu ki, bu məhşəri hərc-mərclik burulğanı bir dəvəni, yaxud bir qatırı çevirib köndələninə yolun ortasına qoyurdu. Kələf düyün düşürdü, sonra bu düyün çözülüb açılana kimi tərəflər bir-birinə lənətlər yağdırır, yumruqlarını işə salır, az qala bir-birini şil-küt edirdilər.

...Mərəkə davam eləyirdi. Əzrəkin köçü dəvə qatarlarının nizamini pozub karvanı əyiş-üyüş eləmişdi, Vəcnanın karvanı izdihamlı köçü ortasından yarıb arvad-uşağı pərən-pərən salmışdı və bu qaynar qazan içində çalxanan – dəvələrin, qatırların, uzunqulaqların arasında sıxcalanan, vurnuxan qaşqa ürgə isə artıq qopmağa hazır gərgin bir simə çevrilmişdi. Alacalanmış gözləri hədəqəsindən çıxmışdı, tövşüyüb fınxıran burun pərələri geniş açılmış, sağrısı ağ köpüklə örtülmüşdü. İndi o, hər addımbaşı ürkü və diksinti ilə şahə qalxırdı, düşməyə yer tapmayıb dal ayaqları üstə fırfıra kimi fırlanıb geri oturardu, üstündəki rəbiyyəli oğlan isə atı bir an tez bu girdabdan xilas eləməyə can atır, amma xam rəftarıyla ürgəni daha artıq çaş-baş salırdı.

Və nəhayət, fəlakət baş verdi.

Rəbiyyəli oğlan atı növbəti bir sıçrayışa məcbur edərkən ürgə sağındakı bir dəvənin böyrünə çarpıb müvazinətini itirdi və bu zaman arxadan irəli soxulan ağır yüklü bir qatır döş vurub atı irəli atarkən, ürgənin dal ayaqları altından qopan daş-kəsək seli şarıltı ilə axıb uçuruma töküldü... Və Əzrək bu hərc-mərcliyin harasındansa dönüb geri baxarkən gördüyü yalnız bu oldu ki, at uçurum üstündə havalanmışdır. Əzrək bağırdı ki, oğlan atdan qopsun, yola atılsın, çünki hələ gec deyildi və rəbiyyəli oğlan cəld tərpənib özünü yola, yaxud qatırlardan birinin yükü üstünə ata bilərdi... Əlbət ki, ata bilərdi, əgər atdan qopsaydı... Amma qopmadı və elə bil qopmaq istəmədi, o səadətdən ki, taleyi yarımca saatlığa ona bəxş eləmişdi.

...Sonra o vaxt ki, bu qiyamət qurtardı, karvan quyruğunu köçdən, köç ətəyini karvandan qopartdı, üzüaşağı enişə axıb tökülən köç içindəki qadınlar rəbiyyəli oğlan üçün yas tutub döydülər əllərilə sinələrini qanatdılar dırnaqlarıyla yanaqlarını, yoldular qara saçlarını, ağbirçəklərini və növbələşərək gah rəcəz vəznində Əzd qəbiləsini qarğıdılar, gah da bir ağızdan növhə dedilər, səs-səsə verib ağladılar.



## 6

Köçdən qopub ağır-ağır yuxarı qalxan karvanda isə tam bir səssizlik hökm sürüdü. Yoxuş başlananda Vəcna yenə arvanasından enib qoca sarvanla yanaşı yol gedirdi və hər iki qara qul daban-dabana yenə ağalarının dalısınca gəlirdi, karvan başı İbn Mingə isə arxada itibbatırdı. Vəcnanın gözünə görünməkdən qaçınırdı.

Baş verən hadisədən sonra indi Vəcnanı ürəyinin yarısı məhv olan sevimli atı üçün yasa batmışdısa, ürəyinin o biri yarısında qara bir sevinc vardı ki, çanaq nəhayət, rəbiyyəli oğlanın öz başında sındı və qaşqa ürgə artıq rəbiyyə yoluqları əlində əsir deyil, yoxsa belə bir rüsvayçılıq bütün Əzd qəbiləsini xar edərdi və bir də ki, rəbiyyəli oğlan iki qəbilə arasında hələ islamdan əvvəl, cahiliyyət dövründə başlanmış çox qədim bir ədavətin qurbanı kimi nə birinci idi, nə axırıncı...

Lakin karvanın yükdə müvazinət yaradan və sonra yol qırağına atılan qürbət daşı kimi özüylə apardığı bu ağır sükut çox uzun sürmədi. İndi daha tez-tez səmtini dəyişdirən küləklər hardasa qayalara çarparaq gah vıyıldayırdı, gah uğuldayırdı, gah ulayırdı və nəhayət, zirvəsi ulduzlara dəyən Dəmavənd dağından qopub gələn qasırğalı bir çovğun karvanı qamarlayıb lərzəyə saldı, qarşıdan Əlvənd dağından atını tərsinə çapan soqqar küləklər isə karvanı döşündən vurub geri atdı, nəfəsin qaytarıb sinəsinə tıxadı və xaş-xaş kimi xırdaca qar dənəciklərini zərb ilə adamların üz-gözünə sancdı.

Zəncandan çıxandan sonra karvan qədim Midiyanın bu dağ yollarında demək olar ki, hər gün ilin bir fəsli ilə qarşılaşmışdı, gah bahar çiçəkli dərələrdən keçmişdi, gah qış nəfəsli gədiklərdən aşmışdı, gah çiskinli, dumanlı yastanlarla hərəkət eləmişdi, gah dərin təngələrin darısqalında bürkü və boğuntu içində yol getmişdi, amma indi birdənbirə bu yay axşamını basmarlayan bu qış çovğunu qəfildən qoyun sürüsünə soxulmuş ac qurd kimi elə bir quduzluğa başladı ki, adamlar boğuq və həyəcanlı nidalarla bir-birinə dəyib vurnuxdular, bir anda yolu örtən nazik qar təbəqəsi üstündə dəyirmi pəncələri sürüşən dəvələr bir gedib, bir dayandılar və qasırğanın hər dəfə yerə çırpıb, sonra yerdən qapıb göyə sovurduğu qar tozu karvan önünə ağımtıl bir tor çəkəndə ala-bula çalan bu titrək qaranlıq içində adamlar artıq iki-üç addımlıqdan bir-birini görüb seçə bilmədilər. Nəhayət, bütün karvan əyildi, büküldü və yumaq kimi bir yerə yığılıb biçimsiz bir kütlə halında hərəkətsiz qaldı...

...Amma sonra karvan getdikcə artan bir vahimə içində nə edəcəyini, başına nə kül tökəcəyini, bəlkə də ölümünü gözünün altına aldığı bir vaxtda, bu dağ çovğunu yenə birdən və hətta gəldiyindən daha artıq bir gözlənilməzliklə göydəki bütün buludları yerinə alıb, dalından atlı qovurmuş kimi bir sürətlə sovuşub getdi ki, adamlar qara vaqiəli bir yuxudan oyanmış kimi, hələ bir müddət qarabasandan sonrakı sərsəmlik içində donub qaldılar.

Birinci olaraq qoca sarvan hər iki əlini göyə qaldırdı:

– Şükür kəramətinə, xudaya, – dedi və baxdı gördü ki, dağ üstü göylərin bütün ulduzları da elə bil gözlərin geniş açıb və yuxarıdan aşağıya yarım saat içində saçlarını ağartmış bu yay dağlarına baxaraq, yerdə baş verən qəribə işlərə mat və məəttəl qalıblar.

Nəhayət, karvan yuxarı qalxıb aşırımın iki donqası arasındakı gözdəkdə düşərgə salanda, Vəcna üçün tələsik çadır qurulanda, digər karvan oğlanları kimi Babək də öz qatarında yükləri açıb yerə tökdü, heyvanlara navara verdi, amma özü nə ocaq qaladı, nə karvan oğlanlarının ocaqlarına yaxın getdi.

Getdikcə daha dərindən canına işləyən bir soyuq vardı ki, bunu ocaq istisilə canından çıxara bilməyəcəkdi. Bir az əvvəlki çovğun tez sovuşduğu üçün böyük bir karvanı bu dağlar qoynunda məhv edə bilməmişdi, amma haradasa tək-tənha karvan dalınca gələn bir uşağı saman çöpü kimi ağzına alıb apara bilərdi... Üzünü görmədiyi və bəzən varlığına belə şübhə elədiyi bir uşağın fikri nə üçün ona bu qədər rahatlıq vermirdi? Nə idi bu? Rəhm hissi idi? Yox, təkcə bu deyildi. Təkcə bu deyildisə, bəs nə idi? Nə idisə o gecə çəkmişdi onu qaranlığa aparmışdı və orada, o qaranlıqda öz-özüylə danışmışdı və bir an olmuşdu ki, çox yaxında nəsə bir nəfəs hiss eləmişdi, amma sonra əli ətəyindən uzun geri qayıtmışdı və indi bu çovğundan sonra o təlaş hissi yenidən baş qaldırıb ürəyini məngənə arasına almışdı. Bəlkə bu çovğun uşağın ağzından vurub geri qaytarmışdı? Yaxud qovmuşdu bir mağaraya salmışdı? Daha nə edə bilərdi bu çovğun? Nə etmişdisə, fərqi yoxdur, yəqin ki, uşaq artıq məhv olmuşdu, sirrini özüylə aparmışdı və yaxud məhv olurdu, indi nə o, nə bir başqası, heç kim və heç kəs məhv olan o uşağı xilas edə bilməyəcəkdi.

Elə bu vaxt Vəcnanın çadırından qopan qorxunc bir bağırtıdan diksinib özünə gəldi.



...Barsis çovğunda məhv olmamışdı və məhz bu çovğun onu məcbur eləmişdi ki, nə cür olursa olsun o işi ki, görməlidir, elə bu gecə yerinə yetirsin! Düşünmüşdü ki, bu çovğun ən yaxşı fürsətdi ki, heç kəs tərəfindən görünmədən karvan düşərgəsindəki o qara çadıra yan alsın və sonra yenə bu çovğun ona imkan verəcəkdi ki, qaçsın, çıxsın aradan və canını qurtarsın. Sonra çovğun sovuşmuşdu, amma Barsis öz hisslərinin çovğunu içində artıq heç bir şeyin fərqinə varmamışdı. "Bu gecə, bu gecə" demişdi özü-özünə, çünki bütün qüvvələri artıq tükənirdi, ayaqları hər gün bir az daha artıq sözünə baxmırdı və əgər sabah yıxılıb yol qırağında can versəydi, kim onun əvəzinə o qara qarğadan intiqam alacaqdı?

Vəcna isə çadırında şam işığında namaz qılırdı və o zaman ki, birinci rikuda[1] diz çöküb başını əydi və səcdə gərəyincə alnını səccadə üstündəki möhürə basdı – arxadan kürəyinə saplanan bir bıçaq zərbəsindən qorxunc bir böyürtü ilə dik atıldı və o dəqiqə yanından ötən kiçik bir qaraltının özünü çadır girəcəyindən çölə atdığını, görərkən gözlərinə inanmadı, bir an səsi batdı, nitqi tutuldu. Kim idi bu kiçik qaraltı? Yoxsa haman cin idi, yaxud şəyatin idi, neçə gündü karvanda bu barədə söhbət gedirdi? Lakin nə cin, nə şeytan bu vaxta kimi heç bir Allah bəndəsinin kürəyinə bıçaq saplamamışdı. Vəcna hələ fikrini cəm eləməmiş və kürəyini alışdırıb yandıran yaradan artıq xurafatçıl bir vahimədən özünə gəlməmişdi ki, qara qullar cəld tərpənib kiçik qaraltını çadır ağzında qamarlamışdılar – o vaxt ki, içəridən ağalarının qorxunc bağırtısın eşitmişdilər sıçrayıb ocaq başından ayağa qalxmışdılar və çadırdan özünü çölə atan Barsis özü birbaşa qulların qolları arasına düşmüşdü.

Barsis sürünə-sürünə arxa tərəfdən qara çadıra yaxınlaşmış, bıçağıyla çadırın ətəyini kəsmiş, səssiz içəri girmiş və çöp kimi nazik qollarının bütün qüvvəsi ilə ikiəlli bıçağı Vəcnanın kürəyinə saplamış, sonra gəldiyi kimi geri qayıtmaq əvəzinə çadırın girəcəyindən özünü çölə atanda, bu uğursuz səhvinə qurban getmişdi.

Düşərgədə çaxnaşma qopdu. Vəcnanın kürəyinə sancılıb qalmış bıçağı dartıb çıxartdılar. Qoca sarvan əbasının ətəyindən cırdığı əsgini bir az ütdü, bir az yandırdı, sonra gətirdi bir ovuc dolusu külü Vəcnanın yarası üstünə basdı və belindəki enli toxuma qurşağını açıb yaranı bərk-

Bütün bunlardan sonra Barsisi sürütməyə salıb Vəcnanın hüzuruna

gətirdilər və qara qullar hərəsinin əlində bir şam uşağın sağında və solunda dizləri üstə oturdular, arxada isə Barsisin başı üstündə karvanbaşı ibn Mingə dayandı. İndi sağ biləyindən qamçı əvəzinə ucu yerə dəyən bir şallaq asılmışdı. Qoca sarvan isə çəkilib bir kənarda dayanmışdı və indi hər iki əli göbəyinin üstündə Barsisə baxıb gözlərini döyür, nə edəcəyini və nə deyəcəyini bilmirdi.

Vəcna qoltuğu altındakı mütəkkələrə təkyələnərək qırmızı güllü Arran xalçası üstündə oturmuşdu və indi görəndə ki, günlərdən bəri karvanı təqib eliyən o kiçik qaraltı nə cindir, nə şeyatindir, baş açıq, ayaq yalın kiçik bir oğlandır, daha artıq bir heyrət içində uzun-uzadı Barsisə baxıb durdu. Sonra birinci olaraq özü uşağı dindirməyə başladı, amma Barsis nəinki heç bir suala cavab vermədi, hətta başını qaldırıb bir dəfə də olsun Vəcnanın üzünə baxmadı. İkiqat bükülüb oturmuşdu, başı sinəsinə əyilmiş, çuxura düşmüş gözlərini yerə dikmişdi, bir də hər dəfə sol cəhəngindən sızan qan çənəsinə çatanda çənəsini bədrəng boz köynəyinin yaxasına sürtüb qan izini silirdi.

Barsisdən heç bir cavab almayan Vəcna başını qaldırdı. Qoca sarvana üz tutub dedi:

– Sən dindir bunu qoca! Soruş bu ilan balasından kim onu məcbur eləyib ki, günlərlə sürünsün bizim arxamızca, günlərlə yolların toz-torpağını yesin, amma inadından əl çəkməsin və axırda gəlib namaz üstündə ilan kimi məni çalsın?

Bu dəfə qoca sarvan uşağı sorğu-suala tutdu, amma Barsis yenə dinmədi və demədi ki, kimdir, nəçidir, demədi, ata-anası varmı, demədi hansı kənddən, obadan, yaxud şəhərdəndir, demədi kim öyrətmişdi ki, Vəcna ibn Rəvvada qəsd eləsin!

Nəhayət, qoca sarvan döndü Vəcnaya dedi:

– Bəlkə laldır və yainki kardır bu uşaq, ya Vəcna?

Vəcna partladı:

indi ağızlarına su alıb susmuşdular və məsələ aydınlaşmamış, uşağın sirri açılmamış heç biri ayağa qalxıb öz qatarından açılmış yük tayası yanında bir az yatmağa, yaxud bir az çimirini almağa getmək istəmirdi.

Orada yaxın bir ocağın şöləsilə işıqlanmış çadır ağzında isə ibn Mingə işə başlamışdı. Barsis qırmac zərbələri altında qıvrılırdı, dizi üstə hərlənib diz qapaqlarıyla torpağı və qanı eşirdi, ayağa sıçramaq istəyirdi, dərhal yıxılırdı, amma cınqırını belə çıxarmır, yalvarıb-yaxarmır və bir kəsi imdadına çağırmırdı.

Babək yenə orada qaranlıqda, ocaqlardan kənarda yük tayına söykənib dayanmışdı, dönüb çadıra tərəf baxmağı özünə yasaq eləmişdi və hər dəfə yalnız qırmanc zərbəsinin vıyıltısın eşidirdi, uşaqdan isə səs çıxmırdı. Amma bilirdi ki, Vəcnanın əmrilə ibn Mingə uşağı döyür və güman edirdi ki, beş-on zərbədən sonra cəza tamamlanacaq.

Öz-özünə düşünürdü ki, budur nəhayət, o uşaq gəldi, üzə çıxdı, karvanı əldən salan bu uzun və məşəqqətli yola ac-susuz təkbaşına davam gətirdi və sonunda Əzd qəbiləsinin əşrəfinə, karvan sahibinə taqətdən düşmüş əllərilə bıçaq zərbəsi vurdu – amma yenə heç bir şey aydın olmadı. İndi də bu cür amansızlıqla döyülərkən bir dəfə içini çəkmir, yalvarıb-yaxarmır, fəryad edib bir kəsi, bir kimsəni imdadına çağırmır. Birdən bu fikir onu sarsıtdı. Bu qədərmi yalqız idi o uşaq? Bu qədərmi insanlara etibarını itirmişdi ki, nə Allahdan, nə bəndədən heç kimdən və heç bir kimsədən imdad gözləmirdi?

Bu vaxt ona elə gəldi ki, nəhayət, uşaq davam gətirmədi, ağladı, döndü çadıra tərəf baxdı, amma gördüyü bu oldu ki, qoca sarvan əbasının qolu ilə gözlərini silib başıalovlu özünü çadırın içinə saldı, Vəcnanın hüzuruna getdi. Başa düşdü – uşaq ağlamamışdı, qoca ağlamışdı uşaq kimi...

...Və o vaxt ki, qoca sarvan hıçqırıb başıalovlu özünü içəri saldı – döşəndi Vəcnanın ayaqlarına, yalvardı:

– Rəhm elə, ey Vəcna, – dedi, – nə eləyibsə uşaqdır və uşağa ölüm düşmür.

Vəcna yarımboğaz yaşıl məstinin pipikli ucu ilə qocanı ayaqları altından rədd elədi, amma qoca əl çəkmədi, yenə Vəcnanın ayaqlarına döşəndi...

...Və bu vaxt Babək orada – çadır ağzında ibn Mingənin hırıldayaraq dediklərini eşitdi:

– Öl deyirdi, – ibn Mingə hırıldayaraq, – öl, ilan balası, ölməsən canın əlimdən qurtulmayacaq!

Hava çatmadı Babəkə, boğuldu, başını yenə aşağı saldı və sonsuz bir xəcalət hissilə özü-özündən üz çevirdi. Ona görə üz çevirdi ki, həyasız bir yamanlıq və həmişə cəzasız qalan bir qəddarlıq yenə azğınlıq edirdi, o isə dəmir kimi möhkəm əlilə öz yaxasından yapışıb imkan vermirdi ki, ürəyində şahə qalxan bir qəzəb dartsın, cilovunu qırsın! Birdən ona elə gəldi ki, nə isə oldu və qırmanc vıyıltısı kəsildi. Başını qaldırdı, baxdı. Uşaq hərəkətsiz bir halda çadır ağzında yerə sərilmişdi. Ölmüşdümü? Əgər ölmüşdü, deməli ibn Mingə uşağın cəsədini tapdayırdı?

Və ürəyində şahə qalxmış qəzəb dartdı, cilovunu qırdı.

...Qüvvətli bir əlin endirdiyi zərbədən ibn Mingənin qara çalması başından uçub çox uzaqdakı bir kol topası üstünə qondu və gözlərində sonsuz bir heyrət ifadəsi olan ağır bir gövdə ləngər vuraraq arxası üstə çadırdan üç-dörd addımlıq məsafədə yerə sərildi.

Hadisə elə bir sürətlə cərəyan etmişdi ki, karvan oğlanları içlərini çəkməyə belə macal tapmamışdılar.

İndi o, yerə sərilmiş ibn Mingəni tapdamağa başlamışdı ki, Vəcnanın çadırından özünü çölə atan qoca sarvan qorxunc bir fəryad ilə arxadan Babəkin ayaqlarına sarıldı:

– Amanın günüdür, oğul, nə edirsən, kimə əl qaldırırsan?

Arxaya, qocaya tərəf döndü, dartındı, ayaqlarını qocanın qolları arasından çıxartmaq istədi, amma bacarmadı, yerindən tərpənə bilmədi və ayaqlarını cidarlamış qocanın qollarındakı qüvvətə heyrət elədi. Sonra qoca başını qaldırıb aşağıdan yuxarıya ona baxanda, daha artıq bir heyrət içində qaldı. Qoca elə dəhşətlə ona baxırdı ki, elə bil başı üstündə əzrail dayanmışdı.

Dəfələrlə bunu görmüşdü, dəfələrlə buna şahid olmuşdu ki, qorxunun göstərdiyi xilas yolu xain bir bələdçinin göstərdiyi yoldur, cilovlanmayan qorxu guya səni təhlükədən qaçırdırdı, guya sənə xilas yolu göstərirdi, amma çəkirdi, aparırdı, öz bataqlığına salırdı. Orada isə son peşmançılıq fayda verməyəcəkdi və öz ölümü özünü iyrəndirəcəkdi...

Qoca isə dərhal bərkdən onun ayaqlarına sarılaraq, amansız bir təhlükəni onun başından sovuşdurmaq üçün ağzında dili titrəyərək yalvarırdı ona və yol göstərirdi:

– Bu nə işdir elədin oğul? Niyə qoymadın yalvarım? Niyə qoymadın ağlayım? Yalvarardım, ağlayardım o vaxta qədər ki, axırda o zalım



da rəhmə gələrdi. Məgər başqa bir çarəmiz varmı? İtaət elə oğul, get Vəcnadan aman istə, de ki, bir xəta idi çıxdı əlindən, amma bundan sonra Sirat-əl-müstəqim olacaq sənin də yolun, o yol ki, cəmi müsəlmanların xilas yoludur...

Birdən qocanın əlləri boşaldı, yanına düşdü və Babək çox yaxında kiminsə ağır-ağır nəfəs aldığını eşitdi, döndü baxdı.

Vəcna qara əbasında, qara çalmasında qara bir heykəl kimi çadırın girəcəyində dayanmışdı. Yaxın ocaqdan vuran titrək şölə ilə üzü gah bir az işıqlanır, gah bir az qaralırdı.

Bir müddət nə Vəcna dinib danışdı, nə Babək bir söz dedi. Hər ikisi sükut içində gərgin bir intizarla nəyi isə gözləyirdi...

Vəcnaya görə onun bir çobanı, bir muzdlu, yaxud bir karvan qatarçısı ki, bir kölədən artıq deyildi, əgər kiçik bir xəta işləmişdisə, hətta onun dəvəsinə bir çomaq vurmuşdusa və yaxud itinə, pişiyinə bir daş atmışdısa, sonra dərhal ağasının hüzuruna gəlməli, baş əyməli, peşman olduğunu iqrar etməli və aman istəməli idi. Bu həmişə belə olmuşdu. Amma indi qarşısında dayanmış bir cürətkar Vəcnanın əmrini yerinə yetirən karvanbaşıya əl qaldırmışdı, ayağı çarıqlı bir yoluq Əzd qəbiləsinin varlı çarvadarlarından birinə əl qaldırmışdı. Ən nəhayət, bu kafir bir müsəlmana əl qaldırmışdı. Amma buna baxmayaraq bu əyri dinli əhllənət yerindən tərpənmirdi, aman istəmirdi və hətta qaçmaq, canını qurtarmaq fikrində deyildi. Deməli ölümünü qəbul edəcəkdi, amma ən yüngül bir cəzanı qəbul etməyəcəkdi, xeyr əgər ölümünü qəbul edəcəkdisə, aydındır ki, canını asancasına təslim etməyəcəkdi. Birdə ki, indi kim onun əmrini yerinə yetirəcəkdi, kim bu cürətkarın kürəyini qamçı ilə odlayacaqdı ki, karvanda bu işi icra eləyən indi özü qəşş edib yerə tir-tap uzanmışdı.

Qalırdı özü! Qalırdı bu saat qınında inildəyən qılıncı!

Vəcna dedi:

– Qulaq as kafir, sən o inadkarsan ki, vaxtilə böyük qardaşım səni islama dəvət elədi, yola gəlmədin, və o vaxt adını Həsən qoymaq istəyirdi, qəbul eləmədin. Odur ki, hələ də nə dinin var, nə imanın. Həzər əcəm adından ki, yadımda deyil. Özün sal yadıma, nədir və yaxud nə idi adın.

Babəkin bəbəklərində nə isə soyuq bir işıltı yanıb söndü ki, Vəcna bunu görmədi, amma hiss elədi və sualına cavab almadı.

Vəcna bütün karvan oğlanlarının nəsbəsini, mənyyəti, haralı olduğunu və bir-bir adlarını çox yaxşı bilirdi. Amma heç kəsi adıyla çağırmağa

tənəzzül eləmirdi, istər müsəlman olsun, istər qeyri-müsəlman bütün bu yolluqlara müraciət edərkən doqquz yaşından tutmuş doxsan yaşına kimi hamıya "ya valid" yəni "ey oğlan" deyə xitab edərdi. İndi qarşısındakının bu ağır sükutundan bir an duruxdu, sonra səsini qaldıraraq əmr elədi:

– Səninləyəm, kafir, cavab ver, yadımda deyil adın!

Babək yenə dinmədi və bu dəfə daha ağır bir sükutla Vəcnanın məramını rədd elədi. İndi Vəcnanın qalın dodaqları daha artıq kip qapandı və qılıncı qınında, zəncirinin bir an tez açılması üçün sahibinin əl-ayağına dolaşan və mane olan qanıq bir köpək kimi için-için zingildədi...

Aralığa çökən bu məşum sükuta birinci qoca sarvan davam gətirmədi: bir tərəfdən Babək üçün duyduğu qorxudan, digər tərəfdən Vəcnanın qarşısında duyduğu dəhşətdən ixtiyarsız olaraq inildədi:

– Vay olsun sənə ey Babək, nə üçün cavab vermirsən, sən cavab ver ki, ağamız da bizə rəhm eləsin.

Babək yenə dinmədi, indi o getdikcə közərən bu sükut içində qarşıdan düzünə, dikləməsinə vurulacaq hər bir zərbəyə və sonra nə olacaqdısa hamısına hazır idi. Gödəkcəsinin astarına tikilmiş meşin qın içindəki qəməsi yola çıxarkən təzəcə ovxarlanmışdı. Lakin eyni zamanda nə isə ürəyinə sızan bir hiss ona deyirdi ki, hardasa yaxında başqa bir təhlükə hər an sıçramağa hazır bir yırtıcı kimi yerə sinib nəfəsini belə udmuşdur. İndi quyruğunun ucundakı xəfif titrəyiş bir an sonra baş verəcək ölümcül sıçrayışın son əlamətidir. Görmüşdü, dəfələrlə şahid olmuşdu ki, ölüm çox vaxt arxadan namərdcəsinə zərbə vurub qəfildən ovlayır öz qurbanını!

Elə bu vaxt Turac oğlunun Sarat rustakından təzəcə gəlib Təbrizdə ibn Rəvvadların karvanında qatarçılığa başlamış oğlanın qəzəbli nidasın eşitdi:

– Əlini dinc qoy namərd, bəsdir quduzluq elədin!

Babək döndü geriyə baxdı. Əlində xəncər arxadan üstünə gələn karvanbaşıyla öz arasında ikicə addımlıq məsafədən artıq qalmamışdı və təngənəfəs yügürüb çadır yanına gələn karvan oğlanlarından üç nəfərin əlləri qurşaqlarına keçirilmiş qəmələrin üstündə idi.

Karvanbaşı alt dodağını dişləyib dayandı. Vəcna isə dərhal vəziyyəti qavradı və hesabladı. Təbrizdən çox uzaqda idi. Və Həmədana hələ çatmamışdı. Burada, kimsəsiz dağlar qoynunda bu, karvanda partlamağa hazır bir qiyamın başlanğıcı idisə, Vəcna təmkin və tədbirlə iş



görməli idi. Buna görəydi ki, Vəcna həqarət dolu bir baxışla karvanbaşını başdan ayağa kimi süzdü və dedi:

– Ya ibn Mingə, əlbəttə ki, möminlərə əl qaldıran kafirlərin qanı halaldır, amma kimin hüzurunda yer öpməyə getdiyim sənə əyandır və mən bu karvanda qan tökülməsinə izin vermirəm.

Sonra Vəcna bir daha karvan oğlanlarından o üç nəfərə nəzər saldı və hiss elədi ki, bu yoluqlara nə cəza verəcəksə təxirə salmalıdır, ta bu tanrı qarğımış yol qurtarana qədər bu yolun sonunda o yenə Əzd qəbiləsinin rəisi kimi əmr verən və əmri yerinə yetirilən Vəcna ibn Rəvvad olacaqdı. Amma hələ də qarşısında dayanıb duran və karvanda qiyam şərarəsini alışdıran bu əhl-lənət haqqında dərhal bir qərara gəlməli idi və karvan sahibi kimi Vəcna hökmünü ucadan əyan elədi:

– Qılıncım qınında inildəyir ey kafir, amma lənət o kor şeytana ki, əvvəlcə sənə bunca cürət verir, sonra mənim səbrimi-səbatımı imtahana çəkir. Get karvandan! Və nə qədər ki, əyri dinini müstəqim edib bir olan Allaha iman gətirməmisən Azərbaycanda, nə mənim, nə Əzd qəbiləsinin torpaqlarında sənə yer yoxdur.

Sonra Vəcna döndü, öz çadırına getdi...

Barsis isə bu vaxt durub oturmuşdu, ayağa qalxmaq istəyirdi, amma qalxa bilmirdi. Babək yaxın gəldi, tutdu uşağın qolundan, qaldırdı...

Hara gedəcəyini, başına nə gələcəyini bilmirdi.

Bildiyi o idi ki, indi o özü qovqun idi, üstəlik xilas etdiyini bir yük kimi çiyninə alıb aparmalı idi.

Və o Barsisin qolundan tutub öz gələcəyinə doğru addımladı...

*Bu tərkidünya bir qocanın*
*Dağ mağarasında gecə nəğməsidir*
*Və kiçik barsisin əlilə*
*O qocanın dəfn edilməsidir*

## 1

Geriyə qayıdış yolu bağlanmışdı və indi o yalnız irəliyə, hələ görmədiyi, amma gəlib çox yaxınına çıxdığı o böyük şəhərə doğru getməli və ibn Rəvvadın karvanından əvvəl o şəhər darvazasından içəri keçməli idi, çünki Vəcna şəhər darvazasındakı keşikçilərə onu nişan verə bilərdi və əgər yaxalansaydı, şəhər hakimi ibn Mingənin şikayəti əsasında müsəlmana əl qaldırmış bir kafirə çox ağır cəza təyin edəcəkdi və indi

qolundan tutub gecə qaranlığında addımladığı bir uşaq bu dəfə də o qürbət şəhərində başsız və kimsəsiz qalacaqdı...

...Taqətdən düşmüş uşaq isə ikinci dəfə idi ki, büdrəmişdi, dizləri bükülmüşdü. Yerdə oturmuşdu və indi o yenə ayaq üstə dayanıb gözləyirdi ki, uşaq bir an dincəlsin, nəfəsini dərsin.

Yol dağarcığı boş idi. Ehtiyat azuqəsi yükdə qalmışdı. Amma yenə də əlini salıb dağarcığın dibini silib-süpürdü, yığışdırdığı quru yoğurt və pendir oxantılarını uşağın ovcuna tökdü.

– Ye, – dedi, – bir az ürəyində qüvvət olsun.

Sonra əynindən gödəkcəsini də çıxartdı uşağın cır-cındıra çevrilmiş və tər köynəyin içində açıq qalmış arıq çiyinlərinə atdı, özü qalın köynəkdə qaldı. Uşaq başını əyib sol ovcundakı yoğurt qurusu, pendir oxantısını yaladı, amma gödəkçəni çiynindən rədd eləmişdi. Babək uşağa təpindi.

– Qulaq as qurd balası, – dedi, – ayaq üstündə dura bilmirsən, kim bilir dağ gecəsinin bu ayazında hələ nə qədər yol gedəcəyik... Əzmini nahaq yerə mənə əzəmət satırsan. Yıxılıb bu yol qırağında can verməkheç rəva deyil ki, qəbrini də mənə qazdırasan və məni qürbət dağlarında məəttəl qoyasan.

Barsis dinmədi və artıq dirənmədi, qüvvəsini topladı, ayağa qalxdı. Düzdür gödəkçə ayaqlarına dolaşdı, amma dərhal canının bir az qızdığını hiss elədi.

Sonra aşırımı üzü aşağı endilər və çox darısqal bir təngənin dibində qara batıb qaldılar və burda o tərəf, bu tərəfə boylananda irəlidə və arxada ulduzların işığında gah yanan, gah sönən yaşıl parıltılı bir neçə göz gördülər.

Axşamkı çovğun qayalardan silib süpürdüyü qar ilə bərabər, görünür bu ağzı qaraları da qovub bura doldurmuşdu. O isə dayanmışdı, nə isə fikirləşirdi. Eyni zamanda uşağa dedi:

– Bircə kəlmə din, danış oğlan, heç olmasa adını de bilim yoldaşımayaqdaşım kimdir?

Uşağın dodaqları tərpəndi və o nə isə dedi:

– Eşitmədim, Bar-sis?

Uşaq başının hərəkətilə dediyini təsdiq elədi və əlbət ki, indi ayaq üstə durmağa taqəti qalmamış bu uşağı sorğu-suala tutmaq vaxtı deyildi və indi onun gözləri ətrafda vurnuxan o qara kölgələrdə idi. Axşamkı çovğunun bu darısqal təngəyə tıxadığı qar içində ağzı qaralar yuxarıya



doğru dikinə sıçrayışlarla hərəkət etdikcə qar tozu ulduzların işığında kiçik ağ fəvvarələrlə ətrafa səpələnirdi. Nə eləyirdilər bu ağzı qaralar? Təngənin qarı içindən çıxmağa yol axtarırdılar, yoxsa təbiətən çox mahir bir ovçu kimi məqsədləri irəlidən və arxadan bənd-bərəni kəsib onları mühasirəyə almaq idi. Hər ehtimala qarşı əyildi, uşağın çiyninə saldığı gödəkçənin astarına tikilmiş meşin qın içindən tiyəsi əyri qəməsini dartdı, çıxartdı və uşaq onun bu hərəkətini gördüyü üçün dedi:

– Qulaq as, Barsis, deyirlər ki, bir qaplanın vücudunda nə qədər gücü varsa, ürəyində də bir o qədər gücü olur. Amma bir Barsisin vücudunda nə qədər gücü varsa, ürəyindəki gücü ondan on qat artıq olur... və əgər dədən də yanılmayıb sənə Barsis adı qoyubsa... – böyrünə qısılmış uşağın ürəyinin dərhal uçunduğunu hiss elədi və başa düşdü ki, uşaq qorxduğu üçün yox "dədə" sözünü eşitdiyi üçün belə uçunmağa başladı və əlbət ki, uşağın sirrini açmaq üçün bu hələ çox azdı. Amma əlinə keçən kələfin ucun buraxmamalı idi və o heç bir şey hiss eləməmiş kimi dedi:

– Dediyim o idi ki, Barsis, bu ağzı qaralar vəhşi heyvanlar içində ən dərrakəli yırtıcılardır. Təkcə bunlar bilirlər ki, iki adam bir-birinin yanında duranda ikisi bir yerdə bir qoşun kimi qüvvətli olur.

Bu vaxt Barsis onun qolun dartışdırmışdı və əlilə çox yuxarıda yamac başında nəyi isə ona göstərmişdi. O da çox baxmış və nəhayət, görmüşdü ki, çox zəif və qızartdaq bir parıltı gah görünür, gah yox olurdu. Və o dərindən rahat nəfəs alaraq demişdi:

– Laçın, şahin gözləri varmış səndə qurd balası. Elədir. Od var orda, ocaq var orda və haydı, ölsək də, da, diri qalsaq da gərək dırmaşaq ora...

Sonra o bomboş dəri dağarcığı bir az yaxına gəlmiş iki ağzı qaranın üstünə vızıldatdı və dedi:

– Çox acdılar, qoy gəmirsinlər başları qarışsın!

Bir az sonra isə dik və kolluq yamacla yuxarı dırmaşarkən o arxadan dəri dağarcığının necə quru çatırtı ilə cırıldığını və ağzı qaraların çənələrindən qopan şaqqıltını eşidərkən elə bil buzlu bir dil boz köynəyi altında bir anlığa kürəyini yalamışdı.

Nəhayət, ölüm-zülüm dik yoxuşu qalxıb qaya altındakı daş bir yerə çıxdılar və burda qara ağzını geniş açmış bir dağ mağarası onları içəriyə, qızartılı qaraltıya dəvət edərkən birdən o ani tərəddüd içində dayanmışdı. Əgər bu dağ mağarası dağ quldurlarının yatağı idisə? Nə

alacaqdılar ondan? Bir halda ki, toqqasından asılmış dəri kisəcikdə çaxmaq daşından, qovdan və səkkiz dirhəmdən başqa heç bir şeyi yoxdur? Bəs uşaq. Barsisi ala bilərdilər onun əlindən. Və sonra uşağı aparıb qul tacirlərinə satmaq üçün əlbəttə ki, onu da sağ qoymayacaqdılar.

– Qulaq as Barsis, – dedi, – Sən dur burda... Mən içərini yoxlaram...

Barsis qoymadı onu sözü qurtarsın. Kəskin bir hərəkətlə başını buladı və dərhal əyildi, yerdən iri bir daş götürdü, irəli keçdi. Döndü əlilə ona işarə elədi ki, yəni sən dayan burda, qoy mən yoxlayım, görüm içəridə nə var, nə yox. Babək ixtiyarsız olaraq güldü:

– Qurd ürəyi yedirib anan sənə qurd balası – dedi. – Yaxşı, dalımca gəl, ya dövlət başa, ya quzğun leşə.

İçəridə alaqaranlıq içində on-on beş addım irəlidə ilk öncə ocağı görmüşlər. Lakin ocaq başında heç kəs yoxdu. Sonra gəlmişdilər ocaq yanında dayanmışdılar, diqqətlə yan-yörələrinə baxmışdılar. Səssiz dayanıb gözləmişdilər ki, hardansa bir xışıltı, bir ayaq səsi və yaxud bir hənirti gələcəkdir.

Və bu zaman Barsisin əlindəki daş birdən yerə düşmüşdü, dizləri qatlanmışdı yerə çökmüşdü və dərhal başı sinəsinə əyilmiş və uşaq üzü üstə yerə səriləndə alnı ocaq qırağındakı külə batmışdı.

Əyilmişdi uşağın başın yerdən qaldırmışdı... diqqətlə üzünə baxmışdı. Mağaranın sahibi quldur idimi, div idimi, əjdaha idimi, fərqi yoxdu, artıq gecəni burda qalmalı idilər. Uşağı gödəkcəsinə bürmələdi, başını ocağın yanında, divar dibindəki quzulamış torpaq üstündə rahatladı, sonra qalxdı mağaranın içini gözdən keçirdi. Mağara boşluğun qaranlıq içində harayacan uzanıb getdiyi və harda qurtardığı görünmürdü. Amma yaxında gözünə bir çırpı şələsi dəymişdi, getdi o şələdən bir çəngə çırpı çıxartdı, qatdı gözü qaralan ocağı gur qaladı.

Quru çırpılar çox tez tutaşdı, bir az əvvəl qaramat mağaranın sirli səssizliyindən qulaq cingildəyirdi, indi hər tərəf ocağın çatırtısıyla doluydu və sükut mağara boşluğundakı qaranlıq ənginliyində geri çəkildi. Sonra çəkildiyi o yerdə rəşəli və tələsgənliklə dingildəməyə başladı. İndi dabanları üstə ocaq qarşısında oturmuşdu, dirsəklərini qatlanmış dizləri üstə qoymuşdu, əllərini irəliyə ocağın alovuna doğru uzatmışdı; yer nəmişlik olanda gecə ocaqları başında da həmişə belə oturardı, gözləri oda baxardı, fikri uzaqlara çapardı.



Sonra əlini daha da irəli uzatdı, alovun qırmızı dilləri içində əllərini yuyub ovuşdurdu və əllərini geri çəkəndə alov dolu ovuclarını üzünə çırpdı.

Bu vaxt pərdə arxasında nə isə bir hənirti eşidən kimi oldu, dərhal qeyri-ixtiyari olaraq əlini toqqası altına keçirdiyi qəmənin üstünə qoydu. Çevrildi geri baxdı və qulaq kəsildi.

Hənirti yaxından gəlirdi və el bil kimsə yer altında inildəyirdi və o yerdən ki, bu səs gəlirdi, orda bir çuxur qaralırdı. O çuxurun solunda daşlı-kəsəkli torpaqdan kiçik bir təpəcik ucalırdı. Qalxdı ayağa və ağzı qaralan o çuxura doğru yönəldi. Və ona elə gəldi ki, dərhal ordan qaranlığa iyrənc çəkildi ki, ombası, sağrısı, bel sütunu bir az yuxarı əyildi[1] gəlib gördü ki, çuxur səliqə ilə qazılmış bir qəbir quyusudur və indi ağzı açıq qalmış bu qəbir inildəyirdi, yaxud sayıqlayırdı və daha doğrusu titrək və həzin bir avazla nəğmə oxuyurdu:

– ...Ey rəbim, vay həbibim, mən ki, hər axşam dərgahına gəldim, gecəm də vahəsrata oldu, gündüzüm də. Və bu minval ilə ömrüm tükəndi. Amma bir dəfə mənə lütf etdiyini görmədim... Və indi bu növbət hüzurundan getmərəm, ta ki mənə bildirmiyincə. Bunca ki, mən səni sevdim, sən dəxi məni sevmirsən? Getmərəm, ta ki mənə aşkar olmayınca. Bunca ki, mən sənə doğru gəldim, sən dəxi mənə intizarmısan? Getmərəm ta ki mənə bildirmiyincə. Bunca ki, mən səni sevdim, sən dəxi mənim həsrətimlə ağladığım pərişan halıma yanarmısan?

Əllərini dizlərinə dirəyib aşağı əyildi, diqqətlə qəbrin dibinə baxdı, əlbəttə ki, orda kim isə vardı. Və o şəxsin saçı-saqqalı dümağ idi. lakin qəbrin dibindəki qaranlıq bundan artıq görməyinə mane olurdu. Döndü ocağa doğru getdi. Bayaq orda gözünə bir neçə quru gərməşöv çubuğu dəymişdi (ta qədimdən dağ kəndlərində yoxsul daxmaların, yeraltı qazmaların şamı, çırağı, qaranlıq gecələrinin istisi bu çubuqların alovu idi). Gəldi o quru gərməşov çubuqlarından üç dənə götürdü, bir-bir ocaqdan alışdırdı. Sonra yenə geri döndü, qəbrin qırağında diz çökdü. Ağca siftə bir anlığa yanan və maraqlı yanım ilə şamı işıqlandıran bu çubuqların işığında zənn ilə qəbrin içinə baxdı. Bir qoca uzanmışdı orda, üstünə yırtıq bir keçə salınmışdı və yastığı bir qucaq küləş idi. Qocanın gözləri açıqdı və iri qara gözlərinin baxışlarında elə bir qaynarlıq və parıltı vardı ki, son iqamətgahında uzanmış bir qocanın

[1] Əlyazmasında bu cümlə oxuna bilmədi

bunca diri gözləri istər-istəməz onu heyrətə saldı. Qocanın dodaqları yenə tərpənirdi və eyni neşəli sayıqlama, dalğa-dalğa qəbirdən yuxarı qalxırdı: "Və ey həbibim, bunca ki, yoxsulluğumda mən səni gördüm, mümkün deyil ki, sən məni görməyəsən. Çünki bu yer üzündəki dirilik nədir. Əgər sənin pərişan və qorxunc röyaların deyilsə və yaxud o göylər nədir, sənin qənd sünbülün ilə bəzənmiş mənim obalarım deyilsə? Və indi xaraba qalmış can evimdə və yorulmuş və usanmış bir ürəkdə son yuxumdan əvvəl su kənarı ilə keçəm..."

Birdən qoca diksinən kimi oldu və bayaqdan bəri əlində üç yanar çubuq ilə başı üstündə ucalan və qırpımsız baxışları ona zillənmiş bu varlığı nəhayət, tanıdı, dərindən köksünü ötürdü və nida elədi.

– Nəhayət ki, gəldin, ya əzrail? Və gəldin ki, hər gecə bu qəbirdə sənin mətəlin idim... Və indi ki, düz həyatım məmat ilə tamə yetişdi, qoy rəbbimə sığındığım bu gecə yüz dəfə mübarək olsun.

Və qoca gözlərini döyə-döyə qaldı və çox gözlədi, amma qəbirdən daha səs gəlmədi. Nəhayət, davam gətirmədi, əlindəki yanar çubuqları bir-bir qəbirin qırağına sancdı. Sonra çox ehtiyatla ayaqlarını yerə diriyərək üsulluca qəbrin içinə endi, bir əlini qocanın alnına qoydu. Gözləyirdi ki, əli artıq alnı soyuq tər basmış bir cəsədə toxunacaq, amma gözlədiyinin əksinə qocanın alnı od tutub yanırdı və indi hənirti onun üçün aydın oldu; Qoca qızdırmanın şiddətindən sayıqlayırmış. Çəngələdi qocanı yatağından qaldırdı, bir dəri bir sümük idi, evi başına uçmuş bir quş müqəvvası kimi yüp-yüngüldü. Qaldırdı qocanı qəbrin qırağına qoydu, sonra özü də qəbirdən çıxdı və qocanı yenə də qucağına aldı. Gətirdi ocaq yanındakı çürük həsirin üstünə uzatdı və qocanın yamaq üstündən yamaq vurulmuş bədrəng əbasının yaxasın açdı.

Qocanın huşu özünə gəldi... hələ də gözləri qapalı idi, lakin qupquru dodaqları zarıdı.

– Ya əzrail, uçarımın adı hörmətinə... əvvəlcə bir qurtum su... və sonra yubanma, otur sinəm üstə, canımı al ki, uçardım, ancaq vücudun əsarətindən qurtarsam... Bucaqdakı cürdəkdən su töküb ağacdan yonulmuş piyaləni doldurdu. Sonra qocanın başını yerdən qaldırdı.

Və qoca ürək yanğısıyla qurtum-qurtum neşəli bir inilti ilə piyaləni son qətrəsinə kimi boşaltdı. Və dərhal elə sustaldı ki, təkrar başı yerə dəyən kimi dərin bir bayğınlıq içinə yuvarlanıb hərəkətsiz qaldı.



## 2

Uşaq onun gödəkçəsi altında ayaqlarını qatlamışdı, dizlərini qarnına sıxmışdı və indi yuxusunda nəfəs alırdı. İnildəyirdi. Nəfəs vermirdi, sızıldayırdı və hərdənbir nə isə deyir, sayaqlayırdı. Qırmac zərbələri altında bir dəfə də olsun cınqırını çıxarmamış uşağı indi namərd yuxusu "rüsvay" edirdi. O isə diqqət kəsilərək uşağın nə dediyinə qulaq asırdı. Bayaq da uşaq yuxusunda kimi isə çağırmışdı. Amma o yaxşı eşitməmişdi. İndisə uşağın "Cunay" deyə kimi isə çağırdığını aydın eşitdi. Cunay, kim imiş görəsən bu Cunay? Bəlkə anası idi? yox, uşaq yuxusunda anasını adıyla səsləyib çağıra bilməzdi və indi yenə ürəyində bu qurd balasına qarşı bir şəfqət dalğası baş qaldırırdı. Dərhal qaşların çatdı və öz-özünə topindi ki, yavaş, zənən xeylağı deyilsən!

Sonra yenə ocağın oduna dikilmiş gözləri yol çəkdi, kim idi yaxud kim imiş bu uşağın atası? Nə üçün "dədə" sözünü eşidən uşaq o cür uçunmuşdu? Bəlkə öldürülmüş bir ananın oğlu idi? Və yaxud atası elə – Vəcnə ibn Rəvvad idi ki, uşaq öz atasını öldürməyə gəlmişdi? Məgər azmı idi doğduqları uşaqları ilə bərabər kübarların qəsrlərindən və kaşanələrindən qovulan, daha doğrusu sahibləri tərəfindən satılan kənizlər və cariyələr? Və belə uşağın ürəyində qisas odu yanırdı.

O vaxt bu mağaraya girmişdilər. Vaxtı bilmək üçün başını qaldırıb dağ üstə göylərin ulduzlarına baxa bilməmişdi, amma indi hiss eləyirdi ki, çöldə qalmış o böyük dünyada artıq gecə çoxdan yarıdan keçmişdir. Bura, bu qaramat mağaraya tıxanmış zaman isə elə bil donmuşdu və dayanmışdı və əlbəttə ki, bu gün təlaş dolu yorğunluğu gecə onu yatmağa qoymayacaqdı və o sağında ölü kimi düşüb qalmış, amma hər nəfəs ilə həyata qayıdan bir uşaqla, solunda yuxusu ilə oyanıqlığı arasındakı sərhəd olmayan, hər nəfəs ilə həyatdan uzaqlaşan bir qoca arasında səhəri diri gözlə açacaqdı.

Məhz bu mağara uşağı xilas eləmişdisə, eyni zamanda can verən bir qocanı da indi onun ixtiyarına vermişdi. Elə isə ilişib bu mağarada qalsaydılar nə yeyəcəkdilər, nə içəcəkdilər? Əgər bu tərkidünya qocanın hər gün bir öynəlik ciresi bir xurma və yaxud bir tikə arpa çörəyi idisə...

Halbuki, qoca bu halda olmasaydı uşağı burda, onun yanında qoyub gedə bilərdi, yaxındakı o böyük şəhərdə bir iş tapıb qulpundan yapışırdı, sonra gələrdi, uşağı qocadan alıb aparardı. Amma indi nə cür

can verən bir qocanı burda tək başına qoya bilərdi və ac bir uşağın qolundan tutub necə yola düşəcəkdi?

Birdən hiss elədi ki, sol tərəfdən bir cüt göz ona zillənib. Səksənən kimi oldu. Başını qaldırdı. Qoca qalxıb həsir üstündə oturmuşdu və gözlərini döyə-döyə oturduğu yerdən ona elə baxırdı ki, elə bil saçaqlı papağı altından saçları boynuna tökülmüş, ocağın şöləsindən üzünün rəngi his rənginə boyanmış iti və ilişkən baxışları rəhmsiz olan bu qarşısındakı məxluq məhz onun gözlədiyi varlıq idi. Amma nədənsə öz işini görmək əvəzinə, qocanın ocağı başında oturub qızınmağa vaxt tapmışdı. O isə çox sevindi ki, nəhayət, qoca özünə gəlmişdi və birinci olaraq özü sözə başlayaraq:

– Xoş gördük ata, – deyə gülümsədi. – Elə bil qızdırman səngiyib, gözlərin bir az durulub. Çox şükür. Ürəkdən diləyirdim ki, vücudun şəfa tapıb, ürəyin şad olsun.

Qocanın elə bil matı-qutu qurudu və ixtiyarsız olaraq dedi:

– Sübhan Allah, bu nə röyadır göstərirsən mənə? Məgər əzrail öz peşəsindən əl çəkibdi? Və yainki təbibliyi özünə şüar edibdir?

Başını buladı, qocanın indi də oyanmış halda sayıqlamasını yorğun bir xidmət hissilə qarşıladı.

– Allahı sevirsən ata, – dedi, – gəl bu əzrail söhbətinə son qoyaq və əgər bilmək istəyirsən biz özümüz, yəni o uşaq da, mən də ən azı beş-altı yol boz əzrayılın əlindən can qurtarmışıq.

Gözləmədiyi belə bir cavabdan bu dəfə elə bil qocanın nitqi batdı, başladı alnını ovuşdurmağa və bir müddət kirimişcə dayandı. Sonra çox fağırcasına, qorxa-qorxa dedi:

– Gecələr növbənöv xəyalət müsafirim olur... və qulağım bir-birindən əcayib ləfzlər eşidir... İndi aya sən beş-altı yol, əzrail dedin və yainki qulaqlarım məni aldatdı, səhv eşitdim?

– Səhv eşitməyibsən, ata, – dedi, – odur orda bax, odur o boz əzraillərdən ikisi, odur orda, mağara ağzında nəzikib bura baxırlar.

Qoca sağ əlini alnına söbər elədi. Zənn ilə uzun-uzadı mağara ağzına tərəf baxdı. Bayaq üstlərinə atılan yol dağarcığını gəmirmiş o ağzı qaralardan ikisi gəlmişdi və indi orda mağara ağzında bir-biri yanında nəzikib oturmuşdu. Və gözləri yenə də gah yaşıl bir alovla yanırdı, gah sönürdü.

Qocaya isə orda uzaqda gördükləri, burda yaxında gördüyündən və eşitdiyindən daha artıq gerçək görünürdü və dodaqlarına qonan solğun bir təbəssümlə dedi:



– O küçüklərdimi, əzrail?

– Əcəb küçükdür, – dedi Babək, – amma tamam. Və çox şükür ki, bu əzrail söhbəti qurtardı. İndi qulaq as ata. Mən də, o uşaq da hər ikimiz qəribik bu dağlarda... Və əgər Allah qonağı kimi sənin bu mağarana pənah gətirmişiksə...

– Toxta, – dedi qoca, – əgər bu bir yuxudursa, aman ver qoy oyanım, özümə gəlim. Bu əgər röya deyilsə, haçan uçdum o quyu dibindən və gəldim buracan?

Üzr istəyirmiş kimi yavaşdan dedi:

– Yanırdın qızdırma içində və uçurdun. Mən çıxartdım səni ordan, o yerdən və gətirdim bura qoydum...

### 3

Qoca titrək əllərilə o uşağın başını xızırlamış torpaq üstündən qaldırdı və bir çəngə quru otu Barsisin başı altında yastıq elədi, sonra bu dağ mağarasında doqquz ilin soyuğu hopmuş buz barmaqlarını uşağın saçlarına toxundurdu və dedi:

– Bir dünya ki, orda bir əlcə tiflə bunca zülm olur, şeytan yaradıb o dünyanı, mənim rəbbimin bu işdən xəbəri yoxdur.

Babək gözlərini döydü. Şeytan yaradıb bu dünyanı? Və tanrının bu işdən xəbəri yoxdur? O tanrının ki, bütün rəvayətlərə görə əvvəl bu dünyanı yaratmışdı və sonra bu dünyanın harasındasa, bir ovuc qırmızı torpaq götürüb birinci insanı – bütün insanların atası Adəmi yaratmışdı və o vaxt ki, torpaq insanın anası olmuşdu, fəryad eləmişdi, insan adlanan övladının gələcək aqibətini düşünüb çox ağlamışdı və indi bütün bu axan, çağlayan çaylar, bulaqlar və ırmaqlar o vaxt çox ağlamış ana torpağın göz yaşları idi ki, nəhayət, qiyamət günü zaman dayananda, dağlar uçurulanda, dənizlər buxar olanda, gün məğribdən çıxanda quruyacaqdı.

Elə isə bu tərki-dünya qoca hansı çovğun əqidənin sahibi idi ki, insanlardan qaçıb bu kimsəsiz dağlara gəlmişdi, bu qaranlıq mağarada özünə qəbir qazmışdı və hər gecə öz qəbrinə girib yatırdı və indi də "bu dünyanı şeytan yaratmışdır" – deyərkən ağızdan qara bir küfr çıxardı?

– Görürəm ki, gözlərin doğruçudur, – dedi qoca, – insan nə cildinə girsə girsin, gözləri xaindirsə, dəyişdirə bilməz. Gözlərini dəyişdirə bilər, baxışlarını dəyişdirə bilməz. Bunu gizlədə bilməz və haqlısan

ki, ev sahibi mənəm... Amma ev sahibi xəcildir ki "əvvəlcə təam sonra kəlam" düsturuna əməl edə bilmir... Çünki iki gündür ki, alnımın tərini qatıb ruzumu qazanmışam və o çırpı şələsini atmışam orda bucaqda qalıb, taqətim çatmayıb yerdən qaldıram... Amma səbr eləyin sabaha kimi... Çünki o vaxt ki, qoca quş yuvasından qəm dalınca uça bilmir, iki rahib dağ başından düşüb bura gəlir və görəndə ki, qoca xəstəhaldır, şələni özləri dallarına alıb aparırlar...

– İki rahib?

– Yuxarıda dağ başında nəsrani rahiblərinin də yeri var, hasar içində kiçik bir qələdir – ağappaq, və rumi dilində ona manastryon deyirlər... İslam dənizindəki xaçpərəst cəzirələrindən biridir ki, gecə də açıqdır qapıları, gündüz də. Çünki o manastryon xaçpərəst rahiblərin ibadətgahıdırsa, müsəlmanların da xəlvətgahı vardır və o rahiblər ki, gecələr öz hücrələrində dua və ibadətə başlayırlar, gündüzlər buraya gələn mömin müsəlman müsafirləri üçün eyş-işrət içki məclisləri qururlar və əlbəttə o kəslər üçün ki, ciblərində qızıl dinarları və yaxud gümüş dirhəmləri çoxdur.

Bu yaxşı xəbər oldu. Yaxında dağ başında monastır var idisə ora qalxacaqdı, rahiblərdən çörək, pendir, yoğurt alacaqdı. Uşağı və özünü aclıqdan qurtaracaqdı. Cibində səkkiz dirhəmi vardı. Qoca yenə başın qaldırdı, çox əzab çəkmiş, indi ac yatmış və səhər oyananda bir tikə çörək verə bilməyəcəyi uşağa baxdı, köksünü ötürdü və dedi:

– Bil ki, səkkiz ildir kimsəsiz bir xarkeşəm və doqquz ildir bu dağlarda tikançılıqdı peşəm, gedirəm yaxadan-yamacdan kol-kos qırıram, düşürəm dərə dibinə, çaybasardan çör-çöp yığıram, çünki birgünlük yeyəcəyimi qazanmaq üçün hər axşam o ağ kilsəyə bir şələ çırpı aparmalıyam... Ömr bəndə rahiblərdən bir çimdik duz və bir ovuc arpa unu alıramsa, sonra rəbbimə yüz dəfə təşəkkür edirəm ki, bu gün də öz ruzumu özüm qazanmışam...

Və o qeyri-ixtiyari olaraq zəhərli bir təbəssümlə qımışdı.

– Demək olmaz ki, çox səxavətlidir o rahiblər.

– Yox, – dedi qoca, – çəkdiyim zəhmətin haqqı o miqdardır, ondan artığına əl uzatsam nəfsimin əsiri olaram. Və o rahiblər də heç vaxt mənə sədəqə verməyə cəsarət eləməyiblər...

Və qoca birdən susub hekayəsini qıraraq diksindi. Bayaq da belə olmuşdu. Qoca hər dəfə susanda elə bil mağaranın aşağısındakı bu nəmli qaranlıq bir az irəli gəlirdi və o qaranlığa bürkələnmiş iyrənc bir



varlıq da bir az yaxınlaşırdı və marığa dayanırdı – və bu qocadakı həyat naminə yalnız söz almışdı və hər dəfə sözün qayları onu dirildirdi, həyata qaytarırdı. Buna görə o istəmirdi ki, qoca sussun, istəmirdi ki, qoca bu gecə ölsün və qaranlığa bürkələnmiş o iyrənc varlıq yaxın gəlsin və nəhayət, istəmirdi ki, bu gecə hər iniltisi həyat ilə dolu olan, hər nəfəsi ilə əl atıb daha bərkdən həyata sarılan bu uşaq ilə – hər nəfəsində həyatdan üzülən, hər dəfə susanda dərhal damarlarında qanı donan bir qoca arasında tək qalsın...

Buna görə idi ki, bir az çəkinərək, bir az sıxılaraq dedi:

– İzin versəydi ata... səndən bir-iki söz soruşardım.

– Soruş, – dedi qoca gözləri qapalı halda, – amma bil ki, sualların quru səhrası cavab çeşməsindən içdiyi sudan heç vaxt doya bilməmişdir.

Düşündü ki, qoy belə olsun, hər halda lənətə qalmış o sualların o quru səhrası üçün cavabın cılız meşəsindən bir qurtum su da qənimətdi və dedi:

– Görürəm ki, tərk-dünyasan, qaçmısan işıqlı dünyadan və gəlmisən bu qaranlıq mağarada məskən salmısan...

– Yox, – dedi qoca yenə gözləri qapalı halda, – əksinə qaranlıq gördüyün bu mağarada işıq tapmışam. Çünki işıqlı dediyin o dünyanın qaranlığında gözlərim kor olmuşdu və təzəcə doğulmuş pişik balası kimi burnumun hara dirəndiyini görə bilmirdim..

– Qoy sən deyən olsun, amma nə üçün insan gərək öz qəbrini özü qazsın və o qəbirdə öz əlilə özünü dəfn eləsin? Və nə üçün o sonuncu peyğəmbər ki, "ölməmişdən əvvəl ölün" demişdi, amma sonra özü bu dünyadan gedərkən ağlamışdı, gözlərində yaş durmamışdı?

Bu dəfə qoca diksindi, gözlərini açdı, başını qaldırdı və gözləri yenə qızdırmalı bir parıltı ilə alışıb yandı:

– Ürəyimə dammışdı ki, – dedi, – səni və uşağı rəbbim göndərib bu gecə bura... Və indi sən ki, birinci ocaqdan sonra ikinci ocağa çırpı atırsan...

– İkinci ocağa?

– Birinci ocaq odur, çırpı atmısan yanır. İkinci ocaq beynimizdədir və çırpısız o suallardır ki, cavabı yoxdur...

– Elə isə susdum, ata...

– Gecdir, – dedi qoca, – və bilmək istərəm, fəqirsənmi? Və bil ki, fəqir o kəsdir ki, gündəlik yeyəcəyindən qeyri heç bir şeyi yoxdur.

– O vaxt ki, bir günlük yeyəcək üçün dağlarda çobanlığa başlamışdım, doqquz yaşım hələ tamam olmamışdı, ata.

– Binəsibsənmi? Və bil ki, binəsib o kəsdir ki, çox vaxt nəinki bir günlük yeyəcəyi, hətta əyninə geyməyə köynəyi də olmur.

– Binəsiblərin həmişə əynində köynəkləri var, ata... Məgər ağır ehtiyac həmişə atəşdən köynək deyilmi?

– Məzlumsanmı? Və bil ki, məzlum o kəsdir ki, çox matəm və müsibət görüb və bütün ümidləri ürəyində ölüb. Yamanlığın azğınlığına, yaxşılığın acizliyinə şahid olub və taleyinə boyun əyib, qismətin qəbul eləməyibdir...

İndi o həyəcanlandı. Kirpikləri ilə kölgələnmiş gözləri daha sərt bir ifadə aldı, qeyri-ixtiyarı olaraq döndü sağ tərəfində yatmış uşağa baxdı və səsində nə isə bir mis cingildədi:

– Yox, ata, insan gərək başını uca tutub ölməyi də bacarsın, amma yamanlığa baş əyməsin və ancaq itaəti qəbul eləməsin.

– Sakın, – dedi qoca və az qala boğuldu, – sakın ki, toxtamaz ürəyin şübhələr odunda yanıb külə dönməsin. Və dua eləyərəm rəbbim səni hifz eləsin. Amma mənim rəbbim məndən daha aciz, məndən daha kimsəsizdir. Çünki göydə o məzlumdur, yerdə mən...

İndi o ikinci dəfə gözlərini döyə-döyə qaldı. Birinci dəfə idi ki, məzlum və aciz bir tanrının varlığından xəbər tuturdu. Hər tərəfdə xristianlıqdan, yəhudilikdən, islamdan, nəsranilikdən və atəşpərəstlikdən qopmuş yüzlərlə məzhəb və təriqət əhlini dindirsəydin görəcəkdin ki, onun iman gətirdiyi tanrı daha uca və daha qüdrətlidir.

Əzəldən, yəni kainatın yarandığı gündən bəri dünyanın inkişaf əsasları, insanın taleyi – yalnız o qüdrətli tanrıların əlində ikən, indi bu qocaya görə başqa bir tanrı da varmış – zəif və məzlum bir tanrı – və o istər-istəməz səsləndi:

– Aciz və məzlum bir tanrı? Məgər bu ağıla sığan bir şeydirmi?

Qoca kəskin bir hərəkətlə başını qaldırdı:

– Qüdrətli və heybətli bir tanrı necə? – dedi. – Məgər bu ağla sığarmı ki, onun iradəsi olmadan dünyada bir kəsin başından bir tük belə düşə bilmədiyi halda, dünya yaranandan bəri keçən bu min il ərzində bir an, bir ləhzə də olsun zalimlərin qılıncından məzlumların qanı qurumamışdır və o qüdrətli və heybətli tanrı nə üçünsə buna göz yummuşdur və dünyanın ki, ömrü yeddi min il müəyyən edilmişdir, deməli hələ min il də qabağa kimi qüvvətlinin qılıncı qan içəcək və zəifin fəryadın göy eşitmiyəcək?..



Diqqət kəsildi, hara gedirdi bu qoca, əgər göyləri boşaldıb viranə qoyurdusa, bəs o aciz və məzlum tanrının işi nə olacaqdı?

– Qorxun və sevin, – dedi qoca və başını qaldırdı, – elə yerin, kainatın başlanğıcından sonuna kimi və sonundan başlanğıcına kimi yüz dəfə seyr etdim və hər dəfə ancaq bunu eşitdim ki, qorxun və sevin! Lakin bu mümkündürmü? Qorxu ilə iflic olmuş bir ürəkdə sevgi üçün boş bucaq olarmı? Məgər hər gün qarşısında titrədiyin bir qüdrətə bir şey etmək olarmı? Və yaxud o ifrat qüdrət özü ayağı altındakı cücülərə rəhm edə bilərmi? Axı bütün ifrat qüvvələri öz qüdrətləri kor edir. Məgər qılınc kor deyilmi? Sərvət kor və şöhrət kor deyilmi? Və mənim mürşidim ki, miskin bir qoca idi və Allah onun nəzərində o qədər heybətli idi ki, fağır qoca hər dəfə namaz qılmaq üçün ayağa qalxanda "Allah" deyərdi, amma "Əkbər" deməyə macal tapmamış qəşş edərdi və ölənə qədər bu hal davam elədi...

Qoca dayana bilmirdi və beynindəki o ocaq ki, ikinci ocaq adlandırmışdı, elə bil getdikcə od tutub alışırdı və o getdikcə daha gərgin bir diqqətlə qocanı dinləyirdi.

– Mürşidim öldü, – dedi qoca və səsi bir quyu dibindəki suya atılmış bir daşın batqın gumbultusunu andırdı. Öldü, amma ürəyindəki o vahiməni, o qorxunu mənə miras qoyub getdi, çünki tez-tez mənə deyərdi ki, ey zəif nə vaxt imanına rəxnə düşdü: düşün ki, o şəxs (isəvi dostun) Dibarın diyarında yaşayardı və dünyada ən doğruçu, ən kamil bir insandı, ürəyində həmişə Allah xofu vardı və daima yamanlıqdan çəkinərdi və öz qövmi içərisində ondan xoşbəxt bir Allah bəndəsi yoxdu... Amma günlərin bir günündə göyün bütün mələkləri ki, tanrının hüzurunda cəm olmuşdular, adı lənətlə damğalanmış şeytan da o mələklər içində, Allahın hüzuruna gəldi. Ərz elədi ki, yer üzərində gəzirdim diyarbiyar və bütün iqlimlərə baş çəkirdim və sənin bəndlərinə gülürdüm, çünki cümləsinin dodaqlarında dua, ürəklərində riya vardı və cümləsinin fikri-zikri ancaq yamanlıq və xəbislik idi.

Tanrı nida elədi ki, ey məlun, orda mənim bəndlərim içində Əyyub adlı sədaqətli bir qulum var və ondan hənuz bir yamanlıq görünməmişdir, çünki ürəyində allah xofu var və həmişə yamanlıqdan, şər işlərdən yüz fərsəx[1] gen gəzmişdir.

[1] Hər fərsəx ya fərsəng altı km-ə bərabərədir

Şeytan irişdi, dişlərini ağartdı və "əlbəttə gen gəzər", – dedi, – "çünki ürəyi nə istəyibsə ona vermisən, yeddi oğlu, üç qızı var, yeddi min qoyunu, üç min dəvəsi, beş yüz cüt öküzü və bir o qədər də ulağı var, hələ qaravaşlarını, kənizlərini, qulbeçələrini demirəm"...

Və gün tanrının qanı bu sözlərdən çox qaralmışdı, şeytanın Əyyubu imtahana çəkməsinə icazə verdi və şeytana dedi ki, nəyi varsa get bu saat əlindən al, bircə canından savayı. Çünki canı bizim ixtiyarımızdadır. Və durduğu yerdə Əyyubun başına daş düşdü, xəbər gəldi ki, Kəldani quldurlar qoyun sürüsünü qovub aparıblar, sonra xəbər gəldi ki, bədəvilər üç min dəvəsini qabaqlarına salıb səhrada yox oldular. Daha sonra xəbər gəldi ki, öküzləri və ulaqları da əldən gedibdir və nəhayət, müdhiş bir xəbər gəldi ki, evinin damı uçub yeddi oğlu və üç qızı o dam altında qalıb həlak olublar. Qoca ayağa qalxdı, cırdı yaxasın dağıtdı, başına kül sovurdu. Amma sonra diz çökdü, əllərini göyə qaldırdı və dedi: rəbbim vermişdi, rəbbim aldı və qoy rəbbimin ismi mübarək olsun! Amma şeytan yenə qocadan əl çəkmədi və Əyyubu müdhiş cüzam xəstəliyinə mübtəla elədi, dərhal Əyyubun bütün vücudunu təpəsindən dırnağa kimi yara-xora ağzına aldı və gecə-gündüz dözülməz əzablar vücudunu gəmirəndə qoca getdi sönmüş ocağın külü içində oturdu. Bir əlinə bir saxsı qab qırığı aldı və bütün günü işi-gücü o saxsı qab qırığı ilə bədənini qaşovlamaq oldu, ilan kimi ocağın külü içində qıvrıldı. Arvad rahibə bu halı görəndə davam gətirmədi, qiyha vurub çığırdı ki:

– Ey evi başına uçmuş. Ey başına kül olmuş kişi, tanrı ki, sənə bu qədər əzab verir, asi ol o tanrıya, üz çevir ondan...

Qoca dedi:

– Qəhr olaydı o gecə ki, atamın belindən gələn ilə anamın bətninə düşdüm. Məhv olaydı o gün ki, anam yükündən azad olub məni bu dünyaya gətirdi və indi qoy göylərin bütün bəla və müsibətləri qoşun çəkib üstümə gəlsin, hamısın qəbul edəcəyəm, vücudumu yara-xora alıb diyarbədiyar gəzdirəcəyəm, amma tanrıya asi olub rəbbimdən üz çevirmərəm...

Mürşidim hekayənin bu yerinə çatanda hönkür-hönkür ağlardı və deyərdi ki, bundan sonra tanrı Əyyubu daha artıq sevdi. Bütün mal-dövlətin ona qaytardı və Əyyubun yeni övrətindən oğlu, qızı, yeni övladları oldu.

Tanrı varlığını qəbul etməmək olarmı?



Amma rəhman mənə rəhm etmədi. Mən də mürşidim öləndən sonra ömrümün 60-70 ilini yenə tanrıya yalvarış və ağlayışa həsr elədim... və nəhayət məxluğun gözündə müqəddəsə çevrildim... Şöhrətim aşdı-daşdı, Xorasanı bürüdü keçdi, İranı işğal elədi, Azərbaycandan əks sədası gəldi və adım "Piri-həqiqət" ləqəbi ilə bütün xilafətdə dillər əzbəri oldu.

Və bu vaxt xəlifə Harun ər-rəşid məni hüzuruna çağırdı...

Xəlifə qoşun çəkib Xorasana gəlmişdi, böyük oğlu Məmunu da özüylə gətirmişdi. Tus şəhərinin civarında ordugah qurub oturmuşdu ki, Ceyhun nəhrinin o tayındakı Səmərqənd qiyamını yatırsın. Amma əcəl quşu da gəlmişdi bura, xəlifənin sinəsinə qonmuşdu, xaçpərəst baş təbibi də, Əmirəlmöminin dərdinə bir çarə tapa bilmirdi. Oğullarının casusları xəlifənin yatağını mühasirəyə alıb nəfəsini sayırdılar. Xəlifə naməlum bir şerin bir misrasını xatırlayaraq az qala boğulurdu. O misrada deyilirdi ki, oğullar atalarının ölümünü arzulayırlar. Xəlifə qoca təbibindən də şübhələnmişdi. "Əlacında qələt var" deyib qoca təbibi edam etdirmək qərarına gəlmişdi. Amma bu vaxt birdən məni xatırlayır və əmr edir ki, "Piri-həqiqət" hüzuruma gəlsin. Və xəlifənin atlı qulamları bir axşam çapıb gəldilər, daxmanı üzük qaşı kimi mühasirəyə aldılar. Başçıları at üstündən bağırdı ki, ey qoca, yubanma ki, Əmirəlmöminin səni hüzuruna çağırır. Müqəddəsliyimə güvənib cavab verdim ki, mane olmayın, rəbbimə dua edirəm. Başçıları dedi ki, qısa elə duanı qoca. Fərman belədi ki, əlində su içirsə qoysun, ayağa *qalxsın. Cavab verdim ki, ibn Vəqtəm yəni vaxtın, zamanın, daha doğ*rusu – anın, bir ləhzənin oğluyam və bu bir an həyatı əhatə elədiyim üçün mənim rəbbimə duam sübh əzəldən, yəni kainat yaranandan başlayıbdır bir də qiyamət günü qurtaracaqdır.

Tez bığlı qulamlar baxdılar bir-birinin üzünə və dişlərini ağartdılar. Sonra başçılarının işarəsi ilə oğlanlardan biri sıçradı atın üstündən yerə. Düşdü, qamarladı məni, iki qatladı bükdü və gətirdi it ölüsü kimi atının başı üstündən aşırdı... qıy vurdular, çapdılar və neçə dəfə qəşş elədim yolda, özümdən getdim, xəbərləri olmadı. Veclərinə almadılar.

O vaxt ki, özümə gəldim, özümü xəlifənin məşhur qara məxmərli çadırı altında gördüm. Kimsə arxadan çiynimdən basdı ki, xəlifənin hüzurunda diz çöküb yeri öpüm. Bu vaxt xəlifə özü dikəldi, yatağında oturdu və dedi:

– Ey "Piri-həqiqət" xəlayiq dedi ki, xilafətdə səndən böyük zahid yoxdur. Həqiqətdirmi bu sözlər?

Yox, – dedim, – səhv edirlər. Ya Əmirəlmöminin xilafətdə məndən daha böyük bir zahid var.

– Kim ola o? – deyə xəlifə maraqlandı.

– Sənsən o böyük zahid, ya Əmirəlmöminin – dedim.

Harun-ərrəşid bir müddət gözlərini döydü, sonra nida elədi:

– Sübhanallah bu nə cür olur ki?

Cavab verdim ki, mən elə bir dünyadan üz çevirmişəm ki, bir dirhəm qiyməti yoxdur və əvəzində o biri dünyanı və ancaq bu dünyanı qamarlamısan və indi ki, hal-hekayət belədir, deməli sən daha böyük qurban vermisən. Və ən böyük zahid də sənsən...

Xəlifənin halı elə pozuldu ki, hər iki əlilə başını döyəclədi. Sonra saqqalın yolub zar-zar ağlamağa başladı. Və bil ki, ey novcavan, zəmanəmizin məşriqində ağlağan müstəbid hökmdar böyük Karlos idi... (Qoca haqlı idi. doqquzuncu əsrin müstəbidləri tez-tez ağlayırdılar. Şərqdə Harun ər-rəşid ağlayırdı. Məğribdə böyük Karl... Gündüz cəlladına boyun vurdururdu, gecə noğmə cariyəsinin oxuduğu nəğmədən riqqətə gəlib ağlayırdı).

Qərəz gəldilər ipək məndil ilə xəlifənin saqqalını və üzünü sildilər və yenə o yekə, heybətli şəxs yapışdı boynumdan, sürüdü məni çadırdan çölə atdı və xudahafizi bu oldu ki, dalımdan kök bir təpik vurdu. Bir müddət üzü üstə döşənib qaldım.

Sonra ayağa qalxdım və pay-piyada yola düşdüm.

...Həmədana yetişəndə gördüm ki, o yol ki, hər iki tərəfdən cərgələnmiş ceviz ağacları arasıyla uzanıb gedən gözəl bir xiyaban idi, indi orda yol boyu hər ağacın aşağı budağından başsız bir cəsəd asılmışdır. Bu o vaxt idi ki, Harunəlrəşidin sərkərdələrindən Əbu Dolaq ilə Abdullah ibn Mübarək Həmədan qapılarında qiyamçı batinilər ilə xürrəmiləri qılıncdan keçirmişdilər. Başımı aşağı saldım ki, o ağaclara baxmayım. Bu vaxt yol qırağında dikdir üstündə boyu beş qarışdan artıq olmayan bir oğlan uşağı gördüm. Sağ əlində kiçik bir bıçaq arxası üstə yerə sərilmişdi və sinəsinə sancılmış uzun bir nizə çıxarılmamışdı, sinəsində qalmışdı... Palçıqlı yalın ayaqları dikdir üstündən aşağı sallanmışdı... Yaxın getdim, diz çökdüm və qucaqladım, o uşağın palçıqlı ayaqlarından üç dəfə öpdüm – və riyakar müqəddəsliyimi o uşağın ayaqları altına atıb ayağa qalxdım.



Və o vaxt doqquz il bundan əqdəm, nəhayət elə bir həqiqətə vaqif oldum ki, göydə mənim rəbbimdən, mənim kimi kimsəsiz, mənim kimi məzlum rəbbimdən savayı başqa heç bir tanrı yoxdur... Və kəşf elədiyim bu həqiqətlə artıq özümdən özümdə heç nə qalmadı...

Qoca susdu.

İndi qocadan artıq o həyəcanlanmışdı. Doqquz il əvvəl burda, bu yaxında, Həmədan qapılarında batinilər ilə xürrəmilərin qılıncdan keçirdikləri barədə çox eşitmişdi. Amma kim imiş onların başçıları və nə üçün belə dəhşətli bir məğlubiyyətə uğramışdılar? Bu barədə heç şey ona dürüst bir məlumat verə bilməmişdi. Davam gətirmədi və soruşdu:

– Nə üçün Həmədan batinilərilə o xürrəmilər ki, içərilərində Azərbaycan dağlarından gəlmiş xürrəmilər də az deyilmiş, elə dəhşətli bir məğlubiyyətə uğramışdılar və kimlər olub döyüş zamanı onların başçıları?

– Nə fərqi var, kim imiş başçıları? – dedi qoca. – Bildiyim və inandığım ancaq budur ki, yamanlığı qılınc ilə məhv etmək olmaz!

– Nə qalır onda? – deyə qeyri-ixtiyarı səsləndi. – Zalımın zülmünə dözmək? Və yainki amanlıq qarşısında diz çökmək?

– Bu sualı mən də rəbbimə vermişdim, – dedi qoca, – Amma cavabı sükut oldu...

– Və əlbəttə ki, sübut olacaqdı, – dedi Babək və dodaqlarından istehzalı bir təbəssüm süzüldü.

– Qınama rəbbimi, – dedi qoca... çünki ilkin yamanlığı rəbbim özü yaratmışdı və sonra öz yaratdığı yamanlıq qarşısında özü aciz qaldı...

Babək yenə qulaqlarına inanmadı.

– Yamanlığı tanrı yaratdı?

– O yaratdı, – dedi qoca və təngənəfəs oldu, – məgər gecə gündüzdən və qaranlıq işıqdan yaranmadımı? Yoxsa ki, bəşəriyyətin anası Həvvanın cənnətdəki bir almaya tamah salmasıyla və o almanı dərib ondan bir dişdəm vurmasıyla yer üzündə ilkin günah və yaxud ilkin yamanlıq yarana bilməzdi ki? Xristianlar bunu iddia edirlər. Yaxud bəşəriyyətin atası Adəmin buğda yeyib cənnətdən qovulmasıyla dünya günaha bata bilməzdi ki? Müsəlmanlar bunu iddia edirlər. yox, ən böyük yamanlıq ən uca yaxşılıqdan yarandı. Və o uca yaxşılıq mənim rəbbim idi ki, ən ülvi düşüncələrinin zirvəsində sirli bir qüvvə peyda olub onun qarşısında dayandı və rəbbim öz düşüncələrinin qaynarından yaranmış o sirrə, qüvvəyə baxıb heyrət elədi. Alnını tər basdı və sonra alnından o təri silib atanda yer üzündə insan yarandı...

Sonra o sirli qüvvə qaranlıq gecənin hökmdarı oldu və atəşpərəstlər ona Əhrimən dedilər, yaxud yəhudilərin Əzazil dedikləri də o idi ki, indiki xristianların Diyavol dedikləri də o idi və nəhayət müsəlmanların İblis dedikləri də o idi və mənim rəbbim də öz düşüncəsindən yaranmış o sirli qüvvə qarşısında aciz qaldı. Və məgər insan da yarandığı gündən eyni müşgül ilə üz-üzə gəlmirmi? Əgər min bir yamanlığı aradan qaldırmaq üçün düşünüb-daşınıb bir çarə tapmağa can atırsa, düşüncəsindən yaranmış yeni bir yamanlıq qarşısında qalmırmı? Sehrli bir silsilə ki, sonu yoxdur. Sehrli bir silsilə ki, yaxşılıq və yamanlıq halqaları bir-birindən qopmur...

Qocanın gözləri artıq dəli bir ifadə almışdı, bayaq qəbri içində uzandığı və qızdırma içində yandığı və nəğməli bir avazla sayıqladığı vaxtda olduğu kimi yenə bu gözlərdə elə amansız bir parıltı vardı ki, əgər bir az əvvəl o, bu gecə qocanın susmasını və mağara boşluğundakı bu soyuq qaranlığın qocanı alıb aparmasını istəməmişdisə, indi artıq qocanı od tutub alışan fikirləri ağzına alıb onu hara isə aparırdı və elə bil o düşüncələr çox uca fəzalara ucaldıqca dəhşətli bir təklik içində qalırdı və göz qaraldan o uzaqlıqda uçan o düşüncələrə dəlilik qanadları lazımdı.

Qoca dünyadakı yamanlığın sərçeşməsini aparmışdı göyə çıxartmışdı, "yamanlığı tanrı özü yaratdı" demişdi. Həm də qüdrətli və heybətli bir tanrı yox, qocanın məzlum və aciz tanrısı yaratmışdı və qocanın bu iddiası nəinki onu heyrətə salmışdı, fikrini çaşdırmışdı, eyni zamanda çəkic kimi beynini döyürdü. Doqquz ildi ki, ibn Rəvvadın ticarət karvanlarında ilin bütün fəsillərində yollarda idi. İstər gecələr karvan düşərgələrindəki ocaqlar başında, istər yol kənarı qala-karvansaralarda, istər böyük və kiçik şəhərlərin izdihamlı bazarlarında nə qədər bitib-tükənməyən dini mübahisələrin şahidi olmuşdu, saysız-hesabsız çeşidli təriqət adamlarının gizli və aşkar bidət dolu təlimlərindən nə qədər qəlpələr eşitmişdi, hafizəsində qalmışdı. Ulayışlı bir səda ilə dünyanın yaxın sonunu xəbər verən nə qədər sünbül qocalara, "o zaman ki, nə əvvəli var, nə axırı olacaq" deyən hindli "Çərvək filosoflara", zorla özlərinə qarşı nə qədər mümkündür bir o qədər çox nifrət doğurmağı qarşılarına müqəddəs vəzifə qoymuş məlamət təriqətinin cəhənnəm zəbanilərinə oxşar dərvişlərinə rast gəlmişdi və nəhayət göyləri tamamilə tanrılardan boşaldıb viranə qoyanlar və tanrıları göylərin köhnə bir yalan olduğunu iddia edənlər vardı ki, çox tez bazar



meydanlarında boyunları vurulurdu, başsız-cəsədləri isə həftələrlə dar ağaclarından asılı qalırdı.

Son zamanlar isə bütün xilafəti titrəmə-qızdırma növbəsi ilə sarsıdan qızğın bir mübahisə tufanı qopmuşdu ki, "aya Quranı Allah yaratmışdır, yəni Quran Allahın peyğəmbərə dediyi sözlərdir, yoxsa ta sübhi əzəldən və daha əvvəldən Allahın özü kimi Quran da həmişə mövcud idi?" Fanatik möminlərlə fikri azadları iki qılınc kimi üz-üzə gətirən bu mübahisədə nəinki islam dünyasının bütün ruhaniləri, imamları adlandıran məqzilər təriqətinin başçıları, eyni zamanda şəhər əsnafları, peşəkarlar, boyaqçılar, papaqçılar və başmaqçılar, misgərlər və dülgərlər, hətta kürəkləri palanlı hamballar və ayaqları çarıqlı qatırçılar da iştirak edərdilər ki, nəhayət bir gün xəlifə Məmunun məşhur fərmanı bu mübahisədə də son sözü deyəcəkdi və xəlifənin əmrilə ən fanatik möminlərin başçısı İmam ibn Hənbəlin kürəklərini zolaxlayan qamçılar bu mübahisəyə son nöqtəni qoyacaqdı...

Amma indi bu gecə dünyadan və insanlardan əlini üzmüş bu bədbəxt qoca, öz ümidsizliyinin girdabı içindən göylərə öz varlığı ilə yoxluğu arasında gizlənpaç oynayan bir tanrı qaldırmışdı və yer üzərindəki müvəqqəti varlıq göydə oturan Əbədinin dərdini çəkərək ağlayırdı ki, insan gərək o məzlum tanrını xilas eləsin, elə bir tanrını ki, batinilərin öz tanrıları haqqında dedikləri kimi "nə vardı, nə yoxdu, nə diri idi, nə ölü, nə qadir idi, nə aciz, nə alim idi, nə cahil. Nə dilli idi, nə dilsiz, nə gözləri vardı, nə kordu, nə eşidirdi, nə kar idi. Və heç vaxt olmamışdı, amma həmişə və hər yerdə vardı"...

Bir az vardı ki, qoca yenə susmuşdu. Gözlərini qapamışdı, elə bil demişdi bütün sözləri, tükənmişdi, qurtarmışdı və bu vaxt yenə çimçənən kimi oldu. Başını çevirdi, mağara boşluğunun qaranlığına baxdı və yenə ona elə gəldi ki, qaranlığa bürgələnmiş o iyrənc varlıq yenə bir az yaxına gəlib qaramat baxışlarıyla qocaya baxır.

– Nə baxırsan o qaranlığa, – deyən qocanın səsin eşitdi... qatqan kimi qocalmış bir qarıdır, gecələr mən düşüb qəbrimdə yatanda o gəlir burda ocaq başını, qəbir qırağını, yan-yörəmi süpürür.

Döndü heyrətlə qocaya baxdı, qocanın gözləri qapalı idi və düşüncələri əlçatmaz ucalıqlarda uçan qoca ən yaxındakı o iyrənc varlığı hiss etmirdi...

Və indi o ocağın üstü kül ilə örtülən gözlərinə baxaraq özü-özüylə danışırmış kimi dedi:

– Məgər insanın öz dərdi özünə bəs deyilmi ata, indidə gərək o göydəki məzlum bir tanrının dərdini çəkəsən? Və deyirsən ki, yamanlıq məhvedilməzdir... Alaq otları kimi. Amma Qaraca dədənin dediyi kimi, o yamanlığı zəncirləmək olardı ki, gəmirmək istəyirsə, qoy gəmirsin öz zəncirini istədiyi qədər...

– Qaraca dədə, yəni müqəddəs, yəni peyğəmbər?

– Kuzəgərdir, şəhərdəki xürrəmilərə atalıq edir.

– Eyvah, – dedi qoca, – nə dedim ki, deyəcəyimdən yaxşı olsun.

Və inanırsan ki, bu mümkündür və yamanlığı kəməndə salıb zəncirləmək olarsa, qoy gəmirsin öz zəncirini istədiyi qədər? Xürrəmilikdir etiqadın. Məgər o etiqad bu dünyadakı bütün etiqadların ən əcaibi deyilmi? İnsan bu dünyaya gəlmişdir ki, sevinsin və gərək bütün dünya nemətləri cəmi insanlar arasında tən bölünsün? Yaxud başımız üstündəki bu göylər bomboşdur? Amma insan köhnə yalan torundan qurtula bilmir? Və nə göydə cənnət var, nə yer altında cəhənnəm və heç kəs qorxmur ki, bu həmişə matəmli dünyadan sonra o həmişə bayramlı dünyada insan öz xoşbəxtliyinin boşluğunda qərq olub boğular. Və yer üzündə ən bədbəxt, ən miskin bir varlıq olar? Oyatdıq həqiqət yolunun körpə yolçusunu.

Babək döndü soluna baxdı, uşaq doğrudan da oyanmışdı, yerində oturmuşdu və heyrət dolu baxışlarla gah qocanın, gah Babəkin üzünə baxırdı. Nə olmuşdu burda? Kim idi bu qoca? Bu mağaranın, bu ocağın sahibi idi ki, indi gəlmişdi? O isə yatıb qalmışdı. Səhər açılmışdı. Sonra uşağın baxışları Babəkin üzünə dikilib qaldı. Nə üçün xilaskarının rəngi bu cür qaçmışdı. Alnını tər basmışdı, gözləri özgə səmtə yönəlmişdi, baxışları dumanlanmışdı?

Uşağın ürəyində tutqun bir təlaş baş qaldırdı. Axı nə demişdi və nə deyirdi bu qoca ki, qorxubilməz bu oğlanı bu cür bərkə qısnamışdı və susdurmuşdu? O yatarkən qocanın dediyindən bir az eşitmişdi, axşam orda o dağ başında, o çöl donuzu kimi xırdaca gözlü, yoğun muskullu yekəpəri dəmir yumruğunun bircə zərbəsilə yerə sərmiş, bu döşü təpərli igid nə üçün indi burda bu müqəvva qarşısında aciz qalmışdı? Və bir qoca ki, üfürsən yıxılardı nə cür bu dağ kimi oğlana meydan oxuyurdu?

Uşaq davam gətirmədi, çırpındı, içində qiyyə vurdu ki, gəlirəm və xəyalında qalxdı, yüyürdü, özünü cənbat qurmuş xilaskarına yetirdi və xırdaca gözəgörünməz neştərləri çıxarılmamış tikanlarla dolu kiçik əlini uzatdı, Babəkin əli üstünə qoydu ki, budur gəldim...



Və möcüzə baş verdi. Babək uşağa baxdı, gülümsədi. Bu isə uşaq gözlərinə baxarkən böyüklərin dodaqlarına qonan o gülümsəyiş idi ki, çəkirdi insanı quyu dibindən çıxardırdı. Sönmüş gözlərində işıq yandırırdı, ürəyini məngənə ağzından qopardırdı, sürüsündən uzaq düşmüş quzunu yenidən özünə qaytarırdı. Bir anlıq qurtuluş idi bu? Əvvəli birinci mənasızlıq olan bu həyatda başqa bir istinad nöqtəsi varmı idi?

– Yat, – dedi Babək uşağa, – yat yuxunu al... Yollar hələ ağarmayıb və sabaha hələ çox var.

Uşağın ovurdları batmış arıq üzündə gözləri çıraq kimi yandı, elə bil çiynindən bir dağ götürüldü, içində gərilmiş bütün simlər boşaldı. Çünki başı üstündə yenə axşamkı o qorxmaz igid oğlan dayanmışdı və indi istədi ki, gülümsəsin, axşamdan bəri ürəyində saxladığı minnətdarlığı xilaskarına bildirsin, amma macal tapmadı, yuxunun növbəti həmləsi bir anda şüurunu çulğadı, gözlərini qapadı və huşunu bu dünyadan alıb öz dünyasına apardı...

Handan-hana elə bil mağara dərindən köksünü ötürdü və qoca uşağı oyatmamaq üçün boğuq bir pıçıltı ilə dedi:

– İndi ki, qovuşan yollar oğlusan... yəni sabah başına nə gələcəyini bilmirsən, hara getsən bu tifil bir yük olacaq çiynində... qoy qalsın burda... qalsın məni dəfn eləsin və o vaxt ki, məni dəfn elədi...

– Bir tikə uşaq səni dəfn eləsin?

– Qəbrim hazırdır... O vaxt ki, məni dəfn elədi... gedər, axtarar, tapar səni... ya oxşarın olub kölgənə düşər... Yaxud qənimin olub qarşına çıxar...

Məgər istədiyi bu de /ildimi? Elə bil qoca keçən gecə o arzunu oxumuşdu və əlini uzadıb çiyninə aldığı bu ağır yükdən onu azad eləyirdi. Elə isə nə üçün ürəyini bir soyuq aldı? Və içində hardasa çox dərindəki bir nöqtə dirənib durdu, qocanın mərhəmətini və yardımını rədd elədi. Qalsın bu tifil burda? Qurd balası alnı xınalı bir quzuya dönsün? Dünya işığından üz çevirsin? Və beli büküləndə, çənəsi yerə dəyəndə, o da bu qoca kimi özü üçün qəbir qazmağa başlasın burda?

Qoca yenə nə isə deyirdi və səsi mağara boşluğunda boğuq bir əks-səda ilə geri dönürdü:

– Qalardı burda... Ürəyindəki qisas odu sönərdi burda. Fəlakət yolundan üz çevirərdi. Ölüb-öldürmək ehtirasından qurtulardı və oturardı bu ocaq başında səbət toxuyardı...

– Səbət toxuyardı?

– Süleyman peyğəmbər ki, İbranilərin şahı idi, uçan xalçası, tilsimli üzüyü vardı, əqlinin açdığı müşgüllərə məxluq heyran qalardı, varıdövləti başından aşardı, səhər gün çıxanda sarayının şüşə damları almas kimi bərq vurardı... Axırda bilirsənmi neylədi? Oturdu səbət toxumağı özünə adət elədi ki, dar macalda qara günündə dadına çatsın...

– Qulaq as ata, – dedi, – bilirəm ki, uşaq burda qalsaydı, başı salamat olardı. Və nəfəsi ilə bu soyuq daş-divar bir az qızınardı... Amma...

Qocanın ona zillənmiş gözlərində elə bir yalvarış vardı ki, davam gətirmədi. Baxışlarını qaçırtdı, başını aşağı saldı və dedi:

– Amma çiynimdən bu yükü atsaydım, zalım əlindən qurtulanı məzlum əlinə təslim eləsəydim, bir daha böyük zülm olardı bu qurd balası üçün... və başım həmişə aşağı olardı bu uşaq qarşısında...

Qoca bir an kiridi, sonra pıçıltısı güclə eşidildi:

– Rəbbim, – deyirdi qoca, – nə üçün bu ümidsizlik dənizinə tilov atıb ölü bir ümid çıxartmaq istədim və yolun bu son nöqtəsində sədəqə üçün həyata əl uzatdım? Və indi ki, çılpaq etiqad və inamların şiddəti gec-tez bizi yalana, riyakarlığa doğru aparır, qurtar məni özümdən və özündən ki, gedim o sonsuz azadlığa qovuşum... Əgər varsa bir damlası olum, yoxdursa boşluğunda qərq olum.

Və nəhayət qoca susdu, oxudu son nəğməsini, tükəndi. O isə başı aşağı öz fikirlərilə baş-başa qaldı. Hərdən mürgü döyürdü, gözləri qapanırdı, sonra oyanırdı, mağara ağzına boylanırdı. Ordan görsənən göy əyrisinin ensiz təridindən təkcə bir ulduz yanırdı. Gecə uzanırdı... Gecə qurtarmırdı...

## 4

...Xırdaca gözlü nəhəng gövdəli bir çöl donuzu qamışlığı yarıb gedirdi və irəlidə Barsis, arxada o – hər ikisi o çöl donuzunun arxasınca qaçırdı və hər ikisi oxların atıb savaqların boşaltmışdılar. Atılan oxların hamısı çöldonuzunun böyrünə, ombasına, boynuna sancılıb qalmışdı və çöldonuzu çevrilib nəhəng bir kirpiyə dönmüşdü, amma yıxılmamışdı və sinəsilə sıx qamışlığı yararaq baş alıb gedirdi və elə bil qamışlığa od düşmüşdü. Qamışlıq tutaşıb çathaçatla yanırdı.

Sonra birdən o özünü qaranlıq bir meşənin qalınlığında gördü, çünki yuxarıda, meşə üstündəki on dörd gecəlik ay əvvəlcə çatdamışdı, sonra çilik-çilik olmuşdu. Və ağ qəlpələri yuxarıdan onun başına tökülmüşdü.



Burda o nə edəcəyini bilmədi. Çünki Barsisi itirmişdi və böyründən asılı savaqda artıq ox qalmamışdı. Və nəhəng kirpiyə çevrilmiş qaban yox olmuşdu. Səsləmək istədi Barsisi, səsi çıxmadı. Bilirdi ki, Barsisin də savaqında ox qalmamışdır. Hər ikisinin oxlarını çöldonuzu belində, böyründə, ombasında aparmışdı. Birdən ürəyi döyündü. Əlbəttə ki, indi Barsis əlində bıçaq hardasa o qabanın dalınca qaçırdı və əgər uşaq çox yaralanmış qabanı haxlasaydı, məhv olacaqdı. Əlindəki oxsuz qalmış kamanı tulladı. Kaman ilişdi ağac budağında qaldı. Sol böyründən asılmış savağı da açıb atdı, toqqası altında tiyəsi əyri qəməsi vardı və indi gümanı yalnız bu qəməyə idi. Yüyürürdü. Barsisi qurtarmaq lazımdı. O çöldonuzu məkərçin deyildi, qabandı, qurd balası, çox da

artıqdır. Məgər xiyar soyduğun bir bıçaqla, vücuduna sancılmış saysız-

yinlərində təbərzin tutmamışdı, amma onu görən kimi ayağa qalxdı, nərildəyə-nərildəyə üstünə gəldi. Əlini atdı ki, toqqası altından dartsın, qəməsini siyirsin, qəmənin tiyəsi qınından siyrilmədi. Dəstəyi qopub əlində qaldı. Geri sıçramağa macal tapmadı, ayı onu qıllı və qüvvətli qolları arasına aldı və elə sıxdı ki, qabırğalarının şaqqıltısın eşitdi. Ölmək istəmirdi. Barsis darda idi. Ölmək istəmirdi. Arzusu ürəyində qalırdı. Ölmək istəmirdi, xəyalında bir dağ vardı və o dağda yeddi nəfər fədai onun yolunu gözləyirdi. Amma ayı bir dəfə yox, bir neçə dəfə onu öldürüb, hər dəfə öldürdüyünü hara isə atırdı və yenidən öldürməyə başlayırdı. Birdən bu ayı yox oldu. Yerə yıxılmışdı. Qalxdı oturdu. Başını qaldırdı, ocağa tərəf baxdı və gördüyü mənzərədən damarlarında qanı dondu. Ayı yenə ocaq başında oturmuşdu və qucağında bir uşaq cənazəsi vardı. Ayı o cənazəni dizləri üstə yırğalayırdı. Gah inildəyirdi, gah ağı deyirdi və ağlayırdı ki, rəbbim vermişdi, rəbbim aldı və o uşaq cənazəsi Barsisin cənazəsi idi. Ayağa qalxmışdı ki, uşağın cənazəsin ayının əlindən alsın, birdən ayaqlarına yumşaq bir şey dolaşdı, baxdı ayağı altına, gördü ki, yupyumru bir ayı potasıdı və ayı potası pəncəsi ilə gözlərini silib ciyildədi ki, niyə qoymadın ocaq başında otursun, niyə qoymadın orda səbət toxusun. Çox da ki, qurd balasıydı. Məgər qaban bir tikə uşağın çörəyi idimi?

Və hövlnak qan-tər içində qara vaqiəli yuxusundan oyandı...

## 5

Döndü yan-yörəsinə baxındı, mağaranın ağzı xeyli ağarmışdı. Qoca əbasına bürünmüşdü və üzü divara sarı həsir üstündə iki qat bükülüb qalmışdı. Sağına baxanda diksindi. Barsis yerində yox idi, bürgələndiyi gödəkçənin altı bomboşdu. Gördüyü qara vaqiəli yuxu bu imiş? Sıçradı ayağa qalxdı. Gödəkçəsini tapdı, çiyninə atdı. Nə qədər gec deyildi uşağı haxlamaq lazımdı, özbaşınalığına son qoymaq, qulaqlarını qopartmaq lazımdı. Amma mağara ağzına çatmamışdı ki, Barsisin qayıdıb gəldiyini gördü. Barsis yırtıq köynəyinin ətəyini əllərinə alıb yuxarı qaldırmışdı, az qala belinə yapışmış qarnı açıqda qalmışdı. Gözlədi, Barsis yaxın gəldi, qənşərində dayandı, dodaqları, çənəsi nəyə isə bulaşmışdı və ağzını çaqqal yalasaydı doyardı; ətəyi qapqara böyürtkən gilələrilə dolu idi. – Ye, – dedi Barsis, – yoğurt ovxanını mənə verərək özün ac qaldın, ye ürəyində qüvvət olsun!



Əlbəttə acdı və məhz bu aclığı onu beş dəqiqəlik sərsəm yuxusunda qaban ovuna aparmışdı və qara bir röya ilə ürəyini qana döndərmişdi və sonra oyanıqlığa qaytarmışdı.

Böyürtkən gilələrindən bir ovuc götürdü və ağzına atdı, sonra soruşdu ki:

– Hardan tapdın bu qaranlıqda böyürtkanlığı?

– Gecə bura qalxanda yerini bələdləmişdim...

– Gecə bura qalxanda o zil qaranlıqda?

– Əlimə qoluma qaranlıqda tikan batanda acısından bilirəm ki, hansı qara tikandır, hansı böyürtkandır, hansı cır əzgildir, hansı yemişandır...

Həyatının başlanğıc yolu uşağa çox acı dərs verməyə başlamışdı, bundan sonra başlanacaq tufanlı bir həyat yolu onu çox uzaqlara, qürbət bir ölkəyə aparıb elə uca bir zirvəyə qaldıracaqdı ki, ora gedib çıxması və orda məhv olması sonralar bir əfsanəyə çevriləcəkdi...

Ocaq başında diz-dizə oturdular. Barsisin köynəyinin ətəyi bir yerdə duz-çörək kəsdikləri ilk süfrə oldu. Barsis qara gilələrdən bir-bir ağzına atırdı və baxışlarını Babəkin daşdan çapılmış kimi sərt cizgili, mis rəngi altmış üzündən çəkə bilmirdi.

Hənirti eşidib başlarını qaldırdılar. Mağaranın ağzı tamamilə ağarmışdı, ordan görsənən göy əyrisindəki tək ulduz da sönüb yox olmuşdu. Mağaraya girən iki nəfərin qapqara libaslarının uzun ətəkləri yer süpürürdü. Hər ikisinin qiyafəsi Babəkə tanışdı. Xristianlığın nəsturi qoluna mənsub rahiblər idi ki, qoca bunların dağ başındakı monastırları haqqında ona xəbər vermişdi.

Qoca üçüncü gündü ki, dağ başına monastıra şələ aparmamışdı. Rahiblər qocadan nigaran qalıb bu səhər aşağı enmişdilər. İlk dəfə mağarada yad adam görüb bir az heyrət elədilər və əllərini sinələri üstə qoyub salam verdilər, sonra döndülər üzü divara sarı uzanıb qalmış qocaya baxdılar. Babək rahiblərin salamını aldı və dedi:

– Xəstədi qoca və çox üzgündü.

...Sonra qoca oyanmışdı, qalxmışdı, oturmuşdu. Rahiblər də monastırın baş rahibi ibn Anastasın salamını qocaya yetirmişdilər və gətirdikləri əskiyə bükülü bir ovuc arpa unu ilə bir çimdik duzu həsir üstünə qoymuşdular və əlavə olaraq müqəddəs Barbara bayramı münasibətilə qoca zahidə göndərdiyi qırmızı yumurtanı qəbul etməsini çox xahiş etmişdilər.

Qoca yumurtaları uşaq üçün qəbul eləmişdi və üzünü Barsisə tutub demişdi:

– Sən də məndən qəbul elə Əbuladəm və elə fərz elə ki, çəkocəyin *ağır zəhmətin haqqıdır* bu...

Uşaq qocanın dumanlı sözlərindən bir şey başa düşməmişdi və Babəkin üzünə baxmışdı. Babək yumurtaları qocadan almışdı. Barsisin hələ də boynundan asılı qalmış bomboş torbasına atmışdı.

Bundan sonra qoca rahiblərdən xahiş eləmişdi ki, yola nabələd olan qərib və qovğun müsafirlərini onlar Həmədan dolaylarına qədər ötürsünlər və iki gündən bəri orda bucaqda qalmış çırpı şələsini aparmağı unutmasınlar. Rahiblər də qocanı arxayın eləmişdilər ki, elə çırpı şələsini aparmağa gəliblər, çünki bildirdilər ki, əks təqdirdə bir ovuc arpa ununu və bir çimdik duzu qəbul etməz.

Sonra rahiblər Babəkə bildirmişdilər ki, sabah monastırın baş rahibi ibn Anastas başında bir bölük rahib Həmədana yola düşəcəkdi ki, orda xəlifə Məmunu istiqbal eləyənlər içində Nəsturi xristianlarının ixlasını xəlifəyə elan eləsin və Babəklə uşağın da həmin qafiləyə qoşulması mümkün idi.

Nəhayət, hamı ayağa qalxmışdı, bir-bir qocaya baş əymişdilər. Tanrıdan salamat qalmasını diləmişdilər...

İndi qoca mağaranı tərk edib gedənlərin arxasınca baxırdı və mağaranın uzunluğu elə bir sürətlə qocanın şüurunu çəkib əks istiqamətə tərəf aparırdı ki, mağaranın ağzına doğru gedənləri dünyanın o biri başında görürdü.

Və qoca hiss elədi ki, əzrailə ehtiyac yoxdur. Ölüm elə bu uzaqlaşmadır ki, onu ağzına alıb bu dünyadan aparır və qoca son dəfə nida elədi ki:

– Rəbbim, qaytar tifili ki, çox uzaqdadır. Qaytar məni dəfn edib getsin!

Gedənlər arxalarında qocanın sönən bir şamın son şöləsini andıran səsini və sızıltısını eşitmədilər, amma dərhal arxalarında mağaranı çulğayan amansız bir səssizliyin fəryadını eşitdilər. Döndülər, mağara ağzında dayandılar.

Sonra Babək geri döndü, qocanın çırpı şələsini aparan rahib də şələni çox ehtiyatla yerə qoydu və hər iki rahib Babəkin arxasınca yönəldilər.



Uşaq çaşqın bir halda mağara ağzında qaldı, hiss elədi ki, nə isə baş vermişdir və indi ancaq böyüklər bilirdilər ki, nə eləmək lazımdır. O isə nə eləyəcəyini bilmədiyi üçün yerində qalmalıdır.

*Babək əyildi, arxasını divara söykəyib oturmuş, başı sol çiyninə əy*ilmiş qocanın nəbzini yoxladı və sonra dikəldi, rahiblərin üzünə baxdı. Sözə ehtiyac qalmamışdı, rahiblər sağ əllərinin bir-birinə sıxılmış barmaqlarının uclarıyla alınlarını, sinələrini, sağ və sol çiyinlərini nişanlayaraq xaç çəkdilər.

Qocanı aparıb qəbrində rahatlayandan sonra Babək uşağı səslədi ki, yaxın gəlsin və Barsis yaxın gəldi.

– Torpaqdan at üstünə, qəbir dolsun, – dedi Babək. – İndiki son arzusu bu idi...

Barsis boynundan asılı kiçik torbadan üç dənə qırmızı yumurtanı birbir çıxartdı, mağara divarındakı oyuqlardan birinə qoydu. Rahiblər uşağın bu hərəkətindən heç bir şey başa düşmədilər. Babək hiss elədi ki, uşaq qocanın bayaq dediyi sözlərinin mənasını indi başa düşdü və çəkocəyi zəhmət üçün verilmiş üç yumurtadan imtina elədi.

Sonra uşaq beli əlinə aldı, qəbir qırağındakı təpəcikdən torpağı kürüyüb qəbir quyusunu doldurmağa başladı. Babəklə hər iki rahib başı aşağı qəbir qırağında dayanıb Barsisin qan-tər içində doldurduğu qəbirə baxırdılar.

Birinci rahib dedi:

– Nəhayət ki, müqəddəs qoca əbədi azadlığına qovuşmuşdu. Amma bu dünyada yalnız Məsihin ağuşunda nicat tapmaq olar ki, qoca bu həqiqətə doğru çox yol gəldi, amma təəssüf ki, Məsihin ətəyinə əl uzatmadı.

İkinci rahib dedi:

– Bu dünyadakı azadlığa can atanların istədikləri azadlıq – qul azadlığıdır. Halbuki tanrı oğlunun azad qulu olmaqdan savayı nə bu dünyada, nə o biri dünyada başqa heç bir azadlıq yoxdur.

Barsis başını qaldırdı, Babəkin üzünə baxdı, başa düşmədiyi bu sözləri Babəkin nə cür qəbul elədiyini xilaskarının üzündən oxumaq istədi və gördü ki, Babəkin qaşları çatılmışdır və Babək qəbir içinə baxaraq dedi: "Nə müsəlman idi qoca, nə xristian". Altdan yuxarı rahiblərə elə baxdı ki, gözlərində parıldayan işıltıdan rahiblər sanki üşüdülər.

*Bu xəlifə Məmunun mənzil-mənzil*
*Həmədana yetdiyidir.*
*Barsisin örtülü bazarda*
*Şəhər cəlladını rüsvay etdiyidir.*

## 1

Dağ başındakı nasturilər monastırına çıxandan sonra indi baş rahibin bu böyük və sərtin hücrəsində, qızıl işləntili yumuşaq və zərif Abadan həsir üstündə Barsis elə bil tikan üstündə oturmuşdu. Başını arxaya qanırmışdı, çənəsini yuxarı qaldırmışdı. Ağzı azacıq açılmışdı və çaşqın baxışlarının dərinində nə isə bir vahimə baş qaldırmışdı. Çünki uşaq öm-

qapılmışdı ki, nə qədər çalışırdısa da gözlərini bir an da olsun kəllə divardan asılmış o şəkildən qopara bilmirdi. Çünki o şəkil özü bir an da olsun gözlərini ondan çəkmək istəmirdi.

Və Barsisin getdikcə ürəyini vahimə ilə dolduran məhz bu idi ki, içəri girdiyi dəqiqədən o şəkil nə üçünsə elə bil yalnız onu qaralamışdı və elə bil burda, bu hücrədə ondan, Barsisdən başqa heç kəs yox imiş kimi, bayaq uzaqda qapı ağzında ayaq üstə dayandığı vaxt da və indi gəlib yaxında həsir üstündə oturduqdan sonra da baxışlarını təkcə Barsisə ilişdirib qalmışdı. Halbuki onu və Babəki baş rahibin hüzuruna gətirmis o rahiblərin hər ikisi bu saat arxada, əlləri göbəkləri üstündə hələ də hücrənin qapısı ağzında dayanmışdılar – amma şəkil onlara baxmırdı. Şəkilin altında alçaq bir taxt vardı ki, monastırın baş rahibi qırmızı yanaqlı qoca o taxt önündə yerə sərilmiş bir kilim üstündə oturmuşdu və arxasını o alçaq taxta söykəmişdi. Amma şəkil o qocaya da baxmırdı və nəhayət Babək də burda idi, həsir üstündə onunla yanaşı oturmuşdu, başını aşağı salmışdı, sükut içində qoca rahibin dediklərinə qulaq asırdı. Amma şəkil ona baxmırdı. Birdən uşaq bu şəkli kimə isə oxşatdığının fərqinə vardı və Zəncan bazarında gördüyü çılğın baxışlı bir dərviş gəldi gözləri qarşısında dayandı. Hələ karvanın dalınca düşməzdən əvvəl Zəncan bazarında sədəqə dilənmək üçün əl aça bilməyib ac qarnına dolaşıb durduğu günlərin birində bütün bazarı səksəndirən boğuq bir fəryad ucalmışdı. Bazar bir anda kirimişdi və izdihamı yarıb keçən dərviş gəlmişdi, Barsisin yanından ötüb keçmişdi. Dərviş bir dəri, bir sümük idi. Pırtlaşıq saçları əlçim-əlçim çılpaq çiyinlərinə tökülmüşdü. Və dərviş "ey çərx cəfacu" deyə qıyya vuranda səsində mis cingildəyirdi. Sonra "ya əhəd-min bir adından mədəd!" deyəndə bazardakı çarşablı qadınlar əllərini sinələrinə döyüb ağlaşırdılar və dərvişin gözlərində elə bil qara bir alov yanırdı. Heç kəs başını qaldırıb dərvişin gözlərinə baxa bilmirdi. Barsis isə başını qaldırmışdı və dərvişin gözlərinə baxmışdı, amma sinəsindən geri itələnmiş kimi yerində səndələmişdi.

Sonra duzlu suda pörtlədilmiş qarğıdalılarıyla Barsisi aclıqdan qurtaran Turğay onu başa salmışdı ki, o dərviş çox yaxından tanrının üzünü gördüyü üçün o hala düşmüşdür və kim ki bir dəfə çox yaxından tanrının üzünü gördü, o adamın bəbəklərində qara bir ala alışıb yanır və heç kəs o qara şöləyə baxmağa davam gətirmir.

İndi bu şəklin də gözlərində tanrını görmüş kimi qara bir alov yanırdı və əyni o dərvişin əynindən daha çox yalın idi. Belində yalnız bir

olcə ağ fitə vardı, özü də o qədər arıq və cansız idi ki, qabırğalarını bir-bir saymaq olardı və əlbəttə ki, çox aclıq çəkmiş bir adam bu hala düşə bilərdi. Elə isə çox güman ki, aclığa davam gətirməyib hansı şəhərin örtülü bazarındasa bir ovuc xurma oğurladığı üçün bazar darğaları onu tutub şəhər cəlladının əlinə vermişdilər və qırmızı donlu şəhər cəlladı onu bu uca dar ağacında çarmıxa çəkərək, geniş açılmış qollarını köndələninə çarmıxın tirinə, uzun və çılpaq ayaqlarını da çarmıxın dirəyinə mıxlamışdı.

Və indi onun batıq sinəsini, zəif və taqətsiz vücudunu tərk eləmiş həyat yalnız gözlərində cəm olub qalmışdı və bu cür ki, qırpımsız baxışlarla o Barsisə baxırdı, elə bil ürəyində sözü vardı. Barsis isə ancaq onu görürdü ki, o dözülməz əzablara dözür. Şəklin üzəri kölgələrlə örtülüb qaralırdı və sonra tez açılırdı, tez işıqlanırdı və əlbəttə ki, uşaq bu saat hücrənin qoşa tağbənd pəncərələri arxasında göy üzündən ötüb keçən sərsəri buludların içəridəki işığı tez-tez dəyişdirdiyinin fərqinə varacaq halda deyildi.

...Amma çox sonralar bi. çox illər keçəndən sonra gənc Barsis kəskin dönüşlü taleyinin onu aparıb çıxardığı qürbət bir ölkədə hələ də bir çox şəkillər qarşısında dayanacaqdı ki, xristianlığın müqəddəslərini təsvir edən bütün o ikonaların – şəmayillərin hamısının solğun çöhrələrində batan zil qara gözlərinin qırpımsız baxışlarla öz tamaşaçılarının düz gözlərinin içinə baxdıqlarının sirrinə vaqif olacaqdı və hətta xristianlığın cəfakeşlərindən Yəhya peyğəmbərin çar Heradosun əmri ilə kəsilmiş başını özü bir sini içində öz əlində tutduğunu təsvir edən bir ikonaya belə tamaşa edə çəkdi, amma yenə də indi burda, bu dağ başındakı kiçik monastırın divarından ona baxan tanrı oğlu Məsihin qarşısında keçirdiyi bu həyəcan və sarsıntını heç vaxt unutmayacaqdı.

Ayaqyalın, başı açıq, arıq çiyinləri bez köynəyinin yırtıqlarından çıxmış bir uşağın Məsihin ikonası qarşısında keçirdiyi bu həyəcan baş rahibin gözlərindən yayınmamışdı və indi qoca Babəkə xitabən nə deyirdisə, bütün fikri və diqqəti yalnız Barsisdə idi. Və əlbəttə ki, qoca rahib başa düşürdü ki, nəinki qeyri-xaçpərəst, hətta xaçpərəst bir uşaq üçün də Məsihin çarmıxa çəkilmiş bu ikonası çox qorxunc bir rəsmdir, təsvirdir – üstəlik məşhur Qüstəntiniyyə rəssamı bu ikona əsərində Məsihin çəkdiyi əzabları və Məsihin ilahi mənəviliyini elə sənətkarlıqla canlandırmışdı ki, bir həftə əvvəl bu ikona dağ başındakı bu monastıra gətirilib burda təmtəraqla asılarkən qoca rahib özü bu müqəddəs



bütün qarşısında diz çöküb ağlamışdı. Və xüsusilə riqqətə gətirən bu olmuşdu ki, bu ikona dünya xristianlığının istinadgahı olan bir ölkədən qaçırdılaraq bu dağlara gətirilmişdi, çünki o qüdrətli xristian dövlətinin hökmdarı – qırmızı çəkməli Bizans imperatoru Feofil bütün kilsələrdən və monastırlardan ikonaların yığışdırılması üçün əmrlər vermişdi, ikonalara sitayişi bütpərəstlik elan etmişdi.

Və xristianlığın müqəddəslərini təsvir edən bütün ikonalara ibadət mərasimləri yasaq olunmuşdu. İndi əgər Barsis gözlərini Məsihin ikonasından qopara bilmirdisə, qoca rahib də Barsisə baxaraq düşünürdü ki, tarixin gərdişi çox vaxt sərxoş olur, budur xristian imperatorluğunun sərhəddindən qaçaq mal kimi keçirilmiş bu ikona burda xilafət adlanan nəhəng islam dövlətinin himayəsi altındakı nəsturi xristianlarının dağ başındakı monastırında kiçik və günahsız bir varlığın gözlərini çıraq kimi alışdırmışdırsa, əlbəttə ki, bu uşaq bu günü, bu saatı, bu anı bütün ömrü boyu heç vaxt unutmayacaqdır. Və xristianlığı təbliğ edən heç bir ənsin, vəz tanrı oğlunun yaxud tanrı anasının – Mariyanın surətlərini canlandıran bu ikonaların bir anda ürəkləri tərpədən sehrli qüvvəsini əvəz edə bilməyəcəkdir. Hələ qadınlar! İmperator Feofilin bütün yasaqlarına rəğmən hansı xristian qadının ürəyini tanrı anası Mariyanın müqəddəs ikonasından qopartmaq olardı? Və elə orda Qüstəntiniyyədə imperator sarayında imperatriça Feodora özü yataq otağında ərindən gizlədiyi Mariyanın ikonası qarşısında diz çöküb ağlayırdısa, əlbəttə ki, son nəhayətində göylər məlum Feofilin əcrini verəcəkdir!

Qoca rahib artıq qəhərlənmişdi. Və Barsisin keçirdiyi həyəcanlar getdikcə qocanı daha artıq kövrəldirdi, çünki rahiblər əvvəlcədən baş rahibə Babək ilə uşaq haqqında nə lazımdırsa demişdilər, mağaradakı tərki-dünya qocanın bu uşağın əlində dəfn edildiyini xəbər vermişdilər. Və indi taleyinin qovğunu olan yollar oğlu bu gənc ilə, ölümdən qurtulmuş bir uşaq belə bir gündə, tanrı oğlu Məsihin ölüb dirildiyindən 40 gün sonra göylərə ucaldığı bu müqəddəs bayram günündə, gəlib bu monastıra çıxmışdılarsa, qoca rahib üçün bütün bunlar əlbəttə ki, bir təsadüf deyildi, bəlkə əlamətdar hadisə idi.

Babək isə bu vaxta kimi qocanı ona görə sakit bir halda dinləmişdi ki, əslində öz fikirlərinə qərq olub qalmışdı, amma indi qoca rahibin səsində getdikcə artan bir həyəcan və titrəyiş hiss edərkən qeyri-ixtiyari olaraq başını qaldırmışdı və doluxsunmuş qocanın ona yox, Barsisə baxdığını görmüşdü.

Barsis isə nə qocaya baxırdı, nə də qocanın dediklərinə qulaq asırdı. Onun gözləri divardan asılmış ikonaya zillənmişdi, rəngi qaçmışdı, hərdən dodaqlarından bir titrəyiş keçirdi və elə bil uşaq ürəyində dua edirdi.

Və indi öz növbəsində Babək də həyəcanlandı, çarmıxa çəkilmiş Məsihin ikonası qarşısında Barsisin keçirdiyi bu hal onu təlaşa salmışdı, amma qoca rahib kimi o da uşağın nə üçün belə bir hala düşdüyünün əsl səbəbini dərk etməkdən hələ çox uzaq idi və buna görə də başına gələn ilk fikir bu oldu ki, xristianlığın digər ikonalarına nisbətən ən çox məşhur olan və ürəyi ən çox tərpədən bu faciəli təsvir görünür ilk baxışda Barsisi əfsunlamışdır və bu dəfə heç gözləmədiyi bir tərəfdən yenə uşağı bir təhlükə gözləyirmiş kimi ürəyini qarsan anlaşılmaz bir qısqanclıq hissindən qaşları çatıldı.

Baş rahib isə bu vaxt moizəsinin o yerinə gəlib çıxmışdı ki, ruhun vücud üzərindəki təntənəsinin yalnız Məsihin şəfqəti ilə işıqlanmış ürəklərdə bərqərar olacağını təbliğ edirdi. Çünki insandan doğulan ağca bir quzu kimi qurban gedən, aslan kimi ölümdən dirilişə dönən, qartal kimi uçub ucalan və indi göylərdə öz rəbbinin və öz tanrı anasının sağ tərəfində əyləşən Məsih hamının və o cümlədən də bütün qeyri-xristianların da qurtuluş və nicatı uğrunda dəhşətli bir əzabı öz çiyinlərinə almaq üçün bu dünyaya gəlmişdi.

Əgər bu saat Barsis sarıdan bu qədər nigaran olmasaydı Babək qocanın moizəsinə daha artıq diqqət və maraqla qulaq asmağa hazırdı və o birinci dəfə deyildi ki, xristian monastırına ayaq basırdı.

İllərdən bəri ibn Rəvvadın karvanı ilə getdiyi və dönüb geri qayıtdığı yollarda karvan oğrularıyla bərabər bu və ya digər bir monastırda müsafir qaldığı gecələr az olmamışdı, çünki xilafətdəki bütün xristian monastırlarının qonaqpərvər qapıları gecə və gündüz dinindən və milliyyətindən asılı olmayaraq bütün yol adamlarının, qar uçqununa düşənlərin, gecəni bir dam altında sığınacaq istəyənlərin üzünə açıq idi və ciblərində dirhəm olanlar üçün rahiblər həmişə öz hücrələrində çox həvəslə şərab süfrəsi açırdılar. Amma nə bu monastırda, nə başqa bir yerdə heç bir xristian ruhanisi bir müsəlmanı xristianlığa dəvət etmək kimi qorxulu bir təşəbbüs edə bilməzdi. Çünki xilafətdə, harda olursa olsun, istər xristian monastırlarında, istərsə yəhudilərin dua evlərində və yaxud atəşpərəstlərin orda-burda salamat qalmış atəşgədələrində bir müsəlmanı başqa bir dinə dəvət etməyin cəzası ölüm idi və eyni



zamanda öz doğma dinindən üz çevirib digər bir əyri dini qəbul edən hər bir müsəlmanı ölüm cəzası gözləyirdi.

Və indi əgər baş rahib qorxmadan, çəkinmədən öz ehtiraslı moizəsi ilə Babəkə xristianlıq həqiqətlərini təlqin etməyə cəhd göstərirdisə, bu yalnız ona görə idi ki, qoca Babəkin müsəlman olmadığından xəbər tutmuşdu. Və indi ki, bu iki kimsəsiz və binəsib sabah başlarına nə gələcəyini bilməyərək haraya isə üz tutub gedirdilər və belə müqəddəs bir gündə gəlib monastıra çıxmışdılar, bəlkə bu bir mənzilgah idi ki, hər ikisi üçün yol ayrıcı olacaqdı və hər ikisinin ürəyini yalnız İsa şəfqəti ovundura biləcəkdi.

Baş rahibin moizəsi olsun ki, hələ çox davam edəcəkdi, amma dünən gecə mağarda olduğu kimi indi də burda yuxunun ani və amansız həmləsi Barsisin keçirdiyi həyəcan və gərginliyə birdən-birə son qoydu, uşağın gözləri qapandı, başı axdı sol çiyninin üstünə düşdü, alnı gəlib Babəkin böyrünə dirəndi.

Və elə bil qoca rahib də nə isə bir gərginlikdən qurtuldu, dərindən köksünü ötürdü və dedi:

– O tərki-dünya qoca ki, bu uşağın təmiz əlləri ilə dəfn olunmuşdur, doğrudur o öz məzlum tanrısı ilə nə islama qovuşmuşdu, nə də xristianlığa, amma buna baxmayaraq, müsəlmanların nəzərində olduğu kimi, bizim üçün də müqəddəs bir varlıq idi. Və günaşırı axşamüstü monastıra gətirdiyi bir şələ çırpını yerə qoyub bir hovur nəfəsini dərmək üçün orda səkidə oturarkən, mən də hər dəfə hücrəmdən çıxırdım, gedirdim xatirini əziz tuturdum və suallarıma aldığım cavablara mat qalırdım...

İndi sizi bura gətirən rahiblər o qocanın xahişini mənə yetiriblər və mən ki, sabah öz qafiləmlə Həmədana doğru yola düşürəm sizi öz qafiləm içində Bab əl Əsəd dərvazasından içəri keçirmək əlbəttə ki, mənim üçün savab bir işdir...

Babək rahat nəfəs aldı, qoca baş əydi, minnətdarlığını bildirdi.

– Amma qulaq as övladım! – dedi qoca və yenə riqqət dolu baxışlarla dərin yuxuya getmiş Barsisə baxdı. – İndi ki, özün qovğunsan və sabah başına nələr gələcəyini bilmirsən, fərz elə ki, cismini ölümdən xilas elədiyin bu tifli elə bir girdaba doğru sürükləyirsən ki...

Babək səksəndi, budur, nəhayət bu qoca mətləb üstünə gəldi və indi bundan sonra nə deyəcəkdir, deyə bildi... Nə olmuşdu axı, nə istəyirdi bu qocalar bu qurd balasından? Uşaq burda qalırdı və hər gün qarnı

doyurdu? Uşaq burda qalırdı və Davud peyğəmbərin məzhurlatını əzbərləyirdi. Sonra gecələr xoş avazlı tər-təmiz səsilə: Tanrım nə üçün məndən üz döndərdin, nə üçün məni tək qoydun? – nəğməsini oxuyurdu. Qonşu iberlər ölkəsi Xaxaniyadakı bir monastırda gecələyərkən rahibə gürcü qadının öz hücrəsində bu Məzhuru oxuduğu hələ də yadında idi. Uşaq burda qalsaydı qara əbasının uzun ətəkləri ayaqlarına dolaşan gənc bir rahibə çevrilərdi və hər gün bu qaramat ikonalar qarşısında diz çökərdi, dua edərdi. Uşaq burda qalardı və nəhayət bütün xristian bayramlarında yaxın şəhərlərdən gəlib bu monastırlara doluşan, cibləri dirhəmlə dolu əhlkef müsəlmanlar üçün şərab süfrələri açardı...

Şükür ki, o biri tərki-dünya qoca çox üzülmüşdü, çox tükənmişdi və Barsis onun son arzusunu yerinə yetirərək o məzlum qocanı öz əlilə qazdığı qəbrində dəfn eləmişdi. Amma bu qocanın, bu baş rahibin yanaqları Sava narı kimi qıpqırmızı idi və çox güman ki, hələ o qədər yaşayacaqdı ki, xiffətdən, qüssədən uca hasar arxasında çərləyən bir qurd balasını nəhayət bir gün bu qoca özü dəfn edəcəkdi.

Və Babəkin ürəyi üsyan elədi, qeyri-ixtiyari olaraq sağ qolunu uşağın boz köynəyinin yırtıqlarından çıxmış arıq çiyinlərinə qoydu və dərin yuxuya getmiş Barsisi bərk-bərk böyrünə sıxdı. Sonra yenə diqqət kəsildi, çünki indi bu qoca rahib ona xəbərdarlıq edirdi və bütün dünya şəhərlərinin başına lənət yağdırırdı.

O şər qaynağı Babil ki, bütün şəhərlərin ulu əcdadı idi, dünyanın bütün qövmlərinə və millətlərinə azğın zina şərabı içirdiyi üçün bu gün xərabələrində bayquş ulayır və eyni yavalıq girdabına qərq olmuş bütün digər şəhərlər nəhayət o Babil aqibətinə düçar olacaqdır. Və indi sən ki, yanında hənzəl[1] iqbalının sorağıyla Həmədana doğru can atırsan, bil ki, o şəhər də ta İskəndər zəmanından kiçik bir Babildir, çünki o şəhərin müsəlmanı həqiqi müsəlman deyil, xristianı həqiqi xristian deyil, yəhudisi həqiqi yəhudi deyil, və atəşpərəsti də həqiqi atəşpərəst deyil...

Dəfələrlə bunu eşitmişdi. Xüsusilə tanrı bəndələri bütün bu qocalar üçün bütün şəhərlər zənginlik və harınlığın azğınlıq elədiyi qəttat yavaxanaları idi, o şəhərlərin Rabat adlanan ucqar xarabalarında məskən salanların, yaxud Təbrizin bir ağaclığındakı duz dağının qaranlıq lağımlarında duz çapanların güzəranı kəndistandakı yoxsulluq və səfalətdən daha artıq qaramat idi.

[1] Zəhər kimi acı olan çöl qarpızı – Əbucəhl qarpızı



Doqquz il idi ki, ibn Rəvvadın ticarət karvanlarıyla yollardaydı və dəfələrlə neçə-neçə şəhərlərdən keçmişdi və dəfələrlə bu və ya digər bir şəhər həftələrlə mənzilgahı olmuşdu, amma indi ilk dəfə olaraq karvan oğlanlarından bir çoxu ilə bərabər heç vaxt görmədiyi Həmədana ayaq basacaqdı, ona görə srağa gün axşam tonqal başında çox oturmuşdular və qoca sarvan qədim tarixləri eşələyərək karvan oğlanlarına bilik vermişdi ki, səhranı bina edən şəxs Nuh peyğəmbərin nəvəsi olmuşdur, o şəxs ki, adı Həmədan idi, Həmədan isə Feloçin oğlu idi. Feloç isə Samın oğlu idi və Sam Nuhun üç oğlundan biri idi ki, Allah onların hamısına rəhmət eləsin. Sonra qoca sarvan demişdi ki, o şəhərdə damları qızıldan saraylar ucaldan və bir-birinin içinə geydirilmiş yeddi rəngli yeddi uca hasarlı o şəhəri çevrələyən Midiya şahları çox böyük cah-calal içində çox az ömür sürmüşdülər. Onlardan sonra o şəhər Əcəm padşahlarının əllərinə keçmişdi və yaylaq şəhərinə çevrilmişdi və Əcəm şahlarının toyları orda çalınmışdı. Eyş-işrət məclisləri orda qurulmuşdu və xəzinələri də o şəhərdə saxlandığı üçün Məğribdə zühur edən İsgəndər Rumi qoşun çəkdi gəldi və cəmi o yerləri zəbt elədi. Sonra ilişdi Həmədanda qaldı. Və ürəyindəki şərab içmək meyli o şəhərdə çox gücləndi və o İsgəndər ki, dirilik çeşməsini axtarırdı, suyundan içib ömrün uzatsın, qurdla bu dünyada qiyamətə qalsın, ürəyindəki yanğını yamanlıq sərçeşməsinin zərərli suyu ilə suvardıqca ömrü o qədər qısaldı ki, anasını ağlar qoyub igid yaşında bu dünyadan nakam getdi. Yoxsa ki, bütün dünyanın və bütün iqlimlərin namdarı olmaq, dünyanın cəmi şahları içində təkcə bir ona yaraşırdı. Çünki başında möhtəşəm bir fikri vardı, Məğrib ilə Məşriqi birləşdirib dünyada vahid bir səltənət qurmağa can atırdı. Amma müsəlman olmadığı üçün Allahtəala rüsxət verınədi ki, muradına çatsın.

Arxada qalan əsrlər ki, doqquzuncu əsrdə də dünya hələ ona görə çox gənc idi, fasiləsiz müharibələrdən, qırğınlardan salamat qalan çox az qocalar sinədəftəri tarix idilər. Əlli il əvvəldən xəbər verən bir qoca – çox qədim dövrdən yadigar qalan uçuq abidələr kimi idi və qoca sarvan ki, bütün ömrünü uzun yolları qalın bir kitab kimi oxumuşdu, karvanın Həmədan yaylasına qalxdığı o axşam karvan oğlanlarına xəbərdarlıq eləmişdi ki, Həmədanın sakinləri ta qədimdən kef və əyləncəyə çox hərisdilər. Və başlarına nə müsibət gəlirsə gəlsin çox qəm çəkməyi rədd edirlər və bütün bunlara səbəb odur ki, o şəhər buğa bürcü altındadır, buğa bürcü isə axşamlar Batarıda yanan və sübh çağı Doğarıda parıldayan işvəli zöhrə ulduzunun mənzilidir. O ulduzun ki, vaxtilə yer

üzündə yaşayan çox göyçək bir xatun idi və o qədərcəmilə və can alan idi ki, göydəki həlqələrdən Harut ilə Marut yuxarıdan aşağıya baxanda o afəti görcək gözləri qamaşdı, ağılları başlarından çıxdı və göydən yerə enib o fitnə gözəli nə istədisə müzaqiyə etmədilər və çünki qadın kişinin əyri qabırğasından yaranmışdır və buna görə heç vaxt düz işlə arası yoxdur; ona görə Zöhrə də hiylə gəldi və o, mələklərdən Allahın gizli adın öyrəndi, o gizli adı ki, dünyada heç bir bəndəyə məlum deyildir. Və elə ki Zöhrə bu sirrə vaqif oldu əlüstü qalxdı üçüncü göydə ağ bir ulduza çevrildi, indi o zamandan bəri Zöhrə göylərin çalğıçısıdır və gecəli-gündüzlü üçüncü göydə əyləşib dəf çalır, Allah tərəfindən cəzasın alan Harut ilə Marut isə o zamandan bəri Bail quyusunda başları aşağı asılıb qalıblar. Amma mələklərə ki, ölüm düşmür, heç biri nə ölən kimi ölürlər və yenə heç biri nə diri kimi dirilir... Zöhrənin isə göydə iki evi var – biri tərəzi bürcüdür, digəri buğa bürcü və o göylər gözəli hər iki bürcə növbə ilə dəf çaldığı üçün kim ki, Həmədana ayaq basdı, çox tez caduya düşüb yoldan azır.

Sonra qoca sarvan şəhadət barmağını, o barmağını ki, əyri bir qarmaq kimi idi, yuxarı qaldırmışdı və karvan oğlanlarını hədələmişdi:

– O şəhərin örtülü çarşısında və yaxud qarşı yanındakı qəsriyyədə ağ çadra altında sizə müjgan oxu atan ahu gözlüləri görəndə yumun gözlərinizi, kor olun və yain ki, yəhudi məhəlləsindəki meyxanələrdən mərmər sinələri qırmızı xaçlı rumiyəli cariyələrin can alan nəğmələrini eşidəndə tutun qulaqlarınızı, kar olun.

...Nəhayət qapı ağzında əlləri göbəklərinin üstündə dayanmış iki rahib irəli gəlmişdi. Hərəsi bir tərəfdən baş rahibin qolundan tutub ayağa qaldırmışdı və qoca rahib Babəkə demişdi:

– Mənim həqiqət evladım, rahiblər gecələmək üçün sənə və bu tifilə hücrələrində yer göstərəcəklər və bu tifil ki, belə müqəddəs bir gündə bu monastıra ayaq basmışdır, qoy yeyib içməyi monastırın ehsanı kimi halal xoşu olsun!

Babək də gözləri qapalı Barsisin qolundan tutub qaldırmışdı və demişdi:

– Əksik olmayın müqəddəs ata, cibimdə beş-on dirhəm xərcliyim var, özümü və bu tifili dolandırmaq üçün kifayət eləyər bir həftə bizə...

Baş rahib köksünü ötürmüşdü:

– Şəxs qabilsən, övladım və əzəmət satırsan... amma Məsih buyurmuşdu ki, səadətlidir o kəslər ki, ruhları səqir, zəlil və məğrurdur, çünki göylərin ilahi səltənəti onlarındır, yenə buyurmuşdur ki, səadətlidir o kəslər ki, ürəkləri matəmlədir. Çünki ovunacaq ürəkləri və onlara təsəlli bəxş ediləcək...



## 2

Baş rahib ibn Anastasın qafiləsi dan yeri ağaranda yola çıxmış, dağ üstü monastırdan üzü aşağı enmiş, Şamzidə yola düşərək günəyə doğru yönəlmişdi. Qafilədəki rahiblərin hamısı piyada idilər. Təkcə baş rahibi qaldırıb qafilə önündə gedən palanlı qatırın üstünə qoymuşdular. Qoca isə nə qədər təkid eləmişdisə Barsisi tərkinə ala bilməmişdi, uşaq dirənmişdi, Babəkin böyründən ayrılmaq istəməmişdi. Qafilə hardansa azıb gəlmiş göydəki tənha bir bulud topasının qara kölgəsi kimi səssiz-səmirsiz hərəkət edirdi. Yalnız bir dəfə yol qırağında kəhriz başında dincəlmişdilər. Süfrə açmışdılar, çörək kəsmişdilər, ayran içmişdilər, sonra ayağa qalxmışdılar və qara libaslarının uzun ətəklərini yolun qızmar tozuyla ağartmış qafilə Həmədan qapılarına çathaçatda artıq qaş qaralmağa başlamışdı.

Əgər bütün yolu digər rahiblər ağızlarına su alıb susmuşdularsa Babəklə yanaşı addımlayan şişman görkəmli rahib çənə döyərək yola körpü salmışdı. Və qafilə növbəti bir yoxuş başına qalxarkən dayanmışdı, nəfəsini dərmişdi, sonra əlindəki dəmir üclüklü çəliyini təpə üstündən görsənən qarşıdakı şəhərin hasarlar arxasındakı ümumi mənzərəsi üzərində gəzdirmişdi və gah o yanı, gah bu yanı nişanlayaraq demişdi:

– Odur o zaman tikinti ki, şəhərin ortasını işğal eləmişdir və yastı damı altında ikinci bir şəhərciyi gizləmişdir. Həmədanın qapalı çarşısıdır, ora... Və əgər yayda şəhərin ən sərin yeri oradırsa, qışda da ən isti yer oradır. Və indi ki, günü sabah sən o şəhərdə özünə iş axtaracaqsan, bunu da bil ki, o örtülü bazarda bütün boyaqçılar və sərraflar yəhudi, dərzilər isə cümləsi xristianlardır. Qalan peşə sahibləri – dəmirçilər, miskərlər, qalayçılar, papaqçılar, başmaqçılar və sair əsnaflar müsəlmanlardır və bütün ticarət də müsəlmanların əlindədir.

Babək də təpə üstündən şəhərə göz gəzdirmişdi, fikrə getmişdi və ürəyində baş qaldıran bir təlaş hissilə yenə Tərxanı düşünmüşdü. Rahib isə bu vaxt çəliyini şəhərin yaşıl günbəzli qoşa minarəli cümə məscidinə tuşlamışdı ki:

– Şəhərdə sübhə kimi işıqlarını söndürməyə yeganə bir bina ancaq o məsciddir. Çünki Həmədanın o məscidi bütün günü və gecəni orda namaz qılan, oruc tutan və Quran ayələrini zikr eliyən mömin qocalarıyla məşhurdur. Xalq arasında o qocalara məscid göyərçinləri deyirlər.

Babək dönmüşdü şəhərin gün batanına baxmışdı, orda şəhər içində dörd bir tərəfi hasarlarla çevrələnmiş və ayrıca darvazası olan bir məhəllə diqqətini cəlb eləmişdi. Rahib isə dərhal izah eləmişdi ki:

– Yəhudiyyə adlanır şəhərin o qismi və sakinləri əsasən yoxsul boyaqçılardır, sinaqoqları yoxdur, amma ziyarətgahları var. Onların mənşələri barədə soruşanda vaxtilə Babil əsarətində olarkən Babil çayları sahilində ağlaşan qədim yəhudilərin nəslindən olduqlarını iddia edirlər. Davud peyğəmbərin də məzhurlatında deyilmişdi ki, "Babil çayları qırağında Sionu yad etdikcə ağlaşardıq" və yenə onların əqidələrinə görə Əcəm şahı Ahaş Dərvişin sevimli zövcəsi yəhudi qızı Esfirin də məqbərəsi o məhəllədədir. O Esfirin ki, hekayəsi "Kitabi-müqəddəs"də nəql edilmişdir. Amma bizi ən çox heyrətə salan o şəhərin müsəlman camaatıdır ki, onlar da yəhudilərlə bərabər Esfirin o məqbərəsini müqəddəs bir ocaq kimi ziyarət edirlər, halbuki bizim baş rahib dəfələrlə sübut eləmişdir ki, o məqbərə Esfirin aramgahı deyil. Çünki Esfir burda, Həmədanda yox, Saray şəhəri qədim Şuşanda dəfn edilmişdir. Və rahib bir rəqib üçün ilk dəfə ayaq basdığı yad bir şəhər haqqında ən mühüm nöqtələri nişan verib qurtarmışdı ki, birdən Babəkin gözlənilməz bir sualından bir an duruxmuşdu, diqqət kəsilmişdi, sonra qeyri-ixtiyari olaraq təkrar eləmişdi:

– Necə? Bu son günlər Həmədan zindanındakı dustaqlardan edam edilən olmuşdurmu?

Babək başının hərəkəti ilə sualını təsdiqləmişdi:

– Yəqin ki, şəhərdə baş verən hadisələrin səs-sədası hər dəfə gəlib monastırda sizə çatır.

– Elədir, – demişdi rahib, – şəhərdə baş verən hadisələr haqqında örtülü bazardakı xristian dərzilər həmişə bizim baş rahibə xəbər göndərirlər. Və son günlər şəhərdə edam edilən olmayıb. Amma olacaqdır. Çünki xəlifə Məmunun vəzirini Sərəxs şəhərinin hamamında qətl edən dörd quldurbaşı ki, içlərində bir nəfəri xristiandır, bu saat Həmədan zindanında oturub xəlifə şəhərə varid olandan sonra başlarına nə gələcəyini gözləyirlər. Əgər onları nəzərdə tutursansa...

– Yox, – demişdi Babək, – çoxdan itkin düşmüş bir dostumdan nəhayət ki bir xəbər gəldi ki, Həmədan zindanında dustaqdır.

Və işlətdiyi cinayət o qədər ağırdır ki, edam ediləcək?

Babəkin qaşları çatılmışdı:



– Edam edilənlər içində canilərdən yüz dəfə çox edam hökmü verənlərin cinayətinə qurban gedənlər olub... Əslində karvandan qovulandan sonra mən dostumdan bir xəbər tutmaq üçün geri dönmədim və indi bu şəhərə gəlişim ondan xəbər tutmaq və mümkün olsa onu görmək üçündür.

– Və səbr elə ki, tezliklə dostunu görəcəksən!

Bu dəfə Babək heyrətlə rahibin üzünə baxmışdı və rahib demişdi:

– Həmədan valisi nəinki kəndistandan yığılan xərac vergisini və şəhərdəki xristian və yəhudilərdən alınan can vergisini "Cizyəni"[1], hətta şəhər zindanını da icarəyə vermişdir və indi Həmədan zindanındakı bütün dustaqlar günaşırı örtülü bazara gəlib dilənməyə başlayıblar.

– Dustaqlar üçün dövlətin buraxdığı çörək, su pulunun çox yarısı valinin cibində qalır. Amma zindanı icarəyə götürən zindan rəisi də qazanmalıdır...

– Yenə başa düşmədim.

– Dustaq olanda başa düşərsən – o vaxt ki, zindan rəisinə peşkəş verəcəksən, hər ayın başında altı dirhəm. Məzəndəni zindan rəisi özü təyin eləmişdir, ona görə dustaqlar bütün diləndiklərini hər ayın başında zindan rəisinə peşkəş verirlər. Nə dedin? Dilənməzsən? Və zindan rəisinə qara bir danaq belə ehsan verməzsən? Və qamçı altında mum kimi yumşalmazsan? Onda əlbəttə ki, intihar edə bilərsən, yəni ac və susuz qalıb özünü öldürmək ixtiyarını heç kəs sənin əlindən ala bilməz!

Və rahib o saat öz dediyindən özü səksənmişdi və xaç çəkmişdi, çünki xristian bir rahib üçün ən ağır vəziyyətdən çıxış yolu kimi intihar ən böyük və bağışlanılmaz bir günah idi və rahib başını göyə qaldıraraq dua eləmişdi:

– Tövbə ilahi, dilimə küfr gətirdiyim üçün günahımdan keç!

...Sonra hər ikisi kirimişdilər, ağır bir sükut içində susmuşdular və rahiblər qafiləsi gəlmişdi, şəhərin dörd darvazasında ən möhtəşəmi olan Bab-əl-Əsəd adlanan ala qapıdan içəri keçmişdi və baş rahib ibn Anastas səxavət də göstərərək qatır üstündən darvaza keşikçilərinə peşkəş olaraq bir ovuc dirhəm dağıtmışdı. Çünki xilafətdə bu və ya digər bir iş ilə kim isə canını bütün icbari vergilərdən qurtara bilərdi. Amma peşkəş adlanan könüllü vergidən heç bir Allah bəndəsi yaxa qurtara bilməzdi və qurtarmamışdı.

[1] Müsəlman olmayanlardan alınan vergi

Baş darvaza isə ona görə Bab-əl-Əsəd yaxud Şir darvazası adlanırdı ki, bu darvaza önündə uca bir özül üzərində daşdan yonulmuş bir şir heykəli min illərdən bəri başı tufanlı bir şəhərin keşiyində dayanmışdı və bu daş şirin daş gözləri o qədər şeylər görmüşdü, daş ürəyi gördüklərindən o qədər daşa dönmüşdü, daş vücudu o qədər qalın zaman qatlarının dözülməz ağırlığı altında qalmışdı ki, elə bil sübh əzəldən başlanmış əbədiyyəti yorub arxada buraxmışdı və sabahdan başlanacaq qarşıdakı əbədiyyətə də ayaqdaş olub qalacaqdı və məhz buna görə idi ki, haçansa hardansa gəlib heykəlin qarşısında dayanıb durmuş qərib və dərbədər bir şairin xəyalını daş şir o qədər göz qaraldan uzaqlara – ta zamanın başlanğıc nöqtəsinə qədər qovmuşdu ki, şair bədahətən söylədiyi iki misrada daş şirdən sual eləmişdi:

"Sən zamandan əvvəl də vardın, – yoxsa səndən əvvəl də zaman vardı?"

Hər halda daş şair böyük Midiya çarlarının burda, qədim yunanların Oqbatan adlandırdıqları bu şəhərdə damları qızıl təbəqələrlə örtülmüş, mərmər sütunları Əlvənd dağından çapılan ağ mərmərdən yonulmuş möhtəşəm saraylardakı qısa ömürlü cah-cəlalına şahid olmuşdu. Sonra Midiya dövlətinin tarix üfüqlərində İranın Əhəməni şahları tərəfindən qəsb edildiyini və şahlardan yunanların arfa Kəsərkəs adlandırdıqları Ahasən vuruşları hekayəsi Bibliyada nəql olunmuş gözəl yəhudi qızı Esfirin bu şəhəri özləri üçün yaylaq malikanəsinə çevirdiklərini yadında saxlamışdı. Daha sonra bir qasırğa kimi Asiyanın sinəsi – İran yaylası üstündən əsib keçən Makedoniyalı İskəndərin ən çox bu şəhərdə əyyaşlığa qurşandığına və ən yaxın ürək dostu Kefestyün bir-birini əvəz edən şıdırğı içki məclislərinin şiddətindən bu şəhər demək olar ki, bütün xalqların və zamanların ən ulu sərkərdəsinin ən çox burda ağladığına, başına döyüb saçlarını yolduğuna şahid olmuşdu. Və min il sonra bir-birinin dalınca çaldıqları zəfər və qalibiyyətlərlə məst olmuş islam ordularının göyə ucalan təkəbbür və sədalarıyla Əlvənd dağının gədiklərindən üzü bəri bir sel kimi aşıb daşaraq şəhər üstünə gəldiklərini unutmamışdı. Və o zamandan daş şir arxasındakı mavi kaşilərlə üzlənmiş qoşa və uca qüllələrilə əzəmətli bir tağdan ibarət olan Bab-əl-Əsəd darvazasının üç bucaqlı alınlığında yaşayırdı. Daş xonça içində kufi xətti ilə həkk edilmiş islamın məşhur disturu "la qaliba Allah-Allahdan qeyri qalib yoxdur" kəlamı şəhərin yazısı olaraq qalmışdı...



...Və indi artıq bütün qafilə içəri keçmişdirsə, təkcə Barsis o qafilədən üzülmüşdüsə, burda bu darvaza önündə qalmışdısa və sağ əlinin şəhadət barmağını qatlayıb dişləri arasına alaraq bununla dünya qarşısında duyduğu böyük heyrətini ifadə edirdisə, səbəb o olmuşdu ki, uşaq gözlərini daş şirin tamaşasından qoparda bilməmişdi, çünki şir elə bil hardasa nə isə müdhiş bir şey görmüşdü və onun daş gözləri hədəqəsindən çıxmışdı. Və haraya isə sıçramaq istəyərək qabaq ayaqları üstündə dikəlmişdi. Amma sarğısını yerdən qoparda bilməmişdi. Nərə çəkib Əlvənd dağını lərzəyə gətirmək üçün ağzını açmışdı. Amma sinəsindən qopan daş nərəsi tıxanmışdı, boğazında qalmışdı, şirin daş gözləri ağlamaq istəmişdi. Amma şir olduğu üçün ağlaya bilməmişdi və buna görə sifəti yırtıcı bir qüdrətin dəliliyi ilə damğalanmışdı.

Bu vaxt Babək sorğu-sualsız içəri keçirildiyi üçün minnətdarlıq hissilə qatır üstündəki baş rahibin əlini tutmuşdu və qatır üstündə yol gəldiyinə baxmayaraq taqətdən düşmüş qoca bir müddət susqun bir halda Babəkin üzünə baxmışdı, sonra demişdi:

– Əlvida övladım, qoy rəbbin səni və o tifili bütün bəlalardan hifz etsin! Amma o qəzəb ki sənin ürəyində bir şir kimi yatmışdır, saqın övladım, qoyma ürəyində yatan o şir oyansın!

Babək dinməmişdi. Yalnız son dəfə dalğın bir halda qocanın üzünə baxmışdı. Necə ki, yolda bir dəfə qocanın qatırı ilə yanaşı addımlayarkən baş rahib Həzrət İsanın sayı on olan məşhur buyruqlarından söhbət açarkən yalnız başını qaldırmışdı, qocanın gözlərinə baxmışdı və qoca bu baxışda nə görmüşdüsə kirimişdi.

Sonra Babək bütün qafilə ilə vidalaşmışdı və birdən görəndə ki, Barsis yanında yoxdur, qaşları çatılmışdı, tez geri dönmüşdü və iti addımlarla darvazaya doğru gedərkən darvaza keşikçilərindən biri bürc altındakı hücrəsindən çıxmışdı və Barsisə təpinərək demişdi:

– Qara keşiş dedi ki, sən onun dəst fərmanısan və indi ki, buyuruq uşağısan, nə orda ağzını açıb milçək tutursan? Bəlkə payəndaz döşəyək qabağına ki, o palçıqlı qədəmlərinlə sən bizim bu diyara xoş gəlmisən?

Barsis səksənmişdi və baxışlarını şir heykəlindən qopartmışdı, dönmüşdü, darvazadan içəri keçmişdi və Babəklə üz-üzə gələrkən başını aşağı salmışdı, Babək isə narahatlığını bununla biruzə vermişdi ki, tez Barsisin qollundan tutub, ən iti yerişilə darvaza ağzından ta moltanilər karvansarasına kimi qurd balasını birnəfəsə yortmağa məcbur eləmişdi. Barsis isə nə səsini çıxarmışdı, nə danışmışdı, nə dirənmişdi...

Həmədan qeysəriyyəsi yaxud örtülü bazarın yanındakı iki qonşu karvansaradan biri şəhər əhalisi arasında ağ karvansara, digəri moltanilər karvansarası adlanırdı. Ağ karvansaranın böyük və xaçar gül, çargül həyətini çevrələyən uca hasarlar boyu yaşıl sərvlər cərgələnmişdi. Dəstəmaz almaq üçün həyətin ortasında fəvvarəli çarhovuz vardı, alt mərtəbəsindəki çilov mətbəxində bir-birinin yanına düzülmüş, böyürləri qara hisli qazanlarda günorta vaxtı və axşam çağı zəfəranlı plov dəm alırdı. Buradakı dövrələmə eyvanlı hücrələr döşənəkli idi. Və gecələr bu hücrələr zeytun yağı ilə yanan qəndilləri ilə çıraqban olurdu. Karvansaranın hətta xüsusi çalğıçıları və nəğməçi cariyələri vardı ki, bu və ya digər hücrədə xudmani eyş-işrət məclisi qurulanda nəğməçi cariyələri vardı ki, bu və ya digər hücrədə xudmani eyş-işrət məclisi qurulanda nəğməçi cariyələr o məclislərə ruh verir, əvəzində maddi nemətlər kəsb edirdilər. Çünki ağ karvansara kübar müsafirlər ilə topdan mal satan yadelli tacirlərin karvansarası idi. Moltanilər karvansarasında vəziyyət təfavütlü idi. Qapısız və gecələr işsiz olan hücrələrin döşənəkləri çürük həsir qırıqlarından ibarətdi. Hücrələri dövrələyən ensiz və uzun eyvan altında atlar, qatırlar, uzunluqlar bağlanırdı. Həyətdə isə dəvələr xıxırdılaraq yerə yatırılırdı.

Moltanilər karvansarası şəhərə gəlib çıxan binəsib qəriblərin, karvançı oğlanların və şəhərlər arasında yol ağardan sərsərilərin karvansarası idi və dilənçilərlə dolu olurdu. Bu günlər isə şəhər həbsxanasında artıq yer olmadığı üçün, bir dəstə ayaqları kündəli, qolları zəncirli dustağı da bura gətirmişdilər, yük heyvanları yanında zəncirlərini divardakı dəmir halqalar bərkitmişdilər və iki nəfər pasibanı da üstlərində keşikçi qoymuşdular.

Karvansara sahibinin qoca xidmətçisi qara bir qul iki danaq alaraq Babək ilə Barsisi burdakı ən kiçik hücrələrdən birində yerləşdirmişdi və hücrənin damındakı yırtıqdan gecələr hansı bir ulduz isə hücrənin qaranlığına baxırdı. Babək bağlamasından çıxardığı bir tikə çörəyi iki bölmüşdü və hər ikisi qaranlıqda öz çirələrini gəvələyirdi, sonra başlarını həsir qırığı üstündə yerə qoyub sağ qollarını başları altında yastıqlayıb yol yorğunu olduqları üçün axşam çox ertədən yıxılıb yatmışdılar.

Və gecənin hansı aləmindəsə qapısız hücrənin çargül oyuğundan içəri düşən ay işığında Babək birdən oyanmışdı, Barsisi yanında görməmişdi, hücrəyə göz gəzdirmişdi. Hətta Barsisi səsləmişdi, amma cavab olmayaraq tez ayağa qalxıb eyvana çıxmışdı.



Bütün karvansara dərin bir yuxu içində idi. Hətta dustaqların keşiyini çəkən iki nəfər pasiban hasar dibində yerdə oturmuşdular, ayaqlarını irəli uzadıb arxalarını hasara söykəyib yatmışdılar. Gecənin bu aləmində hara gedə bilərdi Barsis? Yad bir şəhərin kimsəsiz küçələrində nə işi ola bilərdi? Olmaya itmişdi, ondan ayrılmış və şəhərdən çıxıb getmişdi. Amma bu vaxt şəhər darvazaları bağlı idi və bu vaxt heç nə şəhərdən çıxa bilərdi, nə şəhərə girə bilərdi və kimsəsiz küçələrdə yalnız Təbərzin[1] baltalarının dəstəklərini qurşaqlarına keçirmiş əllərin fanuslu[2] gecə gözətçiləri gəzirdi. Və bir də ki, bu dərəcədə vəfasızlıq heç o qurd balasına yaraşardımı?

Və birdən Babəkə vəhy gəlmişdi. Axşam yuxarıya ikinci mərtəbədəki hücrələrinə qalxarkən Barsis tez-tez dönüb dövrələmə eyvan altında heyvanlarla yanaşı zəncirləri divardakı dəmir halqalara bənd edilmiş, ayaqları kündəli, qolları zəncirli dustaqlara baxırdı və o dustaqlardan biri nə qədər dartınırdısa əlini yuxarıdakı atın başına keçirilmiş arpa torbasına çatdıra bilmirdi...

Babək barmağını dişləmişdi və tez aşağı karvansara həyətinə düşmüşdü. Yanılmamışdı.

...Barsis burada idi, dövrələmə eyvan altında idi, cumurdu, qolunu dirsəyinə kimi qıraqdakı atın başına keçirilmiş torbaya salırdı, dönürdü, arpa dolu ovcunu bir dustağın ovcuna boşaldırdı və xırmandan dən oğurlayan sərçə kimi tez-tez qanrılırdı, hasar dibində yatmış keşikçilərə tərəf boylanırdı. Və nə dustaqlardan bir səs çıxırdı, nə Barsis onlara bir söz deyirdi. Və növbəti dustaq arpa payını alırdı, tez acgözlüklə başını ovucları üstə əyirdi və bir an tez ovcundakını çeynəyib qurtarmağa çalışırdı. Və o dustaqlardan heç biri xəcalətli başını qaldırıb uşağın üzünə baxa bilmirdi, çünki çox yaxşı bilirdilər ki, əgər keşikçilərdən biri bu saat oyansaydı, yaxud at sahibi təsadüfən yuxarı qatdakı hücrəsindən çıxıb aşağı ensəydi, o vaxt burda onların gözləri qarşısında bir tikə uşağın başına nələr gələcəkdi.

Və indi Babək də təlaş içərisində keşikçilərə tərəf baxa-baxa qalmışdı və ta o vaxta kimi baxa-baxa qaldı ki, Barsis nəhayət ki, atın arpasını qarət edib qurtardı, dustaqların yanından ayrıldı, gəldi yenə başı aşağı Babəkin yanından keçdi və yalnız səssiz addımlarıyla pilləkənlə yuxarı qalxdı.

---

[1] Gecə keşikçilərinə məxsus baltalar

[2] Xüsusi əl çırağı

Bundan sonra Babək dərindən nəfəsini dərmişdi, dönmüşdü yuxarı qalxmışdı, gəlmişdi öz yerinə, Barsislə yanaşı uzanmışdı və heç bir şey baş verməmiş kimi təmkinlə demişdi:

– Qulaq as, Barsis, hava işıqlananda, bazar darvazası ağzında təbil çalınanda mən qalxıb gedirəm. Günəmuzd bir iş tapıb qulpundan yapışmaq lazımdır. Hələ nə qədər bu şəhərdə qalacayıq allah bilir. Çoxdan itkin düşmüş bir dostum, mənə qardaşdan daha yavuq idi. İndi burda şəhər zindanındadır. Bir yol tapıb ondan xəbər tutmalıyam və sonra nə edəcəyəm onun üçün – bu barədə çox fikirləşirəm. Çünki qış qapını almamış biz gərək yola düşək və yol ki, çox uzundur, həftələrlə, bəlkə bir aydan çox piyada gedəcəyik... Çox uzaqlarda Barsis, həmişə dumanlı və çiskinli Bəzzeyin dağları ətəyində kiçik bir kənd var və o kənddə hər evin çay qırağındakı irili-xırdalı bağlarında; cərgə-cərgə əkilmiş ağ tut ağacları hər il yaxşı bar verir, indi bu saat hər gün o bağlarda şıdırğı tut çırpırlar və çırpılan tutu tərəcələr üstündə, gün altında qurudurlar, sonra o quru tut üyüdülür və tut unundan bişirilən əppək bütün qışı o kiçik kəndin ruzisi olur... Nə dedin?

Barsis heç bir deməmişdi və Babək susmuşdu. Güman edirdi ki, indi gecənin bu aləmində doğma kəndini bu cür yad eləməsi bəlkə Barsisi də kövrəltdi. Və uşağın dili açılacaqdı, özü barədə, kəndləri barədə, orada kimi vardı kimi yoxdu bu barədə nə isə deyəcəkdi. Amma Barsisdən səs çıxmamışdı və Babək əlavə eləmişdi:

– Söz ver ki, sabah sən bax burda bu hücrədə oturacaqsan, mən də harda olsam gün günortaya kimi qayıdıb gələm. Ayın-oyun gətirərəm. Oturub bir yerdə bir tikə çörək kəsərik...

Və nəhayət Barsisdən səs çıxmışdı:

– Sabah məni də apar özünlə, – demişdi, – Amma sabah mənə çörək lazım deyil. Elə bu gün yemədimmi?

Babək uşağın nə dediyinin fərqinə varmamışdı.

– Bu gün yavanlığımız olmadı, – demişdi, – amma sabah bir cürdək ayran alıb gətirərik ki, bayat səngək boğazımı deşməsin!

Amma Barsis yenə etiraz eləmişdi:

– Səngək al, çünki sən şəhər adamısan, çünki sən hər gün əppək yeməyə adət eləmisən.

Və indi o, Barsisin nə dediyini eşitmişdi və kirimişdi.

Barsis yenə sağ qolu başı altında dərin bir yuxuya getmişdi. O isə susmuşdu. Məgər ki, qurd balası üçün o, şəhər adamı imiş. Çox uzaqlarda qalmış dumanlı və çiskinli dağlar qoynundakı kiçik bir kənd qaranlıqdan sıyrılmışdı, gəlmişdi gözləri qarşısında dayanmışdı. Kiçik bir kənd ki, orda da Barsis kimi ayaqyalın başaçıqdı və Barsis kimi yamaqlı köynəyinin yırtıqlarından qol-qabırğaları çıxmışdı. Kənd yazda ayransız, qışda yorğansız, axirətdə imansız qalanların kəndi idi ki, o il yenə qara bir qışdan sonra yaz açılanda dağın-daşın ot-alağını otlamağa başlamışdı. Və bu vaxt anası bir gecə gördüyü yuxunun zülmündən yuxusunda ağlamışdı və səhər durmuşdu onu kənddən qovmuşdu. Çünki hardasa uzaqlarda böyük şəhərlər vardı və o şəhərlərdə yaşayan məxluq o qədər harın və israfçı idi ki, hər gün çörək yeməyi özləri üçün adət eləmişdilər.



### 3

Yarıqaranlıq dəmirçixanada bir az yuxarıda külək uğuldayırdı və bir az aşağıda kürənin kömür közləri üzərində yayxanan göyümtül dəm alovu gah süzülürdü, gah da çözülürdü. Sonra haça ucları xırdaca ilan dilləri ilə köz üstündə qıpqırmızı qızarmış dəmir parçasını duz-buz kimi yalamağa başlayırdı.

Babək ağır gürzü bir anlığa dikinə zindan üstünə qoymuşdu. Sağ əlini gürzün sapı üstündə saxlamışdı və baxışları torpaq döşəməni örtmüş yaşıl məmtəzin dəmir oxantılarına dikili qalmışdı.

Yenə Tərxan haqqında düşünməyə başlamışdı və yenə usta ona aman verməmişdi. Dəmirçi usta Məmtəzin dəri önlüyü hər gün üstünə yağan çırtdaq yağışının qara naxışları ilə bəzənmişdi. Lopa bığları xınadan qızartdaq bir rəngə boyanmışdı. Hər həftə ülgüclə qırxılan işıltılı başını qara bir təsəklə örtmüşdü və indi usta kürədə qızardıqca ağaran dəmir parçasını uzun qollu kəlbətinlə gah tərsinə, gah avandına çevirirdi. Eyni zamanda nəfəsini dərmədən döyürdü.

– İndi ki, yurdundan-yuvandan ayrı düşmüsən və Təbrizin qapısı bağlanmışdır üzünə, hərçənd Təbrizə hələ şəhər demək olmaz, çünki məscidin minbəri yoxdur və o şəhərin ki, minbərli məscidi yoxdur, o şəhər islam dünyasında şəhər hesab olunmur. Qərəz indi ki, qovğun bir didərginsən, gəzəcəksən qürbət iqlimləri bir-bir, onda agah ol ki, minbərli məscidləri olan şəhərlər içində Bəsrə məşhurdur məharət və fəndgirliyi ilə, Kufə – üzü dönüklüyü və bəlağəti ilə, Bağdad cahcalalı ilə, Leylac – əyanları ilə, Rey – məkr və xəyanətçiliyi ilə, Mərv

– simicliyi və tamahkarlığıyla, Herat – paxıllığı və darqursaqlığı ilə, Nişapur – eyş-işrəti və zinakarlığı ilə...

Babək başını qaldırmışdı, sol əlilə alnının tərini silib atmışdı və qeyri-ixtiyari demişdi:

– Toxta, usta. Qoy heç olmasa üç-dörd şəhər bu dünyada salamat qalsın.

Ustanın qaşları yuxarı sıçramışdı, sonra aşağı düşmüşdü. İstədiyi elə bu idi, danışdırmaq – dilini açmaq istəyirdi bu qürbət qonağın ki, iki gündü yanında işə götürmüşdü, yoxlamışdı, işindən razı qalmışdı. Çünki qolları qüvvətli, zərbələri sərrast idi və iki gündü zindan arxasında ustanın işarəsilə ağır gürzünü bir anlığa zindan üstünə qoyub dayanırdı, şəhərin bu örtülü bazarındakı xüsusilə dəmirçilər cərgəsindəki bütün bu qulaq batıran daranqıltı, gumbultu içərisindən usta bu oğlanın ağır sükutunu eşidirdi və bu susqunluqdakı gərginlik ustanın aramını əlindən alırdı, hətta ürəyində nə isə tutqun bir təlaş hissi baş qaldırırdı...

Və usta gözlərini qıyaraq yanakı bir baxışla Babəki süzmüşdü. Sonra əlavə eləmişdi:

– Əlbəttə ki, Səmərqənd var bu dünyada o şəhər məşhurdu səxavəti və mərdanəliyi ilə, və yaxud Bağ şəhəri həmişə məşhur olub cəngavərlik və nəcabəti ilə və yainki çox şəhərlər toxuculuğu ilə ad çıxardıb və o şəhərlərdə toxunan kətan yumurta kimi ağappaq olur. Amma sən ki, Ərdəbil tərəfdənsən, o şəhər haqqında da bir giriz vurardım əgərçi xətrinə dəyməsəydi...

Babək qeyri-ixtiyari gülmüşdü və:

– Toxta usta, – demişdi, – mən də Həmədan haqqında deyərəm, sən eşidərsən.

Bu dəfə usta da gülmüşdü və bu gün üçün kifayətdi ki, nəhayət bu qaradinməzin ağzından iki-üç kəlmə söz qoparmışdı. Kürədəki dəmir parçası isə artıq dəmhadəmdə idi. Və usta uzun qollu kəlbətini ilə qızarmış dəmir parçasını kürədən gətirmişdi. Bir-iki dəfə havada silkələmişdi, elə bil tozunu çırpırdı. Sonra usta dəmir parçasını zindan üstünə atdı və başıyla Babəkə işarə elədi; yeganə bir hərəkət idi ki, buna izah yoxdu. Və Babəkin ağır gürzü zindan üstünə endikcə ağır çəkic zərbəsi altında qışqıran qırmızı çırtdaqlar fəvvarəsi dəmirçixananın alaqaranlığında yelpazə kimi gah açıldı, gah yığıldı. Usta tez-tez dəmir parçasını gah avandına, gah tərsinə çevirdi, dəmir parçası yayıldı, dəyirmiləndi. Sonra usta Babəki dayandırdı. Öz çəkicini sağ əlinə alıb işə



saldı... və bir neçə dəqiqədən sonra ustanın çəkici altından çıxan daha bir at nalı daranqıltı ilə torpağa qalaqlanmış və qaralmış o biri nalların üstünə düşdü.

Bu dəfə də usta alnının tərini sildi. Gözləri dəmirçixana küncündə köndələninə çox hamarcasına kəsilmiş kötük üstündə oturmuş Barsisə ilişdi. Qurd balası eynilə yaşlılar kimi əllərini dizləri üstünə qoymuşdu. Açıq ovuclarına baxaraq fikrə getmişdi. Usta güc-bəla heç olmasa Babəkdən bir söz qoparmışdı. Amma bu uşaq bütün günü ağzına su alıb susurdu və usta özünü saxlaya bilmədi:

Niyə bu uşağı ayağına duzaq eləmisən, – dedi, – qoy getsin bazarda tay-tuşlarına qoşulsun. Qoy heç olmasa dinləməyi öyrənsin və heç olmasa əlində bir peşəsi olsun...

Amma Babəkin baxışları ustaya yaxşı bir şey vəd eləməmişdi. Usta dayanmamışdı:

– Deyir boş dayanınca, get düşməninə daş daşı. Qoy bizim uşağa qoşulub qonşu karvansaradakı nalbəndlərə nal daşısın.

Ustanın qonşu karvansara həyətindəki nalbəndlər cərgəsində öz müştərisi vardı və kiçik oğlu bütün günü ora nalbənd üçün nal daşıyırdı.

Babək dinməmişdi. Barsis isə o saat ayağa qalxmışdı və hazır nallardan dəri torbaya doldurub dalına atmışdı. Və ustanın kiçik oğluna qoşulub getmişdi. Usta isə arxalarınca xəbərdarlıq eləmişdi:

– Amma dinc durun ha. O gün bir-birinizi dişinizə vurdunuz kifayətdir.

Ustanın xəbərdarlığı səbəbsiz deyildi.

...O gün ki, Babək ilə Barsis uca tağlı bazar darvazası altından içəri keçib şəhərin örtülü bazarına gəlmişdilər, cümə axşamı idi. Və xüsusilə bu cümə axşamları Həmədanın örtülü bazarında elə bil ki, Ərsaat meydanında qiyamət günü məşq olunurdu. Uca tağlar altındakı darısqal və dərin tunelləri andıran bazar cərgələrinin getdikcə sağa və sola, uzununa, köndələninə əyilən şaxənin hər tərəfi qaynar qazanlar kimi qaynayır, arı pətəkləri kimi aramsız uğuldayırdı və əgər gündüzün günorta vaxtı şəhərin küçələrində, tək-tük adam gözə dəyirdisə, bu ona görə idi ki, səhər hava işıqlanandan, axşam hava qaralana kimi bütün şəhər bu örtülü bazarda olurdu – kişilər də, qadınlar da, hətta bütün uşaqlar da...

Və Babək ilə Barsis bu qarışqa kimi qaynaşan izdihamı yararaq gedirdilər.

Burda hər peşənin və hər növ ticarətin öz "əlaqə cərgələri vardı" çünki bütün şəhərin çörəyi burda bişirilirdi, geyimi burda tikilirdi. İstehlak

etdiyi mallar burda istehsal olunurdu. Və şəhər nə satırdısa burda satırdı, nə alırdısa burda alırdı. Acları burdan dilənirdi, xozpuşları burda vurnuxurdu, dünyada nələr olduğundan xəbər tutulurdu. Gecə gördüyün yuxular da burda təbir olunurdu. Kiminsə doğuluşu ilə dünyaya gəlişi və kiminsə ölümü ilə dünyadan gedişi bir hadisəyə çevrilirdi, burda müəyyən edilirdi.

Yuxarıdan uca tağlı damlardan göyə doğru açılmış xırdaca pəncərələr hətta yay günlərinin bol işığından belə aşağıdakı bu dərin tunellərə çox cüzi bir işıq buraxırdı. Və buna görə bütün cərgələrdəki yan-yana düzülmüş irili-xırdalı saysız hesabsız dükanların içərisində küncüt, zeytun, gənəgərçək yağlarıyla yanan çıraqlar işıldayırdı. Dükanların tavanından asılmış mallar üstündə isə bir ucu nazik, bir ucu yoğun, çox uzun, əlvan rəngli şamlar yanırdı və hansı malların üstündə nə qədər şam yanırdısa, pərakəndə satış tacirləri bu çıraqbanlıq ilə satdıqlarını bir o qədər daha yaxşı çağırışla təmin edirdilər.

Lakin oturaq ticarətdən fərqli olaraq başlarındakı dolu tabaqlarla izdiham içində vurnuxan səyyar xırdavatçılar bütün günü boğazlarını yırtaraq mallarını şifahi olaraq təriflənməyə məcbur idilər. Və bir qayda olaraq satıcı nə qədər yoxsul idisə, bir o qədər çevik tərpənişli idi və əksinə bir tacir nə qədər ləng tərpənirdisə deməli bir o qədər zəngin idi.

Qırmızı kərpicdən hörülmüş taxtlar altında uzanıb gedən çit, qumaş, şal, kətan, yun parça satılan bəzzazlar cərgələrini isə başdan-ayağa kimi qatar-qatar çiyinləri ağ çadralı, üzləri qara rübəndli qadınlar işğal eləmişdi ki, bir-birinə qarışmış civiltiləri quş bazarına çevirmişdi. Çünki əndərunilər əsiri bu qadınlar yalnız üç yerdə – hamamda, örtülü bazarda və qəbiristanlıqda ürəklərini boşaldırdılar. Və bu üç yerin hər birinə səhər gedib – axşamüstü qayıdırdılar və beləliklə hər üçündə bəs deyincə çənə döyürdülər.

Və burda örtülü bazarda bir kişi öz çadralı arvadının yanından keçərkən öz halalını tanımırdısa, qadınlar hələ çox uzaqdan dərhal bir-birilərini tanıyırdılar.

Babək ilə Barsis çadralarla çulğanmış quş bazarını andıran bu cərgəni sağda buraxıb, çox tez sola tərəf dönmüşdülər. Peşəkarlar cərgəsi başlananda palaz döşənmiş dükanlarında bardaş qurub oturmuş dərzilər görünmüşdülər. Burda ustalar biçirdilər, şagirdlər tikirdilər və Həmədan bazarında bütün bu dərzilər xristian idilər.



Sonra gələn cərgələrdə qoca sərraflar vardı yəhudilərdən, boyaqçılar isə yoxsul yəhudilərdən ibarət idi və uzun saqqallı, qartal burunlu sərrafların sandıqçaları üstündə bütün dünyanın qızıl, gümüş və mis pullarından nümunələr vardı, boyaqçı yəhudilərin isə qara və iri gözləri qazan və küplərdən qalxan buxar içində par-par parıldayırdı.

Babək ilə Barsis bu cərgələrdə dayanmadan keçib getmişdilər.

Və gəlmişdilər yüzlərlə irili-xırdalı çəkiclərin zindanlar üstündə mis döydüyü misgərlər cərgəsinə çıxmışdılar. Burda Babək bir hovur ayaq saxlamışdı, qarşısında dayandığı dükanın içində on üç nəfərin bir zindan üstündə bir nöqtəni döyən çəkiclərinin aramsız və ritmik hərəkətinə bir an tamaşa eləmişdi. On üç çəkic, on üç mizrab kimi zindan üstündə musiqi çalırdı. Və Babək dönmüşdü Barsisə baxmışdı, gülümsəmişdi. Yəni burda bir inciklik eləyən olmayacaq və olsa belə bu kol biz girən kol deyil. Barsis də gülümsəmişdi ki, başa düşdüm nə deyirsən.

Və burda onlar dəmirçi Mehran ilə üz-üzə gəlmişdilər. Usta Mehran iki yeniyetmə oğlunu dalınca salıb öz dükanını açmağa gedirdi. Gecikmişdi və fikirli idi. Çünki ağır gürz vuran oğlu xəstə yatırdı. Ona görə iki yeniyetmə oğlu ki, növbələşdikləri körüyü basırdılar, indi onlardan biri çəkic vurmalı olurdu. Amma yeniyetmənin vurduğu zərbələrdə kəsər yoxdu. Buna görə ustanın işləri ləng gedirdi. Özü də elə bir vaxtda ki, bu günlər Həmədan bazarının ən rəvac günləri idi. Örtülü bazarda bir canlanma vardı, çünki xəlifə Məmunun qafiləsi şəhərə yaxınlaşırdı. Təbii idi ki, başqa mənzillərdə olduğu kimi burda da peşəkarlar çoxlu sifariş alacaqdılar. Nalbəndlər bütün günü Məmunun qafiləsindəki nalları düşmüş atları nallayacaqdılar. Və dəmirçilər nalbəndləri nal ilə təmin etməli idilər. Sərraclar yüyən-yəhər əsbabını səhmana salacaqdılar. Dərzilər və papaqçılar da boş dayanmayacaqdılar ; gələnlər libaslarını burda təzələyirdilər.

Və indi dəmirçi usta Mehran misgərlər cərgəsindən keçərkən ustanın yeniyetmə oğlanlarından kiçiyinin əli dinc durmamışdı. Barsisin böyrünə bir dürtmə ilişdirmişdi. Ayaqyalın, başı açıq, çiyinləri boz köynəyinin yırtıqlarından çıxmış bir uşağa dürtmə ilişdirmək ən adi bir iş idi.

Amma dürtmə yeyən kimsəsiz dilənçi bir uşağın borclu qalmaq istəməyərək cəld geri dönüb ustanın oğlunun boğazından basması və ustanın oğlunun gözlərinin az qala kəlləsinə çıxması tamamilə gözlənilməz bir iş idi.

Yaxşı ki, Babək tez geri dönmüşdü, Barsisin qolundan tutub geri çəkmişdi və dəmirçi usta Mehran bir Babəkə baxmışdı, bir Barsisə baxmışdı və demişdi:

– Yanılmıramsa qəribsən oğlan?

– Yanılmırsan, – demişdi Babək. – Mən də qəribəm, uşaq da qəribdir.

Usta xınalı bığları altında qımışdı:

Qonşu həyətə keçən xoruzun gözü adətən qıyıq olur, amma sənin bu beçə xoruzun...

Babək də gülümsəmişdi.

– Bu beçə xoruz deyil, bu qurd balasıdır, amma heç kəslə işi yoxdur. Bu şərtlə ki, heç kəsin də onunla işi olmasın.

– Əgər desəm ki, bura nə satmağa gəlibsən, nə almağa, yanılmaram ki?

– Yox, – demişdi Babək, – yanılmazsan...

– Və əgər yenə desəm ki, iş axtarırsan zənnim məni aldatmaz ki?

– Yox aldatmaz. Və xahiş eləyərəm, çox uzatma!

– Elə isə getdik-demişdi usta, – böyük oğlum xəstə yatır, gürz vuranım yoxdur.

Sonra gəlib dəmirçilər cərgəsinə çatanacan usta həftədə üç dirhəm muzd verməyi barədə şərt kəsmişdi. Babək: – azdır, – demişdi, amma razı olmuşdu...

...Günorta idi və dəmirçi usta Mehran dəmirçixananın arxasında günorta namazını qılırdı.

Barsis ilə ustanın hər iki oğlu qonşu karvansaraya dallarında nalla dolu torbaları aparmışdılar. Babək kötük üstündə süfrə açmışdı, süfrədə iki səngəh ilə bir cürdək ayran vardı. Amma süfrəyə əl uzatmamışdı. Barsisi gözləyirdi. Və başını divara söykəyərək bu günlər getdikcə şiddətlənən istidən yorğun bir halda mürgüləyirdi.

Və bu gün ki, cümə axşamı idi, bazarın ən gur, adamların ən çox soxavət göstərdikləri bu cümə axşamında şəhər zindanının dustaqları örtülü bazara dilənməyə göndərilmişdilər.

Qolları zəncirli bu adamlar kiçik dəstələrə bölünərək nizəli mühafizələrinin nəzarəti altında bazarın cərgələrində dilənməyə başlamışdılar. Bir-birinin arxasınca dükanların qabağından keçirdilər. Hər dükan qarşısında bir an dayanırdılar. Səslərini çıxarmadan gözləyirdilər, sədəqə verilmirdisə ötüb keçirdilər.



Və indi usta Mehranın dəmirçixanası qapısında bir-birinin dalınca iki dustaq dayanmışdı və sədəqə verən olmadığı üçün səslərini çıxar-

ağzında dayanıb bir an gözləmişdi, keçib getmək istərkən birdən ayaq saxlamışdı və gözləri Babəkə zillənib qalmışdı. Sonra sağ əlini gözlərinə çəkmişdi və gözlərini döymüşdü. Bu vaxt pərdə arxasından çıxan usta gəlmişdi və təəccüblə keçib getməyən dustağa baxmışdı, amma dustaq ustaya baxmamışdı və baxışlarıyla ustadan sədəqə istəməmişdi, fikri Babəkdə idi və Babəkdən gözlərini çəkmirdi. Və usta Babəkə demişdi:

– Nə fikrə getmisən, oğlan, bu gün cümə axşamıdır və bu gün bu binəvalardan heç olmasa birinə sədəqə vermək savabdır. Əgər xırdan varsa, bir şey qoy ovcuna, çıxıb getsin. Çünki məndə on xırda pul bir danaqdır. Babək mürgü

Görürəm, danış!

– Bu barədə sonra.

– İndi sənə görə ilişib qalmışam burada. Əmanətlərin gəlib çatıb, dirhəmin adı penhedir. Təsbehin məndədir.

– İndi ki, mənə görə qalmısan burda, bir həftə də gözlə, ya qaçacağıq, ya məhv olacayıq. On gündür lağım qazarıq. Elə ki, bazara xəbər yayıldı: " zindandan qaçan var" gecə yarıdan sonra şəhər qırağındakı yəhudi qızının sərdabəsinə gələrsən, o yerə ki, yəhudilərin ziyarətgahıdır. Və o sərdabədə – qoca bir çıraqçı var. Nə lazımdırsa o sənə deyəcək...

Bu vaxt mizraklı[1] mühafizələrdən biri Tərxana doğru yönəldi. Və Tərxan mühafizə baxıb Babəkə dedi:

– Getmə, o pulu yerdən götür və yaxamdan sal içəri.

Babək yerə düşmüş danaqı götürdü və Tərxanın açıq yaxasından köynəyinin içinə saldı. Mühafiz isə Tərxanın başının üstünü aldı:

– Sizi bura dilənməyə gətirmişik, hər yetənlə mırt vurmağa gətirməmişik!

Tərxan çənəsilə yaxasına işarə elədi və dedi:

– Peşkəşdir.

Və mühafiz elə sürətlə əlini Tərxanın yaxasından içəri salıb danaqı çıxartmışdı, yenə elə bir sürətlə yarım boğaz papucının quncuna yerləşdirmişdi ki, ən leylaç bir xozpuş bu məharətə qibtə edə bilərdi.

Sonra Tərxan demişdi:

– *Burda yurddaşıma rast gəlmişəm, aman ver xoş-beş eləyim.*

Və eyni zamanda Tərxan elə bir sərt ifadə ilə mühafizin gözlərinin *içinə baxdı ki, mühafiz üşürgələndi və dedi:*

– Yaxşı, yaxşı amma kütah[2] Tez danış qurtar.

Mühafizə dönüb gedən kimi Tərxan dedi:

– Olan olmazın elə bu idi?

Babək cibində nə vardısa hamısını çıxartdı.

Tərxan diqqətlə Babəkin ovcundakı altı dirhəmə baxaraq çənəsilə sağ tərəfə işarə elədi.

O dörd nəfər dustaq ki, kor kimi ağır-ağır addımlayırlar və heç bir dükan qarşısında dayanmırlar, onların hərəsinə bir dirhəm sədəqə ver. Nə qalır özündə, iki dirhəm?

---

[1] Dəyənəkli

[2] Tez elə.



Bu da olmasa eybi yoxdur, – dedi Babək, – kimdir onlar?

– Dörd məşhur quldurbaşıdır. Səraxs hamamında xəlifə Məmunun vəzirini qətl ediblər və yəqin ki, əhvalatdan xəbərin var.

Babək dönüb baxdı, dörd nəfər quldurbaşının üzləri niqab altında idi. – Keçə papaqlarının altından sallanan qara məndillər üzlərini örtmüşdü.

– Nə üçün üzlərini niqab altında gizlədiblər? – dedi Babək.

Tərxan qımışdı:

– Zindan rəisinin işidir və kim onlara sədəqə verərsə məndilini qaldırıb üzlərinə baxa bilər və baxmaq istəyən də az olmur. Çünki xəlifə Məmun şəhərə varid olanda çox güman ki, dördü də şəhər meydanında edam olunacaqdır. Yaxşı, mən getdim. Qulağın səsdə olsun. Yəhudi qəbrinin sərdabəsi, qoca Çıraqçı Tərxan dönüb getmişdi. Babək isə kor kimi bir ayaq-bir ayaq bir-birinin dalınca gələn üzləri niqablı dustaqlara tərəf yönəlmişdi. Quldurları iki nəfər mizraqlı mühafiz müşayiət edirdi. Babək əlini qabaqdakı quldurun çiyninə qoymuşdu. Birinci Qalib əl Əsəd dayanmışdı və Babək Qalibin ovcuna bir dirhəm atmışdı. Sonra keçib ikinci quldura doğru gedərkən Qalib ovcundakı pulun bir dirhəm olduğunu müəyyən eləmişdi.

– Dayan, ey Allah bəndəsi, kimsən mənə bu qədər sədəqə verdin, amma sir-sifətimə tamaşa eləmək istəmirsən?

– Tərxanın dostuyam və yerlisiyəm, – demişdi Babək.

– Onda məndili qaldır üzümdən, biz zindanda Tərxanla çörək kəsmişik. Əgər bizim üzümüzü görmək istəyirsənsə, biz sənin Tərxanın dostuyuq, sənin üzünü görmək istəyirik.

Babək naəlac durmuşdu. Qalib əl Əsədin üzündəki məndili qaldır*mışdı və Qalibin zəhmli qaramat baxışları bir an Babəkin gözlərinə* zilləmişdi. Mizraqlı mühafizlərdən biri irəli gəlmişdi:

– Kifayətdir, oğlan – demişdi ört üzünü, məgər birinci dəfədirmi quldur görürsən?

– Yox, sığnaq meşə adamlarını çox görmüşəm – demişdi Babək və Qalibin üzünü örtən məndili aşağı salmışdı, sonra keçmişdi arxadan üç quldurun da hərəsinə bir dirhəm vermişdi.

Bu zaman birdən bazarda hay-küy və çaxnaşma başlanmışdı.

Qarşıdan dəmirçilər cərgəsi arasıyla bir dəstə atlı gəlirdi və atlıların önündə addımlayan iki nəfər izdihamı yarmaq üçün əllərindəki kamanlardan adamların başına ox əvəzinə fındıq atırdılar və baş gözünü bu xırdaca "daşlardan " qorumaq istəyən izdiham dərhal yarılır, divarlara qısılır, dükanlara dürtülür və atlılara yol açırdı.

Atlı dəstəsinin önündə gələn yaşıl çalmalı, şişman göbəkli adam Həmədan valisi idi ki, mühafizlər dörd quldurbaşını validən qırağa itələyəndə vali əlini qaldırmışdı və dərhal arxasındakı atlıların hər ikisi – tez sıçrayıb dörd quldurbaşının üzlərindəki qara məndilləri qoparıb atmışdılar. Vali isə üzünü quldurlara tərəf tutub demişdi:

– Arxamca gəlin, sabah xəlifənin hüzuruna çıxacaqsınız və buna binaən lazımdır ki, bu gün diləndiyinizdən hərəniz bir əba alacaqsınız. O meymun qıllı əndamınızın üstünü örtəcəksiniz!

Və dörd quldurbaşının gözləri par-par parıldamışdı. Cummuşdular bir-birinin üstünə və qollarındakı zəncirlərin imkan verdiyi qədər bir-birini sinələrinə basmışdılar. İndi ki, ikinci dəfə xəlifənin hüzuruna çıxacaqlar, deməli ən azı boyunlarını cəllad əlindən qurtaracaqdılar. Axı xəlifənin əmrilə o şəxsin əynindəki libası çıxarmışdılar. Axı xəlifənin əmrilə o şəxsə ölüm libası geyindirmişdilər.

Silahlı mühafizlər isə dörd quldurbaşını valinin atı arxasınca qovub aparmışdılar.

Və yalnız bundan sonra nəfəsini dərmiş usta Babəkin qolundan tutub içəri çəkmişdi və demişdi:

– Başa sal məni oğlan, bağrına basdığın o hökumət dustağının əlindən nə xəta çıxıb ki, zindana düşüb?

– Soruşa bilmədim. Özü də bir söz deməyə macal tapmadı.

– Əlbəttə, macal tapa bilməzdi. Bir haldakı vacib sözü varmış.

– Qulaq as usta, başıma nə gəldiyi barədə o gün sənə demişdim, bundan sonra nə gələcəyi barədə heç bir söz deyə bilmərəm.

– O gün nə demişdinsə bir kişiyə demişdin oğlan və bu gün də bizim başımızdakı arvad ləçəyi deyil. Amma əlbəttə ki, üç cür kişi var: bütün kişi, yarımçıq naqis kişi və kişi olmayan kişi...

Babək ustanın gözlərinin içinə baxmışdı və demişdi:

– Və indi mənim səndən tək bir xahişim var usta, vəsiyyət yüngüllükdür. Əgər işdi, şayəd başıma bir qəza gələrsə ata ol o uşağa ki, başsız qalmasın.

– İndi ki, savab iş üçün mənə ağız açırsan, xob, elə billəm ki, dörd oğlum var... Amma o uşaq müsəlman balası deyilsə, gərək əvvəlcə sünnət olunsun!

Mən onu zalim əlindən alanda bilmədim müsəlmandır o uşağın atası yaxud xristiandır və yainki atəşpərəstdir. Və yenə də bilmərəm.



– Amma mən bilirəm ki, dini ayrılıq çox vaxt bir ana qarnından çıxan iki qardaşı bir-birindən ayrı salır. Mənim bədbəxt qardaşım getdi batinlərə qoşuldu və on il bir-birimizə rast gələndə bir-birimizdən üz çevirdik, sonra doqquz il əvvəl orda "Bab əl-Əsəd" qapısında şəhərdə qiyam qaldırmış batinlər qılıncdan keçirildi... İndi hər cümə axşamı gedirəm, qəbrini ziyarət edib ağlayıram.

Və usta qara köynəyinin qolu ilə gözlərini silmişdi.

## 4

Axşam bazar bağlanmışdı. Babək ilə Barsis karvansaraya gəlmişdilər və bu dəfə Barsis baş aşağı yuxarı qalxmışdı. Dönüb aşağıda dövrələmə eyvan altındakı atların, qatırların yanında zəncirləri divara bənd edilmiş dustaqların üzünə baxa bilməmişdi. Babək isə qeyri-ixtiyari olaraq dönüb baxmışdı və dustaqların Barsisə zillənmiş baxışlarını görərkən qaşları çatılmışdı – yox bu gecə sayıq yatacaqdı və yuxuda belə gözü Barsisin üstündə olacaqdı.

Və bu günlər taxt-tac ətəyinin adamlarından bir çoxları artıq Bağdad xəlifəsinin iqbalından naümid olaraq, Hecan şəhərindən üz çevirib, xəlifə Məmunu istiqbal etmək üçün Həmədana doğru gəlirdilərsə, digər tərəflərdən pay-piyadə olaraq Həmədana doğru axıb gələn baldırı çılpaqlar küyə düşmüşdülər ki, xəlifə Məmun uzun yolundakı bu və ya digər bir şəhərə varid olanda və şəhərləri tərk edəyəndə küçələrdəki izdihamın başına yağış kimi dirhəm yağdırır.

Buna görə idi ki, bu gün moltanılar karvansarasının nəinki bütün hücrələri bir-birinə yad adamlarla dolmuşdu, hətta karvansaranın dörd bucaq böyük həyətinə tıxanmış bir izdiham açıq havada gecələmək üçün divar diblərində məskən salmışdı.

...İndi onların da hücrələrində iki nəfər yeni müsafir vardı ki, o müsafirlərdən biri üzü divara sarı döşəmə üstündə uzanmışdı, sağ qolunu başı altında yastıq eləmişdi, başında rəngi solmuş yaşıl bir çalması, əynində nimdaş bir əbası vardı. Və bu adamın başı yanında bardaş qurub oturmuş sarışın bir gənc şam işığında dizləri üstündə bir yığın qara atlas tikə-paralarını qara saplı bir iynəylə bir-birinə bənd eləyirdi.

Babək içəri girəndə dərzilik eləyən oğlan başını qaldırmışdı, sonra ayağa qalxmışdı və hər ikisi sağ əllərini sinələrinə basaraq başlarının hərəkəti ilə bir-birini salamlamışdılar.

Sonra Babək hücrədə, öz guşəsində çit yaylığını həsir qırağı üstündə sərmişdi, axşam süfrəsi açmışdı və bu süfrə üstünə iki səngək, bir cürdək ayran qoymuşdu, amma dönüb baxanda Barsisin artıq yerə döşəndiyini görərkən Barsisin qarasına başını bulamışdı. Və üzünü hücrədəki qonağına tərəf tutaraq demişdi:

– Xahiş eləyirəm, yaxın otur və bir tikə çörək kəs mənimlə. Yeni müsafir yenə başını qaldırmışdı və minnətdar bir təbəssümlə gülümsəmişdi və əlbəttə ki, bununla kifayətlənə bilərdi bir-birinə amma hardasa bir-birinə rast gələn iki nəfər – yad adam bir dam altında gecələyəcəkdilərsə, hər hankısının bir süfrə başında çörək kəsməkdən boyun qaçırması nəinki bir nəzakətsizliyə bərabərdi, hətta bir-birindən şübhələnmələri üçün kifayət idi.

Və yeni müsafir demişdi:

– Amma bil ki, süfrənə çağırdığın xaçpərəst bir quldurdur, burda yatan bu şəxs isə müsəlmandır və mənim ağamdır.

– Mən də vəzir yaxud vəkil oğul deyiləm, – demişdi Babək, – dünənə kimi karvançı idim və burda yatan bu uşaq yolda mənə qoşulmuş bir kimsəsizdir.

Eyni yaşda idilər və qısaca olaraq özlərini bir-birinə təqdim etmələri və bir-birinin adlarını bilmələri hər ikisi üçün aralarında sadəcə ünsiyyətin başlanğıcı üçün kifayət eləmişdi. Sonra hər ikisi süfrədəki çörəkdən bir tikə kəsmişdilər. Tikələrini duza batırıb yemişdilər, növbə ilə cürdəkdəki ayrandan bir neçə qurtum içmişdilər. Bu isə o deməkdi ki, gecəni bir-birindən arxayın yata bilərdilər, çünki bir süfrə başında kəsdiyi çörəyi heç kəs, hətta ürəyində xain bir niyyəti olan bir kəs belə tapdamağa cəsarət edə bilməzdi, çünki zəmanənin çox ölümlü, çox təhlükəli bir zəmanə olduğuna baxmayaraq, bütün dünya xalqları üçün hələ elə müqəddəs adət və ənənələr vardı ki, bir-birini inkar edən dinlər və məzhəblər belə o adət və ənənələrin qüdrətini sarsıtmağa qadir deyildi.

Yeni müsafirin adı Vadila, milliyəti rum idi və o vaxt ki, Vadila süfrə başından qalxıb öz yerinə getmək istəmişdi birdən gözləri Barsisə sataşmışdı və ehtiyatla Barsisin əynindən köynəyi çıxartmışdı, aparmışdı, bucaqdakı çantasından çıxardığı cın-cındırdan o köynəyə üç yerdən yamaq vurmuşdu. Sonra qayıtmışdı, köynəyi yenə Barsisin əyninə geyindirmişdi, üstəlik Barsisin şalvarının dizlərini də gözəmişdi və bütün bu müddətdə Barsisdə oyanacaq hal olmamışdısa, Babək minnətdarlıq



hissilə Vadilanın bütün hərəkətlərini izləmişdi və birdən yaddaşının hansı guşəsindəsə alışan ağ bir işıqda özünü Barsis yaşında görmüşdü. O vaxt ki kiçik yaşlı bir dağ çobanı idi. Və kəndlərində kəndxuda ibn Boyanın qoyun-quzusunu otarırdı. İbn Boyanın isə qullarından biri çox qoca idi və qoca qul ona tənbur çalmağı öyrətmişdi. O qocanın o tənburdan savayı heç bir şeyi yoxdu. Öləndə o biri qullara vəsiyyət eləmişdi ki, tənburu o uşağa verərsiniz, o da gəlsin cümə axşamları qəbrin üstündə "Ramiş can" havasını çalsın! Amma o qoca qulun qəbri üstündə "Ramiş can "çala bilməmişdi – çünki o tənburu divardan asıb kənddən çıxandan sonra bir daha doğma kəndlərinə qayıtmaq ona nəsib olmamışdı.

Və indi Vadila yenə ağasının baş yanında bardaş qurub oturmuşdu və yenə dizi üstünə yığdığı qara atlasdan ibarət bir yığın tikə – paraları bir-birinə gözəməyə başlamışdı və Babəkin sualedici baxışlarına cavab olaraq demişdi:

– Müqəddəsdir bu cın-cındırlar, ey Babək və hər bir tikə təkcə mənim ağam üçün yox, bütün şiələr üçün bir təkəbbürdür, çünki bunlar şahən şühəda[1].

İmam Rzanın öz çiynindən çıxardıb mənim ağamın çiyninə saldığı bir əbadan salamat qalmış tikə paralarıdır.

Babək diqqət kəsilmişdi. Xəbəri vardı, xilafətdə bütün şiələr böyük yas içindəydilər. Çünki xəlifə Məmun İmam Rzanı özünə vəliəhd təyin edərkən, şiələr nəhayət tanrıdan arzulanan səadət əyyamının gəlib çatdığına və Məmundan sonra şiə imamlarının nəsilbənəsil islam dünyasının əmirəlmöminləri olacaqlarına nə qədər böyük bir ümid bəsləmişdilərsə, sonda imam Rza xəlifə Məmunun qafiləsində Bağdada doğru gedərkən Tus şəhərində süfrəsinə qoyulan zəhərli üzümdən çox yeyib şəhid olarkən bir o qədər dərin bir yasa batmışdılar və bütün ümidləri yenə puça çıxmışdı.

İmam Rza isə şiələrin imamət göylərində səkkizinci ulduz idi.

Çünki daha əvvəl imam Rzanın bütün əcdadı, yəni birincini əvəz edən yeddi əvvəlki imamlar da bir-birinin ardınca əmin və Abbası xəlifələri tərəfindən məhv edilmişdi.

(Və daha sonralar imam Rzanın nəslindən üç imam da eyni aqibətə düçar olacaqdı, yalnız on ikinci imam canını qurtarmaq üçün bir gecə qaçıb qeyb olacaqdı və sonra min il keçəcəkdi, amma şiələr yenə də imam

[1] Şəhidlər şahı

axirəl-zaman adlandırdıqları on ikinci imamın bir gün yenidən zühur edəcəyini və qaranlıq dünyaya işıq gətirəcəyini gözləyəcəkdilər.)

Sonra Vadila başını qaldırmışdı və əlavə eləmişdi:

– Və əgər bilmək istəsən ki, İmamın ağama bəxş elədiyi o müqəddəs əbadan nə üçün indi əlimizdə ancaq bu tikə-para qalıb, onda gərək mən ağamın hekayəsinə başlayım və mənim ağam ki, bir vücuddur, hekayəsinə başlasam, sən əlbəttə ki, məəttəl qalacaqsan!

Babək gülümsəmişdi:

– Ey Vadila demişdi, – nə lazım bilsən və nə danışsan qulaq asmağa hazıram.

Vadila da dizi üstündə gözələdiyi tikə-paralar kimi indi də ağasının sərgüzəştini qəlpə-qəlpə bənd eləyərkən, ən əvvəlcə özündən başlamışdı. Vaxtilə Vadila Misirdəki " Əklil İsa" monastırında təhsil alan çox gənc bir rahib imiş və bir gün cümə məscidindən bir fitnəkarın o məscidə atdığı bir qaban başı tapılmışdı və bundan qəzəblənən möminlər gəlmişdilər, monastırı dağıtmışdılar və bütün rahibləri aparıb qul bazarında satmışdılar. Ağası isə bu vaxt Bağdaddan Misirə varid olmuşdu. Çünki Asuan vilayətinə vali təyin olunmuşdu və qul bazarından keçərkən Vadilanı iki yüz dirhəmə satın alıb özüylə bərabər Asuan vilayətinə aparmışdı. O vilayətə ki, ordan o tərəfdə qum səhrası başlanırdı. Vadila dərindən köksünü ötürmüşdü və davam eləmişdi:

– Ağamın Misir məmləkətində keçirdiyi günlər ömrünün ən xoşbəxt *günləri idi. Ağamın hər yeni qəzəlini əzbər bilirdim. Bütün xristian* bayramlarında xristian rahibliyinin beşiyi olan o cümə məscidində, bütün monastırlarda həftələrlə qonaq və məni özüylə bərabər aparırdı, çünki o vaxtadək mən imamın etibarlı xəzinədarı idim. Dinar, qızıl peşkəşi mənə etibar edərdi. Şərab süfrəsinin saqisi mən idim, hər gün səhər onun üçün xüsusi şərab süfrəsi açırdım.

Amma ağasının birdən bəxt ulduzu sönmüşdü və günah özündə olmuşdu. Misirdən qaçmışdı və İraqa gəlmişdi, burda diyarbadiyar gəzmişdi və nəhayət gəlib Bağdad əyanlarına pənah gətirmişdi və əgər Bağdad əyanlarının xəlvətgahı olmasaydı, Harunəlrəşidin saray cəlladı Məsrur çoxdan ağasının ya dilini kəsib boynu arxasından çıxarmışdı, yaxud boynunu vurub başını Xəlifənin ayaqları altına atmışdı... Və bütün bu illər ərzində Vadila əlinə aldığı bu iynə ilə özünə və ağasına bir qarın çörək pulu qazanmaq üçün bu və ya digər bir şəhərdə dərzilər çörək pulu qazanmaq üçün bu və ya digər bir şəhərdə dərzilər yanında



şagirdliyə başlamışdı. Çünki hansı şəhərə gəlmişlərsə xristian dərzilər ağası müsəlman olan xaçpərəst bir qulun halına yanıb onu yanlarında işə götürmüşdülər. O isə günəmuzd qazandığı bir yaxud iki dirhəmi hər axşam gətirib ağasına vermişdi...

Babək davam gətirməmişdi və demişdi:

– Qəribədir vallah, qul öz ağası üçün bir qarın çörək pulu qazanır.

Vadila qımışdı:

– Çünki hər bir qulun öz ağasına hissə-hissə verməklə özünü ağasından satın almağa ixtiyari var və mən də misqal-misqal özümü ağamdan satın almağa başlamışam. Və o vaxt ki, 200 dirhəmi ağama verib qurtardım, köləlik boyunduruğundan azad olacağam.

Babək heyrətlə gözlərini döymüşdü. Üzü divara sarı uzanmış bu adam vaxtilə Misirdə böyük bir vilayətin valisi olmuşdur, elə isə səbəb nə idi ki, sonralar qaçmışdı, xarabələrdə məskən salmışdı və əyyarlara qoşulmuşdu.

– Çünki ağam heç vaxt dilini dinc qoymamışdır ey Babək və dilini ona görə dinc qoymamışdı ki, anadan olanda canında şairlik gicişməsi varmış.

Hər dəfə ağamın qələmindən çıxan həcvlərdə o qədər zəhər olur ki, cəhənnəmdə, onun hücrələrində bu qədər zəhər yoxdur. Və buna görə vaxtilə Harun ər-rəşid ağamın ona yazdığı həcvdən xəbər tutanda zəncir çeynəmişdi. Gecə və gündüz məst xumar olan xəlifə Əmin ağamın ona göndərdiyi həcvi oxuyub üç gün üç gecə yasa batmışdı. Daha sonra indi özünü Bağdadda xəlifə elan eləmiş İbrahim ibn Mehdi ağanın onu rüsvay edən həcvini oxuyanda qara cübbəsinin yaxasını yırtmışdı və saqqalını göz yaşıyla suvarmışdı.

– Elə, – isə Babək demişdi, – nə əcəb sənin ağanın başı hələ də çiyni üstündə salamat qalmışdır?

– Bu barədə ağam özü dedi ki, mən dar ağacımı öz çiynimdə gəzdirirəm, amma hələ də məni asan yoxdur.

– İndi ki, sənin ağan zalimləri həcv edir, onları sevmir...

– Tələsmə, – dedi, – Vadila mənim ağam məzlumları da sevmir və həmişə kimi sancmaq mərəzinə o qədər mübtəladır ki, bir dəfə yazmağa başlayıb, bir həcv üçün hədəf axtararkən qafiyələndirmək üçün bir ad tapmamışdı, ayağa qalxmışdı, ləngimişdi, aynaya baxmışdı və gəlib oturmuşdu: – Bu gün dili yenə çox gicikmişdi və zəhərli sözlə ox atdığı o həcvi belə qurtarmışdı: – O hədəfi tapmamışdım, qalxmışdım,

aynada özümə baxmışdım. O ayna ki, onu mənə göstərmişdi "qoy lənətə gəlsin bu sür-süfət", – demişdi, – "və min dəfə daha artıq lənətə gəlsin o şəxs ki, tanrı ona bu cür sür-süfət bəxş eləmişdir."

Babək qeyri-ixtiyari gülmüşdü və Vadilanın ağasına tərəf baxaraq demişdi:

– Ey Vadila nə əcəb heç ehtiyat eləmirsən ki, ağan bütün bu dediklərini eşidib oyanar.

Vadila qımışmışdı:

– Ey Babək, əvvələ, mənim bədbəxt ağamın qamçı almağa belə dirhəmi yoxdur və kim axı öz çörək ağacına balta çalar: Və bu da düzdür ki, mənim ağam zəhər tuluğudur və əqrəb kimi neştərini hara isə sancmasa canı rahat olmur, amma yenə də mən onu zəmanəmizin qabyalayan və sahib mənsəblər qarşısında özlərini əyən bütün digər şairlərdən üstün tuturam... Və nə isə gələk yenə mətləb üstünə. Yəni o məqama ki, xəlifə Məmunun İmam Rzanı özünə vəliəhd təyin etdiyi xəbəri hər tərəfə yayılmışdı və ağam məni yanına alıb pay-piyada Mərvə doğru hərəkət eləmişdi. Bu vaxt Məmunun qafiləsi də Tus şəhərinə varid olmuşdu. Ağam o şəhərdə səkkizinci İmamın hüzuruna çıxmışdı və o müqəddəsin mübarək üzünü gördüyü üçün sevincindən dili söz tutmamışdı və dəsmal çəkib zar-zar ağlamışdı. İmam isə riqqətə gəlmişdi və öz əbasını çiynindən çıxardıb ağamın çiyninə salmışdı və ağam belə bir şərəfə nail olduğu üçün yerə-göyə sığmamışdı. Amma deyir: sən saydığını say, gör fələk nə sayır. Çünki iki gündən sonra İmam Rza qəfildən şəhid olarkən ağam qəşş eləmişdi və bir gün, bir neçə gecə özünə gəlməmişdi, üç gün sonra isə ağam İmamın qəbrini ziyarət eləmişdi, qucaqlamışdı o müqəddəs qəbri və qara torpağını göz yaşıyla suvarmışdı. Sonra üç dəfə o qəbrin baş daşını öpüb ayağa qalxmışdı və elə o gün qamış qələmin mürəkkəbə yox, ilan zəhərinə batırmışdı və xəlifə Məmunə elə bir həcv yazmışdı ki, əgər o gecə Tusdan qaçıb yola düşməsəydi, çox güman ki, Məmun o həcvdən xəbər tutanda xəlifənin o iki nəfər saray cəlladı ki, biri çox qoca, digəri çox cavandır, növbə ilə ağamın şaqqalayacaqdılar. Yox, hələ nəfəsini dərmə, ey Babək, axı elə o gecə yağışdan çıxıb yağmura düşdük. Çünki Qum şəhərindən Tusa gələn şiələr ağamın qaçdığından və özüylə bərabər müqəddəs əbanı apardığından xəbər tutub gecəykən yolumuzu kəsmişdilər. Və ağama bir qatır yükü, yəni 30 min dirhəm təklif eləyərək imamın müqəddəs libasını satın almaq istəmişdilər. Amma ağam dirənmişdi. Mənim



qazandığım bir dirhəmə, hətta 5-6 fəsə möhtac olan ağam, bir qatır yükü dirhəmə tamah salmamışdı. Və sonra gecə qaranlığında o müqəddəs əba uğrunda elə bir dartışdırma, elə bir süpürləşmə başlamışdı ki, neçə nəfərin uzun saqqalı ağamın əlinə keçmişdi. Və ağamın öz saqqalı neçə nəfərin əlinə keçmişdi və mən saqqalsız olduğum üçün öz tanrıma şükür eləmişdim və son nəhayətdə ağamın və mənim əlimdə gördüyün bu yekə paralardan savayı heç bir şey qalmamışdı...

Vadila nəhayət nəfəsini dərmişdi, birinci şam ərimişdi, ikinci şamı yandırmışdı və yenə başını dizi üstünə əymişdi, iynəsini işə salmışdı. Babək isə başını divara söykəmişdi, azacıq gözləri qapanmışdı. Yollar oğlu idi, çox şey görmüşdü, çox şey eşitmişdi. Xilafətdə bütün varlıların, istər müsəlmanların, istər xristianların və istərsə də yəhudilərin satın alınmış qulları vardı. Və bir qayda olaraq qara qullar qapı qulları kimi, qapı-bacaya nəzarət edirdilər, ağ qullar isə rumlardan, saklablardan və türkdilli nəmuzlardan ibarətdi ki, süfrə başında saqilikdən başlamış, silahlı silahlı mühafizlərə kimi ağalarına xidmət göstərən qulam vəzifəsini icra edirdilər. Əgər orta hesabla bir qulun qiyməti 200 dirhəm idisə, Bağdadın məşhur Əlrəqib adlanan qullar tərbiyəxanasında təhsil alan sənətkar qullar içindəki nəğməçi çalğıçı qadın və kişi qullar od bahasına satılırdı.

Xəlifənin qulları içərisində elələri vardı ki, xəlifələr onların bəzilərinə nəinki azadlıq verirdilər bu qulları hətta böyük bir məmləkətə hakim təyin edirdilər və dünənki bir qul azad adamlara hökm edən bir hökmdar rütbəsinə qədər ucalırdı. Necə ki, vaxtilə xəlifə Mənsur sarayındakı türkdilli bir qulu Misir məmləkətinin hakimi-mütləqi təyin eləmişdi və o qulun ağası onu yola salarkən demişdi: o elə bir şəxsiyyətdir ki, başı üstündəki Allahdan belə qorxmur, amma yenə təkcə bir bəndədən, Allah-təalanın qulu olan məndən qorxur.

İndi Babək ilk dəfə idi ki, belə əcaib bir ağa ilə, belə əcaib bir qula rast gəlmişdi, qul dərzilər yanında şagirdlik eləyib ağasını dolandırır, ağa isə zalimlərə və xəlifələrə həcv yazırmış, amma məzlumlara da üstdən aşağı, xor baxırmış və nəhayət öz-özünə də həcv yazarmış. İlan kimi qıvrılıb özü öz quyruğunu çalırmış. Və bu vaxt Vadilanın ağası birdən səksənərək oyanmışdı. Qalxmışdı, oturmuşdu, sonra Vadilanın dizi üstündəki qara atlas tikə-paradan gətirmişdi, öpüb gözləri üstə qoymuşdu və sonra demişdi:

– Bu saat röyamda Şəhrəvanı gördüm, cənnətməkan müqəddəs əlini göydən yerə uzadıb öz payını istədi... və mən yerə döşəndim, dedim:

ey Şəmşiri – Zülfüqarın sahibi, sənin nəslinin iftixarı olan səkkizinci imam öz müqəddəs əbasını mənə bəxş eləmişdir. Allah-təala necə, mənim günahlarımı mənə bağışlayacaqmı? Dedi: ey didar, heç vaxt naümid olma, çünki bir gün bir qarışqanı qurtardığım üçün rəbbim mənim bütün günahlarımdan keçdi.

– İndi Vadila başını daha artıq aşağı, dizləri üstə endirmişdi və dodaqlarını bərk-bərk bir-birinə sıxmışdı. Bilmək olmurdu ki, ağasının röyasından riqqətə gəlmişdi, ağlamaq istəyirdi, yoxsa yoxsa gülməmək üçün bütün qüvvəsini səfərbər eləmişdi.

Vadilanın ağasının top qara saqqalına dən düşmüşdü. Dəyirmi gözləri bayquş gözləri kimi qırpımsız baxırdı və birdən o hücrədə Babəkin kövrək baxışlarında bir an nə isə yırtıcı bir parıltı alışıb sönmüşdü. Sonra yaşarmış gözlərini əlinin təri ilə silmişdi və demişdi:

– Kimdir o? Bu gecə bəlkə məni öldürməyə göndəriblər onu bura?

– Yat Seid dünya, yat, mən oyağam və o da bizim kimi bir qovğundur. Həmədana gələn bir karvanda karvançı imiş və karvan sahibi tərəfindən o karvandan qovulmuşdur. Bir az əvvəl biz onunla duz-çörək kəsmişik. Sən yat, çünki hələ gecədir, səhər açılmayıb və karvan sahibi süfrəsinin vaxtına hələ çox var.

– Amma dedinmi ona barı, mən kiməm, sən kimsən?

– Demişəm, Seid dünya, demişəm ki, sən ağamsan, mən sənin qulunam!

– Qoy onu da bilsin ki, sən elə bir qulsan ki, mənə oğuldan əzizsən və bu barədə o Əcəm şairi çox gözəl demişdir: elə qul var ki, yüz oğuldan qiymətlidir. Çünki sədaqətli bir qul həmişə dua eləyir ki, ağasının ömrü uzansın, amma oğulların hamısı ürəklərində ataların ölümünü arzulayırlar...

Sonra Vadilanın ağası üzünü Babəkə tərəf çevirib demişdi:

– Sən necə ey vəlid, heç atanın ölümünü arzularsanmı?

Gözlənilməz bir sual qarşısında Babək bir an susmuşdu, amma Vadilanın ağası əl çəkməmişdi və demişdi:

– Aydındır nə üçün susursan və əlbəttə ki, oğul atasının ölümünü arzularkən çox vaxt bundan özünün xəbəri olmur, çünki biz həmişə özümüzdən bixəbərik və həmişə özümüz üçün özgələrik.

Babək çiynini çəkmişdi, sonra dodaqlarında oynayan həqarətli bir təbəssümlə demişdi:

– Yox ərbab, mən atamın ölümünü arzulamağa macal tapmadım, çünki mən anadan olanda atamı öldürmüşdülər.



– Elə isə sənin o tifilin bir gün sənin ölümünü arzulayacaq.

– Bu tifil də yolda mənə qoşulmuş bir kimsəsizdir.

– Müsəlman balasıdır, yoxsa xaçpərəstdir?

– Fərqi yoxdur, kimdirsə indi mənim üçün kiçik bir qardaşdır.

– Bu cavan yaşında çox təmkinlisən, fəqət bir söz demək istəmirsən.

– Təbrizdə mənə atalıq eləyən bir şəxs var, Qaraca Küzəgərdir adı. Səfərə çıxarkən onun kəlamını unutmuram.

– Nədir o şəxsin kəlamı?

– Şeyxlər məclisində özünü gözlə, alimlər məclisində sözünüzü gözlə, əmirlər məclisində gözünü gözlə.

Vadilanın ağasının gözləri parıldadı.

– Qulaq as, ey vəlid, məni tanıyanlar bilirlər ki, mən kiməm. – Tanımayanlara ləqəbimin də nə olduğunu söyləmişəm və mən ki, söz sərrafıyam və həmişə kəsərli söz sorağındayam, başıma and olsun ki, küzəgər çox gözəl demişdir; Və əgər mən o sözlərin oğlu olsaydım, fəxr edərdim.

" Mən bu sözlərin oğluyam" – mən bu sözlərlə, bu misralarla məşhur olmuşam demək idi. Vadila isə başını tikişdən qaldırmış və ağasını təskin eləmişdi:

– Məyus olma Seid dünya, sən də bu sözlərin oğlusan ki, "hanı mənim gəncliyim, harda qaldı, yoruldumu yollarda yoxsa məhv oldu? Və heyrət eləmə o şəxsə ki, ağaran saçları başında gülərkən, ağlayan gözləri acı göz yaşlarıyla doludur."

– Haqlısan ey Vadila, mənim şerimin şöhrəti bu misraların qanadına ucaldı və mən dərhal dilənçiliyə başladım, yəni vəzifəli və qüdrətli şəxslərə mədhiyyələr yazdım, amma yazdığım hər mədhiyyədən sonra öz ürəyim bulandı. Və indi əlli il var ki, mənim hər beytim səhranın susuz ilanı kimi düşmənlərimi sancır, fəqət yenə də insanlara qarşı ürəyimdəki kin tükənmir.

Bu dəfə Vadila başını tikişdən qaldırmadan demişdi:

– Amma yenə insanlara qarşı ürəyində kin yoxdur. Peyğəmbərimiz buyurmuşdur ki: rəhm elə ki, sənə də rəhm eləsinlər.

– Elədir Vadila, – mən ki, rəhm etməmişəm, mənə rəhm etməyəcəklər və son nəhayətində mən öz əcəlimlə ölməyəcəyəm, ona görə vəsiyyətim budur ki, heç kəs mənim qisasımı heç kəsdən almasın. Və indi yeganə bir arzum odur ki, dizin üstündə yazmadığın o müqəddəs cıncındır mənim üçün kəfənimi əvəz eləsin, son libasım olsun və o vaxt

cənazəm arxasınca gələn bir nəfər tapılarsa o adam əlbəttə ki, sən olacaqsan...

– O barədə arxayın ola bilərsən Seid dünya, amma o vaxta qədər ki, mən özümü səndən satın alıb qurtaracam, sənə bu dünyada yas tutan yeganə adam bu iynəsi ilə özünü kölələkdən azad eləyən Vadila olacaq.

– Ay allah eşqinə sus, Vadila. Məgər sən özünü məndən satın alıb qurtaranda azad olacaqsanmı? Əksinə, ey kafir. Daha artıq sən öz nəfəsinin, öz şəhvətinin, öz yırtılmış qarnının qulu olacaqsan. Nə üçün axı bu qədər azadlığa can atırsan. Biz hamımız başımız üstündəki bir olan allahın qullarıyıq.

– Bu kiçik ümidi mənə çox görmə Seid dünya, mənim rəbbim Məsih buyurmuşdu ki, insan yalnız əppəklə yaşaya bilməz. Qoy heç olmasa özüm-özümü aldadım ki, qurtuluş günüm çox yaxındadır.

– Və əbəs yerə özünü aldadırsan Vadila, çünki o Həzrət ki, bu saat, röyada mənə görsənmişdi və o həzrətin ki, sözü zülfiqarından daha kəsərli idi, bir şerində buyurmuşdur ki, əgər son yaxında olan bir şeyə ümid bağlamısansa, unutma ki, hər saat, hər dəqiqə sənə hər bir şeydən yaxın olan ölümdür.

Sonra susmuşdu, başı sinəsinə düşmüşdü. Vadila isə artıq başını dizi üstündəki tikişdən qaldırmışdı. Və Babək oturduğu yerdə arxasını divara söykəyərək mürgüləməyə başlamışdı. Barsis yuxusunun dərinliyindən "Cunay" deyə yenə kimisə çağırmışdı və bu vaxt hər birinin əlində bir fanus olan və yaşıl çalmalı iki nəfər yarıqaranlıq hücrəyə girmişdilər. Salam vermişdilər, sonra qara çalmalı üzünü Vadilanın ağasına tərəf tutub birnəfəsə demişdi:

– Ya Rəbil, mən şair Əbu Tamamın ravisiyəm və sənə məlumdur ki, mənim ağam çoxdandır səyahətə başlamışdır, dünən isə gəlib Həmədana çıxmışdı. Və mənim ağam rəb səfərindən yeddinci məcmuəni tərtib edib qurtardığı üçün bu axşam şəhərin "Beytül ziyafət" evində şeir məclisi qurmuşdur və nəzm ilə yazdığı bu naməni o məclisdən sənə göndərmişdir.

– Toxta oğlan, xəbərimiz var. Sənin ağan xeyli zamandır Məmunun qafiləsinin arxasınca sürünür, amma xəlifə Məmun ki, özü şeir yazır, özünü ərəb şerinin bilicisi sayır, hələ də nə sənin ağanın mədhiyyəsinə qulaq asmışdır, nə də onun ətəyinə bir dilim peyda bir ovuc dirhəm atmışdır.



– Məgər mənim ağam xəlifəyə yeni mədhiyyə yazmışdır? Məgər mədhiyyə bütün şairlərin çörək ağacı deyilmi? Və ta qədimdən istər Məşriqdə, istərsə də Məqribdə mədhiyyə şairlərin əlində elə bir açar olub ki, valilərin xəzinələrini qarət etmək üçün quldurların qılıncları o açar qədər iş görə bilməmişdir.

Vadila başını qaldırmışdı və demişdi:

– Haqlısan oğlan. Qədim Roma şairlərindən Marişbal da əhsənli təriflər alverçisi idi və sənin ağan Əbu Tamam kimi əhsənli zənginlərdən sədəqə dilənməkdə tayı-bərabəri yoxdu...

– Ya Rəbil bu qulun cilovunu çək, həddini bilsin və özün ki, bu qədər əcaibsən, kifayətdir bizim üçün.

– Vadila yalnız mənim qulum deyil. Vadila mənim ravimdir. Lazım gələndə o mənim şerimi oxumuş və şeir məclislərində iştirak eləmişdir.

– Amma bir qulun ki, bahasına 200 dirhəm ola Əbu Tamamın ravisi onunla münazirə məclisi qurmağa tənəzzül etməz.

– İstəsə də bacarmayacaq, çünki mən özüm onunla bacarmıram.

– Əlinə qamçı alsaydın bacarardın.

– Sərvəri-kainat buyurmuşdu ki, nə əlinizlə, nə dilinizlə binəsib qullarınıza ziyan vurmayın...

– Hər halda ötkəm qulu satıb, müti qul almaq olardı.

– Vadila mənim üçün oğuldur və ata oğlunu sata bilməz.

– Atanın oğulluğa götürdüyü hər bir şəxs də atanın qanunu qulu ola bilməz.

– Məgər zəmanəsinin ən böyük şairi Əntərə öz atasının qanunu qulu deyildimi?

Ya Rəbil, səninlə mübahisə xörəyim deyil. Amma ağamın məclisindəki bütün şairlər sənin ağama nə cavab verəcəyinə müntəzirdir. Və oxu ağamın nəzm ilə sənə yazdığını, onda məsələ sənin üçün aydın olar.

Rəbil naməni almışdı. Vadilanın üstünə atmışdı və demişdi:

– Ey Vadila, oxu görək nə istəyir bizdən və gör orda hansı şairdən hansı təşbihləri çırpışdırmışdır? Və yainki, hansı misraları büsbütün oğurlamışdır?

– Mənim ağam heç kəsin yoxsul şeir süfrəsinə əl uzatmamışdır və bir bəlağət dahisi kimi ərəb şerini və ərəb dilini ən gözəl incilərlə süsləmişdir.

– Sən özün necə, oğlan, ərəb dilində çox qüvvətlisənmi?

– Əbu Tamamın ravisi kimi istər islamdan əvvəlki cahiliyə dövründən və istərsə işlamdan sonrakı ərəb şerindən 30 min beyti əzbər bilirəm. Və ərəb dilində nə qədər incə nöktəli söz varsa bütün mənaları ilə mənə məlumdur.

– Hətta mənim ləqəbimin mənası da?

Əbu Tamamın ravisi bir an duruxmuşdu və bu vaxta qədər susub durmuş yaşıl çalmalı oğlan demişdi:

– Ustad, icazə versəydin Rəbil sözünün birinci mənasını mən deyərdim.

– Və daha yaxşı olardı ki, daha əvvəl sən kim olduğunu bizə ərz eliyəsən.

– Ustad, mən səni özünə dost bilən şair Həsən ibn Atinin qulamıyam və mənim ağam bu saat Əbu Tamamın məclisində dara düşdüyü üçün sənin köməyinə möhtacdır. Və sən ki, bu gün ərəb şerinin karvanında qocaman bir dəvəsən, Rəbil sözünü ona görə özünə ləqəb götürmüsən ki, bu ləqəbin birinci mənası güclü-qüdrətli bir arvana deməkdir ki, o arvana yanındakının köməyi ilə yol gedir...

Əbu Tamamın ravisi dərhal etirazını bildirmişdi:

– Ya Rəbil mən ona görə susdum ki, həya elədim və Rəbil sözünün mənasını mənim ağamın nə cür izah elədiyini təkrar eləmək istəmədim.

– Nəql küfr-küfr deyil oğlan. Təkrar edə bilərsən.

– Mənim ağam sübut edir ki, Rəbil sözünün birinci mənası qurbağa yumurtasıdır və əgər başqa gizli bir varsa onu lisanbat elminin alimləri də bilmir.

– Elədir, – demişdi Rəbil, – və nə qədər ki, bir kəsin başına hava gəlməmişdir, yəni o kəs büsbütün dəli olmamışdır, Rəbil ləfzinin ən gizli mənası nədirsə, onu dərk edə bilməz.

Yaşıl çalmalı qulam səslənmişdi:

- Ustad, məgər o əcaib rəvayət həqiqətdirmi?

– Başıma gələn hər bir qəziyyə sonra çox tez rəvayətə çevrilir. Olqərəz, bir dəfə Kufə bazarında bir divanə elə həşir-qiyamət qopartmışdı ki gözləri hədəqəsindən çıxmış o bədbəxtə bir Allah bəndəsi yaxın düşə bilmirdi ki, o qara sevdalını sakit eləsin. Amma mən yaxın getdim və bilmirəm nə üçünsə ona Rabil dedim və elə ki, mən ona Rabil dedim, qara nər kimi qızmış o divanə birdən sustaldı, elə sozaldı, elə pəjmürdə hal oldu ki, başını aşağı salaraq xınalı bir quzu kimi qoca bir qarının arxasınca düşüb Kufə bazarını tərk elədi. Amma dilimdən qopan



o söz sonra döndü və yaxamdan yapışdı və o gündən bəri mən nə yazmışamsa, təxəllüsüm Rəbil olmuşdur və bu təxəllüslə dörd xəlifəyə vurduğum damğanı tarix o dörd xəlifənin adından heç vaxt silə bilməyəcək.

Bu vaxt Vadila başını əlindəki namədən qaldırmışdı və demişdi:

– Seid dünya, xəlifə Məmunun saray ağalarından Tusiyə yazdığın həcv yadındadırmı?

Yadımdadır, Vadila və mənim həcvimin zəhəri Tusiyə elə sirayət eləyib ki, o gün yediyi-içdiyi zoqqum dadı verib.

– Elə isə buyur, sənin Tusiyə yazdığın o həcvə cavab olaraq Əbu Tamam da sənə qırmızı bibərdən daha acı bir namə yazıb göndərmişdir.

Yaşıl çalmalı qulam tez əlavə eləmişdi:

– Ustad Əbu Tamam o həcvi Tusinin sifarişi ilə sənə yazmışdır və əvəzində Tusidən 10 min dirhəm qopartmışdır.

– Daha artıq qopara bilərdi – deyə Rəbil əlavə etmişdi - və biz elə bir zəmanədə yaşayırıq ki, hansı şairin ağzı daha böyükdürsə ən böyük mükafatı o alacaq, necə ki, vaxtilə xəlifə Əmin Bəsrəli bir şairi mükafatlandıranda o şairin ətəyini qızıl dinar, ağzını inci ilə doldurmuşdu və o şair də çəçələ barmaqlarıyla çəhənglərini dartıb cırmışdı ki, ağzı Əshabkəhf mağarası kimi daha dərin və daha geniş olsun!

Yaşıl çalmalı qulamın gözləri parıldamışdı və demişdi:

– Ustad, sənin ki, dilin tiyəsi çuxurlu Yəmən qılıncından daha kəsərlidir və mənim ağam ki, bu saat Əbu Tamamın məclisində zəlildir, rəva deyil ki, sən mənim ağamdan öz köməyini əsirgəyəsən.

– Nə olmuşdur axı oğlan və nə hadisə üz vermişdir o məclisdə?

Və indi də yaşıl çalmalı qulam Əbu Tamamın məclisində baş verən hadisəni birnəfəsə nağıl eləmişdi:

– Ustad, Əbu Tamamın dilruba bir Rum cariyəsi var ki, boynundan asdığı qızıl xaç, qırmızı bir qərənfil kimi mərmər sinəsinə rövnəq verir. Və mənim ağam çoxdandır o cariyənin həsrətilə can verir, çünki o fitnəgözlü afət hər dəfə ağama rast gələndə haça dilli bir nizə kimi ağamın ürəyinin başına sancılır.

Və indi Əbu Tamam bu işdən xəbər tutub ağama hədə-qorxu gəldi ki, əgər sən Rum məmləkətinə başmaq seyrinə çıxmısan, Allaha and olsun ki, mən də Xəzər ölkəsində çapqınçılığa başlayacağam.

– Nə üçün Xəzər ölkəsində?

– Çünki mənim ağamın da bir cariyəsi var ki, Xəzər ceyranıdır və Əbu Tamam hərdən o afəti görəndə ağam da ağzı ətə çatmayan pişik kimi dodaqlarını yalayır. Amma Xəzər qızı Əbu Tamamı adam yerinə qoymur.

– Və sonra oğlan?

– Sonrası budur ki, ustad, ağam Əbu Tamamın hədəsindən qorxmadı, dedi ki, ya Əbu Tamam əgər sən bu sözləri mənə şeirlə desəydin bəlkə qorxardım, çünki şeir şahdır, nəsr rəiyyətdir.

Ona görə də nəsr ilə dediyin bu sözlər vecimə gəlmir, təsadüfi və boş sözlərdir. Və dərhal Əbu Tamam ilə mənim ağam şeirlə atışmağa başladılar, amma heç biri digərinə qalib gələ bilmədiyi üçün Əbu Tamam hiyləyə əl atdı, nərdi ortalığa çəkdi və ağam ilə bir-birinin əbasından qumar oynadılar. Sonra o vaxt ki, ağam nərddə uduzdu. əbasını çiynindən çıxardıb Əbu Tamamın üstünə atdı. Vay ustad, bilirsənmi Əbu Tamam nə elədi? Ağamın əbasını yırtdı, tikə-tikə elədi, və patava kimi baldırlarına doladı. Ağamın isə rəngi qaçdı və Əbu Tamam dedi ki, qoca Rabil burda olsaydı sənə hiddətini bildirərdi, çünki Rabil vaxtilə xəlifə Harunəlrəşidlə nərd oynamışdı. Və kəfəni boynuna salıb xəlifəyə uduzmamışdı.

Bu vaxt Əbu Tamamın ravisi yenidən söhbətə müdaxilə eləmişdi və demişdi:

– Və mənim ağam bu vaxt cin atına mindi və nəzm ilə sənə o naməni yazıb dedi ki, get baldırı çılpaqlar karvanı arasında küllənən Rabillər meydanıma gəlsin, şeirlə atışaq və yaxud nərddə yarışaq və indi ki, sənin qulun o həcvi sənə oxumaq istəyir, izin ver ilk misraları mən dil cavabı sənə ərz edim.

Rəbil əlini Vadilanın çiyninə vurmuşdu və demişdi:

– Ey Vadila, oxu, nəyi gözləyirsən?

– Qoy öz ravisi oxusun ki, Seid dünya mən bu çirkabı dilimə gətirməyə həya edirəm.

Və Rəbil başını qaldırmışdı. Əbu Tamamın ravisinə demişdi:

– Və oğlan deyirsən sənin ağan ki, oğlanlara eşqnamə yazmağa başlamışdır, deməli o Rum cariyəsinə zülm edir; çünki töylədəki at kimidir, nə özü arpa yeyir, nə qoyur töylədəki atlar arpa yesin.

Əbu Tamamın ravisi qəzəblənmişdi və səsini qaldırmışdı:

– Elə isə qulaq as ya Rabil, ağam sənə göndərdiyi o həcvi belə başlayır ki, ey Rabil əgər bu gecə o cələb-cüləblər karvansarasında birələr



canına daraşıb səni yatmağa qoymursa, sənə göndərdiyim bu həcvin zəhəri canına hopduqca o birələr sənin qanından ikrah edəcəklər və sən ki, o sir-sifətlə bu camaat içində namaz qılırsan, deməli səndə elə bir üz var ki, atəşə girsən də üzün qızarmaz. Və o vaxt sən cəhənnəmə vasil olacaqsan...

– Kifayətdir, – deyə Rabil bağırmışdı və ayağa sıçramışdı.

Vadila isə əlini uzatmışdı, ağasının ətəyindən yapışmışdı və demişdi:

– Dayan Seid dünya, getmə və sakın, çirkaba daş atma, üstünə sıçrar.

– Burax məni, Vadila və sən işində ol. Bu görünməmiş işdir ki, bir ditdili bir filə meydan oxusun.

Və Rabil dərhal fanuslarıyla onun yoluna işıq salan Əbu Tamamın qara çalmalı ravisiylə ibn Atinin yaşıl çalmalı qulamına qoşuldu, getdi.

Sonra handan-hana Babək yenə başını dizləri üstə əymiş, Vadilaya demişdi:

Ey Vadila, əgər sən bazarlarda dolaşsan, dəmbəllərdə yançağı açıq, iştancaq şeir yazanlar görsən, o şairləri bu saray bülbülləri arasında nə fərq varmış?

– Ey Babək, həqiqi şeir odur ki, əgər sən xoşbəxtsənsə, gərək səni bir az bədbəxt eləsin. Və yaxud bədbəxtsənsə, gərək səni xoşbəxt eləsin. Və istər burda, Şərqdə, istər orda Misirdə belə şeir deyən şairlər az deyildir. Və necə ki, bir həqiqət fədaisi insan həmişə iztirab içində qalmağa məhkum olur, o cür gözəl bir söz də həmişə ürəyin guşəsində qalır.

Və Babək qeyri-ixtiyari heyrətlə səslənmişdi:

– Başıma and olsun ki, ey Vadila, sən ağandan daha artıq biliklisən və baxmayaraq ki, sən ağanı saxlayırsan, amma yenə də o ağadır, sən qulusan!

Vadila gülmüşdü və demişdi:

– Yox. Mən alim deyiləm, amma monastırda təhsil aldığım üçün Rum tarixinə bir az bələdəm. Və hələ min il bundan əvvəl Roma şəhərində elə qullar vardı ki, öz ağalarından savadlı idilər və qullar içində eləleri də var idi ki, çox böyük alim idilər.

– Elə isə nə keçmişdə ədalət olub, nə indi var.

– Və nə gələcəkdə olacaq.

– Yox, ey Vadila, bu dünya hamilədir və nə isə doğacaq, necə ki bir qadın doğanda qırx qəbir ağzını açır. Və o vaxt Uca Şirvin günəşin atlısını bu dünyaya göndərəcək...

– Şirvin? Kimdir o?

– Təbriz civarında Əsanət Rumi adlı bir yer var, yetmiş min il bundan əvvəl orda bir şəxs zühur eləmişdi ki, əcaib insan imiş ya tanrı imiş o şəxs, gələrmiş, kəndli toylarında rəqs edərmiş.

Vadila gözlərini döymüşdü.

– Kəndli toylarında rəqs edən tanrı? Desəm ki, bir az əcaib tanrıdır, incimәzsən ki?

– Yox inciməróm, amma deyərəm ki, özünü dar ağacından qurtara bilməyən bir tanrı məgər daha əcaib deyilmi?

Bu vaxt Barsis oyanmışdı, qalxmışdı, oturmuşdu, çənəsini sola çevirmişdi, sağ çiyninə baxmışdı və başını qaldırıb heyrətlə Babəkin üzünə baxa-baxa qalmışdı.

– Nə olub Barsis, niyə elə baxırsan?

– Bu saat yuxumda gördüm ki, Cunay gəlib köynəyimi yamayır.

– Kimdir o Cunay hə, demirsən Barsis? Amma köynəyini bu saat Vadila yamadı və ona sağ ol desən xançalının qaşı düşməz.

– Sağ olsun. Borclu – borclunun sağlığını istər, amma sən məndən arxayın ol, yat. Çünki bilirəm niyə yatmırsan.

Və Barsis yenə dərhal böyrü üstə yerə yıxılmışdı, amma elə bil son sözlərilə Babəki caduya salmışdı və çəkib aparmışdı. Çünki Babəkin gözləri qapanmışdı, oturduğu yerdə kürəyini divara söykəyib yuxuya getmişdi. Vadila isə heyrətlə bir Babəkə, bir Barsisə baxmışdı. Və hər ikisinin də artıq yuxuya getdiklərini görərək qibtə hissilə köksünü ötürmüşdü, çünki özü də yatmaq istəyirdi, amma ağasının qayıdıb gəlməsini gözləyəcəkdi.

Və indi hücrəni çulğamış səssizlik içində ürəyində baş qaldıran bu təlaş hissilə üçüncü şamı yandırmışdı və iynəsini işə salmışdı.

...Sonra haçansa, gecənin hansı aləmindəsə Babək hücrədəki hənirtilərdən səksənərək gözlərini açmışdı.

İndi Vadila dizləri üstə gözələdiyi qara atlas tikə parçalarını bir kənara atmışdı və hər iki əlilə başını qucaqlayıb hərəkətsiz bir halda oturmuşdu. Şairlər məclisindən qayıdıb gəlmiş Rabil isə hücrədə vurnuxurdu. Və hər iki əlilə gah yanbızlarına, gah başına döyərək təəssüflənirdi.

– ...O vaxt ki, ey Vadila "mim" qafiyəsindən "nun" qafiyəsinə keçdik, nəhayət ki, rəqibim əlinin dalını yerə qoydu, amma o vaxt ki, nərdi qabağıma çəkdi, uydum şeytan vəsvəsəsinə, basaratım bağlandı.



Şeytan icadı, tanrı qarğışı bu oyunda bəxtim "Yekdu" ilə qolumu bağladı və rəqibim bir "şeş-beş" ilə başıma daş yağdırdı. Və uduzdum ey Vadila, nəyim vardısa, uduzdum...

Vadila xırıltılı bir səslə demişdi:

– Sənin məndən, bədbəxt bir qulundan başqa heç bir şeyin yoxdu, Seid dünya.

– Elədir, səni də uduzdum Vadila və sındı belim, evim başıma uçuldu.

– Əgər mənim qiymətim 200 dirhəmdirsə, mən o məbləğdən sənə 43 dirhəm qaytarmışdım.

– Çarə tap ey Vadila, çarə tap, iki yüzdən qırx üç çıxan vaxtı deyil.

– Çarə odur ki, xristian kilsəsi qulları müsəlmanlara satılmasına və yainki peşkəş verilməsinə icazə vermir.

– Xristian kilsəsi xristianlara icazə vermir ki, öz xristian qullarını, müsəlmanlara, yaxud yəhudilərə satsınlar. Mən ki, xristian deyiləm, ey Vadila!

Bu vaxt Vadila donmuşdu, Babəki səsləmişdi:

– Ey Babək, yatmısanmı?

– Oyanmışam, ey Vadila, qulaq asıram.

– İndi ki, oyanmısan sən də de, nə edim mən? Yenə bu qovğun qoca ilə qaçıb çölə-biyabana düşüm və ac qalım, yoxsa xəbis Əbu Tamamın qapısında qul olum, firavan həyat sürüm və qarnımı otarım?

– Hər ikisindən qaç, canını qurtar ey Vadila... Dağlara, kahalara... Mən dəfələrlə dağ yollarında qaçqın qullara rast gəlmişəm.

Rabil səksənmişdi və kəskin bir hərəkətlə Babəkə tərəf dönmüşdü:

– Sakın oğlan, Vadilanı yoldan çıxarma, vəhşi dağlardakı azadlıq – ac azadlığıdır, amma şəhərdəki bir kölənin qarnı həmişə toxdur.

– Ey Vadila, elədir, dağlardakı azadlıq ac azadlığıdır və şəhərdəki bir kölənin qarnı həmişə toxdur, – demişdi Babək. – Amma mən sözümü dedim, ey Vadila və indi öz məsləhətini sən özün bilərsən.

Və qapıya doğru addımlayan Vadila demişdi:

– Əlvida Seid dünya, səhərə az qalıb. Bir azdan şəhər darvazası açılacaq. Əbu Tamamın qulamı dalımca gələndə deyərsən ki, bir qul idi ki, həmişə qaçmaq üçün fürsət axtarırdı. Sən də gecə gəlib görübsən ki, oba köçüb yurdu qalıb.

Və Rəbil fəryad eləmişdi:

– Bəs mən ey Vadila? Mən sənsiz nə edərəm? Demirəm ki, qulunu uduzmuş bir ağaya rəhm elə, oğlunu uduzmuş bir ataya rəhm elə, ey Vadila!

Və birdən Rəbil ağlamağa başlamışdı. Və o vaxt ki, Vadila ağasının ağladığını eşitmişdi, büdrəmişdi və qapı ağzında dayanmışdı. Babək də bir cür olmuşdu və demişdi:

– Ah-zar vaxtı deyil, ərbab. Qoşulun bir-birinizə, qaçın, başınızı qurtarın!

Və bu dəfə də Vadila fəryad eləmişdi:

– Hara qaçaq ey Babək? Məşriqdən Məmunun qafiləsi gəlir və ağam Məmuna həcv yazmışdır. Məğribə üz çevirək? Amma ağam orda xəlifəlik eliyən İbrahim ibn Məhdini elə sancmışdı ki, ağamın qanını içməyə hazırdır. Və indi mən bu evi başına uçulmuş ağamı hara qaçırdım ki, qoca vaxtında acından ölməsin?

Və Rəbil gözlərinin yaşını silmişdi və demişdi:

– Bağdada ey Vadila! Daha qəddar düşmənimə doğru qaçaq, çünki Bağdad elə bir şəhərdir ki, qırx şəhərdən ibarətdir və o şəhərlərin birində ərbablar yenə imdadımıza çatarlar və yenə bir xəlvətgah taparlar. Və yenə sən xristiyan dərzilər yanında günəmuzd işləməyə başlarsan...

Vadila dərindən köksünü ötürmüşdü. Qapı ağzından geri dönmüşdü və Babəklə vidalaşmışdı:

– Salamat qal ey Babək, və arzum budur ki, ya mənim, ya sənin və yaxud bu qocanın tanrısı, hansı daha mərhəmətlidirsə, bizi yenə bir-birimizə rast gətirsin!

Babək də ayağa qalxmışdı və demişdi:

– Amin və yaxşı yol, ey Vadila.

Sonra Rabil ilə Vadila, əcaib ağa ilə əcaib qul hücrədən çıxmışdılar, qaranlıqda yox olmuşdular.

Babəkin gözləri isə hücrənin o biri başında əriyib qurtarmış şamların ərintiləri içində göz qırpan ufaq bir alova zillənib qalmışdı.

## 5

Bu gün Həmədanın yastı damları üstündən uşaqlar, qadınlar və qocalar Əlvənd dağının ətəyində qurulmuş Məmunun səyyar şəhərciyinə tamaşa edərkən, baxışları ağ çadırlardan ibarət xəlifə düşərgəsinin ortasında ucalan qara məxmərli nəhəng bir çadıra dikəlib qalmışdı. İslam tarixinə daxil olmuş o qara xeyməgah artıq il yarım idi ki, nəhəng bir qara quş kimi mənzil-mənzil qonaraq Məğribdən-Məşriqə doğru hərəkət edirdi və nəhayət dünən gəlmişdi çoxdan məhv olmuş Midiya



dövlətinin paytaxtı Həmədana. Xəlifələr qoşun başında düşmən üstünə gedəndə yol boyu varid olduqları şəhərlər içində özləri üçün iqamətgah qururdular, çünki xəzinələri və hərəmxanaları da arxalarınca hərəkət edərkən tikilib sökülən çadırı səyyar bir saraya çevrildiyi üçün bütün bu qurğunu darısqal orta əsr şəhərlərinin nə mərkəzinə, nə civarına pərçim etmək mümkün olmurdu. Xəlifə Məmun isə üstəlik yüzlərlə dəvələrə yüklənən böyük kitabxanasını hara gedirdisə özüylə bərabər aparırdı. Və bu karvanın dəvələri əlifba sırasıyla bir-birinin dalınca düzüldüyü üçün, xəlifənin tələb etdiyi hər hansı bir kitab, dərhal hüzuruna gətirilmiş olurdu.

Beləliklə, xəlifələr bu və ya digər bir şəhərə yalnız o şəhərin cümə məscidinə xüsusi mətürədə namaz qılmaq, sonra minbərə qalxıb xütbə oxumaq üçün daxil oldular. Məmun isə üstəlik keçib gəldiyi bütün şəhərlərdə yekşənbə günü əhalinin şikayətlərini dinləmək üçün cümə məscidlərində "divan xitam"məclisi qururdu.

Və bu gün səhər namazından sonra Məmun İslam tarixinə daxil olmuş qara atlas çadırının içərisi çox hissələrə bölünmüş ən məxfi guşələrinin birində birinci olaraq Həmədan şəhərinin bələdiyyə rəisini qəbul edərkən, rəis yer öpəndən sonra təşrifat qaydasınca müəyyən məsafədə diz çöküb oturmuşdu, amma Məmun onun daha yaxın oturmasını istəmişdi ki, bir xəlifə tərəfindən kiminsə bu qədər yaxına buraxılması çox nadir hallarda nadir şəxslərə qismət olan bir şərəf idi.

Xilafətdə dövlət poçtu sahib-bərid adlanırdı və bu dövlət poçtu sasanilər İranından xilafətə miras qalmış digər hökumət idarələrindən biri idi ki, əgər qonşu Vizantiyada bu dövlət poçtu atlar poçtu idisə, xilafətdə qatırlar poçtu idi və elə bu gün qatırlarla Səmərqənddən qapalı qalan qablarda Məmnunun süfrəsi üçün gətirilmiş məşhur Fərqanə qovunlarının incə ətri bütün çadırı çulğamışdı. Məmun üçünsə əbədi olaraq vidalaşmağa məcbur olduğu o yerlərdən gətirilmiş bu qovunların ətri hətta bağın rayihəsindən daha xoş idi.

Brid sözü isə dirhəm, dinar, saklab, iqlim və sair bir sıra sözlər kimi ərəbcənin yunancadan əxz elədiyi sözlərdən biri idi, amma xilafətdə "sahib-bərid", yaxud "sahib-xəbər" adlanan dövlət poçtunun rəisi eyni zamanda xəfiyyə rəisi idi və xəlifənin görən gözü, eşidən qulaqları kimi ixtiyarlarındakı casuslar şəbəkəsi vasitəsilə valilərin, əmirlərin, qüdrətli feodalların hərəkətləri və davranışları, xəlifə düşmənlərinin bəd əməlləri və təşəbbüsləri, şəhər sakinlərinin əhval-ruhiyyəsi haqqında

öyrəndiklərini və təhqiq etdiklərini vaxtaşırı xəlifəyə çatdırmalı idi. Beləliklə, bu və ya digər bir şəhərin kiçik vəzifəli poçt rəisi ilə xəlifə arasında cərəyan edən rubəru bir danışıqlardan, yaxud poçt rəisinin xəlifəyə göndərdiyi məxfi xəbərdən sonra bəzən böyük bir əyalətdə həmişə kral kimi hökmranlıq edən qüdrətli bir valinin, yaxud əyanın həyatına gizli bir əl tərəfindən son qoyulurdu və bir qayda olaraq bu ölümə məhkumlar yuxudan oyanmırdı, yaxud yuxuda havasızlıqdan boğulurdu, səhər yatağından qalxmırdı. Çünki bütün o vali və sairə içərisində həmişə brid rəisinin gizli əmrini yerinə yetirən kimsə olmalı idi və olurdu.

Buna görə idi ki, hər vaxt, istər gecə, istər gündüz, xəlifənin hüzuruna gəlməyə ixtiyari olan dörd nəfərdən biri hava işıqlananda xəlifəni yatağından sübh namazına qaldıran şəxs – ozançı, digəri süfrəyə yemək düzən canigir, üçüncüsü sərhəddən mühüm xəbər gətirən çapar idisə, dördüncüsü sahib-bərid, yaxud sahib-xəbər adlanan rəis idi.

İndi Məmun da sübh namazından sonra dərhal hüzuruna Həmədanın brid rəisini çağırmışdı, daha doğrusu, brid rəisi Hacibdən xəlifənin hüzuruna buraxılmasını tələb eləmişdi. O qüdrətli Hacibdən ki, xəlifə sarayının uca mənsəbli əyanları belə hüzuri-humayuna qəbul edilmək üçün bəzən o Hacibin ovcuna bir qızıl dinar yerləşdirdikləri və hələ bundan sonra da o qızıl dinar Hacibin qapalı ovcunda tərləyənə kimi gözlədikləri halda bərid rəislərinin Hacibə yan almadan dərhal xəlifənin hüzuruna buraxılmasını tələb etməyə cürətləri çatırdı.

Həmədanın brid rəisi ən əvvəl xilafətin ucqar əyalətləri hesab olunan Azərbaycandan, Arrandan, Ərməniyyədən və Xaxaniyadan xəlifə Məmunu istiqbal etmək üçün kimlərin Həmədana gəldiklərini və peşkəş olaraq xəlifəyə nələr gətirdiklərini sadalamışdı. Sonra Bağdad xəlifəsindən üz çevirən və Bağdaddan qaçıb gələn əşrəflər içərisində xilafətin ən məşhur nəğməçisi və bəstəkarı İshaq ibn İbrahimin adını çəkərkən Məmun gülümsəmişdi, çünki bu saat Bağdadda xəlifə olan əmisi İbrahim ibn Mehdi də xilafətin ən məşhur musiqiçisi idi. Və İshaqın bəstələdiyi mahnıların şöhrəti artdıqca nəinki qısqanclıq hissilə boğulurdu, hətta vaxtilə muzdla tutulmuş qatil göndərib İshaqı məhv etmək istəmişdi. Daha sonra brid rəisi şəhərdəki vəziyyəti təsvir eləmişdi. Və Həmədan valisinin, hətta şəhər həbsxanasını belə icarəyə verdiyini, həbsxana rəisinin, isə bütün dustaqları və o dustaqlar içində dörd nəfər quldurbaşını da günaşırı bazara dilənməyə göndərdiyini xəbər



vermişdi. Və Məmunun çöhrəsi bulud kimi tutulmuşdu. Bərid rəisi isə xəlifənin düyünlənmiş qaşlarının açılması üçün Əbu Tamamın Məmuna ithaf etdiyi yeni mədhiyyənin surətini iki əli üstündə xəlifəyə doğru uzatmışdı. Məmun kağızı almışdı. Oxumağa başlamışdı və şairin şah misralarına çatmışdı: Məmun yetimlərə qarşı o dərəcədə şəfqətli və səxavətlidir ki, bütün məxluqun bir arzusu var: Ey kaş, biz də atadan, anadan yetim qalaraq o yetim-yesir içində xoşbəxt olaydıq. Xəlifə qənd kimi ağ Səmərqənd kağızında yazılmış qənd kimi şirin qəsidədən üz-gözünü turşutmuşdu və kağızı brid rəisinin üstünə atmışdı. Buna görə idi ki, brid rəisi indi də Rəbilin zəhər kimi acı həcvini xəlifəyə təqdim edərkən əlləri titrəmişdi. Amma çarəsi yoxdu. Ən acı həqiqəti belə xəlifədən gizli saxlamış olsaydı, sonra başı çiyni üstündə salamat qalmazdı. Məmun isə Rəbilin həcvini alıb oxumuşdu və elə bil ağzı qırmızı bibərdən alovlanmış kimi alt dodağını çeynəmişdi. Amma sonra həcvi yazılı kağızı bükmüşdü, qısa boğazlı çəkməsinin quncuna pərçim eləyərək özündə saxlamışdı və bu hərəkəti ilə heç bir şeyə heyrət etməyən bərid rəisini heyrətə gətirmişdi.

Sonra xəlifə bərid rəisini hüzurundan azad edərək ayağa qalxmışdı, çadırından çıxmışdı və üzəngi ağalarının irəli çəkdikləri atına süvar olaraq, qafiləsi üçün qurulmuş çadırlar arasıyla uzanan küçədə – istiqbalına gələnləri atının üzəngisinə yaxın buraxaraq qəbul mərasiminə başlamışdı.

İndi xəlifə atını addım-addım sürüb gedirdi, atının sağ tərəfində saray Hacibi addımlayırdı. Atın arxasınca saray ağaları gəlirdi və bir-biri yanında sıraya düzülmüş ucqar əyalətlərin qəbilə başçıları, şəhərin əşrəfləri, xristian və yəhudi məhəllləsinin nümayəndələri Hacibin işarəsilə növbə ilə irəli addımlayırdı. Atını saxlayan xəlifənin üzəngisinə baş əyərək "yer öpürdülər" və ehsanı alqışlarla Məmun salamlayırdılar.

Xilafətin taleyində həlledici rol oynayan iki məmləkətdən biri İraq, digəri İranı təmsil edən Xorasan idi. Azərbaycan Arran, Ərməniyə Və Xaxaniya isə xilafətin ikinci dərəcəli ucqar əyalətləri hesab olunurdu və indi xəlifəlik və əyalətlərdən istiqbala gələnləri atının üzəngisinə yaxın buraxması o "Muluk-əl Təhayif" üçün tamamilə kifayət idi.

Hacibin işarəsilə birinci olaraq Təbrizin sahibinin ortancıl qardaşı Vəcnə ibn Rəvvad irəli çıxmışdı. Xəlifənin üzəngisinə baş əyərək "yer öpmüşdü" və Məmunun işarəsilə danışmağa izin alarkən demişdi:

– Ya Əmirəlmöminin, Təbrizin sahibi böyük qardaşım Məhəmməd ibn Rəvvad çoxdan xəstə haldadır və əgər yatağından qalxmağa iqtidarı olsaydı, hüzurunuzda yer öpmək səadətini əlbəttə ki, mənə güzəştə getməzdi.

Məmun gülümsəmişdi və demişdi:

– Məhəmməd ibn Rəvvada tanrıdan şəfa dilərəm. Və əgər bir iltiması varsa, izin verildi, deyə bilərsən.

Və Vəcna ibn Rəvvad demişdi:

– Allah ömrünü uzun eləsin ya Əmirəlmöminin, Azərbaycanda məskən salmış Eynəli Əzd qəbiləsinin yeganə arzusu budur ki, Əmirəlmöminin necə ki, xorasanlı əcəmilərə qarşı bu qədər mərhəmətlidir, bizə də, Əzd qəbiləsinin övladı-fatmanlarına və cümlə ərəblərə də eyni mərhəmət gözüylə baxaydı.

Məmunun üzərindən kölgələr keçmişdi və sürməli gözləri azacıq qıyılmışdı.

– Ya Vəcna, – demişdi, – son ərəb qəbilələrinə lüzumundan artıq qəhmar çıxırsan, o vaxt olub ki, xəzinəmdə bir dirhəm qalmayıb, nəyim varsa hamısını Qeys qəbiləsinə ehsan eləmişəm, amma o qəbilənin gözü yenə doymayıb, yaxud Rəbiyə qəbiləsini məmnun etmək üçün nə mümkündürsə eləmişəm, amma o qəbilə nəinki məndən, sərvərikainat o qəbildən zühur eləmədiyi üçün Allahdan də küsüblər. Eynəli məmləkətinə gəlincə nə mən o məmləkəti sevdim, nə o məmləkət məni və indi sizə, Azərbaycanda, Arranda məskən salmış ərəb qəbilələrinin övladı-fatmanlarına mənim sözüm budur ki, əgər bir çoban sürünü həmişə qırxmaq istəyirsə, gərək o sürünü acından öldürməsin. Çünki mən xəracı azaltdım, amma sizin o ucqar məmləkətlərdə şüarınız bu olub ki, yeddi para kəndin bir deşik qazanı varsa, o deşik qazan belə sizə muzdurluq eləyən yerli əhali üçün çox imiş...

Vəcna ibn Rəvvadın boğazı qurumuşdu, öskürmək istəmişdi, amma xəlifə hüzurunda öskürmək yasaq olduğu üçün öskürməyini boğduğu üçün boğulmuşdu. Ardın-ardın geri çəkilmişdi və başa düşmüşdü ki, bu il Boz quş dağlarındakı kəndlərdən xərac vergisi yığılarkən orda baş verən hadisələrin əks-sədası xəlifəyə çatmışdı və ticarət karvanında Həmədan bazarına gətirdiyi malların içində xəlifə süfrəsi üçün gətirdiyi Şirvan zəfəranının, Təbriz paxlavasının, xəlifənin quş ovu üçün gətirdiyi üç cüt tərlanın, xəlifənin ceyran ovu üçün gətirdiyi bir cüt hind pişiyinin, xəlifənin namaz qılması üçün gətirdiyi güləbətinli



səccadənin və xəlifənin şəxsi silah dəstəsi üçün gətirdiyi Yəmən yaqutu ilə süslənmiş qılıncın Məmuna heç bir təsiri olmayacaq. İndi xəlifənin bu kəmiltifatı və üstəlik üzünü Vəcna ibn Rəvvada tutaraq dediyi töhmətli sözlər Əzd qəbiləsinin əşrəflərini nə qədər məyus edəcəkdisə, Azərbaycanda məskən salmış Rəbiyyə qəbiləsinin başçısı və Məriənd şəhərinin sahibi ibn Bəiyyəti bir qədər çox sevindirmişdi və Hacibin işarəsilə ibn Bəiyyət özünü irəli atanda iki əlilə Məmunun üzəngisini qamarlayıb "yer öpmüşdü" və demişdi:

– Ya Əmirəlmöminin, məzluma ədalətini göstər.

Məmun bir an susmuşdu. Çünki keçib gəldiyi bütün şəhərlərdə olduğu kimi burda, Həmədanda da o şikayətləri yekşənbə günü şəhərin cümə məscidində dinləyəcəkdi, amma Brid rəisinin dediklərindən yadında bu da qalmışdı ki, Azərbaycana təyin edilmiş qüdrətli vali Rəbiyyə qəbiləsindən olduğu üçün indi orda Əzd qəbiləsi ilə Rəbiyyə qəbiləsi arasında qədim ədavət daha da kükrəmişdir və ibn Bəiyyət də macəraçılığı və tərs-məzhəbliyi ilə məşhur bir zatdır.

Buna görə idi ki, Məmun bir an nə isə düşünmüşdü və demişdi:

– Kim sənə zülm eləmişdi, ya ibn Bəiyyət və yainki şikayətin kimdəndir?

– Ya Əmirəlmöminin, şikayətimi Əcəm dilində nəzmə çəkib aciz bir şəxs kimi hüzurunuza gətirmişəm.

– Əcəm dilində?

– Əcəm dilində Ya Əmirəlmöminin, çünki qədim pəhləvi dili ki, ölmüşdür və o dildə yazılmış Əcəm şeri də unudulmuşdur. İndi bu günün farscası ilə yazılmış bu ilk şeri mən sənin uca adınla ziynətləndirmişəm. Məmunun ilişkən yaddaşı vardı. Cahilliyə dövründən Əmirəlqeyslərdən başlayaraq bu günə qədər Əbunəvaslara kimi ərəb şerinin ən məşhur misralarını əzbər bilirdi və əgər indi söhbət farsca yazılmış ilk şeirdən gedirdisə, hələ on il əvvəl vəliəhd kimi Mərvə varid olarkən hüzurunda oxunmuş və ona ithaf edilməmiş bir şeir farsca yaranan şerin ilk qaranquşu hesab edilməli idi və Məmun demişdi:

– Qulaq as ya ibn Bəiyyət, əvvələ əcəm dilində qədimdən bir məsəl var ki, bir şəxsin özünü təriflməsi pambıq çeynəmək kimi bir şeydir və binaeyn ən azı on il gecikmisən. Çünki hələ on il əqdəm mən vəliəhd kimi Mərvə varid olarkən Abbas ibn Tərxan adlı bir şəxs yeni fars dilində yazdığı və mənə ithaf etdiyi bir şeri hüzurumda oxumuşdu və şeirdə də deyilirdi ki, yeni yaranan İran şeri mənim adımla ziynətlənəcəkdir.

– Allaha and olsun ki, Əmirəlmöminin, mən bu şerimdə heç bir kəsdən heç bir bir şey oğurlamışam.

Məmun istehzaya keçmişdi:

– Əvvəla bilirəm ki, heç kəsdən heç bir şey oğurlamamısan, amma özününkü də deyil. Necə ki, yoldan-izdən bir dirhəm tapan bir kəs də o dirhəmi heç kəsdən oğurlamamışdır, amma eyni zamanda özününkü deyil. Qərəz, mətləb üstünə gəl ki, yeni farscasının həqiqi şairi çox güman ki, indi hardasa hələ dardar eliyən bir tifildir.

Mərəndin sahibi ibn Bəiyyət qüdrətli rəqibi və Təbrizin sahibi Vəcna ibn Rəvvad kimi bir karvan hədiyyəylə Məmunun istiqbalına gəlmişdi, amma Bəiyyətin canında şeir yazmaq gicişməsi də vardı. Hərdən ərəbcə şeirlər yazırdı. Ona görə Məmunun istiqbalına gələrkən bir aldanışa əsir olaraq güman eləmişdi ki, fars dilində quraşdırdığı bu ilk şeirlər anası fars qızı olan, şeir həvəskarı Məmunu heyran edəcəkdir, lakin indi Məmunun istehzasına məruz qalaraq bütün ümidlərinin puça çıxdığını görərkən, çox kəskin bir şəkildə nəsrə keçərək demişdi:

– Ya Əmirəlmöminin, Təbrizin Məşriqindəki Surxab məhəllosi Hicazdan Azərbaycana köçmüş əcdadımdan mənə miras qalmış bir mülk idi. Amma Eynəli Əzd qəbiləsi hiylə işlədərək o məhəlləni qəsb elədi və indi neçə ildir ki, o məhəllədəki üç hamamın gəlirini də Vəcna ibn Rəvvad mənimsəmişdir, halbuki bir müsəlman üçün haram mala əl uzatmaq yasaq edilmişdir, ən böyük bir günahdır.

Məmunun üzü sərt bir ifadə aldı. Əlbəttə ona məlum idi ki, xilafətin ucqar əyalətləri hesab olunan Azərbaycanda, Ərməniyyədə və Arranda vaxtilə böyük torpaq sahiblərini qəsb eləmiş ərəb qəbilələri başçılarının hər biri indi böyük və ya kiçik bir şəhərin də sahibi idi və eləleri də vardı ki, bu və ya digər bir şəhərdəki bir məhəllə, hətta bir küçə onların mülkü hesab olunurdu. Və dehqan adlanan bu ərəb qəbilələrinin başçıları daima bir-birilə boğuşurdular, amma indi onlardan birinin üç hamam münaqişəsinin Əmirəlmömininin hüzuruna çıxarılması elə bir nəzakətsizlik idi ki, Məmun başını geri çevirmişdi və atının arxasınca gələn saray ağalarına xitab edərək demişdi:

– Ey camaat, məgər Azərbaycan məmləkətində bizim səlahiyyətdar valimiz, ədalətli qazilərimiz və şəriət məhkəməmiz yoxdurmu?

Saray ağalarından səs çıxmamışdı, çünki Məmunun bu nidası sual deyildi, bəlkə ən azı ibn Bəiyyətin dərhal hüzuru-humayundan qovulması üçün bir əmr idi və Məmun atını tərpədəndə, mülazimi Sərrac irəli atılmışdı, əlinin tərsilə ibn Bəiyyətin qarnına bir çırtma vuraraq demişdi:

– Başıma and olsun ki, çölün-biyabanın bir dəvəsi səndən daha artıq mərifətlidir ya ibn Bəiyyət və get Allahına şükür elə ki, Əmirəlmömininin cəddi Əyyub Əleyhüssalamın səbri kimidir.

İbn Bəiyyət dodaqlarını çeynəyərək ardın-ardın geri çəkilmişdi [redacted] alnının soyuq tərini silmişdi. Düzdür xəlifə onun rəqibi ibn Vəcnaya da töhmətli sözlər demişdi, amma ibn Bəiyyəti nəinki özü, hətta mülazimi vasitəsilə də daha artıq xəcil və rüsvay eləmişdi. O ibn Bəiyyəti ki, içərisində dəli bir şeytan vardı, onu tez-tez təhlükələrə doğru itələyirdi və indi ürəyində Məmuna qarşı alovlanan bir kin çox çəkməyəcəkdi ki, əvvəlcə onu böyük bir macəraya sürükləyəcəkdi, sonra qara xəyanətlərə, qanlı cinayətlərə doğru aparacaqdı...

İbn Bəiyyətdən sonra Azərbaycandakı kürd elatının başçısı İsmət əl Kürdi Hacibin işarəsilə irəli çıxmışdı, Məmunun üzəngisinə baş əyib dikəlmişdi və demişdi:

– Ya Əmirəlmöminin, Savalan dağındakı kürd elatının ağsaqqalı kimi hüzurunda yer öpdüyüm bu gün-mənim üçün nə mübarək bir gündür. Amma mən ki ibn Bəiyyətin qayınatasıyam, kürəkənim hüzurunda lüzumsuz söz söylədiyi üçün acizanə üzr istəyirəm.

Məmunun çöhrəsi bir az açılmışdı və demişdi:

– Üzrxahlığın qəbul olunur möhtərəm qoca və əgər yezidi kürdlər istisna edilərsə, xilafətdəki kürdlərin cümləsi islam dininin şücaətli övladları kimi həmişə iltifat görəcəkdir.

Sonra xəlifə yenə atını irəli sürmüşdü və Hacibin işarəsilə irəli çıxmış, "Əklil-eyn" monastırının baş rahibi xəlifənin üzəngisinə doğru əyilərkən Məmun aman verməmişdi, at üstündən əlini uzadaraq qocaya əl verib görüşmüşdü. Baş rahibin isə bu gözlənilməz iltifatdan bir an nitqi batmışdı, söyləyəcəyi alqışı unutmuşdu. Və tək qoca deyil, saray ağaları da heyrət içində bir-birinin üzünə baxa-baxa qalmışdılar. Çünki

Qoca baş rahib bütün ömrü boyu qatır üstündə səfərlərə çıxmışdı və indi qatır üstündə monastıra qayıtmaq onun üçün daha rahat olacaqdı, amma Əmirəlmöminin bu gün ona, xristian bir rahibə əl verib görüşmüşdü və indi ona bir at əta edərək onun at üstündə monastıra qayıtmasını istəyirdisə bu elə mühüm hadisə idi ki, Məmun bununla atası Harunəlrəşidin xilafətdəki xristianlar üçün müəyyən elədiyi bir çox məhdudiyyət və yasaqlardan daha birini də ləğv edirdi.

Baş rahib ibn Anastas nəhayət özünə gəlmişdi, nəinki özünə gəlmişdi, hətta ürəyində bir ümid baş qaldırmışdı ki, bəlkə ölməyəcək, o günü də görəcək ki, Məmun monastırlardakı kiçik kilsələrin qüllələrindən çan çalınmasına da izin verəcəkdir. Amma qocanın ömrü tamam olmuşdu. Bunu görməyəcəkdi, çünki Məmun xristian kilsələrində çalınan çan səslərinin minarələrdən ucalan azan səslərinə qarışmasına heç vaxt icazə verə bilməzdi və verməmişdi. Baş rahib isə xəlifəyə üz tutaraq demişdi:

– Ey Xəlifələrin ən şöhrətlisi, xilafətdəki bütün xristianlar həmişə dua edəcəklər ki, sən bu çox mənzilli, çox uzun yolunda muradına çatasan, bütün məqsədlərinə nail olasan və sən ki, Bağdadı qanunsuz xəlifədən xilas etməyə gedirsən, qoy rəbbim səni bütün bəlalardan hifz eləsin!

Və xəlifə atının arxasınca addımlayan bütün ağalar bir ağızdan "amin" deyə səslənmişdilər.

İndi Məmun çadırlar arasıyla uzanan küçənin sonuna doğru yönəlmişdi və yenə atını bir addım-bir addım irəli sürərkən gözləri o küçənin sonundakı qaraltılara zillənib qalmışdı.

Uzaqdakı o qaraltılar isə Sərəxs hamamında vəzirini qətl etmiş o dörd nəfər quldurbaşı idi ki, indi bir-birinin yanında sıraya düzülmüşdülər, biləkləri zəncirli əllərini göbəkləri üstünə qoymuşdular və arxalarında dörd nəfər qısa mizraklı mühafiz keşiklərində dayanmışdı.

Və o dörd quldurbaşının edamı haqqında əmr verməsi üçün onların hüzuruna gətirilmələri heç də vacib deyildi. Amma Həmədanın sahibixəbəri səhər görüşündə digər xəbərlər içində Məmuna məhz bunu da ərz eləmişdi ki, o dörd nəfər kafir hər dəfə bazara dilənməyə gətiriləndə bar-bar bağırırlar ki, ey camaat eşidin və agah olun ki, bizim xəlifəyə deyiləcək çox vacib bir sözümüz var.

Buna görə idi ki, xəlifə düşüncəli olmuşdu. Çünki ehtiraslı şətrənc həvəskarı olan Məmun vəziri, vəliəhdi və yaxud saray təbibi ilə oynadığı



şətrənc partiyalarını tamamlamamış qoya bilirdi, amma o şeytanı oyun ki, bir il əvvəl o dörd quldurbaşı ilə onun arasında başlanmışdı və nəhəng bir dövlətin hökmdarını Əbu Müslüm Sarayının qaranlıq zirzəmisinə enərək o dörd quldurbaşıyla görüşməyə məcbur eləmişdi – tamamlanmamış qala bilməzdi. Düzdür vəzirin qırxı çıxandan sonra Məmun vəzirinin qardaşı Həsən ibn Səhlin qızına elçi düşmüşdü və Bağdadı əmisindən geri alandan sonra Dəclə sahilindəki "Sülh" qəsrində toyunu çalacağını elan eləmişdi, amma tamamilə arxayınçılığa qapılması üçün bu hələ kifayət deyildi. Həsən ibn Səhl isə qoşunu ilə bərabər Bağdaddan qovulandan sonra indi burda çox yaxında Naxçıvan şəhərində möhkəm dayanmışdı, amma gələn xəbərlərə görə çox fikirli imiş, həm də çox içirmiş və çox susurmuş. Elə isə qardaşının qətli barədə amansız şübhələr Həsən ibn Səhlə rahatlıq vermirmiş və əgər indi Məmun vəzirinin qatillərini danışdırmadan edama göndərsəydi bu Həsən ibn Səhlin şübhələrini artırmazdımı? Axı quldurlar vəziri hamamda qətl eləmişdilər və hamamda özünə hocəmət qoyduran vəzirin yanında qarət ediləsi bir şey yoxmuş. Belə olduqda Həsən ibn Səhl bütün xilafəti idarə edən qüdrətli və şöhrətli qardaşının Məmunun fitvası ilə öldürüldüyü barədə arada gəzən şayiələrə uymazdımı? Və öz həyatı üçün qorxuya düşməzdimi? Və nəhayət Məmun gəlib Həmədana çıxanda aradan qaldırdığı vəzirinin qardaşı Həsəni də qətl etdirəcəyini düşünərək başındakı qoşun və xəzinəsi ilə qaçıb Bağdad xəlifəsindən aman istəməzdimi?

Beləliklə, əgər Məmun vaxtilə yanında yalnız Sirac olduğu halda qaranlıq bir zirzəmidə məxfi olaraq o dörd quldurbaşıyla üz-üzə gəlmişdisə, indi arxasınca gələn saray ağalarının, Həmədan valisinin və Həmədan şəhəri qazisinin gözləri qarşısında bu oyuna son qoymaqdan çəkinməməliydi. Çünki Həsən ibn Səhlin şübhələrini dağıtmaq üçün qətl edilmiş vəzirinin Sərəxs şəhəri hamamındakı cənazəsi qarşısında başına döyərək ağlamışdısa, sonra vəzirinin yeddisini və qırxını vermişdisə, indi vəzirinin axıdılmış qanını qan ilə yumaq qalırdı ki, yalnız bundan sonra qüdrətli vəziri Fəzl ibn Səhlin dastanını tamamlayıb islam tarixini təhvil verəcəkdi. Düzdür İran Cəfər Bərməkidən sonra fəxr elədiyi Fəzl ibn Səhlini də itirmişdi, amma Həsən ibn Səhlin böyük bir şərəfə nail olaraq Məmunun qayınatası dərəcəsinə kimi ucaldıldığı ilə özünə təskinlik verə bilirdi.

düzülmüşdülər. Məmun da atını saxlamışdı və ilk dəfə görürmüş kimi dörd quldurbaşını bir-bir diqqətlə gözdən keçirməyə başlamışdı. Quldurların əynində ucuz mitkaldan qara əbalar vardı. Məmun əvvəllər də dustaqların əyninin nə halda olduğunu az görməmişdi. Ona görə indi bu təmiz əbaları o dörd quldurun kimin əmrilə dilənddikləri pula alıb çiyinlərinə atdıqlarından xəbəri vardı.

Məmun susmuşdu, quldurlar və Məmunun atının arxasında dayanmış saray ağaları bir az əvvəl Məmunun qoca xristian rahibə əl verib görüşdüyünə bir an mat və məəttəl qaldıqlarından sonra indi özlərinə gəlmişdilər və xəlifənin bu dörd quldurı hüzuruna çağırdığına artıq heyrət eləmirdilər. Çünki Məmun gözlənilməz hərəkətləri və davranışları ilə həmişə onlar üçün bir müəmma idi və bir müəmma olaraq qalacaqdı.

Amma saray ağaları bunu da görürdülər ki, əgər Məmun qırpımsız baxışlarla bir-bir dörd quldurı süzürdüsə, quldurlar da baxışlarını qaçırmadan, başlarını aşağı salmadan düz Məmunun gözlərinin içinə baxırdılar.

Halbuki hüzur-humayunda heç kəs gözlərini xəlifənin gözlərinə zilləyib dayana bilməzdi. Əvvəla belə bir hərəkət təşrifata görə yasaq idi və ikincisi Məmunun sürməli gözlərinin ilan gözləri kimi soyuq-soyuq işıltılı baxışlarına yalnız bir an davam gətirmək olardı.

Nəhayət ətrafı culğamış səssizlik içində Məmunun boğazından qopan, amma kip qapanmış dodaqları arxasında uğuldayan bir pıçıltımı, yoxsa nəriltimi, hansısı isə fərqi yoxdu, çünki dörd quldura qarşı ürəyindəki sözlərin ifadəsi idi: " Axı mən sizə bir həftə möhlət vermişdim ki, gözdən itib yox olasınız və qoşun sizi vəzirin yeddisi çıxandan sonra axtaracaqdı və mən ki, bu oyunun şərtlərini pozmamışdım və siz ki, buna baxmayaraq yaxanızı ələ vermisiniz, indi nə desəniz əbəsdir".

Və bu səssiz xitabından sonra Məmun demişdi:

– Ey üç dəfə lənətə gəlmişlər, mənim hüzuruma çıxmaq istəmisiniz və Həmədan bazarında car çəkmisiniz ki, mənə deyiləcək vacib sözünüz var və indi deyin, nə deyəcəksiniz və qoy bu camaat da eşitsin!

Dörd quldurbaşı bir-birinin üzünə baxmışdılar, aldıqları təlimata görə Xəlifə izin verəndən sonra sözə başlayıb bağışlanmaları üçün yalvara bilərdilər və dörd müxtəlif dinli quldurlar içində yalnız Qalib əl Əsəd müsəlman olduğu üçün birinci olaraq sözə başlayaraq demişdi:

– Ya Əmirəlmöminin, əlbəttə ki, bizim bəxtimiz gətirmədi, baxtaladıq, çünki basarətımız bağlandı. Və gərək öz fərasətsizliyimizi bizə bağışlayasan!



İndi nəinki saray ağaları, valisi və şəhər qazisi belə donub yerlərində qalmışdılar. Əlbəttə ki, bu dörd nəfər quldurbaşıdan mərifətli bir tərzdə xəlifədən aman kölgəsində nicat istəyəcəklərini gözləmək olmazdı, amma ağızlarını açan kimi fərasətsizlikləri ucbatından ələ keçdikləri üçün xəlifənin bu maymaqlığı onlara bağışlamasını xahiş etmələri elə əndazədən çıxan bir xahiş idi ki, Məmun belə bir an gözlərini döymüşdü, sonra dodaqlana qonan əyri bir təbəssümlə demişdi:

– Deməli yalnız maymaqlığınızın bağışlanmasını xahiş edirsiniz. Amma axıtdığınız qan üçün peşman deyilsiniz.

Bu dəfə dörd quldurbaşından Qəstəntin Rumi ki, xristian idi, xəlifəyə cavab vermişdi:

– Ya Əmirəlmöminin, biz sənin əmrini yerinə yetirmişik və səni xain vəzirindən xilas eləmişik və insaf ki, dinin yarısıdır lazımdır ki, indi sən də insafla iş görəsən.

Məmun əlini qaldırmışdı və sakit bir səslə Qəstəntin Rumini susduraraq demişdi:

– Və həqiqətən düz deyiblər ki, şər elə bir oddur ki, acgözlük onun anası, zülm onun oğlu, tamah onun qardaşı, xəbislik onun ayaqdaşıdır. Və bir halda ki, mən mərhum vəzirimi şərəfləndirmişdim, qoşunlarımın sərkərdəliyini və siyasətimin cilovunu onun əlinə vermişdim və bir illik maaş təyin etmişdim və yenə mərhum vəzirimin xahişini yerə salmadan böyük oğlumun vəliəhdlik haqqını tapdalayaraq cənnət məkan İmam Rzanı özümə vəliəhd təyin eləmişdim ki, bütün bunlardan sonra mən sizin kimi bədniyyətlərə nə cür deyə bilərdim ki, çıxararsınız o şəxsin əynindən həyat libasın və geyindirərsiniz o şəxsə ölüm libasını?

Və xəlifə sözünü tamamlamamış papağını gözü üstə əyri qoymuş Deyləmi davam gətirməyərək bağırmışdı:

– Ya Əmirəlmöminin, məgər ürəyində Allah xofu yoxdurmu, bax elə o vaxt da sən elə bu sözləri deyib vəzirini qətl etməyə göndərmədinmi?

Məmunun sürməli gözlərinin dərinində bir anlığa qaramat işıltı yanıb sönmüşdü, amma etidalını pozmadan sözünə davam edərək demişdi:

– Sizi hüzuruma çağıranda düşünürdüm ki, aya zülm görüb zalım olmuş bu adamların cəzasını yüngülləşdirmək üçün bir çarə tapmaq olarmı? Amma indi görürəm ki, sizin ki, üçünüz kafir, biriniz müsəlmandır, fərqi yoxdur, dördünüzün də qanı halaldır və lazımdır ki, dördünüz də cəhənnəm odunda yanasınız!

Və indi az qala xəlifə sözünü tamamlamamış Siracın işarəsilə mühafiz nəfərləri bir anda dörd quldurbaşını qamarlamışdılar. Artıq səsləri çıxmasın deyə ağızlarını tıxamışdılar və sürümüşdülər Məmunun hüzuruna aparmışdılar.

Məmun da atının başını geri çevirmişdi, saray ağaları yarılmışdılar və yenə Məmunun atının arxasına keçmişdilər. Həmədanın qazisi isə Məmunun üzəngisinə baş əyib dikələndən sonra demişdi:

– Ya Əmirəlmöminin, sabah ki, yekşənbədir, cümə məscidində şikayətçiləri dinləmək üçün şəhərə varid olacaqsan. Amma mən görürəm ki, sən yollar yorğunusan və lazımdır ki, sabah istirahət edəsən – çünki şikayətçilər qaçmırlar və canları çıxar və daha bir gün də səbr edərlər.

– Məmun şəhər qazisinin sözünü kəsmişdi:

– Ey qazi, o şikayətçilər ki, hökumət adamlarından zülm görüblər və bir ildən ziyadə bizim yolumuzu gözləyiblər, təxirə salınan bir gün indi onlara bir ildən uzun görünəcəkdir və bir şəhərdə ki, dustaqları günaşırı bazarda dilənməyə qovurlar və o şəhərin həbsxanası o qədər dolub ki, dustaqların bir parası karvansaralar həyətində qatırlar yanında zəncirləniblər, sən nə cür bizə hələ bir gün daha istirahət etməyi rəva görürsən?

Sonra xəlifə atını tərpədib, qara atlaslı xeyməgahına doğru yönəlmişdi. Həmədan valisi isə yerindən tərpənə bilməmişdi, çünki xəlifənin dilənən dustaqlar barədə vurduğu girizdən ayaqüstündə ölüb qurtarmışdı, amma bu vaxt xəlifənin mülazimi Sirac Həmədan valisinin başının üstünü almışdı və demişdi:

– Vay olsun sənə, ey vali. Nə durub gözlərini döyürsən, boşaltmaq lazımdır, o zülm evini ki, dilənən dustaqların qohum-əqrəbası sabah qoşun-qoşun axıb Əmirəlmöminin üstünə gəlməsinlər.

Ayaq üstə ölmüş vali dərhal dirilmişdi və bir anda barmağının dərisini soyaraq dartıb çıxardığı çox iri almaslı üzüyünü Siracın barmağına geydirmişdi, bir az sonra isə başındakı bir dəstə atlı ilə dördnala geriyə şəhərə doğru çapmışdı.

Nalbəndlər dərbəndi şəhərdə nisbətən ən geniş və çox qısa bir küçədən ibarətdi ki, hər tərəfində cərgə ilə düzülmüş dükanlar önündə bütün günü minik heyvanlarından atlar, qatırlar, uzunqulaqlar, cüt və qoşqu heyvanlarından isə öküzlər və kəllər də nallanırdı.

Amma elə ki, axşam olurdu, hava qaralırdı, nalbənd dükanları bağlanırdı, bir müddət boş qalan bu dərbənd sonra yavaş-yavaş izdihamla



dolub daşaraq şam satılan və şamlarla işıqlanan bir bazar meydanına çevrilirdi ki, bu şam bazarı şəhərin yəhudilər məhəlləsindəki meyxanələr kimi gecə yarısından çox sonraya qədər açıq olurdu.

Və bu şam bazarına şam almağa gələnlər çox tez bu bazardan çıxıb gedirdilərsə, şübhəli kölgələr gecə yarısına kimi burda izdiham içində vurnuxurdu, çünki bu yarıqaranlıq və boğuq hənirtilər istər halal olsun, istərsə də haram, nə satır və nə alırdısa, ucuz illətsiz, baha hikmətsiz deyildi. Burda istəyən imanını çox baha qiymətə şeytana sata bilirdi. Yaxud həyatını çox ucuz qiymətə bir sələmçi yanında girov qoya bilirdi. Burda gözləri kor olan bir falçı hərflər vasitəsilə fal açırdı və qara nöqtələrlə dolu bir aynada iqbalını sənə göstərirdi. Burda yarıçılpaq bir dərviş qara sövdalılara od bahasına bir ovuc ağ arpa satırdı ki, dualanmış o ağ arpanı aparıb bir gözəlin yaşadığı dalana səpəndə o afətin ürəyində pərəstişkarına qarşı ehtiras odu alovlanırdı. Burda bir cadugər ağ yumurtaları bir-bir ağzına alırdı, sonra o yumurtaları bir-bir ağzından qıpqırmızı çıxardırdı. Və kim ki, o qırmızı yumurtalarla hazırlanan ilan ətin yeyirdi cavanlığı geri qaytarırdı, yaxud tükənmiş kişilik qüvvəsini yenidən bərpa edirdi və burdan müəyyən fasilələrlə ağ çadırları çiyinlərində ilişib qalmış qırmızı meşin şalvarlı qadınlar gəlib keçirdilər ki, çoxlarını sevmiş o qadınlarla müvəqqəti evlənmək istəyənlər əvvəlcə mütləq şəhər qazisi yanında kəbin kəsdirməli idilər.

Barsis ilə ustanın kiçik oğlu axırıncı dəfə bura, nalbəndlər dərbəndinə gəlmişdilər və hər dallarındakı torbalarda gətirdikləri nalları tanış nalbəndə təhvil vermişdilər, sonra boş torbalarını çiyinlərinə ataraq geri dönərkən, ustanın oğlu çıxıb getmişdi. Barsis isə birdən elə bil büdrəmişdi, ayaq saxlamışdı, üzünün ifadəsi dəyişilmişdi və dərbənd başında görəsən bir qafilədən gözlərini çəkə bilməmişdi, çünki bir an ona elə gəlmişdi ki, aran biçinçiləri kimi başları boz ləçəkli, ayaqları çarıqlı və əyinlərinin cın-cındırından cin ürkən bu adamlar onun həmkəndliləridir. Və haçansa onlar da Barsis kimi uzaq Boz quş dağları qoynundakı Günabad kəndindən yola düşüblər, amma aranda taxıl yandığı üçün biçinçilər dura bilməmişdilər, ona görə baş alıb həftələrlə bu şəhərə doğru gəliblər ki, Ərdəbildən sonra bu dünyada ən ucuz çörəyi ilə məşhur olan Həmədanda bir qarın çörək pulu qazansınlar və indi bu saat onlar yaxınlaşan kimi nəinki Barsis bir-bir onları tanıyacaqdı, eyni zamanda onlar da Barsisi tanıyacaqdılar və hətta Barsisin üstünə düşəcəkdilər ki, od aparsın səni uşaq, sən hara, bura hara? Kənddə qoca baban iti

itmiş çoban kimi dağa-daşa düşüb səni axtarır, elə biz özümüz də vaysınlanırdıq ki, səni qurd-quş basıb yeyib, tələf olmusan...

Sonra Barsis məyus olmuşdu, çünki dəstə yaxın gəlmişdi və Barsis çox tez ayırd eləmişdi ki, bu adamlardan heç birinin üz-gözü ona tanış deyil. Amma bu qafilədəki kəndlilərdən hər birinin arxasınca yeniyetmə bir qız uşağı gəlirdi ki, o qızların gözlərindəki qızdırmalı bir işıltı, aclığın alışdırdığı o qara işıltı. Barsisə çoxdan tanış idi.

Nəhayət, o kiçik qafilə Barsisin yanından keçmişdi və qarşı tərəfdəki artıq qapısı bağlanmış nalbənd dükanı qabağında özlərinə yer seçib oturmuşdular, say dizlərini qaldırıb qucaqlamışdılar və arxalarını bağlı qapıya söykəmişdilər, yanlarındakı qızlar isə yırtıq, bədrəng çadralarına bürgələnərək hər biri o kəndlilərdən birinin başı üstündə dimdik dayanmışdılar, gözlərini yerə dikmişdilər.

Və Barsis ürəyinə daman uğursuz bir hissin tolaşı içərisində nə isə baş verəcəyini gözləməyə başlarkən, bu intizar uzun çəkməmişdi.

Çünki elə o saat hardansa zahir olan bir əcuz ki, beli əyri bir qarı idi, əl ağacını tıqqatıq yerə döyərək o kəndlilərə doğru yönəlmişdi və salamsız-kalamsız dərhal bir-bir o yeniyetmə qızları əlləşdirməyə başlamışdı. Qarının xınadan qızartdıq kilkələrinə elə bil heç vaxt daraq dəyməmişdi və dişsiz ağzı bağlı pul kisəsi kimi büzməli idi, qırmızı nöqtələrlə səpgili gözlərinin ağı içində bəbəkləri işım-işım işıldayırdı.

Və bu əcuz, indi baş barmağı ilə şəhadət barmağı arasında bir-bir o qızların ordlarını sıxıb ağızlarını açırdı. Sədəf dişlərini yoxlayırdı, imsiləyirdi və xırıltılı səslə "bir gülsənə, başı batmış, – deyirdi, – gül görüm yanaqların çuxurlanıb qəmsizlənirmi?"

Amma qızlar gülmürdülər. Bir dəri bir sümük idilər və hər iki tərəfdən batmış ordlarının çuxurları aclığın möhürlədiyi acı qəmzələr kimi solğun bənizlərində həkk olub qalmışdı.

Barsisin isə rəngi qaçmışdı, alt dodağını dişləri arasına almışdı və bu vaxt arxasında bir-birinə qonşu dükanlarını bağlayan nalbəndlərdən biri demişdi:

– İmansıza bax. Elə bil at almağa gəlib və hər dəfə dağ kəndlərində aclıq başlayanda burda bu əcuzənin bazarı rəvac olur, bu bədbəxtlər də ki, nə müsəlman kimi müsəlmandılar, nə xaçpərəst kimi xaçpərəst.

İkinci cavan demişdi:

– Oğlan, qarın ac olanda nə din, nə məzhəb, nə tanrı? Deyirlər vaxtı ilə bir tayfa varmış və o tayfa xurma unundan xəmir yoğurub özləri



üçün çoxlu tarı və büt quraşdırırmış, amma sonra bir dəfə qıtlıq və qəhətlik ilində aclıq o tayfaya o dərəcədə güc gəlib ki, səcdə etdikləri bütün Allahlarını bir günün içində yeyib qurtarıblar və yaxşı da eləyiblər, çünki acın imanı olmaz deyiblər. İndi bu bədbəxtlər də oğlan uşaqlarını aclıqdan qurtarmaq üçün qız uşaqlarını qurban verirlər.

Sonra arxadan gələn o səslərdən biri Barsisə təpinmişdi:

– Sən nə durmusan burda ay uşaq? Get bala, bu söhbət hələ sənin xörəyin deyil.

Amma Barsis çıxıb gedə bilməmişdi və qeyri-ixtiyari olaraq qızları əlləşdirən qarıya doğru addımlamışdı. Qarı isə bu vaxt qızları əlləşdirib qurtarmışdı və indi kəndlilərdən birini burnu qabağında tutaraq, sövdələşməyə başlamışdı:

– Ortancıl oğlum üçün alıram bu qızı. Gəlinim olacaq, xınalı kəkliyim olacaq, buyur bu da mehriyyəsi, aç ovcunu, Allah xeyir eləsin!

Kəndli isə qarının ovcuna baxmışdı, köksünü ötürmüşdü və zarımışdı:

– Azdır qarı nənə, insafın olsun!

– Azdır? Ələmən sizin kimi əkinçidən. Əkinçi tayfası kimi naşükür bir tayfa, acgöz məxluqat yoxdur. Bir qızına bax, bədheybət, gərək buna bir il sorasər yağlı bozbaş yedirdəsən ki, heç olmasa bir qucaq dolduran sağrısı olsun...

Barsis boğazında düyünlənən acı qəhərdən boğulurdu. Qoca nalbənd haqlı idi, əlbəttə ki, bu adamlar oğlan uşaqlarını aclıqdan qurtarmaq üçün qız uşaqların qurban verirdilər. Necə ki, Barsisi aclıqdan qurtarmaq üçün Cunay da özünü qurban vermişdi.

...Yeraltı qazmada gecənin hansı aləmindəsə birdən yuxudan yuxudan oyanmışdı və qoca babası ilə Cunayın qazmanın ortasındakı sönmüş ocaq başında xısın-xısın nə barədəsə danışdıqlarını eşitmişdi. Uzun azarı olan babasının səsi gah sürəkli öskürəklər içində batırdı, gah elə bil quyu dibindən gəlirdi. Cunayın cingiltili səsi isə gah titrəyirdi, gah qırılırdı.

– Apar baba, – deyirdi Cunay, – qaravaş durmaq lazımdır, qaravaş duraram, kəniz olmaq lazımdır kəniz olaram təki Barsis ac qalmasın, təki odumuz-ocağımız sönməsin.

– Elədir qızım. Mənim uzun azarım var, bir ayağım qəbirdədir. Sən ki, qızsan, köçəri quşsan. Allah deyən olsa, səni aparıb bir Allah bəndəsinə nişanlasam, əvəzində otuz-qırx dirhəm mehriyə alsam o tifili aclıqdan qurtararıq və bir Allah şahiddir ki, birce dənə qara pul verseydilər

əvvəlcə mən özümü satardım və qapılarda qul durardım, təki o uşağın öynədə bir tikəsi olsun.

Yenə Cunayın səsi eşidilmişdi ki:

– Apar baba, apar, yüz canım olsaydı, hamısının bir-bir o uşağa qurban verərdim, apar baba. Zəncana aparırsan, Zəncana apar, Həmədana aparırsan, Həmədana apar. Qoy qismətim qürbətdə kənizlik olsun, amma Barsisim, körpə quzum ac qalmasın, böyüsün boya-başa çatsın.

Sonra Cunay susmuşdu. O Cunay ki, cəmisi ondan dörd yaş böyükdü və hələ Barsis çağa ikən onu dalına sarıyıb həyət-bacanı süpürərmiş, xamır yoğurmamış, sac üstündə yuxa çevirərmiş, meşəyə gedərmiş, ot-əncər yığarmış, qayıdarmış qazan asarmış, doğa bulayıb Barsisin qarnını doyurarmış. O isə əvəzində Cunayın saçlarını yolarmış, çünki qanmaz-annamaz bir cin toxumu imiş. Sonra o da böyümüşdü və Cunayın hərdən axşamlar qazmanın damı üstündə ağı deyib anasını yad etdiyinə qulaq asmışdı, çünki Cunay anasını görmüşdü, şəklini yadında saxlamışdı. Barsis isə anası öləndə bir yaşında imiş. Və anasının şəkli yadında qalmamışdı, buna görə Cunay ona böyük bacıdan artıq kiçik ana olmuşdu...

Handan-hana qoca yenə dillənmişdi:

– Ölməli mən idim, qız, – demişdi, – amma gəldilər və əhdi sındırdılar, sizi atasız, məni oğulsuz qoydular. Amma indi lazımdır ki mən ölməyəm, yoxsa bütün əbavü-əcdadım o biri dünyada yaxamdan yapışar ki, o uşağı orda ac qoyub hara gəlmisən. Məgər bilmirsən ki, qara bığ nəslinin yurdunda bayquş ular. Əgər ocağımızın külü altındakı o qor da sönsə. Elə özün görmüsən ki, dədən can verəndə bir yol da olsun nə sənin üzünə baxdı, nə mənim, çünki gözləri ancaq o uşağa zillənmişdi, nə sözü vardısa o uşağa demək istəyirdi. Amma deyə bilmədiyi o sözü ürəyində apardı...

...Qaranlıq yeraltı qazmalarda yaşayan Günabad kəndi üç ildi ki, xərac vergisini ödəyə bilməmişdi və hər dəfə Təbrizdən gələn ibn Rəvvadın təəssübdarları əliboş geri qayıtmışdırlar.

Nəhayət bu yay Vəcna ibn Rəvvad xəstə yatan böyük qardaşının əmrilə başında böyük bir atlı dəstəsi özü Günabad kəndinin üstünə gəlmişdi.

Və o vaxt ki, Vəcna ibn Rəvvad qaşqa ürgəsini kəndin yuxarı başındakı bir qazmanın damı üstünə sıçratmışdı. Günabad kəndinin qazmaları, damları tir-tir əsmişdi.



Bütün kəndi Vəcnanın atlıları sarğı içinə almışdı və bu artıq bir kəndin düşmən qoşunu tərəfindən basqına uğramasını andırırdı; nə ələ keçirdisə qarət edilirdi. Bütün həyətlərdə güman gələn yerlər qazılırdı. Buğda-arpa basdırılan quyuların ağızları axtarılırdı. Çünki dağ kəndlərdə pərinc buğdası basdırılan bu quyuların ağzı suvanırdı, hamarlanırdı, üstünü ot-əncər basırdı və əgər kəndə basqın olurdusa, bütün kənd qaçıb dağa-daşa düşdürsə, yaxud meşələrdə gizlənirdisə, basqından sonra bu quyulardan salamat qalanları kəndi aclıqdan qurtarırdı.

İndi yoxsul bir kəndin qarəti nə qədər az nəticə verirdisə, qarətçilər getdikcə daha artıq quduzlaşdığı üçün kənd qadınları ilə uşaqların fəryadı göyə ucalırdı. Bu vaxt Vəcnanın atlılarından iki nəfəri Barsisgilin həyətində atlarından yerə sıçramışdılar və qazmanın qapısı ağzında ayaqlarına dolaşan Barsisi vurub qırağa ataraq içəridə bir başa Cunayın üstünə cummuşdular. Cunay isə çığırmışdı, qaçıb özünü atasının üstünə atmışdı...

Bir qayda olaraq xərac vergisini ödəyə bilməyən kəndlərə basqın zamanı çox vaxt qara gözlü, uzun kirpikli yeniyetmə qızlar ovlanaraq girov kimi şəhərlərə aparılır və xərac vergisi toplayan təəssübdarlar qızların vergi ödənildikdən sonra kəndlərinə, evlərinə, ata-analarına qaytarılacağını şərt qoyurdular. Amma gedənlərdən çox azı geri dönürdü. Çünki bir parası xəbərsiz-ətərsiz yoxa çıxırdı, digərlərinin sorağı çox uzaqlardan gəlirdi. Bəziləri isə özləri şəhərlərdə ilişib qalırdılar və doğma yurdlarını ürəklərində dəfn edirdilər.

İndi Cunayın çığırtısını eşidərkən Barsis yıxıldığı yerdən sıçrayıb ayağa qalxmış və yarıqaranlıq qazmada atasının o iki nəfərlə əlbəyaxa olduğunu görərək qaçmışdı, qazmanın ağzına atılmış çırpı şələsi üstündəki dəhrəni qaparaq o iki nəfərin üstünə cumarkən bu dəfə Cunay ikinci dəfə çığırıb atasının arxasından çıxmışdı və özünü Barsisin üstünə ataraq, dəhrəni Barsisin əlindən almaq istəmişdi. Və bu vaxt Barsisi taparaq Cunayı aradan çıxarıb xilas eləmişdi, böyüklərin görə bilmədiyi bir işi görmüşdü. Cunayı arxasınca sürüyüb qazmadan çıxarkən həyətdə cilovları yəhərləri üstünə atılmış atlardan birinin belinə sıçramışdı, əlini uzadıb Cunayı tərkinə qaldırmışdı, sonra kəndin yuxarı başından dağ döşündəki meşəliyə doğru çapmışdı və orda meşənin qalınlığında Cunayın təkidilə atı çubuqlayıb geriyə kəndə tərəf qovmuşdu. At isə çapıb getdiyi yolu baş aşağı addımlaya-addımlaya geri dönərkən qarabuğ oğlunun qazmasında artıq fəlakət baş vermişdi. Atının

oğurlandığından quduzlaşan qarətçinin qılıncı Barsisin atasını ölümcül bir zərbə ilə yerə sərmişdi...

Barsis ilə Cunay isə hava qaralandan, Vəcnanın atları kəndlərdən uzaqlaşandan sonra, meşədən çıxmışdılar. Və kəndə doğru yüyürmüşdülər. İşıqsız qaranlıq kənddə artıq kişi səsi eşidilmirdi. Gah uzaqda, gah yaxında ağı deyən qadınların səsləri, kənd itlərinin üzüntülü ulartıları və kiçik uşaqların ağlayışları bir-birinə qarışmışdı.

Cunay ilə Barsis qaranəfəs özlərini içəri salanda, çoxdan xəstə yatan babaları ölümcül yaralanmış oğlunu gətirmişdi, öz yatağında uzatmışdı və qocanın bir qoyun dərisindən ibarət olan yatağı yanında torpaq döşəməyə sancılmış bir görməşov çubuğu yanırdı ki, ta qədimdən dağ kəndlərinin şamı və çırağı olan o yanar gərməşov çubuğunun işığında can verən ata başı yanında diz çökən Barsisi gördüyü üçün gözləri geniş açılmışdı. Elə bil əzraildən möhlət almışdı və bu anda baxışları yalnız Barsisə zillənib qalmışdı və dodaqları tərpənməyə başlamışdı, amma dili söz tutmamışdı və Barsisin babası can verən oğlunun üstünə əyilmişdi, oğlunun nə dediyini eşitmədiyi üçün fəryad eləmişdi:

– Bir söz de a qurbanın olum, bir söz de, bilim nə deyirsən, nədi arzumanın elə baxırsan?

Və qoca ağlamağa başlamışdı. Cunay da evin yeganə qadın xeylağı kimi ağı deməyi özünə borc bilərək “yeddi gün yeddi gecə ağlayacağam, ay dədə, atımı çöllərdə bağlayacağam ay dədə” – deyə hönkürmüşdü.

Barsis isə ağlamamışdı, çünki dili söz tutmayan atasının baxışları ona demişdisə hamısını eşitmişdi. Və atası ona: “evimin böyüyü oğul, ağlamazsan, – demişdi. – Başına döyüb vaylanmazsan, – demişdi. – Böyüyərsən, igid yaşına dolarsan, – demişdi. Atanın qanını düşmənin qara qanı ilə yuyarsan”, – demişdi.”

Sonra o vaxt ki, atası baxışlarıyla sözünü deyib qurtarmışdı birdən gözləri şüşələnmişdi və Barsis aşağı əyilmişdi, atasının gözlərini qapamışdı.

...Və o gündən Barsisin qoca babası bütün günü yatıb qaldığı yatağına yaxın düşməmişdi. Gecəli-gündüzlü ocaq qırağında gah mürgüləmişdi, gah oyanmışdı, gözlərinin dərinində qara bir işıltı alışıb-yanmışdı. Və nəhayət bir gecə Barsisi yuxuya verəndən sonra Cunayı yanına salaraq pay-piyada dünyanın o başına yola düşmüşdü ki, hardasa böyük şəhərlərin birində qız nəvəsini ərə verəcəkdi, əvəzində kəbin haqqımehriyyə alacaqdı və geri dönüb Barsisi aclıqdan qurtaracaqdı.



Amma Barsis o çörəyə əl vura bilməzdi, Cunayın göz yaşları bahasına babasının evə gətirəcəyi əppək tıxanardı boğazında qalardı və əppəyin hər tikəsi ağu olardı, burnundan tökülərdi.

Buna görə idi ki, iki gün sonra səhərin alaqaranlığında sərçələr tut ağacında şivən salanda Barsis kənddən çıxmışdı. Boz quş dağlarından aşağı enmişdi və karvan yolu ilə baş alıb gedərək arxaya baxmışdı ki, orda qalanlar – yeraltı uçuq bir qazmadan, dibində bir ovuc arpa unu qalmış bir torbadan, göbələk papağına oxşar qara bir sacdan, sapı sınıq qədim bir xışdan, dişləri korşalmış bir oraqdan, boşqab boyda bir kirkirədən, gil yamaqlı bir su səhəngindən və hər il pıtraq kimi bar verən bir tut ağacından ibarətdi. Bundan sonra həmişəlik olaraq qara bir viranənin məskəni yiyəsiz qalacaqdı...

...İndi isə hava qaraldıqca qaralırdı. Şəhərin şam bazarı izdihamla dolmağa başlamışdı. Və inadkar kəndli ilə sövdəsi baş tutmayan o əcuzə yenə çəliyini tıqqatıq yerə döyərək şam bazarından çıxarkən Barsis də gözləri heç bir şey görməyən, amma hara isə baş alıb gedən yuxulu gəzərlər kimi o qarının arxasınca düşmüşdü. Çünki özünü inandırmışdı ki, yazıq babası da bu kəndlilər kimi Cunayı bu şam bazarına gətirmişdi, Cunayı bu qırmızı kilgəli qarı alıb aparmışdı. Və indi Cunay bu qarının evində qaravaşdırsa, qarı gedib öz qapısını döyən kimi içəridən Cunayın “gəldim” deyən səsi eşidiləcək və Cunay qarı üçün qapını açanda o bir anlığa Cunayın üzünü görəcəkdi.

Amma qaranlıq və darısqal bir döngədə qarı birdən-birə yoxa çıxmışdı, çəliyinin tıqqıltısı kəsilmişdi və Barsis o qaranlıq döngədə tək qalmışdı. Və döngə elə bil dərin bir dağ kimi Barsisin başı üstündə göyə ucalmışdı, arxasındakı çökək həyətləri də gizlətmişdi. İndi o səhəri dirigözlü burda açacaqdı. Hava işıqlananda bu döngədəki bütün qapıları döyəcəkdi. Əgər Cunay bu döngədəki evlərin birində, qarının yanında qaravaş idisə, o da qalabənd olub bu şəhərdə qalacaqdı. Məscidlərə su daşıyan uşaqlara qoşulacaqdı. Bir qarın çörək pulu qazanacaqdı və bir gün fürsət tapıb Cunayı qarının evindən qaçıracaqdı. Gecələr karvan yolu ilə Boz quş dağlarına doğru gedəcəkdilər, gündüzlər yoldan çıxıb dağda-daşda gizlənəcəkdilər... Birdən səksənmişdi. Yaxında çox alçaq bir qapı açılmışdı, qaranlıq dalana titrək bir işıq düşmüşdü. Sonra o qarı özü əlində uzun və qırmızı bir şam o alçaq qapıdan çıxmışdı və qapı ağzındakı üstü mişarlanmış girdin kimi çox hamar olan dəyirmi bir daş üstündə oturmuşdu.

Və bu andan Barsis geniş açılmış gözlərilə elə bil bir röya görməyə başlamışdı ki, qırmızı bir şamla işıqlanmış o qaramat röyada başları ağ çadralı bir qatar qız bir-birinin ardınca başlarını aşağı əyərək qarının çox alçaq və yaşıl rəngli qapısından döngəyə çıxmışdılar və gəlmişdilər. Barsis nəfəsini dərməmişdi. Gözləri dörd olmuşdu. Qaranlıqda üzlərini yaxşı seçə bilmədiyi o qızlar içində doğma bir simanı görəcəyi ümidilə ürəyi döyünməyə başlamışdı, amma sonra çox tez ayırd eləmişdi ki, o qızların hamısı Cunaydan bir boy ucadılar. Və əgər içlərində Cunay olsaydı, başı o qızların çiyinlərindən çox aşağı qalardı.

Bu vaxt döngə başında ayaq səsləri eşidilmişdi və orda olan bir qaraltı çalxalana-çalxalana, gah sağa, gah sola ləngər vura-vura üzü bəri gəlmişdi. Bir başqa qapıya doğru yönəlmişdi, salamsız-kalamsız qarının əlindən şamı qapmışdı və qırmızı şamla bir-bir qızların üzlərini işıqlandıraraq birincidən ikinciyə və ikincidən üçüncüyə keçərək getmişdi, qızların ağ cərgəsinin axırına çıxmışdı. Sonra ordan geri qanrılaraq birnəfəsə demişdi:

– Ey küpəgirən imansız, eşitdim keçən həftə şam bazarında taza gül almısan. Və mən ki, üzümün üstünə bir üz qoyub bura gəlmişəmsə, sən gərək o gül rənanı mənə göstərəsən!

Qarı başına bir qazan qaynar su tökülmüş kimi ayağa sıçramışdı və quyruğu tapdanan bir ilan kimi fışıldamışdı ki:

– Belə sən çox qələt eləyib bura gəlmisən, çünki bura gələn bir kəsin gərək mərifəti olsun. Yox əgər qaysavadan pay uman kimi bura gəlmisənsə, dediyin o gül sənin o çopur burnun üçün deyildir.

İndi də məst-xumarın başına elə bil bir badya soyuq su endirilmişdi. Və bir an nitqi batmışdı, gözlərini döyə-döyə qalmışdı, sonra ağzından gövhər saçan bu əcuzəyə yaltaqlanmağa başlamışdı:

– Əl aman ey qarı, başına and olsun ki, mənim dilim bir az zinakərdir, amma, ürəyim tərtəmizdir və demək istədiyim o idi ki, əgər o qönçəyə yad nəfəsi dəyməyibsə halalım olardı və mehriyəsi nə qədərdir, sən deyərdin, mən əsirgəməzdim.

Bir anda bir çəngə küləş kimi alışmış qarı indi bir çəngə küləş kimi də tez sönmüşdü. Qayıtmışdı öz yerində oturmuşdu və demişdi:

– Onda öz bəxtindən küs, çünki çox gecikmisən, və o gül ki, hələ açılmamış idi, apardım bu ilin hesabına valinin baş hərəminə peşkəş verdim.

– Evin başına uçulsun, qarı, kim inanar ki, valinin baş hərəmi o ilin və ya bu ilin hesabına səndən peşkəş alır?



– Əlbəttə ki, heç kəs inanmaz. Amma cəmi şəhər bilir ki, əgər valinin o həşəri arvadına mən hər ilin üç bayramında bir qədəri-qüvvə peşkəş aparmasaydım vali çoxdan tifaqımı dağıtmışdı və bu halal kəsbkarlığım əlimdən getmişdi.

– Qulaq as qarı, xəlifə Məmun keçib gəldiyi bütün şəhərlərdə yekşənbə günləri şikayətçiləri hüzuruna qəbul eləyir, özü də hamıdan əvvəl o şəhərin zənən xeylağından sənin kimi Nuhu taxtda, Süleymanı qundaqda görmüş bir qarının şikayətinə qulaq asır, indi ki vali sənə zülm eləyir...

– Annamaz bir tifil kimisən, oğlan. Xəlifə hamıdan əvvəl qəddi bükülmüş, beli əyilmiş o qarıya qulaq asır ki, şəhər hakimi əvvəlcədən o qarının dərsini verib xəlifənin hüzuruna buraxır.

– Və həqiqətən sənin bilmədiyinə qor düşər qarı, elə isə bunu da bil ki, mən qumarda uduzduğum haram pulu savab işə sərf etmək üçün and içmişəm... Ona görə elə indi ki, bura gəlmişəm, qoy elə bu qaranlıq döngədə bu ağ cücələrdən biri məni öz xoşumla qarət eləsin.

– Elə isə atan rəhmətlik, oğlan. Axır ki, gəldin mətləb üstünə. Hərçəndi yenə bir az da yöndəmsiz danışırsan, amma elə qədimdən rəvayətdir ki, "verdiyin sənindir, vermədiyin özgənin". Çünki nə verəcəksən əlinlə gedəcək səninlə. Bayaq özün əlinə şam alıb öz gözünlə gördün ki, mənim cücələrimin hamısı qızıl dinar kimi bir-birindən göyçəkdilər, indi də gərək sən özün əlini pul kisəsinə salıb dən çıxardasan ki, o cücələrdən biri sənə rəğbət eləsin.

– Başa düşdüm ey çox bilmiş qarı. Bilirsən ki, kisəm doludur? Nə olar? Buyur bu daş, bu tərəzi, bax, bu meydan, bu da şeytan...

Və məst-xumar boğazı büzməli, qıraqları gül muncuqlu pul kisəsini dartıb qurşağı altından çıxarmışdı. Amma kisənin ağzını açmağa macal tapmamışdı ki, birdən divar boyu düzülmüş o qızların hamısı yerlərindən qopmuşdular və gecə qonağını elə bir sarğı içinə salmışdılar ki, qadın nəfəsinin yaxınlığı məst-xumarın ixtiyarını əllindən almışdı, pul kisəsini əlindən buraxmışdı və o ağ çəmbər içindən qarını səsləmişdi:

– Qulaq as, ey əcuzə. Mənim ki, yeddi göydə bir ulduzum yoxdur, və yerdə ənisim[1] ancaq boz bir çəyirtkədir, qoy bu ağ cücələrin cümləsi bu gecə elə topdan mənim olsun, çünki əslində mənim başqa bir təmənnam yoxdur. Və əgər varsa, başımı yumşaq diz üstə qoyub ağlamaqdı muradım.

[1] Yolda həmsöhbət

Qarı bir an duruxmuşdu, yaddaşında nə isə alışıb yanmışdı və bayaqdan bəri tanımaq istədiyi bu adamı nəhayət tanımışdı: elədir, o bu bazar şairi idi ki, bütün günü nazik buduna bir sap bağladığı boz bir çəyirtkəylə "ey xiridar" deyə bazarda gəzirdi. Və bu xiridar nidasından izdiham səksənib yarılırdı. Bu vaxt çəyirtkə irəli sıçrayırdı. Amma o saat buduna bağlanmış sap dartılırdı. Çəyirtkə bir mənzil uçub yerə düşürdü və izdiham hırıldayırdı. Beləliklə dövrəsində oturan cavanlar bazar şairini fərəhli nidalarla qarşılayırdılar, yuxarı başda ona yer göstərirdilər. O isə çəyirtkəsini bucaqların birində papağı altında dustaq edirdi, saçlarını çiyninə dağıdırdı, sonra gəlirdi qara dövrəsində otururdu və burda onun hər dəfə bədahətən dediyi yancağı açıq şeirləri içində mis kimi cingildəyən bir misra o gün bütün bazar əhlinin dilində əzbər olurdu.

İndi belə bir xanəxarabın başını yumşaq bir diz üstə qoyub ağlamaq üçün bir gecədə bir kisə dirhəmin göyə sovuracağına qarının artıq şübhəsi qalmamışdı. Və artıq gecə yarısına kimi burda oturmayacağı, əriyən şamları bir-biri dalınca dəyişdirməyəcəyi üçün qarının gözləri işıqlanmışdı, tez ayağa qalxmışdı və qızlarının hamısın bazar şairilə bir yerə qovub qapıdan içəri salmışdı, sonra əlində şam çox alçaq və tünd yaşıl rəngli qapısını bağlamaq istərkən birdən hardansa qaranlıqdan çıxan bir oğlan uşağı özünü irəli atmışdı və dili topuq çalaraq zarımışdı:

– Qarı nənə... can nənə... o qızın nə idi?

Və qorxu bilməz bir ifritə indi bu uşaq səsindən səksənmişdi, qapı ağzından geri çevrilmişdi, şamın işığı Barsisin üzünə düşmüşdü. Qarı bir an gözlərini döyə-döyə qalmışdı. Sonra birdən bütün vücudu, qarnı qəhqəhələrlə çalxanmışdı, uğunub özündən getmişdi. Və bu axşam qarının əlinə nadir bir vücud keçmişdi ki, ona görə keyfi durulmuşdu. Aladağa çıxmışdı və indi qarnı tox qoca pişik kiçik bir siçan balasıyla oynamağa başlamışdı.

– Vay olsun od aparmış şeytan toxumu, mənim bir qatar qızım var, necə yəni o qızın adı nə idi? Yoxsa indi də badımcan durub üstümüzə gəldi? Deməli sən axşam hər gəlib burda marıtlayırsan. Oğru pişik kimi xəlvətə salıb müft-müsəlləm, qızlarıma baxırsan və xumarlana-xumarlana müft dəm alırsan?

Barsis boğularaq fəryad eləmişdi:

- Yox... Bunları demirəm... O biri qızı... Onu ki, aparıb valinin arvadına peşkəş eləmisən.

Qarı əlini şappadan yambızına çırpmışdı:



– Mən qınayan qarının qarnı yansın, buna da, incə bala sorçəyə də bir qatar qız bəs eləmirmiş. Vallah onda o dəli dərviş elə düz deyirmiş ki, bir zaman gələcək ki, kök inəklər öz arıq buzovlarından süd əməcək...

İndi artıq heç bir şeyi başa düşə bilməyən Barsisin başı taqqıldamışdı, ağrı-acısı qalmışdı, qarı isə tumanının ətəyini qaldırıb gözlərinin yaşını silmişdi və Barsisə təpinmişdi:

– Sürüş burdan xakbəsər, nə olub, nə xəbərdir! Bu gün sabah bir şəhərə gedərsən, pul kəsərsən, karvan soyarsan, elə ki, ciblərin dirhəmlə doldu, onda gəlib qarı nənənin qapısını döyərsən. Dayan görüm! Gözlərinə bax, başuva çadra salsam görən elə bilər ki, sən özün gözəl qızsan. Düz deyirəm vallah bu gözlər ki, səndə var, əgər Yusif gedib Fironun ölkəsində təkcə Züleyxanın əndamına od salmışdısa, bığ yerin tərləyəndə sən bu şəhərdə nə qədər Züleyxa varsa, hamısının sinəsinə dağ çəkəcəksən...

Kirimək bilməyən qarı nəhayət, kirimişdi və əlini uzadıb soyuq sümük barmaqlarıyla Barsisin çənəsini oxləmək istəmişdi. Barsisin əti çimçəşmişdi, geri sıçramışdı, sonra çox alçaq və tünd yaşıl rəngli qapı örtülmüşdü.

Və Barsis yenə o qaranlıq döngədə tək qalmışdı.

*1984*

# İKİNCİ HİSSƏ

## Azərbaycan dağları. Bilalabad kəndi.

Gecədən xeyli keçmişdi. Bütün kənd yatmışdı. Quşbaşı qar yağırdı.

Bir dəstə atlı çaparaq kəndə girdi. Atlılar kənd içilə çaparaq uca hasarlı bir ev qarşısında dayandılar. Bir nəfər atdan yerə sıçradı, böyük darvazanın dəmir toxmağını çalmağa başladı. Handan-hana darvaza arxasından bir səs eşidildi:

– Ey adam, kimsən?

– Aç qapını – görərsən.

Yaşıl darvazanın bala qapısı açıldı, əlində qara çıraq tutmuş başı külahlı bir nəfər küçəyə çıxdı, lakin qarşısında bir nəfər əvəzinə bir dəstə atlı görərkən, qaşları çatıldı və başını geri çevirdi, kimi isə səslədi:

– Ey gecə çırağı, harda yubandın?

Dərhal pəhləvan cüssəli, qulaqları cüt sırğalı qapqara bir qul əlində məşəl, başını əyib bala qapıdan küçəyə çıxdı və ağasının arxasında əmrə müntəzir dayandı.

Atlıların başçısı ev sahibinə dedi:

– Zəncandan gəlirik, ey kətxuday, yolda yubandıq. Dağlarda çovğundur. İzin ver, bu gecəni sənin kəndində, sənin evində qalaq.

Kətxuday dinmədi, qaramat baxışlarilə məşəl işığında atlıları gözdən keçirməyə başladı. Aralığa sükut çökdü. Atından yerə sıçramış gənc dedi:

– Nə durub baxırsan, ey kətxuday? Tanımadın Cavidanı? Şəhrək oğlu Cavidanı ki, Bəzzeyn dağlarının hakimi, Bəzz qalasının sahibi və ağköynək xürrəmilərin sərvəridir?!

Kətxudayın əlindəki qara çıraq titrədi, lakin üzünü Cavidana tutub təmkinlə dedi:

– Ey Cavidan, bir dəfə Miyanıç bazarında mən sənə rast gəldim, amma qəsdən tanımadım səni, çünki mən divan adamı, sən isə bir asi idin. Və əgər tanısaydım səni, gərək dərhal yapışaydım yaxandan... Və indi də mən səni görmüşəm, nə sən məni!

C a v i d a n. Qulaq as, ibn Boyat, atlar yorulub, yolda qalmışıq. Ocaq ver bizə, çörək ver bizə atlara yem ver, və havayı istəmirik – al!

Və Cavidan qoltuğundan çıxartdığı kiçik pul kisəsini yuxarıdan aşağı kətxudayın üstünə atdı. Lakin ibn Boyat yerindən tərpənmədi və pul kisəsini arxasında dayanmış qara qul tutdu.



İ b n  B o y a t. Bir də deyirəm, ey Cavidan, mən yatmışam və xəbərim yoxdur ki, kəndə kim gəlib və səhər tezdən xəbərim olmayacaq ki, kənddən kim çıxıb gedib...

Və İbn Boyat pul kisəsini qara quldan alaraq yuxarıya, Cavidanın üstünə atdı. Bu dəfə Cavidanın atlılarından biri pul kisəsini havada tutdu. Cavidan isə çəkməsinin qunçuna keçirdiyi qamçını dartıb çıxartdı. ibn Boyat yerindən tərpənmədi və dedi:

– Toxunma mənə, ey Cavidan, əgər istəmirsən ki, qan tökülsün. Amma qəsdin evimi talan etməkdirsə, bu saat əmr edim, qul darvazanı açsın!

Cavidan əlini saxladı və dedi:

– Biz heç kəsin evin talan etməmişik, İbn Boyat! Biz ancaq xərac karvanlarından bac almışıq. Və sənin talan edilməli bir şeyin də yoxdur. Çünki dədə-baba torpaqlarını Əzd qəbiləsi çoxdan qapıb əlindən alıb və ibn Rəvvad qardaşları səni bir xoruza yük eləyiblər...

İbn Boyat sevər yerindən yaralanmış kimi bir an boğuldu. Sonra başını dik tutub dedi:

– Bu çərx-gərdundur, ey Cavidan, əvvəl bizə nə verirsə, sonra əllimizdən alır, amma əsil-nəsəbimiz həmişə bizimlə qalır. Və mənim ki, yeddi göbək yuxarıda yeddi arxa dönənlərim əcəm şahları və türk xaqanları ilə oturub-durublar, bu mənə bəsdir.

– Amma özün...

İ b n  B o y a t. Özüm də haqq yolun tapıb müsəlman oldum və indi əmirəlmöminin sadiq quluyam.

Hələ də atına minməmiş gənc xürrəmi davam gətirmədi, bağırdı:

– Sizi, namərd dehqanları hər yerdə belə gördüm. Siz o vaxt haqq yolun tapırsınız ki, yadelli əşrəflər qapıb torpaqlarınızı əlinizdən alırlar və o vaxt müsəlman olursunuz ki, hökumət xərac yığmağı sizə tapşırır. Və yenə başlayırsınız bizi soymağa, torpağa dən atanları, kirpiyi ilə od eşənləri...

Və gənc ibn Boyatın yaxasından yapışdı, lakin Cavidan əlini qaldırdı:

– İşin olmasın, nahaq qana bizim inandığımız izin vermir...

Və üzün qara olsun, ey kətxuday, çünki bir müsəlman qapısın döysəydik, indi çoxdan ocaq qırağında qızınırdıq...

Yaxasını gənc xürrəminin əlindən qoparan ibn Boyat birdən nə gördüsə diqqətlə baxmağa başladı, sonra istehzalı bir təbəssümlə dedi:

– Müsəlman qapısına niyə gedirsiniz ki, odur, ordan ucdakı dax-madan işıq gəlir, belə məlum Barmida arvad hələ yatmayıb və sizin kimi o da xürrəm – dindir... Deyirlər bu axşam böyük oğlu hardansa uzaq səfərdən gəlib... O arvada bir dirhəm versəniz, səhərə qədər can-başla qulluğunuzda durar.

Cavidan dönüb baxdı. Bütün işıqları sönmüş kənddə yalnız bir dax-madan işıq gəlirdi.

**Barmida arvadın daxması.**

Buxarıda arçan odunu yanırdı və buxarı başında Babək ilə anası üz-üzə oturmuşdular. Babək gur yanan ocaqdan doymurdu, əllərini ocağın alovunda ovuşdurub yuyurdu və nəhayət ocağın alovun iki əlilə ovuc-layıb üzünə çırpdı...

B a r m i d a. Hələ də canın qızmayıb, oğul?

B a b ə k. Bu dəfə yol çox ağır oldu, ana... qar, çovğun... bir də ki, ocaqda arçan odunu yananda nə ətrindən doymaq olur, nə istisindən...

B a r m i d a. Nə deyirsən, danışım ibn Boyatla? Yardarlıqla bir əlcə torpaq götürüb, əkərliyə başlardıq...

B a b ə k. Təbrizdən didərgin düşmüşəm, ana, amma Ərdəbil var... Və orda qılınc pardaxlayan ustalardan biri hələ bildir mənə demişdi ki, işdi, şayəd Ərdəbilə gəlsən, sənə iş tapılar.

B a r m i d a. Deməli, yenə gözümdən iraqda?

B a b ə k. Əgər oralar ucuzluqdursa, gəlləm sizi də apararam. Babəkin kiçik qardaşı Abdulla ki, daxmanın o biri küncündə yorğan altında yat-mışdı, birdən yorğanı başından atıb dik yatağında oturdu və dedi:

– Ərdəbilə, ana, Ərdəbilə, çünki Ərdəbilin süd kimi ağ əppəyi var... və mən Babəklə gedirəm Ərdəbilə...

B a r m i d a. Qaynama, otur yerində. Bir tikə boyu var, Ərdəbilə gedir.

A b d u l l a. O vaxt ki, Babək kənddən Təbrizə gedib, indiki məndən ancaq iki yaş böyük imiş.

B a r m i d a. Və o vaxt ki, Babək indiki səndən iki yaş kiçik idi, dağda qoyun-quzu otarırdı. Amma sən hələ də tumanından tutub gəzirsən.

Balaca Abdulla nə deyəcəyini bilməyərək üsyan elədi:

– Çünki bəhməz vermirsən, xaşıl bişirmirsən və cad əppəyi, arpa çörəyi yeməkdən dişimin dibi gedib.

B a r m i d a. Qudurasan, qart qurbağa, arpa çörəyi peyğəmbərlərin və müqəddəslərin çörəyi olub.



– Və inanan daşa dönsün, – deyə balaca Abdulla burnunu çəkdi.

Babək ixtiyarsız güldü və bu dəfə Barmida arvad pərt oldu:

– Kimə inanmırsan ədə, mənə, yoxsa peyğəmbərlərə?

Babək anasını sakit elədi:

– Bəsdir ana, nə düşmüsən uşağın üstünə.

Barmida kiçik oğlundan əl çəkdi. Şəfqətlə böyük oğluna baxdı:

– Gecdir oğul, sən də yıxıl yat. Mən təndirxanda ocaq üstünə sac qoymuşam. Sabah kənd arvadları gözaydınlığına gələcəklər. Gərək yuxa arasında tərək verəsən ki, ağızları şirin olsun!

Barmida arvad ayağa qalxıb daxmadan çıxdı. Babəkin gözləri di-vardan asılmış tənburə sataşdı. Balaca Abdulla da başını qaldırıb divar-dan asılmış tənburə baxdı.

B a b ə k. Tellərin qırmamısan ki?

A b d u l l a. Anam qoyur ki... deyir tənbur çalmaq sənin xörəyin deyil.

B a b ə k. Dur gətir bura, görüm.

Abdulla ayağa sıçradı, tənburu mıxdan çıxartdı, gətirdi Babəkə verdi, Babək bir müddət tənburu köklədi, sonra yavaşdan çalmağa baş-ladı. Balaca Abdulla heyranlıqla qardaşının üzünə baxır, tez-tez göz-lərini qırparaq qulaq asırdı...

Sonra Babək bir an əlini saxlamışdı ki, Abdulla tez soruşdu:

– Təbrizdə öyrənmisən, yoxsa Miyanıçda?

B a b ə k. Burda, sən boyda olanda, ibn Mingənin qullarından biri öyrətmişdi mənə, – o vaxt ki, ibn Mingənin çobanı idim.

A b d u l la. Müsibət çalırsan, adın de, yadımda qalsın!

B a b ə k. Qədim havadır, adı "Sərvstan", macal tapanda öyrədərəm, sən də çalarsan.

Daxma arxasında nal səsləri və at kişnərtisi eşidildi, sonra qapı bərk-dən döyülməyə başladı...

Babək tənburu Abdullaya verib cəld ayağa qalxdı, taxçadan qəmə-sin götürüb köynəyinin altında gizlədi və tez daxmadan çıxdı...

**Daxmanın artırması. Kəllədə təndirxana.**

Barmida arvad əlindəki oxlovla qızmar sac üstündəki yuxaları tez-tez tərsinə və avandına çevirirdi və balaca Abdulla anasının tabağa atdığı yuxuları içəriyə daşıyırdı.

...Daxmanın içi Cavidanın adamlarıyla dolmuşdu və adamlar iki cərgəyə bölünüb həsir üstündə qarşı-qarşıya oturmuşdular. Ucuz qə-

ləmkar süfrə üstündə yuxa qalaqları, baş soğan və kasalarda şüyüdlü şor vardı və çox üşümüş, çox acımış adamlar iştaha ilə yeyirdilər.

Cavidan ilə Babək isə süfrənin başında, buxarı yanında üz-üzə oturmuşdular.

Barmida əlində bir kuzə içəri girdi və dedi:

– Doqquz ildi bunu yerə basdırmışam və əhd eləmişəm ki, oğlum gələnə qalsın. Və indi ki, oğlum gəlib çıxdı, için, halal xoşunuz olsun!

Məclisdən sevincli bir uğultu qopdu. Barmida kuzəni və piyaləni qapı ağzındakı gənc xürrəmiyə verdi, gənc xürrəmi isə yuxarı başda oturmuş Cavidana tərəf baxdı, Cavidan gülümsədi:

– Elə ordan başlayın və əgər bizə də bir damcı qalsa, bilərəm ki, insafınız varmış.

Gənc xürrəmi piyaləni mət kimi qaramtul şərabla doldurub başına çəkdi və nəfəsini güclə dərib dedi:

– Başına and olsun ki, şərabı ki, Cəmşid şah icad eləmişdi, o da ömründə belə şahanə şərab içməmişdi.

Barmida arvadın gözləri güldü və çəkilib qapı ağzından getdi.

Kuzə ilə piyalə isə əldən-ələn keçərək, yuxarı başa doğru hərəkət edirdi...

**Təndirxana.**

İkinci xoruz banı idi, səhərə az qalmışdı, Barmida arvad hələ də təndirxanada sac üstündə yuxa çevirirdi. Balaca Abdulla yürüyüb anasının yanına gəldi:

– Hamısı yıxılıb yatdılar, ana, bir tək o çal papaqdan başqa, çünki o kişi söz soruşur, Babək cavab verir, sonra təzədən yenə söz soruşur və Babək yenə cavab verir...

Barmida arvad yuxanı sac üstündən götürüb ayağa qalxdı, gəldi qapı ağzından içəriyə baxdı. Cavidanın adamları bir-birinin yanında həsir üstünə döşənib yatmışdılar, içəri girməyə yer qalmamışdı. Buxarı başında oturmuş Cavidan ilə Babək isə fikirli bir halda başlarını aşağı salmışdılar. Barmida arvad öz-özünə pıçıldadı:

– Sən özün rəhm et, ey yaradan, görən axı nə istəyir bu adam mənim oğlumdan?

Barmida arvad yenə qapı ağzından çəkilib getdi. Cavidan maşa ilə ocaqdakı közləri eşələdi.



Elədir, Əzd qəbiləsi Rəbiyə qəbiləsini üstələyir və belə getsə, bütün Azərbaycana ibn Rəvvad qardaşları hökm edəcək...

– Və biz də qıraqdan baxıb tamaşa edirik, – deyə Babək kəskin bir hərəkətlə başını qaldırdı:

– Nəyə tamaşa edirik? – deyə Cavidan heyrətlə Babəkə baxdı.

– Ona ki, görək hansı qəbilə uzaqdan gəlmiş hansı yad qəbilə bizə ağa olub hökm edəcək... Rəbiyə qəbiləsi, yoxsa Əzd qəbiləsi?

Cavidan diqqətlə Babəkin gözlərinə baxdı:

– Səhərə az qalıb, vaxtdır, biz durub gedirik. Amma o sözləri ki, sən mənə dedin, o sözləri mən burda qoyub getmək istəmirəm və o fikirlər ki, sənin başından keçir, sənin də burda qalmağın məsləhət deyil! Ərdəbil fikrini çıxart başından! Və gedək mənimlə Bəzz qalasına!..

Babək bir müddət dinmədi, sonra gülümsədi:

– İndi mən anamın ixtiyarındayam.

Cavidan da güldü:

– Sən mənə mane olmasan, anadan mən icazə allam.

Cavidan ayağa qalxdı, bir-birinin yanına döşənmiş adamların arasından keçib eşiyə çıxdı, gəldi təndirxanada Barmida arvadın başı üstündə dayandı.

Barmida ocaq qırağında başını divara söykəyib oturduğu yerdə yuxulamışdı. Balaca Abdulla da başını anasının dizi üstə qoyub yatmışdı. İndi kiminsə, başı üstündə dayandığını hiss edərək, Barmida diksinib yuxudan oyandı və ayağa qalxmaq istəyirdi ki, Cavidan əlini Barmidanın çiyninə qoydu:

– Durma ayağa, uşaq oyanar. Görünürəm, sonbeşiyin çox kiçikdir və böyük oğlundan başqa heç kəsin yoxdur. Özün də əri öldürülmüş bir qadınsan. Ona görə ayda 50 dirhəm göndərəcəyəm sənə, qoy Babək mənimlə Bəzz qalasına getsin.

Barmida bir müddət çaş gözlərilə aşağıdan yuxarıya Cavidanın üzünə baxdı, sonra başını aşağı saldı və dedi:

– Ürəyim deyir ki, sən yaxşı adamsan, ey Cavidan, mənə 50 dirhəm göndərsən də sağ ol göndərməsən də... Amma indicə burda bir hovur gözümü yumdum və yuxumda qara-qura gördüm, gördüm ki, qara çalmalı qara atlı bütün Əzd qəbiləsi...

Cavidan dedi:

– Qorxma, ey qadın! Bilirəm oğlun ibn Rəvvadlara asi olub. Amma Cavidan da ölməyib. Bəzz qalasında Əzd qəbiləsinin əli ona çatmaz... Və onun öz əlində də qılınc olacaq!

**Bəzzeyn dağları. Sıldırımlı bir zirvədə Bəzz qalası.**

Ətrafı daş hasarlı Bəzz qalası içində ikinci bir qalacıq vardı və burda ucalan qədim bir qəsr Cavidanın iqamətgahı idi.

Qəsrin tava daşla döşənmiş yeraltı mərtəbəsində divara sancılmış hisli məşəllər yanırdı. Bucaqlarda isə nizə-qılınc və qalxan qalaqları vardı.

Və burda, yarıqaranlıq zirzəmidə Cavidan ilə Babək sağ əllərində qılınclar və sol əllərində qalxanlar bir-birinin üzərinə hücum edərək qan-tər içində vuruşurdular.

Babəkin növbəti bir zərbəsindən sonra Cavidan bağırdı:

– Bu nə zərbədir belə, ey nöcavan?

Babək bir an macal tapıb qolu ilə alnının tərini sildi və dedi:

– Bir dəfə Cürzan yolunda dağ quldurları ilə vuruşanda...

Cavidan onun sözünü kəsdi:

– Cavidan dağ quldurు deyil, sənin üçün! Zərbənin cavabı bax budur!

Və yenidən Babək ilə Cavidanın qılıncları bir-birinə çarparkən Cavidanın sərrast zərbəsindən Babəkin qılıncı əlindən çıxıb çox uzaqda yerə düşdü.

Babək qaçdı, qılıncını yerdən götürdü və bu dəfə elə bir şiddətlə Cavidana hücüm elədi ki, Cavidan davam gətirməyib geri oturduqca, Babək üstələdi və nəhayət Cavidanın kürəyi divara dirənəndə, çox yaxında bir qadın çığırtısı eşidildi.

Babək diksinib geri döndü.

Zirzəmiyə enən daş pilləkən başında gözləri geniş açılmış bir qadın dayanmışdı.

Cavidan qılıncını kənara ataraq qadına tərəf döndü:

– Yaxın gəl, gözümün nuru... Bilalabad kəndində gəncliyimə rast gəldim. Yanıma salıb Bəzz qalasına gətirdim. Qılınc vurdu, dəst-xətti yoxladım... yaxın gəl, sən də bax, körpə qartala oxşarı varmı?

Pilləkən başında dayanmış gənc qadın Cavidanın arvadı Zərnisə idi və indi o, ağır-ağır aşağı enməyə başladı. Sonra yaxın gəlib Babəkin qarşısında dayanarkən sanki gur saçlarının ağırlığı başını qanırıb geri dartdı, sol əli sağ tərəfdə örpəyi çəkib ağzına tutdu. Və qadın diqqətlə Babəkə baxdı. İndi yalnız gözlərini göstərən bir qadının bütün cazibəsi və sehri bir anda Zərnisənin gözlərində cəm oldu və bu gözlərin dərinliyində alışan qara qığılcımlardan sanki Babəkin gözləri [illegible]

– Alqış və günaydın, ey igid!

Başıaşağı dayanmış Babək cavab verdi:

– Alqış və günaydın, ey, Banu!

Zərnisə döndü, ərinə baxdı və gülümsədi.

– Gəncliyin başını qaldırıb üzümə baxmır.

Cavidan bəxtəvərcəsinə güldü:

– Neyləsin, dikinə günəşə baxmaq olur, sənə baxmaq olmur...

**Bəzz qalasının divarları üstündə.**

Yaz idi, dağ yamaclarında qar əriyirdi, axşam səmasında qartallar süzürdü...

Cavidan ilə Babək qala hasarları üstündə dayanmışdılar. Hər ikisi diqqətlə dərənin o biri tayında ucalan güney dağına baxırdı və aşağıdan yuxarıya güney dağına bir dəstə atlı qalxırdı...

Cavidanın qaşları çatıldı:

– O gün də sənə dedim ki, güney dağı tərpənməyə başlayıb... və dünən bir dəstə atlı qalxırdı ora... lənətə gəlmiş Əbu İmran... qışda ayı kimi öz kahasında yatıb pəncərəsini yalayır və elə ki, havalar istiləndi, dönür ac qurda və gecə basqınlarından gözümüz açılmır...

Babək xatırladı: Üzüm bağları arasıyla uzanan yol. Ağ karvansaradan çıxan böyük dəvə karvanı uzaqda üzü şərqə doğru hərəkət edirdi və Babək o karvana yetişmək üçün iti addımlarla yol gedirdi. Qırmızı dağın dirsəyi arxasından yola bir dəstə atlı çıxdı və atlıların önündə gələn bir süvari atının cilovunu çəkdi, dedi:

– Toxta ey Babək, sənə sözüm var. İndi ki, səfərin çox uzaqdır, lazımdır ki, son dəfə danışaq!

Babək ayaq saxladı, qarşısındakı atlını tanımışdı.

Vaxt dardır, ey Əbu İmran, tələsirəm ki, özümü karvana yetirim və yubanmağa ixtiyarım yoxdur.

Əbu-İmran yanındakı atlılardan birinə tərəf döndü:

– Düş atdan! Və gözləyin məni burda. Ey Babək, min, karvana sarı atı sürüb danışarıq...

Babək istər-istəməz atlandı və hər ikisi bir müddət yanaşı at sürüb dinmədilər. Nəhayət Əbu İmran dedi:

– Yadındadırmı Cürzan yolu? O vaxt mən də ibn Rəvvadlara qulluq edirdim və hər dəfə ibn Rəvvad məni karvanbaşı təyin edərdi, karvanlarına... və o axşam ki, dağ quldurları karvan üstünə hücum etdilər, çox

adam qaçdı, yanımda tək son qaldın və o zaman məni ölümdən sən xilas elədin...

B a b ə k. Mən qaçsaydım, sən məhv olardın, sən qaçsaydın - mən.

– Elədir, qaçmadıq və karvan da salamat qaldı. Amma mükafatımız nə oldu? İbn Rəvvad sənin muzdunu bir dirhəm artırdımı?

B a b ə k. Uman yerdən küsərlər.

- Haqlısan və kifayətdir ki, 9 yaşından gah ibn Mingələrə, gah ibn Rəvvadlara qulluq edirsən. Düzdür, bu gün Azərbaycanın tən yarısı ibn Rəvvadlara muzdurluq edir, amma sənin kimi nəcavan gərək öz baxtını şir ağzından qopartsın! İndi mən Mimed mahalında güney dağında oturmuşam və Ərdəbilə gedən hər karvandan insaf dairəsində bac alıram.

Bir dəfə sənə işmarış göndərdim, – gəlmədin. Amma bil ki, bu gün mənim igidlərimə qoşulsan, sabah yoxsulluğun daşın atarsan və altındakı bu dəli boz elə indidən sənindir...

B a b ə k. Ey Əbu İmran, mənim yolum ayrı, sənin yolun ayrıdır. Və heç vaxt qılıncla çörək qazanmağı qəbul etmərəm.

- Qocalanda zahid olarsan və yaxud hindli birəhmənlərdən dərs alarsan.

B a b ə k. Hindli zahidlər nə deyir, bilmirəm, amma mənim öz imanım, öz etiqadım var.

- Əgər öz etiqadına sadiqsənsə, – dağlara gəl! Çünki bu namərd şəhərlərdə dəyanət yoxdur, amma mərd dağlarımız hələ də İslam dininə boyun əymir.

B a b ə k. Bəlkə qaçıb dağlarda azadlıq tapardım. Amma bundan daha böyük arzum odur ki, dağlar təbil vurub bizi vuruşmağa çağırsın.

– Qiyam? Yenə Azərbaycanda ...

- Qardaş yaxşı olsaydı, Allah özü üçün yaradardı. Və onu da bil ki, hər gün mənim igidlərimin sayı artır və sən indidən imranilərə qoşulsan, vaxt gələr, özün bir dağ sahibi olarsan... Yetişdik karvana, nə deyirsən?

Babək aşırıldı atdan yerə düşdü:

– Bir qoca vardı, deyərdi ki, lənət olsun o kiçik balıqlara ki, didirlər böyük balığın qarnında bir-birini...

Və Babək döndü, karvana doğru getdi. Arxadan Əbu İmranın səsi gəldi:

– Fikrin xətərnakdır ey Babək, istərdim ki, başın çiynin üstündə salamat qalsın, amma bu gün ki, mənə dal çevirdin, istəməzdim ki, sabah tale bizi üz-üzə gətirsin.

...Xatirələrindən ayılan Babəkin üzü sərt bir ifadə aldı və o Cavidana müraciətlə:

– Ustad, – dedi, - əgər izin versəydin, mən gedərdim o adamın yanına.

– Dəli olmusan! Üç ildir bir igidim orda əsirdir, o da elçi getmişdi güney dağına, amma Əbu İmran qoluna zəncir vurub quyuya atdı... Və hələ də igidimi namərd əlindən xilas edə bilməmişəm.

Birdən hardansa, aşağıdan, dərədəki kol topları arxasından atılan bir ox vıyıltı ilə Cavidanın ayaqları altında, qala divarlarına sancıldı...

Cavidan aşağı əyildi, dartıb onu divardan çıxartdı. Oxa kağız bağlanmışdı. Cavidan oxu Babəkə uzadaraq, oxdan açdığı məktubu oxudu:

"Mən də divan gözündə asiyəm, sən də. Amma mən kahada yaşayıram, sən qəsrdə. Ya təqsim, ya ölüm! "

Babək: – Əbu İmran? – deyə soruşdu.

Cavidan: – Əbu İmran! – dedi.

– Təqsim nə deməkdir?

– Təklif edir ki, Bəzz qalası iki yerə bölünsün. Yarısı mənə qalsın, yarısına da o hökm etsin... Burda qala altında həmişə onun casusları və bələdçiləri olur – qala divarları üstünə qalxanda ehtiyatlı ol!..

B a b ə k. Lənətə gəlsin Əbu İmranlar! On ildir yollardayam, hər yerdə nifaq, hər yerdə ikitirəlik gördüm. Xırdaca kəndlər gördüm ki, yuxarı başı aşağı başı ilə vuruşurdu... Böyük şəhərlər gördüm ki, aşağı məhəllə yuxarı məhəllə ilə döyüşürdü... Və hər yerdə böyük balığın udduğu kiçik balıqlar naqqa balığın qarnında bir-birini didirdi... Ustad! Bizi yalnız böyük üsyan birləşdirə bilər, bizi yalnız böyük üsyan xilas edə bilər. Elə bir üsyan ki, aşağı yuxarının üstünə qalxsın və bu dəhşətli

yoxsulluq o dəhşətli zənginliyin üstünə qılınc çəksin! Taki o böyük yanğın içində içimiz də təmizlənib pak olsun!..

Və Babək əlindəki oxu qanırıb ikiqat böldü.

Cavidan bir an heyran baxışlarla Babəkə baxdı, gözləri yandı, sonra gözləri kölgələndi, köksünü ötürdü:

– Ey Babək, səni mən bura gətirmişdim ki...

B a b ə k. Başım salamat qalsın?

C a v i d a n. Ey səbr daşı, çatdadı ürəyimin başı... Və çatdısa da, dözməlisən. Çünki az olan biz həmişə çox qırılmışıq.

**Cavidan qəsri. Zərnisənin otağı. Gecə.**

Gecə keçmişdi, Zərnisə alçaq taxt üstündəki yatağında uzanmışdı. Cavidan isə yanındakı nimdar üstündə oturmuşdu. Çox fikirli idi, başın aşağı salmışdı.

Zərnisənin gözləri yuxarıya, tavana zillənmişdi və yuxarıdan qəsrin hansı hücrəsindəsə çalınan tənbur səsi gəlirdi...

Zərnisənin pıçıltısı eşidildi:

– Getdin... Hardasa gəncliyini tapdın... Qolundan tutub Bəzz qalasına gətirdin və indi gecələr yata bilmirsən...

Cavidan başıaşağı sanki öz-özünə dedi:

– Tək mən yox, o da yata bilmir...

Zərnisə dik atılıb yerində oturdu:

– Yoxsa elə bilirsən, mən yatıram? Yuxusuz gecələrimdən sərxoş kimiyəm, – Zərnisə ilan kimi fısıldadı, – qaytar onu, ey Cavidan, qaytar onu getsin!..

Cavidan başını qaldırdı, heyrətlə Zərnisəyə baxdı:

– Hara?

– Öz kəndinə, öz daxmasına, öz anasına ki, deyirsən çaşgöz bir qadındır.

– Heç vaxt! Və indi mən onu tək buraxsam, o məhv olacaq... Bir gün Varsan bazarında boynundan təbil asmış bir qiyamçı gördüm. Əvvəl təbil vurdu, bazar susdu. Sonra zülmə lənət oxudu və qıy vurdu ki, ey məzlumlar, arxamca gəlin, ya gərək insan bu dünyada azad olsun, ya gərək belə bir dünya məhv olsun! Məxluq bir-birinin üzünə baxaraq qalmışdı ki, hardansa çapıb gələn divan atlılarından biri at üstündən qılıncı elə çaldı ki, qafilin başı bir göz qırpımında ayağı altına düşdü...

Zərnisə pıçıldadı:



– Ey Cavidan, kimin alnında nə yazılıbsa, o olacaq...

C a v i d a n. Yox, tək əldən səs çıxmaz... indi ki, Əbu İmran qüvvə toplayır, sabah mən də yola düşürəm. Mütləq Mazyar ilə görüşməliyəm. Qoy dar günümüzdə Təbəristan xürrəmiləri bizə öz köməklərini əsirgəməsinlər.

Z ə r n i s ə. Mazyarın xürrəmiləri qırmızı köynəkdir, sənin xürrəmilərin ağ köynək...

C a v i d a n. Köynəklərimiz burda ağ, orda qırmızıdır, ulu Şirvinin ruhuna etiqadımızı birdir.

Yenə yuxarıdan tənburun səsi gəldi və indi bu səslərdə elə bir həsrət dil açmışdı ki, hər ikisi susub fikrə getdilər. Zərinsə yenə yatağında uzandı və gözləri yenə tavana zilləndi:

Əvvəl tənburun bütün simləri bir-birinə səs verib oxudu, sonra sarı sim fərqanə başlamışdı ki, qırıq bir cingilti qopdu və tənbur diksinib susdu...

C a v i d a n. Nə oldu görəsən?

Z ə r n i s ə. Dostgah tamamlandı, sim qırıldı.

C a v i d a n. Nə idi ki, çaldığı?

Z ə r n i s ə. "Səni görən gözlərim bəxtiyar oldu"

Cavidan başını çevirdi və uzun-uzadı gözlərini qapamış Zərnisənin üzünə baxdı...

**Bəzz qalası. Böyük darvaza. Dik yoxuşlu küçə. Cavidan qəsri.**

Yaz səhəri idi, dərələrdən dağlara ağ duman qalxırdı.

Babək qalanın böyük darvazası ağzında dayanmışdı. Atlı və yaraqlı Cavidanı yola salırdı.

Cavidan döndü, dağdan aşağı enən atlılarının arxasınca baxdı, sonra Babəkə dedi:

– Mənzil uzaqdır, səfərim uzun çəkəcək. Əgər Amul şəhərində Mazyarı tapmasam, gərək dağlara qalxam... Sayıq ol ki, körpə oğlumu, Zərnisəni və Bəzz qalasını sənin umuduna qoyub gedirəm. Və Şirvin amanatı, ey Babək!

B a b ə k. Ulu Şirvinin ruhu bəlaları səndən iraq eləsin, ey Cavidan!

Cavidan atını tərpətdi. Babək darvaza ağzında dayanıb Cavidan və atlıları duman içində gözdən yox olana qədər onların arxasınca baxdı...

Sonra döndü qala darvazasından içəri girdi, dik və darısqal küçələrdən keçərək Cavidan qəsrinə doğru yönəldi...

Tindən bir dəstə qız çıxdı, çiyinlərində su sənəkləri vardı, nəsrin bulağından gəlirdilər.

– Alqış və gün aydın, ey Babək, – deyə qırmızı tumanlı xürrəmi qızları Babəki salamladılar.

– Alqış və gün aydın, ey qızlar, – deyə Babək qızların salamını aldı və birdən xürrəmi qızları içərisində çadralı bir qız gördüyü üçün dayandı. – Çadralı banu Bəzz qalasında qonaqdır?

I q ı z. Qonaq niyə olur? Bəzz qalasında müsəlman da var.

II q ı z. Amma batini məzhəbdir, hamısı...

III q ı z. Və bizə kafir deyən mömin müsəlmanlar batinilərə də kafir deyirlər.

Babək batini qızına baxaraq dedi:

– Batinilər hələ 9 il əvvəl Həmədan qapılarındakı vuruşlarda xürrəmilər ilə qardaş olublar, amma etiqadları nədir, hələ də başım çıxmır...

Çadralı batini qızı üzünü Babəkdən gizlətmişdi və indi Babəkə cavab verdi:

– Bizim etiqadımız budur ki, Allah nə var, nə yoxdur, nə diridir, nə ölü, nə qadirdır, nə aciz, nə alimdir, nə cahil, nə dillidir nə dilsiz, nə gözü var, nə kordur, nə eşidir, nə kardır...

Batini qız nəfəsini dərəndə Babək dedi:

– Və belə bir tanrı?

– Və belə bir tanrı heç vaxt olmamışdır və olmayacaqdır, amma həmişə hər yerdə vardır. Və bizim etiqadımız bütün etiqadlardan ona görə ucadır ki...

Batini qız bir an söz tapmadı, Babək kömək elədi:

– Ona görə ucadır ki, heç kəs öz ayranına turş demir.

Və batini qız güldü, xürrəmi qızları da qaqqıldaşdılar...

...Bu vaxt qəsrin yuxarı artırmasında gəzinərək, qucağındakı körpəsini yırğalayan Zərnisə tez-tez aşağıya baxır, gözlərini yaxınlaşmaqda olan Babəkdən çəkmirdi.

Babək yuxarı qalxdı, artırmaya gəldi, Zərnisəyə baş əydi, körpəyə baxaraq gülümsədi:

– Açıq alnı, cəsur gözləri... və Cavidan nuru var üzündə...

Zərnisənin qaşları çatıldı:

– Burdan baxırdım, xürrəmi qızlarına bir deyirdin, beş gülürdün... Və çox qəribədir ki, o müsəlman qızı da üzünü örtməyib sənə nə barədəsə nitq deyirdi...



B a b ə k. Batinilərdən idi o qız və batinilərin etiqadı barədə mənə bilgi verdi, bir az...

Zərnisənin gözlərində qara qığılcımlar alışdı:

– Bu qalada atəşpərəst də var, axtarsan xaçpərəst də taparsan. Amma o kəs ki, şux qızlardan dinlər və təriqətlər haqqında bilgi yığar, öz dini və öz imanı tez gedəcək əlindən...

Babək gülümsədi:

– Sabahın dərdinə sabah ağlarıq... Mən gəlmişdim ki, açarları aparım. Qəsrin altındakı gizli yolları hər ehtimala qarşı yoxlamaq lazımdır.

Z ə r n i s ə. Mənsiz o gizli yollarda azarsan və yaxud düşüb bir quyuda qalarsan... Qoy uşaq yatsın və deyəsən yatdı... Tut gedim açarları gətirim...

Babək yaxınlaşdı, uşağı Zərnisənin qucağından götürmək istədi və o vaxt ki, əlləri bir-birinə toxundu, nə Babək uşağı götürə bildi, nə Zərnisə uşağı verə bildi və hər ikisi ani bir diksintidən sonra bir-biri qarşısında donub qaldılar.

Zərnisə başın aşağı saldı, sükut etdi, sonra səsi titrədi:

– Vay olsun mənə, ey Babək səni görən gündən ürəyimə qarğış edirəm.

Ağır bir sükutdan sonra Babək dedi:

– Mən elə bilirdim ki, xürrəmi qızları həmişə öz istədiklərinə ərə gedib xoşbəxt olublar.

Z ə r n i s ə. Xoşbəxtlik vardı, tez qurtardı... sonra yaşlar arasındakı uçurum qaldı...

B a b ə k. Mən taleyimə şükür etdim ki, o böyük insana rast gəldim, bu dağa qalxdım, amma bilmədim ki, burda səni gördüyüm gün, taleyim mənə meydan oxuyacaq...

Və aşağıdan gələn bir qadın fəryadından hər ikisi diksindilər. Üzünü yuxarı tutmuş bir qadın aşağıdan çığırdı:

– Zərnisə banu! Zərnisə banu! Qaynar bulaqdan aşağı Əbu İmranın adamları Cavidana hücum ediblər... qiyamətdir, qırğındır və bizdən ölən-yaralanan çoxdur...

Babək artırma başındakı pilləkənə doğru atıldı, Zərnisə arxasınca çığırdı:

– Dayan... birinci dəfə deyil... beş ildir... yay gələndə vuruşublar, qış düşəndə dincəliblər!

Babək heç bir şey eşitmək istəmədi və pilləkənlə üzüaşağı yüyürdü... gəldi zirzəmiyə endi, divardan qılınc götürdü, həyətə çıxdı, tövləyə girdi və qara kəhəri tövlədən çıxardıb, üstünə atıldı...

...Zərnisə qucağında uşağı qəsrin önündə Babəkin qarşısını kəsdi:

– Dayan ki, sözüm var...

Və Zərnisə qucağında yatmış uşağı səki qırağında yerə qoyub atın üzəngisindən yapışdı:

– Getmə, iki dağ arasındakı bu ədavətə mən səbəb oldum... və bu gecə gördüyüm qarışıq yuxum... və Əbu İmran amansız, sən ehtiyatsız... və o sirrin ki, quşu dilimdən uçdu, indi sənin ixtiyarın yoxdur ki, gedəsən və məni bu dünyada tək qoyasan...

Babək bağırdı:

– Və çək əlini sən dəli olmusan!

Sonra şiddətli bir qamçı zərbəsilə at göyə sıçrayıb irəli atılanda, əlini üzəngidən üzməyən Zərnisə atın arxasınca üzüqoylu yerə döşəndi...

**Darısqal dərə. Hər iki tərəfində sıldırım qayalar.**

Babəkin qara kəhəri uçurum kənarında dayanıb şahə qalxdı. Babək atın üstündən yerə sıçradı, əyilib uçurum kənardan aşağı baxdı.

Hər iki tərəfində sıldırım qayalar ucalan darısqal bir dərədə Cavidan başındakı adamlarla bərabər mühasirəyə alınmışdı. Yaz sellərinin oyuqladığı dərə at üstündə vuruşmağa imkan verməd iyi üçün, hər iki tərəf atlarından enmişdilər və ayaqları çidarlı atlar bir-birinə qarışıb qaya altına tıxanmışdılar.

Bu dar dərə dibində Cavidanın adamlarıyla Əbu İmranın dəstəsi arasında qılınc döyüşü gedirdi və yavaş-yavaş geri çəkilən cavidanilərin arxasında indi dik bir yamac ucalırdı...

Babək yamacın dik divarında ayaqlarına yer edərək enməyə başladı və nəhayət əlində qılınc özünü aşağı atarkən Əbu İmranın dəstəsi qarşısında yerə düşdü.

Gözlənilməz hadisədən Əbu İmranın adamları bir an dayandılar, cavidanilər də əl saxladılar.

Babək isə yalnız:

– Hanı Cavidan, – deyə bağıra bildi.

Arxada daş üstündə oturub, başının yarasını sarıtdıran Cavidan ayağa qalxdı və Babəki görüb gülümsədi:

– Cavidan burdadır, ey Babək və indi ki, gəlmisən var ol, amma dayan!



Və Cavidan adamlarını yararaq irəli çıxdı, – üzü qanlı və heybətli idi, Əbu İmranın adamları ixtiyarsız olaraq bir addım geri çəkildilər. Cavidan isə ucadan Əbu İmranı səslədi:

– Hardasan, ey Əbu İmran? Və bəsdir bu nahaq qan tökdük. İrəli çıx, tək-tək vuruşaq! Çünki bu gün ya sən ölməlisən, ya mən!

Əbu İmran dərhal adamlarını yarıb bir az axsaq yerişilə irəli çıxdı və dodaqlarından qaçan istehzalı bir təbəssümlə dedi:

– Təklifin qəbul olundu, ey Cavidan, çünki bu dağlara ya sən hökm etməlisən, ya mən və əgər ayaq üstə durmağa iqtidarın varsa, mən hazıram.

Sonra Əbu İmran döndü Babəkə baxdı və dedi:

– Ey Babək, yadındadırmı Təbriz – Miyanıç yolu? Mən o vaxt sənə demişdim ki, istəməzdim ki, tale bizi üz-üzə gətirsin! Babək döndü Cavidana baxdı və dedi:

– Ey ustad, izin ver, əvvəlcə bu adamla mən...

Cavidanın qaşları çatıldı və Babəkə təpindi:

– Farağat dayan yerində, indi bu son döyüşə nə o tərəfdən, nə bu tərəfdən heç kəsin qarışmağa ixtiyarı yoxdur.

Dərhal hər iki tərəf yeddi addım geri çəkildi və iki dəstənin ortasında açılan meydanda Cavidan ilə Əbu İmran ölüm-dirim döyüşünə başladılar...

Birinci həmlədə Əbu İmran üstələməyə – yaralı Cavidan geriləməyə başladı – hər iki tərəf isə cınqırını çıxarmadan həyəcan içində tamaşa edirdi. Birdən Əbu İmranın növbəti zərbəsindən sonra Cavidan səndələdi, papağı başından yerə düşdü, qanlı sarıq altından saçları boynuna töküldü...

Və Babək davam gətirməyərək, boğuq bir inilti ilə üzünü döyüşdən çevirdi və alnını qaya divarına söykədi... Arxasında bir müddət qılıncların şaraqqıltısını eşitdi və o zaman ki, hər iki tərəfdən eyni zamanda bir fəryad qopdu, Babək diksindi, geri döndü:

Əbu İmran hərəkətsiz bir halda yerdə uzanmışdı. Cavidan isə çökmüş, qılıncı əlindən düşmüş, sağ qoluna söykənmiş, başı sinəsinə əyilmişdi.

Hər iki tərəf irəli cumdu, güney dağının xürrəmiləri Əbu İmranın cənazəsini çiyinlərinə aldılar. Babək isə irəli keçib Cavidanın yerdən qaldırmaq istədi, lakin Cavidan qoymadı:

– Mən özüm...

Və ayağa qalxdı. Lakin iki addım atmamış, arxasınca gələn Babəkin qolları arasında düşdü...

**Bəzz qalası. Cavidanın qəsri.**

Gecə idi. Zərnisənin otağındakı şamlar yanırdı.

Və Cavidan burada, alçaq taxt üstündə hərəkətsiz uzanmışdı. Zərnisə sağında. Babək isə solunda kilim üstündə oturmuşdular. Hər ikisinin başı sinəsinə əyilmiş, gözləri yerə dikilmişdi...

Cavidan gözlərini açdı, əlini Zərnisəyə uzatdı.

Z ə r n i s ə. Oyandın, gözüm işığı?

C a v i d a n. Mehribanımı bir daha görmək üçün... çünki bu üçüncü gecədir və bu gecə vədə tamamdır... Və o vaxt ki, mənim üçün zaman dayandı...

Zərnisə hıçqıraraq Cavidanın sinəsinə qapandı Cavidan əlini Zərnisənin saçlarına çəkdi:

– Ağlama bizim ki, dinimiz sevinc dinidir, gərək son nəfəsimiz də pərişanlığa dönməsin, və o zaman ki, həyatdan gedirik, cismimiz anamız torpağın, ruhumuz atamız göylərindir.

Zərnisə başını qaldırdı:

– Bilirəm, son qüvvətlisən, ey Cavidan və uca təlimində ölməz bir işıq var... Amma elə zəif ürəklər də var ki, həmişə bir az təsəlliyə möhtac olublar... Və indi ki, bizim ağ dinimiz böyük dinlərdə yaxşı nə varsa rədd etmir, nə üçün biz də o biri dünyaya inanıb, axirət təsəllisilə bir az ovunmayaq?

Cavidanın üzü kölgələndi:

– Tələdir – axirət təsəllisi! Və bu tələ vasitəsilə böyük dinlər azad insanı əsir edib qula döndərir. Və o üç böyük din ki, bir-birinə nifrət edən üç bacıdır, ən çox onlar bu dünyaya nifrət gətirdi, kin gətirdi, nifaq gətirdi... və hər üçünün bir nağılı var ki, guya hardasa oturmuş bir tanrı bir gün yerdən bir ovuc palçıq götürüb özünə insan adlı oyuncaq yaratdı... Halbuki insan da ot kimi torpaqdan bitir və ot kimi saralıb torpağa düşür. Yalnız ruhumuz ölmür ki, o da öz dünyamızda qalıb, yenə də yaşayan, nəfəs alan və döyünən canlı bir ürək axtarır... Və mənim ki, ruhum bu gecə cismimdən çıxıb ayrılacaqdır...

Cavidanın nəfəsi *qısıldı*, alnını tər basdı.

Z ə r n i s ə. Amandır, ey Cavidan, özünü yorma.

C a v i d a n. Zamandır, ey mehribanım, dur mənə son piyaləmi gətir!



Zərnisə qorxub geri çəkildi:

– Yox, yox... İndi ki, sən ayrılıq camı istəyirsən, qoy qapı bağlansın, zaman gəlməsin və uzansın bu gecə mənim ömrüm qədər...

C a v i d a n. Mehribanım, sən vaxt itirirsən, sən hələ qaranlıq zirzəmiyə enəcəksən və mənə o şərabdan gətirəcəksən ki, Cavidana bir dəstə reyhan atdığın o axşam... o reyhan şərabından içib səninlə ömr yoldaşı olduq...

Zərnisə səndələyərək ayağa qalxdı, sonra taxçadan gümüş bir piyalə götürüb otaqdan çıxdı.

Cavidan gözlərini qapadı və Babəkə dedi:

– Ey Babək, bilirəm, bu son gecə sən məndən söz gözləyirsən və birinci sözüm sənə budur ki, oğlumu sənin umuduna qoyub gedirəm... Və sonra... və sonra səbr et, dostum və həmişə ölməyən ümidlərinlə yaşa...

Babək başını qaldırdı, rəngi qaçmışdı, gözləri yanırdı:

– Ey ustad, ulu Şirvinin ruhuna and olsun ki, sənin oğlun mənim oğlum olacaq, amma indi ki, bu son gecədir, o böyük məram üçün mənə xeyir-dua ver ki, uca ruhun həmişə mənə rəhbər olsun!

Gözləri qapalı Cavidanın pıçıltısı eşidildi:

– Ulu Şirvinin ruhu! Əgər amin desəm, o qurban gedəcək, deməsəm, bizim ağ dinimizi kim xilas edəcək?

B a b ə k. Ustad, əgər o ağ dinimiz bizim üçün azadlıq dinidirsə, başqa bir din ki, köləlik dinidir və qanlı qılıncı ilə üstümüzə gəlib, o dini qılıncla məhv edib yer üzündən yox etmək, gərək bizim üçün əbədi şüar olsun.

Gözləri qapalı Cavidan dedi:

– Bəlkə də o din... Məhəmmədin icad elədiyi İslam dini öz vətənində bədəvilərə lazım idi. Amma xəlifə Ömərin ixrac etdiyi İslam dini zülmkar bir dindir... Və bir din ki, ucalıq sevmir və alınları torpağa basır və dar göz təəssübüs ilə mömin ilə kafir arasına Çin səddi çəkir, əlbəttə ki, daha miskin edəcək sabahımızı və alacaq əlimizdən istiqbalımızı...

Babək sıçrayıb ayağa qalxdı və başını yuxarı qaldırıb nida etdi:

– Ulu Şirvinin ruhu! Elə isə başqa bir yol varmı bizim üçün?

Və Cavidanın səsi yuxarıda tağlı tavan altında əks-səda verdi:

– Başqa yol yoxdur, ey gənc! Yol da sənsən, yolçu da sənsən, yol göstərən də sənsən!

Sonra səssizlik və Cavidanın sol əli taxt üstündən yerə düşüb hərəkətsiz qaldı.

Babək dizi üstə yerə yıxıldı, əyildi, Cavidanın əlini öpdü.

Və Zərnisə qapı ağzında görünəndə, şərab dolu gümüş piyalə əlindən yerə düşdü.

**Araz qırağı. Taxıl zəmiləri.**

Başı ağçalmalı biçinçilər zəmilərə yayılıb qan-tər içində taxıl biçirdilər.

Babək ilə Tərxan da bir-birilə yanaşı taxıl biçə-biçə gəlib narvənd ağacı altına çıxdılar.

Tərxan dikəldi və dedi:

– Toxta, dərziləri bağlayaq, hər 12 çəngədən bir dərz... və xətrinə dəyməsin ki, biçinçilikdə bir az təcrübəsizsən...

Hər ikisi biçilib sağa və sola atılmış çəngələrdən dərz bağlamağa başladılar və Babəkə dedi:

– İrad tutdun, qəbulumdur. Amma pis-yaxşı, bir gün işləmişəm, nə düşür payıma?

T ə r x a n. Bir ovuc arpa.

B a b ə k. Xəsis olma.

T ə r x a n. Düzü budur, çünki buralarda, bu Araz qırağında əvvəllər hər 20 pəncədən 3 pəncə biçinçin idi. Amma bu il bığı xınalı bizim dehqanlar və beli gümüş kəmərli Arran batrikləri dilbir olub cirəmizi yarıbayarı kəsdilər.

B a b ə k. Belə də olmalıdır.

T ə r x a n. Nə üçün?

B a b ə k. Çünki varlı getdikcə varlanmalıdır və yoxsul getdikcə yoxsullaşmalıdır.

T ə r x a n. Və sonra bu işin axırı nə olur?

B a b ə k. Və sonra bu işin axırı həmişə partlayış və intiqam olur.

T ə r x a n. Gün əyildi, gedək ağac altına... Biçdin və biçinçilərlə danışdın. İndi qalır o söz ki, dalını qurtarmaq lazımdır.

Hər ikisi gəlib narvənd ağacı altında oturdular. Tərxan su dolu cürdəyi götürüb Babəkə uzatdı. Babək sol əlini tərli alnına basıb, sağ əlilə cürdəyi başına çəkdi. Sonra cürdəyi Tərxana verib dedi:

– Söz, yoldakı sözdür... Sən o vaxt demişdin ki, burda Varsan şəhərində köhnə cəng dostların var.



T ə r x a n. Və az deyil.

B a b ə k. Etibarlı adamlardır?

T ə r x a n. Hamısına vəkil ola bilmərəm, amma elə igidlər var ki, öl desəm – ölərlər.

B a b ə k. Lazımdır ki, hazır olsunlar. Vaxt çatıb. Mehrcan gecəsi yarıdan aşanda, o böyük işə iqdam edəcəyik. Siz burda aşağıda, biz orda yuxarıda.

Tərxan sol əlini tərli alnına basaraq cürdəyi başına çəkdi, sonra dedi:

–Bəzz qalası möhkəmdir?

B a b ə k. Qala çox da möhkəm deyil, amma elə möhkəm bir yerdə qərar tutub ki, hər yerdə xilafət ordusu üstümüzə gələndə, Bəzzeyn dağları yavaş-yavaş dəyirman kimi üyüdəcək onları...

T ə r x a n. Demək, uzun müharibə?

B a b ə k. İldırım kimi alışıb, ildırım kimi sönən qiyamlar çox olub... Bizim müharibəmiz, gecə müharibəsi olacaq. Gecələr qəfildən şəbxun vuracayıq, gündüzlər qaranlıq meşələrdə əlçatmaz qayalar arxasında yox olacayıq.

Hardasa, yaxında qara kəhər kişnədi. Babək ilə Tərxan ayağa qalxdılar.

T ə r x a n. Sağlıq olsun. Bəzz qalasında görüşərik əgər burda mehrac gecəsindən salamat çıxsam...

B a b ə k. Və eşitsən ki, o gecə mən orda məhv olmuşam, yenə Bəzz qalası səni gözləyəcək, çünki mənim vəzifəm məndən sonra sənin boynuna düşür...

Və dostlar xudahafizləşdilər...

**Bəzz qalası. Cavidan qəsri qarşısında meydan.**

Axşam idi, meydan izdihamla dolmuşdu. Ağköynəkli gənc xürrəmilər, qırmızı tumanlı xürrəmi qızları, qocalar və uşaqlar – hamı böyük bir intizar içində nəyi isə gözləyirdi.

Qəsrin yuxarı artırmasında dayanmış Zərnisə isə uzaq yollara baxırdı və bu gün o, geyinib-keçinmişdi, başında zümrüd daşı ilə bəzənmiş ipək araqçın vardı...

Nəhayət, aşağıda uğuldayan izdiham içərisindən bir nəfər çıxıb qəsrə doğru yönəldi, içəri keçdi, daş pilləkənlə yuxarı qalxdı, artırmaya gəldi və Zərnisəyə baş əydi:

– Alqış, ey Zərnisə banu!

Zərnisə diksinib geri döndü:

– A, sənsən, ey Rüstəm? Alqış və gün aydın.

R ü s t ə m. Axşamdır, ey Zərnisə banu və hamı Cavidanın qəbri üstünə təzə torpaq atıb borcunu verdi. İndi uzaqdan və yaxından gəlmiş cavidanilər bilmək istəyirlər ki, ustadımız son nəfəsində nə dedi?

Z ə r n i s ə. Gözləsinlər, çünki mən özüm də gözləyirəm.

R ü s t ə m. Kimi gözləyirsən ki, ey banu, hava qaralır və məxluq bir yerə yığılanda çox səbirsiz olur.

Zərnisə qaralan uzaqlara baxaraq ixtiyarsız olaraq inildədi:

– Bu günə vədə vermişdi, dünən ay tamam oldu... və bu gün yollar qaraldı, gəlib çıxmadı.

R ü s t ə m. Eşitmədim, ey banu.

Z ə r n i s ə. Deyirəm ki, hava qaraldı, məşəlləri yandırsınlar, gəlirəm.

...Babək qara kəhər üstündə özünü Bəzz qalasına çatdıranda hava çoxdan qaralmışdı və indi o qalanın dik yoxuşlu küçəsilə yuxarıya, Cavidanın qəsrinə doğru çapırdı.

Ağ köpüklər içində olan qara kəhər tindən burulub özünü qəsrin qarşısındakı meydana atarkən, önündəki mənzərədən ürküb kənara sıçradı...

Meydanı doldurmuş adamların başları üzərində indi çoxlu məşəllər yanırdı və hamının gözü qəsrin aşağı artırmasında, iki daş sütun arasında dayanmış, qırmızıtumanlı, ağköynəkli Zərnisəyə zillənmişdi. Yenə orada iki nəfər genc xürrəmi Zərnisənin sağında və solunda dayanaraq əllərində məşəl tutmuşdular və Zərnisənin zümrüdlü araqçını bu məşəllərin işığında yaşıl işıltılar saçaraq alışıb yanırdı...

Və indi Babək də izdiham kimi gözlərini Zərnisədən çəkə bilmədi və sehrlənmiş kimi atın üstündə donub qaldı. Elə bil indi orda tamamilə başqa bir Zərnisə dayanmışdı və meydan üzərində ucalan səsində atəşgah kahinlərinin cadusu vardı...

Babək aşırıldı atdan, yerə düşdü və alnını atın boynuna söykəyib hərəkətsiz qaldı... İndi vəcdə gəlmiş bir qadının ehtiraslı səsi gah ona yaxınlaşır və yalnız ona müraciət edərək qulaqlarında qızğın bir pıçıltıya çevrilir, gah uzaqlaşır, hardasa böyük bir izdihamı sehirləyirdi:

...Və üçüncü gücə Cavidan dedi ki, vədə tamamdır və gecənin ki, axırında mən gedirəm, o vaxt ölməz ruhum sinəmdən uçub o şəxsin ruhuna qovuşacaqdır ki, onu mən çox gözləmişdim və nəhayət, ulu Şirvinin ruhu onu mənə rast gətirdi və o şəxsin adı Babək xürrəmidindir... Və onu, dedi Cavidan – yalnız onu, ruhumun seçdiyini özümdən sonra öz yerimdə qoyub, bütün cavidanilərə sərvər edirəm...



Çünki o, və yalnız o, – dedi Cavidan, – sizdən ən aşağıda olanları ən yuxarı mərtəbəyə qaldıracaq və sizi indiyə qədər heç kimin nail olmadığı bir məqamə çatdıracaqdır. Çünki o, və yalnız o, zalimləri məhv edəcək, başımız üstündən bu qaranlığı qovacaq, ağ və ayaz dinimizə rövnəq verəcək və ulu Şirvinin vəd etdiyi qardaşlığı yer üzərində həqiqətə çevirəcək və o zaman dünyanın bütün nemətləri bütün insan-

lar arasında tən bölünəcək...

Budur, Cavidanın vəsiyyəti, ey xürrəmilər və əgər mənim borcum demək idisə, mən dedim, borcumu yerinə yetirdim və indi sizin də borcunuz bu vəsiyyətə sədaqətdirsə, and için və tabe olun o dilavərə, taki Cavidanın ruhu şad olsun!

Və Zərnisənin sanki bütün qüvvəsi tükəndi, ayaq üstündə səndələdi, yıxılmamaq üçün daş sütuna söykəndi, və önündə dayanmış böyük bir izdihamın sükutu qarşısında, qorxunc bir şey görmüş uşaq kimi gözlərini yumdu...

Lakin ona sonsuz görünən bu sükut partladı və bütün meydan bir ağızdan nəğmə oxumağa başladı, o nəğməni ki, xürrəmilərin duası, sirudi və çağırışı idi:

> Ulu Şirvinin ruhu, səni gözləmişik, səni
> gözləyirik,
> Ulu Şirvinin ruhu, bizi bu dünyada, öz dünyamızda
> şad et!

Sonra meydan susanda, nəğmə qurtaranda, izdihamın ön sıralarında dayanmış Rüstəmin səsi eşidildi:

– Ey Zərnisə banu, nə qədər ki, Cavidan sağ idi, biz onun heç bir əmrindən boyun qaçırmamışdıq və indi ki, cismi getmişdir, ruhu qalmışdır, biz onun vəsiyyətini qəbul edirik.

Və gözləri qapalı Zərnisənin üzünə sevinc dolu bir işıq yayıldı...

Lakin eyni zamanda izdiham arxasından ucalan və göylərə xitab edən bir səs eşidildi:

– Ey ulu Şirvinin ruhu! Cavidanın ruhu kimin sinəsində qərar tu-

iman və etiqada rəxnə düşəcəyindən dəhşətə gələrək, daş sütundan qopub irəli atıldı və qəzəbdən alışıb-yanan gözlərilə izdihamın arxa sıralarında Baboki axtararaq və Babəkə meydan oxuyaraq səsini ucaltdı:

– Ey arxadan gələn tənha səs! Ulu Şirvinin ruhuna and olsun ki, sən gecikmisən... Çünki o gecə, o gecə ki, zaman dayandı, Cavidanın ömrü qurtardı, o gecə Babək inandı və inanmalı idi Cavidanın ölməz ruhu artıq onun sinəsindədir... Və indi də görür ki, bölük-bölük xürrəmilər arxasınca aparmaq üçün, nifaqə, ikitirəliyə, pərişanlığa yol verməmək üçün, bu gün bu saat yeni bir Cavidan lazımdır... Və siz də, cavidanilər, çağırın o dilavər hardadırsa, meydana çıxsın, çünki o burada, mənim arxamda, bu qəsrdə deyil, orda, sizin içinizdə və sizin sıralarınızdadır...

**Meydan. And mərasimi.**

Meydanda, izdiham qarşısında yerə öküz dərisi sərilmişdi, üstünə şərab dolu teşt qoyulmuşdu və teşt yanında bir qalaq doğranmış çörək vardı.

Babək ilə Zərnisə öküz dərisinin baş tərəfində ayaq üstə dayanmışdılar və öküzün dərisindən qoparılmamış buynuzlu başı hər ikisinin ayaqları arasında idi. İki nəfər ağköynəkli xürrəmi isə əllərində məşəllər Babək ilə Zərnisənin arxasında mövqe almışdılar. Başını aşağı salmış və rəngi qaçmış Zərnisə pıçıldadı:

– Ey Babək, bu saat onlar sənə tabe olacaqları barədə and içəcəklər... və bu gücə mən el süfrəsi açdırıram... və qoy bu xoşbəxt gecəmizdə üsyan barədə söhbət olmasın...

Babəkin üzü daşa döndü:

Yalnız üsyan haqqında and içiləndən sonra bu gecə mənim ömrümü işıqlandıracaq və yalnız o vaxt Babəkin səninlə xoşbəxt olmağa ixtiyarı var...

Və Babək bir addım irəli atdı, əyilib bir tikə çörək götürdü, tikəni teştdəki şəraba batırdı, sonra dikəldi, üzünü izdihama sarı tutub dedi:

– Mən, Babək xürrəmdin, bu uğurlu və müqəddəs tikəyə and içirəm və siz də and için ki, üç gün sonra mehran gecəsi yarıdan aşanda hücum edib hökumətin xərac divanların dağıdacayıq, qızıl kəmərindən gümüş xəncər asanların malikanələrinə od vuracayıq, yadelli qəsbkarları yurdumuzdan qovacayıq, istər özümüzdən, istər özgələrdən olsun, qan içən zalimləri öldürəcəyik və döyüşəcəyik o zamana qədər ki,



torpaq əkənin, məhsul biçənin olsun və yenə vuruşacayıq o zamana qədər ki, yurdumuz başdan-başa azadlıq diyarı Xürrəmistana çevrilsin...

Babək bir addım geri çəkildi və yenə Zərnisənin yanında dayandı.

İzdiham isə sanki nəfəsini udmuşdu, ortalığa çökən sükut içərisində yalnız məşəllərin çatırtısı eşidilirdi... və Babək gözləyirdi...

Sonra rəngi qaçmış Babək yenidən bir addım atanda, Zərnisə əllərilə üzünü qapadı və qulaqlarında Babəkin boğulub partlayan səsi canlandı:

– Nə üçün susmusunuz, ey xürrəmilər? Öldürün Babəki, amma Mehrcan gecəsi tək qoymayın!

On beş yaşlarında gənc bir oğlan izdiham içərisindən irəli atıldı və bağırdı:

– Var ol, ey Babək və namərdəm əgər Mehrcan gecəsi səni tək qoysam... Və izin ver, birinci mən and içim!..

Babəkin gözləri işıqlandı:

– Adın nədir sənin, ey gənc?

– Azin!

– Gəl yanımda dur, ey Azin, sən artıq and içdin!..

Və Babək sol qolu ilə Azini qucaqlayıb yanına çəkdi. Sükut isə artıq pozulmuşdu, izdiham çalxanıb uğuldayırdı...

Və Rüstəm izdiham içərisindən irəli çıxdı, gəldi ayağını öküz dərisinin üstünə basdı, əyildi bir tikə çörək götürdü, tikəni teştdəki şəraba batırdı, sonra dikəldi və üzünü Babəkə tutaraq dedi:

– Ey Cavidanın seçgini! Bu müqəddəs və uğurlu tikəyə and içirik ki, bu gündən sənə tabe olacayıq və üç gün sonra Mehran gecəsi yarıdan aşanda, qılıncımız varsa, əlimizdə qılınc, xəncərimiz varsa, əlimizdə xəncər, baltamız varsa, əlimizdə balta, yabamız varsa, əlimizdə yaba evimizdən çıxacayıq ki, son nəfəsimizə qədər ağ və ayaz dinimiz uğrunda vuruşaq!

Rüstəm geri çəkildi və ağ köynəkli xürrəmilər bir-birinin dalınca gəlib eyni and mərasimini təkrar etməyə başladılar...

**Meydan. El ziyafəti.**

İndi qəsrin qarşısındakı meydanda böyük bir tonqal yanırdı, tonqalın dövrəsində böyük bir el süfrəsi açılmışdı. Xürrəmilər, qadınlı-kişili, bu süfrə başında oturmuşdular, xürrəmi qızları süfrədəki piyalələrə şərab doldururdular.

Zərnisə isə süfrə başında, nimdar üstündə təkbaşına oturmuşdu, əlində bir dəstə reyhan, qarşısında iki boş piyalə vardı. İki xürrəmi qız gəldi və hər iki piyaləni şərab ilə doldurdular.

Zərnisə piyalələrdən birini əlinə aldı və el süfrəsi başında oturanların hamısı Zərnisəyə tərəf baxaraq piyalələrini qaldırdılar və birdən Zərnisə sol əlindəki reyhan dəstəsini sağ çiyni üstündən arxaya atdı...

Və dərhal qaranlıqda çıxan Babək reyhan dəstəsini havada tutdu və gəldi Zərnisənin başı üstündə dayandı. El süfrəsindən sədalar qopdu:

– Ey igidbaşı, mübarək olsun! Ey Zərnisə banu, mübarək olsun!

Və Babək ilə Zərnisənin nigah mərasimi tamamlandı.

Zərnisə ikinci piyaləni qaldırıb başı üzərində dayanmış Babəkə verdi, Babək və bütün xürrəmilər ayaq üstündə öz piyalələrini içdilər. Sonra Babək Zərnisənin yanında və hamı öz yerində oturdu...

Və musiqi başlandı.

Bir dəstə qız-oğlan, Babəkin ilə Zərnisənin qarşısında dayandı. Oğlanlardan birinin əlində nar çubuğu vardı, Babəkə verdi, qızlardan birinin əlində qırmızı qərənfil vardı, Zərnisəyə verdi.

Babək ilə Zərnisəyə ayağa qalxdılar.

Və qara zurnanın fəryadı altında, böyük tonqalın dövrəsində yallı dəstəsi dövrə vuranda, Babək ilə Zərnisə oğlan və qızların başında rəqsə başladılar...

**Dəclə çayı sahilində Bağdad şəhəri. Abbasi xəlifələrinin "Əbədiyyət" sarayı.**

Zümrüd qübbəli "Əbədiyyət" sarayı Bağdadın yaşıl tacı idi. Və bu gün abbasilərin 7-ci xəlifəsi Məmun sarayın ən ziynətli salonunda, qızıl naxışlı taxt üstündə oturmuşdu...

Xilafətin adlı-sanlı əyanları isə Məmunun hüzurunda, dibac xalılar üzərində dizləri üstə bir-birinin yanına düzülmüşdülər. Məclisdəkilər içərisindən baş qazı yer öpüb ayağa qalxdı və dedi:

– Ya əmirəlmöminin, bu günkü mübarək nigahınız əqd olunur və bu axşamkı qız evində toyunuz başlanır və bu xeyir işin sorağı ki, Məşriqdən Məğribə yayılıb və indi Çin fəğfurundan, tibet yabqusundan, xəzər xaqanından və Rum hökmüdarından ki, sizə ərmağanlar gəlmişdir, izin versəniz, elçilər hüzurunuza çıxarlar...

Məmun soyuq işıltılı gözlərilə məclisi süzdü və dedi:



– Əcələyə ehtiyac yoxdur, ay qazı, elçiləri dəvət edin, axşam toya gəlsinlər... və bu gün bu "Əbədiyyət" sarayında ən əvvəl biz özümüz hədiyyə və ehsanlarımızı xilafətin əşrəflərinə təqdim edəcəyik.

– Və həqiqətən əmirəlmöminin bilən daha yaxşıdır, – deyə qazı bir addım geri çəkildi və öz yerində oturdu.

M ə m u n. Sizə məlumdur ki, altı il idi, mən Xorasanda, Məşriq həddində, Mərv şəhərində iqamət eləmişdim. Və bu illər ərzində burda, Bağdadda bir çox əzim fitnələr baş verdi. Və iş o məqama çatdı ki, atamın xanəndəsi olan əmim çıxdı üç ay burda mənim taxtımda oturdu... Və sonra ki, biz öz qafiləmizlə Mərv şəhərini tərk edib, Bağdada doğru hərəkət etdik, qəza öz hökmünü verdi, vəliəhdim İmam Rza rəhmətə getdi...

Məmun nəfəsini dərdi, məclisin arxasında isə bir nəfər digərinin qulağına pıçıldadı.

– İmam zəhərli üzüm yeyib rəhmətə getdi, o üzümdən ki, qızıl sinidə əmirəlmömininin özü ona nübar göndərmişdi. Amma bil ki, mən qulaq günahkarıyam və eşitdiyimi deyirəm...

Məmun sözünə davam elədi:

– ...Və mən o ciyər-parəmi dəfn etdiyim gün, necə nalələr, necə fəryadlar etdim, bütün Xorasan, bütün Məşriq buna şahiddir. İndi ölənlərə bir daha tanrıdan rəhmət diləyərəm və bu uğurlu gündə qardaşım Əbu İshakı özümə vəliəhd təyin edirəm və onu Mötəsimbillah ləqəbi ilə şərəfləndirirəm...

Məclisdən səslər ucaldı:

– Mübarək olsun, ya əmirəlmöminin, mübarək olsun!

M ə m u n. Ya vəliəhd, ey Mötəsim, qalx ayağa və gəl mənim sağ tərəfimdə öz yerində otur.

Yeni vəliəhd məclisdəkilər içərisindən ayağa qalxdı, getdi Məmunun qarşısında yerə döşəndi, yer öpdü sonra qalxdı, xəlifənin sağ tərəfində taxt yanında nimdar üstündə oturdu.

M ə m u n. Və yenə sizə məlumdur ki, bu ağır və uzun yolumuzda bizə başqa bir müsibət də üz verdi, qafiləmiz Sərəxs şəhərinə varid olandan sonra vəzirim hamamda qüsl edərkən, dörd nəfər quldurbaşı vəzirimi hamam içində qətlə yetirdilər...

Məmun nəfəsini dərdi, məclisin arxasında isə bir nəfər digərinin qulağına pıçıldadı:

– Və o dörd nəfər quldurbaşı edam olunanda hamısı bir ağızdan fəryad etdilər ki, ey müsəlmanlar, biz əmirəlmöminin əmrilə hamamda qüsl edən şəxsi qətl elədik, çünki əmirəlmöminin bizi əfv eləmişdi və söz vermişdi ki, dördünüz də mənim mehtərim olacaqsınız...

Məmun sözünə davam elədi:

– ...Və indi ölənlərə bir daha tanrıdan rəhmət diləyərəm və bu uğurlu gündə xilafətin vəzirliyini Əhməd ibn Xalidə həvalə edirəm.

Məclisdən səslər ucaldı:

– Mübarək olsun, ya əmirəlmöminin, mübarək olsun!

M ə m u n. Ya vəzir, ya Əhməd ibn Xalid, qalx ayağa və gəl mənim sol tərəfimdə öz yerində otur.

Yeni vəzir məclisdəkilər içərisindən ayağa qalxdı, getdi. Məmunun qarşısında yerə döşəndi, yer öpdü, sonra qalxdı, xəlifənin sol tərəfində taxt yanındakı nimdar üstündə oturdu.

M ə m u n. Və qalan bütün həzərat da bu axşam bizdən xələt alıb iltifat görəcəkdir və indi hamı yol üçün hazır olsun ki, qız evi bizi "Sülh" qəsrində toya dəvət edir.

Bütün məclis ayağa qalxdı.

Məmun taxtdan endi və sarayın salonuna doğru yönəldi. Və indi onu vəliəhd, vəzir və baş qazı müşayiət etdilər. Məmun salonun axırına çatanda dərhal qarşısındakı "ceyran göz" pərdələr siyrildi və xəlifə ikinci salona daxil oldu. Burda divar boyunca bir-birinin yanında saray qulamları düzülmüşdülər və hər birinin qolu üstündə xəlifəyə məxsus bir dəst ziynətli libas vardı.

Məmun dayanmadan, üzərində incilər və almaslar parıldaşan libaslarına ötəri bir nəzər salaraq qulamlar qarşısından ötüb keçdi, vəliəhd, vəzir və baş qazı da xəlifənin arxasınca getdilər.

Məmun ikinci salonun axırına çatarkən, dərhal yenə qarşısında "ceyran göz" pərdələr sıyrıldı və xəlifə mülazimini səslədi:

– Ya Sirac!

Mülazim dərhal pərdə arxasından çıxıb Məmunun qarşısında dayandı:

– Ya əmirəlmöminin, qulluğunuzda hazıram.

M ə m u n. Get mənim qara dəstarimi, qara cübbəmi, və qara uçqurumu gətir ki, burdakı libaslardan heç biri bu axşam bizə lazım olmayacaq.

Mülazim baş əyib pərdə arxasında yox oldu, baş qazı isə xəlifəyə təzim edib dedi:



– Ya Əmirəlmöminin, səbəb nədir ki, toy məclisinə qara libas intixab etdiniz? Vəhalonki bir gün özünüz buyurmuşdunuz ki, qara don cəhənnəm donudur, amma cənnət əhlinin donu yaşıldır.

Məmun geri döndü, soyuq baxışlarıyla baş qazını süzdü və dedi:

– O sözlər Xorasanda deyilmişdi, ya qazı və orda yaşıl geyinmək bizə düşmədi... Qara donlara, gəlincə məgər qara libas kişilərin və dirilərin libası deyilmi?

Baş qazı bir an gözlərini döydü, sonra dedi:

– Əlbəttə ki, qara rəng 70 ildir abbasilər dövlətinin əlamətməxsusəsidir, ya əmirəlmöminin... Amma nə üçün qara don kişilərin və dirilərin libasıdır, bunu həqir bəndəniz başa düşmədi...

Məmunun gözlərində istehzalı işıltılar oynadı:

– Çünki heç bir qadını qara libasda ərə vermirlər, demək, qara libas kişilərə məxsusdur və heç bir ölünü qara kəfəndə dəfn etmirlər, demək qara libas dirilərə məxsusdur.

Məmun döndü, sarayın üçüncü salonuna daxil oldu və indi xəlifəni yalnız Mötəsim müşayiət elədi. Burda heç kəs yoxdu və Məmun üçüncü salonun axırına çatarkən, qarşısında "ceyran göz" pərdələr sıyrılmadı. Xəlifə heyrət içərisində ayaq saxladı, qaşları çatıldı və səsləndi:

– Ya oğlan! Ya qulam!

Lakin pərdələr yenə tərpənmədi və pərdə arxasından səs gəlmədi və Məmun səsini ucaltdı:

– Ya oğlan! Ya Bəşir!

Və birdən Məmunun qarşısındakı pərdənin ucu göyə fırlandı, xəlifə qeyri-ixtiyari bir addım geri çəkildi və pərdə arxasından çıxan Bəşir boğazında tıxanmış tikəni güclə udaraq və yağlı əllərini yambızlarına silərək bağırdı:

– Ya oğlan! Ya qulam! Bütün günü ya oğlan, ya qulam! Məgər anası ölmüş oğlan bir tikə zəhrimar yeməzmi? Məgər evi başına uçulmuş qulam bir qurtum su içməzmi?

Məmun ilə Mötəsim yerlərində donub qaldılar. Və xəlifə başını aşağı saldı. Mötəsim isə hirsindən boğulub qaraldı. Lakin səsini çıxara bilməyərək, Məmunun əmrini gözləyirdi. Nəhayət Məmun başını qaldırdı və dedi:

– Ya Mötəsim, tanıdınmı bu kölə kimdir?

Mötəsim xəlifənin qarşısında yerə döşəndi, yer öpdü, sonra ayağa qalxıb dedi:

– Tanıdım, ya Əmirəlmöminin. Bu mənim sənə bağışladığım türk köləsidir. Və izin ver məlunun başın bu saat ayaqların altında kəsim.

– İstəməz, ya Mötəsim, – dedi Məmun gülümsəyərək – və sən ki, bu türk kölələrini çox sevirsən, nə əlinlə, nə dilinlə ona ziyan vurma, çünki bu gün hamının günahından keçib hamını əfv edirəm...

Və xəlifə sarayın hərəm dairəsinə doğru yönəldi və burdan o yana onu artıq heç kəs müşayiət etmədi.

**İkinci salon.**

Pərdələr arxasından Məmun ilə Bəşir arasındakı səhnəni seyr edən vəzir ilə baş qazi hələ də bir-birinin üzünə baxaraq qalmışdılar. Nəhayət vəzir dedi:

– Ya qazi, hələ dünən qul bazarından satın alınmış bir türk köləsinin bu gün əmirəlmöminin üstünə necə bağırdığını eşitdinmi?

Q a z i. Eşitdim, ya vəzir, amma kar olmuş qulaqlarıma inanmıram.

V ə z i r. İnan, ya qazi, çünki bundan sonra gərək Xorasan ilə İraq arasındakı nifaqa son qoyulsun, və xilafətin paytaxtı istər Mərv olsun, istər Bağdad, fərqi yoxdur, abbasilər xilafəti ta əvvəldən ərəb xəlifələri ilə İran vəzirlərinin dövləti idi. İndi lazımdır ki, bundan sonra da bu hal nə təğyir tapsın, nə pozulsun...

Q a z i. Sonra, ya vəzir?

V ə z i r. Nə sonra, ya qazi, məgər bilmirsən ki, yeni vəliəhd Mötəsimin anası – türk qızı bir cariyə idi və görmürsən ki, vəliəhd başındakı türk köləmənləri Bağdad küçələrində at çapanda, kim qabaqlarına çıxdı, tapdayıb keçirlər? Və düşünmürsən ki, o gün ki, Mötəsim xəlifə oldu, başına yığdığı bu şeytan toxumu nə ərəbə etina edəcək, nə əcəmə? Və saqqalımız qalacaq bu saqqalsızlar əlində?

**Məmunun hərəm dairəsi.**

Məmun indi qara çalmada və qara cübbədə, qara atlaslı bir döşəkcə üstündə oturmuşdu.

Boynundan qızıl xaç asmış baş təbib qoca Cəbrayıl isə xəlifənin qarşısında diz çökmüşdü.

T ə b i b. Ya Əmirəlmöminin, toya getməyə hazırlaşırsınız, amma çox fikirlisiniz.

M ə m u n. Mən ən məhrəm arzularımı sənə açmışam, ya Cəbrayıl... və özün gördün ki, mən Bağdadı sakit etmək üçün Mərvi qurban verib paytaxtı yenə bu şəhərə köçürdüm və bu gün yenə qara libas geyinib



yaşıldan və şiələrdən üz çevirdim... Və indi də İranı sakit etmək üçün bu axşam xorasanlı qızı ilə evlənirəm...

T ə b i b. Və tanrıdan dilərəm ki, bu yeni izdivac sizə yeni səadət, yeni bəxtiyarlıq bəxş eləsin, ya əmirəlmöminin.

Məmun istehza ilə gülümsədi və dedi:

– Ya Cəbrayıl, deyir, biri bu gün bir canavar tutdu və cəmi məxluq bir yerə yığılıb o canavarı döymək istədi, amma bu vaxt biri o yandan çıxıb dedi ki, dayanın; ey qafillər, nə edirsiniz və əgər istəyirsiniz ki, o zalım qiyamətə qədər əzab çəksin, lazımdır ki, siz o canavara toy edib arvad alasınız...

**Dəclə çayı sahili. "Sülh" qəsri**

Qəsrin ən ziynətli otağında qızıl şamdanlarda qırmızı, yaşıl və sarı şamlar yanırdı. Və döşəməyə qızıldan toxunmuş böyük bir həsir salınmışdı.

Və bu qızıl həsir üstündə, əynində ziynətli ağ libas olan gəlin ilə, başdan ayağa qara geyinmiş Məmun ayaq üstündə bir-birinin yanında dayanmışdılar.

Xəlifənin bibisi əlində qızıl bir sini içəri girdi və sininin içindəki inciləri gəlin və Məmunun başına əndərdi və Məmun qızıl həsir üstünə səpələnmiş incilərə baxaraq dedi:

– Ya bibi, neçə dənə idi bu incilər?

– 303 dənə idi, ya əmirəlmöminin.

– Bu qədəri israfdır, ya bibi, və mən bu inciləri qız evinin cariyələrinə bağışlayıram, çağır gəlib yığışdırsınlar.

Bibi əlini əlinə vurdu və dərhal bir dəstə cariyə qız yüyürüb gəldi və bir göz qırpımında inciləri qızıl həsir üstündən dənlədilər. Sonra qızlar və xəlifənin bibisi pərdə arxasında yox oldular.

İndi də xəlifənin ögey anası şişman Zübeydə xatun içəri gəldi və Zübeydənin üstündə o qədər cavahirat vardı ki, qoltuğuna girmiş iki cariyə qıza söykənib güclə ayağı üstündə dayanırdı.

Zübeydə cariyələrin qolları üstündəki çox zinətli xələtdən birini Məmunun, digərini gəlinin çiyninə saldı.

M ə m u n. Ya Zübeydə, bizə böyük ikram elədin, amma bibim kimi sən də israfə yol verirsən.

Z i b e y d ə. Ya əmirəlmöminin sənin səxavətin müqabilində bu heç dərəcəsindədir. Və qoy olmasın, Araz qırağından Varsan şəhərindən gələn bir ilin xəracı ki, bu naçiz hədiyyələrə sərf etmişəm.

M ə m u n. Ya Zübeydə, sən mərhum atam Harunəlrəşidin baş hərəmi idin və əmirəlmöminin sənə Azərbaycan məmləkətindəki Varsan şəhərini mehriyyə verdi. İndi mən də bu uğurlu gündə o məmləkətdəki şəhərlərdən Təbrizin xoracını ömürlük sənə boxş edirəm...

Z i b e y d ə. Ey xəlifələrin ən yaxşısı, görüm sənin ömrün Süleyman peyğəmbərin ömründən uzun olsun və yeni övrətin sənə 7 oğul doğsun, bir qız doğmasın!

Və Zübeydə xatun qoltuğuna girən iki cariyənin köməyi ilə otaqdan çıxdı.

Məmun ilə gəlin otaqda tək qaldılar və xəlifə qara cübbəsinin döş cibindən, hər biri sərçə yumurtası boyda olan bir ovuc almas çıxardıb gəlinin başına səpələdi, sona qızın duvağın üzündən qaldırdı.

Yuvarlaq iri almaslar dayanmadan qızıl həsir üstündə o yan-bu yana diyirlənirdi. Məmun dayanıb gözləyirdi, baş aşağı dayanmış gəlin isə yerindən tərpənmirdi...

Məmun qızıl həsir üstündə diyirlənən almaslara baxaraq şair Əbu Nəvasdan iki misra oxudu, sonra dedi:

– Ey Səmərqənd kimi uca boylum, səbəb nədir ki, bizim hədiyyələrə etina etmirsən?

Gəlin əyildi və yalnız bir dənə almas götürdü, sonra Məmunun qarşısında diz çöküb yer öpdü və ayağa qalxıb dedi:

– Ya əmirəlmöminin, Həsən ibn Səhlin qızı Boran bu gündən sənin kənizindir və sənin səxavətinin bir zərrəsi bütün ömrü boyu kifayət edər.

M ə m u n. Ya Həsən ibn Səhlin qızı, bundan sonra sənin adın Boran olmayacaq, çünki bu gündən mən sənə həzrət Xədicənin ismini bəxş edirəm ki, bu ismin sahibi peyğəmbərimizin birinci övrəti idi və övrətlər içində birinci olaraq İslamı qəbul edən də o qadın idi.

X ə d i c ə. Bu gündən Xədicə də əmirəlmöminin kənizidir və kəniz söz demək üçün izin istəyir.

– İzin verildi, de, – dedi Məmun və gülümsədi.

X ə d i c ə. Ya əmirəlmöminin, səbəb nədir ki, Xorasandakı dostlarını qurban verdin, amma burda, Bağdaddakı düşmənlərini əfv elədin və mənim əmim ki, sənin vəzirin və sağ əlin idi, Səroxs şəhərində hamam içində qətl edildi, amma öz əmin ki, sənə rəqib idi, cəzasız qaldı?

Məmun diksindi, gözləri qəzəblə parıldadı, lakin xəlifənin sürməli gözlərinin heybətli baxışlarını gəlinin uzunsov badamı gözləri cəsarətlə qarşıladı. Məmun özünü ələ aldı və dedi:



– Ya Xədicə, boynunu itaət xaltasından çıxaranlar qurban getdi və boynunu yenidən itaət xaltasına salanlar əfv olundu...

X ə d i c ə. Ya əmirəlmöminin, dübarə izin istəyirəm.

– Dübarə izin verildi, – dedi Məmun və qaşları çatıldı.

Xədicə. Və yenə səbəb nədir ki, ya əmirəlmöminin, qardaşın Əbu İshakı özünə vəliəhd təyin elədin və ismin Mötəsim qoydun, amma bizim gələcək oğlumuzu indidən xar etdin və qanuni haqqını tapdadın!

Sübhanallah! – deyə Məmun səsləndi, – oğlu olan övrətim cəsarət edib mənə bir söz demədi, amma ki, hələ oğlu olmamış övrətim birinci gecədən mənim hüzurumda qilqal edir? Və elə isə qulaq as, ey Boran, qulaq as, ey Xorasan qızı...

X ə d i c ə. Ya əmirəlmöminin, sənin anan Məracil də xorasanlı qızı idi və görüm o banunun qəbri nur ilə dolsun!

Məmun özünü boğdu və təmkinlə dedi:

– Ya Xədicə, mən bəsirət gözüylə çox uzağa baxdım və qardaşımı ona görə özümə vəliəhd təyin elədim ki, məndən sonra baş verəcək əzim fitnələrdə böyük oğlum Abbas və səndən olacaq digər oğullarım salamat qalıb məhv olmasınlar.

X ə d i c ə. Ya əmirəlmöminin, nəyə lazımdır mənim oğlumun salamat qalması, əgər səndən sonra bu xilafətə o sahib durmayacaqsa və bu gün əmirəlmöminin kənizi olan Xədicə vəliəhd anası olmayacaqsa...

Məmun hövsələtəng oldu, çiynindəki almaslı xələti dartıb yerə çırpdı və başı alovlu gəlin otağından çıxdı. Və qulamlar bir-birinin dalınca xəlifənin qarşısında ipək pərdələri sıyırdılar və Məmun iti addımlarla bir-bir otaqlardan keçib getdi və nəhayət gəldi; böyük salona yetişdi. Mülazimi Sirac son pərdəni açmaq istərkən, əlini qaldırdı;

– Toxta, ya Sirac?

Dayandı, nəfəsini dərdi və bir an fikrə getdi, sonra başını qaldırdı və təəccüblə soruşdu:

– Nə olub, ya Sirac? Nə üçün məclisdən səs gəlmir, nə üçün çalan-oxuyan yoxdur?

– Ya əmirəlmöminin, uzaqdan bir-birinin dalınca çaparlar gəldi, vəliəhdə nə dedilərsə, məclis susdu və indi hamı sizin intizarınızdadır.

Məmun işarə elədi. Sirac pərdəni sıyırdı və xəlifə məclisə daxil oldu. Cərgə ilə divar boyu bir-birinin yanında oturmuş və susmuş qonaqlar dərhal yer öpüb ayağa sıçradılar.

M ə m u n. Nə olub, həzərat? Toya gəlmisiniz, yoxsa bura yas məclisidir?

Mötəsim irəli çıxdı və baş əyib dedi:

– Ya əmirəlmöminin sənin ki, bu mübarək toyun hələ 40 gün davam edəcək və hələ o 40 gün ki, sən bu "Sülh" qəsrində çıxmayacaqsan, izin ver, xilafətin ucqarından gələn mühüm bir xəbəri təxirə salmadan hüzuruna ərz edim.

M ə m u n. İzin verildi, ya Mötəsim, söylə.

M ö t ə s i m. Ya əmirəlmöminin, Azərbaycan məmləkətində müdhiş bir qiyam baş vermişdir.

M ə m u n. Gah Azərbaycanda, yaxud Curzanda və yainki Ərməniyyədə və ya Mavəraielnəhrdə həmişə qiyamdır, ya Mötəsim və mən sükanı əlimə aldığım zaman bütün xilafət od tutmuş bir gəmi kimi idi...

M ö t ə s i m. Lakin bu başqa bir qiyamdır, ya əmirəlmöminin – bu aşağının üsyanıdır yuxarı üstünə. Və bu üsyanın başçısı ucqarlarda asi olmuş bir vali deyil, Ceyhun çayının o tayındakı bir ixşid deyil, Ərməniyyədəki bir batrik deyil, Misirdəki bir xariciyun deyil və Kufədəki bir ələvi şiyəsi deyil...

M ə m u n. Deməк mocusi və atəşpərəstdir?

M ö t ə s i m. Daha müdhiş bir dinin sahibidir, ya əmirəlmöminin, Bəzzeyn dağlarında zühur etmiş Babək xürrəmdin adlı bir kafirdir ki, əyri dinini əlində silah edib, islamın üstünə qılınc qaldırmışdır. Və o məmləkətdəki bütün xərac divanları darmadağın edilmişdir. Vergi toplayan təhsildarlar qətl olunmuşdur. Dehkanların malikanələrinə od vurulmuşdur. Şəhərdəki məscidlər qarət olunmuşdur. Və indi məmləkətin cümlə kübarları və əşrəfləri qaçıb Marağa şəhərində qalabənd olublar...

Vəzir irəli çıxdı, xəlifəyə təzim edib dedi:

– Ya əmirəlmöminin, o tanrı düşməninin təlimi budur ki, islam dini nəyi haram buyurubsa, halaldır və gərək bütün dünyanın nemətləri bütün insanlar arasında tən bölünə...

M ə m u n. Bizim tərki-dünya zahidlər və xaçpərəst rahiblər də xalqa moizə edirlər ki, gərək varlı öz sərvətini yoxsullara paylasın... Və islam dini göydən ona görə nazil olub ki, zəifi qüvvətliyə müsavi qılsın...

Baş qazi irəli çıxdı və xəlifəyə təzim edib dedi:

– Ya əmirəlmöminin, heç kəs ki, öz halal malından könüllü olaraq fəqirə bir pay verirsə, əlbəttə ki, bu savab işdir. Amma o məlun zorla varlının ətəyin kəsib yoxsulun cın-cındırına yamaq vurur və deyir ki, dünyadakı bütün cinayətlərin iki səbəbi var, biri sərvətdir, biri qadın və onun fasiq əqidəsinə görə dünyanın cəmi övrətləri və kişiləri hər gecə bir yorğan altına girib yatmalıdırlar...



Məmunun gözlərində uğursuz işıltılar alışdı:

– Ya sərəsgər, ya ibn Müaz, hardasan, irəli çıx!

Xilafətin adlı-sanlı sərkərdələrindən biri irəli çıxdı və Məmuna təzim edib dedi:

– Qulluğunuzda hazıram, ya əmirəlmöminin.

M ə m u n. Ya sərəsgər, burdan evinə yox, birbaş ordugaha gedərsən və nə qədər sənə ləşkər lazımdır, özün bilərsən və səhər açılanda üç qara bayraq altında kafir Azərbaycan dağları üstünə yürüş edərsən. Və o gizli dinin adamları ki, yenə zühur ediblər, cəmi kişilərini qılıncdan keçirərsən və boyu beş qarışa çatmış oğlanlarına belə rəhm etməzsən və sonra arvad-uşaqlarını əsir edərsən və gətirib burda qul bazarında satarsan və nə qazandın, beşdə biri xəzinənindir və qalan beşdə dördü halal xoşun olsun!

İbn Müaz baş əyib dedi:

– Ya əmirəlmöminin, buyruq sənin, itaət bizim və axırıncı hökm Allahındır.

Məmun məclisə xitab elədi:

– İndi əyləşin, ey həzərat və acı sözlər eşitdik – kifayətdir...

Məmun keçib məclisin başında öz yerində oturdu və bütün qonaqlar da öz döşəkçələri üstündə əyləşdilər. Xəlifə üzünü məclisdəki müğənniyə tutub dedi:

– Ya ibn Cami, ey Bağdad əndəlibi, indi cəngi əlinə al və bizə bir qəzəl oxu ki, şirin sözlərindən məst olaq...

Və xilafətin məşhur müğənnisi mizrabını ipək qotazlı cəngə vurub oxudu:

– Yenə mey dolu piyaləmdə xəyalımı gördüm...

Bir-birinin ardınca açılan qırmızı bayraqlar küləklərə çarpıb dalğalandı və qızaran bir fəzada yazı başladı:

"Qızıl bayraqları azəri xürrəmiləri ilə qara bayraqlı İslam orduları arasında gedən müharibələrin 13-cü ili idi. Bu müddət ərzində xəlifə Məmunun bir-birinin ardınca üsyançılar üstünə göndərdiyi 6 böyük ordu Bəzzeyn dağlarında darmadağın edilmişdi... və indi əmirəlmöminin əmrilə xilafətin ən məşhur sərkərdələrindən Tusi çox böyük bir ordu ilə Babəkin üstünə gəldi".

## Bəzz qalası. Cavidan qəsri. Babəkin qərargahı.

Yaz gecəsi idi. Cavidan qəsri qarşısındakı meydan piyadə və atlı dəstələrilə dolmuşdu və səf-səf düzülmüş bütün silahlı dəstələr yürüş əmrinə hazır dayanmışdılar...

Qəsrin yuxarı qatında – Babəkin qərargahında işıqlar yanırdı. Tağ altında həsirlərlə döşənmiş böyük bir otaqda Babək - yuxarı başda döşəkcə üstündə bardaş qurub oturmuşdu, dərin fikrə getmişdi, başını aşağı salmışdı və köndələninə dizləri üstə qoyduğu qılınca zillənmiş gözləri yol çəkirdi. Qoşun başçılarından Tərxan, Rüstəm və daha gənc komandanlardan Azin ilə Muaviyə də içəridə idilər. Babəkin sağında və solunda əyləşmişdilər və hamısı cəng libasında idi, başlarında dəmir tolğalar, əyinlərində zirehli kaftanlar vardı...

Babəkin qardaşı gənc Abdulla içəri gəldi, başıaçıq idi, uzun saçları boynuna tökülmüşdü və ağ köynəyi üstündəki kəmərindən sədəf dəstəkli xəncər asılmışdı. Abdulla dedi:

– Ey Babək, ey ulu sərvər, qala içində tutulmuş düşmən casusu qapı arxasındadır.

B a b ə k. Buraxın gəlsin içəri.

Və iki silahlı xürrəmi ələ keçmiş düşmən casusunu içəri itələdilər, özləri isə qapı ağzında ayaq üstündə dayandılar. Casus dizləri üstə yerə çökdü və başını sinəsinə əyib dayandı.

B a b ə k. Ey çox bilmiş kişi, salamat qalmaq istərdinmi?

C a s u s. Əlbəttə ki, istərdim, ya həzrət, amma nə bahasına?

B a b ə k. Suallarıma düzgün cavab versən, səni edam etdirməyəcəyəm. Bəzz qalasında 7 min müharibə əsiri müsəlman var. Sən də onlardan biri olarsan.

C a s u s. Ya həzrət, mən bura gəlmişdim ki, Bəzz qalası haqqında bilgi yığam və indi əksinə, sən məndən bizim qoşunlar haqqında söz soruşursan – yaxşısı budur ki, əmr elə cəllad boynumu vursun!

B a b ə k. Üstümüzə gələn 6-cı xilafət ordusu haqqında səndən bilgi almağa ehtiyacımız yoxdur, bilirik ki, Tusi xəlifənin ən şücaətli sərəsgəridir... və dünən xilafət ordusunda neçə nəfər zükam olub ondan da xəbərimiz var... Sən ancaq mənim bir sualıma cavab ver. Əgər sağ və salamat Tusinin yanına qayıtsaydın, nə deyəcəkdin öz əmrinə?

C a s u s. Ya həzrət, Tusi göndərmişdi ki, öyrənim görüm Bəzz qalasında çaxnaşma başlanıbmı və sənin qoşunların içində pərişanlıq nişanələri varmı? Amma Bəzz qalasının övrətlərinə iynə-sap satanda



ağzımı bir az boş qoydum və çox tez ələ keçdim və indi Tusi qarşısında üzüm qaradır.

B a b ə k. Əlbəttə ki, çox tez ələ keçdiyin üçün təəssüf etməyə haqqın var. Çünki tez ələ keçməsəydin, bəlkə öyrənə bilərdin ki, düzdür, qoşun içində heç bir təşviş yoxdur, amma bəzi qoşun başçıları bir az pərişanlığa qapılıblar.

Və Babək sağında və solunda oturanlara iti və çəpəki bir nəzər saldı. Casus gözlərini döydü. Babəkin qoşun başçıları isə dönüb heyrətlə bir-birinin üzünə baxdılar. Babək silahlı xürrəmilərə dedi:

– Aparın, əsirlər düşərgəsinə salın və ayaqlarına buxov vurun ki, qaçmasın!

Casusu apardılar. Babək ayağa qalxdı, dərhal qoşun başçıları da ayağa qalxdılar. Babək dedi:

– Oturun və süfrə açdırın! Süfrədə İberiya şərabı, xurma nəbizi və bal şərbəti olsun. Və hava ki, çox bürküdür, tolğalarınızı başınızdan açın... Və o kəs ki, süfrəmizə qonaq gələcək, mən özüm onu məclisimizə dəvət etməyə gedirəm...

Babək qərargahından çıxdı, işarə elədi, Abdulla da onun arxasınca getdi. İçəridə bir müddət bir-birinin üzünə baxdılar. Coşqun təbiətli Azin dedi:

– Ey Tərxan, nə olub bu gecə ulu sərvərə? O nə söz idi ki, düşmən casusuna dedi? Necə yəni bəzi qoşun başçıları içərisində pərişanlıq var? Və bir halda ki, bölüklər çoxdan yürüşə hazır dayanıblar, bu şərab süfrəsi nə deməkdir? Və yaxud o məchul qonaq kimdir?

T ə r x a n. Ey Azin, müşgül suallarına cavab verə bilmərəm. Amma onu bilirəm ki, Babək yenə təşəbbüsü Tusiyə verib xilafət ordusunu bir az da yaxına buraxsa, hər iki tərəf uçurum qırağında döyüşən iki qoç vəziyyətində qalacaq və tərəflərdən biri mütləq məhv olacaq. Və nə isə çox cəsarətli, digər məhv olacaq. Və nə isə cəsarətli, digər tərəfdən çox qorxulu bir addım atmaq istəyir ulu sərvər...

### Cavidan qəsrinin zirzəmisi.

Babək yanında iki nəfər məşəlçi, qəsrin zirzəmisinə endi və aşağıda keşikçilər bir hücrənin qapısını açdılar. Məşəlçilər irəli keçib içərini işıqlandırdılar.

Tağlı zirzəmi hücrəsində qaraçalmalı, ayaqları qandallı bir nəfər küləş üstündə oturmuşdu və dizlərini qucaqlayıb başını dizləri üstə

qoymuşdu. Hücrə işıqlananda dustaq başını qaldırdı və Babəki qarşısında görüb ayağa qalxdı.

B a b ə k. Gecən xeyir, ya ibn Cüneyd, nə əcəb hələ yatmamısan?

İ b n C ü n e y d. Gecən xeyir, ya Babək, mən əsirəm, dustağam, fikir-xəyal qoymur məni yatmağa, sənə nə olub ki, öz qəsrində, gecənin bu aləmində oyaqsan?

B a b ə k. Ya ibn Cüneyd, ömrün axırı var, işin axırı yoxdur və nəhayət, bu gecə səninlə məşğul olmağa vaxt tapmışam...

İ b n C ü n e y d. Əgər öldürməyə gəlmisənsə, izin ver, yataq namazımı qılım, sonra edam elə!

B a b ə k. Ya ibn Cüneyd, məqsədim budur ki, bu gecə səni azad edim və sən bu gecə mənim tərəfimdən Tusinin ordugahına elçi gedəsən...

### Babəkin qərargahı.

Həsir üstündə süfrə açılmışdı və qoşun başçıları bu süfrə başında oturmuşdular. Lakin heç kəs dinib-danışmırdı. Babək içəri gəldi və hamı ayağa qalxdı. Babək başından tolğasın çıxartdı, qılıncını belindən açıb süfrə yanına atdı, divardan tənburu aldı və döşəkçə üstündə bardaş qurub yavaşdan simləri cingildətməyə başladı...

Və indi hərdənbir qəsr qarşısındakı meydandan, səbri tükənmiş cəng atlarının kişnərtisi eşidilirkən, Azin diksinib başını qaldırırdı və tutqun baxışlarla Babəki süzürdü...

Keşikçilər ayaqlarından qandalları açılmış ibn Cüneydi gətirdilər. İçəridəkilər başlarını qaldırdılar və ibn Cüneydi görərkən dönüb yenə heyrətlə bir-birinin üzünə baxdılar.

B a b ə k. Gəl əyləş, ya ibn Cüneyd, burda süfrə başında oturanlar mənim ən yaxın cəng yoldaşlarımdır, bu Rüstəmdir, bu Azin, bu da süd qardaşım ərəb oğlu Muaviyədir və Tərxanı sənə təqdim etməyə nə hacət ki, səni əsir alan odur və sən onunla çoxdan tanışsan...

İbn Cüneyd süfrə başında oturdu və dedi:

– Ey Babək, müharibələrdə çox qəribə şeylər olur. Və o qəribə şeylərdən biri budur ki, rumlar biz ərəblərin qarşısında davam gətirə bilmirlər, biz ərəblər də türklərin qarşısında davam gətirə bilmirik və türklər də rumların qarşısında davam gətirə bilmirlər.

B a b ə k. Haqlısan, müharibənin sirləri çoxdur. Ona görə biz xürrəmilər ki, altı dəfə ordularına qalib gəlmişik, indi istəmirik ki, bu qalibiyyətlər bizi məst eləsin. Amma bu süfrə ki, xoş niyyətlə açılmışdır, bu



süfrə başında bir az məst olmaq günah deyil. Və biz ki, kafirik, İberiya şərabı və xurma nəbizi meyl edəcəyik, sən də bir müsəlman kimi buyur, bal şərbəti iç ki, o mühüm məsələ barədə danışaq...

İ b n C ü n e y d. Ey Babək, indi ki, sən əsir düşmüş bir İslam əmirinə bu qədər iltifat edirsən, ibn Cüneydin fikri belədir ki, o da bu dünya kövsərindən meyl etsə, qiyamət qopmaz.

B a b ə k. Elə isə, hamımız İberiya şərabı içək ki, söhbətimiz uğurlu olsun.

Babək ilə ibn Cüneyd piyalələrini qaldırıb içdilər. Tərxan, Rüstəm və Muaviyə də piyalələrindən bir qurtum içib yerə qoydular. Lakin təkcə Azin əlini piyaləyə uzatmadı və Babək gözünün ucuyla Azini süzdü və bığları altında gülümsər kimi oldu...

Abdulla təlaş içərisində qərargaha gəldi və dedi:

- Ey Babək, ey ulu sərvər, düşmən, casusu əsirlər düşərgəsinə aparılanda fürsət tapıb qaçmışdır.

Babək bir müddət dinmədi, sonra Abdullaya dedi:

– Ey qardaşım Abdulla, bu yaxşı əlamət deyil və bu saat hər iki keşikçini zindana sal və sən özün də cəzasız qalmayacaqsan!

Abdulla dönüb getdi, Babək üzünü ibn Cüneydə tutub dedi:

– Ya ibn Cüneyd, axır günlər Tusi bir-birinin dalınca Bəzz qalasına çox casus göndərir... və əgər bu hazırlanan qəti hücumun əlamətidirsə, sən çox savab iş görərsən, əgər mənim təklifimi Tusiyə yetirsən.

İ b n C ü n e y d. Ey Babək, əgər sən mənim əvəzimə Tusidən yüz min dirhəm fidyə istəsən, mən bir əsgər kimi and içərəm və günü sabah o məbləği Tusidən alıb sənə göndərə billəm... Amma söz verə bilmərəm ki, Tusini səninlə danışmağa razı salacağam və bu barədə and içməyə dilim gəlməz.

B a b ə k. Nə üçün? Tusinin də canı dəmirdən deyil və iki ildən artıqdır ki, vuruşuruq, amma nə o qalib gəlib, nə mən və indi bəlkə Tusi də mənim kimi bir az yorulub? Nə üçün danışığa razı olmasın?

İ b n C ü n e y d. Ona görə ki, üç il bundan əvvəl xəlifə Məmun cəmi Azərbaycanı ta Qəzvinə qədər mənə bağışlayıb, sənin üstünə göndərmişdi. Və indi də bütün Azərbaycanı ta Qəzvinə qədər Tusiyə bağışlayıb, sənin üstünə göndərib...

B a b ə k. Qoy Qəzvin və Azərbaycan Tusinin olsun, amma Bəzzeyn dağları mənim. Təki danışığa başlayaq.

Azin diksindi və süfrə başında oturan digər qoşun başçılarının qaşları çatıldı.

İbn Cüneyd başlarını aşağı salmış bu adamlara baxdı və dedi:

– Ey Babək, əgər sən aman istəyirsənsə, gərək Tusi bu barədə xəlifədən icazə ala və əgər xəlifə sənə aman bəxş edib Bəzzeyn dağlarında sənin muxtariyyətini qəbul etsə, sən gərək bu dağların 13 illik xəracını verəsən...

B a b ə k. Hələlik qoy Tusi otursun öz yerində və Həştadsar dağının ətəyindən yuxarı qalxmasın... Və sonra xəlifə bizdən xərac istəsə, düzdür, 13 ilin xəracını verməyə gücümüz çatmaz, amma 7 ilin xəracını verməyə iqtidarımız var.

Və gənc Azin davam gətirməyərək partladı:

– Ey Babək, ey ulu Sərvər, bəlkə xəlifə səndən xərac hesabına hər il 300 qaraqaşlı, uzun kirpikli qız istəyəcək-kəniz istəyəcək, bunadamı razılıq verəcəksən?

Babək hirsindən "boğuldu" və dedi:

– Ey Azin, izinsiz danışdın və ötkəm danışdın. Sus və ehtiyatlı ol ki, Babəkin səbr kasası dolub-daşmasın.

A z i n. O vaxt ki, xürrəmilərin şərəfi tapdanır, Azini heç bir qüvvə susdura bilməz!

Və Babək bağırdı:

– Ey ağzından süd iyi gələn cürətkar! Qorxmursan ki, bu saat başın çiynindən qopub ayağın altına düşər?

A z i n. Və yubanma, ey ulu sərvər, götür qılıncını, əvvəlcə mənim boynumu vur, sonra bazar aç, Tusi ilə alverə başla...

B a b ə k. Və tamam! Çıx, qapı dalında edam saatını gözlə! Azin ayağa sıçradı və otaqdan çıxdı. Babək isə ibn Cüneydə dedi:

– Ya ibn Cüneyd, sən doğru gözlü, doğru sözlü bir kişisən və get mənim təklifimi Tusiyə söylə və mənim ki, ətrafımda bu qədər nifaq var, mən Bəzzeyn dağlarıyla kifayətlənməyə razıyam.

### Qala darvazası.

Gecə yarıdan keçmişdi, ikinci xoruz banı idi. Bəzz qalasının darvazası açıldı və ibn Cüneyd iki nəfər məşəlçinin müşayiətilə qaladan çıxdı və atını çaparaq bir an sonra qaranlıqda yox oldu...



### Babəkin qərargahı.

Qoşun başçıları artıq ayaq üstündə idilər. Babək tolğasın başına qoydu, qılıncını yerdən götürdü və səsləndi:

– Ey Azin, içəri gəl!

Və bir an yubanmadan Azin içəri girdi, qapı ağzında dayandı. Babək dedi:

– Yaxın gəl!

Azin yaxın gəldi, Babəkin əlindəki qılınca baxdı. Başını əydi və dedi:

– İndi ki, qurtardın alverini, vur!

Və Babək coşğun hərəkətlə Azini qucaqlayıb sinəsinə basdı və dedi:

– Çoxlu kəndir və nərdivan götür və birinci sənin dəstən hərəkət edir...

### Zərnisənin otağı.

Babək cəng libasında Zərnisənin otağına gəldi.

Taxçada şamlar yanırdı, Zərnisə taxt üstündəki yatağında uzanmışdı, böyrünə qısılıb yatmış qızı dərindən nəfəs alıb fısıldayırdı. Yerdə xalı üstündə isə bir-birinin yanında iki oğlan uşağı yatmışdı – biri Cavidanın oğlu idi, 13 yaşında, digəri Babəkin oğlu idi, 12 yaşında.

Babək yaxınlaşdı, Zərnisənin yanında taxt üstündə oturdu. Zərnisə pıçıldadı:

– Gedirsən?

B a b ə k. Gedirəm... gəldim ki, uşaqlara baxım və səninlə xudahafizləşim.

Z ə r n i s ə. Oğlanları oyadım?

B a b ə k. İstəməz, qoy hələ doyunca yatsınlar, elə ki, üç ildən sonra pərvaz oldular...

Z ə r n i s ə yatağından qalxıb oturdu:

– Üç il? 13 il bəs olmadı? Hələ üç il də?

B a b ə k. Üç il, on il, otuz il... bəlkə ömrümüzün axırına qədər... nə qədər ki, onlar var, biz də varıq...

Z ə r n i s ə. Yox, sən başladın bu müharibəni, sən də qurtaracaqsan... Nəyim vardı sənə qurban verdim, gəncliyimi, gözəlliyimi... və indi onlar qalıblar mənə və hər ikisi mənimdir.

Babək körpə qızına baxaraq gülümsədi:

– Hər ikisi sənin olanda, onda mənə nə qalır? Kəpənəyə oxşar bu zərif varlıq?

Zərnisənin bəbəklərində qara qığılcımlar alışdı:

– Təzə arvadın Şuşan sənin üçün oğul doğar.

B a b ə k. Şuşan Arazın o tayında mənim nümayəndəmdir, Arran batriklərini cilovda saxlamaq üçün. Və bu, ittifaq xatirinə izdivacdır və Şuşan mənim qoşunlarıma taxıl göndərir.

Qısqanclıq növbəsi ilan kimi Zərnisənin ürəyindən çaldı:

– Gecə qaranlığında ağ yasdıqlar bir-birinə yaxın olanda, qaba istək var, od tutub yanan yorğan-döşək var, ittifaq, siyasət və taxıl, – hamısı, hamısı boş sözdür və üç uşaq əmizdirəndən sonra sən məndən soyudun, yaxud səndən aldığım mükafat – unudulmaq oldu.

Babək ayağa qalxdı:

– Hər dəfə sənin yanına gələndə mənə hava çatışmır və haqlı imiş Adəm peyğəmbər ki, bir gün Həvvayə dedi: ey qadın, ey göylərin bolası, nə sənsiz yaşamaq mümkündür, nə səninlə yaşamağa təhəmmülüm var...

**Dağ ətəyi. Xilafət ordusunun düşərgəsi.**

Dan yeri təzəcə ağarmışdı, xilafət qoşunlarının bölükləri dağ ətəyində sıraya düzülmüşdü və bütün ordu yürüş əmrinə hazır dayanmışdı...

Tusi, yanında ibn Cüneyd öz çadırından çıxdı və rikabdarlar dərhal ağ atın üzəngisini tutdular və əmiri-ləşgər atına mindi. İbn Cüneyd də öz atına süvar oldu. Tusi atını irəliyə, orduya doğru sürdü və əlini qaldırdı. Dərhal münadilər car çəkdilər:

– Ey müsəlmanlar, sükut! Ordu sahibi əmir həzrətləri sizə xitab edir.

Və Tusi dedi:

– Ey mənim əsgərim və camaatım, nəhayət ki, son mənzilə yetişdik. Və bu gün dumanlı Bəzzeyn dağlarında ova başlayırıq. Çünki bu dağlarda bir mağara var və o mağarada bir pələng yatır və pələngin ki, canı bərk olar, biz ona altı zərbə vurmuşuq, amma hələ də kafirin canı çıxmamışdır... və bu gecə o tanrı düşməni ibn Cüneydi mənim yanıma elçi göndərib ki, İslam qoşunu burda-yerində qalsın, amma elçilər yuxarı dırmaşıb aşağı ensin və bu minval ilə yaralanmış macal tapıb bir az nəfəsini dərsin... Və indi, siz ey müsəlmanlar, bir olan Allaha sığınıb, o kafirin üstünə hərəkət edin və mənim təkbirimə müntəzir olun! Və o vaxt ki, mən təkbir dedim, cümləniz qəti hücuma keçin və inşallah qalibiyyət bizimdir!

Dərhal nəhəng təbillər gumbuldadı, qara bayraqlar dalğalandı və Tusinin böyük ordusu hərəkətə başladı...



**Dağ yolu. Seyrək duman.**

Dağ yolu dikinə yuxarı qalxırdı və xilafət ordusunun hissələri bu yol boyu o qədər uzanmışdı ki, ön səflər yuxarıda duman içində yox olurdu, arxa səflər aşağıda duman içində sıyrılıb çıxırdı və sanki bu ağ duman içində nəhəng qara bir ilan qıvrılırdı və durmadan yuxarıya doğru şütüyürdü...

Ordunun mərkəzində Tusi ilə ibn Cüneyd atları üstündə yanaşı gedirdilər. Tusi dedi:

– Ya ibn Cüneyd, sən bilən, pələngin mağarasına qəti hücum məsləhətdir, yoxsa mağara ağzında dayanıb kafiri aclıq kəməndilə boğmaq daha əlverişli olar?

İ b n C ü n e y d. Ya əmir həzrətləri, əsir düşmüş, rüsvay olmuş ibn Cüneydin sənə məsləhət verməyə ixtiyarı yoxdur. Mən ancaq onu deyə bilərəm ki, İslamın qılıncı az qala dünyanın yarısın fəth eləmişdir, amma ərəblərin çoxu yenə acından ölür... Və indi zorla bu dağları da müsəlman etmək, bilmirəm bizə nə verəcək və hansı dərdimizi rəf edəcək?

T u s i. Vay olsun sənə, ey ibn Cüneyd, vaxtilə siz ərəblər İranı da qılınc gücünə müsəlman etmişdiniz, amma indi biz iranlılar siz ərəblərdən daha mömin müsəlman olduğumuzla fəxr edirik...

Və Tusi bərkdən güldü...

Dərhal sanki Tusinin gülüşünə cavab olaraq ordunun duman içində itən ön səflərdən sürəkli qəhqəhə səsləri ucaldı və bu qəhqəhə susmayaraq, qoşunlar irəlilədikcə arxadan səflərə də sirayət etdi və sol tərəfdəki qayalarda əks-səda verdi, sonra dərin dərələr üstündə guruldadı...

Tusi ilə ibn Cüneyd heyrət içində bir-birinin üzünə baxdılar, sonra ordunun mərkəzi ilə bir az yuxarı qalxmışdılar ki, bu dəfə yanlarındakı qoşun hissələri içində qəhqəhə qopdu və ibn Cüneyd əlini yuxarı qaldırıb haranı isə Tusiyə göstərdi...

Yol kənarında, hərəkət edən qoşunların başı üstündə dik və sıldırım bir yamac qırağında miskin və zavallı bir daxma vardı – dövrəsinə qaratikan kolundan çəpər vurulmuşdu, həyəti iki ləkdən ibarət bir torpaq idi və bu ləklərdə əkilmiş lobyalar qarğılara dırmaşmışdı. Yuxarıda daxmanın qalın ot basmış yastı damı üstündə bir keçi dayanmışdı, aşağıda daxmanın səkisində isə əyri ayaqlarında dar şalvar və əynində cır-cındır arxalıq olan bir qarı əlindəki paslı bir gordaya söykənib durmuşdu, və belini qabartmış bir pişik qarının ayaqlarına qısılmışdı...

Və indi yuxarıya "pələng ovuna" qalxan zəhmli bir ordu – əlində paslı bir gorda ilə onu qarşılayan bu miskin qarıya baxıb kişnəyirdi...

Ordu mərkəzindəki oxçu əsgərlərdən kiminsə əli dinc durmadı – vıyıltı ilə şığıyan bir ox daxma üstündə dayanmış keçinin boğazına sancıldı, keçi dam üstündən aşaraq qarının ayaqları altına düşdü...

Qarı dinmədi və yerindən tərpənmədi.

Tusi bu səhnəni gördü, qaşları çatıldı, sonra cibindən çıxardığı pul kisəsini mülaziminə verdi və başıyla qarıya tərəf işarə elədi, mülazim atını çapdı və pul kisəsini yuxarıya, qarının ayaqları altına fırlatdı.

Qarı dinmədi və yerindən tərpənmədi.

Və birdən ordu arxasında qorxunc bağırtılar qopdu. Tusi diksindi, dönüb geri baxdı...

Arxada qalmış qızıl qayaların, qara ağızlı kahaların sanki beçə verən arı pətəkləri idi və bir-birinin arxasınca aşağı kahalardan çıxan əli qılınclı xürrəmilər özlərini yuxarıdan aşağı düşmən qoşunlarının səfləri üstünə atır, yuxarıdakı kahalardan çıxanlar isə aşağı sallanmış kəndirlərlə bir göz qırpımında sürüşüb yerdə bənd alır və dərhal nərə çəkərək İslam qoşunu üstünə hücum edirdilər...

Bu zaman irəlidən, duman içində gözdən itmiş pişdarlar firqəsi tərəfindən də, müdhiş bağırtılar eşidən Tusi, böyük bir ordunun tələyə düşdüyünü anladı və dönüb məzəmmətlə ibn Cüneydə baxdı və dedi:

– Evin yıxılsın, ya ibn Cüneyd, kafir bizə hiylə gəldi və bütün fikri-xəyalı arxadan bizə zərbə vurmaq imiş.

Və Tusi almaslı qılıncını sıyırıb "təkbir" deyə bağırdı, təbillər guruldadı və ordu mərkəzindən avaz ilə səslənən "Allah-əkbər, Allah-əkbər" nidaları göyə ucaldı...

Lakin çox tez bir zamanda ön səflər pozulub geri axdı, arxa səflər gah irəli, gah geri oynadı və böyük bir ordu Tusinin gözləri qarşısında zəlzələdən sarsılmış bir bina kimi uçulub tökülməyə başladı...

Və bütün bu hərc-mərclik içərisində Tusi gah irəliyə, gah geriyə çapır, gah dərələrə enir, gah yamaclara qalxır, bağırır, təhdid edir, yalvarır, lənət oxuyur və fəryad edirdi:

– Ey islam camaatı, geri dönün!

– Ey xəlayiq, səbr edin, sabit qədəm olun ki, fürsət sizindir.

– Ey müsəlmanlar, amanın günüdür, qeyrətə gəlin!

– Ey könüllü mücahidlər, ey anaları fahişələr, siz ki, şəhid olub cənab həqqə qovuşmaq üçün bura gəlmişdiniz!



Lakin hamısı əbəs idi... və nəhayət Tusinin atı büdrəyib dayandı. Tusi ətrafına baxındı, yanında bircə nəfər vardı – o da ibn Cüneyd idi. Tusinin başı sinəsinə düşdü və dedi:

– Ya ibn Cüneyd, böyük bir ordu tar-mar oldu, fürsətdir, sən də qaç, başını qurtar!

– Ya Tusi, – dedi ibn Cüneyd, – bir dəfə qaçdığım üçün hələ də tanrıdan utanıram, sonra əsir düşdüyüm üçün Allah qarşısında üzüm qaradır. Və indi səninlə qalıb özümü rəbbimin ixtiyarına verirəm, zira məni diri qılan və öldürən odur...

Tusi başını qaldırdı və irəlidə təpə döşündə bir dəstə müsəlman ilə bir dəstə xürrəmi arasında qızğın döyüş getdiyini gördü. Tusinin gözləri işıqlandı və dedi:

– Ya ibn Cüneyd, arxamca gəl, haqq təala həzrətləri şəhid olmaq üçün bizə fürsət verdi.

Və hər ikisi qılınclarını sıyırıb atlarını döyüşən dəstələrə doğru çapdılar. Tusi özünü vuruşan əsgərlərə yetirib bağırdı:

– Ey müsəlmanların ən yaxşıları, həyatınız – mənim həyatım, məmatınız – mənim məmatımdır və şəhid olanlara eşq olsun!

Və qanlı, müdhiş bir döyüş daha da şiddətləndi...

Birinci olaraq ibn Cüneyd sinəsinə sancılan bir mizraq zərbəsilə at üstündən yerə yıxıldı...

Sonra ayaqları qılıncla doğranan Tusinin ağ atı təpəsi üstə yerə gəldi və Tusi ayağa qalxmağa macal tapmamış sinəsinə sancılan bir nizə ilə arxası üstə yerə sərildi...

...Babək, başında kiçik bir dəstə təpə arxasından çapıb gələrkən, artıq təpə döşündə vuruşan hər iki dəstədən bir nəfər belə salamat qalmamışdı və hər iki tərəfin ölüləri bir-biri üzərinə qalaqlanmışdı.

Tusi bir anlığa gözlərini açdı və Babəkin işarəsilə bir nəfər atdan yerə sıçradı və çəkib, nizəni Tusinin sinəsindən çıxartdı. Tusi sol əlini qanı fışqıran yara yerinə basdı və başı üzərində dayanmış Babəkə baxaraq dedi:

– Ey şeytan kölgəsi, qəhrəman əsgərsən, buna söz ola bilməz, amma tanrı kölgəsilə vuruşursan, – iqbalın yoxdur.

Və Tusi gözlərini yumdu. Babək dedi:

– Ordusu tarı-mar oldu, bütün əmirləri qaçdılar, amma bu adam qaçmadı və qəhrəman kimi ölən bu əsgəri qılıncı ilə bir yerdə dəfn edin!

**Vizantiya. Qüstəntiniyyə şəhəri. İmperator sarayı.**

Qara geyimli xristian rahib qapı ağzında ayaq üstə dayanmışdı. İmperator Feofil əlindəki məktubu oxuyub ayağa sıçrayan anda imperatriça Feodora salona daxil olmuşdu.

– Bravo Babək, bravo, – deyirdi imperator Feofil. – Bəzzeyn pələngi! Feodora, mən hesab açmışam. Bu yeddinci xilafət ordusudur ki, Azərbaycan dağlarında tar-mar olur. Və Tusi ki, xəlifə Məmunun ən şücaətli sərkərdəsi idi, döyüş meydanında həlak olub! Ey Rahib, sən elə bu gecə yola düşəcəksən – mənim təbrikimi Babəkə yetirmək üçün.

Feodora təəccüblə baxdı:

– İmperator, – dedi, – bu mümkün olan şeydirmi? Sən – Roma imperiyasının hökmdarı, bir kəndli üsyançısını təbrik edəcəksən?

– Nəinki təbrik edəcəm, mənə hərbi ittifaq lazımdır o qəhrəmanla, – xəlifə Məmun əleyhinə, xilafət əleyhinə, ümumi düşmən əleyhinə.

– İmperator, bu eşidilməmiş bir şeydir. Avropa nə deyər buna?

– Yəni kral Lüdovik nə deyər buna? O Lüdovik ki, qorxdu, xilafət əleyhinə mənimlə hərbi ittifaqdan boyun qaçırtdı. Və nəzərə almadı ki, oğlu bacım qızının nişanlısıdır? Bu gündən o nişanı ləğv edirəm.

– Feofil, özünə gəl, bu rüsvayçılıqdır.

– Feodora, saqın, kiminlə danışdığını unutma!

Feodora baş əyərək:

– Əfv elə cəsarətimi, imperator! – dedi.

Feofil üzünü rahibə tutdu:

– Yaxın gəl, rahib, – dedi. – Bir daha qulaq as! Monastır üçün çəkdiyin rəsmlərini görmüşəm və bəyənmişəm. Məktubu Babəkə çatdırandan sonra özün Bəzz qalasında qalacaqsan. Bəhanən bu olacaq ki, mənim əmrimlə mənim üçün Babəkin portretini çəkməyə başlamısan...

Feodora söhbətə qarışdı:

– İmperator, rahib mənim portretimi çəkir, – dedi, – monastır üçün.

Feofil:

– Rahib daha vacib işlər görməlidir, bizim üçün, – dedi və yenə rahibə müraciət elədi, – uzat orda işi! Qoy portret əlində bəhanə olsun, tez-tez Babəklə görüşmək üçün. Və əgər Babəkin ürəyində xristianlığa qarşı meyl oyada bilsən...

Rahib:

– Amin, imperatorum! – dedi. – Böyük məramını dərk edirəm. Əgər Azərbaycan və İran həzrət İsa ağuşunda nicat tapıb xristianlaşarsa, bu ən müdhiş zərbə olacaq islam xilafəti üçün.



– Yaxşı yol, rahib və bil ki, o gündən ki, sərhəd şəhərim düşmən əlindədir–Tarsus matəmi var ürəyimdə. Və Nə qədər ki, xəlifə Məmunu o şəhərdən qovmamışam, yediyim–içdiyim haram olsun mənə – dedi imperator Feofil.

**Bəzz qalasının gecə mənzərəsi.**

Gecə idi, xürrəmilər döyüşdən qayıdırdılar. Babək yaxın silahdaşlarilə qoşun önündə, at üstündə gedirdi...

O vaxt ki, öncül atlılar yoxuş başında qala qarşısına çıxdılar, Babək ixtiyarsız olaraq qara kəhərin başını çəkdi və bütün atlılar da dayandılar.

Qarşılarında əfsanəvi bir mənzərə açılmışdı. Bəzz qalasının divarları üstündə və qala içindəki bütün evlərin damlarında saysız-hesabsız rəngarəng şamlar yanırdı və bütün qala nəhəng bir qəndil kimi 50 min şamın işığı ilə döyüşdən qayıdanları salamlayırdı...

Qala darvazasından çıxan üç atlı Babəkə doğru çapdı və qoca Mehran dədə atını Babəkin qarşısında saxlayıb dedi:

– Ey Babək, ey ulu sərvər, yenə qalib gəlmiş azadlıq bayrağına eşq olsun! Və damlarında 50 min şam yanan Bəzz qalası səni və qəhrəmanlarını təbrik edir.

B a b ə k. Qoşun adından Bəzz qalasına təşəkkür edirəm. Mehran dədə və bu 50 min şam bir az israf olsa da, çox gözəldir.

M e h r a n D ə d ə. Belə lazımdır, ey Babək, qoy rum elçisinin də gözləri qamaşsın.

B a b ə k. Rum elçisi?

M e h r a n D ə d ə. Ərməniyyədən keçərək gizli yol gəlirmiş. Bu gecə Bəzz qalasında olacaq və başında 15 nəfər atlısı var. Sənə rum hökmdarından məktub gətirir.

B a b ə k. Elçi özü kimdir?

M e h r a n D ə d ə. Deyirlər, imperatorun yaxın qohumu və Rum ordusunda qoşun başçısıdır. Yanında rahib var – həm də rəssamdır. Və indi lazımdır ki, sabahkı qəbul mərasimi üçün dərzilər elə bu gecə sənə dibacdan ya qumaşdan zinətli bir libas tiksinlər, mənə də lazımdır ki, elə bu gecə iməcilik ilə 7-ci zəfər sütununu göyə ucaldım...

Babək güldü və dedi:

– Ey Mehran dədə, bilirəm, sən cavanlıqda 15 il Rum məmləkətində əsir olmusan və Qüstəntinədə Rum padşahlarının cah-cəlalını görmüsən və indi istəyirsən ki, üst-başımız Rum elçisini ürkütməsin,

amma Rum imperatoru bizim qaş-gözümüzə aşiq deyil və bu elçi də üst-başımıza baxmaq üçün Bəzz qalasına gəlmir...

M e h r a n D ə d ə. Amma yenə də...

B a b ə k. Haqlısan, elçiyə nə isə göstərmək lazımdır. Və çalışarıq, göstərməyə bir şey taparıq...

**Bəzz qalası. Cavidan qəsrinin qarşısındakı meydan.**

Dağlarda günəşli yay səhəri idi və Babək qəsrin aşağı qatından meydana enən daş pilləkən başında sadə və ağ köynəkdə kürsü üstündə oturmuşdu. İkinci kürsüdə Babəklə yanaşı əyləşən Zərnisə geyinib-keçinmişdi, başında yenə zümrüdlü araqçın vardı və indi o, sanki gəncliyini və gözəlliyini də qısa bir möhlətlə kimdənsə borc alıb bura gətirmişdi.

Aşağıda pilləkənin sağ tərəfində qırmızıtumanlı xürrəmi qızları əllərində çiçək dəstələri, bir-birinin yanına düzülmüşdülər.

Və pilləkənin sol tərəfində Rum elçisi ilə Mehran dədə öndə və elçinin adamları arxada ayaq üstündə dayanmışdılar.

Tez-tez təbillər çalınırdı və meydandan bir-birinin arxasınca xürrəmilərin atlı dəstələri çapıb keçirdilər.

Qəsrin yuxarı artırmasında dayanmış bir carçı isə hər dəfə car çəkərək, atlı bölükləri, qonaqlara təqdim edirdi:

– Varsan atlıları! Başçıları xəzər oğlu Tərxan!

– Zəncan atlıları! Başçıları əcəm oğlu Rüstəm!

– Ərdəbil atlıları! Başçıları Azəri oğlu Azin.

– Mərənd atlıları! Başçıları kürdoğlu Fəzlun.

Və atlı bölüklər meydandan çapıb keçərkən dünənki döyüşdə düşməndən qənimət aldıqları qara bayraqları ağ daşdan tikilmiş 7 zəfər sütunu önündə yerə atırdılar...

Yerə atılan qara bayraqlar zəfər sütunları qarşısında bir-biri üzərinə qalaqlananda, Rum elçisinin adamları içərisində nidalar eşidildi:

– Əlindən bu qədər bayraq vermiş xilafət ordusu çox müdhiş bir məğlubiyyətə uğramışdır.

Bir-birinin yanına düzülmüş 7 zəfər sütunu! Bizdə hansı strateq bir-birinin dalınca bu qalibiyyətlərdən üçünü qazansaydı, Romey ordusu onu dərhal imperator elan edərdi.

– Əgər Babək xürrəmilikdən üz çevirib xristianlığı qəbul etsə... kim bilir, bəlkə bir gün...



– Bir az yavaş Stefanus, sən çox uzağa getdin...

– Nə üçün? İspaniyalı və iranlı, suriyalı və ərməniyyəli imperatorlarımız olmamışdırmı? Və imperatriçə İrina Xəzər qızı Çiçək deyildimi?..

Atlı bölüklərin keçid rəsmi qurtardı, Babək ilə Zərnisə pilləkən başındakı kürsülərindən ayağa qalxdılar.

Və dərhal Rum elçisi də, başındakı bütün dəstə ilə gəldi pilləkən aşağısında dayandı, əvvəl Zərnisəyə, sonra Babəkə baş əydi və dedi:

– Ey Babək! Və ey Atropatananın ulu sərvəri! Belə uğurlu bir gündə gəlib Bəzz qalasına çıxdığım üçün bəxtiyaram və bu misilsiz qalibiyyətini imperator Feofil adından təbrik edirəm!

Babək cavab nitqində rum elçisinə dedi:

– Ey rum diyarından gəlmiş böyük elçi! Sən bizim dağlara xoş gəlmisən, səfa gətirmisən. Və çünki İslam xilafəti sizin üçün də bizim üçün də amansız bir düşməndir, mən rum imperatoru ilə cəng meydanında dost olmağa hazıram...

**Samirə şəhəri. Afşinin sarayı. Gecə.**

Tarixdə Afşin ləqəbilə məşhur olan xilafət ordusunun sərəsləni Heydər ibn Kavus pərdəni sıyırıb, qırmızı şamlarla işıqlandırılmış tağlı bir otağa daxil oldu.

Otağın divarlarında kölgələr oynadı, Afşin keçdi yuxarı başda döşəkcə üstündə bardaş qurub oturdu.

Otağın ortasına nət adlanan dəri bir xalça sərilmişdi və bu xalçanın üstündə bir gənc diz çöküb başını aşağı salmışdı, bədəni qurşağa qədər çılpaq idi, əlləri arxasında zəncirlənmişdi, gözləri isə qara bir yaylıqla bağlanmışdı. Əlində yalın qılınc olan bir adam isə divar dibində ayaq üstündə dayanmışdı. Afşin qarşısındakı gəncə xitab edərək dedi:

– Ya Abbas, əgər bilmək istəyirsənsə hardasan, borcumdur sənə ərz edəm ki, bu saat Samirə şəhərində, xilafətin yeni paytaxtında, mənim, yəni ki, Afşinin sarayındasan və yeni xəlifə Mötəsimin əmrilə mən səni mühakiməyə başlayıram.

Abbas başını qaldırmadan dedi:

– Ey Afşin, mənim ki, ulduzum sönük, bəxtim dönük imiş, başlamağa nə ehtiyac ki, qurtarmaq lazımdır.

A f ş i n. Tələsməyə ixtiyarım yoxdur, ey Abbas, çünki sən xəlifə Məmunun oğlusan... amma indi ki, yeni xəlifəyə sui-qəsdin baş tutmamışdır, bundan sonrakı ömründən neçə gün qalıb, mənim hökmündən və qərarımdan asılıdır.

A b b a s. Ey Afşin, indi ki, bundan sonrakı həyatın səndən asılıdır, qoy rəbbim mənə göz qırpımı qədər ömr verməsin, çünki hələ dünənə qədər sən mənim qapımın qulu idin.

Afşin bağırdı:

– Və bu gün də olardım... əgər sən fürsəti fəta verməsəydin, əgər yeni xəlifənin, əmin Mötəsimi, o mənhus adamı məhv etsəydin və bu gün xilafət taxtında özün otursaydın.

Və birdən Afşin hıçqırdı, gözləri bağlı Abbas başını qaldırdı və heyrətlə soruşdu:

– Sən ağlayırsan, ya Afşin, yoxsa qulaqlarım məni aldadır?

A f ş i n. Ey mənim vəlinemətimin oğlu! Afşin necə ağlamasın ki, atan xəlifə Məmun öləndən sonra yeni xəlifə sən olmalı idin və Afşin bu gün əlləri sinəsi üstə sənin qulluğunda durmalı idi... Amma indi mən sənin gözlərini bağlatdırmışam, qollarına zəncir vurmuşam, başın üstündə cəllad qoymuşam və xəlifə Mötəsimin əmrilə səni mühakimə edirəm, o şəxsin əmrilə ki, siz ərəblər də ona nifrət edirsiniz, biz əcəmlər də... o şəxsin əmrilə ki, Bağdad əhalisinin lənətindən qulaqları batdı və indi gəlib bu yöndəmsiz şəhəri özünə paytaxt eləmişdir. Və yenə o şəxsin əmrilə ki, anası türk qızı bir cariyə idi və indi şeytan toxumu türk əmirləri, Mavərayinəhrin ac qurdları və hələ dünənə qədər qul bazarında satılan bədheybətlər bu gün xəlifə sarayında hökm edirlər.

Bu vaxt elə bil tərpəndi, Afşinin sarayı titrədi və saray arxasından dördnala çapıb gedən atlıların daşlı yolu döyəcləyən nallarından qopan müdhiş bir gurultu içəri doldu və bu gurultu uzaqlaşarkən Afşin dedi:

– Eşitdinmi, ya Abbas? Gecə bilmirlər – çapırlar, gündüz bilmirlər – çapırlar və bilmək olmur ki, bu şəhər İslam dünyasının paytaxtıdır, yoxsa türk kələmənləri üçün at meydanıdır...

A b b a s. Mən də buna qarşı üsyan elədim, ey Afşin, çünki gördüm ki, hakimiyyətin məhvəri türk qoşun başçılarından Aşnasın əlindədir, İtaxın əlindədir və böyük öküz – Buğa əl Kəbirin əlindədir.

Afşin yenə bağırdı:

– Baş tutmaz! Afşin hələ ölməmişdir. Xilafət ordusunu zəfərdən-zəfərə mən aparmışam, Misir məmləkətində qibtilərin üsyanını mən boğmuşam, Rum imperatorunu İslam sərhədlərindən mən qovmuşam... Və qəm çəkmə ki, ey Abbas, sənin qiyamın baş tutmadısa, Afşinin qiyamı baş tutacaq və bu gün səni ölümə məhkum edən Afşin sabah sənin qisasını alacaq?



A b b a s. Məni ölümə məhkum edib, sonra qisasımı alacaqsan?

A f ş i n. Ey Abbas, siyasət meydanına atılan hər bir kəs gah ilan olmalıdır, gah aslan.

A b b a s. Ey ilan oğlu, aslan atası, məqsədin nədir ki, bu qorxunc sirlərini mənə açırsan?

Afşin köksünü ötürdü:

– Ey Abbas, vətənimdən, Üsrüşanadan ayrı düşdüyüm gündən mən bu islam dünyasında bir qəribəm və sinəmdə ürəyim qəribdir və ürəyimdə sirri qəribdir... Və mən edam etdiyim adamlara sirrimi açanda ürəyimi bir az yüngülləşdirirəm...

A b b a s. Vay olsun sənə, ey Afşin! Xəlifə və sən! İki yamanlıq üz-üzə gəlib! Amma iki yamanlıq bir-birini məhv etsə də, bədbəxt yaxşılıq heç bir şey qazanmır... Və indi ki, hökmünü bəyan elədin, əmr elə, cəllad boynumu vursun.

A f ş i n. Cəllad rəsmiyyət xatirinə burda dayanmışdır və mən ki, Üsrüşana şahzadəsiyəm, heç vaxt alimi şahzadə qanına bulaşdırmamışam.

A b b a s. Sən də əsgərsən, ey Afşin, mən də indi və sənə yaraşmaz ki, məni cəlladına boğdurub öldürdürəsən.

A f ş i n. Sən boğulmayacaqsan, ey Abbas, amma bu gündən susuz qalacaqsan və tədricən zindanda can verəcəksən!

Abbas dəhşətə gələrək bağırdı:

– Və yüz dəfə sənə lənət olsun, ey kafir ki, məni belə dəhşətli bir ölümə məhkum edirsən.

Girəcəkdəki pərdə sıyrıldı və Afşinin qardaşı Fəzl içəri girdi və dedi:

– Ya əmir və ey qardaşım, əmirəlmöminin sarayından xadim gəlmişdir, xəlifə Mötəsim gecə süfrəsi açdırıb, səni gözləyir...

Afşin sıçrayıb ayağa qalxdı, gəldi qapı ağzında başını qardaşının çiyninə qoydu, sonra boğuq bir səslə inildədi:

– Ey Fəzl, gecənin bu aləmində, cəhənnəm maliki özü gəlib məni cəhənnəmə qonaq aparsaydı, onun arxasınca daha arxayın gedərdim... Və indi nə qədər ki, o mənhus adamın yanından qayıtmamışam, diz çök, dua et mənim üçün...

**Samirə şəhəri. Abbasilərin 8-ci xəlifəsi Mötəsimin sarayı. Gecə.**

Alçaq miz üstündə mey-məzə vardı və bu miz arxasında xəlifə Mötəsim ilə Afşin bir-biri qarşısında döşəkçələr üstündə bardaş qurub oturmuşdular.

Xəlifə qızıl abgordən ilə qızıl teştdən şərab götürüb miz üstündəki gümüş piyalələri doldurdu, sonra öz piyaləsini başına çəkib dedi:

– Ey Afşin, bizim ki, həyatımız gah qara, gah ağ üstündə son mənzilə doğru çapır, nə qədər ki, gecənin qara atından düşüb, gündüzün ağ atına minməmişik, bu piyalələri yerə qoymayacağıq.

A f ş i n. Əmirəlmöminin, necə ki, nə at cıdırında, nə covukan oyununda mən səninlə bacarmıram, o cür də bu süfrə başında səninlə yarışmağa mənim gücüm çatmaz.

M ö t ə s i m. İç ki, mən sənə əmr edəndə sənin hər şeyə gücün çatar. Və indi ki, Abbası susuzluğa məhkum təriqilə edam edirsən, bu gecə çox ki, öz ürəyin yanmasın... və bil ki, göyərçin qanadında Həmədan [illegible]

milərinin birləşmiş quldur dəstələrini qoca İshaq ibn İbrahim Həmədan qapılarında darmadağın etmişdir və 60 min kafiri qılıncdan keçirmişdir. Və əsir alınmış övrət və uşaqların sayı-hesabı yoxdur. Və gərəkdir ki, mən İshakı mükafatlandıram...

A f ş i n. Ya əmirəlmömin, qəssablıq nə böyük hünər imiş ki, sən İshaq ibn İbrahimi mükafatlandırırsan!

M ö t ə s i m. ...və əgər O Babəkin ölüsüdürsə, yenə də inanmıram ki, o ölmüşdür. Taki özüm onu öldürməyincə... və iç ki, sənə, dünənki kafirə bu gecə əmirəlmömininin özü saqilik edir.

A f ş i n. Rəhm et, ya əmirəlmönin, başım dəyirman daşı kimi dönür.

M ö t ə s i m. İç! Sən ki, nə Allahdan qorxursan, nə qiyamət günündən, – heç olmasa məndən qorx və iç!

A f ş i n. Ya əmirəlmöminin, bu sözlərinlə mənə zülm edirsən, çünki 15 ildən artıqdır ki, mən müsəlmanam.

M ö t ə s i m. Amma hələ də üzündə islamın nuru yoxdur və bir dəfə başına ülgüc dəyməyib və saçın-saqqalın bir-birinə qarışıb. Və sən hər çaharşənbə günü qara bir qoçu qılıncla şaqqalayıb iki yerə bölürsən və şəraitə müğayir kəsilmiş heyvan ətindən yeyirsən... və yeməkdən əvvəlki bismillah ilə yeməkdən sonrakı əlhəmdülillahı unutmusan.

– Ya əmirəlmöminin! – deyə Afşin fəryad elədi.

M ö t ə s i m. Və aç o qıfılı ki, ürəyindən asmısan, nə qədər ki, mən onu vurub sındırmamışam.

– Ya əmirəlmöminin! – deyə Afşin inildədi.

M ö t ə s im. Və sən o adamsan ki, Üsrüşanada atan Kavusun vəzirini öldürdün, sonra gəldin islam qoşunlarını doğma yurdunun üstünə apardın və qoca atanı əsir edib Məmunun hüzuruna gətirdin və öz dinindən üz çevirdin və adın Kidra ikən dəyişdirdin, Heydər elədin və nəhayət sən...

Gözləri dəhşətlə dolmuş Afşin artıq davam gətirməyərək xəlifənin sözünü kəsdi və bağırdı:

– Və kifayətdir, ya əmirəlmöminin! Və mən ki, müsəlman olmaq üçün bu qədər qurban vermişəm və sən ki, əvəzində məni bu qədər ittiham edirsən və indi ağzından çıxan hər sözün mənim üçün bir ölüm hökmüdür və yəqin ki, pərdə arxasında cəllad gizlətmisən və sən ki, biz əcəmilərə bu qədər nifrət edirsən.

Və gözləri dəli bir ifadə almış Afşin birdən alçaq miz üstündən özünü Mötəsimin üstünə atdı. Xəlifə diksinib başını geri çəkdi, Afşinin əllərinə yalnız xəlifənin çiyinləri keçdi və hər ikisi bir an bu gərgin vəziyyətdə donub qaldılar...

Xəlifənin əlləri bayaqdan arxasında çataqlanmışdı və indi sağ əlində, gizlincə döşəkcə altından götürdüyü bir xəncər vardı, buna görə idi ki, Mötəsim yerindən qımıldamadan Afşinin gözlərinin içinə baxırdı və nəhayət dodaqlarında qorxunc bir təbəssüm oynadı:

– Maşallah, dəmir kimi əlləri varmış, ya Afşin və başın da şir başı kimi çox heybətlidir. Niyə dayandın? Boğ! Sən ki, Allahından qorxmursan. Yox, əgər boğa bilmirsən, sat bu dəmir əllərini mənə!

Afşin davam gətirmədi, əlləri boşaldı və xəlifənin ayaqlarına yıxılaraq inildədi:

– Allahdan qorxmayan Afşin, səndən qorxur, ya əmirəlmöminin və Afşin qiyamətə qədər sənin sadiq qulundur. Və izin ver, kəlmeyişəhadətimi gətirim, sonra əmr elə, cəllad gəlsin boynumu vursun!

Mötəsim arxasında tutduğu xənçəri yenidən döşəkcə altında gizlətdi və sıçrayıb ayağa qalxdı.

Afşin də səndələyərək ayağa durdu və başı aşağı xəlifənin hüzurunda dayandı. Xəlifə isə bağırdı:

– Sən və yalnız sən getməlisən o tanrı düşməninin üstünə. Sən və yalnız sən, bacara bilərsən allahın o müdhiş bəlası ilə. Ölübsə ölüsü ilə sən bacara bilərsən, diridirsə, dirisi ilə sən bacara bilərsən. Və əgər məhv olsan, onu da özünlə bərabər sən məhv edə bilərsən. Və mən ki, bayaq dedim, o dəmir əllərini sat mənə, sənin istədiyin nədir məndən? Cibal məmləkəti? Sənin olsun! Azərbaycan? Sənin olsun! Ərməniyyə? Sənin olsun! Azdır? At üstünə minib onunla cəng etdiyin hər gün üçün 10 min dirhəm alacaqsan və o günlər ki, at minməyəcəksən, cəng etməyəcəksən hər gün üçün 5 min dirhəm alacaqsan. Və bu şir başına ki, tac çox yaxşı yaraşır. Bağdadın yəhudi zərgərləri sənin üçün almaslı bir tac hazırlayacaqlar. Və əgər boynunda dünyanın ən qiymətli həmayillərini görmək istəyirsən, dartıb çıxardacağam öz boynumdan həmayillərimi. Üst-üstə sənin boynundan asmaq üçün... Niyə dinmirsən? Niyə nitqin batıb?

A f ş i n. Əfv et məni, ya əmirəlmöminin. Və bütün bunlar gözümdə bir heçdir, əgər bilsəm ki, ürəyində məni əfv etməmisən.

M ö t ə s i m. Və indi ki, bütün bunlar gözündə bir heçdir – əməviləri yıxan, abbasiləri taxta çıxardan taxta gün çıxan ölkəsi – Xorasan necə?

Və *Afşin diksindi, Afşini sanki ildırım vurdu, rəngi qaçdı və başı* elə döndü ki, ayaq üstə durmağa taqəti qalmadı, yerə çökdü və başı sinəsinə düşdü. Xəlifə çəpəki baxışlarla Afşini süzdü və dodaqlarından qaçan əyri bir təbəssümlə dedi:

– Nə oldu, döndümü Xorasan həsrətindən başın? Və başıma and olsun ki, o gün qalib ki, gəldin və qolları bağlı Babəki hüzuruma gətirdin, Xorasan da sənindir... Və qalx ayağa ki, səninlə bərabər bütün



xilafət islam qılıncını rüsvay edən o müdhiş bəlanın üstünə gedir və əgər görsəm ki, yanımda təkcə bərbərim qalmışdır, onu da sənin ixtiyarına göndərəcəyəm, və əgər görsəm ki, yanımda təkcə dərzim qalmışdır – onu da sənin dalınca göndərəcəyəm və əgər görsəm ki yanımda təkcə aşbazım qalmışdır, onu da səndən əsirgəməyəcəyəm!

**Gecə. Samirənin uzun küçələri.**

*Afşin yüyürüb xəlifənin sarayından çıxdı.* Küçədə atının üstünə sıçradı. Sonra məşəlçilərindən birinin əlindən məşəlin qapıb atını çapdı. Afşinin silahlı qulamları da dərhal onun arxasınca çapdılar, lakin Afşinə çata bilmədilər və yalnız qarşıda, gecə qaranlığında da bir məşəl alovunun *sərxoş dairələr cızaraq uzaqlaşdığını görə bildilər...*

**Gecə. Afşinin sarayı.**

Afşin atından yerə sıçradı, məşəli kənara atdı və sarayın içəri həyətinə yüyürdü. Sonra pilləkənlə yuxarı cumdu və pərdələri birbirinin arxasınca qarşısından ataraq salondan-salona keçdi, xeyli getdi və nəhayət gəlib ən dərindəki məxfi bir otağa girdi, divardan asılmış bir xalını qopardıb yerə saldı və xalı arxasındakı taxçada oturmuş gözləri qırmızı yaqutlu bir bütün boğazından tutub qaldırdı, gətirib alçaq miz üstünə qoydu, sonra taqətsiz bir halda bütün qarşısında yerə çökdü və qara qızdırmaya tutulmuş kimi gah yavaşdan pıçıldadı, gah səsin ucaltdı:

– Ey Zarvah, xeyir-dua ver ki, gedirəm və bəlkə son dəfədir ki, sənə səcdə edirəm. Və çox da ki, son cansız bir taxtasan, amma yadlar icadı bütün tanrılardın daha artıq sən ürəyimə yaxınsan, çünki əcaibsən, amma doğmasan və əbədi bir susqunsan ki, qulaq asırsan və mən bu islam dənizində qərq olduğum gündən yeganə həmdəmim və gizli sirdaşım sənsən. Və yalnız sən bilirsən ki, nifrət etdiyim bir dinin qalibiyyəti uğrunda qılınc çalan mən, kiçik vətənimi ona görə tapdadım ki, zirvəyə qalxım və böyük üsyanları ona görə boğdum ki, sonra bir gün öz üsyanım, öz qiyamım, öz intiqamım üçün qüdrətim olsun! Və indi yubanma, xeyir-dua ver ki, mən artıq öz taleyimin üstünə gedirəm, çünki Xorasan həsrəti ilə yanıb quru səhraya dönmüşdür ürəyim. Və o gün ki, Xorasan mənim oldu, Mavərayinəhr də mənimdir, Üsrüşənə da mənimdir və bütün İran, bütün Turan mənimdir və o vaxt islamın

əmirəlmöminin sənin kimi bir büt olacaq əlimdə, elə bir büt ki, lazım gələndə səcdə edəcəyəm və lazım gələndə tutacağam boğazından...

Və Afşin bütün boğazından tutub elə sıxdı ki, taxta şaqqıldadı və sanki bütün qırmızı yaqutlu gözlərindən od çıxdı və Afşin diksinərək bütün boğazından əlini geri çəkdi...

**Araz qırağı. Qalın və uca qamışlıq.**

Sıx və keçilməz qamışlıq o qədər uca idi ki, qaban sürülərinin açdığı cığırla hərəkət edən dörd nəfər atlının başlarından çox yuxarıda dalğalanırdı...

Atlılar qamışı biçilmiş bir talaya çıxdılar. Burda, qamışdan hörülmüş iki komanın dövrəsində qılınclı və nizəli adamlar oturmuşdular və hər tərəfdə yəhərli atlar və yüklü qatırlar görünürdü. Talaya çıxanlar atlarından endilər və başçıları Fəzlun bir nəfərə müraciət edərək dedi:

– Ey Abdus, sənin gözətçilərin çörək istəyirlər.

Taladakı adamlar bir-birinin üzünə baxdılar və Abdus dedi:

– Çörək nədir, ey Fəzlun, bir ovuc qovutumuz da yoxdur və çörək dalınca Barsis səni göndərmişdi.

F ə z l u n. Biz qara bir xəyanətə qurban getdik, ey Abdus... Mərəndin sahibi məlun ibn Bəis ki, uzun illərdən bəri Babəkə qulluq edirdi və qoşunlarına sursat göndərirdi, nəhayət axırıncı qanlı ziyafəti ilə bizi tora saldı. Adamlarımızı içirdib qılıncdan keçirtdi... qurtulan bir mən və üç nəfər yoldaşımdır...

Barsis hardadır?

A b d u s. Babəkin yanındadır.

**Babəkin koması.**

Qamışdan hörülmüş komada başı sarıqlı və qolları arxasında bağlı olan Babək küləş yatağı üstündə oturmuşdu və başını aşağı salmışdı.

Və bir nəfər silahlı adam Babəkin qarşısında diz çökmüşdü ki, bu Kuhistan xürrəmilərinin başçısı Barsis idi.

B a r s i s. ...Ey Babək, ey ulu sərvər! Axırda məcbur oldum qollarını bağladım. Və indi qarşında diz çöküb yalvarıram. Allahı sevərsən inadı burax. Bir aydan çoxdur ki, yol gəlmişik, gecələr hərəkət etmişik, gündüzlər dağlarda, meşələrdə gizlənmişik. Və sən ki, ölümcül yaralanmışdın, Həmədan qapılarından ta buraya, bu Araz qırağına qədər huşsuz halda mənim çiynimdə və mənim döyüşçülərimin çiynində gəlmisən,



və bu bir ayda bacım Cunay sənin yaralarını sarıdı, pərvanə kimi başına dolandı və nəhayət səni ölümdən geri qaytardı... indi bu axşam hava qaralana kimi biz yenə tərpənməliyik. Və əgər Ərməniyyədən salamət keçsək, sonra Rum torpağındayıq. Və mən ki, sənin ölünü düşmənə vermədim, indi dirini də düşmənə verə bilmərəm. Və bil ki, bir nəfər də olsun səninlə geri qayıtmağa razı deyil, çünki geri qayıtmaq – ölümdür və Həmədan fəlakətindən sonra burda hər şey qurtardı. Və indi bizim nicatımız – yalnız Rumdur. Orda, Rum imperatorunun qulluğunda isə bizim sərvərimiz və sərkərdəmiz yenə sən olacaqsan...

Babək ağır-ağır başını qaldırdı və dedi:

– Vay olsun sənə, ey Barsis ki, Həmədan fəlakətinə sən bais oldun.

B a r s i s. Mən?

B a b ə k. Sənin qoşunların Əlvənd dağının keçidlərində pusquda durmalı idi və düşməni arxadan vurmalı idi. Sonra mən xəbər tutanda ki, sən Həmədan valisinin sarayını mühasirəyə almısan və şəhər məclisindəki qızıl qəndilləri qarət edirsən, artıq iş-işdən keçmişdi...

Barsis bağırdı:

– Nə qəndil, nə qarət? Mən Həmədan valisinin sarayından əsir bacımı xilas etdim. Sonra xəbər gələndə ki, darvaza ağzındakı döyüşdə sən həlak olmusan, geri döndüm, mühasirə çəmbərini yardım ki, cənazən alçaq düşmən əlinə keçməsin!

B a b ə k. Ölən Babəkə göstərdiyin hörmət üçün sənə minnətdaram, amma indi qorx diri Babəkin qəzəbindən və qollarımı aç!

B a r s i s. Heç vaxt! Ey, gətirin o xəbisi bura!

Dərhal Barsisin döyüşçülərindən bir dəstə adam səs-küy ilə komaya doldu və qolları bağlı bir nəfəri sürüyüb özlərilə bərabər içəri gətirdilər.

B a r s i s. Bax! Bir aydır, bu xəbis qarabaqara bizi izləyirmiş və güdürmüş görsün səni harda dəfn edəcəyəm. Sonra qəbrini eşəcəkmiş ki, başını bədənindən üzüb aparsın. Çünki yeni xəlifə sənin başın üçün elə dəhşətli bir sərvət vəd edib ki, hər yetən anası qəhbə səni ovlamaq xəyalına düşüb və əgər sən təkbaşına Bəzz qalasına qayıtsan, bu qamışlıqdan çıxan kimi ovlanacaqsan. Ey Abdus, sən nə deyirsən?

A b d u s. Ey Babək, ey ulu sərvər, adamlar acdırlar və hava qaralan kimi biz tərpənməliyik. Və biz ki, səni çiyinlərimiz üstündə buracan gətirmişik, lazımdır ki, burdan o yana sən də bizimlə bərabər Ruma gedəsən.

B a b ə k. Ey Abdus, sizi, Kuhistan xürrəmilərini xilas etmək üçün mən 7 min azəri qəhrəmanını qurban verdim və mənim sərkərdələrimdən Rüstəm həlak oldu və İsfahan xürrəmilərinin hər on nəfərindən doqquzu məhv oldu... və indi bütün bunların əvəzində siz məni qolları bağlı Ruma aparacaqsınız?

I D ö y ü ş ç ü. Başqa çarəmiz yoxdur, ey Babək, biz arvad-uşaqlarımızı itirdik, yurdumuzdan-yuvamızdan didərgin düşdük və indi Rum padşahı nə bizi tanıyır, nə Barsisi, amma səninlə ittifaq bağlamışdır və əgər sən bizi Rum imperatorunun hüzuruna aparsan, onun borcudur ki, bizi qulluğa götürsün...

B a b ə k. Qulaq asın, ey Kuhistan xürrəmiləri, müsibətə dözmək lazımdır ki, müsibət asan olsun və bizi ki, azadlıq qulluğa götürmüşdür, öz bayrağımız altında məhv olmaq Rum imperatoruna sığınmaqdan daha üstündür.

II D ö y ü ş ç ü. Ey Babək, bu vaxta qədər sən bizim üçün tanrı idin, xudavənd idin, çünki bu 20 ildə sən məğlubiyyət nə olduğunu bilməmişdin, amma indi biz gördük ki, sən də insansan və bəxti dönmüş bir qəhrəmansan... Və ey xürrəmilərin sərvəri, sən burda qalsan, məhv olacaqsan – ondansa öldür özünü, cənazəni Ruma aparaq, taki orda qəbrin bizim üçün ziyarətgah olsun.

B a b ə k. Eşitdinmi, Barsis, sən deyə bilmədiyini bu adam dedi, və Babək sizə müqəddəs bir ölü kimi lazımdır ki, qürbətdə qəbrini ziyarət edib, ağlaşasınız. Amma Babək müqəddəs ölü deyil, və nə qədər ki, mən nəfəs alıram – burda, öz yurdumda, Azərbaycana lazımam. Və əmr edirəm sənə, bu saat qollarımı aç, və səndən iki şey tələb edirəm – bir qılınc və bir at.

Barsis dinmədi, Babək səsini qaldırdı:

– Bir daha qulaq as, Barsis, mən ki, bütün xürrəmilərin sərvəriyəm, əmrimdən boyun qaçıran hər bir xürrəmini edam etməyə mənim haqqım və ixtiyarım var.

Barsis diksindi və dedi:

– Məni təhdid edirsən, ey Babək? Arxasında 9 min döyüşçü dayanmış Barsisi?

Babək bağırdı:

– Və get o 9 min döyüşçünə elan et ki, Babək səni ölümə məhkum edir.

Aralığa dərin bir sükut çökdü. Sonra Barsis dedi:



– Görünür, sən Barsisi yaxşı tanımırsan, ey Babək... Və indi, iş bu məqamə çatdı, aç deyirsən, açıram qollarını, qılınc istəyirsən, qaytarıram qılıncını. Amma bir şərtlə. Elə bu saat burda təkə-tək vuruşacayıq. Və o vaxta qədər ki, ya sən məhv olacaqsan, ya mən...

B a b ə k. Sən uşaqsan, Barsis... Babək ölümə məhkum etdiyi bir adamla vuruşa bilməz!

Barsis bir an boğuldu, sonra özünü komadan bayıra atdı, qaşları çatılmış döyüşçülər də Barsisin arxasınca komadan çıxdılar və qolu bağlı casusu sürüyüb özlərilə bərabər apardılar.

**Barsisin koması.**

Barsis qamışdan hörülmüş ikinci komaya girdi və üzü quylu küləş üzərinə sərildi. Komanın o biri küncündə dizlərini qucaqlayaraq oturmuş gənc bir qadın təlaş içərisində ayağa qalxdı, gəldi Barsisin yanında diz çökdü:

– Nə olmuşdur, Barsis?

B a r s i s. Heç bir şey, Babək məni ölümə məhkum etdi.

Qadın diksindi, Barsis isə oturdu və bu zaman casus ilan kimi sürünərək içəri girdi və dedi:

– Ya Həzrət, Babəki dərin bir yuxuya vermək üçün burda, mənim qoltuğumda bir məndil var, qollarım bağlıdır, çək özün çıxart, amma söz ver ki, məni öldürməyəcəksən və öldürmək nə üçün ki, əsir kimi Ruma aparsan Qüstəntinə bazarında satarsan...

Barsis bir an gözlərini döydü, sonra qeyri-ixtiyari dartdı casusun qoltuğundan qırmızı tumac bükülmüş bir bağlama çıxartdı.

C a s u s. Qoy banu tumac içindəki məndil ilə son dəfə Babəkin başın sarısın, o vaxt Babək elə rahat olub yatar ki, bir də gözlərini Sinopda açar...

B a r s i s. Və yaxud elə yatar ki, bir də heç vaxt gözləri açılmaz?

Casus çiyinlərini çəkdi. Barsis dönüb qadına baxdı. Qadın diksinib geri çəkildi. Barsis casusa təpindi:

– Ey xəbis, sən çıx komadan.

Casus sürünüb komadan çıxdı.

B a r s i s. Ey Cunay sən doğrudan da mənim bacımsansa...

C u n a y. Şübhə edirsən?

B a r s i s. On beş yaşında idin, mən səni itirəndə...

C u n a y. Və on beş yaşından bu günə qədər mən yatanda da Barsis *demişəm, duranda da... Çünki şəklin xəyalımdan silindikcə,* qorxurdum ki, adın da yadımdan çıxsın...

B a r s i s. Bağışla məni, ey bacı, bu saat başımı elə itirmişəm ki, nə danışdığımı heç özüm də bilmirəm. Çünki bu axşam burdan tərpənməsək, acından cana doymuş qoşun üzümə ağ olacaq və hamı tıxacaq itaətimdən... Və indi ki, başqa çarəmiz yoxdur, get son dəfə onun yarasın və təbiidir ki, bu məndil ilə... Və bunu da bil ki...

C u n a y. Sən dəli olmusan, Barsis!

B a r s i s. ...bunu da bil ki, gözlərindən görürəm ki, ürəyin öz ixtiyarında deyil və indi ki, sevirsən, sevdiyini düşmən əlinə verməmək üçün məhv etsən, ürəyin qorxmasın ki, günaha batarsan, çünki tanrıça Anahdin amanındasan...

Və Barsis sıçrayıb ayağa qalxdı, tumac bağlamanı Cunayın üstünə atdı, sonra komadan çıxdı. Qamışlıqda oturmuş döyüşçülərdən böyük bir dəstə dərhal ayağa qalxdı və Barsisi ortalığa aldı və Abdus dedi:

– Ey Barsis, izin ver atlardan bir-ikisini kəsək.

Barsis bağırdı:

– Ay Abdus, başıma and olsun ki, məni yemək istəsəniz, bəlkə dinmərəm, amma kim atlara toxunsa, soyub dərisini boğazından çıxararam.

Döyüşçülər müxtəlif səmtlərdən bağırışdılar:

– Ey Barsis, acından başımız dönür, çünki üç gündür ağzımıza bir loxma almamışıq.

Barsis təpiyin yerə vurdu:

– Acsınız, torpaq yeyin, acsınız qamış çeynəyin və yırtılmış qarnınıza daş bağlayın, necə ki, qədim peyğəmbərlər ac qalanda qarınlarına daş bağlayırdılar.

Və Barsis geri döndü, qayıdıb yenə komaya gəldi, lakin girəcək ağzında heyrət içində ayaq saxladı.

Cunay içəridə mücrüsünü açmışdı və indi mücrüdən çıxardığı sırğaları qulaqlarına taxdı, sonra mücrüdən bir cüt bilərzik çıxartdı və biləklərinə keçirdi, daha sonra aypara şəklindəki bir gülpiçi saçlarına bənd elədi və üzü gümüşlənmiş tunc aynanı əlinə aldı, aynada öz xəyalını seyrə başladı...

Və Barsis davam gətirməyərək səsləndi:



– Ey Cunay və ey bacı, tanrı qarğımış belə bir gündə məgər sən *toya-bayrama gedirsən?*

Cunay aynada öz xəyalına gülümsədi:

– Ey Barsis, əgər öldürməyə gedirəmsə, demək ölməyə gedirəm və son dəfə mən ona gözəl görünməliyəm...

**Babəkin koması.**

Cunay əlində tumac bağlama içəri girdi, bir an girəcək ağzında dayandı, sonra getdi Babəkin qarşısında diz çökdü, başın aşağı saldı və susdu:

Babək başını qaldırdı, uzun-uzadı Cunaya baxdı:

– Mən elə bildim ki, bir daha gəlməyəcəksən... və əgər bu son gəlişindirsə...

C u n a y. Elədir, son dəfə hüzuruna gəlmişəm, ey xudavənd... çünki hava qaralanda biz tərpənməliyik... və sən ki, bizimlə getmirsən... axırıncı dəfə başındakı sarğını dəyişdirməyə gəldim...

B a b ə k. Məni sən diriltdin, ey Cunay və mən həyatımla sənə borcluyam, amma çox şum bir taleyim varmış ki, borcumu sənə qara bir təşəkkürlə qaytarıram...

C u n a y. Eşitdim... qardaşım və sən... Çox tez iki qılınc kimi üzüzə gəldiniz... qismətim... vəzifəm... qulaq as, ey xudavənd...

B a b ə k. Mənə xudavənd demə.

C u n a y. Nə üçün?

B a b ə k. Hələ dünənə qədər mənə xudavənd deyən Kuhistan xürrəmiləri bu gün qollarımı bağladılar və tez dəyişdir sarğını, sonra sənə sözüm var.

Cunay tumac bağlama içindən sarımtıl bir məndil çıxartdı, sonra dizləri üstə qalxdı, istədi Babəkin başındakı köhnə sarğını açsın, lakin birdən əlləri titrədi, gözləri qorxu ilə doldu və Cunay əlindəki məndili kənara ataraq, başını Babəkin dizi üstünə qoyaraq ağladı...

B a b ə k. Nə oldu sənə?

C u n a y. Zəhər hopdurulub o məndilə...

Aralığa həzin bir sükut çökdü... Handan-hana Babək dedi:

– Mən bunu da sənə əfv edərdim... Bir gecə bilmirəm, hansı dağda, hansı mağarada idi, bir anlığa gözlərimi açdım və gördüm ki, yanımda sən oturmusan və həzindən nə isə oxuyursan. Harda olduğumu və nə üçün yıxılıb qaldığımı anlamadım. Və sən kim idin, nə üçün yanımda

oturmuşdun – bilmədim. Amma elə bil nəğməli səsindən tutub dərin bir quyudan çıxdım... və hiss etdim ki, artıq ölümdən geri qayıtmışam və bu həyatı yenidən mənə sevdirən sən olacaqsan...

C u n a y. Əgər indi sən də bizimlə bərabər Ruma getsəydin... və ey xudavənd, kim bilir, bəlkə Qüstəntinə şəhərində biz xoşbəxt olacayıq?

Babək gülümsədi:

– Sən elə burda, bu qamış komada məni xoşbəxt edərdin, – əgər qollarımı açıb mənə bir qılınc gətirsəydin.

C u n a y. Qılınc? Qardaşım Barsisi öldürmək üçün?

B a b ə k. Plümə məhkum edilmiş hər bir xürrəminin möhləti var, döyüş meydanında öz günahını yumaq üçün... Qolumu aç ki, bundan artıq yubanmağa vaxt qalmamışdır, çünki daha amansız döyüşlər hələ qabaqdadır.

C u n a y. Aman Allah, məgər sənin bütün döyüşçülərin Həmədan qapılarında məhv olmadılarmı?

B a b ə k. Atalar məhv oldular, oğullar sağdırlar... Və əgər mənim taleyimi qəbul etsən, elə bu axşam fürsət tapıb bu qamışlıqdan çıxardıq... Yox, əgər muradın Rumdursa, Babək ömrü boyu səni unutmayacaq...

**Araz qırağı. Kiçik təpəciklər.**

Səhər dan yeri sökülendə nəhayət onlar qamışlığı yarıb açıqlığa çıxdılar və getdilər kiçik bir təpə üstünə qalxdılar. Bütün gecəni qılıncı ilə qamışlığı biçərək Cunay üçün cığır açmış Babək indi qılıncını qınına qoydu, alnının tərini sildi və döndü Cunaya baxdı...

Cunayın qolları və üzü qırmızı zolaqlarla naxışlanmışdı, donu didik-didik olmuşdu və Cunay vücudunun açıq yerlərinə baxaraq utandı, təpə üstündə yerə oturdu. Babək isə döndü ətrafına baxındı. Uzaqda dağ ətəyində at ilxısı otlayırdı.

B a b ə k. Bizə o ilxıdan iki at lazımdır. Amma mənim cibimdə siçan oynayır...

C u n a y. Qulaqlarımla sırğalarım, qollarımda bilərziklərim...

B a b ə k. Barmağındakı üzük kifayətdir...

C u n a y. Yox, üzüyü verməram... və əgər düşmən bizi mühasirə edərsə, məndən arxayın ol ki, Cunay əsir düşməyəcək, çünki dişlərim bu zümrüd qaşı daha tez sındıracaq və zəhər boşalanda son sözüm, son fəryadım "Babək" olacaq!



Və Cunay birdən barmağını bükdü, üzüyün qaşını sədəf kimi ağ dişləri arasına aldı və Babəkin üzünün necə dəyişildiyini görərkən, şaqqıldayıb güldü, Babək yaxın gəldi, Cunayı sinəsinə sıxdı:

– Gizləmirəm, ürəyim qısıldı, – və ölümlə gizlənpaç oynamaq lazım deyil!

**Dağ ətəyi. Otlayan at ilxısı.**

İlxı yanındakı adam bir cüt bilərziyi ovcunda atıb-tutdu, sonra döndü, haraya isə baxdı...

Babək ilə Cunay iki at üstündə dördnala dağlara çapırdılar...

**Dağ yolu. Axşam dumanı.**

Axşama doğru dağları sıx duman bürüdü və Babək bu duman içində atını addım-addım sürməyə məcbur oldu və indi Cunay da atını Babəkin arxasınca sürürdü.

Babəkin atı birdən qulaqlarını dik tutdu, sonra kişnədi və dərhal qarşıdan, çox yaxın məsafədən başqa bir atın kişnərtisi eşidildi və dumandan sıyrılıb bir-birinin qarşısına çıxan iki atın başı bir-birinə dirəndi...

Babəkin qarşısına çıxan adam əlini qılıncının qəbzəsi üstə qoyaraq dedi:

– Ey şəxs, kimsənsə, salam olsun sənə və mən ovçuyam, dəstəmdən ayrılmışam, sonra dumana düşüb azmışam... Əgər bu yerlərə bələdsənsə, yol göstər mənə və xəcalətindən çıxmaq mənim boynuma...

B a b ə k. Gün aydın ey kəs ki, bu dumanda mənə rast gəlmisən. Və söylə, hardan gəlirdin və indi hara gedirsən?

– Gəldiyim yer çox uzaqdır... amma indi Bərzənd qalasına qayıtmalıyam.

B a b ə k. İndi ki, bu yerlərə nabələdsən, bu dumanda yol tapmaq sənin üçün çətin olacaq. Qalxaq mənimlə bərabər Bəzz qalasına gecəni orda mənə qonaq olarsan və səhər açılanda aşağıya Bərzənd şəhərinə enərsən...

Ovçu ixtiyarsız olaraq qımışdı:

– Ey dost, mən Bəzz qalasına qədəm qoysam, Babək kəlləmi qopardıb qoltuğuma verər, amma bərabər Bərzəndə getsək, sən məndən çox böyük hörmət görərsən.

İndi də Babək ixtiyarsız olaraq qımışdı:

– Ey şəxs, əgər mən də özüm öz ayağımla Bərzəndə getsəm, deməк başımı müftəcə Afşinə peşkəş vermişəm...

Və bütün bu söhbət zamanı gözünü ovçudan çəkməyən Cunay indi "Afşin" adını eşidərkən, birdən diksindi və Babəkin arxasından çağırdı:

– Vay olsun mənə, ey Babək, axır ki, tanıdım... Afşin ibn Kavusdur qarşında duran və sən öz ölümünlə şuxluq edirsən...

Və hər iki atlı bir an gözlərini döyərək donub atları üstündə hərəkətsiz qaldılar, sonra hər ikisi birdən qımıldandı və hər ikisi bir anda qılıncların sıyırdılar və hər ikisinin atları eyni zamanda şahə qalxdı...

B a b ə k. Nə uğursuz bir təsadüf, ey Afşin!

A f ş i n. Bəlkə uğurludur, ey Babək, çünki sən hələ mənim kim olduğumu bilmirsən.

B a b ə k. Sənin kim olduğunu bilməyən yoxdur, ey Afşin, dünənə qədər sənin öz dinin, öz vətənin vardı və sən Üsrüşana şahzadəsi idin, sonra vətənindən üz çevirdin, müsəlman oldun və indi xilafət ordusunun sərəslanısan!

A f ş i n. Bunu uşaqlar da bilir, ey Babək, amma heç kəs bilmir ki, mən sənin qardaşınam.

B a b ə k. Elə isə bu vaxta qədər qafil olmuşam və elə bilmişəm ki, iki qardaşım var, biri kiçik qardaşım Abdulla, digəri süd qardaşım ərəb oğlu Muaviyə...

A f ş i n. Və üçüncü qardaşın da Afşindir ki, bu gün əlində qılınc sənin üstünə gəlib, çünki sən yeddi dəfə xilafət ordularını tar-mar etmisən və mən yeddi dəfə üzünü görmədiyim sənə ürəyimdə "qardaşım" demişəm. Amma bu dünyada hər şeyin bir sonu var, ey Babək və insan başı soğan deyil ki, biçdikcə yenidən cücərsin. Ona görə sual edirəm səndən, nə vaxta qədər vuruşacaqsan? Və iyirmi il ki, bir igidin ömrüdür, 20 il axan bu qan selinə nəhayət son verməк lazım deyilmi?

B a b ə k. Bunu İslamın Allahından soruş ki, nə vaxtacan onun əmrilə İslam qılıncı qan tökəcəkdir, bunu öz xəlifəndən soruş ki, nə üçün səni mənim üstümə göndərmişdir və nə üçün xürrəmilərin sevinc və azadlıq dini islama görə bu yer üzündə ən günahkar və ən cinayətkar bir dindir?

A f ş i n. Ey xəyalpərvərlərin peyğəmbəri, islama mən səndən artıq düşmənəm! Amma indi gəlmişəm ki, səni də islama dəvət edim. Çünki islamı qəbul etməmiş qüdrətli islam xilafətini məhv etmək olmaz. Və



bu məqsədlə mən 15 ildir ki, qara bayraqlı xilafət qoşunları başında hər gün 5 dəfə namaz qılıram... Və indi sən birinci şərtimi qəbul etsən, günü sabah səninlə gizli danışıqlara başlarıq və o vaxt ki, ürəklərimiz birləşdi, qılınclarımızı da birləşdirərik...

B a b ə k. Birinci şərtini – islama dəvətini rədd etdiyim üçün, sonrakı danışıqlara ehtiyac qalmır.

A f ş i n. Ey Babək, dil tapmasaq ya sən məhv olacaqsan, ya mən... Düşün dediklərim barədə, bir də görüşək.

B a b ə k. Və hər gün döyüş meydanında görüşəcəyik, ey Afşin, ta o vaxta qədər ki, xürrəmiliyin qırmızı bayrağı altında mən məhv olacağam, yaxud islamın qara bayrağı altında sən...

Dalğa-dalğa axan ağ duman içərisində bir-birinə dəyən saysız-hesabsız qılınclar parıldadı və gah qızaran, gah qaralan bir fəzada yazı başlandı:

"Və Babək ilə Afşin arasında başlanan qanlı döyüşlər artıq iki il idi ki, davam edirdi..."

**Dağlar qoynunda Afşinin ordugahı.**

Yerə üç barmaq qalınlığında dəmir tikan səpilmişdi, tikanlı sahə qurtaran yerdə xəndək qazılmışdı və xəndəyin kənarında hündür hasar ucaldılmışdı və bu üçqat maneə xətlərinin arxasında Afşinin böyük ordugahı yerləşmişdi.

Ordugah mərkəzində isə nəhəng bir qübbə kimi Afşinin qara çadırı ucalırdı.

Gecədən xeyli keçmişdi və Afşin içəridə üzünü qibləyə tərəf tutub – günün birinci və axırıncı namazı olan Yatsu namazını qılırdı. Afşinin arxasında yer almış qoşun başçıları da leşgər əmirilə bərabər namaz ayinində iştirak edirdilər.

Və bu vaxt hardansa yuxarıdan, dağlardan uçub gələn bir qadın nəğməsi əllərini göyə qaldırmış, dodaqları dua pıçıldayan bu adamların qulaqlarında əks edərək cingildəyirdi. Və indi əgər arxada namaz qılanların üzləri tutqun idisə, əksinə, öndə namaz qılan Afşinin yalnız dodaqları dua pıçıldayırdı, ürəyi bu duada iştirak etmirdi və gözləri bu qadın nəğməsindən duyduğu bütpərəstcəsinə bir zövq parıldayırdı...

**Ordugahın uca hasarları.**

Afşinin ordugahdakı türk kələmənləri uca hasar üstünə qalxıb bir-birinin yanında cərgələnmişdilər və yuxarıda, təpə üstündə yüzlərlə

nizələrin uclarında yanan kiçik məşəllərə tamaşa edərək, ordan gələn musiqi və qadın nəğməsinə qulaq asırdılar...

Və o vaxt ki, musiqi kəsildi, nəğmə susdu, hasar üstündə dayanmış türk kələmənlərindən biri uca səslə car çəkdi:

– Ey hey kafir xürrəmilər, çox çalın, çox oynayın, amma bilin ki, axırınızdır, çünki biz Cəfər ibn Dinarın adamlarıyıq və gəlmişik, gətirmişik bir əjdaha...

Və bütün hasar üstü bir ağızdan nəqərat kimi təkrar elədi:

– Gəlmişik, gətirmişik bir əjdaha!

Dərhal yuxarıdan təpə üstündən xürrəmilərdən biri uca səslə car çəkdi:

– Ey hey xəlifənin kələmənləri, Buğa Əlkəbir də özünü əjdaha sanırdı və indi gedin Afşindən soruşun ki, o hardadır? Çünki qovmuşuq, itirmişik bir tülkünü!

Və dağ başındakı bütün xürrəmilər bir ağızdan nəqərat kimi təkrar elədi:

– Qovmuşuq, itirmişik tülkünü!

**Afşinin çadırı.**

İndi qaşları çatılmış Afşin namazını qurtarıb əllərini saqqalına çəkdi və üzünü girəcədən asılmış pərdəyə tərəf tutub bağırdı:

– Ya Divdad!

Divdad dərhal pərdəni sıyırıb içəri girdi:

– *Qulluğunuzda hazıram, ya əmir!*

A f ş i n. Məgər mən əmr verməmişdim ki, o kafirlər hər gecə bizim ordugah ətrafında gəzişəndə, bizim qoşunlardan heç kəs onlarla ağız-ağıza verməsin?

D i v d a d. Ya əmir, o kafir qövmi ilə ağız-ağıza verən bu yeni *müsəlmanlar, türk kələmənləridir ki, Allaha and olsun, nə hır qanırlar,* nə zır...

A f ş i n. Get o xalqa söylə ki, lal olsunlar, yoxsa hər on nəfərdən birin qamçıladaram. Və çağır, Buğa əl Kəbri ilə qardaşım Fəzl hüzuruma gəlsinlər.

Divdad *pərdə arxasında yox oldu və çadırın ikinci* qismində *oturmuş* Buğa ilə Fəzl ayağa qalxıb Afşinin hüzuruna gəldilər. Buğanın başı-gözü sarıqlı idi, Fəzlin isə sol qolu boynundan asılmışdı. Afşin bir müddət Buğanı süzdü, sonra dedi:



– Ya Buğa əl Kəbir, hanı mənim qəhrəman Canaxım?

B u ğ a. Ya əmir, şəhid oldu.

A f ş i n. Tədbirli, təmkinli ibn Cauşan hanı?

B u ğ a. Ya əmir, şəhid oldu.

A f ş i n. Məsil əmiri Əbdülrəhman hanı?

B u ğ a. Ya əmir, əsir düşdü.

Və Afşin bağırdı:

– Və bir gecədə 7 min atlını bada verib, indi durub üstümə gəlmisən ki, təzədən sənə qoşun verim?

B u ğ a. Ya əmir, özün bilirsən ki, mən saçımı-saqqalımı müharibələrdə ağartmışam, amma bu kafirlə apardığımız hər döyüşdə müharibə qanunları alt-üst olur. Və o övrətlər ki, yoxuş başında bizə rast gəldilər, birdən *qılınclarını sıyıranda məlum oldu ki, cümləsi qadın* libasında kişidirlər...

A f ş i n. Elə buna görə o yerdə ki, Tərxan sənin saqqalını yolub, o yerə qalxmaq üçün biz sənə əmr verməmişdik və qardaşım Fəzli mən sənin yanına göndərdim ki, hava qaralan kimi sənin qoşunların da qayıdıb ordugaha gəlsin və bu səbəbdən mən bütün qoşuna əmr vermişəm ki, gecələr at üstündə yatsınlar və at üstündən yerə düşməsinlər...

Türk qoşun başçılarından Cəfər ibn Dinar üzü danlanan həmyerlisinə qəhmər çıxaraq dedi:

– Ya əmir və ey Afşin, mənim bura gətirdiyim türk qoşunları səninlə Babək arasındakı bu gizlin-paç oyununa gəc baxır. Çünki qoşun görür ki, 17 gündür hava işıqlananda sən bütün ordunu götürüb gedirsən və Bəzz qalasını mühasirəyə alırsan və elə ki, hava qaraldı dərhal bütün ordunu geri qaytarırsan və gətirib bu ordugaha salırsan. Sonra hava qaralan kimi Babək bir ovuc qoşunu ilə gəlir və səhərə qədər ordugahı təlaşa salır... Beləliklə, bir aydır ki, gündüzləri sən o kafiri mühasirəyə alırsan, gecələri o kafir səni... Amma əmirəlmömininin bizi, türk qulamlarını bura cəng etməyə göndərmişdir, bu uca hasarlar, bu dərin xəndəklər və yerə səpilmiş bu dəmir tikan arxasında oturmağa göndərməmişdir...

A f ş i n. Ya Cəfər ibn Dinar, yadından çıxmasın ki, əmirəlmömininin sizi, türk qulamlarını bura, mənim ixtiyarıma göndərmişdir, mənim döyüş nizamımı pozmağa göndərməmişdir.

C ə f ə r. Ya əmir, əlbəttə ki, ordunun sahibi sənsən, amma biz ki, bu qədər yuxarı qalxmışıq və Bəzz qalasına iki addım yol qalmışdır, yenə də kafirlər bizə meydan oxuyurlar və hər gecə Yatsu namazında burda qulağımızın dibində çalıb oynayırlar və mən Cəfər ibn Dinar öz adamlarımın üzünə baxa bilmirəm və öz qoşunlarımdan utanıram...

Sol qolu boynundan asılmış Fəzl davam gətirməyərək bağırdı:

– Ey Cəfər, bura qədər sən özün qalxmamısan və səni bu nöqtəyə qədər qaldıran var və iki ildir ki, biz min-bir məşəqqətlə qarış-qarış yuxarı qalxmışıq və hər 10 nəfərdən doqquzunu qurban vermişik və indi əmirəlmöminin bayrağın Druz təpələrinə sancandan sonra sən gəlmisən ki, belə edərdim, elə edərdim...

Cəfər ibn Dinar əlini qılıncının üstə qoyaraq dedi:

– Ey Fəzl, unutma ki, mən bura əliboş gəlməmişəm və otuz min elə mahir türk oxcusu gətirmişəm ki, yerdə sürünən, yaxud yeriyən, göydə uçan, yaxud ağaca qonan canlı onların oxundan can qurtara bilməz! Və indi sənin kimilər gərək mənə dərs deməsin!

F ə z l. Ey Zəfər, şükr et ki, əmirin hüzurundasan və əgər burda əmirin hüzurunda olmasaydıq, Fəzl ibn Kavus sənə həddini göstərərdi.

Afşin təpiyini yerə vurdu, qardaşına və Cəfərə təpindi:

– Ey Fəzl, sus! Və sən də sus, ey Cəfər! Və məncə başını özü qırxmağı bacaran hər kəs deyə bilər ki, əlverişli yerdə mövqe tutub dayanmaq, əlverişsiz yerdə hücuma keçməkdən daha üstündür. Və o gün ki, casuslar xəbər gətirdilər ki, Bəzz qalasında bir ovuc döyüşçü

A f ş i n. Elçini burax, hüzuruma gəlsin! Sonra azançını soyundurub kürəyinə yüz taziyanə vurarsan!

C ə f ə r. Ya əmir, fədailər çox mütəəssib xalqdır və azançıya bu qədər ağır cəza o xalqı şurişə gətirər...

A f ş i n. Ey Divdad get əmrimi yerinə yetir!

Divdad çadırdan çıxdı və sol qolu sarınmış ibn Boyat sağ əlində böyük bir səbət içəri gəldi, Afşinə baş əydi:

– Ya həzrət! Xürrəmilərin ulu sərvəri burda təpə üstündə süfrə açmışdır və indi bu yer-yemişi öz süfrəsindən sənə sovqat göndərib və bu qovun-qarpızlar o bostandadır ki, o bostanı ulu sərvər öz əlilə becərib.

İçəridəkilər bir-birinin üzünə baxdılar, Afşin isə güldü və dedi:

– Biz Babəkin sovqatını qəbul etdik. Və mən ulu sərvərin səni nə məqsədlə bura göndərdiyini anlayıram. Əlbəttə ki, Buğanın başına gələn fəlakət bizi məyus etdi, amma özün görürsən ki, başımıza döyüb ağlamırıq. Yox, əgər Babək səni göndərmişdir ki, yeni gəlmiş türk qoşunlarına baxasan, saylarını öyrənəsən və gecələr də atdan düşməyib, at üstündə nə cür yatdıqlarını görəsən, əlinə məşəl alıb get ordugahı gəz və qorxma yanında keşikçi olacaq və nə gördün – görmüsən, sonra yanıma gəl ki, görmədiklərin barədə mən özüm sənə məlumat verim.

İbn Boyat gözlərini döydü. Afşin işarə elədi, ibn Boyatı apardılar. Və indi məclisdəkilər yenə bir-birinin üzünə baxdılar...

Bu zaman çadır arxasında yenidən səs-küy qopdu və bir dəstə fədai əllərində yalın qılınclar, bağırışaraq çadıra doluşdular və içəridəki qoşun başçıları sıçrayıb ayağa qalxmaq istəyirdilər ki, Afşin dedi:

– Ey camaat, hər kəs yerində otursun.

Sonra Afşin üzünü içəri dolmuş fədailərə tutub dedi:

– Ey fədailər bir-bir danışın! Yoxsa əmirəlmöminin başına and olsun ki, bu saat qırmancı əlimə alıb ayağa durram.

Və birinci fədai bağırdı:

– Ya əmir, biz kafirin casusunu öldürmək istədik, sənin mülazimin qoymadı və indi sənin mülazimin bizim azançıya 100 taziyanə vurur. Və belə olduqda, səninlə kafir Babəkin arasında nə fərq vardır ki, Babək əlinə keçən azançıların dilin kəsir, sən də Allahın mömin bəndəsi bir azançının diri-diri dərisini soydurursan. Məgər Allahdan qorxmursan, ey əmir?

A f ş i n. Elçiyə *toxunmazlar* və *mənim nizamımı pozmaq olmaz!*

II F ə d a i. Vaveyla, bu nə cür müharibədir ki, kafir sənə qovun-qarpız göndərir və sən də kafirin casusunu ordugahda gəzdirirsən?

A f ş i n. Cəmi ordunun sahibi mənəm və mən nə edirəmsə, yalnız əmirəlmöminin qarşısında cavabdehəm.

III F ə d a i. Elə isə biz hamımız – bütün könüllü fədailər sənin ordunu tərk edib gedirik.

A f ş i n. Və dalınızca qara bir daş. Siz könüllüsünüz. Nizami orduya daxil deyilsiniz və nə vaxt istəsəniz, çıxıb getməyə ixtiyarınız var. Amma əmirəlmömininindən maaş alan nizami ordu istidən yanacaq, mənim yanımda qalacaq, soyuqdan donacaq, mənim yanımda qalacaq, acından öləcək, mənim yanımda qalacaq. Və nə qədər ki, siz də burdasınız, mənim əmrimə tabe olacaqsınız!

IV F ə d a i. Ya əmir, səndən əvvəl biz Allahın ixtiyarındayıq və qorx bu mömin kişinin gördüyü yuxudan.

A f ş i n. Ey mömin kişi, danış yuxunu, bəlkə qorxacağam.

V F ə d a i. Ey əmir, dünən gecə mən röyamda Sərvəri-kainat peyğəmbərimizi gördüm və sərvəri-kainat mənə dedi ki...

Və çadırdakı bütün qoşun başçıları dərhal ayağa qalxdılar, Afşin də ayağa qalxmağa məcbur oldu.

V F ə d a i. ...və Sərvər-kainat mənə dedi ki, ey Əbu Rizvan, nə durmusan, get Afşinə söylə ki, əgər tezliklə kafir Babəkin işin bitirməsə, mən bu dağlara əmr edəcəyəm ki, Afşinin başına daş yağdırsınlar...

Aralığa gərgin sükut çökdü. Sonra Afşin dedi:

– Ya Əbu Rizvan, bir olan allah özü bilir ki, mən iki ildir, elə bir kafirlə vuruşuram ki, o 22 ildir, üstünə gələn bütün islam ordularını darmadağın etmişdir və əgər rəbbim istəsəydi ki, bir adamı daş-qalaq eləsin, ən əvvəl o tanrıtanımaz Babəkin başına daş yağdırardı ki, biz müsəlmanların canı bu əzab və əziyyətdən qurtulsun!..

Fədailər bir an duruxdular, döndülər bir-birinin üzünə baxdılar, sonra birinci Fədai dedi:

– Ya əmir, əgər bizə şəhid olmaq qismət isə, sən gərək bu savabı bizdən əsirgəməyəsən, çünki bizim bura gəlməkdən məqsədimiz odur ki, din yolunda şəhid olub cənab haqqa qovuşaq və sən bizi tez hücuma apar ki, ya qalib gələk, ya məhv olaq.

Bu zaman ibn Bayatı yenə içəri gətirdilər və Afşini bu mütəəssib fədailər qarşısında islama və xəlifəyə qarşı sədaqətini nümayiş etdirməyə fürsət tapdı və bağırdı:



– Gördünmü görmək istədiyini? İndi qulaq as, görmədiyin barədə mən sənə deyim. Burda, şəhid olmaq cilov gəmirən minlərlə bu fədailərdən başqa mənim arxamda yüz minə yaxın qılınclı və mizraqlı döyüşçü dayanmışdır. Və məndən o tərəfdə əmirəlmömininin arxasında böyük bir dünya – islam dünyası dayanmışdır. Və bu gün Hind və Sind məmləkətləri əmirəlmöminə bac verir. Tibet Yabğusu əmirəlmömininin hökmünə boyun əyir, Çin fəğfuri əmirəlmöminə müşk və ənbər göndərir. Rum imperatoru əmirəlmömininin vahiməsindən gecələr yata bilmir və firəng krallı uzaqdan əmirəlmöminə təzim edir və bu gün dünyanın cilovu islamın əlindədir və bütün bunlardan sonra nə vaxta qədər kafir bir dağ əmirəlmöminə meydan oxuyacaq? Əlbəttə sənin ulu sərvərin öz məsləhətini özü hamıdan yaxşı bilir. Amma təslim olub əmirəlmöminə pənah gətirmək istəyirsə vaxt itirməsin, dərhal hüzuruma gəlsin! Yox, əgər inad edərsə, qoy bilsin ki, artıq bıçaq sümüyə dirənmişdir və bütün azəri xürrəmilərinin başları kəsilmədikcə, mən – Heydər ibn Kavus – bu Azərbaycan dağlarından geri dönməyəcəyəm!..

Və çadırdakı bütün fədailər bir ağızdan bağırdılar:

– Ey əmir, var ol ki, biz də səninlə qalırıq və inşallah, qalibiyyət bizimdir.

Və birdən ibn Boyat Afşinin qarşısında diz çökərək dedi:

– Ya həzrət, mən xəlvət istəyirəm.

– Bütün məclisə dərin bir sükut çökdü və Afşin də uzun-uzadı susdu, sonra diqqətlə ibn Boyatın gözlərinə baxaraq dedi:

– Ey kişi, xilafət ordusunun əmirindən xələt istəyən bir adam gərək ona elə bir söz desin ki, qiyməti bu qovun ağırlığında qızıla bərabər olsun. Yox, əgər baş ağrıtmadırsa, lazımdır ki, belə bir adamın boynu vurulsun.

İ b n - B o y a t. Razıyam, ya həzrət və əminəm ki, dediyin mükafata sahib duracağam və o mükafata sahib duran kimi, dönüb yenə müsəlman olacağam.

Afşin qoşun başçılarına dedi:

– Ey camaat, sizinlə məclisim qurtardı.

Və yenə hamı bir-birinin üzünə baxdı və qoşun başçıları bir-birinin arxasınca Afşinin çadırından çıxdılar.

Afşin isə bir müddət fikirli halda çadırında gəzindi, sonra ibn Boyatın qarşısında dayandı və dedi:

– Ya ibn Boyat, indi ki, Babəkdən üz çevirib yenə zəngin və mömin bir müsəlman olmaq istəyirsən, bil ki, mənə çox böyük bir xəyanət lazımdır və mən xırda-xuruş xəyanəti qəbul etmərəm.

İ b n - B o y a t. Xəyanət nədir, ya əmir? Mən günahlarımı yuyuram və sənə elan edirəm ki, Babək yenə islam qoşunları üçün çox müdhiş bir tələ qurmuşdur, qaya altında dağı oydurmuşdur, yer altında lağım qazdırmışdır və cəmi qüvvələrini Azinin ixtiyarına vermişdir, özü isə qalada tək oturmuşdur. Və əgər sən o pusqu yerini kəşf etməmiş Bəzz qalasına hücum etsən, dilim qurusun, çox güman ki...

Afşin aman vermədi, əlini ibn Boyatın ağzına basdı və xırıldadı:

– Sus və əlbəttə ki, məhv olacaqdım! Sus və şükr olsun ki, qurtuldum. Və yenə sus ki, mənim qurtuluşum onun məhvidirsə, nə cür çıxım bu vəziyyətdən, ey iblis?

**Qaranlıq yer altı lağım.**

Qaya altında qazılmış lağımın qolu uzanıb hara isə gedirdi və Babək iki nəfər məşəlçinin müşayiətilə ağır-ağır bu lağım içərisində addımlayırdı və arxasınca başını aşağı salmış Azin gəlirdi.

Qaranlıq lağım isə dil açaraq gah sağdan, gah soldan bağırırdı:

– Kifayətdir, ey ulu sərvər, bizi bu quyudan çıxart!

– Taki bu zülmətdən, bu soyuqdan, bu əzabdan qurtulaq.

– Yorulduq günləri saymaqdan və 23 gündür ki, gün işığı görməmişik.

– Xoşbəxtdir sənin bir ovuc dəliqanlıların ki, hər gecə şəbxun vururlar.

– Amma biz – qınından sıyrılmayan 7 min qılınc, tıxanıb bu deşikdə pas atırıq.

– Onu da bil ki, dözməyən var və qaçanların sayı 17-yə çatıb...

– Və sonuncu fərari kimin oğludur, özün bilirsən...

Babək diksindi və dayandı. Lağıma ağır bir sükut çökdü. Babək başını aşağı saldı və Azinə dedi:

– O sonuncu və 17-ci fərari ki, mənim oğlumdur və mən ki, hər yerdə onu axtarıram, ölübsə qoy qara torpaq udsun, diridirsə, o yenə sənin ixtiyarında olacaq və onu son mühakimə edəcəksən, ey Azin...

A z i n. Yox, ey ulu sərvər, yox!

B a b ə k. Səbəb?



A z i n. Fərarilərin hamısı üçün ölüm və yalnız ölüm olacaq, mənim qərarım!

B a b ə k. Və bil ki, 17-ci fərari üçün çıxaracağın ölüm hökmünü Babək nə ləğv edəcək, nə təğyir...

Sonra Babək qaranlıq lağıma müraciət etdi:

– Çağırmışdınız – gəldim. Bağırdınız – qulaq asdım. Nədir istədiyiniz məndən? Meydan müharibəsi? Mərdanə ölüm? Mərdanə ölüm bizim üçün son silahdır və bu silahı heç kəs heç vaxt bizim əlimizdən ala bilməz. Amma ölməmişdən əvvəl ölməyi mən sizə yasaq edirəm! Çünki mən sizi burda, bu qaranlıqda, bu yer altında qurtuluş və həyat naminə gizlətmişəm və siz burdan o vaxt çıxacaqsınız ki, düşmən öz qalibiyyətinin zirvəsində olacaq və o vaxt düşmən gərək öz qalibiyyətinin zirvəsində məhv olsun! Və mənim ki, çörəksiz qaldığım günlərim çox olub, amma ümidsiz qaldığım günüm olmayıb, bilin ki, indi də son ümidim bu quyu dibindədir, ancaq...

**Bəzz qalası. Cavidan qəsrinin yeraltı qatı. Gecə.**

Babək əlində şam, təkbaşına ağır və yorğun addımlarla Cavidan qəsrinin yeraltı qatına düşdü. Zirzəmiyə enən daş pilləkən başında sanki taqəti kəsildi və dayandı. Vaxtilə o Zərnisəni ilk dəfə burda görmüşdü, indisə Zərnisə burda dustaq idi, həsir üstündə oturmuşdu, pərişan bir görkəmi vardı və Babəki pilləkən başında görərkən, ayağa qalxdı.

Z ə r n i s ə. Yenə gəldin? Və kifayət deyil sənin üçün? Kifayət deyil ki, məni mərtəbə-mərtəbə aşağı saldın və axırda gətirdin bu zirzəmidə dustaq elədin? Amma özün hər gecə yuxarıda o gəldani qızıyla, o qaraçı qızıyla, məst-xumarsan? Məgər o afətin cadugün Cunayın nəğmələri bəsin deyil? Gərək hər gecə gəlib mənim ah-zarımdan da həzz alasan?

B a b ə k. Ey Zərnisə, inadı burax! Oğlumun yerin de, sonra hərbi qənimətlər xəzinəsindən nə istəyirsən götür və hara istəyirsən get! Ərməniyyə, Cüzran yaxud Rum. Hara istəyirsən səni göndərməyə hazıram!

Z ə r n i s ə. Mənə nə xəzinə lazımdır, nə diyari – Rum... İndi ki, böyük oğlumu, Cavidanın yadigarını əlimdən aldın, kiçik oğlumu, Buğdayı sənə verməyəcəyəm!

B a b ə k. Buğdayı sənin kiçik oğlundur, mənim ilkimdir, mənim vəliəhdimdir və bu rüsvayçılıqdır ki, xürrəmi qızları da vuruşduğu bir zamanda sən mənim böyük oğlumu tumanın altında gizlətmisən.

Z ə r n i s ə. Aman Allah, Cavidanın bir düşməni vardı. Əbu İmran! O da ki, yayda vuruşardı, qış düşəndə qonşu dağda dinc oturardı... Amma sən Məşriqi də düşmən elədin bizə, Məğribi də... Və qara sellər axdı üstümüzə gəldi, qırmızı dərya çalxandı üstümüzə gəldi və boz səhra kükrədi üstümüzə gəldi... Və indi bircə Buğday qalmışdır mənim üçün... tək qalmış, məhv olmuş mənim üçün... sən yuxarıda Cunay ilə... görüm o cənginə qürbətdə ölsün!

B a b ə k. Ulu Şirvinin ruhu! Nə üçün sən o uğurlu gündə bu uğursuz qadını mənə rast gətirdin?

Zərnisə çığırdı:

– Mənəm uğursuz qadın? O Zərnisə ki, səni Babək elədi? Əgər dul qalmış Xodicə yetim Məhəmmədi – Məhəmməd peyğəmbər elədisə, dul qalmış Zərnisə də səni quyu dibindən dağ başına çıxartdı. Və məni diri-diri bu zirzəmidə dəfn etsən də, yenə də Buğdayı sənə verməyəcəyəm. Çünki o mənim oğlumdur, sənin yox...

Babək ağır-ağır nəfəs aldı və dedi:

– Sən haqlısan ey qadın, mənim Buğday adlı oğlum yoxdur və mən ancaq 17-ci fərarini axtarıram.

Z ə r n i s ə. Axtar! Amma tapmayacaqsan! Və dalınca at çapsan da çatmayacaqsan. Çünki bədbəxt balam indi çox uzaqdadır. Çünki üç gün ağlayıb balamı yola saldım və yola salanda xeyir-dua verdim ki, müsəlmanların olsun, qoy xristian olub, xristianların olsun, amma sənin olmasın və salamat qalsın!..

Babək boğulub yaxasını qamarladı, sonra əli yanına düşdü:

– İlan! İlan! Və yenə İlan! Axır ki, çaldın ürəyimin başından!

Babək dönüb getmək istəyirkən Buğday qaranlıqdan çıxdı.

– Dayan ata, – mən burdayam dedi. – Və bağışla məni...

– Buğday, bədbəxt balam, niyə gəldin? – dedi Zərnisə.

– Gəlməyə bilməzdim, ana, qoşun sərdarının əmrini eşitdim.

Babək Buğdaya:

– Arxamca gəl, – dedi.

– Hara gedirsən və hara aparırsan onu gecənin bu aləmində?

– Babək Zərnisəyə cavab vermədən Buğdaya baxdı:



– Qılıncını götür. Getdiyim yerdə yanımda tək sən qalacaqsan və bu gecə bir döyüşçü kimi həyatımın keşiyində son duracaqsan.

**Bəzz qalası.**

Babəkin qərargahında Xristian rahib çəkib qurtardığı rəsmin yanında dayanmışdı. Babək kənardan öz portretinə baxaraq fikrə getmişdi. Rahib:

– Ya həzrət, elədir, – dedi, – surətinin yarısı qaranlıqda, yarısı işıqdadır, çünki işığı gücləndirmək üçün kölgə lazımdır. Və mən istərdim ki, təsvirinə baxdığın bu dəqiqələrdə özün haqqında özün mənə bir söz deyəsən.

Babək çiyinlərini çəkdi.

– İnsanın özü haqqında öz sözü? Deyirlər bu barədə qədim peyğəmbərlərdən biri öz-özündən sual edirmiş ki, əgər mən özüm özüm üçünəmsə, nəyə lazımam, yox əgər özüm üçün deyiləmsə, onda bəs özüm kiməm? Nə isə, qoy bu müəmma müəmmalığında qalsın... Sən isə hazırlaş, elə bu gecə yola çıxırsan, İmperator Feofilə mənim məktubumu aparacaqsan. Qoy Feofil bilsin ki, xəlifə Mötəsim Rum sərhədlərini boşaldıb bütün hərbi qüvvələrini mənim üstümə göndərib. Ona görə əgər sənin imperatorun mənimlə müttəfiq kimi öz əhdinə sadiqdirsə, yubanmasın, dərhal Suriya sərhədinə qoşun yürütsün, taki ərəb xəlifəsi bərbərini, dərzisini və aşpazını da mənim üstümə göndərməsin!

R a h i b. Ya həzrət, Afşinin qoşunları qara bulud kimi bütün ətraf dağlara qonub. Afşinin qoşunları qara sel kimi təngə və dərələri doldurub. İmperator Feofil tərpənib Suriya sərhədlərinə qoşun yürüdənə qədər...

B a b ə k. Nə demək istəyirsən?

R a h i b. Nə qədər gec deyil, başında say-seçmə igidlərin, sən özün Ruma doğru getməlisən!

B a b ə k. Qəribədir, vaxtilə Barsis aparırdı məni Ruma, indi də sən...

R a h i b. Düşün ki, orda xristianlığı qəbul etmiş Babək islam dünyası ilə vuruşursa, müqəddəs xaç uğrundakı bu xidməti onun qəhrəmanlıq həyatı üçün ən ziynətli bir tac olardı...

B a b ə k. Rahib, mən ilk gündən hiss eləmişdim ki, çəkdiyin bu rəsm bəhanədir. İmperator səni bura məni xristianlığa dəvət eləməyə göndərib, ona görə də Rum elçiləriylə vətəninə qayıtmadın, burda qaldın.

R a h i b. Qoy belə olsun... Əgər sən bizim Romey ordusuna strateq olsaydın, beş xilafət ordusu üzərində çaldığın qalibiyyətdən üçü kifayət idi ki, Romey səni imperator elan eləsin!

B a b ə k. Yavaş rahib, sən çox uzağa getdin!

R a h i b. Mən sənə Romey dövlətinin tarixindən bəhs eləmişdim. Bizim imperatorlar içində ispaniyalı və iranlı olub, suriyalı və erməni olub. Elə imperatriçə İrina xəzər türklərindən Çiçək adlı bir qız deyildimi? Və Barsis ki, sən onu Araz qırağında ölümə məhkum eləmişdin, Rumda xristianlığı qəbul edib, müsəlmanlarla müharibədə elə bir rəşadət göstərdi ki, Romey qoşunu az qala onu imperator elan eləmişdi.

B a b ə k. Barsis əlbəttə ki, çox şücaətli şəxsiyyətdir.

R a h i b. Və indi Barsis Feofilin bacısı ilə evlənəndən sonra, imperatorun ən yaxın dostu və həmdəmidir.

B a b ə k. Rahib, Şərqdə ən çox oxunan bir kitab var, "Kəlilə və Dimnə"dir adı. Orda deyilir ki, dəli o kəsdir ki, sirrini qadına etibar edir və yenə dəli o kəsdir ki, bilmək istəyir zəhərin dadı nə cürdür və nəhayət dəli o kəsdir ki, şahla, hökmüdarla dostluq edir, yaxud xəyalına düşür.

Babək qapıya tərəf getdi, sonra dönüb yenidən Rahibə müraciət elədi:

– Orda Barsisə deyərsən ki, mən xürrəmidin Barsisi ölümə məhkum eləmişdim, indi ki, Barsis xürrəmilikdən üz çevirib xristian olub, bu gündən mən də o ölüm hökmünü ləğv edirəm!

**Vizantiya paytaxtı Qüstəntiniyyə şəhəri.**

İmperator sarayında Rahib çəkdiyi rəsmin yanında dayanmışdı, imperator Feofil kənardan Babəkin portretinə baxaraq fikrə getmişdi.

– Daşdan çapılıb, elə bil üzünün hər cizgisi – dedi Feofil, – doqquz yaşında dağ çobanı. Sonra ilk gənclik illərində karvan oğlanı... Ola bilər bu mümkündür. Amma heç vaxt inanmaram ki, zeytun tuluqda yağı satan bir kişinin oğludur bu... hər ehtimala qarşı şəcərə düzəltmək lazımdır bu adam üçün, guya İran şahı Bəhram Çubinin nəslindəndir. İndi oxu məktubunu! Döyüş dəst-xəttinə həmişə qibtə etmişəm. O məktubunu, yazı üslubu ilə də tanış olum.

Rahib məktubu oxumağa başladı:

"Azərbaycan xürrəmilərinin sərvəri Babək Xürrəmidən Romey dövlətinin hökmdarı imperator Feofilə məktub"...



Feofil kəskin şəkildə rahibin sözünü kəsdi:

– Kifayətdir, – dedi. – Sən bu adama xristianlıq etiqadı aşılaya bilmədinsə, heç olmasa təkcə bunu ona başa salmalı idin ki, Romey imperatoruna yazılan hər hansı bir məktubda birinci imperatorun adı çəkilməlidir, sonra Babəklərin və sairənin...

– Əfv et, imperatorum, mən...

– İzahat lazım deyil. Apar məktubu Barsisə ver, oxusun və sonra yandırsın. Başda Babəklərin adı çəkilən bir məktubu Romey tarixi qəbul edə bilməz! Elə ki, Barsis məktubu oxudu, gəlsin məzmununu mənə ərz eləsin!

Rahib gedəndən sonra imperatriça Feodora həyəcanlı bir halda gəldi, portreti süzərək dedi:

– Aman Allah, imperator vəhşi dağlar sakini, boz köynəkli bu qorxunc adam bütün dinlərin, tanrıların və xristianların da düşmənidir. Və bir halda ki, sən müqəddəs ikonaları yasaq eləmisən...

Feofil qaşlarını çatdı.

– İmperatriça, – dedi, – neçə dəfə təkrar eləməliyəm ki, ikonalara – cansız şəkillərə sitayiş eləmək, – bütpərəstlikdir və birdəfəlik bu barədə sus!

– Susuram, imperator və ürəyimdə ağlayıram... Amma heç olmasa bu tanrıtanımazın ikonasını bu saraydan rədd elə!

– Sakit ol, mənə İranı ərəb xəlifələrinin pəncəsindən qopartmaq

imperator elan etmək istəmişdi. Amma o gəldi ayaqlarıma yıxıldı və dedi ki, ey imperator qalibiyyətdən sərxoş olmuş mənim döyüşçülərimi əfv elə! Yox, bacıma nifrət səni dəli edib və bütün fikrin-zikrin budur ki, Barsisi mənim əlimlə məhv edib bacıma dil qoyasan!

Feodor:

– Eşidirsən? – deyə xəbər aldı.

– Nəyi?

– Uşaq ağlayır, oğlun fəryad edir, çünki dayəsindən qaçıb Barsisi axtarır və elə ki, Barsis onu dizinin üstünə alır, uşaq gülür, oynayır, əl çalır.

– Nə demək istəyirsən?

– Dünən uşaq yenə Barsisin dizinin üstünə dırmaşanda, Barsis deyib ki, mənim dizlərim gələcək Rum imperatorunun taxtıdır və gələcəkdə Romey dövlətini mən idarə edəcəyəm bu uşağın əlilə...

Feofilin dəli ifadə alan gözləri bir nöqtəyə zillənib qaldı, sonra o batqın səslə:

– Get, – dedi, – nəhayət ki, axıtdın ürəyimə şübhə zəhərini!

Feodora getdi. Feofil kresloya tıxılıb qaldı, başını əlləri içərisinə aldı... Barsis gəldi, baş əyib dayandı. Fefil handan-hana başını qaldırıb uzun-uzadı Barsisi süzdü:

– Tanış oldun Babəkin məktubu ilə? – deyə soruşdu.

– Tanış oldum, imperator.

– Necə başlanır məktub?

– "Azərbaycan xürrəmilərinin sərvəri Babək Xürrəmdindən Romey dövlətinin hökmdarı imperator Feofilə məktub".

– Sən də cəsarət edib bir ayağı çarıqlının cızma-qarasını hərfi-hərfinə təkrar edirsən?

– Əfv et onu, imperator, – dedi Barsis, – Babək qəsdən öz adını əvvəldə... sənin adını sonra yazmamışdır.

Feofil:

– Nədir istədiyi bizdən? – dedi, – Rahibin dediyinə görə Afşin bütün Azərbaycanı işğal edib, orda hər şey qurtarıb.

Barsis:

– Amma mən əminəm ki, buna baxmayaraq, Babək yenə möcüzə göstərəcək.

– Amin. Qoy Allah özü ona kömək eləsin.



– Yox, imperator, daha yaxşı olar ki, müttəfiq kimi sən ona kömək edəsən. İyirmi ildən artıqdır ki, xilafətin ən qüdrətli orduları bir-birinin dalınca Babəkin üstünə gedib və indi xəlifə Mötəsim hələlik sənin üstünə gəlmirsə, səbəbi budur ki, arxada Babək var.

– Deyəsən sən məzəmmət edirsən, Barsis!

– Yox, imperator, mən ancaq yadına salmaq istəyirəm ki, xilafətə qarşı mübarizədə sənin Babəklə əhd-peymanın var.

Feofil əsəbi bir gülüşlə:

– Barsis, – dedi, – bu cür ki, sən Babəkin qayğısına qalırsan, görünür unutmusan ki, vaxtilə Babək Araz qırağında səni ölümə məhkum eləmişdi.

– Yox, unutmamışam, imperator, amma indi Babək rahib ilə mənə xəbər göndərib ki, xristianlığı qəbul etmiş Barsis üçün o ölüm hökmü ləğv olunur.

– Sən də bunu qəbul edirsən və hətta sevinirsən ki, səni, Romey imperatorunun yeznəsini baldırı çılpaqların və dinsizlərin başçısı əfv eləyib?

– İmperator, mən çox kədərlənirəm ki, nədənsə bu gün mənə qarşı sən heç mərhəmətli deyilsən.

– Dayan Barsis, ilk dəfədir ki, sənin üstündə belə bir qılınc görürəm. Hardandır bu qılınc səndə. İmperator mənəm, amma mənim belə bir qılıncım yoxdur.

– Döyüşçülərim məni bu gecə ziyafətə dəvət ediblər, ona görə arvadım məni bu cür geyindirib keçindirdi. Bu qılıncı da hardansa çıxardıb gətirdi, belimdən asdı və dedi ki, qılınc imperator Nikifordan yadigar qalmışdır.

Feofil bağırdı:

– Nikifor əvvəllər donuz çobanı idi, sonra Romey taxtı-tacını oğurlayıb imperator oldu... Və o qılıncı ki, mən sənə hədiyyə vermişdim, sən o qılıncdan savayı belindən bir qılınc asmağa tənəzzül etməməli idin.

– Bağışla imperator, əlbəttə ki, səhv eləmişəm. Amma arvadı imperator bacısı olan bir şəxs, gecələr yatanda arvadının əridir, gündüzlər arvadının buyruq uşağıdır.

– Barsis, şulux eləmə ki, başınla oynayırsan.

– Elədir, çoxdan dar ağacımı çiynimdə gəzdirirəm. Amma nədir ki, ölüm? O vaxt ki, biz bu həyatdan gedirik, cismimiz anamız torpağın, ruhumuz atamız göylərindir.

– Bütpərəst, – dedi Feofil, – Ürəyini hələ də xürrəmilikdən qopartmamısan. Və deməli, hələ də həqiqi xristian deyilsən. Amma kifayətdir. Bayaq dedin ki, bağışla məni səhv eləmişəm... Halbuki səhvini düzəltmək üçün sən gərək Nikiforun o qılıncını dərhal mənim ayaqlarım altına ataydın!

– Gecikdiyim üçün üzr istəyirəm, imperator.

Barsis qılıncını belindən açıb Feofilin ayaqları altına atdı, imperator qızıl zəngi götürüb çaldı və dərhal içəri doluşan saray mühafizləri səssiz bir halda Barsisin arxasında düzüldülər və bir nəfəri Barsisin qılıncını yerdən qaldırdı. Feofil getdi, açarla divardakı gizli bir taxçanın qapısını açdı, ordan yaşıl rəngli bir piyalə götürüb geri döndü.

Barsis arxasındakı mühafizlərə işarə edərək Feofildən soruşdu:

– Bu nə deməkdir, imperator?

Feofil piyaləni Barsisə uzadaraq:

– İç bunu, Barsis, – dedi, – İç bunu ki, bu gecə mənim yuxum qaçmasın. İç, imperator özü sənə saqilik edir!

Barsis piyaləni alaraq:

– İmperator, – dedi, – səninlə dostluğumuz barədə Babək rahibə bir misal çəkib. O misalda deyilir ki, dəli o kəsdir ki, sirrini qadına etibar edir və yenə dəli o kəsdir ki, bilmək istəyir zəhərin dadı nə cürdür və daha artıq dəli o kəsdir ki, şahla, hökmdarla dostluq edir.

Sonra Barsis uzaqlara baxaraq:

– Haqlısanmış, Babək, – dedi, – həyat mənə son piyaləni namərd əlilə təqdim elədi.

...Və Barsis zəhərli şərab dolu piyaləni başına çəkib yerə yıxıldı...

**Afşinin çadırı. Gecə.**

Şamdanlardakı uzun şamlar qurtarmaq üzrə idi. Afşin isə başını əlləri arasına alaraq oturmuşdu, və yerindən qımıldanmırdı. Fəzl isə ayaq üstə dayanıb gözləyirdi və nəhayət dedi:

– Ya əmir, və ey qardaşım, atlı böyüklər və piyadalar bir-birinin dalınca hərəkət etdilər və o xəbis ki, bizim-qoşunlara bələdçilik edir, dan yeri ağaranda Babək öz müsibətindən xəbər tutacaq! Vaxtdır qalx ayağa ki, atın yəhərlənmişdir və sabah Druz təpələrində ən böyük qalibiyyət səni gözləyir.

Afşin başını qaldırdı və inildədi:



– İstəməzdim o qalibiyyəti ey Fəzl, və tanrı qarğımış o qalibiyyəti istəmirəm, çünki Babək büsbütün məhv olsun və yaxud sağ əlimin vurğusundan sol qolum kəsilsin, yanıma düşsün... Və bu saat sən Bezz qalasına gedəcəksən, mənim son təklifimi ona yetirmək üçün...

Fəzl qorxu içərisində geri çəkildi.

– Amandır, ey qardaşım, xəlifə bu gizli görüşlərdən xəbər tutsa, beşikdəki körpələrimizə belə rəhm etməyəcək!

Afşin əlini qoltuğuna atıb əbasının astarını sökdü, sonra dartdı ordan bir məktub çıxartdı:

– Ver bu məktubu ona, – oxusun. Və görsün və agah olsun ki, mən bu məxfi sənədi ona göndərirəmsə, demək həyatımı və taleyimi ona etibar edirəm. Və sonra dil cavabı ona deyərsən ki, yayın ortasıdır və ağustos gecəsi çox qısadır və məhz bu gecə hələ qarşısında qurtuluş yolu var, amma dan yeri ağaranda gec olacaq...

**Cavidan qəsrinin yuxarı qatı. Cunayın otağı. Gecə.**

Babək qapı yerindən asılmış pərdəni qaldırıb içəri girdi. Taxçada mavi rəngli bir şam yanırdı. Taxta altında taxt üstündə uzanmış Cunay dərin bir yuxuda idi. Babək bir addım irəli atdı, sonra birdən diksinib dayandı.

Cunayın yastığına bir xəncər asılmışdı və xəncərin dəstəyinə bir məktub bağlanmışdı. Babək irəli atıldı, dartdı, xəncəri yastıqdan çıxartdı, sonra məktubu dəstəkdən açdı və xəncəri kənara ataraq, taxçadakı şam işığında məktubu oxumağa başladı...

Cunay diksinib oyandı, başı üstündə dayanmış Babəkin nə isə oxuduğunu gördü. Sonra gözləri yerə atılmış xəncərə sataşdı və dedi:

– Fikir vermə, xudavənd, bu üçüncüsüdür.

– Üçüncü?

– İki əvvəlki xəncər odur, orda taxçadadır. Və hər dəfə nazikanə bir hədə ki, ey afət, qardaşın Ruma getdi, qurtuldu, sən də diyari-Ruma get ki, qurtulsan. Yox, əgər qal olub qalacaqsan, bil ki, son libasını hazırlamışam... Amma sən fikir vermə, ey xudavənd və inan ki, mənə vız gəlir bu hədələr, və mən istəmirdim ki, sən bu barədə biləsən, çünki istəmirəm bu ağır günlərində üstəlik mən də sənin təşvişinə bais olam.

Babək yorğun bir halda taxt üstündə oturdu və dedi:

– Ey Cunay mən həyatımda çox qorxulara qalib gəldim və bundan sonra da qalib gələ billəm, amma səni görən gündən təkcə bir qorxu məni üstələdi və bu qorxu – səni itirmək qorxusu yenilməzdir... Və indi xain əllər yastığına üç xəncər sancırsa, və sən bu barədə mənə bir söz demirsənsə, ən əvvəl cəzanı sən alacaqsan və sabahdan gecələr də mənimlə bərabər at üstündə olacaqsan. O vaxt, gecə qaranlığında at sürmək və at üstündə yatıb eyni zamanda oyaq qalmaq, sənə ehtiyatlı olmağı tez öyrədəcək...

C u n a y. Bu cəza mənə xoşdur, ey xudavənd, çünki nə olacaqsa, ayrılıq olmayacaq.

Pərdə arxasından Abdullanın səsi eşidildi:

– Ey Babək, düşmən ordugahından yenə elçi gəlib. Və niqablı bir şəxs gecənin bu aləmində səndən xəlvət istəyir.

**Cavidan qəsrinin qüllələri.**

Babək qüllə altındakı bir hücrəyə girdi, içəridəki adam ayağa qalxdı, niqabını üzündən qaldırdı və Babəkə baş əydi.

B a b ə k. Sənsən, ey Fəzl? Gecənin bu aləmində xeyir ola... və əyləş ayaq üstündə durma.

F ə z l. Əyləşməyə vaxt yoxdur ya həzrət, Afşin bu məxfi naməni sənə göndərdi ki, oxuyasan və tez oxu ki, sonra dil cavabı sənə sözüm var.

Babək məktubu aldı və taxçadakı şamların işığında ayaq üstündə oxudu sonra Fəzlə tərəf döndü və dedi:

– Təbəristan xürrəmiləri nə edirlərsə, özləri bilərlər – və indi Mazyar Afşinlə gizli ittifaq bağlayıbsa, bu yenə Afşinə və Mazyara aid bir işdir...

F ə z l. Yox, sənsiz bu ittifaq naqisdir ya həzrət və qardaşımın məramı o qədər böyükdür ki, ona böyük Babəklə ittifaq lazımdır ki, keçmişin möhtəşəm İranı yenidən ayağa qalxsın, və adil Nuşirəvan əyyamı yenidən geri dönsün... Və indi əgər sən də Mazyar kimi üzdə xəlifədən aman istəyib, gizlində bu ittifaqa qoşulsan, o zaman ki, Afşin Xorasan valisi oldu, gizli ittifaqınızı aşkar edib, xəlifələr hakimiyyətinə son qoyarsınız və sasanilər nəslindən Şarvin dağında tərkidünya bir qoca var ki, o müqəvvanı İran taxtında oturtsanız – ad onun olar, ixtiyar sizin...



B a b ə k. Ey Fəzl, mən 22 ildir, islam xəlifələrilə ona görə vuruşmamışam ki, axırda İran taxtına bir müqəvva çıxardam və Afşinin can atdığı möhtəşəm keçmişi, yaxud adil Nuşirəvan əyyamı bir nağıldır mənim üçün...

F ə z l. Ya həzrət, sənin də can atdığın gələcək və yaxud bərabərlik dünyası məgər bir nağıl deyilmi uşaqlar üçün? Və əgər ədalətli keçmiş birinci yalandırsa, ədalətli gələcək də ikinci yalandır!.. Ona görə əgər istəyirsən ki, başın çiynin üstündə salamat qalsın, sən əvvəlcə müsəlman ol, sonra kafirliyə başla.

B a b ə k. Ey Fəzl, etiqad mənim üçün qumar daşı deyil və mən o məramа inanmışam ki, o mənə ya ölüm, ya azadlıq deyir... Və gecəni qal, qardaşımın qonağı ol. Mən isə getməliyəm, vacib işim var...

Babək döndü, qapıya doğru yönəldi Fəzl isə arxadan səsləndi:

– Yox, dayan və qulaq as, ey Babək, əlbəttə ki, müsibətindən hələ xəbərin yoxdur və bilmirsən ki, səhər açılanda son ümidin də məhv olacaqdır. Çünki pusquda qoyduğun qoşunların yeri kəşf olunmuşdur və bu saat lağım dörd bir tərəfdən sağdan, soldan qaya üstündən və qaya altından mühasirədədir. Və bu ağustos gecəsi ki, çox qısadır, məhz bu gecə hələ qarşında qurtuluş yolu var, amma dan yeri ağaranda gec olacaq...

Və Babək qəfildən kürəyinə xəncər saplanmış kimi səndələdi, sonra geri dönərkən sanki dəlilik ayaq açıb üstünə gəldi, üzü heybətli bir ifadə aldı və ağır addımlarla Fəzlin üstünə yeridi...

Fəzl qorxu içərisində addım-addım geri çəkildi və nəhayət, arxası divara dəyərkən səsləndi:

– Ya həzrət, qolum sarıqlı, özüm silahsızam, – və mənim bura elçi gəldiyimi unutma!

Babək kəskin bir hərəkətlə geri döndü və arxası Fəzlə sarı dayandı və arxadan yenə Fəzlin səsi gəldi:

– Və qardaşımın son sözü bu oldu ki, heyrət edirəm o insana ki, qarşısında qurtuluş yolu var ikən, qurtuluşdan üz çevirib məhv olmuş yolun intixab edir.

Babəkin səsi sanki quyu dibindən gəldi:

– Afşinə deyərsən ki, o heç vaxt başa düşməyəcəkdir ki, azadlıq yanğısı nə deməkdir və nə üçün mübariz mütləq məhv olacağını biləndə belə, yenə mübarizəni intixab edir!

**Uca dağ təpəsi. Afşinin qərargahı.**

Dan yeri təzəcə ağarmağa başlamışdı. Bəzz qalası üstündə ucalan bir təpə başında yerə dəri xalça salınmışdı və bu xalça üstünə kürsü qoyulmuşdu və kürsü üstündə Afşin oturmuşdu.

Afşinin arxasında dayanmış 12 nəfər bayraqdarın əllərində nəhəng qara bayraq dalğalanırdı, önündə isə bir az aşağıda boyunlarından nəhəng təbillər asılmış 21 təbilçi yamacda bir-birinin yanına düzülmüşdü.

Daha aşağılarda isə hər tərəfə – dərələrə və təpələrə qara bulud kimi Afşinin qoşunları qonmuşdu və hamı hərəkətsiz dayanaraq öz yerində donmuşdu...

Qarşıdan Bəzz qalasından çapıb gələn Fəzl təpə başında atından yerə sıçradı, Afşinə yaxınlaşdı və dedi:

– Ya əmir və ey qardaşım, o tanrıtanımaz inadından əl çəkmədi və hava işıqlanmışdır, əmr elə hücum başlansın.

Afşin bir müddət dinmədi, yerindən qımıldanmadı və nəhayət dedi:

– Əgər başqa bir çarə qalmadısa, əgər qapı bağlandısa, əgər mən onu ölümdən xilas etmək üçün öz taleyimlə qorxunc bir oyun oynayıramsa...

Və Fəzl davam gətirməyərək bağırdı:

– Və qurtar bu qorxunc oyunu ki, qalibiyyət ağacını sən əkdiyin halda, meyvəsini türk əmirləri dərməsin!

Afşinin başı sinəsinə düşdü və pıçıldadı:

– Və tamam! Əmr elə, ey Divdad, əmr elə təbillər çalınsın!

Və dərhal 21 təbil birdən guruldadı və hər tərəfdən – dərələrdən və təpələrdən təkbir sədaları göyə ucaldı və Afşinin ordusu, nizələrin uclarına keçirilmiş 500 qara bayraqla hərəkətə gəlib çalxandı...

**Bəzz qalası. Böyük darvaza üstündə meydança.**

Darvaza tağı üstündəki meydançada Babək ilə Tərxan yanaşı dayanmışdılar. Afşinin atlı bölükləri isə bir-birinin arxasınca qara dalğalarla darvaza qarşısından keçərək, şimala doğru, Azinin mühasirə olunduğu qaya altındakı lağıma doğru çapırdılar.

Tərxan dedi:

– Qara xəyanət öz işini gördü, ey Babək və indi Afşin bütün atlı bölüklərini mühasirəyə aldığı Azinin üstünə göndərir və aydındır ki, Azini məhv etməmiş qala üstünə qəti hücuma keçməyək, – ona görə izin ver, mən öz dəstəmlə qaladan çıxım və əmr elə, arxamca darvazanı bağlasınlar.



B a b ə k. Fikrin nədir, ey Tərxan? "arxamca darvaza bağlansın" – nə deməkdir?

T ə r x a n. Dəstəmdən neçə nəfər salamat qalmışdır, özün bilirsən. Və onlardan heç biri geri dönməyəcək və axırda bir nəfərimiz salamat qalsa və özünü yetirib o saqqallı ilanın başın əzsə, yalnız bu yol ilə xilafət ordusuna çaxnaşma salıb, Azini mühasirədən qurtarmaq olar...

Babək uzun-uzadı Tərxana baxdı və batqın bir səslə dedi:

– Ey Tərxan, sən elə bir iş görmək istəyirsən ki, bu işin yüzdə doxsan doqquzu ölümdür.

T ə r x a n. Başqa çarə yoxdur, ey Babək bu son döyüşdür və 20 il əvvəl Gəzəc qalasın aldığım vaxt, mənə verdiyin o qırmızı bayraq altında bu son döyüşə getmək üçün mənə ixtiyar ver.

Babək ilə Tərxan bir-birini qolları arasına aldılar.

Aşağıda Bəzz qalasının böyük darvazası açıldı və əllərində sıyrılmış qılınclar olan 50 nəfər atlı Tərxan ilə bərabər qaladan çıxdı və dördnala yuxarıya, Afşinə doğru çapdılar...

**Dağ təpəsi. Afşinin qərargahı.**

Təpə başında, kürsü üstündə oturmuş Afşin aşağıya baxırdı və heyrətlə gözlərini döyürdü...

Aşağıda isə şiddətli bir döyüşün səsi-küyü getdikcə artırdı və xürrəmilərdən ibarət bir ovuc atlı, qarşılarında səf-səf dayanmış düşmənin piyada dəstələrini yarırdı, yamac ilə yuxarıya doğru qalxırdı, lakin atlılar bir-birinin ardınca düşmən piyadalarının nizə və qılınc zərbələrindən sağrısı üstə geri çökürdü və adamlar at üstündən yerə aşırdılar, dəstə getdikcə əriyirdi və əridikcə sağ qalanlar daha artıq bir şiddətlə vuruşurdular...

Və nəhayət, bu ölümçü dəstədən salamat qalmış yeganə atlının özünü Afşinə yetirməsi üçün beş-on addımlıq bir məsafə qaldı, yeganə atlı isə Tərxan bu adamı tanıyarkən qeyri-ixtiyari əlini alnına çəkdi, lakin yerindən idi və Afşin tərpənmədi... və bu vaxt Tərxanın atı büdrəyib səndələdi və dərhal qabaq ayaqları qılınc zərbəsilə doğrandı və at başı üstə yerə aşdı...

Tərxan isə sıçrayıb ayağa qalxdı və indi Tərxan ilə Afşinin gözləri bir-birinə sataşanda, Afşin yalnız məzəmmətlə başını buladı və döndü yanında dayanmış qardaşına baxdı.

Sol qolu boynundan asılmış Fəzl sağ əlində qılınc özünü yuxarıdan Tərxanın üstünə atdı... və Tərxanın başı bədənindən qopub yerə düşdü.

Fəzl əyildi, Tərxanın başın yerdən götürdü və yuxarıya Afşinin ayağı altına atdı. Afşin köksünü ötürdü və dedi:

– Ey Fəzl, bu adam çox böyük igidbaşı idi, amma özünü çox uşaqcasına məhv etdi... İndi bu başı nizəyə keçirin və nizəni yanımda yerə sancın ki, Babək ordan – darvaza üstündən görə bilsin!

Dərhal Tərxanın başını uzun bir nizəyə keçirdilər və nizəni gətirib Afşinin yanında yerə sancdılar...

Afşin aşağıya, darvaza üstündə dayanmış Babəkə tərəf baxaraq pıçıldadı:

– Bax, yaxşı bax, ey qardaşım, sağ qolun kəsildi, indi qaldı sol qolun... o qolun ki, onu mühasirə kəməndi ilə bağlamışam...

**Bəzz qalası. Darvaza tağı üstündə meydança.**

Babək darvaza tağı üstündəki meydançada arxasını daş divara söykəyib hərəkətsiz dayanmışdı, gözləri yuxarıda – təpə üstündəki bir nöqtəyə zillənmişdi, o nöqtəyə ki, orda Tərxanın başı nizə ucunda qaralırdı və Babəkin gözlərini örtən yaş arxasında dağlar dumanlanırdı...

Handan-hana kiminsə bərk-bərk əlini sıxdığını hiss elədi.

Döndü baxdı və Cunayı ayaqları yanında dizi üstə oturmuş gördü. Cunay iki əlilə Babəkin əlindən tutmuşdu və başını Babəkin ayaqlarına söykəmişdi.

Qalanın dərə tərəfdəki hasarları altında bərk hay-küy qopdu. Afşinin qoşunlarından ayrılmış bir dəstə fədai başları üzərində iki qara bayraq, əllərində yalın qılınclar və çiyinlərində bir çox nərdivanlar qala divarına doğru yüyürürdülər.

Səs-küyə Cunay da ayağa qalxdı və nərdivanları qala divarlarına söykənən düşmən fədailərinə tərəf baxdı. Babək yavaşdan dedi:

– Ey Cunay, qardaşım Abdulla ilə Muaviyə burda, içəridə öz istehkamlarında oturublar və hər birinin ixtiyarında 250 döyüşçü var, amma mən onlara əmr etmişəm ki, düşmən bu darvazadan içəri girməmiş, öz yerlərindən çıxmasınlar...

Cunay dedi:



– Ey xudavənd, xürrəmi qızları ölməyiblər, hasarlar üstünə çoxlu daş yığmışıq və neçə-neçə qulplu qazanlarda qətran qaynayır...

**Qaya altı. Lağım ağzı.**

Azinin lağımda mühasirəyə alınmış döyüşçüləri dəstə-dəstə lağımdan çıxardılar və nərə çəkərək düşmən üzərinə atılırdılar. Yuxarıdan qaya üstündən isə başlarına ox yağdırılırdı, buna baxmayaraq, Azin lağım ağzındakı düşmən qüvvələrini geri atmışdı və indi döyüş meydanını getdikcə genişləndirirdi...

Və hər iki tərəfin döyüşçüləri avqust günəşi altında susuzluqdan yanırdılar...

**Dağ təpəsi. Afşinin qərargahı.**

Yerindən tərpənmədən təpə başında kürsü üstündə oturmuş Afşin döyüşün və günorta istisinin şiddətləndiyi bir zamanda, birdən mürgüləməyə başladı, sonra bir an oldu ki, gözləri qapandı və başı sinəsinə düşdü...

Və birdən aşağıda qopan və bütün digər səsləri batıran qorxunc bağırtılardan Afşin diksinib dik atıldı...

Bəzz qalasının dərə tərəfdəki divarları altından gələn bu bağırtılar elə dəhşətli bir ulayışa çevrilmişdi ki, Afşinin müxtəlif yerlərdə pusquda dayanmış ehtiyat hissələri – indi hamısı icazəsiz olaraq yerlərindən çıxdılar, dərələrdən yuxarı qalxan dəstələr ilə təpələrdən aşağı enən dəstələr bir-birinə qarışdı və Afşin gördü ki, ehtiyatla saxladığı qoşunlar hərc-mərclik içərisində çalxanıb nizamsız bir izdihama çevrilməkdədir...

Və Afşin sıçrayıb kürsüsündən ayağa qalxdı və bağırdı:

– Ey Divdad, bu nə çaxnaşmadır?

**Bəzz qalası. Dərə boyu uzanan dilikli qala divarları.**

Dərə tərəfdəki qala divarlarının üstü xürrəmi qızları və gəlinləri ilə dolmuşdu. Və indi onlar nərdivanları aşırılmış və hasar dibində bir-birinin üzərinə yıxılmış düşmən fədailərinin başlarına yuxarıdan dolu kimi daş yağdırır və qaynar qətran dolu qoşaqulplu qazanları bir-birinin ardınca üstdən aşağı boşaldırdılar...

Birdən aşağıdan, hasar dibindən ucalan böyürtü və ulayış elə müdhiş bir nöqtəyə çatdı ki, yuxarıda hasar üstündəki xürrəmi qızları qızları qeyri-ixtiyari ol saxladılar, qorxub bir-birinə qısıldılar, sonra başlarını dik tutub günəşə baxdılar və hamısı bir ağızdan oxudular:

Ulu Şirvinin ruhu, səni gözləmişik,
səni gözləyirik.
Ulu Şirvinin ruhu, bizi bu dünyada,
öz dünyamızda şad et!

**Dağ təpəsi. Afşinin qərargahı.**

Hadisə haqqında Afşinə məlumat verən Divdad dedi:

– ...Və sonra fədailər yenə sənin intizamını pozaraq dərədən qalxıb qalaya hücum ediblər. Və vaxt ki, kafir qövminin qızları onların başına daş yağdırıb və qaynar qətran qazanlarını üstdən aşağı endiriblər, o tayfanın ulayışından bütün qoşun əhli vahiməyə düşüb...

Afşin dodaqlarından qaçan əyri bir təbəssümlə dedi:

– Çox qəşəng, ey Divdad və bundan sonra o möminlər daha öz sarsaq röyaları ilə mənim üstümə gəlməzlər, çünki nəhayət, bu kafiristan dağları Afşinin yox, o möminlərin öz başlarına daş yağdırdı...

Bu zaman çapıb gələn bir mülazim köpüklü atından yerə şıçradı və Afşinə dedi:

– Ya əmir, Azin ilə bizim qoşunlar arasında çox heybətli bir döyüş gedir və su yerinə qan axır və kafirlərdən əsir düşən yoxdur ya ölürlər ya öldürürlər... Və indi bizim qoşunlarda süstlük əlamətləri var, çünki hamı susuzluqdan fəryad edir:

Afşinin üzü tutuldu, qaşları çatıldı:

– Ey Fəzl, dərhal bütün şərabdarları Cəfər ibn Dinarın ixtiyarına göndər, şərbət, su və savik aparsınlar. Yox, bu azdır. Qızıl dinar dolu kisələri də göndər və qoy bütün əmirlər döyüş meydanında rəşadət göstərənlərin hər birinə bir ovuc qızıl dinar bəxş eləsin! Yox, bu da azdır... Cəvarihat dolu sandıqçaları da göndər ki, qolbaqlar, boyunbağılar, üzüklər və bilərziklər döyüşdə fərqlənənlərə paylansın! Yox, bu da azdır. Kilidariya rəisinə de ki, onun fəhlələrindən əlində balta döyüş meydanında görünən hər bir könüllü məndən 100 dirhəm mükafat alacaqdır. Yox, bu da azdır... Ey qulam, atımı çək, mən özüm döyüş meydanına gedirəm...



**Bəzz qalası. Böyük darvaza qarşısında.**

Babək təkbaşına at üstündə darvazadan çıxdı və arxasınca yüyürüb gələn Abdulla ilə Muaviyə, hərəsi bir tərəfdən irəli keçib, Babəkin qarşısını kəsdilər. Babək dedi:

– Çəkilin və yubandırmayın məni! Görüş üçün Afşinin yanına çapar göndərmək və çaparın geri qayıtmasını gözləməyə vaxt yoxdur.

A b d u l l a. Ey Babək, ey qardaşım, bu mümkün olan bir şey deyil ki, sən təkbaşına düşmən qoşunu içərisində düşmən sərkərdəsini axtarasan!

M u a v i y ə. Və səni ki, kölgəndən başqa heç kəs müşayiət etmir... əgər muradın ölümdürsə...

B a b ə k. Nə ölümdən dəm vurursan, ey Muaviyə, mən aman istəməyə gedirəm və bu mənim üçün yüz ölümdən daha betərdir. Lakin Azini xilas etmək üçün Babəkin başqa bir çarəsi qalmamışdır...

Və Babək atını yaxındakı düşmən qoşunlarına tərəf çapdı...

...Yuxarıya, dağ kəndinə qalxan yolda Babək bir dəstə düşmən atlısıyla üz-üzə gəldi və atının cilovunu çəkərək dedi: Göstərin, Afşin hardadır?

Düşmən atlıları dayandılar, qarşılarındakı adama baxaraq gözlərini döydülər, sonra dönüb bir-birinin üzünə baxdılar və heç kəsdən səs çıxmadı.

Babək bağırdı:

– Eşitmədiniz, nə dedim? Dedim ki, mən – Babəkəm, dedim ki, Afşini axtarıram. Ya göstərin, əmriniz hardadır, yaxud yol verin ki, mən yubanmayım.

Düşmən atlıları yenə susdular və Babək atını irəli sıçradanda, hələ də nə edəcəyini bilməyən bu adamlar ixtiyarsız olaraq yarıldılar...

**Qaya altı. Döyüş meydanı.**

Döyüş meydanı tozanaq içində idi, döyüşən tərəflər bir-birindən seçilmirdi, və indi bu tozanaq bağırırdı, fəryad edirdi və toz dumanı içində bir-birinə çarpan minlərlə qılıncların ağzında günəş şüaları gah parıldayırdı, gah sönürdü...

Afşin əlində yalın qılınc at üstündə bu tozanaqdan çıxdı və arxasınca gələn qoşun başçıları dərhal əmiri-ləşgəri ortalığa aldılar. Afşin qana bulaşmış qılıncını, ağ atının boynuna çəkib sildi, sonra qılıncını qınına qoydu və döndü Cəfər ibn Dinara dedi:

– Ya Cəfər, biz ki, burda Babəkin son ümidini mühasirəyə almışıq, əgər bu gün Azin və döyüşçüləri məhv olmasa, bu fürsət bir daha ələ düşməyəcək və qalibiyyət bizdən üz çevirəcək!

Cəfər ibn Dinar dedi:

– Ya əmir, sənin səxavətin bu döyüşü qırğına çevirmişdir və əmin ol ki, hava qaralmamış kəsilən başları yığıb-yığışdırmaq olmayacaq və inşallah qalibiyyət bizimdir.

Divdad qan-tər içində arxadan çapıb gəldi və Afşinə dedi:

– Ya əmir, xəbərlər boş şayiə deyilmiş və o adam doğrudan da Babəkdir.

Afşin gülümsədi:

– Ey Divdad, isti getdikcə şiddət edir və bu dağ günəşi göydən başımıza od ələyir və bu səbəbdən bir çoxları kimi sən də bu gün bir az sorsomləmisən. Məgər bu mümkün olan bir işdirmi ki, Babək təkbaşına mənim qoşunlarım içində məni axtarsın?

D i v d a d. Ya əmir, başına and olsun ki, sözüm həqiqətdir və bu saat Babəkin həyatı təhlükədədir. Çünki arxadakı qoşunun həyəcanı artır və cuşə gəlmiş bir dəstə fədai əllərində yalın qılınc Babəkin arxasınca gəlirlər və kafirə ölüm, deyib bağırırlar.

Bu zaman hardansa, yaxındakı bir təpə üstündən gur bir səsin car çəkdiyi eşidildi:

– Ey müsəlmanlar, agah olun ki, bu dağın canavarı öz yuvasından çıxıb və indi istəyir ki, əmiri-ləşgərə pənah aparsın, amma siz qoymayın ki, o kafir mənzilə çatsın və sığınsın Afşinə, nicat tapsın və əgər bu gün də biz onu qətl eləməsək, qiyamət günü sərvəri-kainat bizdən üz çevirər, vaveyla, ey islam əhli, qeyrət dəmidir, və bilin ki, qiyamət günü də çox uzaq deyil...

Afşin diksindi və dedi:

– Ey Divdad, bu it kimdir ki, məndən icazəsiz mənim qoşunum içində car çəkir?

D i v d a d. Ya əmir, bu haman azançıdır ki, kürəyində yüz taziyanəmin izi var.



Afşin qəzəblə qamçısını atının sağrısına çəkdi və başındakı bütün silahlı qulamları ilə bərabər geriyə çapdı...

**Dağ yolu. Tozanaq.**

Bu tozanaq içində bir-birinə doğru çapan Babək ilə Afşinin atları baş-başa gəlib şahə qalxdılar və Afşin alnının tərini silərək dedi:

– Şükür olsun ki, vaxtında özümü yetirdim. Qəsdin nədir, ey Babək? Özünə müftəcə ölüm axtarırsan, yoxsa bir ordu qarşısında əzəmət satırsan?

B a b ə k. Nə birincidir, ey Afşin, nə ikinci... və Babək hüzuruna gəlmişdir ki, aman istəsin!

Afşinin gözləri parıldadı:

– Və nəhayət ki, sözü söyləməyə dilin gəldi. Və elə bu saat burda, dizim üstə xəlifəyə məktub yazıram və məktubu bərid göyərçini ilə əmirəlmöminə göndərirəm... Amma əmirəlmömininindən cavab gələnə qədər mənə girov lazımdır və kimləri səndən girov istəyirəm, özün bilirsən.

B a b ə k. O adamlar ki, sən məndən girov istəyirsən, bu saat orda, qaya altında cəng edirlər, ona əmr elə görə döyüş dayansın və qoşunların əl saxlasınlar.

Afşin duruxdu, sonra gözləri qıyıldı və dedi:

– Ey Babək, sən xəlifədən aman istəyib sağ qalmaq istəyirsən, yoxsa Azini, son ümidini xilas etmək üçün yol axtarırsan?

B a b ə k. Ya şərtimi qəbul et ey Afşin, yaxud mərd ol və burax məni onların yanına, və qoy Babək öz döyüşçüləri ilə bərabər bir yerdə məhv olsun!

Afşin bağırdı:

– Bilirəm, bu sənin üçün səadət olardı, amma Afşin istəmir ki, səninlə bərabər böyük məramı və son ümidi dəfn olunsun... Ey Divdad, çap Cəfər ibn Dinara de ki, bütün qoşun əl saxlasın və döyüş müvəqqəti dayansın, amma Azin mühasirədə qalsın!

**Qaya altı. Döyüş meydanı.**

Ağır yaralanmış Azin yamacda yıxılmışdı və artıq ayağa qalxmağa taqəti yoxdu...

Uzaqlarda isə ayrı-ayrı kiçik dəstələrə bölünmüş xürrəmilər ilə düşmən qoşunları arasında döyüş gedirdi.

Və indi yamacda, ölənlər və yaralananlar arasında bir xəstə xürrəmi qız gəzinirdi, ağır yaralananlar üzərinə əyilirdilər, son nəfəsində su istəyənlərə su verirdilər. Qızlar içərisində Cunay da vardı, və indi o, əlindəki cürdəkdən axırıncı damcıları bir piyaləyə süzərək Azinin başı yanında diz çökdü. Azin gözlərini açdı, Cunay əyildi, yaralının başını yerdən qaldırdı, lakin Azin başını buladı:

– Əvvəl ona, ey Cunay... Sonra mən də bir qurtum içərəm...

Cunay dönüb baxdı, üç addımlıqda yerə yıxılmış gənc xürrəmini gördü. Əlində piyalə qalxdı, yaralının yanına getdi. Gənc xürrəmi gözlərini açdı, başını qaldırdı və hər iki əlilə piyaləni qamarladı, sonra birdən kimi gördüsə dayandı və dedi:

– Ey bacım, əvvəl ona, o məndən ağır yaralanmışdır.

Cunay döndü üçüncü döyüşçünün yanına getdi, yaralının başını yerdən qaldırdı, döyüşçü gözlərini açdı, Cunaya baxıb gülümsədi və Cunay piyaləni yaralının dodaqlarına yaxınlaşdırarkən, döyüşçünün başı birdən yana əyildi və gözləri qapandı...

Cunay qolu üstə ölənin başını ehtiyatla yerə qoydu, qalxıb ikinci xürrəminin yanına gəldi və gözləri geniş açıldı, ikinci döyüşçü də ölmüşdü...

Cunay döndü Azinin üstünə yüyürdü, Azin artıq nəfəs almırdı...

...Divdad yanında iki nəfər carçı yamacı köndələninə keçdi və Cəfər ibn Dinarın yanına gəldi:

– Ya Cəfər, – dedi, – əmr elə, qoşun cəngi dayandırsın. Çünki Babək aman istəyir və Afşin əmr elədi ki, bütün qoşun əl saxlasın!

Cəfər ibn Dinar ilə Buğa bir-birinin üzünə baxdılar. Sonra Cəfər istehza ilə gülümsəyərək dedi:

– Ey Divdad, artıq gecdir və özün yaxşı bilirsən ki, müharibənin cilovun həmişə əldə saxlamaq olmur və o qızıl kisələrin ki, Afşin bura göndərmişdi, indi mən yox, o kisələr əmr edir qoşuna... Dön, bax, odur fərqanə bölükləri və mənim oxçularım artıq qala divarlarının anrısına aşıblar...

**Bəzz qalası. Böyük darvaza qarşısında.**

Afşin ilə Fəzl atlarını sürərək, Bəzz qalasının böyük darvazasına doğru getdilər. Afşin başını aşağı salmışdı və çox fikirli idi. Fəzl qardaşına dedi:



– Ey qardaşım nə üçün üzün açılmır ki, nəhayət, Babəkin ulduzu söndü və Babək aman istədi və bu sənin çaldığın qalibiyyətlərin ən böyüyüdür...

Afşin başını qaldırdı və dedi:

– Ey Fəzl, ən böyük qalibiyyətim ən böyük bir dağ kimi üstümə uçub və indi mən bu dağ altından çıxmağa yol axtarıram...

Divdad yanında iki nəfər carçı arxadan çapıb gəldi və həyəcan içərisində Afşinə dedi:

– Ya əmir, arxa darvazadan Bəzz qalasına hücum edən Fərqanə bölükləri Cəfər ibn Dinarın döyüşçüləri qalaya girməyə müvəffəq olublar və indi küçələrdə, bağlarda və evlərin içində şiddətli döyüşlər gedir.

Fəzl diksindi və davam gətirməyərək bağırdı:

– Ya əmir və ey qardaşım, heç rəva deyil ki, işin qurtardığı bir zamanda bu Fərqanə bölükləri və yaxud Cəfər ibn Dinarın döyüşçüləri sənin qalibiyyətindən bu qədər çox qapışdırsınlar. Ona görə əmr elə, orradələr irəli çəkilsin və böyük darvaza sındırılsın və bütün ordu Bəzz qalasına girsin və qarətdə hamı müsavi olsun!

...Və dərhal irəli çəkilən iki Ərradə növbə ilə bir-birinin ardınca Bəzz qalasının darvazasına "kəllə vurmağa" başladı və tezliklə darvaza sarsıldı, sonra hər iki layı qopub düşdü və Afşin qoşunlarının başında Bəzz qalasına daxil oldu...

**Bəzz qalası, dik yoxuşlu küçə.**

Xilafət qoşunları bir-birinin ardınca başları üzərində qara bayraqlar, dik yoxuşlu küçə ilə Cavidan qəsrinə doğru hərəkət edərkən, Muaviyə ilə Abdullanın döyüşçüləri öz istehkamlarından çıxdılar və qala içində küçə döyüşü başlandı...

Afşin bağırdı:

– Ey Divad, əmr elə, nəffatinlər irəli keçsinlər!

Və dərhal yanğınçı nəffatinlər dəstəsi irəli keçdi və atəşli neft atan qurğuların ağzını xürrəmilərə tərəf çevirdilər...

...Artıq qaranlıq qovuşmuşdu və Bəzz qalası od tutub yanırdı.

**Gecə. Meşə yolu.**

Gecə idi yaman, Bəzz qalasının işıqlandırdığı meşə cığırında Babək ilə Cunay at üstündə gedirdilər...

Sonra dan yeri ağaranda, səhər açılanda, iki nəfər atlının – Babək ilə Cunayın arxasınca 5 min atlının çapdığı göründü...

Və o vaxt ki, atlarını dördnala çapan Babək ilə Cunayın qarşısına yarğan çıxdı, Babəkin atı yarğan üstündən sıçradı, Cunayın atı isə yarğan qırağında şahə qalxaraq fırlanıb geri çökdü və dərhal düşmən atları Cunayın başının üstünü aldılar və bir nəfər Cunayın atının cilovundan yapışdı...

Babək yarğanın o tayında atının cilovunu çəkdi, sonra geri döndü və Cunaya doğru gəlməyə başladı.

Gözləri geniş açılmış Cunay çağırdı:

– Xudavənd, nə edirsən mən yoxam, xudavənd, görmürsən ki, mən yoxam? Yoxam, mən ey xudavənd və əlvida, ey Babək!

Babək ətrafına baxmadan qoşun cərgələri arasıyla keçərək Afşinin çadırına doğru addımlayırdı və o vaxt ki, əsirlərin yerləşdikləri düşərgələr qarşısına çatdı, birdən hər iki tərəfdən qoşun cərgələri arxasından müsəlman qadınları çığırışmağa və ağlaşmağa başladılar...

Babək diksindi və bir an ayaq saxladı, döndü sağa baxdı, döndü sola baxdı, keçmiş əsirlərini tanıdı, lakin bu qadınların nə üçün ağladıqlarını anlamadı və yenidən qoşun cərgələri arasıyla Afşinin çadırına doğru yönəldi...

Və bu ağlaşma səsinə Afşin öz çadırından çaxarkən düşərgədəki qadınlar artıq sinələrinə daş döyərək elə fəryad qopardılar ki, Afşin davam gətirməyib üzünü qadınlara tərəf tutub bağırdı:

– Ey allahın saçdan uzun, ağıldan naqisləri! Dünən axşam fəryad edirsiniz ki, neçə ildir ki, Babək sizi Bəzz qalasında əsir saxlamışdır və indi haman Babəki əsir görəndə yenə başlamısınız ulaşmağa və görüm bütün cinsiniz lənətə gəlsin!

Düşərgədən ucalan bir qadın səsi Afşinə cavab dedi:

– Ey əmir, o əsirlərlə xoş rəftar edirdi, bizi incitmirdi, bizi ac saxlamırdı və indi ki, onun dar günüdür, qoy Allah özü onun imdadına çatsın!

Afşin dedi:

– Elə isə susun və bilin ki, bir olan uca Allah həqiqətən onun imdadına çatıbdır və burda, bu çadırın astanasında onun fəlakət yolu qurtarır.

Və əsirlər düşərgəsi dərhal kiridi. Babək isə gəlib Afşinin qarşısında dayandı. Afşin bir müddət diqqətlə Babəkin üzünə baxdı, sonra əlini atıb qoynundan qızıl möhürlü bir məktub çıxartdı və dərhal məktubu öpüb gözləri üstünə qoydu, sonra məktubu iki əli üstündə Babəkə uzadaraq dedi:

– Al sən də öp gözlərin üstə qoy və sonra qəbul et nicatını!

Babək qeyri-ixtiyari məktubu aldı və dedi:

– Nədir ki, bu?

A f ş i n. Aç oxu! Əmirəlmöminin sənə göndərdiyi aman kağızıdır. Və doğrusu, mən əmirəlmömindən bunun gözləmirdim və gümanım yoxdu ki, o səni əfv eləsin!

Babək məktubu açmadan Afşinin üstünə atdı və məktub yerə düşərkən dedi:

– Ey Afşin, elə şeylər bəlkə bir gün sənə lazım oldu. Babək isə xəlifələr amanına möhtac deyil.

Ətrafa dərin bir sükut çökdü. Afşin bir an dondu, yerində qaldı. Babəkə zillənmiş baxışlarında heyranlıq və çaşqınlıq bir-birini əvəz edirdi.

Sonra birdən Afşin diksindi və cəld əyildi, məktubu yerdən qaldırdı, yenidən öpdü və gözü üstə qoydu və bütün qoşun eşitsin deyə, uca səslə bağırdı:

– Ey Allahın bəlası, indi ki, öz nicatını özün rədd etdin, yürü son mənzilinə-ölümünə doğru! Amma bir daha dinlə məni, Babək xürrəmi, yaxud Babək şad ürəkli. O dəhşət ki, səni gözləyir, qırılacaq iradən, sarsılacaq şir ürəyin! Və tamam! Vidalaş bir nəfərlə! Sonra arxamca at çapacaqsan gecə-gündüz, ta xəlifənin hüzuruna qədər...

Afşin dönüb getdi, hamı çadırdan çıxdı və Buğday çadır ağzında göründü.

Babək uzun bir sükutdan sonra:

– Mən Afşinə demişdim ki, Bəzz qalasının xarabasını mənə göstərsin, – dedi, – son dəfə vidalaşmaq üçün... Nə üçün o səni, miskin bir [illegible]

əqidənə, döyüş yoldaşlarına xəyanətdən sonra, nə üzlə özünü mənə göstərirsən.

Buğday :

– Ata, sən həmişə mənə qarşı zalım olmusan, – dedi.

– Mənə daha artıq irad tutmaq olardı, – dedi Babək, – çünki mən tuluqda zeytun yağı satan bir kişinin oğlu idim. Amma sənin atan

Buğday çıxdı və o saat çadır arxasında səs-küy qopdu.

Afşin içəri gələrək:

– İndi oğlunla həmişəlik vidalaşa bilərsən – dedi. Mühafizə nəfərinin kəmərindən xəncəri qapıb öz həyatına qəsd elədi. Ölümcül yaralanmış Buğdayı içəri gətirdilər. Buğday:

– Alın yazım belə imiş ata, keç günahımdan, bağışla məni.

Babək dizi üstə yerə yıxıldı, Buğdayın başını qaldırıb dizləri üstə aldı...

**Samirə şəhəri. Uzun küçə – baş xiyaban.**

Uzun küçə, yaxud baş xiyaban izdihamla dolmuşdu.

Və bu izdiham qarşısında xəlifənin atlı qoşunları küçənin sağında və solunda iki sıraya düzülmüşdülər və hamısının əllərində uzun nizələr vardı və bütün nizələrin uclarında kiçik qara bayraqlar dalğalanırdı.

Birinci olaraq bu qoşun arasıyla Afşinin bəzənmiş ağ bir at üstündə gəldiyi göründü, başında qırmızı yaqut və yaşıl zümrüdlərlə naxışlanmış qızıl bir tac vardı, boynundan bir-birinin üstündən iki həmayıl asılmışdı, qulaqlarında iri sırğalar əynində üstü qızıl tellərlə işlənmiş geyimi vardı...

Sonra bu qoşun arasıyla çox böyük gövdəli bir fil üstündə Babəkin hərəkət etdiyi göründü. Filin üstünə yaşıl və qırmızı qumaşdan çul salınmışdı və bütün gövdəsi ipək parçalarla bəzənmişdi və fil üstündə oturmuş Babək də indi şahanə bir qiyafədə idi, başında mirvari və incilərlə işlənmiş xəz haşiyəli şiş bir papaq, əynində isə zərli-zibalı bir libas vardı...

Daha sonra qoşun arasıyla irəlilədikcə dingildəyən, taytıyan, atılıb-düşən bir dəstə əyiş-üyüş adam göründü, bunlar hamısı Bəzz qalasının hasarlarına dırmaşarkən xürrəmi qızları və gəlinləri tərəfindən şikəst edilmiş fədailər idi ki, indi filin arxasınca düşüb əl çalır, rəqs edir və hamısı bir ağızdan avaz ilə oxuduqları şerin hər bəndindən sonra bağırırdılar:

– Ay Azəristan qaplanı! Ey Xorasan şeytanı!

Və qırmızı fil, arxasınca bağırışanlara məhəl qoymadan, ağır-ağır qara bayraqlar arasıyla addımlayırdı.

**Xəlifə Mötəsimin sarayı.**

Xəlifə qoca katibə fəthnamə diqtə edir, katib yazırdı.

– Yaz! Fəthnamə. Əmirəlmömininindən kainatın bütün islam hökmdarlarına! Bilin və agah olun ki, biz bir olan Allahın köməyi ilə şimal iqliminin hökmdarını, Rum imperatorunun xəlifələrindən tanrı düşməni Babək Xürrəmdini məğlubiyyətə düçar elədik, əsir aldıq və edam üçün qolları bağlı hüzurumaza gətirdik!

– Necə dedin, ya əmirəlmöminin? – deyə katib təəccüblə Mötəsimə baxdı – Rum imperatorunun xəlifələrindən?

Mötəsim:

– Düz eşitmisən, qoca, – dedi, – Daha başqa cür dünyaya car çəkib deyə bilmərik ki, iyirmi ildən ziyadə davam edən qanlı müharibələrdən sonra dünənki dağ çobanını karvan qatarçısını çılpaqların və dinsizlərin başçısını məğlubiyyətə uğratmışıq.

Sonra xəlifə "ceyran göz" pərdəni kənara atıb böyük salona keçdi, əyanlar dərhal yerə döşənib yer öpdülər.

**Xəlifə Mötəsimin sarayı. Böyük salon.**

Sarayın ən zinətli salonunda xəlifə Mötəsim taxt üstündə türksayağı bardaş qurub oturmuşdu. Sağında Afşin, solunda xilafətin baş qazisi qoca Əbu Davud ayaq üstündə dayanmışdılar. Daha aşağıda bütün saray ağaları və əyanları sağda və solda bir-birinin yanında düzülmüşdülər.

– Səninləyəm, ey məlun! Və cavab ver mənə, Babəkdirmi sənin adın?

Babək yenə dinmədi. Xəlifə gözlədi və Afşin davam gətirməyərək fəryad elədi:

– Vay olsun sənə ey Babək, eşitmirsən ki, əmirəlmöminin səndən söz soruşur?!

Babək sanki bütün həyatına yekun vuraraq dedi:

– Mən Babək idim və yenə Babəkəm, və Babək olaraq qalacağam!

Xəlifə dedi:

– Ey Allahın bəlası, sən bir iş gördün ki, bu vaxta qədər heç kəs o işi görə bilməmişdi, və indi elə bir əzaba dözməlisən ki, indiyə qədər ona dözmək heç kəsin əlindən gəlməmişdir. Və bununla da sənin dəhşətli dastanına son qoyulacaq!

Babək dedi:

– Ey kor yapalaq, bütün müstəbidlər kimi sən səhv edirsən, çünki mənim dastanım elə bir dastandır ki, nə Babəklə başlanmışdır nə də Babəklə qurtaracaq.

Sonra Babək yenə dedi:

– Ey yazıqlar, siz heç vaxt dərk etməyəcəksiniz ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir. Azadlıq. İstər o şirin olsun, istər acı – yalnız o idi mənim səcdəgahım! Və bu müstəbid ki, məni öldürür, o da heç vaxt anlamayacaq ki, ölümü ilə azadlıq fədaisi büsbütün məhv olmur.

Xəlifə sıçrayıb ayağa qalxdı və bağırdı:

– Ey camaat, nəyi gözləyirsiniz? Didin onun əynindəki bu zərzibanı və qoy bu baldırıçılpaq yenə öz cın-cındırında qalsın!

Və bütün saray əyanları yerlərindən qopub hamısı birdən Babəkin üstünə hücum etdilər...

Sonra bu adamlar geri çəkiləndə Babəkin üstündəki bütün zərlizibalı libas artıq cırılıb-didilib ayaqları altına tökülmüşdü, başı açıq qalmışdı və əynindəki öz köynəyi də didik-didik eləmişdi...

Xəlifə əlini əlinə vurdu və dərhal sol tərəfdəki "ceyran göz" pərdə sıyrıldı və bu pərdə arxasından çıxan qırmızı paltarlı cəllad əlində qılınc Babəkə doğru gəldi.

Xəlifə əlini qaldırdı və dedi:

– Dayan! Bir cəllad azdır onun üçün. Və onun ki, öz cəlladı burda əsirlər içindədir, əlinə qılınc verin, o da gəlsin.

Qapı ağzında dayanmış Hacib dönüb getdi və bir azdan əlinə qılınc verilmiş ikinci cəllad içəri gəldi. Sonra colladlardan biri Babəkin sağında, digəri solunda dayandı.

Və xəlifə taxtdan düşüb Babəkin qarşısına gəldi və hər iki cəllada təlimat verməyə başlayaraq dedi:

– Birinci sən – sağ əlin, bir az biləyindən yuxarıdan! İkinci sən, – sol qolun, bir az dirsəyindən aşağıdan! Sonra yenə sən, – sağ ayağın, topuğundan, bir qarış yuxarıdan! Və dübarə sən, sol ayağın dizindən bir qarış aşağıdan! Və yenə sən, – kafir dilin! Sonra yenə sən burdan, soldakı və aşağıdakı iki qabırğa altından qılıncı burcuda-burcuda yuxarıya doğru elə yeritməlisən ki, qılıncın ucu düz ürəyində oynasın! Və nəhayət sən, – qarşımda əyilməyən bu cürətkar başın!

Xəlifə bir an susdu, fikrə getdi, sonra öz cəlladına dedi:

– Ey kişi, yadındadırmı, Əbu Sərəyyanı qətl edəndə, o xəbis nə cür fəryad elədi?

C ə l l a d. Heç yadımdan çıxarmı, ya əmirəlmöminin, çünki o məlunun bağırtısından, bir il qulaqlarım kar oldu və o gecə cəmi şəhərdə yuxudan oyanmamış bir nəfər müsəlman qalmamışdı.

X ə l i f ə. Bəs elə isə, mənə yenə Əbu Sərəyya fəryadı lazımdır.

C ə l l a d. Və inşallah, sən yenə Əbu Sərəyya fəryadı eşidəcəksən, ya əmirəlmöminin!

Cəlladlar Babəkin sağ və sol qolundan yapışdılar, Babək çiyni ilə hər ikisini kənara atdı və özü keçdi, "ceyran göz" pərdə arxasında yerə sərilmiş edam xalçası üstündə dayandı.

Cəlladlar Babəkin arxasınca getdilər və "ceyran göz" pərdə qapandı...

İndi pərdənin hər iki tərəfində elə bir səssizlik vardı ki, hamı salonda vurnuxan yaşıl bir milçəyin vızıltısını eşidirdi və bu yeknəsək vızıltıdan xəlifə qeyri-ixtiyari olaraq dalbadal əsnədi və nəhayət mürgüləməyə başladı...

Birdən pərdə sanki diksindi, ipək parça üstündən xəfif bir titrəyiş keçdi və aşağıda pərdənin ağ saçaqlı ətəkləri tünd qırmızıya boyandı.

Və indi xəlifədən savayı hamının gözləri bu qızaran saçaqlara zillənmişdi və qara-qırmızı xallar sağa və sola yayılaraq, pərdə ətəyini naxışlayırdı...

Afşinin gözləri isə yanırdı və ağ saçaqlar qırmızıya boyandıqca, əsən dodaqları ixtiyarsız olaraq pıçıldayırdı:



– Laçınım, igidim və qardaşım... Sən gedirsən, mən tək qalıram. Əl uzatdım sənə, qəbul eləmədin, aman aldım xəlifədən sənə, rədd elədin. Nə üçün özünü özündə gizləmədin?

Və qan qoxusundan məst olan yaşıl milçək havada çırpınıb xəlifənin alnına qondu. Xəlifə diksindi, mürgüdən oyandı, milçəyi qovdu və üzünü pərdəyə tərəf tutub uca bir səslə dedi:

– Nə oldu, ey cəhənnəm zəbanələri, başlamadınız?

Dərhal hər iki cəllad əllərində qırmızı qılınclar pərdə qarşısına çıxdılar, xəlifəyə baş əydilər və birinci cəllad dedi:

– Qurtardıq, ya əmirəlmöminin və Allah sənin ömrünü uzun eləsin!

Xəlifə ayağa sıçradı:

– Ola bilməz! Mən çibin vızıltısı eşitdim, – Əbu Sərəyya fəryadı eşitmədim.

Hər iki cəllad başlarını aşağı saldılar və xəlifənin cəlladı dedi:

– Başımız aşağı, üzümüz qaradır, ya əmirəlmöminin, çünki kafir bənd-bənd doğrandı, amma kip dodaqlarından nə ün çıxdı, nə ənin...

Mötəsim bağırdı:

– İnanmıram! Ey Hacib, pərdəni qaldır!

Hacib yüyürüb "ceyran göz" pərdəni sıyırmışdı ki, bu vaxt bir dəstə əgiş-ügüş adam təkbir sədalarıyla salona doldular və dərhal siyrilmiş pərdə arxasına cumdular və orda edam xalçası dövrəsində hamısı diz çökdülər və "dəstəmaz" almağa başladılar...

Gözlərini döyən xəlifə yenidən bağırdı:

– Ey Hacib, bu məxluq kimdir və nə edir bu adamlar?

Və əgiş-ügüş adamlar hamısı birdən ayağa qalxıb xəlifəyə sarı döndülər və Mötəsim ixtiyarsız olaraq bu adamlar qarşısından bir addım geri çəkildi – çünki bu şikəst adamların hamısının əlləri qanlı, üzləri qanlı və saqqalları qanlı idi və onlardan biri gülümsəyərək xəlifəyə dedi:

– Ya əmirəlmöminin, biz fədailərik ki, kafiristan dağlarında kafir qövminin övrətləri başımıza daş yağdırıb, bizi kor etdilər, şil etdilər, şikəst etdilər və o vaxt biz də əhd eləmişdik ki, gərək bir gün kafir Babəkin qanı ilə dəstəmaz alaq...

Salonun uzaq küncündə bir-birinə qısılmış bir neçə oğlan uşağı vardı, və indi onlardan ən kiçiyi üzləri qanlı adamlardan qorxub ağlamağa başladı.

Hamı döndü, uşaqlara tərəf baxdı və bu əgiş-ügüş adamlar içərisindəki qanlı üzündə gözləri parıldayan azançı bağırdı:

– İlan balaları! İlan balaları hələ sağdırlar.

Xəlifə dedi:

– Ey cəfakeş möminlər, siz haqlısınız! Və ey cəhənnəm zəbaniləri o ilan balalarını da məhv edin ki, Babək nəslindən bu dünyada əsər-ələmət qalmasın!

Xilafətin baş qazisi qoca Əbu Davud dəhşətə gələrək bağırdı:

– Dayan, ya əmirəlmöminin, çünki onlara ölüm düşmür.

Xəlifə diksinib geri döndü:

– Ya Əbu Davud sən islamın baş qazisi, kafir balalarını qanadın altında alırsan?

Qoca qazı xəlifə qarşısında diz çökdü, lakin möhkəm bir səslə dedi:

– Ya əmirəlmömininin, mən İslamın baş qazisi, bir olan Allaha sığınıb bir daha deyirəm ki, o kiçik yaşlı uşaqlara ölüm düşmür.

– Mötəsim boğuldu və nə deyəcəyini bilməyərək dartdı köynəyini əynindən çıxartdı və qıllı bədəni açıqda qaldı və xəlifə çığırdı:

Ya Əbu Davud, necə ki, bu köynəyi əynimdən çıxartdım, eləcə də səni baş qazilik vəzifəsindən çıxarıb rədd edirəm...

– Üzü qanlı azançı gülümsəyərək dedi:

– Ya əmirəlmömininin, baş qaziyə zülm etməkdən nə hasil ki, özün qəflət yuxusundasan və sən öz qanadın altındakı kafirdən xəbərin yoxdur.

Heyrətdən xəlifənin ağzı bir müddət açıq qaldı, sonra xırıldadı:

– Ey bədheybət, indi ki, sənin əcəlin yetib – çünki əmirəlmöminə böhtan atırsan, əvvəlcə de görüm sən özün kimsən?

A z a n ç ı. Ya əmirəlmöminin, mən o azançıyam ki, kafir Babəkin casusunu öldürmək istədiyim üçün sənin kafir əmirin mənə 300 taziyanə vurdu və əgər indi mən köynəyimi də çıxartsam, kürəyimdə kafir əlilə çəkilmiş 300 qırmızı rəsm görərsən.

M ö t ə s i m. Mənim kafir əmirim? Və göstər o əmir kimdir, əgər istəmirsən ki, başın kəsilib itlərə atılsın!

A z a n ç ı. Ya əmirəlmöminin, başına tac qoyduğun, boynundan həmayillər asdığın bir kafiri barmaqla göstərməyə ehtiyac varmı?

M ö t ə s i m. Afşin?! Ey bədbəxt, sübut!

Azançı qoltuğundan çıxartdığı bir məktubu xəlifəyə uzatdı:



– Sübut üçün bu məktubun təkcə bir cümləsi kifayətdir. Bəzz qalasında Babəkin qəsrini qarət etdiyimiz vaxt əlimə keçdi... Oxu və gör ki, sənin bu atəşpərəst əmrin tanrı düşməni Babəkə nə hiylələr, nə dəsisələr öyrədir...

Mötəsim əlində məktub döndü və Afşinə dedi:

– Ey Afşin, oxuyum?

Ayaq üstündə durmağa taqəti qalmamış Afşin xəlifənin ayaqlarına qapandı və qorxunc bir səslə fəryad elədi:

– Əl aman, ya əmirəlmöminin, əl aman! Və öldür məni, amma oxuma!

Xəlifə əyri bir təbəssümlə gülümsədi:

– Və nəhayət ki, bu gün Əbu Sərəyya fəryadını eşitdim!

**Yeraltı zindan. Gecə.**

Divardakı taxçada, çox yuxarıda qara bir çıraq tüstüləyirdi. Saçı-saqqalı bir-birinə qarışmış, ordları batmış, gözləri çuxura düşmüş Afşin birdən diksindi və uzandığı küləş üstündən dik atıldı və dəli bir ifadə almış gözləri zindanın kəllə divarına zilləndi...

Orda yenə Babəkin xəyalı zahir olmuşdu...

Və Afşin dizin-dizin o xəyala doğru sürünməyə başladı və qara qızdırmaya tutulmuş kimi gah pıçıldadı, gah səsin ucaltdı:

– Yenə gəldin, və hər gecə gəlirsən, və bir tikə çörək gətirmirsən və bilirsən ki, bütün günümün cirəsi bir qırıq cad əppəyidir və görürsən ki, o əlcənin də hər gün bir az qırağından kəsirlər və hər gün mənim alçaq yalvarışlarım artır və hər gecə öz nələmdən öz qulaqlarım batır və cücülər rəhmə gəlib məni ziyafətə çağırır, amma cəlladım bu cücü ziyafətini də mənə çox görür və hər axşam, hər səhər əlində yoluq bir süpürgə gəlir və qarabığlar yan-yörəmədə qaynaşanda o halal ruzimi qapıb əlimdən alır və indi inan ki, mən dəli olmamışam və bilirəm ki, sən də yox olmamısan və o zaman ki, sən ölüm bataqlığına qədəm qoydun, dirilmiş ayaqların altından qalxıb hüzurunda durdu və sənin ki, ruhun cismin uğrunda alış-veriş etmədi və mənim ki, ruhum özünü müzayiədəyə qoymuşdur ki, cismimi xilas eləsin və mən ki, gecəli-gündüzlü bu barədə çox düşünmüşəm, nəhayət, bu gecə sənə elan edib bildirirəm ki, mən şirə oxşayırdım, amma şir deyildim. Mən çox qələbə çaldım, amma qəhrəman deyildim, mən böyük üsyan hazırladım,

amma üsyankar deyildim və indi ey böyük kölgə, mən ki, ölmək istəmirəm, amma çoxdan ölmüşəm, niyə gəlmisən və nə istəyirsən ki, mən artıq özüm iyrənmişəm öz ölümümdən...

Və Afşinin başı zindanın daş divarına dəydi, Afşin dərindən içini çəkdi, başını geri atdı, iri gözləri bir an geniş açıldı, yuxarıda taxçadakı qara çıraq qırmızı bir tüstü içində boğuldu və sonra Afşin arxası üstə yerə sərilərkən, sönən şüurundan son səhnələr süzüldü:

Babək qırmızı çullu bir fil üstündə qara bayraqlar arasıyla yol gedirdi...

SON.



## KİTABDAKILAR

*"Nəsrin şairi"* (*Bəkir Nəbiyev*) ........ 4
*Ənvər Məmmədxanlının Babək dastanı* (*Anar*) ........ 8

### HEKAYƏLƏR

Bakı gecələri ........ 15
Ayrıldılar ........ 56
Buz heykəl ........ 80
Ananın ölümü ........ 83
Ay işığında ........ 88
Karvan dayandı ........ 99
Qızıl qönçələr ........ 116
Baş xiyabanda ........ 125

### ROMAN

Babək ........ 131

**ƏNVƏR MƏMMƏDXANLI**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

"AVRASİYA PRESS"
BAKI-2005

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Azər Quliyev*

Korrektor : *Rəhilə Quliyeva*

Yığılmağa verilib 01.11.2004. Çapa imzalanıb 04.05.2005
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 107.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.